**Azərbaycan Milli Elmlər Akademiyası**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

**ƏLİZADƏ ƏSGƏRLİ**

# HEYDƏR ƏLİYEV:
## *dünya sivilizasiyasında elit şəxsiyyət*

**"Elm və təhsil"**
**Bakı – 2023**

*Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 22 iyun 2023-cü il tarixli 4 saylı iclasının qərarı ilə çapı tövsiyə edilib.*

**Ön sözün müəllifi və elmi redaktor:** **İsa Həbibbəyli**
*akademik*

**Rəyçilər:** **Rahid Ulusel**
*fəlsəfə elmləri doktoru, professor*

**Aygün Bağırlı**
*filologiya üzrə dəlsəfə doktoru, dosent*

***Əlizadə Əsgərli.*** **HEYDƏR ƏLİYEV: dünya sivilizasiyasında elit şəxsiyyət.** ***Bakı, "Elm və təhsil", 2023, 456 səh.***

2023-ci il "Heydər Əiyev İli"dir. Kitab Azərbaycan xalqının Ümummilli lideri, müstəqil milli dövlətin qurucusu, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib.

Heydər Əliyev tarixin fenomen şəxsiyyətidir. Dünyanın dövlət və siyasi-ictimai xadimləri onu qəbul edib, ondan yazıb, haqqında qiymətli fikirlər söyləyiblər. Dünya sivilizasiyasında elit şəxsiyyət kimi tarixi ad qazanmış Heydər Əliyev ictimai-humanitar sahənin fikir və düşüncə adamlarının da elmi-tədqiqat obyekti, KİV-in qüdrətli təbliğat mənbəyi olub. Ümumən, publisistika və jurnalistika məktəbinin görkəmli nümayəndələri də bu böyük rəhbərdən qürurla söz açıb, haqqında fəxarətlə yazıblar.

"HEYDƏR ƏLİYEV: dünya sivilizasiyasında elit şəxsiyyət" adlı kitab zəngin faktlara, informasiyaya əsaslanıb və Heydər Əliyevin dünyadakı nadir şəxsiyyətini və dühasını təcəssüm etdirib. Kitabda dünya sivilizasiyasının reallıqları, onu şərtləndirən və formalaşdıran amillər göstərilib, siyasət, diplomatiya, liderlik, habelə, iqtisadiyyat və mədəniyyət sahəsində Ümummilli liderin Şərq və Qərb sivilizasiyalarına verdiyi töhfələr və dünyanın tarixi-siyasi şəxsiyyətlərinin Ulu öndərə verdikləri bəşəri qiymət təcəssüm olunub. Kitabda qurucu və yaradıcı milli lider İlham Əliyevin siyasi irs və varislik sahəsində tarixi uğurları, əməli fəaliyyətinə verilən qiymət və haqqında söylənilən dəyərli fikirlər ümumiləşdirilib.

Bu elmi-filoloji kitab tədqiqat müəssisələri, orta və ali məktəblər, siyasi-ideoloji dərslər və tarixi lektoriyalar üçün əhəmiyyətli vəsait, dəyərli salnamədir. Heydər Əliyev dərsləri üçün tədris proqramıdır. Azərbaycan insanının dövlətçilik təfəkkürünün formalaşdırılması və zənginləşdirilməsində elmi-nəzəri və praktik qaynaqdır. Gənc nəsillərin Heydər Əliyev nümunəsində təlim-tərbiyəsində yönləndirici məfkurə sənədidir.

4602000000
N-98-2023 qrifli nəşr

© ***"Elm və təhsil", 2023***
© ***Əlizadə Əsgərli, 2023***

**Azərbaycan xalqının Ümummilli lideri,
müstəqil Azərbaycan dövlətinin qurucusu,
görkəmli dövlət və siyasət xadimi
Heydər Əliyevin anadan olmasının
100 illiyinə həsr olunur**

**“Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə,
bir o qədər zəngin olur, çünki onların hər biri
ümumdünya mədəniyyətinə
və sivilizasiyasına öz töhfəsini verir”**

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının***
***Ümummilli lideri***

**“Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni  həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır”**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

**“Xalqımızın müəyyən bir dövrü, tarixi və taleyi Ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, həyatının bütün dövrlərində həmişə öz xalqı ilə birlikdə olmuş, onun bir millət və dövlət kimi inkişafı naminə həyatını belə əsirgəməmişdir. Uzun illər Azərbaycan KP MK-nın birinci katibi, sonradan isə Prezident kimi 30 ildən çox respublikaya rəhbərlik etmiş, yeni , müstəqil Azərbaycanın qurucusu kimi tarixə daxil olmuşdur.**

**Heydər Əliyev böyük siyasi lider, müdrik bir insan olaraq tarixi hadisələrin gedişatını əvvəlcədən müəyyən etməyin mahir bilicisi və böyük ustası idi. O məhz bu nadir keyfiyyətləri ilə millət, tarix və dövlətçilik üçün böyük əhəmiyyət daşıyan qərarların qəbul edilməsində əsl vətəndaş, dahi rəhbər mövqeyi nümayiş etdirdi.**

**Respublikanın ən ağır dövründə Prezident və Ümummilli lider missiyasını bir daha zəfərlə yerinə yetirdi: ölkədə sabitliyi bərqərar etdi, yeni Konstitusiya yaratdı, bir çox xarici ölkələrlə vacib, taleyüklü sazişlər və müqavilələr bağladı, uşaqların, qocaların, qaçqın və köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılmasına yönəlmiş fərmanlar imzaladı. İndi inamla söyləmək olar ki, məhz Heydər Əliyev Azərbaycanı demokratiya və müstəqillik yoluna çıxardı. Çox şübhəsiz ki, bu yol tarixdə yalnız onun adı ilə bağlı qalacaqdır. Heydər Əliyev işıqlı təfəkkür, çevik düşüncə, müdrik zəka sahibi idi”.**

***Mehriban Əliyeva***
***Azərbaycan Respublikasının***
***vitse-prezidenti***

**“Azərbaycan Respublikasında
2023-cü ilin “Heydər Əliyev İli”
elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı**

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zaman-

da xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qoru-

mağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.
Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

## Heydər Əliyevin dövlətçilik təlimi və müasir dünya

Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü *(1969-1986),* mürəkkəb keçid prosesləri *(1987-1990),* Azərbaycanın dövlət müstəqilliyi mərhələsi *(1991-2003)* kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr əslində çox mənalı və ibrətamiz məktəbdir. Bu təlim beynəlxalq siyasi aləmdə və Azərbaycanda özünəməxsus xüsusi yeri və əhəmiyyəti olan, tarixə düşən, hər yeni tarixi mərhələ üçün aktuallıq və müasirlik kəsb edən həmişəyaşarlıq qazanmış Heydər Əliyev siyasi məktəbi kimi özünü təsdiq etmişdir. Eyni zamanda, Heydər Əliyevin qiymətli siyasi irsi*: məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar və sərəncamlar,* hətta verdiyi *tapşırıq və tövsiyələr* küll halında həmin böyük siyasət məktəbinin möhtəşəm və mötəbər dərslikləridir. Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin simasında böyük, əbədiyaşar *siyasətin nəzəriyyəsi* və *təcrübəsi* bütün zənginliyi ilə vahid məcrada birləşir.

Heydər Əliyev *siyasi kursu* bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir.

Heydər Əliyev siyasi kursu – qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin dövlətçilik təlimidir.

Heydər Əliyev siyasi kursu – milli dövlətçilik təliminin strategiyasından və xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi.

Heydər Əliyev siyasi kursu – xalqı bir yumruq kimi birləşdirən, yaşadan, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir.
Heydər Əliyev siyasi kursu – müstəqillik qazanmış ölkələrin dövlət quruculuğu üçün sınaqlardan çıxmış modeldir.

Nəhayət, Heydər Əliyev siyasi kursu – cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir.

Böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini *milli dövlətçilik* təlimi təşkil edir. Böyük dövlət xadimi Heydər Əliyevin uğrunda mübarizə apardığı, əməli fəaliyyəti ilə əsas konturlarını müəyyən etdiyi milli dövlətçilik təliminin əsasında *Azərbaycançılıq məfkurəsi* dayanır. *Azərbaycançılıq* – ümumtürk köklərinə bağlı olan milli məfkurə-

dir. Heydər Əliyevə görə *Azərbaycançılıq* – müstəqil dövlətin daxilində ümumxalq həmrəyliyini təmin edən vahid Vətən idealının təcəssümüdür. Bütövlükdə *Azərbaycançılıq* – müstəqil dövlətin qurulub möhkəmləndirilməsi fəlsəfəsini əks etdirir, Heydər Əliyev siyasi kursunun tac damarıdır. Müstəqil Azərbaycan isə böyük ideallara və universal zəkaya malik olan Heydər Əliyev dühasının şah əsəridir.

Azərbaycançılıq məfkurəsini publisistikaya XIX əsrin axırlarında *Məhəmmədağa Şahtaxtlı*, ədəbiyyata XX əsrin əvvəllərində *Cəlil Məmmədquluzadə*, milli siyasətə, yüksək dövlətçilik təlimi səviyyəsinə isə XX yüzilliyin sonlarında qüdrətli siyasi xadim *Heydər Əliyev* gətirmişdir. Məhz Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində Azərbaycançılıq təlimi müstəqil Azərbaycanın dövlətçilik ideologiyasına çevrilmişdir. Bu görkəmli dövlət xadimi ilk dəfə olaraq dünya azərbaycanlılarını böyük siyasətinin cazibəsində vahid Vətən amalı ətrafında birləşdirmişdir. Dünya azərbaycanlılarının qurultayları milli tariximizə Azərbaycan xalqının dünyanın müxtəlif qitələrinə səpələnmiş nümayəndələrinin Heydər Əliyev forumu kimi daxil olmuşdur. *«Hamımızın bir vətəni var. Bu – Azərbaycandır!»* kimi Ata sözünə çevrilmiş müdrik kəlamın da müəllifi Heydər Əliyevdir. *Dünya Azərbaycanlıları ilə iş üzrə Dövlət Komitəsi* məhz Heydər Əliyevin milli dövlətçilik strukturuna daxil etdiyi qurumdur. Xarici ölkələrdə *Azərbaycan diasporunun* formalaşdırılması, *milli lobbiçilik* hərəkatının başlanması və inkişaf etdirilməsi də Heydər Əliyevə aid olan tarixi xidmətlərdir. Heydər Əliyev 50 milyonluq dünya azərbaycanlılarının lideridir. Bütün bunlara görə Heydər Əliyevin azərbaycançılıq təlimi tarixi dəyərlərlə müasir inkişafı özündə üzvi surətdə birləşdirir.

Heydər Əliyev siyasi kursunun ana maddəsi *xalqımızın dövlət müstəqilliyi* ideyasının gerçəkləşdirilməsindən ibarətdir. Uzaqgörən dövlət xadimi kimi o, hələ sovet hakimiyyəti illərindən etibarən Azərbaycanın dövlət müstəqilliyinə doğru düşünülmüş qəti addımlar atmışdır. Böyük siyasi-ideoloji çətinliklərə baxmayaraq, 1978-ci ildə *Azərbaycan dilini dövlət dili kimi Azərbaycan Sovet Respublikasının Konstitusiyasına daxil etməsi* Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz tarixi xidmətlərindəndir. Vaxtilə Cəmşid Naxçıvanski adına *Hərbi Liseyi* təşkil etməsi böyük gələcək naminə milli hərbçi kadrlarının hazırlanması üçün baza yaratmağa hesablanmış uzaqgörən addımdır. Azərbaycan xalqının tarixində və taleyində böyük yer tutmuş görkəmli şəxsiyyətlərin - Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun, Mirzə Ələkbər Sabirin, Səməd Vurğunun və başqalarının yubileylərinin dövlət səviyyəsində təşkili də ölkəmizdə milli

ideyaların genişləndirilməsi, xalqın özünüdərk proseslərinin dərinləşdirilməsi məqsədini izləmişdir. Beləliklə, Heydər Əliyevin Sovet hakimiyyəti illərində həm *milli şüurun*, həm də *milli kadrların* formalaşdırılması istiqamətində apardığı ardıcıl çoxcəhətli işlər, həyata keçirdiyi məqsədyönlü dövlət siyasəti xalqımızı gələcək müstəqilliyə hazırlamağa xidmət etmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra görkəmli dövlət xadimi Heydər Əliyevin çoxcəhətli siyasi fəaliyyəti daha geniş miqyas almış, sistemli, ardıcıl və açıq xarakter daşımışdır. 1990-cı ilin sərt qış günlərində *Moskvadakı Azərbaycan Daimi Nümayəndəliyinə* gələrək respublikada 20 yanvar faciəsi törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən qətiyyətli bəyanatla çıxış etməsi Heydər Əliyevin yeni tarixi epoxanın başlanğıcında müstəqillik uğrundakı mübarizəsinin parolu kimi böyük əhəmiyyət kəsb edir. Bundan sonra taleyin hökmü ilə doğulub boya-başa çatdığı *Naxçıvanda yaşayıb-işləməsi* onun doğma xalqının dövlət müstəqilliyi uğrunda mübarizəsinə rəhbərlik etməsinə meydan açmışdır. *Qarabağ savaşının* çətin, mürəkkəb dövründə o, Naxçıvan Muxtar Respublikasının əhalisini öz ətrafında birləşdirərək Azərbaycanın bu qədim diyarının erməni işğalına məruz qalmasının qarşısını almışdır. Heç tərəddüd etmədən demək olar ki, bədnam Ermənistanın təcavüzündən xilas olunmuş Naxçıvan Muxtar Respublikası Heydər Əliyevin müstəqil Azərbaycana mühüm ərməğanı, böyük xidmətidir. Naxçıvan parlamentində böyük öndərin sədrliyi ilə 1990-cı ildə əsas milli dövlətçilik atributu olan *üçrəngli bayrağın Azərbaycan Respublikasının dövlət rəmzi kimi qəbul edilməsi* müstəqillik dövrü tariximizin ən şanlı hadisələrindən biridir. Onun təşəbbüsü sayəsində Naxçıvanın muxtariyyat statusunu ifadə edən keçmiş formatdan «Sovet Sosialist» sözlərinin çıxarılması yalnız və yalnız müstəqilliyə xidmət edən ciddi siyasi hadisədir. Naxçıvanda mövcud olan sovet ordusu hissələrini dinc yolla tərksilah etməsi, həmin ordu birləşmələrinin mülkiyyətini, silah-sursatını qansız-qurbansız Muxtar Respublikanın balansına keçirməsi, *milli ordunun təməlini qoyması* müstəqillik uğrunda mübarizədə Heydər Əliyevə məxsus qəhrəmanlıqlardır. Nəhayət, Naxçıvanda çalışdığı illərdə 31 dekabrın *Dünya Azərbaycanlılarının Həmrəylik Günü* kimi qəbul edilməsinə dair qəbul etdiyi tarixi qərarın hər il əvvəlkindən daha aktual və əhəmiyyətli olduğu isbat olunur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin *Azərbaycana rəhbərliyinin ikinci mərhələsi* yenicə qazanılmış, sadəcə elan olunmuş dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi, iqtisadi-hərbi problemlərinin uğurlu həlli ilə tarixi hadisəyə çevrilmişdir. Qondarma Talış-Muğan Respublikasının ləğv edilməsi, Vətənimizin ərazi bütövlüyü-

nün qorunub saxlanılması, ölkənin parçalanma təhlükəsinin aradan qaldırılması, Heydər Əliyevin müstəqilliyin gerçək mənada möhkəmləndirilməsi yollarındakı danılmaz böyük xidmətidir. Ermənistan –Azərbaycan münaqişəsini dayandırması, atəşkəs sazişinə nail olması, qısa müddətdə mütəşəkkil, nizamlı ordunun yaradılması görkəmli dövlət xadiminin müstəqillik uğrunda mübarizəsində mühüm tarixi hadisə sayılmağa layiqdir. Ölkədə müstəqilliyin daha da möhkəmləndirilməsinə hesablanmış geniş miqyaslı islahatların gerçəkləşdirilməsi, elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın sürətlə inkişaf etdirilməsi sayəsində milli düşüncənin dərinləşdirilməsi nəticə etibarilə müstəqillik təfəkkürünün yetkinləşməsinə, dönməz xarakter almasına özünün sanballı töhfəsini vermişdir.

Heydər Əliyev siyasi təlimində xüsusi əhəmiyyətə malik olan məsələlərdən biri də *ictimai-siyasi sabitlikdir*. Azərbaycanda dövlət müstəqilliyinin başlanğıc illərində, xüsusən, AXCP – Müsavat hakimiyyəti zamanı cəmiyyətdə yaranmış xaos, çaşqınlıq ciddi və təhlükəli bir böhranın yaranmasına gətirib çıxarmışdı. Ölkədə təhlükəli vəziyyət yaradan, qorxu, vahimə oyadan, çaşqınlıq toxumları səpən gizli silahlı dəstələrin, terrorçu qrupların qətiyyətlə zərərsizləşdirilməsi Heydər Əliyevin ictimai-siyasi sabitliyi təmin etmək baxımından həllinə nail olduğu əsas məsələlərdən biri idi. Hətta dövlət çevrilişinə cəhd göstərən, silahlı yolla hakimiyyəti devirmək istəyən, sağdan-soldan dəstək alan axınların kökünün kəsilməsi Azərbaycanda müstəqilliyin sabahına ümidlə baxmağa böyük inam yaratdı. Bu mənada *Azərbaycanda bərqərar olan sabitlik* görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən ölkəmizə bəxş edilmiş böyük ərməğandır, əvəzsiz nemətdir. Sabitlik – Heydər Əliyev inkişaf strategiyasının siyasi-ideoloji və hüquqi təminatıdır. Sonrakı böyük inkişafın təməlində sabitlik amili mühüm yer tutur.

*Ümummilli lider Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin baş memarıdır*. Dövlət quruculuğu prosesini düşünülmüş şəkildə irəli aparan Heydər Əliyevin dünya təcrübəsinə, ölkəmizin imkanlarına və tələbatlarına uyğun şəkildə dövlət qurumlarının formalaşdırılması, gərəksiz təşkilatların ləğv edilməsi, ehtiyac olan yenilərinin yaradılması yollarındakı səyləri özünəməxsus dövlətçilik siması olan müstəqil bir ölkənin formalaşdırılması ilə nəticələnmişdir. Qeyri-peşəkar *kadrların yüksək ixtisaslı, təcrübəli mütəxəssislərlə* əvəz edilməsi də dövlət quruculuğu sahəsində böyük irəliləyişin təmin edilməsinin hərəkətverici qüvvəsinə çevrilmişdir. Nəticədə Azərbaycanda cəmiyyət həyatını irəliyə aparan, müstəqillik şəraitində qarşıda duran problemləri həll etməyə qadir olan, beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən güclü bir dövlət strukturu ərsəyə gətirilmişdir.

Heydər Əliyevin *tarazlaşdırılmış, balanslaşdırılmış xarici siyasəti* onun adı ilə bağlı olan siyasi təlimin ana maddələrindən biridir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasını müəyyən edərkən müstəqil siyasət daxilində tarazlaşdırılmış siyasi yanaşmanı əsas kimi qəbul etməyi vacib saymışdır. Bu istiqamətdə formalaşdırılmış xarici siyasət dövlətimizin maraqlarına uyğun olan ölkələrin hamısı ilə əlaqə yaratmağa, münasibətləri daha da inkişaf etdirməyə şərait yaradan müstəqil siyasi yanaşma kimi özünü doğrultmuşdur. Bu yanaşma siyasi mühitdə Azərbaycan dövlətinin böyük dövlətlərin şərtlərini deyil, *öz ölkəsinin maraqlarını əsas götürməsini* şərtləndirmişdir. Siyasətin bu formatı beynəlxalq aləmdə Azərbaycana çoxlu dost ölkələr və etibarlı tərəfdaşlar qazandırmışdır. Nəhayət, bu siyasi təlim Azərbaycanın müstəqil surətdə xarici siyasət aparan dövlət olaraq inkişaf etdirilməsini şərtləndirmişdir.

Milli *neft strategiyasının* əsasını qoymuş Heydər Əliyev müstəqil dövlətimizin taleyində neft faktorunun xüsusi rolunu və əhəmiyyətini lazımi səviyyədə dəyərləndirmişdir. Neft strategiyasının beynəlxalq layihələrin, iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına rəvac vermişdir. *«Bakı-Tbilisi-Ceyhan»* neft ixrac boru kəməri Heydər Əliyevin iqtisadi siyasətinin böyük bəhrəsi və real təntənəsidir. *«Bakı-Tbilisi-Ərzurum»* qaz kəməri, *«Bakı-Tbilisi-Qars»* dəmir yolu layihələri də mahiyyət etibarilə *Ceyhana uzanan nəhəng magistralı* tamamlayır. Beləliklə, neft siyasəti Azərbaycanın hərtərəfli inkişafının və beynəlxalq aləmdəki siyasətinin əsas generatoru statusunu qazanmışdır. Respublikamızda *qeyri-neft sektorunun inkişafı* da hərtərəfli şəkildə düşünülmüş uğurlu neft strategiyasının bəhrəsidir.

Sosial yönümlü *büdcə siyasəti* də Heydər Əliyev siyasi kursuna aiddir və ardıcıl olaraq xalqın həyat səviyyəsinin yüksəldilməsinə dövlət qayğısı siyasətini izləyir. Sovet dövründən fərqli olaraq, Prezident təqaüdü formatında rəğbətləndirmənin təsis edilməsi *Müstəqil Azərbaycanın* adlı-sanlı ziyalılarının, alimlərinin və mədəniyyət xadimlərinin qorunub saxlanılmasına, yaşadılmasına, milli ziyalılığın inkişaf etdirilməsinə uğurla xidmət edir. Vaxtaşırı Prezident mükafatlarının verilməsi də ölkəmizdə yeni nəslə, böyük istedadlara dövlət dəstəyinin əməli ifadəsidir. Məhz bunların sayəsində *«Heydər –xalq, xalq – Heydər»* formatında müdrik Ata sözləri formalaşmışdır.

Heydər Əliyev *siyasi kursu* daim inkişafda olan bir təlim olaraq yaşayır və həmişə müstəqilliyimizin daha da möhkəmləndirilməsinə təkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu böyük və sı-

naqlardan çıxmış *dövlətçilik strategiyasını* yaradıcı şəkildə və böyük səriştə ilə davam və inkişaf etdirir. Ümumiyyətlə, yeni epoxanın görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezidentimiz İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyev siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. İlham Əliyev hakimiyyəti həmin qranit dövlətçilik pyedestalı üzərində ucalır. Prezident İlham Əliyev özünü təsdiq etmiş Heydər Əliyevin dövlətçilik təlimini əsas kimi qəbul etməklə yanaşı, bu həmişəyaşar siyasi kursu yeni dövrün, dünyada baş verən proseslərin gerçəklərinə uyğun olaraq daim inkişaf etdirir, qiymətli əlavələrlə zənginləşdirir. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın müasir reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək İlham Əliyev idarəetməsinin əsasını təşkil edir. Prezident İlham Əliyevin şəxsində *siyasi varisliklə novatorluq, ənənə ilə yeniləşmə, müasirləşmə* və *modernləşdirmə* vəhdət təşkil edir. Məsələnin bu cəhəti ölkəmizin rəhbərini dünyada son illərdə böyük siyasətə gəlmiş yeni dövlət başçılarından fərqləndirir və ölkəmizə böyük uğur gətirir. Zəngin tarixi təcrübə ilə müasir yaradıcı təfəkkürün vəhdəti, yenilik ruhu Prezident İlham Əliyevin dövlət başçısı simasını səciyyələndirir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni tipli dövlət başçısı olduğunu, bütövlükdə müasir dövrün görkəmli siyasi liderlərindən biri səviyyəsinə yüksəldiyini əyani şəkildə nümayiş etdirir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ümummilli liderimiz Heydər Əliyevdən yeni tipli dövlət xadimi İlham Əliyevə qədər hərtərəfli inkişaf yolunu uğurla davam etdirməkdədir. Naxçıvan Muxtar Respublikasına müstəqil Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması, möhkəm və etibarlı qalasının yaradılması, regionda Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə qarşılıqlı əlaqələrin formalaşdırılması Ümummilli lider Heydər Əliyevin strateji xəttinin dönmədən həyata keçirilməsini təmin etmişdir. Vaxtilə çox çətin şəraitdə Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Türkiyə ilə Naxçıvan arasında *Sədərək– Dilucu körpüsü* salınması ilə mühüm strateji məqsədlərə yol açılmışdır. Bu, əslində böyük həyat körpüsü olmaqla bərabər, həm də Avropaya açılan qapı demək idi. Prezident İlham Əliyevin 2007-ci ildə rəmzi lentini kəsdiyi *Şahtaxtı-Poldəşt körpüsü* blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələrinin genişlənməsində və Şərqə doğru inkişafının təmin edilməsində mühüm rol oynamışdır. Beləliklə, blokada şəraitində olan Naxçıvanda yeni bir *Şərq-Qərb nəqliyyat dəhlizi* formalaşdırılmışdır. *Bakı-Tbilisi-Qars dəmir yolu* marşrutu-

nun yaxın gələcəkdə *Qars-İqdır-Sədərək-Şərur* vasitəsilə Naxçıvana birləşdirilməsi layihəsinin reallaşdırılacağı barədə ölkə Prezidenti səviyyəsində səslənən bəyanatlar regionda böyük inkişafa təkan verəcəkdir. Vaxtilə təməlləri görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən atılmış *Naxçıvana qaz çəkilişi*, *Naxçıvan Beynəlxalq Hava Limanının tikilişi, Vayxır su anbarının inşası* kimi iri həcmli layihələrin Prezident İlham Əliyev tərəfindən başa çatdırılaraq xalqın istifadəsinə verilməsi vahid siyasətin, böyük siyasi kursun konkret bir regiondakı bəhrələridir. Bu mənada Prezident İlham Əliyevin hakimiyyəti illərində Naxçıvanda salınmış *Biləv və Arpaçay su elektrik stansiyaları*, burada *avtomobil sənayesinin* inkişaf etdirilməsi, *aqrar sektorun* genişləndirilməsi böyük siyasəti tamamlayır və möhkəmləndirir. Çoxsaylı *iş yerlərinin* açılması, *sənayeləşmə* sahəsinin inkişafı, *energetika* sektorunun əsaslı şəkildə yenidən qurulması, quruculuq proseslərinin geniş vüsət alması Naxçıvan Muxtar Respublikasına yönəldilmiş dövlət siyasətinin özünün böyük strateji hadisələrinə doğru məqsədyönlü şəkildə inkişaf etdiyini göstərir...

Göründüyü kimi, Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan mükəmməl dövlətçilik təlimi müstəqil Azərbaycan dövlətinin inkişafının böyük siyasi təməllərini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu böyük dövlətçilik və müstəqillik təlimini yaradıcı şəkildə davam etdirməsi, zəruri əlavələrlə və yeniliklərlə zənginləşdirməsi Azərbaycan Respublikasına *beynəlxalq aləmdə, regionda*, *ölkə daxilində* hər yerdə tərəqqi, inkişaf, rifah və xoşbəxtlik bəxş edir. Prezident İlham Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin qüdrətli memarı, geniş mənada isə bütövlükdə yeni epoxanın, müasir dövrün görkəmli siyasi lideridir. Müstəqil Azərbaycan dövləti yeni tarixi mərhələdə yetkin, əsaslandırılmış sınaqlardan çıxmış siyasi təlimin işığında böyük sabahlara doğru qətiyyətlə addımlamaqda davam edir.

Bütün bunlar müasir dünyada ən müxtəlif şəkildə əks-səda tapır. Bu baxımdan, hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik təlimi eyni prosesləri yaşayan *digər yeni ölkələr üçün böyük təcrübə məktəbinə* çevrilmişdir. Heydər Əliyevin müstəqilliyin başlanğıc illərində Naxçıvan Muxtar Respublikasında, sonra isə bütövlükdə Azərbaycan miqyasında həyata keçirdiyi geniş miqyaslı islahatlar və *böyük öndərin yüksək liderlik məharəti dünya ölkələrində diqqətlə izlənilmiş, ayrı-ayrı regionlarda yeni dövlət quruculuğu proseslərində örnək* kimi qəbul olunmuşdur. Dünyanın böyük siyasi xadimlərinin və müstəqillik qazanmış ölkələrin rəhbərlərinin Heydər Əliyevin çoxcəhətli fəaliyyətinə qiymət verərkən onun dövlətçilik təlimi haqqında ifadə etdiklə-

ri fikirlər böyük dövlət xadiminin təcrübəsinin diqqət mərkəzində olduğunu, yaradıcılıqla öyrənildiyini nümayiş etdirir. Almaniyanın keçmiş federal kansleri *Helmut Kolun* Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev haqqında dediyi aşağıdakı sözlər Qərb siyasi mühitində bu böyük dühanın fəaliyyətinin doğurduğu əks-sədanı dolğun şəkildə mənalandırır: «Heydər Əliyev çətin bir şəraitdə ölkəsinə rəhbərlik edərək, onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparmışdır». Müstəqillik və milli dövlətçilik ideallarını əsas və uca tutması, bu məsuliyyətli və şərəfli yolda böyük qətiyyət və müdriklik göstərərək mühüm nəticələr qazanması Qərb dairələrində onun böyük dövlətlərin başçıları ilə müqayisə edilməsinə səbəb olmuşdur. Amerika Birləşmiş Ştatlarının konqresmeni *Qreq Laflinin* qənaətləri həmin baxışların konkret ifadəsidir: *«Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur».* Avropanın tanınmış siyasətçilərindən biri olan İslandiya diplomatı *R.Murfi* isə bu fikirdə idi ki, *«belə bir şəxsiyyət (Heydər Əliyev – İ.H.) Qərbin istənilən ölkəsində prezident seçkilərində qalib gələ bilərdi».* Fikrimizcə, Fransanın keçmiş prezidenti Jak Şirakın aşağıdakı sözləri Qərbdən baxanda Heydər Əliyevin nə demək olduğunu aydın şəkildə ifadə edir: *«Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir».* Nəhayət, Amerika tarixində böyük yer tutan Corc Buşun baxışları Heydər Əliyev əlçatmazlığının miqyasını təsəvvür etməyə imkan verir: *«Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm».*

*Türk-müsəlman dünyasının böyük siyasətçiləri* və *dövlət başçıları* da müstəqillik uğrunda mübarizədə Heydər Əliyevin böyük xidmətlərinə, onun *liderlik istedadına* yüksək qiymət vermişlər. Heydər Əliyevə türk-müsəlman dünyasının baxışlarında obyektiv reallıqla yüksək ehtiram vəhdət təşkil edir. Şərq aləmi görkəmli dövlət xadimi Heydər Əliyevdən bütün böyük qabiliyyətləri ilə yanaşı, həm də dünya miqyasında qəbul olunan dövlət xadimi kimi iftixarla söz açır. Türkiyə Cümhuriyyətinin doqquzuncu Prezidenti *Süleyman Dəmirəlin* Heydər Əliyevə «bütün türk dünyasının» qüdrətli lideri olaraq verdiyi yüksək qiymətdə real gerçəkliklə iftixar duyğuları biri-birini tamamlayır: *«Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir».*

Qazaxıstan Respublikasının Prezidenti *Nursultan Nazarbayev* ideal dövlət xadimi kimi dəyərləndirdiyi Heydər Əliyevin mənsub olduğu xalqa sədaqətini ön mövqeyə çəkməklə dövlətçilikdə xalq və Vətən amalının üstün tutulmasında bu böyük şəxsiyyətin göstərdiyi mövqeyi nümunə hesab et-

mişdir: *«Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır».*

Dünya miqyasında görkəmli dövlət xadimi kimi qəbul edilən Heydər Əliyev *Qafqazda sülhün və əməkdaşlığın həyata keçirilməsinin rəmzi* hesab olunmuşdur. Yer kürəsinin ən müxtəlif qütblərindən baxanda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qafqaz dağları qədər uca, qürurlu, əzəmətli və qalib kimi diqqəti cəlb etmişdir. Görkəmli dövlət xadimi *Heydər Əliyev böyük siyasətin Qafqaz zirvəsidir*. Eyni zamanda, geniş mənada dünyanın Qafqaz siyasətində, həmçinin Qafqazda gedən daxili proseslərin tənzimlənməsində Heydər Əliyevin rolu həmişə etiraf olunmuşdur. Gürcüstan Respublikasının Prezidenti *Eduard Şevardnadzenin* aşağıdakı sözləri bu gerçəkliyin real şəkildə ifadəsidir: *«Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir».*

Görkəmli dövlət xadimi Heydər Əliyev haqqında dünya ölkələrində, beynəlxalq aləmdə deyilən fikirlər, verilən yüksək qiymət Azərbaycan xalqını və müstəqil Azərbaycan dövlətini böyük meredianlarda tanıdır, diqqət mərkəzinə çəkir, ölkəmizə baş ucalığı qazandırır. *Heydər Əliyev Azərbaycan xalqını dünyaya tanıdan nəhəng siyasi xadimdir.* Heç şübhəsiz, XX əsrin dünya tarixində qalan böyük tarixi şəxsiyyətləri sırasında Heydər Əliyevin xüsusi yeri vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi sayəsində respublikamızda qazanılmış böyük uğurlar, möhtəşəm nailiyyətlər ilk növbədə Heydər Əliyev siyasətinin real təntənəsidir. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin müasir inkişafı, dövlətin və xalqın tərəqqisi də Prezident İlham Əliyevin yaradıcı təfəkkürünün, yeniləşdirmə istedadının parlaq nəticəsidir. *İlham Əliyev Azərbaycan Respublikasını yeni zirvələrə çatdıran qüdrətli liderdir.* Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü kimi böyük status qazanması İlham Əliyev epoxasının tarixi nailiyyətidir. *«Şahdəniz» neft-qaz yataqlarının* dünyaya bəyan edilməsi yeni tarixi epoxanın «Əsrin müqaviləsi»dir. Azərbaycan Respublikasının paytaxtı ilə yanaşı, regionlarının da sürətli və hərtərəfli inkişafı yüksəlişin yeni mərhələsinin gerçəkliyidir. Bu mənada *Prezident İlham Əliyev Yeni Azərbaycanın müasir dövrünün Heydər Əliyevidir.* Azərbaycan Respublikası haqqında beynəlxalq aləmdə indi ifadə olunan fikirlər, verilən yüksək qiymət ölkəmizdəki ardıcıl və davamlı siyasətə, dövlət quruculuğu sahəsindəki yaradıcı təfəkkürə bəslənilən böyük ehtiramın ifadəsidir. Prezident İlham Əliyev Azərbaycanın daha böyük gələcəyinə açılan geniş üfüqlərin real sabahlara çevrilməsinə təminat verən

görkəmli dövlət xadimidir. İlham Əliyev beynəlxalq aləmdəki dövlət xadimləri sırasında Azərbaycanın mövqeyini daha da inkişaf etdirmişdir. Müasir dünyada Azərbaycan Respublikası Prezident İlham Əliyevin dərin zəkasının, böyük idrakının işığında tanınır və qəbul olunur.

*Azərbaycan xalqı* özünün böyük oğlu və qüdrətli dövlət rəhbəri Heydər Əliyevin yerini və xidmətlərini dərindən bilir və onunla haqlı olaraq fəxr edir. Xalqımız Heydər Əliyevi həmişəlik Ümummilli lider olaraq qəbul etmişdir. *Heydər Əliyev Azərbaycan xalqının əbədi iftixar mənbəyidir.*

Müasir dünyada Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının işığında və Prezident İlham Əliyevin böyük dövlət quruculuğu əzminin, yaradıcı təfəkkürünün real və möhtəşəm nəticələri əsasında ardıcıl olaraq davamlı şəkildə inkişaf edən bir ölkə kimi qəbul olunur. Davamlı və yaradıcı inkişaf prosesi Azərbaycanın yeni hədəfləri fəth etməsini təmin edir və daha böyük inkişafa yol açır.

***İsa Həbibbəyli***
***AMEA-nın prezidenti,***
***akademik***

# GİRİŞ

Bu il Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 29 sentyabr 2022-ci il tarixli Sərəncam verib.

Azərbaycan xalqı Zaman və Tarixə Heydər Əliyev idrakının vüsəti və qələbələri ilə qədəm qoyub. İqtisadi-siyasi və mədəni uğurların təminatı Ulu öndərin qeyri-adi idarəçiliyi və təşkilatçılığı, mətin iradəsi və milli vətənpərvərliyi, uzaqgörən və məqsədyönlü siyasət və diplomatiyası sayəsində mümkün olub, respublikamız bütün sahələr üzrə sürətli inkişaf yolu keçibdir.

Ulu öndər xalqımızın yaradıcılıq enerjisini üzə çıxarıb, onun tarixi-mənəvi yaddaşını bərpa edib, qətiyyətli addımlar atıb, milli ruhun canlanmasına ciddi səy göstərib, milli özünüdərk, mənəvi irs və varisliyə genetik qayıdışla müstəqil dövlət quruculuğunu həyata keçiribdir.

Sərəncamda deyilir: "Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir"[1].

Heydər Əliyevin sayəsində xalqımız vahid ideal – milli istiqlal, müstəqil dövlət məfkurəsi ətrafında birləşib, azərbaycançılıq ideologiyası formalaşıb, doğma ana dilimiz dövlət qayğısı ilə əhatə olunub, bu sahədə əmr və sərəncamlar verilib, ictimai-siyasi, elmi və mədəni fikir tariximiz əlamətdar hadisələrlə zənginləşdirilib, qüdrətli ölkəmiz çoxəsrlik mənəvi-mədəni irsə sahib çıxıb, qədim diyar kimi sivilizasiyaların qovuşağında tolerantlıq məkanına çevrilib, geniş tarixi şöhrət qazanıb. Heydər Əliyev xalq mənafeyini hər cür dəyərlərdən üstün tutubdur.

---

[1] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli"elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 29 sentyabr 2022-ci il

Ulu öndər dünyanın nüfuzlu siyasətçiləri ilə bir sırada dayanıb, ölkəmizin beynəlxalq aləmdə tanınması və layiqli yerə çıxarılmasında müstəsna xidmətlər göstərib, dünya sivilizasiyasında elit şəxsiyyət kimi tarixi ad qazanıbdır.

Güclü Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Böyük rəhbər ölkə müstəqilliyini qoruyub-saxlamaq yolunda yorulmadan çalışıb, xarici və daxlili siyasətində beynəlxalq hüquq normalarına istinad edib, diplomatik üstünlüklər qazanıb, həmin şərəfli yolu layiqli siyasi varisi cənab İlham Əliyev uğurla davam etdirib, Milli Ordumuzun qalibiyyətli yürüşü, xalqın vahid səfərbərliyi ilə erməni təcavüzünə son qoyub, Dəmir Yumruğun sarsılmaz gücü ilə 44 günlük Vətən müharibəsində, habelə, seperatizmə qarşı antiterror əməliyyatlarında, bütövləşən Azərbaycan naminə şanlı Tarixi Zəfər qazanıbdır.

Heydər Əliyev bütün dünyada Azərbaycan dövlətinin simvolu, rəmzidir. Müstəqil Azərbaycan Ulu öndərin çağdaş və gələcək nəsillərə əmanətidir, onun zəngin və çoxşaxəli tarixi irsi milli sərvətdir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsi və vətəndaşlıq borcudur.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu 1998 və 2009-cu illərdə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"[2],[3] 2018 və 2019-cu illərdə 2 cilddə "Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala"[4], 2023-cü ildə isə "Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə"[5], "Heydər Əliyev və milli mətbuat"[6] adlı kitablarını nəşr etdirib. İnstitut əməkdaşlarından Rahid Ulusel[7], Tehran Əlişanoğlu[8], Almaz Ülvi[9] də xüsusi kitabların müəllifidir.

---

[2] AMEA Nizami adına Ədəbiyyat İnstitutu. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı, 1998

[3] Yenə orada, 2009

[4] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, "Elm", 2018-2019

[5] Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə. *(Müəlliflər: İ. Həbibbəyli, T. Əlişanoğlu, E. Akimova, A. Bağırlı, L.Həsənova, Ə. Əsgərli).* Bakı, "Elm", 2023, 460 s.

[6] Heydər Əliyev və milli mətbuat. *(Müəlliflər: İ.Həbibbəyli,V.Əhməd, E.Mehrəliyev, G.Babayeva, G.Qasımova.*Bakı, "Elm və təhsil", 2023, 320 s.

[7] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.

[8] Tehran Əlişanoğlu (Mustafayev). Mənim Prezidentim.Ulu Öndər Heydər Əliyevin 100 yaşına. Bakı, "Elm və təhsil", 2023, 372 s.; Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev. Bakı,"Elm və təhsil", 2023, 280 s.

[9] Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı. Bakı, "Nurlan", 2004, 107 s.

Azərbaycan Rüspublkasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 28 noyabr 2022-ci il tarixli Sərəncam verib. Sərəncama əsasən AMEA-nın Rəyasət Heyəti 8 dekabr 2022-ci il tarixli 22/2 nömrəli qərar qəbul edib.

"Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" adlı kitab da həmin qərara əsasən nəşrə hazırlanıb.

# BİRİNCİ FƏSİL

# LİDERLİK MİSSİYASI: ŞƏXSİYYƏT, DÖVLƏT VƏ CƏMİYYƏT

***Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.***

**Heydər Əliyev**

## LİDERLİK MİSSİYASI SİYASƏT VƏ DİPLOMATİYADA

***Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.***

**Heydər Əliyev**

*"Sivilizasiya* (latınca–mülki, ictimai). Mədəniyyətin sinonimi kimi.

1. Ədəbiyyat, həmçinin maddi mədəniyyəti bildirmək üçün də işlədilir.

2. İctimai inkişafın, maddi və mənəvi mədəniyyətin (antik və müasir) səviyyəsi, mərhələsi.

3. Bəşəriyyət tarixinin barbarlıqdan sonra gələn mərhələsi"[10].

*"Sivilizasiya* müəyyən *sosial genotipə* malik olan *stereotip kimi şıxış edən*, dünyada *sabit yer tutan* insanların *sosial-tarixi* və *mədəni* ümumiliyidir"[11].

Heydər Əliyev dünya sivilizasiyasında mühüm yer tutan elit tarixi şəxsiyyətdir. O, sivilizasiyalar haqqında ətraflı fikirlər söyləyib, tarixi-siyasi mövqe nümayiş etdirib, lakin millətlərin mədəniyyətləri, sivilizasiyaları, dinləri barəsində heç bir mənfi fikir söyləməyib və yazmayıb. Bildirib ki, Azərabycan xalqı, bütün türk dünyasının mənəvi dəyərləri, sivilizasiyaları *təkamül yolu* ilə gedib. Başqa xalqlarda da *sivilizasiyaların böyük tarixi yolu* olub. Millətlər, xalqlar, ölkələr *bir məkanda* Yer kürəsində inkişaf tapıb, formalaşıb. Bütün sivilizasiyarın *bir-birindən faydalandığı* danılmazdır.

[10] Azərbaycan sovet ensiklopediyası.VIII cild. Bakı,"Qızıl Şərq",1984,608 s.; s.416

[11] Vikipediyadan

Bütün nəsillər bütün dillərə, dinlərə, adət-ənənələrə, milli xüsusiyyətlərə bələd olmalı, onları öyrənməli, onlara hörmət etməlidirlər. Mədəniyyətdə, *sivilizasiyada Qərb və Şərq bölgüsü* simvolikdir. Eyni mövqedən qiymətləndirmə olmalıdır.

Heydər Əliyev Şərqin qədim və zəngin hikmətlərinə dərin rəğbət bəsləyib. Yazıb: "Şərqdə *sivilizasiyaların tarixi daha qədim və dərin olduğundan* onun zənginliyi də bəllidir. Amma *Qərbin elmi-texniki və texnoloji tərəqqisi* də yüksək qiymətləndirilir, dərindən öyrənilir, Azərbaycanda da tətbiqinə xüsusi qayğı göstərilir.

Sivilizasiyalar *əlbirliklə* baş verib. Mədəniyyətlərə, dini inamlara, milli adət-ənənələrə qarşılıqlı hörmət insanların gündəlik həyat tərzi olub. Dünyada *sivilizasiya bütövlüyü* yaradılmalıdır, *sivilizasiyanın parçalanmasına* yol verilməməlidir. Bunun üçün *etnik prinsiplər, normalar* müəyyənləşdirilməlidir.

Bütün dünyada *qlobal etika* formalaşmalıdır. Mədəniyyətlərarası və *sivilizasiyalararası dialoq daim təkmilləşməli, dərinləşməli* və *sistemli, arasıkəsilmədən* davam etdirilməlidir"[12].

Heydər Əliyev: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və *sivilizasiyasına öz töhfəsini* verir"[13], – deyə bildirib.

Heydər Əliyevin sayəsində *sivilizasiyalı birgəyaşayış qaydaları* və *prinsipləri* müəyyənləşdirilib, bütün qonşu ölkələrlə, xalqlarla, habelə, Yaxın və Orta Şərq ölkələri ilə qonşuluq və əməkdaşlıq münasibətləri yaradılıb.

Asiya ilə Avropa, Qərblə Şərq iki coğrafi qitə kimi yox, *iki sivilizasiya* kimi *Azərbaycanda qovuşur.* Sivilizasiya *hüquq və qanunlar işləyəndə* yaranır, – filosof Yaşar Qarayev belə yazib: "Millət özünü mənəvi vəhdət və tamlıq kimi dərk edəndə sivilizasiya başlayır! Müstəqilliyin rəhni də birlikdə –dini, dili, əxlaqı, milli məsləkindədir..."

Y.Qarayev bildirib: "...mənəvi-humanitar təkamül, *sivilizasiya* axarında tərəqqi bəşəriyyətin bu vaxta qədər gəlib çatdığı *bütün böyük intibahların* rəhni olub və bu gün *yeni düşüncənin, müasir planetar-ekoloji təfəkkürün* əsas əlamətini təşkil edir. İndi əsrin sonunun üç simvolu var: *ekologiya, insan hüququ və din"*[14].

---

[12] Zahid Qaralov. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə) . I cild. Bakı, Şərq-Qərb, 2013, 302 s.; s.287

[13] H.Əliyev. Müstəqillik yolu. Bakı, Azərnəşr, 1997, s.15

[14] Yaşar Vahid oğlu Qarayev. Milli "Mən" yaddaşı – azərbaycançılıq/Yolumuz hayanadır? Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Elm", 2016, 776 s.; s. 652

Dünyada və ölkələrdə rəsmi sənədlər vasitəsilə beynəlxalq normalara riayət etmək *sivil diplomatiyanın* göstəriciləridir. *Demokratik ənənələrə sədaqət* yüksək sivilizasiyanın rəhnidir.

*Varislik –əlaqə və irsiyyət* tarixi yaddaşın, sivilizasiya və mədəniyyətin əsasıdır, –Y.Qarayev belə qiymətləndirib: "Əslində nəinki təbiət və insan, ekologiya və poeziya da yaddaşdır. Şəhid – ölümü ilə, şair – ağrısı ilə yaddaşa qaynayıb qarışır. Və yaddaşın ömrü bir vicdana və haqqa qarışan, bir də qədir-qiymətə çevrilən anların cəmindən yaranıb"[15].

AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev yazıb ki, "Qorqud 1300 il əvvəl, sivilizasiyaların bir-birindən ayrıldığı bir dövrdə meydana çıxmışdı, islam-türk renessansında tarixi rol oynamışdı"[16]. "İndi, sivilizasiyaların yenidən kəsişdiyi və qovuşduğu məqamda, əzəli missiyasını yenə də təkrar etdi: Şərq və Qərbin, Cənub və Şimalın təmasda, qovuşaqda görüşü məhz bu yubiley zamanı Bakıda, simpoziumun zalında baş verdi"[17].

Şərq və Qərb mədəniyyətlərinin sintezindən çağdaş mədəniyyət yaratma prosesi *çağdaş sivilizasiyanın* təzahürü olub.

Avrasiya məkanın xeyli hissəsini təşkil edən *türk dövlətləri dünya sivilizasiyası* xəzinəsinə sanballı töhfələr verməkdədir. Bu xalqlar və ölkələr coğrafi yaxınlığı, tarixi taleyi, mədəniyyəti, adət-ənənəsi, din və dil birliyi ilə bir-birinə bağlıdır.

2000-ci ildə latın mənşəli ölkələrin mədəni irsini qorumaq məqsədilə Latın Mədəniyyəti Akademiyası yaradılıb. Latın Mədəniyyət Akademiyası XIII konfransını Heydər Əliyev Fondu ilə birlikdə keçirib[18]. Akademiya Azərbaycanın geostrateji mövqeyinə, tarixi-mədəni əlaqələrinə dəyər verərək belə bir addım atıb. Bununla yanaşı, Akademiya Beynəlxalq aləmdə gedən mürəkkəb və ziddiyyətli prosesləri nəzərə alaraq özünün fəaliyyət istiqamətlərini genişləndirib, son illərdə isə *"Latın dünyası və İslam amili"* mövzusunda konfranslar da keçirir[19].

YUNESCO-nun Baş direktoru K.Matsuura *"Sülh və davamlı inkişaf naminə mədəniyyətlər və sivilizasiyalararası dialoqa dair Asiya-Sakit okean ölkələri konfransı"ndakı* (2004, Hanoy) çıxışında bildirib ki, "mədəni müx-

---

[15] Yaşar Vahid oğlu Qarayev. Yaddaşsızlıq və zamansızlıq– "Bazar dövrü"./ Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Elm", 2016, 776 s.; s. 658

[16] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı, "Elm", 2016, 728 s.; s.67

[17] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı, "Elm", 2016, 728 s.; s.67

[18] Aynur Əliyeva.Heydər Əliyev Fondu.Bakı,Avropa,2020,250 s.,s.141-142

[19] "Bakı –İslam mədəniyyətinin paytaxtı – 2009" mədəniyyət ilinin açılışı. "Azərbaycan", 19 fevral 2009;

təliflik və mədəni irs hər bir xalqın kimliyinin göstəricisi, barışıq və razılaşma vasitəsidir. Mədəni irs – özünün maddi və mənəvi formaları ilə bölünməzdir və milli mədəniyyətin simvolik dəyərlərini tərənnüm etdirir... Etnik və dini müxtəlifliklərin mövcud olmasına baxmayraq, hər bir dövlət milli birliyin qorunması və gücləndirilməsi yollarını axtarıb tapmalıdır... Bu düşüncələrin əsasını təşkil edən mühüm məsələ dialoq və sülh mədəniyyəti arasında olan əlaqələrdir[20].

2006-cı il aprelin 19-21-də Bakıda Heydər Əliyev Fondu *"Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü"* mövzusunda beynəlxalq konfrans keçirib.

Mehriban xanım Əliyeva deyib: "Bu gün Azərbaycan dünya birliyinə inteqrasiya edən, Şərq və Qərb, Avropa və Asiya mədəniyyətlərini özündə birləşdirən, fərqli düşüncəyə çox hörmətlə yanaşan bir ölkədir"[21].

*"Bakıda Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu"* adlı beynəlxalq konfrans 27 sentyabr 2007-ci ildə keçirilib. Konfransda Hindistan, Rusiya, ABŞ, Almaniya,Yaponiya, Böyük Britaniya, Türkiyə, İran, Avstriya, Kanada, Bolqarıstan, Latviya, Rumuniya, Moldova, Macarıstan, Vyetnam, Çin, Fransa, Misir və Azərbaycanın hökumət nümayəndələri, parlament üzvləri və hakim partiyaların təmsilçiləri iştirak edib. Konfransın əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına məktubu səsləndirilib.

Azərbaycan Respublikasının Prezidenti məktubunda sivilizasiyalararası dialoqun inkişafında siyasi partiyaların rolunu yüksək qiymətləndirdiyini bildirib.

2009-cu ilin 18 fevralında Bakıda Heydər Əliyev Sarayında *"Bakı –İslam mədəniyyətinin paytaxtı – 2009"* mədəniyyət ilinin təntənəli açılışında çıxış edən İslam Konfransı Təşkilatının baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveysri qeyd edib ki, Bakı mədəniyyətlər və sivilizasiyalar arasında dialoq, birgə yanaşma və həmrəylik şəhərinə, eləcə də incəsənət, elm və mədəniyyət qovuşağına çevrilib[22]. Həmin mərasimdə İ.H.Əliyev geniş nitq söyləyib.

***Heydər Əlirza oğlu Əliyev*** 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya gəlib.

---

[20] Xoşməramlı səfir: 5 kitabda. III kitab. Tərtibçilər H. Paşayev, A. Qasımov. Bakı, Şəms, 2006, s.176

[21] Xoşməramlı səfir: 5 kitabda. III kitab. Tərtibçilər H. Paşayev, A. Qasımov. Bakı, Şəms, 2006, s.175-176; Aynur Əliyeva. Heydər Əliyev Fondu. Bakı, Avropa, 2020, 250 s., s.141

[22] Aynur Əliyeva. Heydər Əliyev Fondu. Bakı, Avropa, 2020, 250 s., s.156-157

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. İkinci Dünya müharibəsi başladığından təhsilini başa çatdıra bilməyib.

1941-1944-cü illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığının arxiv şöbəsində məxfi hissənin, sonra Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ildən dövlət təhlükəsizliyi orqanlarında çalışıb.

1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil alıb. 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə bölmə rəisi təyin edilib.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirib.

1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əkskəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini təyin edilib.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışıb. Ona general-mayor rütbəsi verilib.

1969-cu il iyulun 14-də AKP MK-nın plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

22 il Azərbaycan SSR Ali Soveti və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsində işləyib.

1976-cı ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə Siyasi Büronun üzvü seçilib. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələri nəzarətində olub.

1987-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosu və Baş katib M.S. Qorbaçovun siyasi xəttinə etiraz edib və tutduğu vəzifələrdən istefa verib.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanat verib, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib.Dağlıq Qarabağda yaradılmış münaqişələrlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz edib və 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk edib.

1990-cı il iyulun 20-də Bakıya qayıdıb. İki gün sonra Naxçıvana gedib. Həmin ildə Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilib.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib. Qanunvericiliklə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu vəzifədə 1993-cü ilə qədər çalışıb.

1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsini görən xalq Heydər Əliyevin hakimiyyətə gətirilməsini tələb edib və ölkənin o zamankı rəhbərliyi tərəfindən Bakıya dəvət olunub.

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib. İyunun 24-dən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edib.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilib.

1998-ci il oktyabrın 11-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqının Ümummilli lideri Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında dünyasını dəyişib. Dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunub.

Ümummilli lider Heydər Əliyev beş dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxsaylı medallarla təltif edilib. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, habelə, müxtəlif ölkələrin ali mükafatları, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülüb[23].

Heydər Əliyev respublikada idarəçilik hakimiyyətini xeyli möhkəmləndirib.

O, kadrları əsasən yeniləri ilə əvəz etdirib. Onun rəhbərliyi ilə 1978-ci ilin aprelində Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul olunub. Ümummilli lider Azərbaycan dilinin dövlət dili olması haqqında xüsusi 73-cü maddənin Konstitusiyaya daxil edilməsinə nail olub.

Dövlət başçısı sosial-iqtisadi və mədəni sahələrdə böyük uğurlar əldə edib.

***Haşiyə:*** Heydər Əliyev respublika bölgələrinin iqtisadi-mədəni yüksəlişinə, kənd təsərrüfatının sürətli inkişafına böyük zəhmət sərf edib. Mənsub olduğum Sabirabad rayonunda 15 dəfə səfərdə olub.1970-1980-ci illər ra-

[23] Vikipediyadan

yonun dirşəliş və yüksəliş dövrü olubdur. Böyük rəhbər pambıq tarlalarında, taxıl zəmilərində və heyvandarlıq təsərrüfatlarında əhali ilə birbaşa ünsiyyətdə olub. O zaman respublika əhəmiyyətli bir sıra tədbir Sabirabad rayonunda keçirilib. Ölkə başçısı 1979-cu ildə bölgədə inşa edilmiş Mədəniyyət Sarayını açıb və çıxışı zamanı bildirib ki, bu torpağın, bu zəhmət adamlarının elə böyük cazibə qüvvəsi var ki, məni hər il bu yerlərə gətirir. Heydər Əliyevin rəhbərliyi ilə rayonda  Qrup Su Kəməri sistemi quraşdırılıb, ucqar kəndlərəcən təbii qaz xəttləri çəkilib, böyük Mədəniyyət Sarayi, Rabitə Evi tikilib, Kür çayı üzərində körpü salınıb, 5 istehsal müəssisəsi, 31 orta məktəb, 5 xəstəxana və 12 mədəniyyət obyekti, inzibati binalar, çoxmərtəbəli yaşayış evləri inşa edilib. Ulu öndərin rəhbərliyi dövründə 6 nəfər Sosialist Əməyi Qəhrəmanı adını alıb.

Ermənilərin yurdumuza təcavüzü zamanı 30 minə yaxın məcburi köçkün Sabirabadda məskunlaşıb. Vətənimizin ərazi bütövlüyü uğrunda rayonun igid oğulları qəhrəmanlıqla döyüşüb. I Qarabağ döyüşləri zamanı *Mübariz Əlizadə oğlu Əhmədov, Fərhad İslam oğlu Ağayev* və Aprel döyüşləri zamanı *Murad Telman oğlu Mirzəyev Azərbaycanın Milli Qəhrəmanı* adına layiq görülüblər.  I Qarabağ döyüşlərində 225, İkinci Qarabağ döyüşlərində 47 nəfər sabirabadlı şəhid olub. Onların xatirələri əbədiləşdirilib, haqlarında kitablar çap edilib. Qəhrəman qazilərimizin sosial şəraitlərinin yaxşılaşdırılması sahəsində lazımi işlər həyata keçirilib.

2003-cü il oktyabrın 7-də İlham Əliyev Baş nazir kimi sabirabadlılarla görüşüb... Orada Olimpiya İdman Kompleksinin tikintisini həyata keçirib. 2005-ci il oktyabrın 6-da, 2008-ci il sentyabrın 26-da, 2010-cu il noyabrın 1-də, 2011-ci il mayın 5-də rayonumuza səfərləri əlamətdar olub, tarixi əhəmiyyət daşıyıb.

Bölgə əhalisi cənab İlham Əliyevin Prezident seçkilərində də fəal iştirak edib, ona yekdilliklə səs veribdir.

İlham Əliyevi təbliğat və təşviqat kompaniyasının üzvlərindən biri kimi, inanırıq ki, Azərbaycan Respublikasının Prezideni, dünya şöhrətli siyasətçi İlham Heydər oğlu Əliyev *2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar Prezident seçkilərində* **Qalib xalqın qalib Lideri** kimi qələbə çalacaq və ölkəmizi inamla daha böyük tarixi zəfərlərə doğru aparacaqdır.

Heydər Əliyevin ***Liderlik missiyası*** tarixi köklərə malikdir. Onun milli və bəşəri səviyyədə siyasət və diplomatiyası, iqtisadi, ideoloji və mədəni siyasətinin əsasları sivilizasiya göstəriciləri olub, Şərq və Qərb sivilizasiyasını, mədəniyyətini özündə ehtiva edir. Heydər  Əliyevin Liderlik missiyasının uyğun cəhətləri haqqında Şərqin və Qərbin (Avropanın) görkəmli siyasiləri, diplomat və iqtisadçıları, ideoloqları və mədəniyyət xadimləri qiy-

mətli fikirlər söyləyiblər. Bu baxımdan mənbələr bizə zəngin qaynaqlar bəlgələyir. Budur, *siyasi liderliyi* haqqında: *Rusiya Federasiyası XİN-in Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, REA-nın müxbir üzvü A.B.Torkunov* Heydər Əliyevin siyasət və diplomatiyasından söz açanda bildirib ki, Heydər Əliyev Azərbaycan Respublikasının təşəkkülündə və inkişafında uzun illər müstəsna rol oynamışdır. O, nəinki *müdrik siyasətçi*, həm də *dərin düşüncəli bir insan* idi. Onu *maraqlı musahib* və *həssas bir insan* kimi qiymətləndirirdilər.Heydər Əliyev *bənzərsiz natiq* idi. Onun parlaq çıxışları və mühazirələri, – o cümlədən Fəxri doktoru olduğu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tələbə və müəllimləri qarşısında, – həmişə böyük maraq doğururdu... Onunla ünsiyyətdə olanların, onu özünün şəxsi dostu hesab etmək istəyənlərin Heydər Əliyevi unutması çox çətindir[24].

*İsrail dövlətinin prezidenti Moşe Katsav* Heydər Əliyevin *nadir liderlərdən biri* olduğu haqqında deyib: "Azərbaycan xalqı təsəlli tapa bilər ki, Heydər Əliyev zəmanəmizin elə *nadir liderlərindəndir* ki, onlar *müdrik idarəçilik bacarığı, uzaqgörən siyasəti* və *əzmi ilə* öz ölkələri və xalqlarını müharibədən və digər çətinliklərdən çıxarıb dövlət quruculuğuna, sabitliyə, iqtisadi inkişafa və daha yaxşı gələcəyə gətirmişdir. Heydər Əliyev müasir Azərbaycanın tarixini və bu gününü yaratdı. Heydər Əliyev Azərbaycanı bugünkü səviyyəyə, bir çox gələcək imkanların astanasına gətirmiş, güclü, sabit və iqtisadi cəhətdən firavan ölkə yaratmış lider kimi xatırlanacaqdır[25].

*ABŞ prezidenti Corc Buş* aydınlığı ilə etiraf edib ki, Sizin kimi liderlə işləmək şansı əldə etdiyimə görə çox məmnunam[26]. *ABŞ prezidenti:* "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz *liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına* valehəm"[27],– deyə mövqeyini bildirib.

*ABŞ-ın Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Zbiqnev Bjezinskinin* fikirləri də dəyərlidir. O qeyd edib ki, Heydər Əliyev həqiqətən *beynəlxalq səviyyəli dövlət xadimi* və *tarixi əhəmiyyətli milli lider* idi. O, Azərbaycanın müstəqilliyinin, ölkənin firavanlığa doğru inkişafının və demokratiyaya doğru yolunun əsasını qoydu. O, qətiyyətli, uzaqgörən və aydın düşüncəli idi. Bizim hər ikimiz onun qayğılı qonaqpərvərliyini hiss etdik, onu öz evimizdə qonaq kimi etmək şərəfi duyduq. Şəxsən mən onunla görüşlərdə Azərbaycan və Amerika arasındakı strateji əlaqələri formalaş-

---

[24] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[25] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[26] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.31
[27] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.34

dırmaq kimi nadir imkan əldə etdim. Üstəlik, olduqca maraqlı özəl söhbətlərimiz zamanı sovet tarixinin müxtəlif və çox vaxt da əvvəllər naməlum aspektləri haqqında öyrəndim[28].

*ABŞ-ın Stenford Universitetinin rektoru Elizabet Şervud* Prezident Heydər Əliyevi dünya dövlətlərinin liderləri arasında çox böyük nüfuza malik olan şəxslərdən hesab edib[29].

*Yeri gəlmişkən:* 26 fevral 2003-cü ildə Vaşinqtonda – Ağ evdə Azərbaycan Respublikasının Prezidenti ***Heydər Əliyevlə*** Amerika Birləşmiş Ştatlarının Prezidenti ***Corc Buşun görüşü*** olub. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və nəqli ilə bağlı məsələlər, Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında fikir mübadiləsi aparılıb.

Prezident Heydər Əliyev Xəzərin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və nəqli, Bakı-Tbilisi-Ceyhan layihəsi, Vaşinqtonda Azərbaycan, Gürcüstan, Türkiyə və Amerika Birləşmiş Ştatlarının "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda keçirilən birgə beynəlxalq konfransdan, əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi yolundakı maneələrdən danışıb. Azərbaycan Prezidenti deyib ki, bu layihənin həyata keçirilməsi yolundakı əngəllərə baxmayaraq, Azərbaycan neftin nəqli üçün seçilmiş marşrutun reallaşdırılmasına nail olub.

Prezident Corc Buş Bakı-Tbilisi-Ceyhan layihəsinin ABŞ üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb. Söhbət zamanı Prezident Heydər Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb və xəritə üzərində geniş məlumat verib. Dövlət başçısı qeyd edib ki, Ermənistanin təcavüzü nəticəsində on ildən çoxdur ki, Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətindədir, əksəriyyəti çadırlarda ağır, dözülməz şəraitdə yaşayır. Prezident Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın nizamlama prosesində öz səylərini artıracağına ümidvar olduğunu bildirib.

Prezident Corc Buş məsələ ilə bağlı dövlət katibi Kolin Pauellə tapşırıqlar verib.

Söhbət zamanı regionda və beynəlxalq aləmdə baş verən hadisələr barədə fikir mübadiləsi aparılıb.

---

[28] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[29] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

Görüşdə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Kolin Pauell, müdafiə naziri Donald Ramsfeld, Prezidentin milli təhlükəsizlik üzrə müşaviri Kondoliza Rays, Dövlət katibinin Avrasiya məsələləri üzrə müavini Elizabet Cons, ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avrasiya məsələləri üzrə direktoru Dan Frid, ABŞ-ın Azərbaycandaki səfiri Ross Uilson, Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev, iqtisadi siyasət üzrə dövlət müşaviri Vahid Axundov, Prezidentin İcra Aparatının şöbə müdiri Novruz Məmmədov, Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev və digər rəsmi şəxslər iştirak ediblər[30].

*Türkiyə Respublikasının mədəniyyət və turizm naziri Erkan Mumcu* Heydər Əliyevin *nadir dövlət adamı, beynəlxalq münasibətlərdə zəngin təcrübəsini* yüksək qiymətləndirərək deyib: "Dəyərli dövlət adamı Heydər Əliyevin... Azərbaycanın və bölgəmizdə sabitlik və inkişafın təmin edilməsində nadir dövlət adamına xas olan xüsusiyyətləri, beynəlxalq münasibətlər sahəsindəki zəngin təcrübəsi ilə mühüm rol oynamış və *böyük bir lider kimi* tarixdə öz yerini tutmuşdur"[31].

*Türkiyədəki Azərbaycan lobbisinin başqanı, professor Yəhya Taşdələn* Heydər Əliyevi *qurtuluş lideri* kimi səciyyələndirərək qeyd edib ki, son yüzilliyin tarixi-siyasi həyatında Allahın bir nemət olaraq Heydər Əliyevi bir rəhbər və qurtuluş lideri kimi xalqımıza göndərməsi türklük aləminin də xeyrinə olmuş və millətimiz şərəfi, şəxsiyyəti, heysiyyatı və mədəniyyəti etibarilə dünyada, iftixar edəcəyimiz yerini tutmuşdur[32].

*Görkəmli qırğız yazıçısı Çingiz Aytmatov* Ümummilli lideri müasir demokratik Avrasiyanın qurucularından olduğunu diqqətə çəkərək deyib ki, Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bu günkü qurucularındandır[33].

*Türkdilli Ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, professor İhsan Doğramacı* isə bildirib ki, Heydər Əliyev *müdrik dövlət xadimi, türkdilli kimi türkdilli xalqların* ən görkəmli liderlərindən biridir.[34]

*Cümhuriyyət xalq partiyasının sədri Dəniz Baykal* fəxrlə bildirib: *"Heydər* Əlirzaoğlu dünya şöhrətli bir liderdir". O, Atatürkün mənəvi övladıdır"[35].

---

[30] Azərbaycan Prezidenti Heydər Əliyev ilə ABŞ Prezidenti Corc Buşun görüşü. 03.03.2003. AZƏRTAC

[31] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.; s.35

[32] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[33] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[34] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[35] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.17

*YUNESKO-nun direktoru Federiko Mayor* isə etiraf edib ki, "Siz bütün dünyanın etiraf etdiyi görkəmli lidersiniz"[36].

*Norveçli dünya şöhrətli alim Tur Heyerdal* Heydər Əliyevin *həqiqi liderliyi* haqqında yazıb: "Doğrusunu deyim ki, Heydər Əliyev mənə son dərəcə xoş təsir bağışladı. O, özünü həqiqi lider kimi aparır və həqiqi lider kimi danışırdı"[37].

*Ukrayna prezidenti Leonid Kuçmanın* da fikirləri maraqlıdır: "Belə bir hal heyranlıq doğurur ki, hətta ən çətin sınaqlar zamanı da Siz *xalqın birliyini qoruyub* saxlaya bildiniz. Bunsuz hər hansı dövlətin varlığı ağılasığmazdır. Cənab Heydər Əliyev, Sizə həqiqətən qibtə edirəm. Bunu, doğurdan da, çox ciddi deyirəm. Çünki burada qısamüddətli dövlət səfərində olarkən başa düşdüm ki, Heydər Əliyev Azərbaycan xalqının hamı tərəfindən qəbul edilən lideridir"[38]. Ukrayna prezidentdi AzərTAc-ın müxbirinə müsahibəsində bildirib: "Azərbaycanın əvəzsiz lideri Heydər Əliyev mənim və Ukrayna xalqının yaxın dostu idi. Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf edib möhkəmlənmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir"[39].

*İordaniyanın kralı Hüseyn ibn Təlal* etiraf edib ki, Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi tədbirlərin, ölkənin müstəqilliyini qorumaq uğrunda atdığı mühüm addımların əks-sədası İordaniyaya da gedib çatmışdır[40].

Heydər Əliyevin Azərbaycan xalqına çox lazımlığını Avropa siyasiləri həmişə etiraf edib. *AŞPA-nın Siyasi Komitəsinin Azərbaycan üzrə məruzəçisi Jak Bomel deyib:* "Cənab prezident, ölkənizin qazandığı müvəffəqiyyətlər, əldə etdiyiniz tərəqqi, ümumiyyətlə, demokratiya sahəsində nailiyyətlərinizə, – baxmayaraq ki, bəzi müxalif qüvvələr bir qədər başqa cür danışırlar, – təkcə son zamanlar həyata keçirdiyiniz tədbirlər, türkdilli dövlətlərin başçılarının sammiti məni tam inandırır ki, Siz bu vəziyyətdə Azərbaycan xalqına hələ çox lazımsınız"[41].

*Jak Bomel* Ulu öndəri Fransanın keçmiş prezidenti general de Qolla müqayisə edib və onun bərabərtərəfli sülh siyasətini yüksək qiymətləndirib: "Cənab Prezident, Siz dünya, beynəlxalq aləm, region çərçivəsində düzgün

---

[36] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.17
[37] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[38] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.28
[39] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.40
[40] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.29
[41] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.136-137

xarici siyasət həyata keçirirsiniz. Mən sizi müəyyən mənada *Fransanın keçmiş prezidenti general de Qolla* müqayisə edirəm. Siz onun kimi mövqe tutaraq, bütün bloklardan kənarda duran bir siyasət yeridirsiz. Fikrimcə də, elə buna görə də Azərbaycanın Avropa ilə münasibətlərinin daha da yaxınlaşdırılması xüsusi əhəmiyyət daşıyır. Əslində, Avropa bütün sahələrdə Sizin dəstəyinizdir. Bu isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına kömək edir"[42].

*Gilyermo Martines Kasanın (İspaniya)* Heydər Əliyevin tarixi xidmətlərinə baxışının səciyyəvi dəyərləri Azərbaycanda demokratik standartları bərqərar etməsi ilə bağlı olub. *G.M. Kasan:* "Cənab prezident, son bir neçə il ərzində Sizin qarşınızda çox çətin vəzifələr olmuşdur. Bu vəzifələr birinci növbədə ölkənizin müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, ölkədəki ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, dövlətinizdə demokratik təsisatların yaradılması və inkişaf etdirilməsi, Azərbaycanda demokratik standartların bərqərar olunmasıdır. Bu sahədə əldə etdiyiniz nailiyyətləri yüksək qiymətləndiririk"[43],– deyə Ulu öndərə etiraf edibdir.

***

İbrahim Bayraqdar– *İraq Türkmənləri Məclisinin üzvü*, Hüseyn Bayraqdar– *Bayraqdar Holdinqin İdarə Heyətinin fəxri sədri* vurğulayıblar: "Dost və qardaş Azərbaycanın böyük öndəri, müstəqillik və demokratiya abidəsi Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar böyük kədər içindəyik. Bir türk iş adamı kimi 8 il əvvəl Azərbaycana gəldiyim ilk gündən etibarən işlərimə daim dəstək verən, yolumu açan və məni cəsarətləndirən Azərbaycan aşiqi olan bu böyük öndərin xatirəsi önündə hörmətlə baş əyirəm. Yeganə təsəllim Azərbaycanın gələcəyinə olan inamımdır"[44]. Heydər Əliyevi *bütün türk dünyasının böyüyü*, dünyanın isə *böyük bir övladı* hesab ediblər.

Avstriyada yaşayan soydaşlarımızdan *Elşən İsmayılov, doktor Cahangir ağa Talebi, Məsud Zaman, Bəhruz Bəbudi* Ulu öndəri *Dünya Azərbaycanlılarının lideri kimi* səciyyələndiriblər:"...Heydər Əliyev şəxsiyyətinə bütün ölkələrdə həmişə hörmətlə yanaşılıb. Çünki o, nadir şəxsiyyətlərdən biri idi. Tarix isə yüz ildə bir dəfə belə dahi şəxsiyyətlər yetirir. Onda heç kəs də olmayan güclü idarəçilik və dövlətçilik təcrübəsi vardı. 1993-cü ildə Azərbaycanı parçalamaq təhlükəsindən Heydər Əliyev böyük idarəetmə təcrübəsinə malik olması və bir şəxsiyyət kimi dəyərləndirilib xalqın təkidli tələbi

---

[42] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.137

[43] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.149-150

[44] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.

ilə hakimiyyətə gəlməsi qurtardı. Məhz buna görə də Heydər Əliyev adı müasir tariximizdə müstəqilliyin qorunması və dövlətçilik ənənəsinin formalaşması kimi qalacaq.

Heydər Əliyev adı həm də bütün dünya azərbaycanlılarının lideri kimi tarixə əbədi həkk olunmuşdur. Onun təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda keçirilmiş və bizim də iştirak etdiyimiz böyük toplantı dünyada yaşayan həmvətənlərimizin birləşməsi yolunda ilk addım idi.

Heydər Əliyev bütün dünyada yaşayan soydaşlarımıza arxa, dayaq idi. Hansı ölkəyə səfər edirdisə, orada yaşayan həm vətənlərimizlə görüşür, onları doğma vətəni unutmamağa çağırırdı. Avrasiyada yaşayan bütün soydaşlarımız adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, bütün Azərbaycan xalqına bütün dünya azərbaycanlılarının ümumilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar kədərləndiyimizi bildirir və dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!”[45]

*Rusiya Federasiyasının prezidenti Vladimir Putinin* də fikirləri əhəmiyyətlidir. Onun *AzərTacın müxbirinə müsahibəsindən* belə bir fikir keçib: “Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş ittifaq miqyasında tanınmış şəxsiyyət idi. Onun barəsində müxtəlif fikirlər var idi, amma mən şəxsən onunla tanış olduqdan və birgə işlədikdən sonra Heydər Əliyevə münasibətim kökündən dəyişdi. Başa düşdüm ki, *o heyrətamiz insan, ağıllı, dəqiq, bacarıqlı rəhbər, əsl siyasətçidir.* Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından çox-çox kənara çıxmışdı. Açıq deyim, Azərbaycanın bəxti gətirmişdir ki, *dövlətin başında Avropa və dünya miqyasında tanınan bir siyasətçi* dururdu. O, bir tərəfdən beynəlmiləlçi, digər tərəfdən isə öz yurdunun vətənpərvəri idi. Heydər Əliyev həm də Rusiyanın dostu idi”[46].

*Rusiya Federasiyasının prezidenti* Heydər Əliyevə *siyasət nəhəngi* deyib: “Heydər Əliyev həqiqətən Rusiyanın böyük dostu idi. Biz bunu həm də hiss edirdik, çox qiymətləndirirdik. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur... O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, *siyasət nəhəngi* idi. Mən ona sadəcə böyük hökmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim...”[47]

*Rusiya Federasiyası XİN Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, REA-nın müxbir üzvü A.B.Torkunov* Heydər Əliyevi *həs-*

---

[45] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşr., 2004, 296 s.; S.118-119
[46] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.39
[47] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.46

*sas insan, müdrik siyasətçi* kimi qiymətləndirərək bildirib ki, bu ali şəxsiyyət *Azərbaycan Respublikasının təşəkkülü və inkişafında* uzun illər müstəsna rol oynayıb. O, nəinki müdrik siyasətçi, həm də dərin düşüncəli bir insan kimi maraqlı musahib olub. Heydər Əliyevin *bənzərsiz natiq* kimi parlaq çıxışları və mühazirələri, o cümlədən, Fəxri doktoru olduğu *Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tələbə* və *müəllimləri* qarşısında, həmişə böyük maraq doğurub. Onunla ünsiyyətdə olanların, onu özünün şəxsi dostu hesab etmək istəyənlərin Heydər Əliyevi unutması çox çətindir[48].

*MDU-nun rektoru, Rusiya EA akademiki Viktor Sadovniçi* deyib ki, MDU-nun fəxri professoru Heydər Əlirza oğlu Əliyev *Azərbaycan Respublikasının təşəkkülünə və inkişafına*, *Azərbaycanın və keçmiş Sovet İttifaqının təhsil, elm və mədəniyyətinin inkişafına* çox böyük töhfələr verib.

Moskva Universiteti Heydər Əliyevin universitetə göstərdiyi çox böyük diqqəti xatırlayıb və yüksək qiymətləndirib. Moskva Universiteti Heydər Əlirza oğlu Əliyevin xatirəsini əbədi yaşadır və xalqlarımız arasında dostluğun möhkəmləndirilməsi və inkişafı üçün bütün lazımi işləri görür[49],– akademik Viktor Sadovniçi belə deyib.

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin* jurnalistlərlə söhbətindən də tipik bir nümunə: "Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Hamımıza məlumdur ki, Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görüb. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışdı"[50].

*Rəcəb Tayyib Ərdoğan Türkiyə Respublikasının Baş Naziri* olanda *AzərTacın müxbirinə müraciəti* zamanı bildirib: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə – Azərbaycan dostluğunu çox gözəl ifadə edən, "Bir millət, iki dövlət" –ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə edildiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq"[51].

*Böyük Britaniyanın baş naziri Toni Bleyerin* də fikirləri geniş miqyaslıdır: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, *böhranlar dövründə*

---

[48] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[49] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[50] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.40
[51] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.44

öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun *prezident kimi fəaliyyəti* dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və *Azərbaycan Avropa ilə əlaqələrini* daha da yaxşılaşdırdı. Onu 1998-ci ilin iyulunda *Britaniyaya uğurlu səfəri*, xüsusilə də, iqamətgahında bizim görüşümüz yaxşı yadımdadır. O, *Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini* qoydu. Fəxr edirik ki, *Britaniya şirkətləri* tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir"[52].

*Yaponiyanın baş naziri Drünitiro Koidruminin* regionda sülh və sabitliyin qorunması barəsində fikirlərindən də bir tezis: "Prezident Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasının, ölkənin bu günkü inkişafının təməlini qoymaqla bərabər, *regionda sülh və sabitliyin qorunması* istiqamətində misilsiz xidmət göstərən əvəzolunmaz bir lider idi"[53].

***

Heydər Əliyev *dövlət istiqlaliyyətini* xalqı üçün tarixi hadisə hesab edirdi, məqsəd və vəzifəni istiqlalı qorumaq, beynəlxalq mövqeləri möhkəmləndirməkdə görürdü. Ulu öndər *Azərbaycanda demokratik, müstəqil, sivilizasiyalı cəmiyyət* uğrunda mübarizə aparırdı, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə edirdi.

Böyük rəhbər inanırdı ki, "Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi olacaq, gələcək firavan həyatını özü quracaqdır"[54]. Ulu öndər bunun üçün çağırış edirdi ki, "Azərbaycan müstəqil dövlətdir və biz birinci növbədə ərazi bütövlüyümüzü təmin etməliyik. Müstəqil dövlət öz ərazisinin sahibi olmalıdır"[55]. Heydər Əliyev həmişə və tez-tez *"biz azad, müstəqil və demokratik dövlətik"* vurğusunu– qəlbinin döyüntüsünü, nidasını qürurla ifadə edirdi!

Heydər Əliyev *siyasi-diplomatik fəaliyyətində*– dövlət quruculuğu sahəsində nəinki tarixi-milli ənənələri, habelə, dünya təcrübəsini, demokratik prinsipləri əsas götürürdü.

O, milli ideologiyanın müəyyənləşməsində tarixi keçmişin, milli adət-ənənələrin, xüsusiyyətlərin varisliyinə əsaslanırdı, onu dövlətin bu günü və gələcəyi ilə möhkəm bağlayırdı.

---

[52] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.47
[53] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.48
[54] Heydər Əliyev.Müdrik fikirlər.İyun 1993 – 1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s.13-46
[55] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 – 1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s.13-46

Ölkə rəhbəri milli dövlət idealogiyası dedikdə ölkəmizin müstəqilliyini təmin edən milli-demokratik əsasları, demokratik dövlət quruculuğunu nəzərdə tuturdu. Milli dövlətçilikdə, daxlili və xarici siyasətdə xalqın iradəsinin beynəlxalq aləmdə təsdiqinə çalışırdı, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə fədakarlıq göstərirdi.

*Xalq ilə Azərbaycan Prezidentinin birliyi və həmrəyliyini* təmin etmək Ulu öndərin siyasi kredosu olub, dövlət müstəqilliyimizin təməl prinsiplərindən olub, irslə varisliyin vacib qarantı olub. Təsadüfi deyil ki, Heydər Əliyev yorulmaz siyasi və diplomatik fəaliyyətində daim xalqın qüdrətinə arxalanıb. Və ***Xalqın adamı*** statusunu, şükranlığını qazanıb. Heydər Əliyev *dövlətçilik, müstəqillik və demokratiya haqqında* mükəmməl təlimin siyasi varislərindən biridir.

Heydər Əliyev Azərbaycanın ***Qərbə doğru inteqrasiyasına*** *–onun Avropa Şurasına üzv qəbul edilməsi*nə gərgin zəhmət sərf edib. O, 1999-cu il dekabrın 8-də Prezident Sarayında AŞPA-nın Bakıda səfərdə olan nümayəndə heyətini – AŞPA-nın Siyasi Komitəsinin sədri Viktor Rufini, Komitənin Azərbaycan üzrə məruzəçisi Jak Bomeli, AŞPA-nın Hüquqi İşlər və İnsan Hüquqları Komitəsinin Azərbaycan üzrə məruzəçisi Corc Klerfaytı qəbul edib. Qəbul zamanı *AŞPA-nın Siyasi Komitəsinin sədri Viktor Rufi* deyib: "Cənab prezident, mən, cənab Bomel və cənab Klerfayt burada həm AŞ-nı, həm də Avropa dəyərlərini təmsil edirik. Sizin də bu gün bizi qəbul etməyiniz onu göstərir ki, bu dəyərlərə çox böyük əhəmiyyət verirsiniz.Cənab prezident, Sizin bu diqqətinizə cavab olaraq demək istəyirəm ki, biz bu səfərə gəlməzdən əvvəl çox iş görmüşük, fəaliyyət göstərmişik. Onu da deməliyəm ki, burada olduğumuz, işlədiyimiz zaman Sizin diqqətinizin davamı kimi tərəfdaşlarınızın da bizə böyük diqqətini hiss etmişik"[56].

*AŞPA-nın Siyasi Komitəsinin Azərbaycan üzrə məruzəçisi Jak Bomel* bildirib: "Bütün nöqteyi-nəzərdən, yəni həm *iqtisadi,* o cümlədən *enerji,* həm *siyasi* və həm də *strateji* cəhətdən gələcək üçün çox vacib olan bu regionda, sülh və təhlükəsizliyə böyük ehtiyac duyulan regionda əmin-amanlığın bərqərar olmasını istəyirəm. Cənab prezident, Siz bu yaxınlarda İstanbul Sammitində təhlükəsizlik və əməkdaşlıq paktı haqqında danışdınız. Mən istərdim ki, burada belə bir pakt yaransın, necə ki, Avropanın mərkəzində yerləşən dövlətlər sülh və təhlükəsizliyi təmin etmək üçün bu yoldan istifadə edirlər. Siz Avropanın elə bir cinahında yerləşirsiniz ki, ölkənizin həm Şi-

[56] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.125

malda, həm Cənubda, həm də digər istiqamətlərdə müxtəlif qonşuları var. Ona görə də biz Avropa olaraq Sizi hərtərəfli dəstəkləməliyik”[57].

*AŞPA-nın Hüquqi İşlər və İnsan Hüquqları Komitəsinin Azərbaycan üzrə məruzəçisi Corc Klerfayt* isə H. Əliyevin *iş üsulundan irəli gələn reallıqları* ifadə edərək deyib: “Həqiqətən demək istəyirəm ki, mən çox böyük bir təəssürat altındayam. Bu təəssürat, yalnız və yalnız Sizin dediyiniz iqtisadi nəticələrdən deyil, - əlbəttə, onların da böyük rolu var, - Azərbaycanın indiyə qədər, ümumiyyətlə, gördüyü nəhəng işlərdən doğmuşdur. Bu, Azərbaycanın bir çox strukturlarının – Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, başqa orqanların gördükləri işlərin təəssüratıdır”[58].

*AŞPA-nın Siyasi Komitəsinin sədri Viktor Rufi*: “Cənab Prezindent, əgər izn versəydiniz, bu cür xoş sözlərdən sonra mən bir neçə kəlmə deyərdim. Mən Sizi Cenevrəyə dəvət edirəm. Cenevrəyə gəlin, mən sizi qarşılamağa həmişə hazıram. Sizdə çox gözəl bir məqsəd var, – dünyada ən vacib məsələlərdən biri – Sülh axtarmaq məqsədidir”[59],– deyə siyasi xadim Heydər Əliyevin sülh siyasətinə yüksək qiymət verib.

*Viktor Rufi* Heydər Əliyevə olan rəğbətini ifadə edərək bildirib: “Mən buraya gələndə çox fikirləşdim ki, özümlə İsveçrə şokoladı, yoxsa saatı götürüm? Nədənsə, şokolad üzərində dayandım və indi görürəm ki, çox düz eləmişəm. Mən Sizin üçün xüsusi olaraq şokolad qutusu sifariş verib hazırlatdırdım. İndi də onu Sizə təqdim etmək istəyirəm.

Heydər Əliyev: –Sağ olun, çox gözəl hazırlanıbdır. Bunu nəvələrimlə yeyəcəyik və Sizi yad edəcəyik. Təşəkkür edirəm”[60].

*AŞPA-nın Siyasi Komitəsinin Azərbaycan üzrə məruzəçisi Jak Bomel* Heydər Əliyevin iş rejiminə, onun fəaliyyət dinamikasına, habelə, Fransa Respublikasının prezidenti Jak Şirakın onun gördüyü işlərə heyranlığını da gizlətməyib: “Cənab Prezident, mən həm də çox məmnunam ki, xoşbəxtəm ki, Sizin səhhətinizi əla vəziyyətdə görürəm. Çünki bu günlər ərzində mən də Sizin yanınızda olmuşam. Bu iş rejimi də, belə bir dinamika ilə işləmək başqa insanlar üçün, hətta müxtəlif yaşlarda olan bütün olanlar üçün və

[57] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.127

[58] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.128

[59] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.132

[60] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.133

həddindən artıq çətin olardı. Mən çox şadam ki, sağlamlığınız belə gözəl, yüksək vəziyyətdədir.

Cənab Prezident, mən bir məsələni də deməkdən çox məmnunluq duyuram. Bildirmək istəyirəm ki, Fransa Respublikasının prezidenti Jak Şirak Sizə yenə də əvvəlki kimi yaxşı münasibət bəsləyir. O, Sizin burada gördüyünüz işlərə heyrandır və bütün bu işlərinizdə Sizə tam dəstəyini göstərir"[61],– deyə məlumat bildirib.

Heydər Əliyev 2000-ci il dekabrın 16-da Prezident sarayında AŞPA Komitəsinin sədri Andreas Qrossun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə *ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) direktoru Jerar Ştudman, AŞPA-nın və DTİHB-nin təmsilçiləri* daxil olub. Dekabrın 17-də həmin nümayəndə heyətini qəbul edib.

*AŞPA Komitəsinin sədri Andreas Qrossa* Heydər Əliyevin təşəkkürü müqabilində o bildirib: –Yox, bu, əziyyət deyil, biz işlərimizdən zövq alırıq. İsveçrəlilər yaşamaq üçün işləyirlər, amma italyanlar işləmək üçün yaşayırlar.

2001-ci il yanvarın 8-də Heydər Əliyev Prezident sarayında beynəlxalq təşkilatların – AŞPA, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Parlament Assambleyası və AŞ Nazirlər Komitəsinin "AQO" Monitorinq Qrupunun nümayəndə heyətinin rəhbərlərini qəbul edib. *AŞ Nazirlər Komitəsinin "AQO" Monitorinq Qrupunun rəhbəri, Avropa Şurasında İtaliyanın səfiri Pyetro Erkole Aqo* AŞ-ya qəbulun nəticələri haqqında deyib: "Cənab Prezident, beynəlxalq müşahidəçilərin gəldiyi rəylər ilə tanış olduqdan, o cümlədən xanım Kokkonenin, cənab Qrossun, cənab Ştudmanın söylədiklərindən sonra mən də bir daha əmin oldum və bizim özümüzün də gəldiyimiz qənaət belədir ki, yanvarın 17-də AŞ Azərbaycanın bu təşkilata qəbul edilməsi üçün müsbət qərar verə bilər"[62].

Beləliklə, *Azərbaycan 17 yanvar 2001-ci ildə Avropa Şurasına üzv* qəbul edilib.

*Belçika parlamentinin deputatı Corc Klerfayt* Heydər Əliyevə olan ümumxalq məhəbbətinin səciyyəvi bir faktını xatırladıb. Ona müraciətlə bildirib: "Cənab Prezident, mən bilirəm ki, Siz çox güclü bir şəxsiyyətsiniz. Bunu söhbətlərimizdə də hamı bizə demişdir ki, *Siz çox güclü, gözəl və cazibədar şəxsiyyətsiniz.* Mən sizə Sabirabaddan bir salamı çatdırmaq istəyi-

---

[61] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.135-136

[62] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.171

rəm. Mən Sabirabad rayonunda 4 yaşında olan bir uşaqla söhbət etdim. Azərbaycanda kimin prezident olduğunu soruşduqda o dedi ki, *Prezident Heydər babadır*, hətta sizin haqqınızda bir mahnı da oxudu, o salamını Sizə çatdırmağımı xahiş etdi"[63]...

*Avropa Şurasının baş katibi Valter Şvimmer* deyib: "Prezident Heydər Əliyev ilkin keçid dövrünün çətin zamanlarında Azərbaycanın sükanı arxasında durdu. O, ölkəni uzaqgörənliyi, nüfuzu və dövlət xadimi məharətilə irəli apardı. O, xalqının böyük kütlələrinin dəstəyini və sevgisini qazandı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Avropa Şurasına daxil oldu və demokratik dəyişikliklər üzrə üzərinə böyük öhdəliklər götürdü... Bu missiyanı yerinə yetirməklə Azərbaycan AŞ-nın dəstəyinə bel bağlaya bilər"[64].

"Avropa Şurası Nazirlər Komitəsinin dekabrın 17-də keçirilən növbəti iclasında Nazirlər Komitəsinin sədri, Niderlandın daimi nümayəndəsi *Y.Landman* Komitə adından çıxışında bildirib:

– O, Prezident Heydər Əliyevi görkəmli şəxsiyyət kimi səciyyələndirərək, bu dahi insanın rəhbərliyi altında Azərbaycanda sabitliyin bərqərar edildiyini, Azərbaycanın Avropa ailəsinə, xüsusən, Avropa Şurasına daxil olmasında xüsusi sözləri və xidmətlər göstərdiyini vurğulayıb, xalqın kədərinə şərik olduğunu bildirib. *NK-nin "Aqo" monitorinq qrupu adından çıxış edən İtaliyanın daimi nümayəndəsi P.Aqo* Azərbaycan tərəfinə səmimi kədər hissini çatdırıb. O, Azərbaycana səfərləri çərçivəsində prezident Heydər Əliyevlə görüşlərinin xoş xatirəsini yada salıb. Ölkənin demokratiya yolunda qazandığı uğurlarda bu şəxsiyyətin mühüm rolunu yüksək qiymətləndirib[65].

*Avropa Şurası və Azərbaycan*: *sülh, əmin-amanlıq və demokratiya naminə"* kitabı 2001-ci ildə çapdan çıxıb. Avropa Şurası və Azərbaycan münasibətlərini, Heydər Əliyevin bu sahədə tarixi rolu və xidmətlərini, Assambleyaya daxil olmaq cəhdləri və onun uğurlu nəticələrini əks etdirib. Əsərdə Ulu Öndərin Avropa tərəfindən baxışının persektivlərini *Parlament Assambleyasının sədri lord Rassel-Conston* yüksək səciyyələndirib.

*Koreya Respublikasının prezidenti No Mu Hyun: "*Mən Koreya–Azərbaycan münasibətlərinin inkişafında Prezidentin xidmətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, onun xidmətləri ölkələrimiz arasında dostluq

---

[63] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.202-203

[64] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

[65] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.60

münasibətlərinin daha da inkişaf etməsinin möhkəm təməli olacaqdır",– deyə ümidvar olduğunu söyləyib.

Livan siyasi xadimi Kamal Şatika *ərəblərin azadlıq mübarizəsi* məsələsində Heydər Əliyevin rolunu yada salıb. O, bildirib ki, Sizin haqqınızda çox eşitmişik, çox oxumuşuq, bilirdik ki, ərəblər və onların azadlıq mübarizəsi ilə bağlı problemləri barəsində sovet siyasətinin müəyyənləşdirilməsində rolunuz sanballı olmuşdur[66].

*Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Vladimir Ruşaylo* Heydər Əliyevin Qafqazda sabitlik sahəsində səylərini nəzərə alıb: "Sizin Qafqazda sabitliyə nail olmaq məqsədlərinə yönəldilmiş səylərinizi qiymətləndiririk. Bu, Rusiyada sizə dərin ehtiram qazandırmışdır. Moskvada yaxşı xatırlayırlar ki, Siz Sovet İttifaqında yüksək dövlət vəzifələrində olarkən, o vaxt vahid dövlətimizin təhlükəsizliyinin möhkəmlənməsi üçün olduqca çox işlər görmüsünüz[67], –deyib.

*Akademik, Tbilisi Dövlət Universitetinin rektoru Roin Metreveli* Heydər Əliyevi *görkəmli siyasətçi, Azərbaycan xalqının sədaqətli oğlu, ümumbəşəri ideallar uğrunda mübariz*, gürcü xalqının dostu, Tbilisi Dövlət Universitetinin fəxri doktoru kimi dəyərləndirib: Heydər Əliyevin müdrik və uzaqgörən siyasətçi kimi tarixi mövqeyini vurğulayıb. Bildirib ki, Heydər Əliyevin rəhbərliyi ilə ölkəsi həqiqi müstəqillik qazanıb, xalqlarımız, habelə, universitetlərimiz arasındakı ənənəvi qardaşlıq münasibətləri onun müdrik və uzaqgörən siyasəti sayəsində yeni məzmun kəsb edib.

Məhz dünya siyasətinə böyük təhfəsinə, gürcü və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirdiyinə görə, Tbilisi Dövlət Universitetinin Elmi Şurası cənab Heydər Əliyevi fəxri doktor seçmişdir. Biz onun Elmi Şura qarşısında çıxışını yaxşı xatırlayırıq. Onun Gürcüstana məhəbbəti hər kəlməsində hiss olunurdu...[68]

*Macarıstan diplomatı Yanq Hovari* Heydər Əliyevin elit şəxsiyyəti, siyasi nüfuzu haqqında bunları yazıb: "H.Əliyev dünyanın yeni nüfuz dairələrinə bölünməsi prosesinin mərkəzində dayanan şəxslərdəndir. O, dünya siyasətində olduqca nüfuzlu siyasi xadimdir. ATƏM-ə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısının 6 dekabr 1994-cü ildə keçirilən yekun iclası Heydər Əliyevin qələbəsi, onun ideyasının təntənəsi ilə başa çatdı"[69].

---

[66] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.17
[67] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.36
[68] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[69] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.21

*Macarıstan Respublikasının Prezidenti Ferents Madl* cənab Prezidentin siyasi rəhbər və dost kimi şəxsiyyətini önə çəkib: "Onun şəxsində biz beynəlxalq siyasi həyatda görkəmli yer tutmuş *siyasi xadimə*, Macarıstan – Azərbaycan münasibətlərini dəstəkləyən dövlət rəhbərinə, macar xalqının böyük dostuna hörmət bəsləyirik..."[70]

*Misir diplomatı Faruq əl-Həvari:* "Bu, həm Azərbaycan, həm də digər xalqların xoşbəxtliyidir ki, Heydər Əliyev yenidən fəal siyasətçidir. Biz əminik ki, Heydər Əliyev ona bəxş olunmuş böyük istedaddan, öz təcübəsindən, bacarığı, diplomat qabiliyyətindən istifadə edərək, bu regiona sülh və əmin-amanlıq gətirəcəkdir. Mənə elə gəglir ki, bu məqsədə çatmaq üçün Azərbaycan doğru yoldadır"[71],– deyə inamını ifadə edib.

Ümummilli liderin dəyərləndirilməsinin müxtəlif yönləri onun *şəxsiyyəti, siyasi xadimliyi, diplomatiyası* və *mədəniyyəti* ilə bağlı olubdur.

*Portuqaliya Respublikasının Prezidenti Mario Soaresı* deyib: "Mənim Azərbaycan haqqında ətraflı məlumatım var və Heydər Əliyevi *dünyanın görkəmli siyasi xadimi* kimi tanıyıram"[72].

*ABŞ-ın vitse-prezidenti Dik Çeyni* yazıb ki, hazırda ölkələrimizin bəhrələndiyi dostluq münasibətləri Heydər Əliyevin *qətiyyəti* və *liderliyinin* irsidir. Buraya bizim *terrorizmə* qarşı mübarizədə sıx əməkdaşlığımız da daxildir. Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın *unuzmüddətli iqtisadi firavanlığının* əsasını qoydu. O, Dağlıq Qarabağ *münaqişəsinin* sülh yolu ilə həll olunması yolunda çox çalışdı. Birləşmiş Ştatlar onun qoyduğu bu möhtəşəm əsaslar üzərində əlaqələri inkişaf etdirməyi davam edərək, Azərbaycanın suverenliyini, firavanlığını və demokratik inkişafını dəstəkləyəcəkdir[73].

*Yaponiya diplomatı Xiromoto Seki* də qiymətləndirməsində səmimidir. O bildirib ki, dünyanın ən müdrik siyasi xadimlərindən biri olan Heydər Əliyevlə görüşmək çoxdankı arzum idi. Mən hələ cavanlığımda onun haqqınızda çox eşitmişəm...Biz prezident Heydər Əliyevlə görüşümüzü bütün səfərlərimizin ən ali, ən mühüm görüşü sayırıq. Onun möhkəm yaddaşı məni heyrətləndirir. Heydər Əliyev kimi müdrik rəhbər Azərbaycana rəhbərlik etdiyinə görə *Yaponiya– Azərbaycan münasibətləri* sürətlə inkişaf edə bilər. Biz təkcə bu region barədə deyil, bütün MDB məkanı haqqında onun məsləhətlərini dinləmək niyyətindəyik[74].

---

[70] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[71] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.25
[72] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.30
[73] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[74] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.38

*Gürcüstan Respublikasının prezidenti Eduard Şevarnadzenin* də fikirləri tarixidir: *"*Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış *siyasət və dövlət xadimi* kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin *"polad iradəli Əliyev"* yazdığı kimi o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

...Bizim dostumuz, qardaşımız Azərbaycan Prezidentinin qarşısında etiraf etmək istəyirəm ki, burada yaşayan arzulara qarşı bir neçə il bundan əvvəl ədalətsiz hərəkətlərə yol verilmişdir. Mən Azərbaycan prezidenti Heydər Əliyevin yanında kişi kimi söz verirəm ki, o qara günlər Gürcüstanda bir daha təkrak olmayacaq"[75].

*Özbəkistanın keçmiş rəhbəri Şərəf Rəşidovun ailəsi* Heydər Əliyevin *dostluq anlayışının* mənasını anladaraq yazıb: "Əziz Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri qəlbimizdə dərin kədər hissi doğurdu. Geniş qəlbli bu görkəmli dövlət xadiminə ailəmizdə dərin hörmət bəslənilirdi. Atamızı və Heydər Əlirza oğlunu qardaşlıq, dostluq, qarşılıqlı məhəbbət və sədaqət telləri birləşdirirdi... Heydər Əlirza oğlunun xatirəsi heç zaman unudulmayacaqdır"[76].

*YUNESKO-nun baş direktoru Koiçiro Matsuura* cənab Prezident İlham Əliyevə xitabla deyib: "Atanız Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə qarşıladım. Onu şəxsən tanıyırdım və təşkilatımızın fəaliyyət və məqsədlərinə marağını yüksək qiymətləndirirəm"[77].

*Amerika və Azərbaycan Dostluq və Kültür dərnəyinin rəhbəri Doktor Firuz Heyət* söyləyib: "Sizin siyasi zəka və təcrübəniz bütün dünyanın diqqətini cəlb etmiş və Azərbaycan beynəlxalq miqyasda özünə layiq yerini almışdır"[78].

*ABŞ dövlət katibinin I müavini Riçard Armitac* Azərbaycanın Vaşinqtondakı səfirliyinə gələrək matəm kitabına ürək sözündən sonra *AzərTAC müxbirinə müsahibə* verib. O bildirib: "Dövlət katibi Kolin Pauell və ABŞ Dövlət Departamentindəki bütün həmkarlarını bu gün mənə qoşularaq Heydər Əliyev ailəsinə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirlər. Bizim üçün o, *həyatın özündən böyük bir insan* idi. Məncə, *dünya onun yoxlu-*

[75] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.39
[76] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[77] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[78] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

*ğundan bir qədər balacalaşmışdır.* Biz Tanrının rəhmli və xeyirxah olduğuna inanırıq. Əminəm ki, o, sonsuzadək Heydər Əliyevə rəhmli olacaqdır. Bilirik ki, millətiniz İlham Əliyevin rəhbərliyi altında Heydər Əlirza oğlunun bu ağır itkisinə tab gətirə biləcəkdir. Mənim xalqım sizi tamamilə dəstəkləyəcəkdir[79].

Rusiyanın *"Çrezvıçaynoye proisşestviye" qəzetinin xüsusi buraxılışı* Ümummilli lider Heydər Əliyevin 75 illiyinə həsr edilib.

Yubiley mərasimi Azərbaycan, Gürcüstan, Rusiya, MDB ölkələri, habelə, dünyanın digər dövlətlərində qeyd edilib. Ulu öndərə təbrikləri iri dövlətlərin başçıları, hətta məktəblilər çatdırıb. *"Tarixə addımlamış insan"* məqaləsində belə yazılıb...

*Azərbaycan və ABŞ liderlərinin* yüksək rütbəli rəsmilərinin müxtəlif vaxtlarda görüşləri keçirilib.

1 avqust 1997-ci ildə Vaşinqtonda Azərbaycanla ABŞ arasında dəyəri milyardlarla dollar olan *neft sazişinin imzalanması* zamanı Heydər Əliyev və ABŞ-ın vitse-prezidenti Al Gore arasında görüş keçirilib. Görüşdə ABŞ-ın Dövlət Katibi Madeleine Albright də iştirak edib.

1 avqust 1997-ci ildə Vaşinqtonda ***Heydər Əliyev*** *və* ***Bill Clinton*** arasında ABŞ –Azərbaycan əlaqələri barədə *birgə bəyanat* imzalanıb. Bundan əvvəl iki dövlət başçısı mühüm neft sazişini imzalayıb.

15 fevral 2000-ci ildə ABŞ prezidenti *Bill Clinton* və Azərbaycan prezidenti *Heydər Əliyev* Ağ Evdə, Oval Ofisdə görüşüblər.

3 aprel 2001-ci ildə Key West, Floridada *Heydər Əliyev* ABŞ Dövlət Katibi *Colin Powell* ilə birlikdə Key West sülh danışıqları keçirib. Powell Azərbaycan və Ermənistan liderlərini "hər iki tərəfi qane edən saziş" tapmağa səsləyib.

26 fevral 2003-cü ildə ABŞ prezidenti *George W. Bush* Oval Ofisdə Prezident *Heydər Əliyevlə* görüşüb. Ağ Ev görüşü bəyan edəndə deyib ki, qlobal təhlükəsizlik və terrora qarşı mübarizəyə gəldikdə Azərbaycan ABŞ-ın mühüm müttəfiqidir.

***

27 iyul– 7 avqust 1997-ci ildə ***Heydər Əliyev ABŞ-da rəsmi səfərdə*** olub. Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqaməti Amerika Birləşmiş Ştatları ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi olub. Heydər Əliyev bildirib: «Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələrinin əhəmiyyəti ondan ibarətdir ki, ümumiyyətlə, Qərb demokratiyasını, mədəniyyətini Qərbdə həm iqtisadiyyat, həm siyasət sahə-

---

[79] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.61

sində, həm də ictimai sahədə əldə olunmuş nailiyyətləri öyrənmək, onlardan bəhrələnmək, istifadə etmək, bu təcrübəni Azərbaycanda tətbiq etmək müstəqil dövlət kimi, tutduğumuz yolda çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Amerika Birləşmiş Ştatları xüsusi yer tutur. Qərb texnologiyasını, Amerika texnologiyasını, Amerikanın iqtisadiyyatında inkişaf etmiş təcrübəni, prinsipləri, nailiyyətləri öyrənmək və onları Azərbaycana gətirmək, hesab edirəm ki, Azərbaycanın gələcəyi üçün çox lazımdır, zəruridir. Bunlarla yanaşı, şübhəsiz ki, Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq etmək və bu əməkdaşlığı bütün sahələrə yaymaq da bizim həm dövlət quruculuğumuz üçün, həm də beynəlxalq aləmdə özümüzə layiq yer tutmaq üçün, Azərbaycanın ən böyük problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün çox əhəmiyyətlidir və çox vacibdir.»

27 iyul –7 avqust 1997-ci il tarixdə Ağ evdə, Dövlət Departamentində və digər təşkilatlarda yüksək səviyyədə görüşlər keçirilib. Səfər zamanı ikitərəfli münasibətlər, regional vəziyyət, qarşılıqlı beynəlxalq münasibətlər, energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.
1997-ci il avqustun 1-də əsas görüş ABŞ Prezidenti ***Bill Klinton*** ilə olub. Vacib rəsmi sənədlər imzalanıb.

Görüş zamanı Bill Klinton Prezident Heydər Əliyevin Azərbaycanda gördüyü işləri, apardığı siyasəti, çətin şəraitdə ölkədə sabitlik və əmin-amanlıq yaratdığını yüksək qiymətləndirib.

Avqustun 1-də Ağ evin Ruzvelt otağında ABŞ –Azərbaycan münasibətləri haqqında Birgə bəyanat verilib. Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və qarşılıqlı təşviq edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və ABŞ Hökuməti arasında müqavilə imzalanıb.

Birgə bəyanat zamanı Prezident Klinton Birləşmiş Ştatlar və Azərbaycan arasında sıx əlaqələrin regionda sülhün, sabitliyin və rifahın təmin olunması üçün vacib olduğunu, ABŞ-ın Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişafını dəstəklədiyini bildirib.

Səfər zamanı ABŞ və Azərbaycan arasında müdafiə və hərbi sahələrdə gələcək münasibətlər haqqında birgə bəyanat, iki ölkə arasında energetikanın inkişafı üzrə ikitərəfli bəyanat, layihələrin təşviqinə dair Azərbaycan Respublikası hökuməti, Milli Bankı ilə ABŞ-ın İxrac-İdxal Bankı arasında baş saziş, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə ABŞ-ın neft şirkətləri arasında imzalanmış dörd sazişdə ölkələrarası qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri hər iki tərəfin maraqlarına cavab verib. İlk dəfə Ağ ev-

də neft müqavilələrinin imzalanması Heydər Əliyevin ABŞ-a səfərinə verilən əhəmiyyətin göstəricilərindən olub.

1992-ci ilin oktyabr ayında qəbul olunmuş «Azadlığı müdafiə aktı»na 907-ci düzəlişin iki ölkə arasında əməkdaşlığı məhdudlaşdırdığı qeyd edilib və bu düzəlişin ləğv olunması ABŞ Prezidenti tərəfindən dəstəklənib.

Səfər ərzində Heydər Əliyev ABŞ-ın Vaşinqton, Nyu-York, Hyuston və Çikaqo şəhərlərində bu ölkənin dövlət başçısı, nazirlər, işgüzar dairələrin nümayəndələri, diaspor üzvləri və media mənsubları ilə bütövlükdə 88 görüş keçirib.

Prezident Heydər Əliyevin ABŞ-a səfəri dünyanın kütləvi informasiya vasitələri, görkəmli siyasətçiləri tərəfindən uğurlu səfəri kimi dəyərləndirilib. «Nyu-York Tayms» qəzeti yazıb: «...Prezident Klinton Əliyevə bir qəhrəmana layiq münasibət nümayiş etdirdi»[80].

Səfər əhəmiyyətinə, keçirilən görüşlərin sayı və dəyərinə, imzalanan sənədlərin vaciblik dərəcəsinə görə tarixi hesab olunub. Amerikanın görkəmli siyasi xadimi Ziqmund Bjezinski Heydər Əliyevin ABŞ-a rəsmi səfərini Amerikanın Qafqazda yeritdiyi regional siyasətdə yeni mərhələnin başlandığını sübut edən epoxal və tarixi hadisə kimi dəyərləndirib[81].

Fevralın 2-də Azərbaycan Prezidenti ***Heydər Əliyev*** ABŞ-ın keçmiş Prezidenti ***Bill Klintonla*** görüşüb. Cənab Klinton Dünya İqtisadi Forumunun Nyu-Yorkda keçirilən illik iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevi dostcasına, səmimiyyətlə salamlayıb.

Amerikanın Prezidenti olarkən Azərbaycan Prezidenti Heydər Əliyev ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırladığını bildirən Bill Klinton həmin dövrdə ölkələrimiz arasında yaranmış dostluq, sıx əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirib.

Söhbət zamanı Prezident Azərbaycanda gedən proseslərə, aparılan islahatlara, respublikamızın ən ağrılı problemi olan Ermənistan –Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində görülən işlərə böyük maraq göstərdiyini bildirib.

Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və nəqli məsələsinə ABŞ hökumətinin dəstəyindən söhbət açan Bill Klinton ATƏT-in İstanbul sammiti zamanı özünün iştirakı ilə imzalanmış Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinin böyük əhəmiyyətini vurğulayıb.

---

[80] «Nyu-York Tayms» qəzeti. 18 avqust 1997-ci il

[81] Yenə orada

Prezident Heydər Əliyev Bill Klinton ilə görüşündən şad olduğunu, Amerika Birləşmiş Ştatlarına səfərləri, müxtəlif beynəlxalq tədbirlər zamanı onunla görüşlərini məmnuniyyətlə xatırladığını bildirib.

Ölkəmizdə baş verən proseslərdən danışan Prezident Heydər Əliyev Ermənistan – Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı birləşmələrinin işğalı altında qaldığını, doğma yurd-yuvasından didərgin düşmüş bir milyondan çox soydaşımızın əksəriyyətinin çadırlarda ağır, dözülməz şəraitdə yaşadığını bildirib, münaqişənin aradan qaldırılması sahəsində aparılan danışıqlardan söz açıb.

Dostluq və səmimilik şəraitində keçən söhbət zamanı bir sıra digər beynəlxalq və regional məsələlər barəsində də fikir mübadiləsi aparılıb[82].

Azərbaycan Prezidenti Heydər Əliyevin Prezident Bill Klintonla görüşü zamanı *ABŞ prezidenti* deyib: "Hörmətli cənab prezident!

Sizinlə yenidən görüşməyimdən çox məmnunam. Keçən ilin noyabr ayında İstanbulda Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə tarixi sazişin imzalanması mərasimində iştirakımı məmnuniyyətlə xatırlayıram. Mən əminəm ki, Xəzər hövzəsi ölkələrinin zəngin enerji ehtiyatlarının dünyanın aparıcı neft şirkətləri ilə birgə işlənilməsi regionun bütün dövlətlərinin inkişafına xidmət edəcək, Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin suverenliyi və müstəqilliyinin daha da möhkəmləndirilməsinə töhfə verəcəkdir. Onu da deməliyəm ki, Bakı-Ceyhan və Transxəzər boru kəmərləri kimi nəhəng layihələrin həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayır. Mən məmnunam ki, ötən illər ərzində Prezident Əliyev ilə aramızda olan sıx əməkdaşlıq yaxın dostluğa çevrilmişdir.

Ümidvaram ki, ölkələrimiz arasında enerji sektorunda memarı olduğumuz "Əsrin müqaviləsi"ndən başlanan çox uğurlu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir. Mən Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış strateji əməkdaşlığı yüksək qiymətləndirirəm.

Əminəm ki, ölkələrimizin bütün sahələrdəki qarşılıqlı surətdə faydalı əlaqələri bundan sonra daha da genişlənəcəkdir. Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Sizinlə prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqlar Amerika Birləşmiş Ştatları tərəfindən dəstəklənir. Bu münaqişənin tezliklə aradan qaldırılması üçün şəxsi səylərimi artırmağa və Minsk qrupunda Amerika Birləşmiş Ştatlarının fəaliyyətini gücləndirməyə hazıram.

---

[82] Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın keçmiş Prezidenti Bil Klintonla görüşü. AZƏRTAC. 06 fevral 2002-ci il

Əminəm ki, Ermənistan –Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına, region dövlətlərində demokratiyanın inkişaf etməsinə və onların arasında iqtisadi əməkdaşlığın genişlənməsinə kömək edəcək və bu regionda yaşayan xalqların maddi rifah halının yüksəlməsinə öz töhfəsini verəcəkdir”[83].

*Prezident Heydər Əliyev* cavabında bildirib: ”Hörmətli cənab Bill Klinton! Sizinlə növbəti dəfə görüşməyimdən məmnunam. Mən Sizinlə olan şəxsi dostluq münasibətlərimi də yüksək qiymətləndirirəm. Ötən ilin noyabr ayında ATƏT-in İstanbul zirvə görüşü çərçivəsində məşhur "Çırağan" sarayında Bakı-Ceyhan əsas İxrac neft boru kəmərinin çəkilməsi barədə sazişin imzalanmasını tarixi hadisə kimi dəyərləndirirəm. Bu mərasimdə Amerika Birləşmiş Ştatları prezidentinin iştirak etməsi, sazişə imza atması həmin sənədin həyata keçirilməsi üçün əhəmiyyətlidir.

Azərbaycanın və bütün regionun inkişafına təkan verən bu nəhəng layihələrin həyata keçirilməsinə verdiyiniz dəstəyə görə Sizə, cənab Klintona minnətdarlığımı bildirirəm. Mən əminəm ki, Azərbaycanın zəngin enerji ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və Qərbin aparıcı neft şirkətləri ilə birgə işlənilməsi sahəsində ölkəmizin əməkdaşlığı bundan sonra da davam edəcəkdir.

Onu da deməliyəm ki, Ermənistan– Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün prezident Koçaryanla apardığım danışıqlar barədə Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Olbrayt ilə görüşümdə ətraflı müzakirələr keçirmişik.

Bu Sülh prosesinin davam etməsini daim diqqətinizdə saxladığınıza və danışıqların uğurla başa çatması üçün göstərdiyiniz şəxsi səylərə və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan ilə Amerika arasındakı strateji tərəfdaşlıq münasibətləri bundan sonra daha da güclənəcəkdir.

Ölkələrimiz arasında çoxtərəfli iqtisadi əlaqələrin bütün sahələrdə genişlənməsi üçün bu yaxınlarda Amerika Birləşmiş Ştatları və Azərbaycan hökumətləri arasında birgə işçi qrupunun yaradılması barədə əməkdaşlıq memorandumunun imzalanması mühüm əhəmiyyət daşıyır. ABŞ-ın işgüzar dairələrinin Azərbaycanda qarşılıqlı surətdə faydalı iş görməsi və sərmayə qoyması üçün bundan sonra da hər cür şərait yaradılacaqdır[84].

---

[83] ABŞ, Davos, 29 yanvar 2000-ci il. “Heydər Əliyev irsi” beynəlxalq elektron kitabxana. Elektron ünvanı

[84] Yenə orada

Prezident ***Heydər Əliyev*** *ABŞ-ın keçmiş dövlət katibi* ***Henri Kissincer*** ilə ilk dəfə 1995-ci il oktyabrın 21-də BMT-nin 50 illik yubileyində iştirak etmək üçün ABŞ-a səfər edərkən Nyu-Yorkda görüşüb.

ABŞ-ın sabiq dövlət katibi, siyasi xadim Henri Kissincer 1999-cu ilin yanvarında Azərbaycanda səfərdə olub. Onu prezident sarayında dövlət başçısı Heydər Əliyev qəbul edib. Prezident Heydər Əliyev Azərbaycana səfərinə görə Kissincerə təşəkkür edərək bildirib: "Sizi Azərbaycanda yaxşı tanıyırlar. Amma sizi təkcə Azərbaycanda yox, bütün dünyada, hər yerdə yaxşı tanıyırlar. Çünki siz 70-ci illərin əvvəllərindən Amerika Birləşmiş Ştatlarının dövlətində böyük vəzifə tutaraq, eyni zamanda dünya siyasətində çox görkəmli yer tutmusunuz. Sevindirici haldır ki, o vaxtdan indiyə qədər siyasət səhnəsindən düşməmisiniz. O illər mənim xatirimdədir. Xüsusən, Sovet İttifaqı ilə Amerika Birləşmiş Ştatları arasında tərk-silahla əlaqədar danışıqlar gedən zaman Kissincerin adı, demək olar ki, hər gün Sovetlər İttifaqının televiziyasında, radiosunda, qəzetlərində çəkilirdi. Amma təkcə ona görə tanınmırdınız ki, sizin adınız hər gün qəzetlərdə, yaxud radioda, televiziyada çəkilirdi. Ona görə ki, siz çox böyük siyasi proseslərin iştirakçısı və bəzi işlərin də təşəbbüskarı idiniz. Siz həm də siyasətdə çox işlər görmüsünüz"[85].

Henri Kissincer deyib: "Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə *Sizin kimi dünya şöhrətli şəxsiyyət* tərəfindən idarə olunur"[86]."Mən Azərbaycanla maraqlanmağa başlayanda bu ölkə barəsində faktiki olaraq çox şeyi bilmirdim. Sadəcə, mənə Azərbaycanın xəritədəki yeri, təbii ehtiyatları və əhəmiyyəti məlum idi. Azərbaycana marağım xüsusilə o zaman artmağa başladı ki, *Azərbaycan keçmiş sovet respublikaları arasında müstəqil yolla inkişaf edən ölkələrdən biri oldu.* Ona görə də mən inanıram ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyində və sülh şəraitində inkişafında çox maraqlıdır"[87].

Heydər Əliyev Qarabağ münaqişəsinin həlli ilə bağlı Minsk Qrupunun vasitəşilik səylərinin səmərəsizliyi, 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı tətbiq edilmiş 907-ci maddənin qəbulunu ona xatırladanda Henri Kissincer deyib: "Ümid edirəm ki, üzümüzə gələn aylar ərzində məsələ öz həllini tapacaq".

Heydər Əliyev və Henri Kissincer jurnalistlər üçün mətbuat konfransı keçiriblər. Jurnalistin: "–Siz bu gün Bakıdakı neft şirkətlərinin nümayəndə-

---

[85] Azpost.info
[86] Azpost.info
[87] Azpost.info

ləri ilə görüşünüzün nəticələrinə, Bakı-Ceyhan boru kəməri layihəsinə investisiya qoyuluşuna necə baxırsınız?"– sualına cavabında bildirib: "–Hər şeydən əvvəl, bu görüş çox yaxşı təəssürat yaratdı. Neft şirkətləri çox ətraflı məlumat verdilər. Lakin onu da başa düşməlisiniz ki, neft şirkətləri hər şeydən əvvəl iqtisadi problemə fikir verirlər. Mən isə siyasi tərəfi düşünürəm və bu baxımdan, əlbəttə ki, *Türkiyəyə çəkiləcək kəməri* daha çox dəstəkləyirəm. Yeri gəlmişkən, mənim fikrim eyni ilə Amerika Birləşmiş Ştatları hökumətinin fikridir"[88].

Heydər Əliyev 27 iyul – 7 avqust 1997-ci ildə ABŞ-a ilk rəsmi səfəri zamanı Nyu -Yorkda Henri Kissincerlə ikinci dəfə görüşüb. Azərbaycan Prezidenti ona Azərbaycanın xarici siyasəti, Dağlıq Qarabağ münaqişəsi, ölkənin neft strategiyası haqqında məlumat verib. Prezident *Henri Kissinceri* Azərbaycana dəvət edib. O, 1999-cu ilin yanvarında Azərbaycana gəlib. Heydər Əliyevlə görüşüb...

SSRİ-nin dağılması ilə dünyanın siyasi xəritəsində özünü "söz sahibi" elan etmiş ABŞ bütün ölkələrə münasibətdə yalnız bir mövqedən çıxış edib – Vaşinqtonun maraqlarının əvəzsiz və tam şəkildə təmin edilməsi. Ağ Evin apardığı siyasi xətt müstəqil dövlətlərə təsir imkanları, daha doğrusu, təzyiq imkanları ilə müəyyənləşdirilib.

1990-cı illərin əvvəlində Azərbaycan ağır şərtlərlə üz-üzə dayanmaq məcburiyyətində qalıb. Daxildə siyasi böhran, hakimiyyətdə naşı və təsadüfi siyasətçilərin yer tutması, Ermənistanın işğalçı siyasəti, qlobal dünyada tanınma problemi həmin dövrün reallıqları olub. Belə bir zamanda, 1992-ci ildə ABŞ Konqresinin qəbul etdiyi "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəliş ölkəmizə qarşı növbəti ədalətsizliyə çevrilib. Rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı qadağan edilib. Həmin düzəlişdə məqsəd ABŞ-ın sonrakı mərhələdə Azərbaycana qarşı təsir imkanlarını saxlamaq olub. Hətta ABŞ administrasiyaları bu təzyiq vasitəsindən istifadə etməyə çalışıb. Nikolay Zenkoviç bu barədə "Heydər Əliyev – Tale yolları" kitabında yazıb. Müəllif bildirib: "Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi ilk günlərdən əlindən gələn hər şeyi etdi ki, ABŞ bu qərəzli qərarı ləğv etsin. ABŞ prezidenti Bill Klinton azərbaycanlı həmkarı ilə razılaşdı: bəli, qərar ədalətsizdir, bunu ləğv etmək lazımdır. 1997-ci ilin avqustunda Əliyevin Vaşinqtona rəsmi səfəri zamanı hər iki prezident müvafiq bəyanatı imzaladılar. Lakin onun həyata keçirilməsi baş tutmadı.

[88] Azpost.info

Bill Klinton özünün prezidentlik səlahiyyətinin başa çatmasına 3 gün qalmış Heydər Əliyevə məktub göndərdi. Məktubda deyilirdi ki, o öz vədini unutmayıb. Və aşağıdakıları təklif edir: ABŞ Konqresi Azərbaycana münasibətdə 907-ci maddənin qüvvəsini Azərbaycanın Ermənistana hər hansı bir güzəşti müqabilində, məsələn, Ermənistan –Azərbaycan sərhəddinin hansısa bir sahəsində ticarət üçün imkan yaradılması müqabilində ləğv edər.

Əliyev rədd cavabı verdi. Klintona yazdı ki, Azərbaycan indiyədək 907-ci düzəlişlə yaşamışdır, bundan sonra da yaşayacaq. Onun ölkəsi Ermənistana güzəştə getməyəcəkdir. Əvvəlcə əsas məsələni həll etmək - münaqişəni aradan qaldırmaq lazımdır, bunun üçün Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarını azad etməlidir. sülh yarananda münaqişə üçün bəhanə də aradan qalxacaq"[89].

*Nəticə:* 907-ci düzəliş 2002-ci ilin yanvarında müvəqqəti olaraq dayandırılıb...

Azərbaycanın Avropa dövlətləri ilə münasibətlərinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan öz siyasi-iqtisadi və strateji mövqeyinə görə daim Avropa dövlətlərinin diqqətindədir.

Azərbaycan strateji baxımdan üç məsələdə *Almaniya üçün* önəm daşıyıb. Bunlar –Azərbaycanın Qərbə inteqrasiyası, Cənubi Qafqazda sabitliyin təmin olunması və Avropanın yeni enerji təhlükəsizliyi arxitekturasında oynadığı mühüm roldan ibarətdir.

İyulun 1-də Bonnda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Almaniya– Azərbaycan Forumu İdarə Heyəti və Rəyasət Heyətinin üzvləri ilə görüşüb.

Görüşdə Heydər Əliyev Azərbaycanda həyata keçirilən islahatlardan danışıb: «Almaniyanın, alman xalqının bəşər tarixindəki xidmətlərinə, əldə etdiyi nailiyyətlərə Azərbaycan xalqı çox böyük hörmət və ehtiramla yanaşır. Alman xalqının böylik nailiyyətləri var, inkişaf etmiş dövlət kimi Almaniyanın çox böyük təcrübəsi var. Mlistəqil Azərbaycan Respublikası bu ölkə ilə sıx əlaqə saxlamaq və bunu gündən-günə möhkəmləndirmək üçün bütün səylərini göstərir»[90].

İyulun 2-də Azərbaycan Respublikasının Prezidenti ***Heydər Əliyev*** AFR-in Prezidenti ***Roman Hersoq,*** federal-kansler ***Helmut Koll*** ilə görüşüb. Görüşlərdə Almaniya– Azərbaycan əlaqələrinin müasir vəziyyəti təhlil

[89] *Bu barədə bax.* Nikolay Zenkoviç. Heydər Əliyev – Tale yolları. Bakı, Azərbaycan nəşriyyatı, 2007

[90] “Heydər Əliyev irsi” beynəlxalq elektron kitabxana

edilib, əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsi üçün fikir mübadiləsi aparılıb.

Səfər dövründə «Azərbaycan Respublikası və Almaniya Respublikası arasında münasibətlərin əsasları haqqında Birgə Bəyanat», eləcə də iqtisadi sahələri əhatə edən bir neçə müqavilə imzalanıb.

İyulun 2-də Azərbaycan Prezidenti Heydər Əliyev *Bundestaqın Almaniya –Qafqaz parlament qrupunun sədri Villi Vimmer* və həmin qrupun digər üzvləri ilə görüşüb.

İyulun 3-də Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniyaya rəsmi səfərinə həsr olunmuş mətbuat konfransı keçirilib. H. Əliyev bəyanatla çıxış edib. Çıxışında Azərbaycan –Almaniya münasibətləri, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi problemlərinə toxunub. Ulu öndər bir sıra məsələlərlə bağlı jurnalistlərin suallarını cavablandırıb.

İyulun 3-də Prezident Heydər Əliyev Düsseldorfda «Döyçe Bank» İdarə Heyətinin rəhbərləri ilə görüşüb. Almaniyanın "Döyçe Bank"ı ilə Azərbaycanın Milli Bankı və Beynəlxalq Bankı arasında əhəmiyyətli sazişlər imzalanıb. «Döyçe Bank»ın rəhbərliyi Azərbaycan iqtisadiyyatını tanıtmaq üçün nəşr etdirdikləri kitabları Heydər Əliyevə təqdim edib.

Həmin gün Azərbaycan Prezidenti Köln şəhərində Almaniyanın iş adamları ilə görüşüb. Görüşdə Heydər Əliyev bildirib: «Belə düşünürəm ki, Azərbaycanda alman şirkətləri daHeydər Əliyev İrsiha çox olmalıdır. Bundan ötrü şərait və imkan var. Ən başlıca şərait bundan ibarətdir ki, Azərbaycan açıq ölkədir, onun iqtisadiyyat sahəsində demokratik prinsipləri var. Bu şərait və hüquqi normalar, artıq yaradılmış olan və indi yaradılan qanunvericilik zəmini xarici şirkətlərə Azərbaycanla fəal əməkdaşlıq etməyə imkan verir.Əmin ola bilərsiniz ki, bir prezident kimi mən hər bir xarici şirkətin Azərbaycanda səmərəli işləməsi üçün əlverişli şərait yaradılması sahəsində bütün tədbirləri görəcəyəm»[91].

İyulun 4-də Almaniyaya səfərinin son günündə Prezident Heydər Əliyev Baden-Vürtemberqdə «Mersedes-Bents» firması idarə heyəti adından Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə çıxış edib. Prezident bu dünya şöhrətli avtomobil firmasının Azərbaycanla əlaqələrinin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri yeni münasibətlərin qurulmasında faydalı olub[92].

---

[91] "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana
[92] "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana

12 yanvar 1992-ci ildə *Almaniya Azərbaycanın dövlət müstəqilliyini* tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il fevralın 20-də qurulub. 2 sentyabr 1992-ci ildə Azərbaycanın Almaniyada səfirliyi, 22 sentyabr 1992-ci ildə Almaniyanın Azərbaycanda səfirliyi açılıb. Diplomatik münasibətlərdən sonra Azərbaycan və Almaniya arasında əlaqələr inkişaf etdirilib.

22 dekabr 1995-ci ildə *Almaniyanın xarici işlər naziri Klaus Kinkel Azərbaycanda rəsmi səfərdə* olub. Klaus Kinkellə görüşən Prezident Heydər Əliyev Almaniyanın Avropa İttifaqı daxilində Azərbaycana köməyini yüksək qiymətləndirib. Azərbaycanın dövlət başçısı xarici işlər nazirindən Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Almaniyadan gözləntilərini söyləyib.

*Prezident Heydər Əliyev* 1-4 iyul 1996-cı il tarixdə *Almaniya Prezidenti Roman Hersoqun dəvəti ilə bu ölkədə rəsmi səfərdə* olub. Səfər zamanı Heydər Əliyev Almaniyanın prezidenti, kansleri, vitse-kansleri və digər hakimiyyət nümayəndələri ilə görüşlər keçirib. Görüşlər zamanı ölkələr arasında əməkdaşlıq məsələləri müzakirə edilib. Səfər çərçivəsində siyasi, iqtisadi və elmi texniki əməkdaşlıq sahəsində beş müqavilə imzalanıb. Keçən illər ərzində Almaniya ilə Azərbaycan arasında müdafiə, siyasi təhlükəsizlik, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlıq aparılıb.

2001-ci ilin mayında *Almaniya xarici işlər naziri Yoşka Fişer Bundestaqın sədr müavini Antye Follmer ilə* birgə *Azərbaycana səfər* edib. Prezident Heydər Əliyev Almaniya nümayəndə heyəti ilə görüşündə iki ölkənin əməkdaşlığına böyük əhəmiyyət verdiyini, alman şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən razı qaldığını, bunun davamlı olmasını arzuladığını bildirib. Azərbaycan Prezidenti AFR-in Ermənistan –Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün müvafiq fəaliyyətinə ümid etdiyini deyib: "...ümidvarıq ki, Minsk qrupunun üzvü kimi Almaniya bizim üçün əsas məsələ olan Ermənistan –Azərbaycan münaqişəsinin həlli sahəsində – Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 20 faiz torpaqlarının azad olunması və işğal edilmiş torpaqlardan qaçqın düşmüş azərbaycanlıların öz yerlərinə-yurdlarına qayıtması sahəsində bundan sonra fəaliyyətini daha da artıracaqdır." Almaniyanın xarici işlər naziri Yoşka Fişer Dağlıq Qarabağ məsələsinə imkanları daxilində kömək göstərəcəyini bildirib…

Azərbaycan Prezidenti Heydər Əliyevin 1-4 iyul 1996-cı il tarixli Almaniya səfəri Azərbaycanla Almaniya arasında *iqtisadi münasibətlərin* inkişafında mühüm rol oynayıb. Prezident Heydər Əliyev Almaniyanın iri iqtisadi mərkəzi olan Köln şəhərində AFR-in işgüzar dairələrinin nümayəndələri, iri şirkət rəhbərləri, maliyyə-bank sektorunda çalışan iş adamları ilə görüşüb.

O, Azərbaycan iqtisadiyyatının potensial imkanları və beynəlxalq biznes üçün yaradılan şəraitdən bəhs edərək alman iş adamlarını Azərbaycana sərmayə qoymağa çağırıb. Bu səfər Azərbaycana xarici investisiya qoyuluşları və beynəlxalq kreditlərin cəlb edilməsində mühüm rol oynayıb.

22 dekabr 1995-ci ildə "Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Hökuməti arasında mədəni əməkdaşlıq haqqında" sazişə uyğun olaraq Azərbaycan–Alman Qarışıq komissiyası yaradılıb.

Ölkəmizdə 1997-ci ildən fəaliyyət göstərən DAAD Almaniyada təhsil almaq istəyən azərbaycanlı tələbələrə təqaüdlər ayırıb və alimlərin mübadiləsini təşviq edir.

Alman və Azərbaycan universitetləri və tədqiqat institutları arasında da əməkdaşlıq mövcuddur. DAAD-nin nümayəndəliyi Azərbaycanda alman dilinin tədrisinin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində DAAD - Məlumat Mərkəzi vardır. Almaniya və Azərbaycan universitetləri və tədqiqat institutları arasında elmi-akademik əməkdaşlıq haqqında indiyədək 23 sənəd imzalanıb.

Rus və ingilis dilləri ilə yanaşı, alman dili Azərbaycanda bir çox orta və ali məktəblərdə tədris olunur. Bakıda Goethe İnstitutu və Xarici Məktəblər üzrə Mərkəzi İdarə (ZfA) tərəfindən alman dilinin tədrisi dəstəklənən dörd PASCH-məktəbi vardır.

Berlin Humbolt Universitetində "Azərbaycan tarixi" kafedrası fəaliyyət göstərir. Azərbaycan və Almaniyanın bir sıra ali məktəbləri arasında tərəfdaşlıq münasibətləri mövcuddur[93].

***

***Xalqın, Vətənin taleyi***
***hər bir insanın taleyinə çevrilməlidir!***

**Heydər Əliyev**

Siyasi liderliyin vacib siyasi-ideoloji və diplomatik amillərindən biri də *Liderlik missiyasında* ***şəxsiyyət, dövlət və cəmiyyət*** faktorudur. Heydər Əliyev bütün səviyyələrdə *hüquqi, demokratik cəmiyyət* uğrunda ardıcıl mübarizə aparıb, məsələləri *demokratik prinsiplər* əsasında həyata keçirib, *hakimiyyət bölgüsünü* Konstitusiya yolu ilə həll edib[94].

---

[93] "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana.
[94] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993–1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s. 81-84

Ulu öndər *əsas prinsipi* insan *hüquqları* və *şəxsiyyət azadlığının* təmin edilməsində görüb, milliyyətindən, dilindən, dini etiqdından asılı olmayaraq bütün vətəndaşların öz hüquqlarından istifadə imkanlarını vacib vəzifə sayıb. "Azərbaycanda bütün vətəndaşların hüquqlarının qorunması, Azərbaycan vətəndaşlarının sərbəst yaşaması üçün əmin-amanlığın təmin edilməsi bizim vəzifəmizdir"[95], –deyirdi. Öyrədirdi ki: "Cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələrinin prinsipləri əsasında tərbiyə etmək lazımdır"[96]. Dünya ictimai-siyasi fikrində Heydər Əliyev haqqında bu barədə də qiymətli faktlar, informasiyalar verilib.

*Fələstin dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin, Fələstin Milli Muxtariyyətinin sədri Yasir Ərəfat* Heydər Əliyevin *dövlət və cəmiyyətə göstərdiyi siyasi-tarixi xidmətinə* xüsusi önəm verərək bildirib ki, "o, ömrünün son illər ərzində də öz vətəninə və xalqına xidmət işində qüvvə və bacarığını əsirgəmədi, xeyirxah işlərlə məşğul oldu, bütün bunları Azərbaycan xalqının gələcək nəsilləri münnətdarlıqla xatırlayacaqlar..."[97]

*Qazaxıstan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi Oljas Süleymenov* bu fikirdə olub ki, yeni zəmanənin yaradıcıları Heydər Əliyevin nadir təcrübəsindən həmişə öyrənəcək, onun *Xalq evi* ideyasını əsas tutacaqdır. O Ulu öndərin dövlət, cəmiyyət xadimliyini önə çəkərək onun şəxsiyyət simasını dəyərləndirərək deyib: "Heydər Əlirza oğlunu tanıyan adamlara onun haqqında "olmuşdur" demək çətindir. Bu ələmli sözdən poemalar, romanlar, elmi əsərlər yaranacaq və onlar Heydər Əliyevin *tarixi simasını* tam əzəməti ilə işıqlandıracaqdır. O, tarixi sima Azərbaycanın taleyinin həll edildiyi son on il yarımda özünün ən yüksək zirvəsinə çatmışdır.

Heydər Əliyev XX yüzilliyin ən güclü ideyalarının çox parlaq ifadəçisi idi. *Bir çox ölkələrdə yeni zəmanənin yaradıcıları onun nadir təcrübəsindən* mütləq bəhrələnəcəklər.

Heydər Əliyev işıqlı, geniş və təhlükəsiz *Xalq Evi kimi müstəqil dövlət yaratmağı* arzulayırdı. Prezidentliyinin 10 ili ərzində bunun üçün çox işlər görə bildi"[98].

*BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səid* deyib : "Baş katib Butros Butros-Qali mənimlə söhbətində bildirdi ki, o, Azərbay-

---

[95] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993–1998 oktyabr.I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s. 81-84

[96] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993–1998 oktyabr.I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s.153-174

[97] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

[98] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

can Respublikasının prezidenti Heydər Əliyevin simasında özünə yaxın bir dost və sirdaş tapmışdır. O, Heydər Əliyevə çox böyük hörmət və ehtiram bəslədiyini, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirdiyini bildirdi"[99].

Heydər Əliyevin dünya sivilizasiyasında elit şəxsiyyət olduğunun göstəricisi kimi bir kəlamı da xatırlatmaq mühümdür. *Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel-Conston:* "Cənab Prezident, Siz elə bir şəxsiyyətsiniz ki, *bu regionda* və ümumiyyətlə, *dünyanın siyasi meydanında böyük nüfuz* qazanmışsınız. Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Mən bu görüşdən istifadə edərək istərdim ki, ölkənizin və bölgənizin düşdüyü çətin problemlərin həlli barədə Sizin münasibətinizi və fikirlərinizi, şərhlərinizi eşidim, Sizdən öyrənim"[100],– deyə maraqlarını ifadə edib.

*Bəhreyn kralı Həmid bin İsa Al Xəlifə* Heydər Əliyevin şəxsiyyəti haqqında bildirib: "O, mərhəmətli və insanpərvər, öz xalqının böyük hörmətinə malik bir adam idi"[101].

*Qətər dövlətinin əmiri Həməd bin Xəlifə Al Tani* dövlət başçısı İlham Əliyevə deyib:"Mərhum atanız Prezident Heydər Əliyevin vəfatı ilə bağlı zati-aliləri, Qətər xalqı, Qətər dövlətinin hökuməti və öz adımdan dərin hüznlə başsağlığı verir, kədərimizi və qüssəmizi ifadə edirəm. Biz Qadir Allaha dua edirik ki, onun ruhunu şad etsin və Sizə bu ağır itkiyə dözməyə qüvvə versin"[102].

*Başqırdıstan Respublikasının prezidenti Murtuza Rəhimov* bildirib: "Heydər Əlirza oğlu Əliyev böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır. Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə həmişəlik qalacaqdır"[103].

*İnquşetiya Respublikasının prezidenti Murad Zyazikov* deyib: "Heydər Əlirza oğlu Əliyev *qeyri-adi, genişmiqyaslı insan*, ən görkəmli *siyasətçilərdən* biri idi. O, prinsipiallığı, yüksək vətəndaş mövqeyi, siyasi müdrikliyi, cəsarətliliyi və son dərəcə alicənablığı ilə həmişə fərqlənirdi. Bu keyfiyyətlər onu hətta yaxından tanımayan adamlarda da ona daim hörmət hissi do-

[99] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. Bakı, 2000, 342 s.; s.129
[100] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, Nurol, 2001, 239 s.; s.116
[101] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.82
[102] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.83
[103] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.88

ğururdu. Dərdimizi azalda biləcək sözlər tapmaq çətindir. Bu, ağır və əvəzsiz itkidir”[104].

*Hindistan Respublikasının Prezidenti A.P.C. Əbdül Kəlam* Prezident İlham Əliyevə müraciətlə söyləyib: ”Prezident cənab Heydər Əliyevin vəfatı haqqında kədərli xəbəri hüznlə öyrəndim.

Müstəqil Azərbaycan dövlətinin quruculuğuna onun verdiyi töhfə yaxşı məlumdur. Onun *Hindistana bəslədiyi səmimi dostluq hissləri* ilə bağlı xatirələr də bizim üçün əzizdir. Hindistan xalqı adından və öz adımdan Sizə səmimi qəlbdən başsağlığı verirəm. Zati-aliləri, Sizə ən yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm”[105].

*Çexiya Respublikasının Prezidenti Vatslav Klaus* Heydər Əliyevə hörmətini belə ifadə edib: *“*Müstəqil Azərbaycanın müasir tarixində əvəzedilməz rol oynamış insanın vəfatı ilə bağlı Sizə, ailənizə və Azərbaycan xalqına səmimi qəlbdən başsağlığı vermək istərdim”[106].

*Pakistan İslam Respublikasının keçmiş prezidenti Faruq Əhməd xan Leqari* deyib:

“Mən mərhum Prezident Heydər Əliyevin qonağı kimi Azərbaycana rəsmi səfər etmişdim. Onun əzab çəkən və acınacaqlı vəziyyətdə yaşayan qaçqınları sevərək, onlara qayğı ilə xidmət etdiyini lap yaxından gördüm. Mən həm də *Azərbaycanın yenidən qurulması* üçün atılan addımları gördüm.

Heydər Əliyev əvvəl Sovet İttifaqı rəhbərliyində olarkən, sonra isə müstəqillik zamanı xalqına uzun müddət xidmət etmişdir. O, daim minnətdarlıqla xatırlanacaqdır”[107].

*Ukrayna parlamentində AŞPA-dakı nümayəndə heyətinin başçısı, tanınmış yazıçı Boris Oleynik* Heydər Əliyevin həyatdan getməsini Ukrayna xalqı üçün də əvəzsiz itki hesab edib:*”*Heydər Əliyev kimi *böyük siyasətçi və diplomatın* həyatdan getməsi təkcə sizin millətiniz üçün deyil, Ukrayna xalqı üçün də əvəzsiz itkidir. Heydər Əlirza oğlu Ukraynanın və mənim xalqımın səmimi dostu idi, həm də sovet dövründə ən yüksək vəzifə tutsa da, ölkələrimiz müstəqilliyini əldə etdikdən sonra da bizə kömək göstərmişdir. Mənə bu *parlaq siyasətçini* və *gözəl insanı tanımaq səadəti* nəsib etdiyinə görə, taleyimə minnətdaram...”[108]

*Azərbaycan Respublikasının vitse-prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı* ***Mehriban xanım Əliyeva*** Ümummilli

[104] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.91
[105] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.98
[106] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.100
[107] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.101
[108] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.103

lideri *Azərbaycan üçün taleyin Tanrı payı* hesab edib*: "Mənim həmyaşıdlarım Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə, inama parlaq nümunədir, insanın məğlubedilməzliyinə inam dərsidir.*

*XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlayan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər: Heydər Əliyev Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısıdır. 30 ildən artıq Azərbaycanın müstəqilliyini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, lider.*

*Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən– Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır"*[109].

***

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş* Ulu öndərin elit şəxsiyyəti haqqında deyib: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən *əsas şəxsiyyət* olmuşdur. Bu günlərlə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasına onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz *onun rəhbərliyi altında ABŞ və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar* da daxil olmaqla *terrorizmə qarşı mübarizədə* tərəfdaş olmuşdur. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun *nümayiş etdirdiyi qətiyyət* regionda *sülh və sabitliyin qorunub saxlanmasında* böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın *iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin* cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və *Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına* imkan yaratmışdır"[110].

---

[109] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşr., 2004, 296 s.; s.112-113

[110] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.46

*Fransa Prezidenti Jak Şirak* Heydər Əliyevi *cəsarətli, müdrik və qətiyyətli qeyri-adi şəxsiyyət* hesab edib: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəkləndirmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşləri zamanı, xüsusilə, Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində *onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti* yüksək qiymətləndirirdim"[111].

*Almaniya FR-nın federal kansleri Gerhard Şröder* bildirib: "H.Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş *böyük dövlət xadimini* itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır"[112].

*İtaliya Respublikasının Prezidenti Karlo Adzelyo Gampi* dövlət başçımızın İtaliya ilə dostluq əlaqələrinə verdiyi töhfəni xatırladıb: "Prezident Heydər Əliyevin əbədiyyətə qovuşmağı haqqında kədərli məlumat məni həqiqətən çox sarsıtdı. Bu böyük şəxsiyyətin ölkəsi qarşısındakı əvəzsiz xidmətlərini və İtaliya ilə hərtərəfli dostluq əlaqələrinin qurulmasına verdiyi töhfəni xatırlatmaq istəyirəm"[113].

*ABŞ diplomatı Riçard Armıtac* obrazlı bildirib ki, Heydər Əliyevin ölümündən sonra *dünya bir qədər balacalaşmışdır.* ABŞ Prezidenti Corc Buş bildirib ki, Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən *əsas şəxsiyyət* olub, *Rusiya Prezidenti* Vladimir Putin isə belə deyib: "Mübaliğəsiz demək olar ki, o, *siyasət nəhəngi* idi"[114].

Heydər Əliyev dünyasını dəyişəndə Şərqin (Azərbaycanın) və Qərbin görkəmli dövlət və ictimai xadimləri onun haqqında dəyərli fikirlər söyləyib və yazıb. Belə seçkin simalardan fərqli örnəklər verməyi də gərəkli hesab edirik.

*"Varlıq" jurnalının təsisçisi və baş redaktoru professor, doktor Cavad Heyət* bildirib: "Cənab İlham Əliyev!

Sizə və Azərbaycan xalqına, xüsusilə, o böyük insanın mənim kimi dostlarına faciəli bir itki sayılan hörmətli atanızın vəfatı münasibətilə başsağlığı verir və Ulu Tanrıdan ona rəhmət və Sizlərə səbr, dözüm və sağlıq diləyirəm"[115].

*RF Kinematoqrafçılar İttifaqının sədri Nikita Mixalkov* yazıb ki, Heydər Əliyevin vəfatı ilə onun epoxası xoşbəxtlikdən bitməmişdir, çünki əmi-

---

[111] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.47

[112] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.47

[113] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

[114] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.

[115] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

nəm, Siz, hörmətli İlham Heydər oğlu – onun oğlu, dostu və varisi bu vəzifədə Azərbaycanın bütün sahələrdə yüksəlişi üçün Prezident Heydər Əliyevin başladığı işi davam etdirəcəksiniz[116].

*Yavuz Bülənt Bakilər* söyləyib: "Böyük siyasi xadim və dünyada tanınan dövlət rəhbəri Heydər Əliyevin yüksək səviyyədə *Türkiyə – Azərbaycan əlaqələrinin* formalaşmasında xidmətləri ölçüyəgəlməzdir. Onun bizim keçmiş prezidentimiz Süleyman Dəmirəllə, indiki prezident Əhməd Necdət Sezərlə dostluğu yuxarıdan-aşağıya hamı üçün bir örnəkdir"[117].

*Toni Bleyer Uinston* Ulu öndırı *Çörçil və Cəvahirlər Nehru* ilə *müqayisə edirərək* bildirib ki: "O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi". *Caşvant Şan:* "Mənim iki Vətənim var – Böyük Britaniya və Hindistan. Mən bu ölkələrin dahi şəxsiyyətləri ilə fəxr edirəm. Heydər Əliyev haqqında düşünərkən, mən onu, mübaliğəsiz olaraq *Uinston Çörçil və Cəvahirlər Nehri* ilə müqayisə edirəm". *Villem Vant Vout:* "Belə bir kəlam var: insan öz ömrü boyu ağac əkməli, ev tikməli və oğul böyütməlidir. Heydər Əliyev öz ömürü boyu çiçəklənən Azərbaycan adlı bir bağ salmış, adı Müstəqil Azərbaycan olan bir ev qurmuş, Azərbaycan xalqının gələcəyini etibar etdiyi ləyaqətli bir oğul böyütmüşdür". *Dik Çeyni:* "Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın uzunmüddətli iqtisadi firavanlığının əsasını qoydu",– deyiblər. *Yuri Yemilian:* "Onun gənc nəslə qayğısı digər dövlətrin liderləri üçün nümunə ola bilər". *Vladimir Ruşaylo:* "Bu itki bütün Müstəqil Dövlətlər Birliyi üçün, keçmiş ümumi vətənimizdə - Sovet İttifaqında yaşayan insanlar üçün itkidir". *Yuri Yarov:* "O, qeyri-adi bacarığa və fitri müdrikliyə malik olaraq özünün bütün şüurlu həyatını Vətənə xidmətə həsr etmişdir". *II İliya:* "Onun təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də dünya birliyi qarşısında xidmətləri böyükdür". *Akkan Suver:* "Təkcə Azərbaycanın yox, dünya türklüyünün görkəmli liderlərindən biri olan fəxri sədrimiz Heydər Əliyevin yeri uzun illər doldurulmayacaqdır". *Murad Zyazikov:* "O, prinsipiallığı, yüksək vətəndaş mövqeyi, siyasi müdrikliyi, cəsarətliliyi və son dərəcə alicənablığı ilə həmişə fərqlənirdi". *Kirsan İlyumjinov:* "Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir". *Canni Bukikkio:* "O, yeni ideyalara və dialoqa həmişə hazır olmaqla, öz əqidəsinə sadiq qalan prinsipial bir insan idi". *L.Slutski:* "Onun adı dünya tarixinə həmişəlik yazılacaqdır". *Çlaubenq Çlu:* "O xalqının qayğısına qalırdı və özünü xalqına fəda etdi". *V.Yakunin:* "Heydər Əliyev Rusiyanın ali dövlət mükafatına-

[116] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[117] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s. ; s.9

müqəddəs Apostol Andrey Pervezvannı ordeninə və Rusiyanın ən nüfuzlu ictimai mükafatına – "Sivilizasiyaların dialoqu" Beynəlxalq Andrey Pervozvanni mükafatına layiq görülmüş yeganə şəxsdir",– deyə xatırladıblar.

*İ.Ertan Dəmirər:* "Allah mənə ölkənizə gəlməyi qismət edərsə, ilk işim mərhum Heydər Əliyevin məzarını ziyarət edərək Fatihə oxumaq olacaq". *Zbiqnev Bjezinski:* "Şəxsən mən onunla görüşlərdən Azərbaycan və Amerika arasındakı strateji əlaqələri formalaşdırmaq kimi nadir imkan əldə etdim". *Herri Houlihən:* "Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə". *Efraim Sneh:* "Heydər Əliyev böhranlı dövrdə, mübarizə anlarında taleyüklü qərarlar qəbul ediləcək vaxtda millətin ehtiyac duyduğu lider idi". *Oljas Süleymenov:* "Bir çox ölkələrdə yeni zəmanənin yaradıcıları onun nadir təcrübəsindən mütləq bəhrələnəcəklər".Və yüzlərlə başqaları *Heydər Əliyev sivilizasiyasına* heyranlıq duyğusunu ifadə ediblər. Nəinki dövlət xadimləri, habelə, ayrı-ayrı *elmi-ictimai şəxsiyyətlər* onun *liderliyi, dövlət və cəmiyyət xadimliyi* haqqında fikir yürüdüblər. Bir neçə səciyyəvi faktla kifayətlənirik. *Gürcüstanın xalq artisti, Dövlət mükafatı laureatı Vaxtanq Kikabidze* Ulu öndərin *şəxsi keyfiyyətlərini* önə çəkib: "Mən onun qonaqpərvərliyini, yumorunu və mədəniyyət nümayəndələrinə xüsusi münasibətini tez-tez xatırlayıram. O öz vətəninin həqiqi oğlu və Gürcüstanın böyük dostu idi"[118].

***

*Akademik Bəkir Nəbiyev* "Etüdlər"də Heydər Əliyevin həm xarakterik cizgilərini, həm də onun *cazibədar nitqinin siyasi-ideoloji, ədəbi-estetik mahiyyətini* vurğulayıb, onun müasir tarixi əhəmiyyətini səciyyələndirib. "O çıxışlarında heç bir natiqi təkrar etməz, yubileyi qeyd olunan ədəbi sima və onun yaradıcılığı haqqında şəxsən öz qənaətlərini söylər, həm də bu zaman özünə xas olan iti hafizə, elmi məntiq nümayiş etdirərdi"[119],– deyə xatırladıb.

*Akademik Adilə Namazova* onun müdrikliyi və uzaqgörənliyini səciyyələndirib: "Bizim prezidentimiz ən müdrik, uzaqgörən bir insandır". *AMEA-nın I vitse-prezidenti, akademik Arif Həşimov* isə belə deyib: "Heydər Əliyev vətən elminin hamisi, alimlərin böyük dostu, XX əsrin qüdrətli, siyasi lideri idi"[120]. *Akademik Akif Əlizadə* onu xalqımızın *müdrik simvolu* hesab edib: "Doğma xalqına qəlbən bağlı olan, onun səadəti naminə əlindən gələ-

[118] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[119] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.74
[120] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

ni əsirgəməyən Heydər Əliyev xalqımızın müdrik simvoluna çevrilibdir”[121]. *Akademik Vasim Məməmmədəliyev* tövsiyə edib ki, biz daim ondan öyrənməliyik: “Elmimizin, mədəniyyətimizin, mənəviyyatımızın inkişaf yollarını, yüksəlişimizin əsas amillərini Heydər Əliyevdən öyrənməliyik və öyrətməliyik”[122]. *AMEA-nın müxbir üzvü Misir Mərdanov* xalqımızın zəka potensialını nəzərə alaraq yazıb: “Prezident Heydər Əliyevin xalqımızın zəka potensialına dərin inamı hər bir Azərbaycan vətəndaşında gələcəyə böyük ümidlər oyadır. Çox keçməz ki, müstəqil Azərbaycanımız da neçə-neçə ölkələri arxada qoyar”[123]. Alim əlavə edib ki: “Elmin, təhsilin, mədəniyyətin kamil bilicisi kimi Prezident Heydər Əliyevin qayğısı və diqqəti biz təhsil işçilərində də nikbinlik hissi oyadır. Azərbaycan elmini və təhsilini daha yüksəklərə qaldırmaq üçün fədakar əməyə həvəsləndirir”[124]. *Doktor Cavad Heyət* heyranlıqla bildirib: “Prezident Heydər Əliyevin çıxışı öz dəyəri ilə bir çoxları kimi məni də heyran edir. Onun çıxışında bütün məsələlər müdrikliklə açılıb ortaya qoyulur”[125]. *SSRİ Xalq artisti Alla Puqaçova* tarixi-siyasi şəxsiyyət Heydər Əliyevə olan hissiyyatını, duyğusunu belə ifadə edib: “... Həyatımda ondan daha gözəl və müdrik kişi tanımırdım”[126]. *Dünya şöhrətli rəssam İbrahim Əhrari:* “Prezident Heydər Əliyev Azərbaycanı çox ağır böhran dövründən çıxardı və *ölkənin beynəlxalq aləmdə tanınmasına* nail oldu. Ümidvarıq ki, Azərbaycan Heydər Əliyevin seçdiyi demokratik yolla bundan sonra da irəliləyəcəkdir”[127],– deyə bildirib. *Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli* Heydər Əliyevi *dünya vətəndaşı* kimi dəyərləndirərək deyib ki, Rusiya Rəssamlıq Akademiyasının Rəyasət Heyəti və şəxsən mən Heydər Əlirza oğlu Əliyevi XX əsrin görkəmli dövlət xadimi və siyasətçisi, öz doğma ölkəsinin böyük vətənpərvəri və “dünya vətəndaşı” hesab etmişik. “Müxtəlif millətlərdən olan ən istedadlı gözəllik yaradanları birləşdirən Akademiyanın sənətkarları Azərbaycanın, digər MDB ölkələrinin mədəniyyətinin inkişafı işinə misilsiz köməyi və qayğısına görə, eləcə də yaradıcılıq niyyətlərinin həyata keçirilməsində bir çox rəssamlara şəxsən kömək etdiyinə görə Heydər Əliyevə hədsiz minnətdarlıq hisslərini həmişə qoruyub saxlayacaqlar”[128]. *Rusiya Federasiyası Ki-*

[121] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[122] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[123] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[124] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[125] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[126] Böyük insan haqqında. “Azərbaycan”, 2004, 296 s.
[127] Böyük insan haqqında. “Azərbaycan”, 2004, 296 s.
[128] Böyük insan haqqında. “Azərbaycan”, 2004, 296 s.

*nematoqrafçılar İttifaqının sədri Nikita Mixalkov* özünü xoşbəxt sayıb ki, hörmətli İlham Heydəroğlu – onun oğlu, dostu və varisi bu vəzifədə Azərbaycanın bütün sahələrdə yüksəlişi üçün Prezident Heydər Əliyevin başladığı işi uğurla davam etdirəcəkdir[129].

*Valeri Çeçelaşvili:* "Onun ideyaları Azərbaycana qulluq etdi, amma bunlar bütün Qara dəniz regionu üçün çox dəyərli və mühüm idi". *İoan Pop De Popa:* "H.Əliyevin təkcə Azərbaycan xalqının qəlbində deyil, həm də bütün bəşəriyyətin tarixində əbədi qalacaqdır". *Yevgeni Primakov*: "Elə insanlar var ki, mübaliğəsiz olaraq onlar tarixi yaradırlar. Heydər Əliyev belə insanlar sırasına daxildir". *Sergey Baburin* da yazıblar ki*:* "Heydər Əliyev hər bir millətin şərəfi ola bilərdi". *Karol Bellami:* "Heydər Əliyev YUNESEF-in yaddaşında uşaq hüquqlarının güclü müdafiəçisi kimi qalacaqdır". *Virciniya Heys-Uilyams:* "Amerika öz böyük dostunu itirdi". *Kanat Saudbayev:* "O dünya siyasəti tarixində görkəmli dövlət xadimi və siyasətçi kimi qalacaqdır".*Meret Orazov:* "Heydər Əliyev Şərq müdrikliyinin təcəssümü və zəmanəmizin böyük siyasətçisi idi". *V.Kaznaçeyev:* "Peşəkarlığına və yüksək siyasi keyfiyyətlərinə görə Siyasi Büroda, Sovet İttifaqda və dünya liderləri arasında onun tayı-bərabəri yox idi",– deyə etiraflarında kifayət qədər səmimi olublar. *Haşim Cocondikusumo:* "Təbii müdrikliyi, geniş həyat təcrübəsi, misilsiz intellektual potensialı və güzəştsiz mövqeyi ona Azərbaycandan kənarda da böyük hörmət qazandırmışdı". *Ambruaz Düpan:* "Dağlıq Qarabağ kimi ağrılı bir məsələnin sülh yolu ilə həlli yolunun axtarılmasında Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti unudulmazdır"[130],– deyə məmnunluq hisslərini şükranlıqla bildiriblər və yazıblar.

***

Ümummilli lider haqqında Azərbaycan, türk, ingilis, rus, ərəb, fars və bir çox xarici dillərdə qiymətli kitablar yazılıb çap etdirilib.

İ.A.Ağakişiyev, Q.A. Bordyuqov, A.V. Vlasov və A.Ç.Kasaevin (redaksiya heyəti professor Q.M Alekseev, professor A.M. Həsənov, Rusiya EA-nın müxbir üzvü R.S. Qrinberq, Rusiya EA-nın akademiki S.P. Karpov, Rusiya EA-nın müxbir üzvü E.İ. Pivovar) Heydər Əliyevin 90 illiyinə həsr edilmiş "ÖNDƏR "[131] (rus dilində), "Heydər Əliyevin Neft Strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə"[132] (ingilis dilində), "Birlikdə yeni yüzilliyə doğru. Azərbaycan Respublikasının Prezidenti Heydər

[129] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.
[130] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.13-14
[131] AİRO - XXI, 2013 - 368 s.
[132] I hissə - 2004

Əliyevin ABŞ-a rəsmi səfəri”[133] (ingilis dilində), “H.Əliyev adına Baki Tbilisi Ceyhan neft kəməri. Əfsanədən reallığa” (ingilis dilində), “ Azərbaycan – Rusiya: yeni münasibətlər, yeni üfüqlər” (rus dilində), “Heydər Əliyev xatirə zalı”[134] (türk dilində), “Heydər Əliyevin əbədiyyətə qovuşması Türk və dünya mediyasında”[135], “Dostluq körpüləri. Ukrayna – Azərbaycan”, “Öndər. Heydər Əliyevin 90 illiyinə”, Graeme H. Wilsonun “Heydər: Heydər Əliyevin və Azərbaycanın yüksəlişi və süqutu və yenidən yüksəlişi”[136] (ingilis dilində) kitabları da onların sırasındadır.

Belə kitablardan biri də *“Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində”* adlanır[137].Onun*“Oxucuya”* adlı girişində məlumat verilib ki, BMT Təhlükəsizlik Şurasının 14 fevral 1992-ci il tarixli müvafiq tövsiyəsi olub. Bu *təşkilata üzv qəbul olunmaq barəsində* Azərbaycan Respublikasının ərizəsinə baxılıb. Sonra BMT Baş Məclisi1992-ci il martın 2-də özünün 46-cı sessiyasının 82-ci plenar iclasını çağırıb. İclasda Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması barəsində qətnamə qəbul edilib. Həmin qətnamə 111 dövlətin adından irəli sürülüb. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsinə BMT-nin bütün üzvləri yekdilliklə səs veribləр.

Ümummilli lider Heydər Əliyev Nyu-Yorka səfər edib. Səfər ölkəmiz ilə BMT arasında əməkdaşlığın dərinləşdirilməsi və inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olub.

1994-cü ilin sentyabrında *Heydər Əliyev BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-yə yola* düşüb. O, Azərbaycan tarixində ilk dəfə BMT-nin yüksək tribunasından proqram xarakterli nitq söyləyib. Burada Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini bəyan edib. Problemin sülh yolu ilə həllində BMT-nin mövqeyi nəzərə alınıb.

1994-cü ilin oktyabrında BMT Baş katibi Butros Butros-Qali Azərbaycana səfər edib. Əməkdaşlığın inkişafı üçün geniş yollar açılıb.

“Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində” kitabı “Oxucuya”, “Birləşmiş Millətlər Təşkilatının sessiyalarında, konfranslarında, tədbirlərində”, “ Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə görüşlər”, “ Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi Azərbaycanda”, “Humanitar sahədə əməkdaşlıq”, “Sosial-iqtisadi inkişaf naminə” və “Əlavələr” hissələrindən

[133] 27 iyul–7 avqust 1997
[134] 5 il. AMM-nin nəşri, 2012
[135] 13-16 dekabr 2003
[136] Graeme H. Wilson. Heydər: Heydər Əliyevin və Azərbaycanın yüksəlişi və süqutu və yenidən yüksəlişi. Malaziya, Media Prima, 2013, 600 s.
[137] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində” kitabı. Bakı, 2000, 342 s.

ibarətdir. Bu bölmələrdə Heydər Əliyev və ABŞ münasibətləri əhatəli şərhini tapıb.

Ulu öndər 1995-ci ilin oktyabrında 156 ölkənin dövlət və hökumət başçısının iştirakı etdiyi *BMT-nin 50 illiyinə həsr edilmiş xüsusi sessiyada* çıxış edib. Azərbaycanın haqlı tələbini, onun haqq işini kəskinliklə bütün dünyaya çatdırıb.

Heydər Əliyev 1997-ci il iyul-avqust aylarında *ABŞ-a rəsmi səfər* edib.1997-ci ilin dekabrında Tehranda İslam Konfransı Təşkilatının VIII Zirvə toplantısında *BMT Baş katibi Kofi Annan* ilə görüşüb. Görüş Azərbaycan –BMT əlaqələrinin dərinləşdirilməsi və inkişafı üçün səmərəli olub.

*"Fateh"* adlı publisistik kitab (redaktoru AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov, məsləhətçiləri BDU-nun kafedra müdiri, professor Ağalar Abbasbəyli, AMİ-nin kafedra müdiri, professor Qafar Cəbiyev, Mərmərə Qrupu vəqfinin rəhbəri Dr. Akkan Suverdir) Əməkdar jurnalist Xalid Niyazovun Ulu öndər Heydər Əliyev haqqında qələmə aldığı publisistik yazıların mətnidir.

Kitabın*"Qayıdışdan başlanan Qurtuluş"* bölməsində "Mənəvi bütövlüyümüzün qurtuluşu", "Qurtuluşun çətin yolları", "Qayıdış" və "Xilaskar" adlı hissələr verilib ki, həmin bölmələrdə milli qurtuluşun timsalı kimi Heydər Əliyevin xidmətləri ifadəsini tapıb.

*İrfan Ülkünün "Qırmızı ulduzdan Hilala. Heydər Əliyevin fırtınalı həyatı"* adlı kitabı[138] 2018-ci ilin nəşridir. Nəşrə məsul Burak Türkmenoğludur. Tərcümə Avrasiya Tərcümə Mərkəzinindir. 4 hissəlik kitabın bölmələrində *Heydər Əliyevin ömürlüyündən* bəhs edilib.

*Akademik Vaqif Abbasovun "Liderlik fəlsəfəsi"*[139] (rəyçisi, fəlsəfə elmləri doktoru, professor Y.İ.Rüstəmov, redaktorları Mustafa Çəmənli, Firuzə Nadir) kitabının ana xəttində *sosiologiya və politologiya elmində liderliyin əsasları* ifadə olunub. Əsər Ulu öndərin 90 illiyə həsr edilib. Publisistik mündəricəli mətndir.

*Xatirə Quliyevanın "Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq və mənəviyyat"*[140] (elmi redaktor və ön söz müəllifi akademik İsa Həbibbəyli, rəyçiləri AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Naxçıvan Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru Məmməd Rzayev, AMEA Fəlsəfə İnstitutunun

---

[138] İrfan Ülkü.Qırmızı ulduzdan Hilala. Heydər Əliyevin fırtınalı həyatı. II çap, 2018, yanvar. İlk nəşri 1993-cü il

[139] Vaqif Abbasov. Liderlik fəlsəfəsi. Bakı, "Təhsil", 2013. 192 s.

[140] Xatirə Quliyeva.Heydər Əliyev siyasəti:milli dövlət, milli lider, vətəndaşlıq və mənəviyyat. Bakı, "Elm", 2019, 416 s.

baş elmi işçisi, fəlsəfə doktoru Tahirə Allahyarova, məsul redaktoru, AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli, redaktorları Sevinc, Nisa Quliyeva,Vəfa Babayeva) kitabının IV fəsli Heydər Əliyev *siyasətinin sosial-mədəni inkişaf* proqramına, *vətəndaş-əxlaq* məsələlərinə həsr edilib (Heydər Əliyev siyasətində vətəndaş-fəlsəfi əxlaq konsepsiyası; Heydər Əliyev siyasətində sosial-mədəni inkişaf proqramı; Heydər Əliyev siyasətində milli və bəşəri amillərin əbədiyaşarlıq meyarları).

***

Ümummilli liderin *layiqli siyasi varisi, görkəmli dövlət və siyasi xadimi **İlham Heydər oğlu Əliyev*** 1961-ci il dekabrın 24-də Bakı şəhərində dünyaya gəlib.

1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb.

1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) oxuyub.1982-ci ildə həmin institutun aspiranturasına daxil olub.

1985-ci ildə tarix elmləri namizədi elmi dərəcəsini alıb.1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləyib.1991-1994-cü illərdə biznes qurumlarında çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib.

1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra birinci vitse-prezidenti olub. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak edib.

1995-2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib.

1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidentidir.

1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilib.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisi nümayəndə heyətinin rəhbəri olub. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib.

2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri olub.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini bilir…Beynəlxalq və respublika miqyaslı təltiflərə və fəxri adlara layiq görülüb.

Ümummilli liderin *layiqli siyasi varisi, görkəmli dövlət və siyasi xadimi İlham Heydər oğlu Əliyev* 2003-cü ildə *Azərbaycan Respublikasının Prezidenti* seçilib. Ölkəmiz onun rəhbərliyi ilə hərtərəfli inkişaf etdirilib.

İlham Əliyev 2009-cu ilə qədər Azərbaycanda hüquqi dövlət quruculuğunu davam etdirib, növbəti referandumda Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişiklikləri həyata keçirib. 2009-cü ildən Azərbaycanda hüquqi dövlət quruculuğu uğrunda gərgin mübarizə aparıb, dövlət quruculuğunu daha da möhkəmləndirib.

Sərəncamla 21 fevral 2017-ci ildə *Mehriban xanım Əliyeva* Azərbaycan Respublikasının birinci vitse-prezidenti vəzifəsinə təyin edilib.

2003-2008-ci illər İlham Əliyevin liderliyi ilə *dövlətin xarici siyasətində yeni mərhələ* olub.

Azərbaycan Respublikası 2003-cü ildən müasir, rəqabətə davamlı ölkəyə çevrilib. Ermənistan –Azərbaycan müharibəsi, yəni Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli sahəsində diplomatiya davam etdirilib. Ölkə beynəlxalq enerji, nəqliyyat- kommunikasiya və tranzit mərkəzlərindən birinə çevrilib, əhalinin rifahı yüksəldilib.

2003-cü ilin dekabrda İlham Əliyev Cenevrədə keçirilmiş İnformasiya Cəmiyyəti üzrə dünya sammitində iştirak edib, bu onun ilk xarici səfəri olub. İlham Əliyev prezidentliyinin birinci dövründə xaricə 100-ə qədər səfər edib.

Dövlətimizin başçısı 2003-2017-ci illər ərzində ölkədə ikitərəfli, regional və beynəlxalq toplantılar keçirib. Ölkənin beynəlxalq əlaqələri genişlənib, dünyada artan rolu, mövqeyi qüvvətlənib.

Azərbaycan İlham Əliyevin sayəsində 2003-2017-ci illərin xarici siyasətində BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 2013-cü ilə qədər dünya siyasətini müəyyən edən 15 dövlətdən birinə çevrilib, Cənubi Qafqaz və Mərkəzi Asiya regionundan təhlükəsizlik şurasına üzv seçilən ilk ölkə olub.

İlham Əliyevin sayəsində *sosial-iqtisadi sahədə* ilk 10 il ərzində iqtisadiyyat 3-4 dəfə, dövlət büdcəsi 19 dəfə artıb, iqtisadiyyata 110 milyard manat sərmayə qoyulub. 2013-cü ilə qədər *Bakı-Tbilisi Ceyhan ixrac kəməri* ilə 264 milyon ton neft, *Bakı -Tbilisi- Ərzurum kəməri* ilə 24 milyart kub metr qaz ixrac edilib. *Davos Dünya iqtisadi formunu* 2012-2013-cü illər indeksinə görə Azərbaycan dünyada 46-cı, MDB ölkələri arasında 1-ci yerdə olub. “Qlobal informasiya texnologiyaları –2012” hesabatında dünyanın 142 ölkəsi arasında 61-ci yeri tutub.

2003-2013-cü illərdə ölkəmizdə 5 beynəlxalq *hava limanı*, 4 *avtovağzal kompleksi,* 4 *metro stansiyası* istifadəyə verilib, çoxlu *körpü, avtomobil yolları*, *qaz kəmərləri* çəkilib.

Əhalinin *sosial müdafiəsi* və *təminatı* 9,3 dəfə çoxalıb, gəlirləri 6,9 dəfə, əməkhaqqı 6,3 dəfə, pensiyalar 8,6 dəfə artıb. Bu rəqəmlər sonrakı illərdə, əlbəttə, artıma doğru sürətlə dəyişib.

Bu da əhəmiyyətli faktlar və rəqəmlərdir ki, İlham Əliyev təkcə qaçqın və məcburi köçkünlərimizin sosial problemlərinin həlli üçün bu illərdə 51 *fərman* və *sərəncam* imzalayıb. *Dövlət proqramı* və ona əlavələr qəbul edilib. 57 *müasir qəsəbə* və *məhəllə* salınıb.

30 oktyabr 2017-ci ildə *Bakı -Tbilisi -Qars dəmir yolunun* açılış mərasimi olub. Çin, Qazaxıstan, Orta Asiya, Avropa ölkələrinin istifadə etdiyi yol başa çatdırılıb.

12 iyun 2018-ci ildə Türkiyənin Eskişəhər şəhərində TANAP-ın – *Trans-Anadolu qaz boru kəmərinin* açılış mərasimi keçirilib.

İlham Əliyev 2003-2017-ci illərdə tarixi uğurları ilə ***ölkənin baş memarı*** adına layiq görülüb, xalqın tarixinə ***qurucu Prezident*** kimi daxil olub.

2003-2020-ci illərdə Azərbaycanın dünyada nüfuzu daha da möhkəmlənib, aparıcı dövlətlərlə və qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq inkişaf etdirilib. İlham Əliyev Azərbaycanın milli mənafeyinə uyğun olaraq *Qarabağ münaqişəsinin ədalətli həllinə* nail olub.

*I Qarabağ müharibəsi.* 1988-ci ildə erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında fitnəkarlığı, seperatçılıq hərəkatı başlanıb. Qarabağın Ermənistana birləşdirilməsi məsələsi qaldırılıb.1988-ci ilin noyabrında Şuşa yaxınlığındakı Topxana meşəsinin qırılmasına etirazlar olunub.1988-ci ildə azərbaycanlılar dədə-baba torpaqlarından qovulmağa başlanıb. Bakıda tələbələrin ilk etiraz mitiqləri keçirilib. Xalq hərəkatı genişlənib. Bu hərəkat– *"Meydan hərəkatı"* kimi tarixə düşüb. Avqustun 25-27-də Bakının azadlıq meydanında 1 milyona yaxın adamın iştirakı ilə mitinqlər keçirilib.1990-cı il yanvarın 12-də Xanlar (Göygöl) rayonunun Quşçu kəndinə erməni silahlı dəstələrinin basqını başlanıb. Döyüşlərə qarşı 1990-cı ilin yanvarında Milli Müdafiə Şurası, özünümüdafiə dəstələri yaradılıb. Yanvarın 19-da Nazçıvana hücum edilib.

Sovet hökuməti 1990-cı il yanvarın 15-də ölkəmizə qoşun yeridib. 20 Yanvar faciəsi baş verib. Heydər Əliyev dünyaya etiraz bəyanatını səsləndirib. Moskvadan Bakıya qayıdıb.

1993-cü ilin iyun böhranı Qarabağ müharibəsində itkilərə yol açıb.Ümumən, Şuşa, Kəlbəcər, Ağdam, Cəbrail, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal edilib. I Qarabağ müharibəsi səriştəsiz dövlət başçılarının yarıtmaz fəaliyyətinə görə uğursuz başa çatıb.

Ölkə başçısı *Heydər Əliyev əhalini mütəşəkkil mübarizəyə* hazırlayıb. Qüdrətli ordu quruculuğunu, xalqın mütəşəkkil birliyini təmin edib. Heydər Əliyev bildirirdi ki, Ordumuz həqiqi Milli Ordu olmalı, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına, dövlətçiliyinə sadiq Ordu olmalıdır. O, Ordu quruculuğu, daxili və xarici siyasət, diplomatiya sahəsində ardıcıl, prinsipial, məqsədyönlü fəaliyyət nəticəsində milli dirçəlişə, beynəlxalq uğurlara nail oldu, xalqı səfərbər etdi, onu vahid məcrada birləşdirdi...

*II Qarabağ müharibəsi* 27 sentyabrdan 10 noyabra qədər–44 gün davam edib. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin uzun sürən intensiv siyasəti, diplomatiyası, iqtisadi strategiyası və xalqımızın mütəşəkkil birliyi ilə*"Dəmir yumruq"* planını qalibiyyətlə başa çatdırıb...

Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə bəyanat veriblər, rəsmi sənəd imzalayıblar.

İlham Əliyev *Böyük Zəfərin* təntənəsi, Vətən müharibəsinin yekunları ilə bağlı fərman və sərəncam imzalayıb.

27 sentyabr *Anım Günü,* 8 noyabr *Zəfər Günü* kimi tarixə düşüb.

2020-ci il dekabrın 10-da Bakı şəhərinin Azadlıq meydanında *hərbi parad* keçirilib. 2021-ci ilin yanvarında *Qarabağ Dirçəliş Fondu* yaradılıb.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı 2022-ci ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilib. İlham Əliyevin sərəncamı ilə 2022-ci il *"Şuşa ili"* elan olunub. "Xarıbülbül" beynalxalq folklor festivalı, iyul ayında Şuşada Vaqif poeziya günləri, iyul-avqust aylarında "Muğam" televiziya müsabiqəsi keçirilib...

Respublika Prezidenti İlham Əliyev *dövlət və siyasi fəaliyyətini* uğurla milli və qlobal səviyyələrdə davam etdirir. Onun *Dövlət Hakimiyyətinə rəhbərliyinin tarixi 20 ili* böyük uğurla başa çatıb, xalqımız tərəfindən, bütün Türk dünyası tərəfindən şərəflə, ləyaqətlə qutlanıb.

7 fevral 2024-cü il ölkəmizdə növbədənkənar Prezident seçkiləri günüdür. Bölgə üzrə təbliğat və təşviqat qrupunun iştirakçılarından biri kimi inanıram ki, cənab ***İlham Heydər oğlu Əliyev*** Azərbaycan Respublikasının Prezident seçkilərində böyük səsçoxluğu ilə qalib gələcək və ***Qalib xalqın Qalib Lideri*** kimi şərəfli vəzifəsini məsuliyyətlə yerinə yetirəcək, dövətimizi və xalqımızı tarixi zəfərlərə doğru irəliyə aparacaqdır.

## LİDERLİK MİSSİYASI İQTİSADİYYATDA

***“Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı prosesləri, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi əsasında formalaşdırılması bizim tutduğumuz magisrtral yoldur”.***

**Heydər Əliyev**

Heydər Əliyev Azərbaycanın iqtisadi potensialını, onun geopolitik-coğrafi vəziyyətini xalqımızın xoşbəxt gələcəyi üçün təminat bilib. Hesab edib ki, strateji yolumuz Azərbaycan xalqının mənafeyinə tamamilə uyğun olub respublikamızı dünya birliyinə, dünya iqtisadiyyatına bağlayır. O, elan edib ki, “Azərbaycan dövlətinin iqtisadi sahədə siyasəti iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə qurmaqdan və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlamaqdan ibarətdir”[141].

Dövlət başçısının iqtisadi siyasəti iqtisadiyyatda sərbəstliyə, hürriyyətə, insan azadlığı və haqlarının qorunmasına, sərbəst iqtisadiyyata, bazar iqtisadityyatı prinsiplərinə istinad edirdi. Heydər Əliyev bizim üçün aydınlaşdırırdı: “Xəzər dənizində ilk dəfə neft hasilatına başlayan Azərbaycanın XX əsrin sonunda bu hövzənin zəngin enerji ehtiyatlarını dünya üçün açması, heç şübhəsiz, dünya birliyi, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya olunmaq istəyindən irəli gəlmişdir”[142].

Ulu öndər *Nefti* Azərbaycanın ən böyük sərvəti, xalqımızın indiki və gələcək nəsilləri üçün tükənməz enerji mənbəyi hesab edib. Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır,– deyə mövqeyini xalqa çatdırıb. Heydər Əliyev qürur duyurdu ki, ölkəmiz təbii sərvətlərlə zəngindir, bunlar təkcə *neft və qazdan* ibarət deyil, həm də *bir çox başqa təbii sərvətlərlə* bağlıdır. “Ölkəmizin güclü iqtisadi potensialı var və biz bunlardan dövlətimizin möhkəmlənməsi, xalqımızın rifah halının yaxşılaşdırılması üçün səmərəli istifadə etməyə çalışırıq”, – deyə bildirirdi.

Ölkə rəhbəri eyni zamanda iqtisadiyyatın mənbəyində milli mentalitet, milli-mənəvi dəyərlərlər siqləti görürdü. Böyük İpək yoluna isə keçmişdən başlayaraq gələcəyə doğru gedilən yol, tarixi gələcək kimi baxırdı.

[141] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s.85-110

[142] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s.85-110

Ümummilli lider Heydər Əliyevin iqtisadi siyasəti zəmanəmizin sivilizasiya hadisəsi olaraq Şərq və Qərb dünyasına güclü təsir göstərib. Bu baxımdan siyasət, diplomatiya və iqtisdiyyat xadimlərinin ona heyranlığı və onların fikir mövqeyi heyrətamizdir. Birbaşa faktlara istinad edək. *Gürcüstanın ictimai xadimi Quram Axvlediani* Ulu öndərin *iqtisadi siyasətinə* toxunaraq ona bildirib ki, Siz ən parlaq liderlərdənsiniz. Millətin və dövlətin mənafelərini GUÖAM-ın əhatə etdiyi bütün regionda *iqtisadi siyasətlə* və *inteqrasiya prosesləri* ilə necə əlaqələndirməyi Sizin timsalınızda öyrənə bilərik.

Sizin təşəbbüsünüzlə başlamış *Bakı-Tbilisi-Ceyhan və Böyük İpək Yolu* kimi qlobal dövlətlərarası layihələrin gerçəkləşdirilməsi ölkələrimizin iqtisadiyyatına dinamika verəcək və xalqlarımızın həyatını dəyişdirəcəkdir. Gürcüstan bu tarixi proseslərdə sizin rolunuzun xüsusi qiymətləndirir[143].

*Böyük Britaniya baş nazirinin müavini, birinci dövlət katibi Maykl Rozentaym* illik neftin ixracı məsələləri ilə bağlı Heydər Əliyevə bildirib ki, "mən Sizin liderliyiniz sayəsində illik neftin ixracı marşrutlarının müəyyənləşdirilməsi haqqında qəbul edilmiş qərarı yüksək qiymətləndirirəm. Mən sizin gördüyünüz işlərə heyranam"[144].

*Böyük Britaniyanın məşhur siyasi xadimi Yord Betnol* deyib ki, Azərbaycan Prezidenti Heydər Əliyevin tərcümeyi-halına yaxşı bələdəm və onu 1975-ci ildən tanıyıram. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin son illər əldə etdiyi nailiyyətlərin, *Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına qovuşdurmaq uğrunda aparılan ardıcıl və səmərəli siyasətin* yaxın gələcəkdə mütləq bəhrə verəcəyinə əminəm"[145].

*Parlament Assambleyasının sədri lord Rassel-Conston* Azərbaycanın *iqtisadi inkişafında* iştirak edən neft şirkətlərinin fəaliyyətini nəzərə alaraq bildirib: "Cənab Prezident, həqiqətən mən verdiyiniz geniş şərhə görə Sizə çox minnətdaram. Siz dünyanın müxtəlif ölkələrindən burada işləyən, Azərbaycanın iqtisadi inkişafında iştirak edən neft şirkətlərinin, o cümlədən, "BP"-nin adını çəkdiniz. Əlbəttə, ilk əvvəl deməliyəm ki, mən özüm böyük britaniyalı-şotlandiyalıyam"[146].

Heydər Əliyev 1999-cu ilin sentyabrında Bakıda *BMT-nin qaçqınlar üzrə ali komissarı xanım Sadako Oqata* ilə görüşüb. 2000-ci ilin yanvarında isə Davosda görüşlər keçirilib.

---

[143] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.35
[144] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.32
[145] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.33
[146] Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.; s.121

1994-cü ilin noyabrında qaçqınların, məcburi köçkünlərin vəziyyətinə dair *"İnkişaf problemləri və strateji istiqamətlər"* mövzusunda beynəlxalq konfrans, 2000-ci ilin mayında isə Bakıda yerli konfrans baş tutub.

*BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqata* da Heydər Əliyevə hörmətini bildirib: "Mən tam anlayıram ki, təklikdə bütün bu problemlərin öhdəsindən gəlməyə qadir deyiləm. Çünki Qaçqınlar problemindən əlavə, burada hərbi, siyasi problemlər də var və ümumiyyətlə, bu, kompleks bir problemdir. Bizim edə biləcəyimiz və indiyədək etdiyimiz *bu insanlara müəyyən qədər yardım göstərmək*, onların *vəziyyətini yaxşılaşdırmağa* çalışmaqdır. Lakin bütün bunlar hamısı müvəqqəti addımlardır. Eyni zamanda, *biz ümidlə yaşayırıq ki, bütün siyasi və hərbi problemlər münaqişəyə qatılmış ölkələrin liderləri* tərəfindən həll olunacaqdır. Bu baxımdan Sizin tutduğunuz mövqeyə böyük hörmətim var. Baxmayaraq ki, bütün çətinliklərlə üzləşirsiniz, amma yenə də çalışırsınız ki, *məsələləri sülh yolu* ilə həll edəsiniz"[147].

*BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Avropa Bürosunun direktoru Anne-Villem Baylaveldi* Heydər Əliyevin *qaçqınlara, zorla qovulmuş şəxslərə aid fərmanını, yeni iş imkanları yaratmaq haqqında sərəncamını* qiymətləndirərək bildirib: "Biz Sizin keçən ilin sentyabrında verdiyiniz fərmanı eşitdikdən, bu haqda məlumat aldıqdan sonra çox xoşhal olduq. Çünki həmin fərmana görə Siz *qaçqınlara, zorla qovulmuş şəxslərə yeni iş imkanları açmaq haqqında sərəncam* vermisiniz. Məhz həmin fərmanın nəticəsidir ki, Sizin hökumətin İşçi qrupu ilə, hökumətinizdə olan həmkarlarla bizim həmkarlar arasında çox yaxşı, sıx əlaqə yaranmışdır və biz işləyərək həm bir-birimizə kömək edirik, həm də qaçqınların vəziyyətini düzəltmək üçün yardım göstəririk. Məhz bunun nəticəsidir ki, Sizin və bizim həmkarlarımız birgə Plan işləyib hazırlamışlar. Mən bunu tamamlayıcı Plan adlandırıram. Bu, çox gözəl plandır. İstərdim ki, belə bir plan başqa ölkələrdə də hazırlansın və həyata keçirilsin"[148].

*BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Avropa Bürosunun direktoru Anne-Villem də* Heydər Əliyevin fərmanına yüksək dəyər verib: "Sizin *vətəndaşlıq haqqında fərmanınızla* əlaqədar olaraq öz hörmət və ehtiramımı

[147]Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. Bakı,2000,342 s.; s.171
[148]Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində.Bakı, 2000, 342 s.;s.179

bildirirəm. Bu, bizə böyük ruh vermişdir və çox perspektivli bir fərmandır”[149].

Heydər Əliyev 1995-ci il yanvarın 29-da *Dünya Bankının Baş direktoru Sven Sanstromu, Beynəlxalq Valyuta fondu direktorunun I müavini Stenli Fişer* ilə görüşüb.

Dövlət başçısı 1995-ci il iyulun 25-də *BMT İnkişaf Proqramının regional direktoru Anton Kruideriki,* 1996-cı ilin 27 avqustunda Prezident sarayında *BMT-nin narkotik vasitələrə nəzarət üzrə beynəlxalq proqramının icraçı direktoru Corcio Cakomellini* qəbul edib.

1995-ci il sentyabrın 14-də *Dünya Bankının vitse-prezidenti Vilfrid Talvitsi*, 1996-cı il martın 12-də *Beynəlxalq Valyuta fondunun direktoru Mişel Kamdessüm,* 1997-ci il oktyabrın 25-də yeni *vitse-prezidenti Johanos Linni*, 1998-ci il martın 6-da Dünya Bankının və BMT-nin Azərbaycandakı nümayəndələrini qəbul edib. Bankın hesabından Azərbaycan nəfinə fayda gətirmək Ulu öndərin başlıca məqsədi olub.

1996-cı il iyunun 1-də *BMT İnkişaf Proqramının rəhbəri Ceyms Qustav Spetin* isə Azərbaycana səfəri olub. Bütün bunların hamısında vacib məsələ Azərbaycanda iqtisadi vəziyyəti dirçəltməyə doğru yönəldilib.

Heydər Əliyev 1997-ci il yanvarın 24-də Prezident sarayında *YUNİSEF-in Zaqafqaziya ölkələri üzrə regional nümayəndəsi Cakoba Pitersi* qəbul edib. Qonaq Heydər Əliyevin *“Uşaqların sağlamlığı haqqında”* bəyannaməsindən razılıqla bəhs edib. Təşkilatın *Azərbaycanda uşaqların sağlamlığı proqramını* necə həyata keçirdiyinin hazırki vəziyyətindən söhbət açıb. O, Heydər Əliyevin YUNİSEF-in dünya ölkələrində gördüyü işlərin mühüm olduğunu vurğulayıb, dövlətimizin başçısının təşkilatla əlaqələrinin daha da sıxlaşdırılması, lazımi sənədləri hələ 1994-cü ildə Nyu-Yorkda səfərdə olarkən imzaladığını xatırladıb, təşkilatın Azərbaycandakı nümayəndəliyinin fəaliyyətini yüksək qiymətləndirib.

Cakoba Piters hərbi münaqişə olan yerlərdə *qadınların və uşaqların* daha çox çətinliklərlə üzləşməsi barədə respublikamızın rəhbərlərinin fikrinə şərik olduğunu söyləyib. O, Azərbaycanda *qaçqın uşaqlara* yardımın daha da gücləndirilməsindən, YUNİSEF-in digər təşkilatlarla əlaqələri genişlən-

[149]Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. Bakı, 2000, 342 s.; s.179

dirməsindən söz açıb. Deyib ki, biz Azərbaycanda həyata keçirdiyimiz proqramı təcili proqram hesab edirik və onun yerinə yetirilməsinə xüsusi fikir veririk[150].

***

Dövlət başçısının 1997-ci il iyulun 31-də *Dünya Bankının Prezidenti Ceyms Vulfenson* ilə görüşü zamanı bankın prezidenti Heydər Əliyevə olan rəğbətini gizlətməyib. Dünya Bankının Prezidenti Ceyms Vulfenson deyib: “Hesab edirəm ki, *ölkənizin inkişafı* baxımından sizin çox gözəl, *dahi fikirləriniz* vardır. Ölkənizi bərabərlik və sosial ədalət prinsipləri əsasında inkişaf etdirmək nöqteyi-nəzərindən baxışlarınız alqışa layiqdir. Biz sizin bütün xalqınızın fayda götürə biləcəyi bir cəmiyyət qurulması barədə fikirlərimizi alqışlayırıq. Bir tərəfdən Azərbaycanın çox zəngin enerji ehtiyatları, digər tərəfdən isə ölkəmizdə bir milyondan çox qaçqının olması, ərazilərimizin 20 faizinin itirilməsi sizin qarşınızda böyük vəzifələr qoyur. Bu vəzifələrin həyata keçirilməsində biz Sizinlə bərabər çalışmaq və Sizə yardımçı olmaq arzusundayıq. Şəxsən Sizinlə mənim aramda yaranmış partnyorluğa söykənərək bundan sonra əlindən gələni edəcəyəm ki, bu münasibətlərimiz və əməkdaşlığımız sürətlə inkişaf etsin”[151].

*Beynəlxalq Valyuta Fondunun direktoru M.Kamdessü* bildirib ki, *Azərbaycan iqtisadiyyatında* əldə edilmiş nailiyyətlər onu valeh edib. Bu nailiyyətlər *makroiqtisadi sahədə* daha çox nəzərə çarpıb. Bir vaxtlar 50 faizdən artıq bir səviyyəyə çatan infilyasiya görülmüş tədbirlər nəticəsində 2 – 2,5 faizə endirilib, nəticədə ölkədə maliyyə sabitliyi yaradılıb. Cənab M.Kamdessü əlavə edib ki, onun rəhbərlik etdiyi təşkilat öz iqtisadi vəziyyətini yaxşılaşdırmaq istəyən ölkələrə kömək etmək üçün yaradılıb və Azərbaycan Beynəlxalq Valyuta Fondunun dəstəyinə arxayın ola bilər[152].

Heydər Əliyev 1997-ci il iyulun 12-də *Beynəlxalq Kənd Təsnifatının İnkişafı Fondunun rəhbəri Fauzi Həmd əl-Sultanı*, 1997-ci il iyulun 12-də *BMT-nin Sənaye İnkişafı Təşkilatının (YUNİDO) Baş direktoru Mauritsio de Mariya Komposu* qəbul edib. Cənab Fauzi Həmd Əl-Sultan xatırladıb ki, Azərbaycanın tərəqqisi üçün *neft sənayesi* ilə yanaşı, *kənd təsərrüfatının* da

[150] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.230
[151] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.263
[152] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.288

böyük əhəmiyyəti var. Belə bir cəhət xüsusi vurğulanıb ki, *torpaq islahatı* digər ölkələrdə adətən 30-40 il ərzində həyata keçirilirsə, Azərbaycanda bu iş çox qısa müddətdə görülüb. Cənab Fauzi Həmd Əl-Sultan Heydər Əliyevə: "*Torpaq islahatının aparılması* çox böyük qüvvə və səy tələb edir, ancaq biz qəti şəkildə inanırıq ki, *Siz bu işdə məqsədinizə nail* olacaqsınız. Biz bu məsələdə sizə kömək etməyi özümüz üçün şərəf sayırıq"[153], –deyə bildirib. Heydər Əliyev deyib ki, bu sahədə Azərbaycanda belə bir *qanun,* böyük bir *proqram* var və həyata keçirilir. Çalışırıq ki, işlər surətlə aparılsın, torpaqdan istifadənin səmərəliliyi artırılsın.

Heydər Əliyev 1997-ci il dekabrın 8-də *Beynəlxalq Ərzaq Təşkilatının Prezidenti Jak Düfu* ilə görüşüb. O zaman *Jak Düfu* Azərbaycanla əməkdaşlığın genişləndirilməsini nəzərdə tutaraq deyib: "Cənab Prezident, biz öz fəaliyyətimizdə *Dünya Bankının* və *İslam İnkişaf Bankının köməyinə* arxalanırıq. Mən hər iki bankın prezidentləri ilə görüşmüşəm, onlar bizim Azərbaycanda görəcəyimiz işləri dəstəkləyirlər. Biz *Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə* həmişə hazırıq və ümid edirik ki, Avropa ölkələrinə səfərlərinizin birində vaxt tapıb Romaya gələcək, təşkilatımızın üzvlərinə müraciətlə çıxış edəcəksiniz"[154].

Heydər Əliyev 1998-ci il sentyabrın 20-də *BMT Baş katibinin müavini və Əhaliyə Yardım Fondunun icraçı direktoru Nətis Sadıkı* qəbul edib. Qəbul Respublika Dövlət Opera və Balet Teatrında BMT-nin Əhaliyə Yardım Fondu ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) birgə keçirdiyi reproduktiv sağlamlıq problemlərinə dair beynəlxalq konfransın açılışı zamanı olub.

*Nətis Sadık* deyib ki, cənab Prezident Heydər Əliyevin gəlişi konfransın vacibliyini və əhəmiyyətini artırıb. O, Bakıda Şəhidlər Xiyabanını, Şirvanşahlar Sarayını ziyarət edib, Xalça muzeyində olub. Nətis Sadık Heydər Əliyevin Pakistana rəsmi səfərini yada salıb, İslamabad və Lahor şəhərlərində olduğunu, orada əzəmətli məscidi ziyarət etdiyini, İslamabadda xatirə ağacı əkdiyini xatırladıb. Qəbulda İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Baş katibi Öndər Özər, *BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murad* və digər rəsmi şəxslər iştirak edib.

---

[153] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.320
[154] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.323

Böyük rəhbər 1999-cu il iyulun 5-də *Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının rəhbəri Assad Kotaytı* və təşkilatın *Avropa və Şimali Atlantika Bürosunun regional direktoru Kristian Ayqlı* qəbul edib. *Assad Kotayt: "*Əlbəttə, Azərbaycanın mülki aviasiyasından danışarkən *Sizin adınızı mütləq çəkmək* lazımdır. Bu *aviasiyanın formalaşmasında Sizin birbaşa xidmətləriniz* var. Cənab Prezident, bu mülki aviasiyanın formalaşdığı ilk gündən Siz *bu sahəyə böyük diqqət və qayğı* göstərmisiniz. Elə bunun nəticəsidir ki, bu yaxında *yeni hava terminalı* istifadəyə verilmişdir. Cənab Prezident, biz çox şadıq ki, Siz *hava nəqliyyatına böyük fikir verirsiniz*, məlumdur ki, mülki aviasiya da hava nəqliyyatının bir hissəsidir və Sizin ölkələrin gələcək böyük planları içərisində bu sahəyə xüsusi üstünlük verilir"[155],– deyə məmnunluğunu ifadə edib. *Və sair...*

Monoqrafiyanın II geniş fəslində *"Əsrin müqaviləsi"ndən–* Heydər Əliyevin iqtisadi inkişaf strategiyasından əhatəli bəhs ediləcəkdir.

*Beləliklə,* tarix sübut etdi ki, Ümummilli liderin iqtisadiyyatda tutduğu strateji yol– xalqın mənafeyinə uyğun olub ölkəmizi dünya birliyinə, dünya iqtisadiyyatına qovuşduran yoldur.

[155] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.322

## LİDERLİK MİSSİYASI İDEALOGİYADA

***" Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür".***

**Heydər Əliyev**

Ümummilli lider Heydər Əliyev məsul şəxs və dövlət başçısı kimi özü üçün vəzifə bilib: *"Xalq daim gərək öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın"*[156].

Bu mənada Heydər Əliyevin dövlət və cəmiyyət siyasətinin ideoloji istiqamətində ictimai təşkilat kimi ***Heydər Əliyev Fondunun*** tarixi xidmətləri böyükdür. Fond dahi şəxsiyyət, görkəmli dövlət və siyasət xadimi, milli dövlət müstəqilliyimizin qurucusu Heydər Əliyevin adını daşıyır.

Fond Ümummilli liderin müəyyən etdiyi siyasi kursun işığında fəaliyyət göstərir. Dövlət müstəqilliyimizin bərqərar olması, möhkəmləndirilməsi, iqtisadi tərəqqisi, milli mədəniyyətimizin inkişaf etdirilməsi, ölkəmizin dünya birliyində layiqli yer tutması məqsədinə xidmət edir, təbliğat və təşviqat işini həyata keçirir. Müstəqil Azərbaycanın bugünü və gələcəyi naminə iqtisadi-mədəni inkişafın etibarlı təminatçısı qismində çıxış edir.

Heydər Əliyev Fondu ictimai təşkilatdır. O, qarşıya qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsində əhatə və miqyas genişliyinə görə analoqu olmayan yeni tipli sosial qurum kimi seçilir. Qurum geniş ictimaiyyətlə əlaqələri möhkəmləndirir, Heydər Əliyev ideyalarının həyata keçirilməsinə yardımçı olur, mədəni fəaliyyət istiqamətini zamanın ritminə uyğunlaşdırır, ölkənin hərtərəfli inkişafı, vətəndaş cəmiyyəti quruculuğu üçün qüvvə və bacarığını sərf edir.

"*Heydər Əliyev Fondu"* adlı təyinat kitabı da qurumun fəaliyyətə başlamasının 2 illiyinə həsr olunub. Bu nəşr Fondun qarşıya qoyduğu məqsəd və vəzifələlərdən, indiyədək yerinə yetirilmiş işlərdən bəhs edir.

*Azərbaycan Respublikasının vitse-prezidenti,* Heydər Əliyev Fondunun rəhbəri, *YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva* kitabın məramnamə hissəsində yazıb: "Azərbaycan xalqının böyük xilaskarı Heydər Əliyevin işıqlı xatirəsini bir daha ehtiram hissi ilə anaraq, ömrünü xalqın gələcəyinə həsr etmiş *dahi şəxsiyyətin*

[156] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

*ideyalarının həyata keçirilməsi kimi şərəfli işdə* hamını Heydər Əliyev Fondu ilə əməkdaşlığa dəvət edirəm”[157].

Təqdimat kitabı Ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığının bütöv tarixini, tərcümeyi-halını verib. Fondun məqsəd və vəzifələrini göstərib. 2005-2006-cı illərdəki fəaliyyətinin əsas istiqamətlərini ümumiləşdirib. Sonrakı illərdə Fondun fəaliyyəti barəsində geniş ictimaiyyətə yeni-yeni nəşrlər təqdim edilib.

Kitabda *Heydər Əliyev Fondunun* təhsil, səhiyyə, mətbuat, elm və texnologiya sahəsində fəaliyyəti təhlil edilib.

***

Ümummilli liderin ideoloji baxışlarında ***azərbaycançılıq məfkurəsi*** mühüm siyasi əhəmiyyət kəsb edibdir. Professor Səlahəddin Xəlilovun *“Heydər Əliyev və azərbaycançılıq məfkurəsi”*[158] kitabı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ideyalarına, onun azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji əsaslarına həsr edilib. Heydər Əliyevin ana dilimizlə, milli-mənəvi dəyərlərimizlə, mədəniyyətimizlə bağlı qiymətli fikirləri şərh olunub. Kitabda Ümummilli liderin azərbaycançılıqla bağlı nitqləri və fərmanları da verilib.

Kitabda *ön söz əvəzi* (“Heydər Əliyev və azərbaycançılıq”), “Dünya azərbaycanlıları və azərbaycançılıq ideyası”, “Vahid mədəni-mənəvi məkan”, “Milli-etnik və milli-siyasi özünüdərk”, “Azərbaycançılıq və milli ziyalılıq”, “Azərbaycan dili azərbaycançılığın təməl daşıdır”, “Milli-mənəvi dəyərlər və müasirlik”, “Azərbaycançılıq və milli-fəlsəfi fikir”, “Milli mənəviyyat və dövlətçilik” bölmələri, habelə, Ulu Öndərin azərbaycançılıqla bağlı bəyanatları, nitqləri və fərmanları verilib (“Dünya azərbaycanlılarına”, “Dünya azərbaycanlılarının I Qurultayında nitq”, “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında fərman”, “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında fərman”, “Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı”, “Azərbaycan Respublikası Dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq”).

Mübariz Yusifovun *“Heydər Əliyev və azərbaycançılıq ideologiyası”* adlı kitabı Heydər Əliyev məktəbinin dinləyiciləri üçün vəsaitdir[159]. Kitab giriş, “Azərbaycançılıq ideyalarının yaradılmasında milli-mənəvi və ümumbəşəri dəyərlərin rolu”, “Azərbaycançılıq vətənə xidmətin təzahürü kimi”,

---

[157] Heydər Əliyev Fondu. Bakı, 2006,

[158] Səlahəddin Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan Universiteti nəşr, 2002, 232 s.

[159] Mübariz Yusifov. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı, “Nurlan”, 2003, 204 s.

“Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında dirçəliş və azərbaycançılıq ideyaları”, “Elm, maarif və mədəniyyət sahəsində nailiyyətlər azərbaycançılığın təzahürü kimi”, “Gənc nəslin vətənpərvərlik tərbiyəsi” adlı *I bölməni*, “Müstəqil dövlətlər zəminində azərbaycançılıq ideologiyasının formalaşdırılması”, “Dünya Azərbaycanlılarının həmrəyliyi”, “Azərbaycan Respublikası Prezidentinin Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında sərəncamı”, “Azərbaycanın Avropa Şurasında təmsil olunması”, “İlham Əliyevin Avropa Şurasında fəaliyyəti”, “Avropa Şurasında azərbaycançılığa dair müzakirə edilən məsələlər”, “Uğurlar və narahatlıq”, “Əleyhdarların əks mövqeyi” adlı *II bölməni*, “Azərbaycançılıq ideologiyası milli ideyanın təməli kimi”, “Milli ideya haqqında”, “Milli ideologiya və azərbaycançı elita”, “İlham Əliyev Heydər Əliyev siyasi kursunun varisidir” adlı *III bölməni* əhatə edib.

Akademik İsa Həbibbəyli də Ulu öndərin *azərbaycançılıq təlimindən* bəhs edib.

Azərbaycan Milli Elmlər Akademiyasının “Xəbərlər” toplusunda[160] akademikin Heydər və İham Əliyevin dövlətçilik təliminə istinad edən *“Azərbaycançılıq ideologiyası konsepsiyası”* verilib. Konsepsiyada ideologiyanın prinsipləri, Azərbaycançılıq məfkurəsi, Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, Azərbaycan dili, milli-mənəvi dəyərlər və Azərbaycanşünaslıq bölmələri göstərilib.

Akademik İsa Həbibbəyli məqalələrinin bir vacib tezisini də *azərbaycançılıq təlimi* üzərində müəyyənləşdirib. Azərbaycançılıq bir məfkurə olaraq müstəqil dövlətin milli ideologiyası səviyyəsinə qaldırılıb, xüsusilə, “dünya azərbaycanlıları ilə əlaqələrin formalaşdırılması, bu istiqamətdə keçirilən tarixi qurultayları, həmin sahəyə rəhbərlik edən xüsusi dövlət qurumunun təşkili, yer kürəsinin müxtəlif guşələrində yaşayan həmvətənlərimizin təşkilatlandırılması Azərbaycan tarixində Heydər Əliyevin adı ilə bağlı böyük xidmətlərdir. Nəhayət, dövlət quruculuğu sahəsində və cəmiyyət həyatının digər sahələrində həyata keçirdiyi qətiyyətli islahatlar Azərbaycanda yeni müstəqil dövlətin formalaşdırılmasına görkəmli siyasi xadimin mühüm töhfələrindəndir”[161].

Məqalələrdə yeni tarixi mərhələdə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin siyasi xidmətləri ümumiləşdirilib. Müəllif İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsini siyasi varisliklə yeni dövlətçilik təfəkkürünün vəhdətinin qələbəsi kimi dəyərləndi-

---

[160] Humanitar elmlər, Bakı, “Elm”, 2015, № 1, s.3-4

[161] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.46

rib”[162]. Ümumiləşdirib ki: “Böyük Qayıdışın tarixi dərslərini, gerçək fəlsəfəsini çox yaxşı və dərindən bilən İlham Əliyev bu zəmində, həm də yeni və çoxaspektli yanaşmalar əsasında Azərbaycanın çoxcəhətli inkişafını yeni mərhələyə çatdırmışdır”[163]. Yekunlaşdırıb ki: *“Heydər Əliyevin milli dövlətçilik təlimi müstəqil Azərbaycan dövlətinin strategiyasıdır”.*[164]

Akademik İsa Həbibbəyli *“Dahilik və zaman”* (2010) əsərini “Heydər Əliyevin Azərbaycançılıq siyasəti: ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə” (2013) əsərindən əvvəl yazıb. Əsərdə əslində sonrakı tezislərin konkret zəmini, mühüm müddəaları yaranıb: “Uzaqgörənlik, möhkəm siyasi iradə, milli mövqe və mübarizə əzmi tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir”[165].

*“Heydər Əliyevin Azərbaycançılıq siyasəti: ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə” (2013)* əsərində akademik İsa Həbibbəyli müasirliyə Azərbaycançılıq ideologiyasının tarixindən gəlib, onun milli ideya, daha sonra ideologiya kimi formalaşdırılması tarixinə baxıb və Ümummilli lider Heydər Əliyevi nümunə göstərib.

Heydər Əliyev obrazını bütövləşdirən bir amil budur ki, ölkəmizdə *azərbaycançılıq məfkurəsi* dərinləşib, *milli ideologiya* formalaşdırılıb. Milli mədəniyyətimiz, elmimiz və ədəbiyyatımız dünyada tanınıb və geniş təbliğ edilib. Digər mühüm amil: “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev coğrafi ərazi etibarilə kiçik, strateji əhəmiyyətinə və iqtisadi imkanlarına görə güclü bir ölkənin böyük lideri, yeni dünya siyasətinin cəlbedici simalarından biri kimi dünyanın diqqət mərkəzində dayanır”[166].

Daha bir obraz müəyyənliyi: “Geniş dünyagörüş, analitik təfəkkür, problemlərin həllinə çoxaspektli yanaşma, Azərbaycan idealına dərin sədaqət, inteqrasiya proseslərinin tənzimlənməsinə milli mövqedən baxış ölkə prezidentini xalqına və dünyaya sevdirən əsas xarakterik xüsusiyyətlərdir”[167].

*“Heydər Əliyev yolu: Naxçıvan reallıqları” (2014)* məqaləsində də İsa Həbibbəyli Heydər Əliyevin dövlətçilik təlimindən bəhs edib, dəyərləndirib ki, bu təlim “Heydər Əliyevin böyük dühası ilə Azərbaycan xalqının müstəqil dövlətçiliyinin konsepsiyasını formalaşdırmışdır”[168]. Akademik İsa Hə-

---

[162] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.46
[163] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.47
[164] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.47
[165] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013,Bakı, NPB, 2013, 272, s.46
[166] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.213
[167] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.213
[168] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.28

bibbəyli buna sübut olaraq Prezident İlham Əliyevin aşağıdakı fikirlərini əsas gətirib: "Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu öndərin həyat və fəaliyyəti onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır"[169].

Mübariz Qurbanlının *"Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər"*[170] kitabını mənəvi dəyərlərin təbliği fondu hazırlayıb. Kitabın "Mənəvi dəyərlər Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi" adlı III fəslində "Azərbaycançılıq ideologiyası və islam", "Azərbaycançılıq ideologiyası: tolerantlıq və multikulturalizm", "Azərbaycançılıq ideologiyası və mənəvi-dini irsə baxış: tarixi, dini abidələrin bərpası, maddi və mənəvi dəyərlərin qorunması" bölmələri verilib.

***Dünya azərbaycanlıları*** anlayışı da Heydər Əlyevə məxsus mühüm siyasi mənəvi dəyərlərdən biridir. Hələ sovet dönəmində Dünya azərbaycanlıları ilə məhdud da olsa, əlaqələr yaradılıb, Dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə doğru addımlar atılıb, 16 dekabr 1991-ci ildə Naxçıvan Mixtar Respublikasının Ali Məclisində "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında" adlı tarixi qərar qəbul edilib. Bu, birinci dövlət Bəyannaməsi olub. 2001, 2006, 2012-ci illərdə Dünya azərbaycanlılarının üç qurultayı keçirilib, Ulu Öndərin "Dünya azərbaycanlılarının bir vətəni var, bu, Azərbaycandır" –kəlamı müasir dövrün Azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil etmişdir" İlk qurultayda dahi rəhbərin çıxışı Azərbaycançılıq məfkurəsinin siyasi manifesti olmuşdur. Məqsəd aydınlığı, birliyi naminə 5 iyul 2002-ci il tarixli fərmanla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. "Heydər Əliyevin müdrik siyasəti Azərbaycançılığı ölkə sərhədlərindən dünya birliyi səviyyəsinə çatdırmaqdır"[171].

*"Heydər Əliyev və Şərq"* adlı V kitabın *"Tariximizin və siyasətimizin bayraqdarı"* adlı ön sözündə Heydər Əliyevin *Azərbaycanın diasporuna* daimi diqqəti, 23 fevral 1994-cü ildə Böyük Britaniyadakı həmvətənlərimizlə görüşü, onlara tapşırıqları, tövsiyələri ifadəsini tapıb. Ümummilli lider tapşırıb ki, *Azərbaycanlılar* daha çox bilməlidirlər ki, indi bizim, nəha-

---

[169] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.29

[170] Mübariz Qurbanlı. Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər. Bakı, 2018, 160 s.

[171] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013,Bakı, NPB, 2013, 272, s.40

yət, müstəqil dövlətimiz – Azərbaycan Respublikası var, azərbaycanlılar üçün Ana vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Deməli, harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən[172].

Prezident Heydər Əliyevin ciddi səyləri ilə 2001-ci il noyabrın 9-10-da Bakıda *"Dünya azərbaycanlılarının I qurultayı çağırılıb,* forumda diaspor ideya-siyasi cəhətdən təşkilatlandırılıb. Hər il dekabrın 31-i *Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi günü* kimi bayram edilməsi rəsmiləşdirilib.

***

Heydər Əliyev və İlham Əliyevin dövlətçilik təlimində ***Naxçıvan Muxtar Respublikası*** məsələsi mühüm prioritetlərdən olub. AMEA-nın prezidenti, millət vəkili, akademik İsa Həbibbəyli də dövlətçilik siyasətinin həm də bu tərəfinə əhatəli diqqət yetirib. İctimai-siyasi xadim *"Milli ziyalılığın qüdrətli təminatçısı"* məqaləsində Heydər Əliyevin Naxçıvandakı siyasi-mədəni fəaliyyətinə, Naxçıvanın *dini-mifoloji qaynaqlarına* baxışını ifadə edib.

Böyük rəhbər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən beynəlxalq statuslu Qars müqaviləsinin müddəalarını önə çəkib, müqavilənin şərtləri daxilində məqsədyönlü dövlətçilik siyasəti yürüdüb, Azərbaycan–Türkiyə münasibətləri, habelə, region dövlətləri ilə yeni əlaqələrin qurulmasında, Muxtar Respublikanın ərazisinin beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb eləyib.

Heydər Əliyev *Muxtar Respublikanın 75 illik* yubileyində *(12 oktyabr 1999)* muxtariyyatın tarixinə, onun siyasi-hüquqi statusu və Qars müqaviləsinin çağdaş əhəmiyyətinə yeni siyasi dəyər verib: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, muxtariyyatını gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir"[173].

İsa Həbibbəyli dəyərləndirib ki, Naxçıvanın erməni işğalından xilası, onun siyasi-hüquqi təminatının möhkəmləndirilməsi, iqtisadi böhranın aradan qaldırılması Heydər Əliyevin tarixi xidmətidir. Onun sədrliyi ilə Naxçıvan MR Ali Məclisinin Sessiyasında üçrəngli milli bayrağın göylərə qaldırılması, dalğalandırılması və dövlət atributu kimi qəbul edilməsi *"Azərbaycanın istiqlal tarixinin çox şərəfli hadisəsidir*[174]. Siyasi dövlət xadiminin

[172] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab, Bakı, 1997, s.432
[173] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.13
[174] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.13

milli istiqlalımız üçün bir şərəfli xidməti də o dövrdə SSRİ-nin saxlanılmasına dair referendumun keçirilməsinə etirazı və onun Naxçıvanda tətbiqinə yol verməməsi ilə bağlı olub. Naxçıvan real və etibarlı təminatını Ulu öndərin Azərbaycanda hakimiyyətə gəlməsi ilə tapıb. Hazırda "Naxçıvan Muxtar Respublikası inkişafdan böyük intibaha doğru özünün yeni yüksəliş dövrünü yaşayır"[175].

Alim Heydər Əliyevi *dövlət xadimi* kimi səciyyələndirdiyi məqaləsinin *"Yeniləşən Naxçıvan"* hissəsində respublikanın ordu quruculuğu, aqrar siyasətin sənayeləşdirmədə uğuru, sərhəd gömrük xidməti, iqtisadi təhlükəsizliyə təminatı, bölgənin duzu, mineral suları, dərman bitkiləri, Naxçıvan avtomobili, beşulduzlu "Təbriz", "Duzdağ" otelləri, yeni şəhərsalma modelinə diqqət yönləndirib.

Təhsil qurucusu *universitetin maddi-texniki bazasına* diqqət yetirəndə Heydər Əliyevin müasir təhsilə olan qayğısını xüsusi vurğulayıb. Bildirib ki, universitet dünyanın 10 ölkəsi, bütün ölkə regionlarının tələbəsini özündə birləşdirib. AMEA Naxçıvan bölməsi elmi istiqamətlər yolunda inamla irəliləyib, "çoxcildli ensiklopediyalar və ontologiyalar, monoqrafiya və atlaslar nəşr etdirib. Akademik İsa Həbibbəyli 3 cildlik "Naxçıvan tarixi"ni əhəmiyyətli tarixi salnamə, "Azərbaycan tarixşünaslığına qiymətli töhfə", habelə, elektron kitabxanaları *(M.S.Ordubadi adına kitabxana, NDU-dəki kitabxana, AMEA Naxçıvan bölməsindəki kitabxana, Naxçıvanşünaslıq Mərkəzindəki kitabxana)* dünya elm mərkəzləri və kitabxanalarına uğurlu çıxışlar hesab edib.

Akademik *Naxçıvan ədəbi-mədəni* mühitindəki töhfələri: bəstəkar və rəssamlar, habelə, C.Məmmədquluzadə, M.S.Ordubadi və H.Cavid yaradıcılığına müasir elmi baxışı xatırladıb, Naxçıvan teatrındakı mədəniyyət hadisələrini ("Koroğlu" operasının səhnə həlli, Yaşar Xəlilovun "Əshabi-Kəhf" baleti və s.) önə çəkib, bütün bunları Heydər Əliyev qarşısında məsuliyyətli hesabat, respublikada görülən böyük işlərə Heydər Əliyevin yüksək qiyməti kimi dəyərləndirib və Heydər Əliyev siyasətinin uğurlu davamçısı kimi İlham Əliyevin tarixi xidmətlərini diqqətdə saxlayıb.

Akademik *Ümummilli liderin nümunəsini* önə çəkib. O, Heydər Əliyevin Naxçıvanla bağlı keçdiyi həyat yolundan danışarkən *Naxçıvan və siyasi təcavüz, Heydər Əliyev və partiya, Heydər Əliyev və neft kontraktları, Heydər Əliyev və dünya azərbaycanlıları, Heydər Əliyev və İlham Əliyev bütövlüyü* üzərində xüsusi dayanıb. Məqalədə deyilir: "Ötən hər gün bir daha təsdiq edir ki, Ümummilli Liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyevin

[175] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.13

mənalı həyatı, çoxcəhətli və yorulmaz fəaliyyəti xalqa və vətənə xidmət etməyin nümunəsidir”[176].

*“Yeniləşmədən intibaha” (2010)* məqaləsində *Naxçıvanın yeniləşdirilməsi* və *intibahı* problemlərinə baxış əhatəlidir. Məqalədə Naxçıvandakı siyasi-iqtisadi uğurlara nəzərlə bərabər, mədəniyyət və intibah məsələlərinə daha çox diqqət yetirilib. İ.Həbibbəyli yazıb: “21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının yaradılması, böyük dövlət xadimi Heydər Əliyevin bu partiyanın Sədri seçilməsi ilə geniş mənada yeni qurulmuş gənc respublikanın siyasi həyatında böyük dönüşün əsası qoyulmuşdur”[177]. Böyük öndər Heydər Əliyev XX əsrin 90-cı illərində Naxçıvanda cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın qarantı olub.

Çətin günlərdə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi, NDU-nun 25 illiyi keçirilib, 100 nəfər orta məktəb məzunu Türkiyəyə ali təhsilə göndərilib. Məqalədə Muxtar Respublikadakı böyük quruculuq proqramının gerçəklərindən, regiondakı elm, təhsil və mədəniyyət uğurlarından söz açılıb. Bu baxımdan İ.Həbibbəyli Naxçıvanın qədimliyi, minillərcə yaşı, milli-tarixi ənənələri, qədimliklərdən xəbər verən Azərbaycan toponimləri, arxeoloji abidələr, əsatiri yerlər, qayaüstü rəsmlərin tədqiqindən, bərpasından bəhs edib. O, məşhur “Əshabi-Kəhf” ziyarətgahının bərpası və qorunması, Gəmiqaya abidəsinin tədqiqi, Nuh peyğəmbərin məzarüstü türbəsinin bərpası, Xanəgah şəhərinin üzə çıxarılması, Köhnə qala divarlarının bərkidilməsi, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Yusif Məmmədəliyevin ev muzeyləri, Tarix Diyarşünaslıq və xalça muzeyləri, xan sarayı kompleksinin yenidən qurulması, Gəmiqaya yazılarının tədqiqi, milli-tarixi ənənələrə yiyələnmiş ziyalı nəslinin yetişməsi, məktəb tikililəri və onların bərpası işləri, NDU-da “Bilik”, Atatürk və Elektron Kitabxana internet mərkəzləri, informasiya texnologiyaları laboratoriyaları, 26 kompüter sinfin təşkili, Boloniya təhsil qeydiyyat mərkəzinin yaradılması, Universitetdə 108 hektar ərazidə CİSCO texnologiyaları əsasında 5 meqovatlıq Wi-Fi kompus simsiz internet şəbəkəsinin qurulması, AMEA Naxçıvan bölməsinin (2002) yaradılmasından söz açıb... “Demək olar ki, hər il AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarının və NDU-nun professor-müəllim heyəti ilə birlikdə keçirilən ənənəvi Naxçıvan simpoziumları diyarın qədim tarixi və mədəniyyəti, flora və faunasının araşdırılmasına sanballı töhfələr verir”[178].

---

[176] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.40

[177] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.58-59

[178] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.68-69

Naxçıvan teatrının 125, Naxçıvan Dövlət Universitetinin 140, filosof-şair Hüseyn Cavidin 125, Cəlil Məmmədquluzadənin 140, Məhəmməd Tağı Sidqinin 150, Məhəmməd Ağa Şaxtaxtlının 160, Yusif Məmmədəliyevin 100 illik yubileylərinin keçirilməsindən irəli gələn axtarışların, tədqiqatların, kitab və məqalələrin yazılması, konfrans və simpoziumların keçilməsi, ikicildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan tarixi atlası", Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri" ensiklopediyaları, Naxçıvan Respublikasının 2 cildlik qırmızı kitabı və sair, "Muxtar Respublikada Ali Məclisin müvafiq sərəncamları əsasında keçirilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" (1996), "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri" (2002), Naxçıvan: tarixi gerçəklik, müasir dövr və inkişaf perspektivləri"(2006), "Nuh peyğəmbər dünya tufanı və Naxçıvan" (2009) beynəlxalq simpoziumları dünya elmi ictimaiyyətinin Azərbaycan elminin Naxçıvanda qazanılan nailiyyətləri ilə yaxından, əyani surətdə tanış olmalarına şərait yaratmışdır"[179].

Naxçıvan Kukla Teatrı, Naxçıvan usaq teatrı, uşaq filarmoniyası, Naxçıvan Dövlət Filarmoniyasının kamera və xalq çalğı alətləri orkestrləri, Şərur Yallı rəqs ansamblı, regionlardakı xalq teatrları, Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı" tamaşaları, "Arşın mal alan" operattasının Türkiyə, Rusiya və Gürcüstan qastrolları, NMR-in Türkmənistanda Mədəniyyət günləri, NMR-in 85 illiyi, xalq yaradıcılığının tikmə, döymə, toxuma, oyma sənətləri, kulinariya mərkəzi, habelə, Nuh peyğəmbərin Naxçıvandakı məzarüstü türbəsi ilə bağlı mənəvi dəyərlərin təbliği məqalənin təsvir təhkiyəsindən xronoloji olaraq gəlib keçib. Məqalə akademik İ.Həbibbəylinin aşağıdakı sözləri ilə bitib: "İnkişaf və yeniləşmə istiqamətində keçirilmiş şərəfli yolun böyük dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə Azərbaycanın bu qədim və həm də cavan diyarının sabahkı üfüqlərinə də gur işıq salır"[180].

İsa Həbibbəyli *"Böyük inkişafın möhtəşəm hesabatı" (2012)* məqaləsində Heydər Əliyevin Naxçıvan Respublikasının həyatında oynadığı rolun işığında İlham Əliyevin regionda gördüyü işlərin xronikasını verib: 2005-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisinə qaz çəkilişi, Heydər Əliyev adına su anbarı və Biləv çayı üzərində su-elektrik stansiyalarının istifadəyə verilməsi; Naxçıvan modul və qaz-tribun elektrik stansiyalarının quraşdırılması (2012), Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışı (2012), Naxçıvan MR-də Arpaçay Su Anbarı üzərində, Ordubadda su-elektrik stansiyalarının istifadəsi; sosial obyektlərin açılışı, Zərifə Əliyeva adına Naxçı-

[179] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.69-70
[180] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.76

van şəhər Poliklinikasının açılışı, Naxçıvanın bütün rayonlarında müasir tipli xəstəxana komplekslərinin səhiyyə xidməti, Müalicə-Diaqnostika Mərkəzinin istifadəsi; Culfa Uşaq Musiqi məktəbinin istifadəyə verilməsi, NDU-da yeni tədris korpusu və tələbələrin xidmət sahələrinə dair obyektlərin inşa olunması; MR-da informasiya texnologiyalarından istifadənin genişləndirilməsi, ölkənin tranzit imkanlarının genişləndirilməsi; Böyük İpək yolu, karvan yolları, ölkədən-ölkəyə çıxış imkanlarının yaranması, Anadolunu Naxçıvanla əlaqələndirən Sədərək-Aralıq-Dilucu, "Ümid körpüsü"nün salınması, 2007-ci ildə Araz çayı üzərində Şaxtaxtı-Poldəşt körpüsünün istifadəsi, Culfa-Sədərək, Sədərək-Şərur-Naxçıvan-Culfa magistrallarının çəkilməsi, Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışı, Qars-Naxçıvan-Təbriz, yaxud əksinə Naxçıvan-Qars-Ankara tranzit mərkəzi; Culfa və Şaxtaxtı gömrükxanaları üçün müasir kompleks tikililəri, Naxçıvan şəhər Gömrük idarəsinin inkişaf səviyyəsi, Naxçıvan Sement zavodunun istismarı; Kəngərli rayonunda "N" saylı hərbi hissədə qərargah binası və Culfa sərhəd zastavasının açılışı və başqaları. Cənab İlham Əliyev: "Burada hər bir sahədə gözəl inkişaf vardır. Naxçıvan şəhəri gözəlləşir, yaşıllaşır, abadlaşır. Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bunlar onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar", – deyə qürurla bildirib.

*"Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2013)* məqaləsində akademik Heydər Əliyevin obrazını cəmiyyətin siması və dövlət siyasətinin tərkib hissəsi olan *təhsil quruculuğunun* işığında izləyib.

Müəllif bu sahədə Dillər, Slavyan, Texnologiya, Memarlıq və İnşaat, Milli Konservatoriya, Rəssamlıq, Müəllimlər, Hərbi Akademiya, Milli Aviasiya Akademiya-universitetlərinin adlarını çəkib, onların Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayıb formalaşdığını göstərib. "Beləliklə, ali məktəbimiz yüksək ixtisaslı mütəxəssislər hazırlayan münbit və möhkəm bazaya, həm də milli ziyalı potensialımızı qoruyub saxlayan, daha da inkişaf etdirən mühüm mərkəzlərə çevrilmişdir"[181]. Bakı ilə yanaşı, regionlarda universitet həyatı inkişaf etdirilib, Naxçıvan, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəranda da ali məktəblər yaradılıb, H.Əliyev siyasətinin təbliğatçılarına çevrilib. Bu baxımdan Naxçıvan Dövlət Universiteti Heydər Əliyevə daha çox borclu və minnətdardır.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə filial kimi fəaliyyətə başlayıb, 12 iyun 1972-ci ildə filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılıb, 29 dekabr 1990-cı ildə isə Naxçıvan Dövlət Universiteti kimi fəa-

[181] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.77

liyyətini davam etdirib. Heydər Əliyev universitetə ilk dəfə onun 50 illiyində gəlib, 4 oktyabr 1971-ci ildə müəllim və tələbələrlə görüş keçirib. Böyük rəhbər ilk dəfə "Naxçıvanın muxtariyyat statusunun mahiyyəti və əhəmiyyəti barəsində dövlət siyasətinin əsasları məsələsini diqqət mərkəzinə çəkmişdir"[182].Ali məktəbin daha da inkişaf etdirilməsi, regionda ziyalı mərkəzinin formalaşdırılmasının vacibliyi diqqətə çəkilib, institutun maddi-texnki bazasını möhkəmləndirmək, yeni ixtisas yerləri açmaq, tələbə kontingentini genişləndirməyə doğru yönəltmək, "hətta, Naxçıvanda mövcud pedaqoji institutun bazasında müstəqil dövlət universitetinin yaranması zərurəti haqqında ilk fikirlər də həmin tarixi görüşdə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür"[183].

Ulu öndər 1990-1993-cü illərdə "NDU-nun problemlərinin həllinə, ali məktəb müəllimləri, ziyalılarla əlaqələrə xüsusi diqqət yetirib. Naxçıvan MR Ali Məclisinin sədri kimi o çətin illərdə süni vasitələrlə gözdən salınmış alimləri və müəllimləri onları əhatə edən siyasi və mənəvi böhrandan çıxarmağa nail olmuşdur"[184].

11 oktyabr 1992-ci ildə universitetdə "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda simpozium keçirilib və Heydər Əliyev dərin məzmunlu nitq söyləyib, Türk Cümhuriyyəti və İran İslam Respublikası alimlərinin iştirakı "beynəlxalq elmi tədbirin daha yüksək səviyyədə keçirilməsini təmin edib" *(Yenə orada).*

Elm və təhsil hamisi universitetin 25 illiyində də iştirak edib *(12 noyabr 1992),* "kollektivin ayrı-ayrı üzvləri ilə söhbətlər aparıb, mövcud problemləri öyrənib, çıxış yolları haqqında dəyərli tövsiyələr verib, universitetin inkişafına əməli köməklik göstərib"[185]. Rektor İsa Həbibbəyli Ulu öndərin çıxışını məramnamə kimi qiymətləndirib, "bu tarixi nitqdə dövlət müstəqilliyi şəraitində təhsilin keçmiş sovet ideologiyasından ayrılması, millilik və bəşərilik istiqamətində idarə olunması, ölkənin maraqlarına uyğun şəraitdə qurulması, universitetlərin beynəlxalq əlaqələrinin genişlənməsinin zəruriliyi, bütövlükdə ali təhsilin yeni epoxada ciddi islahatlara ehtiyacının olması Heydər Əliyev tərəfindən uzaqgörənliklə irəli sürülüb"[186].

30 oktyabr 1997-ci ildə universitetin 30 illik yubileyi keçirilib, Heydər Əliyev rektor İ.Həbibbəyliyə təbrik məktubu göndərib. 29 oktyabr 1997-ci il tarixli təbrik məktubunda deyilir: "Ermənistanın ölkəmizə qarşı təcavüzü

---

[182] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.79
[183] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.79
[184] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.79
[185] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.81
[186] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.81

nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır[187]. Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir"[188].

Naxçıvan Dövlət Universitetində 10 fakültə, magistratura və doktorantura pilləsi fəaliyyət göstərir. 108 hektarlıq ərazisi olan universitetin 12 tədris korpusu, Elektron kitabxanası, Olimpiya idman bazası, konservatoriyası, tibb fakültəsi və xəstəxanası, kompüter sinifləri, internet mərkəzləri, fənn kabinetləri, laboratoriyaları, Botanika bağı, muzeyi, sərgisi, Amerika, Avropa, Asiya, MDB ölkələri, Afrika, Türkiyə və İran universitetləri ilə əlaqəsi vardır.

Heydər Əliyev 1999-cu ildə universitetə 1600 yerlik yeni tədris korpusu tikdirib və açılışında iştirak edib, universitet əməkdaşları əməkdar elm xadimi, xalq rəssamı, əməkdar müəllim, əməkdar incəsənət xadimi adları ilə təltif olunub.

Universitet 9 oktyabr 1999-cu il tarixli Elmi Şurasında Heydər Əliyevə fəxri doktor adını verib. Universitet nəzdində "Heydər Əliyev universiteti" *(6 mart 1997)* yaradılıb ki, bu da "əsl milli dövlətçilik, yetkin siyasi düşüncə və idarəetmə mədəniyyəti məktəbi kimi yeni nəslin tərbiyəsində mühüm rol oynayır"[189]. 30 ildən çoxdur ki, universitet Heydər Əliyev dərslərini yetişən nəsillərə çatdırır. Rəsmi dövlət nümayəndələri, elm və təhsil xadimləri, xarici qonaqlar hər il Heydər Əliyev siyasətinin çoxcəhətli fəaliyyəti mövzusunda məruzə edirlər. Universitetdə Heydər Əliyevin fenomen şəxsiyyət, dünya sivilizasiyasında elit şəxsiyyət olduğu və müstəqil dövlətçilik tarixinin zəngin təcrübəsi təbliğ olunur.

Naxçıvan Dövlət Universitetində akademik F.Maqsudovun "Heydər Əliyev və Azərbaycan elmi", akademik Azad Mirzəcanzadənin "Heydər Əliyev və Azərbaycanın neft fəlsəfəsi", akademik Budaq Budaqovun "Heydər Əliyev və Azərbaycan təbiəti", akademik Bəkir Nəbiyevin "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", akademik Ziyad Səmədzadənin "Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası", akademik Rasim Əfəndiyevin "Heydər Əliyev və Azərbaycanın incəsənəti", akademik İsa Həbibbəylinin "Heydər Əliyev və dünya azərbaycanlıları problemi", akademik İsmayıl Hacıyevin "Heydər Əliyev və Azərbaycan tarixi məsələləri", AMEA-nın müxbir üzvü Əbülfəz Qarayevin "Heydər Əliyev və Azərbay-

[187] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.83
[188] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.83
[189] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.85

can dili", fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayevin "Heydər Əliyev və xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılması məsələləri", tarix elmləri doktoru, professor Həmzə Cəfərovun "Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır" mövzusunda məruzələri müstəqil dövlətçilik, Azərbaycançılıq təliminin əsaslarına, ölkəmizdə gedən böyük inkişaf proseslərinə həsr olunub.

Eyni zamanda "bir çox xarici ölkələrin, o cümlədən, Türkiyənin, Rusiyanın, Yaponiyanın, Almaniyanın, Polşanın, Macarıstanın və başqa dövlətlərin Azərbaycanda fövqəladə və səlahiyyətli səfirlərinin öz ölkələri ilə çoxcəhətli əlaqələrin yaradılmasında görkəmli dövlət xadiminin rolu haqqındakı çıxışları "Heydər Əliyev Universitetinin unudulmaz dərslərindəndir"[190]. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin həyat və fəaliyyətinin böyük uğurları da "Heydər Əliyev universiteti"ndə təbliğ olunur.

Ümummilli liderə həsr olunmuş *kitab təqdimatları* da "Heydər Əliyev universiteti"nin iş təcrübəsindən biridir. Bu baxımdan "Ömrün üç günü" albomunun müzakirələri, akademik Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", Novosibirskdə Azərbaycan diasporunun rəhbəri Mirkazım Seyidovun "Qəlbimizdə yaşayır Ata Heydər", "Mənim dağlı və günəşli ölkəm" və başqa mərasimlər ictimai əhəmiyyətə malikdir.

"Heydər Əliyev universiteti"ndə Heydər Əliyev haqqında çap olunmuş kitablar, jurnal və albomlar toplanıb, zəngin *"Heydər Əliyev kitabxanası"* təşkil olunub, qiymətli fotomateriallar, nadir sənədlər nümayiş etdirilib, vidioteka, videolentlər yığılıb.

Hazırda cənab İlham Əliyev də universitetin yeni inkişaf mərhələsində onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin və elmin keyfiyyətcə yüksəldilməsinə, elmi-tədqiqat işlərinin səmərəsinin artırılmasına, onun Avropa universitetlərinə inteqrasiyasına xüsusi diqqət və qayğı göstərir.

Cənab İlham Əliyev 12 may 2004-cü ildə universitetin yeni Elektron kitabxanasının açılış mərasimində iştirak edib, 40 illik yubileyinin keçirilməsi haqqında 31 mart 2007-ci ildə sərəncam verib və 17 oktyabr 2007-ci il tarixli yubileydə dərin məzmunlu nitq söyləyib: "Mən bilirəm ki, universitet dünyanın aparıcı universitetləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur və bu da özlüyündə bir göstəricidir. Bu, onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir"[191].

Universitetin Amerika, Avropa, Asiya və Afrikada, ümumən 80-dən ar-

[190] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.87

[191] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.91

tıq ali məktəblə əlaqəsi vardır. Universitetdə TEMRUS, ERASMUS-MUNDOS proqramları üzrə güclü layihələr yerinə yetirilir.

*"Heydər Əliyev yolu: Naxçıvan reallıqları" (2014)* məqaləsində İsa Həbibbəyli Heydər Əliyevin dövlətçilik təlimindən bəhs edib, dəyərləndirib ki, bu təlim "Heydər Əliyevin böyük dühası ilə Azərbaycan xalqının müstəqil dövlətçiliyinin konsepsiyasını formalaşdırmışdır"[192]. Akademik məntiqinə qüvvət üçün Prezident İlham Əliyevin aşağıdakı fikirlərini əsas gətirib: "Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu Öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır"[193].

İ.Həbibbəyli Heydər Əliyevin Naxçıvan həyatı ilə bağlı siyasi fəaliyyətinin strateji xəritəsini nöqtələyib: birincisi, milli dövlət müstəqilliyinin tarixi taleyində Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrü, ikincisi, ölkənin ərazi bütövlüyünün təmin edilməsində Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi tarixi vəzifələri və onların yerinə yetirilməsi, üçüncüsü, NMR-a rəhbərlik dövründə "həyata keçirdiyi tale yüklü tədbirlər, qəbul etdiyi tarixi qərarlar, imzaladığı qiymətli siyasi sənədlər bütövlükdə Azərbaycan Respublikası üçün əhəmiyyətli və zəruri" olmuşdur[194]. "Bütün bunlar Heydər Əliyev yolunun Naxçıvan reallıqları"[195] deməkdir.

Şərhçi Naxçıvan MR-nın 90 illik yubiley tədbirlərini Azərbaycanın müstəqil dövlətçilik tarixi, Heydər Əliyev epoxasının təhlili və qiymətləndirilməsi işığında xatırladıb. "Ölkəmizin rəhbərinin təntənəli yubiley mərasimində diqqət yetirdiyi hadisələr və faktlar müasirlik işığında Azərbaycanın yaxın tarixinin siyasi-analitik təhlili vasitəsilə ictimai-siyasi proseslərin tam, bütöv halda qavranılmasına uğurla xidmət edir"[196].

"Naxçıvanda baş vermiş böyük yeniliklər Heydər Əliyevin dinamik inkişaf yolunun mühüm hadisələridir"– deyən İ.Həbibbəyli yekunlaşdırıb ki: "Naxçıvan Muxtar Respublikasında müasir səviyyədəki yüksək inkişaf Azərbaycanda Heydər Əliyev yolunun böyük imkanlarının və geniş üfüqlərinin möhtəşəm təntənəsidir.

---

[192] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.28
[193] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.29
[194] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.32
[195] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.33
[196] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.32

Heydər Əliyev yolu – Azərbaycanın dünəni kimi, bu gününün də böyük reallıqları və daha parlaq sabahları deməkdir. Eyni zamanda bütün bunlar Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının bundan sonra da böyük addımlarla inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır"[197].

Heydər Əliyev *Naxçıvan MR Ali Məclisinin Sədri* kimi regionda hərbi-siyasi, iqtisadi-mədəni vəzifələri həyata keçirib, qədim diyarın erməni işğalından xilasına təminat verib. Türkiyə və İranın dövlət başçıları ilə danışıqlar nəticəsində camaatın iqtisadi vəziyyəti qismən düzəlib, İğdır bölgəsindən çəkilmiş elektrik xətləri hesabına elektrik enerjisi hasil olunub. Sədərəkdə Türkiyə ilə Naxçıvan arasında "Ümid körpüsü" salınıb, adamların inam hissləri qüvvətlənib.

İsa Həbibbəyli Heydər Əliyevin *ömürlüyünə* Vətən, millət, məmləkət, dövlətçilik və müstəqillik zirvəsindən baxıb, bu dahi şəxsiyyətin mənalı ömrünün dəyərlərini hədəfləyib: "Bu mənada Heydər Əliyev həm Azərbaycan dövlətinin, həm də eyni səviyyədə Azərbaycan xalqının çox layiqli və qüdrətli təminatçısıdır"[198]. Müəllif yazıb: "Heydər Əliyev xalqa mənsub olduğu qədər də dövlətə bağlı olduğu üçün, yaxud xalqın maraqları ilə dövlətin maraqlarını bütün mahiyyəti, tam fəlsəfəsi ilə qovuşdurduğuna görə doğma ölkəsinin də, milli müstəqil dövlətinin də, sevgili millətinin də görkəmli oğlu, qüdrətli lideridir"[199].

Şərhçi Heydər Əliyevin vətən və millət sevgisi kimi fərdi keyfiyyətlərinin bariz nümunəsi olaraq onun 20 yanvar 1990-cı il Moskvadakı Azərbaycan səfəratxanasındakı çıxışını xatırladıb, – tarixi bəyanatında qüdrətli rəhbər 20 Yanvar faciəsinə siyasi qiymət verib.

Heydər Əliyev Moskvadan Bakıya, oradan Naxçıvana qayıdış edib, bütün bunların mahiyyəti "Qayıdış" (2006) kitabında göstərilib: "Moskvadan Naxçıvana qayıdış... əyalət mərkəzinə yox, Vətənə qayıdış idi, böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli Qayıdış idi... Əsl yolu zaman özü seçdi. Xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə Qayıdışında tapdı"[200].

---

[197] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.39
[198] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.40
[199] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.40
[200] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.43

Ədalət Qasımovun "*Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası*" adlı sənədlər və materiallar toplusunda /1969 – 1982-ci illər/[201](layihənin rəhbəri, elmi redaktoru və ön sözün müəllifi akademik Yaqub Mahmudov) Heydər Əliyevin "1970-1980-ci illərdə Naxçıvana səfərləri zamanı partiya təsərrüfat fəalları yığıncağındakı məruzə və çıxışları, Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, mədəni-mənəvi inkişafı ilə bağlı respublika səviyyəsində qəbul edilmiş qərarlar, sərəncam və s. sənədlər öz əksini tapıb". Kitabda əksini tapmış materiallar ilk dəfə işıq üzü görüb və Naxçıvan Muxtar Respublikasının müasir tarixinin öyrənilməsi üçün qiymətli mənbədir.

***

***"Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"***

**Heydər Əliyev**

Heydər Əliyev deyib: "Azərbaycanda ***islamşünaslıq*** sahəsində XX əsr demək olar ki, tamam itirilmişdir. Bu işləri görmək üçün *Azərbaycanda islamşünaslıq elmini* inkişaf etdirmək lazımdır"[202]. Elə bu məqamda elit şəxsiyyətin bir tarixi etirafını ifadə etmək yerinə düşür.

Ulu öndər ilk dəfə xatırladıb: "Bilirsiniz, mən həyatımda ilk dəfə bir hadisəni sizə danışacağam. Bunu indiyə qədər heç kəsə danışmamışam və rəhmətlik anamdan savayı, heç kəs bunu bilmir. 1943-cü ildə mənim 20 yaşım vardı. Bizim ailədə çətinliklər vardı. Mən də, anam da bir nəzir dedik. Mən onda Bakıda yaşamırdım, Naxçıvanda yaşayırdım. Gəldim Bakıya, getdim İçərişəhərdə Mirmövsüm ağanın evinə, onu ziyarət etdim və nəzirimi də verdim. İndi biz onun qəbri üstünə gəlirik, amma mən sağlığında gedib onu ziyarət etmişəm – 1943-cü ildə, 55 il bundan qabaq ziyarət etmişəm. Bacısı da orada idi, evi indi də gözümün qabağındadır. Getdim ora, əvvəl məni buraxmadılar, o yan-bu yan, çox yoxladılar, sorğu-sual elədilər. Gördülər ki, cavan bir oğlanam, inandılar və mənə bu imkanı verdilər. İndi olan olub, keçən keçib, o vaxt mən bunu gizlin etmişəm, başa düşürsünüzmü? Mən onda sistemdə, o dövlətdə işləyirdim. Onda din qadağan idi, bütün bu şeylər qadağan idi, bu işlərin lap kəskin vaxtı idi. Amma mənim qəlbim və rəhmətlik anamın məsləhətləri məni gətirib oraya çıxardı. 55 il keçib, mən bunu həyatımda birinci dəfədir ki, danışıram.

---

[201] Ədalət Qasımov. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası *(sənədlər və materiallar toplusu).* Bakı, Türkan NPB, 2020, 400 s.

[202] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

Oraya gedəndə arxama, o yana-bu yana baxırdım ki, məni burada görürlər, ya görmürlər?... Mən onda dövlət işində işləyirdim. Oradan çıxandan sonra da o yan-bu yana baxmışam. Yəni sözün düzünü deyim, mən oraya xəlvət getmişəm. Çıxandan sonra da hələ 5-10 gün fikirləşirdim ki, görəsən məni gördülərmi, oraya-buraya çağıracaqlarmı, qısqanacaqlarmı, mənə bir şey edəcəklərmi? 5-10 gün keçəndən sonra gördüm ki, bir şey yoxdur, başa düşdüm ki, mənim oraya getməyimi heç kəs bilmir – bu qalıb bir özümün qəlbimdə, bir də anamın qəlbində. Mən bunu heç vaxt unutmamışam, ancaq o vaxtlar gizlədirdim, deyə bilməzdim. Ondan sonra da ehtiyac olmayıbdır ki, mən bunu deyim. Durduğum yerdə deyim ki, mən bunu etmişəm – nə əhəmiyyəti var? Amma indi 55 il sonra bu ziyarətgaha gələndə mən bunu xatırlayıram. Oranı nə cür axtardığım bu günki kimi gözümün qabağındadır. Heç oranı tapa da bilmirdim, çünki kimdən, nə təhər soruşacaqsan? Ordan-burdan araşdırdım, bir təhər gəldim çatdım. Əvvəl o evə gələndə dedim ki, bəlkə bura deyil...

Birtəhər araşdırdım, biləndən sonra ki hər şey düzdür, ziyarət etdim. İndi mən onun qəbrini ziyarət edirəm. Hesab edirəm ki, millətimizi, xalqımızı düzlüyə, saflığa, xeyirxahlığa, əməlisalehliyə dəvət etmək üçün belə ziyarətgahlar çox əhəmiyyətlidir. Xüsusilə, Mirmövsüm ağanın qəbri bu ziyarətgah. Əminəm ki, bu ziyarətgah sizin kimi insanların səyi nəticəsində daha da genişlənəcək, inkişaf edəcək və xalqımız bu ziyarətgahdan bəhrələnəcək, mənəvi cəhətdən daha da sağlam, saf olacaqdır.

Bizim bütün milli və dini adət-ənənələrin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir”[203].

“Quran-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir”[204].

Heydər Əliyev *mənəvi geriliyin təzahürləri* ilə bağlı bildirib: “Bu, bir bu günün problemi deyil, min il bundan öncə də olan problemdir. Elə Məhəmməd Peyğəmbərin zamanında da bu problem vardı. Təsadüfi deyil ki, o, millətimiz üçün müsəlmanlar üçün necə yaşamaq və necə davranmaq qanun-qaydalarının hamısını Qurani-Kərimdə yazıbdır. Niyə yazıbdır? Əgər bu məsələlər olmasaydı, Quranda bütün ayələri yazmazdı. Onu bir kitab kimi yazmayıbdır, orda hər bir kəlmənin, hər bir ayənin, surənin mənası var və məqsədi var. Bəli, o hər bir kəlməni məqsədlə yazıbdır. Görürsünüz nə

[203] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.312-313

[204] Yenə orada

qədər vaxt keçib, amma yenə də insanları mənəvi cəhətdən saflığa dəvət etmək, mənəvi saflığı təmin etmək, xalqın içində bədxahlığı, pis yola gedənləri, cinayət edənləri, vətəninə sədaqətli olmayanları aşkar etmək, bunları cəmiyyətdən kənarlaşdırmaq, ya tərbiyələndirmək, bu bizim qarşımızda olan problemdir. Ona görə də hesab edirəm bu ziyarətgah həmin problemlərin həll edilməsində öz rolunu oynayacaqdır"[205].

Ulu öndər *dini ocaqların abadlaşdırılmasına* lazımi diqqət yetirib. O deyib: "Buna görə də indi ocaqların yaranması, onların daha da abadlaşdırılması işini, lazımi tədbirlərin görülməsini əhəmiyyətli hesab edirik. Məsələn, *Bibiheybət məscidinin bərpası* bizim üçün tarixi əhəmiyyəti olan bir hadisədir. Çünki Bibiheybət ziyarətgahının Azərbaycanın və bütün İslamın tarixində hansı yer tutduğunu siz yaxşı bilirsiniz. Şübhəsiz ki, vaxtilə təkcə xalqımıza qarşı yox, bütün İslam dünyasına qarşı böyük bir cinayət edilib – o məscid partladılıb, dağıdılıb və o ziyarətgah pozulubdur. Amma buna baxmayaraq, insanlar Bibiheybət ziyarətgahını heç vaxt unutmayıblar"[206].

Heydər Əliyev vaxtı daxilində Azərbaycandakı bütün ziyarətgahlarda demək olar ki, iştirak edib. Ulu öndər bildirib: "Şüvəlan, Mərdəkan Azərbaycanın gözəl guşələrdən biridir. Burada çox gözəl insanlar yaşayır... Məsələn, indi mənə *"Əli ayağı"nın* medalını təqdim etdilər, çox məmnunam. Oraya ziyarətimi çox məmnuniyyətlə xatırlayıram. Təəssüf edirəm ki, bunu gedib orada ala bilməmişəm, burada təqdim-etdiniz. Amma sizə söz verirəm ki, oranı bir daha ziyarət edəcəyəm. Bütün bu yerlər bizim üçün –müsəlmanlar, azərbaycanlılar üçün çox əziz yerlərdir. Bundan sonra bizim də vəzifəmiz ondan ibarətdir ki, bu yerləri mühafizə edək, saxlayaq, abadlaşdıraq, inkişaf etdirək ki, insanlar bu yerlərdən daha da səmərəli istifadə edə bilsinlər"[207].

Heydər Əliyev 12 iyul 1998-ci ildə *Bibiheybət məscid ziyarətgah kompleksinin açılışı mərasimində* nitq söyləyib: Ulu Öndər deyib: "Mən sizi bu bayram – böyük Peyğəmbər Həzrəti Məhəmməd Əleyhissəlamın mövludu günü münasibətilə təbrik edirəm. Sizin hamınıza cansağlığı, Azərbaycan xalqına, müsəlmanlarına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

---

[205] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.313

[206] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.313-314

[207] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.314

Biz bu gün XIII əsrdə - 700 il bundan əvvəl müqəddəsliyə çevrilmiş bu yerdə toplaşmışıq. Bu müqəddəs yer həzrəti İmam Museyi – Kazimin qızı, həzrəti İmam Rzanın bacısı həzrət Hökumənin torpağa verildiyi, onun məzarı olan yerdir. Bu yer o vaxtdan indiyə qədər müsəlmanlar üçün müqəddəs yerə çevrilmişdir. Müsəlmanlar bu yeri əsrlər boyu ziyarət etmiş, burada özlərinə ümid, pənah axtarmışlar, dinizimizə, Allaha dua etmişlər, özlərini yaşatmışlar, islam dininə sadiq olduqlarını nümayi° etdirmi°lər"[208].

Respublika Prezidenti *Bibiheybət ziyarətgahı* ilə bağlı bunları bildirib: "Burada bu müqəddəs yerdə vaxtilə ucaldılmış məscid 60 il bundan öncə vəhşicəsinə partladılmışdır, dağıdılmışdır. Bizim mənəviyyatımıza, mənəvi dəyərlərimizə, islam dininə böyük zərbə vurulmuşdur. Xalqımız, millətimiz bu zərbələri almış, yaralanmış, əzilmiş, ancaq məhv, məğlub olmamış, bu zərbələrə, yaralara, əziyyətlərə dözülməz məcbur olmuşdur. Lakin bütün bunlara dözərək, bu müqəddəs yerə olan sevgisini, məhəbbətini, inamını qəlbində yaşatmış və bu müqəddəs yerdən heç vaxt ayrılmamışdır. Təsadüfi beyildir ki, bu məscid dağılandan sonra da və burada Hökumə xanımın qəbri dəfn olunandan sonra da insanlar bu yeri özləri üçün daim nicat, ümid yeri etmişdirlər. Bu yer bir ziyarətgah kimi öz mənasını heç vaxt itirməmişdir. İnsanlar buraya daim ziyarətə gəlmişlər, burada öz arzularını yerinə yetirmişlər, yaşamaq, yaratmaq üçün bu müqəddəs yerdən dayaq, mənəvi güc, dəstək almışlar"[209].

Bu gün bizim üçün böyük tarixi hadisə, böyük xoşbəxtlikdir ki, bu arzularınızı artıq yerinə yetirə bilmişik. Burada, bu müqəddəs yerdə gözəl, bu müqəddəs yerdə, islamiyyətə, millətimizə, xalqımıza layiq bir məscid tikib-yarada bilmişik. Bu, tarixi hadisədir"[210].

Heydər Əliyev məscid binasını həm də *memarlıq abidəsi* kimi dəyərləndirib: "Mən bu məscidə, binaya baxarkən həddən artıq sevinirəm. Azərbaycanda böyük memarlıq abidələri vardır. Bu abidələri xalqına, millətinə əsrlər boyu xidmət edən insanlar yaradırlar. Azərbaycanda, Bakıda və respublikamızın başqa şəhərlərində, yaşayış məntəqələrində son 10 illiklərdə böyük və gözəl memarlıq abidələri yaradılmışdır. Bu məscid öz xüsusi mənası

---

[208] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.392

[209] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.393

[210] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.393

və məqsədi ilə bərabər, xalqımızın böyük, dəyərli və gözəl memarlıq abidəsidir"[211].

Ulu öndər ümumiləşdirib ki, İslam dininin dəyərləri ən yüksək mahiyyətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanları bu uca, ülvi, yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə etmək Allahın buyuruğudur, Məhəmməd Peyğəmbərin qoyduğu yoldur[212].

Heydər Əliyev 29 sentyabr 1998-ci ildə *müasirlik və dini-mənəvi dəyərlər* mövzusunda beynəlxalq konfransda nitq söyləyib. Ulu öndər deyib: "Yaşadığımız dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlər məsələsinə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqeyin işlənib hazırlanmasını aktuallaşdırır. Bu mövqe xalqımızın əsrlər boyu yaratmış olduğu zəngin mədəni və dini-mənəvi irsdən bəhrələnməklə yanaşı, zamanın ruhu və tələbləri ilə səsləşən prinsipləri özündə əks etdirməlidir. Əminəm ki, konfransınız bu gün dünyada, o cümlədən ümumi Qafqaz evimizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi yolunda mühüm bir addım olacaqdır"[213].

Heydər Əliyev elan edib: "Ümumiyyətlə, bilin – biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu müstəqil Azərbaycanın gələcək yolunun ana xəttidir. İndiki ifadə ilə desəm, strateji yolumuzdur. Çünki bu xalqımızın gələcəyi üçün ən düzgün və xalqımızı səadətə aparan ən ağıllı yoldur. Biz bu yolu seçmişik və bu yolla gedirik...[214]

AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlının *"Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər)"* adlı monoqrafiyasının *"IV. 2. Milli-mənəvi dəyərlərin qorunması"* adlı bölməsində bəlgələyirdi ki, Heydər Əliyev *dini və mənəvi dəyərlərin* qorunub-saxlanılması və inkişafına şərait yaradırdı. O, dini abidələrə, məscidlərə qayğı göstərirdi, onları tarixi mədəniyyət abidələ-

[211] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.394

[212] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.392-393

[213] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.447

[214] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s. 313

ri kimi bərpa etdirib xalqa çatdırırdı. *Qurban* və *Ramazan bayramlarının* keçirilməsinə əngəl yaradılmırdı.

Heydər Əliyev dini fanatizm, cəhalət, mühafizəkar adət-ənənələr əleyhinə olub. Heydər Əliyev deyirdi: "Mən azərbaycanda ömrüm boyu təmizlik, düzlük, halallıq tərəfdarı olmuşam"[215].O, 1973-cü il müşavirələrindən birində söyləyib: "Mənaviyyat, əxlaq, bütün işimizə nüfuz etməlidir"[216]. Böyük rəhbərin əsas şüarı bu olubdur: *"Qoy Ədalət zəfər çalsın!"*

***

***İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir.***

**Heydər Əliyev**

Heydər Əliyev ideologiyasının bir yönü də ***din siyasətinə*** aiddir. Ulu öndər deyib: "Çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın VII əsrindən İslam dünyasının bir hissəsini təşkil edir. *Avropa ilə Asiya arasında*, *Qafqaz ilə Yaxın Şərq arasında* mühüm *coğrafi-siyasi məkanda yerləşən Azərbaycan* həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, *müxtəlif sivilizasiyalar arasında* körpü rolunu oynamışdır"[217]. Dövlət xadimi milli-bəşəri dəyərlərimizdən danışarkən İslam dininin mənəvi zənginliyini xüsusi qeyd edib. O bildirib ki: "İslam dini bizim müqəddəs dinimizdir. Qurani-Kərim müqəddəs kitabımızdır. İslam dininin, Quranın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir"[218]. "İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir"[219]."İslam bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dilimizin adət-ənənələri və dini dəyərləri –hamısı birlikdə bizim milli sərvətimizdir"[220].

---

[215] Azərbaycan beynəlxalq aləmdə. *Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfirlərinə dair materiallar.* IV cild, Bakı, 1999, s.66

[216] "Kommunist" qəzeti, 11 avqust 1973-cü il

[217] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.153-174

[218] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.110-116

[219] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.153-174

[220] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı,

Böyük rəhbər xatırladırdı ki, bizim mənəvi, islami dəyərlərimiz, nəsillərdən-nəsillərə keçib, yaçayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir. O, *borcu və vəzifəni* onda görürdü ki, biz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmalıyıq. Rəhbər *fikir panoramı* təlqin edirdi ki, adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən *dinlərin bəşər tarixində rolu əvəzsizdir*. Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu *Tanrı nuruna tapınmaqdan*, mənəvi, ruhani kamillikdən keçib gedir.

Fikir plüralizmi, tolerantlığa vararaq bildirib ki, tarixən Azərbaycanda-dünya dinləri dinc, yanaşı və qarşılıqlı hörmət şəraitindəfəalyyət göstərmişlər.Azərbaycan dövlətibu gün də öz ənənələrinəsadiqdir.Vicdan azadlığı, dini etiqad sərbəstliyi cəmiyyətimizinmənəvi dəyərlərindəndir.

Heydər Əliyev dini hər bir xalq üçün mənəvi sərvət hesab edib, fəqət hər cür təməlçiliyin əleyhinə olub. O, öyrədirdi ki, dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır. Ölkə rəhbəri bildirirdi ki, biz bundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrət İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq. “İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.”[221]

*Yeri gəlmişkən:* 3-4 aprel 2007-ci ildə Dini Qanunlarla İş üzə Dövlət Komitəsinin təşkilatçılığı ilə *“Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər”* mövzusunda beynəlxalq konfrans[222] keçirilib. “Materiallar”a Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı məktublar, təbriklər, çıxışlar, məruzələr və konfranslarda qəbul olunmuş rəsmi sənədlər daxil edilib.

***

***Elm:*** Heydər Əliyev deyib: *“Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır”*.Ümummilli lider 21 sentyabr 1993-cü ildə Naxçıvandan

Heydər Əliyev fondu, 2008, s.153-174

[221] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.110-116

[222] “Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər” mövzusunda Beynəlxalq konfransın materialları. 3-4 aprel 2007-ci il

Bakıya müstəqil dövlət quruculuğuna qayıdarkən ilk görüşü ***AMEA ziyalıları*** ilə olub. Bu görüş Ulu öndərin Azərbaycan ziyalılarına, onun elminə, intellektinə böyük hörmətinin ifadəsi, Azərbaycan ziyalılarının da Heydər Əliyev şəxsiyyətinə sonsuz inamı və etimadının təcəsssümü idi.

Heydər Əliyev elmin böyük tarixi-ideoloji roluna siyasi qiymət verəndə AMEA-nın *fəaliyyətini* xüsusilə önə çəkib və elmi-tədqiqat müəssisəsi ilə təmaslarından danışıb. O deyib: "Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir"[223].

Ulu öndər AMEA haqqında *yüksək inamını* ifadə edərək bildirib: "Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, idarəsi altında toplaşmış elmi müəssisələr böyük ixtiralar ediblər, böyük tədqiqatlar aparıblar, böyük işlər görüblər, sanballı elmi kitablar, əsərlər yaradıblar, tam qətiyyətlə demək olar ki, dünya elminə böyük töhfələr veriblər"[224].

Heydər Əliyev görkəmli elm xadimləri haqqında qiymətli fikirlər söyləyib, onların şəxsiyyəti və elmi fəaliyyətinə böyük dəyər verib ki, onlardan bir neçəsini istisna edirik. Məsələn, o, akademik *Yusif Məmmədəliyevin* Azərbaycan və dünya elmi qarşısında xidmətlərini xüsusi qiymətləndirib: "Elm xadimi kimi, ictimai-siyasi xadim kimi Azərbaycan elmində görkəmli yer tutan və respublikamızın ziyalıları içərisində çox böyük hörmət qazanan Yusif Məmmədəliyev Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafına da əvəzsiz xidmətlər göstərmişdir... O, humanitar sahələrə, elmin mədəniyyətlə, ədəbiyyatla, tarixlə əlaqədar sahələrinə həddindən artıq fikir vermiş və onlarla bilavasitə məşğul olmuşdur. Buna görə də Yusif Məmmədəliyev bir alim kimi, bir insan kimi, hərtərəfli yüksək keyfiyyətlərə malik şəxsiyyət kimi tanınmışdır... O öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən, dünya neft kimyası elminə görkəmli töhfələr vermişdir"[225].

Ulu öndər 10 sentyabr 1996-cı ildə akademik Yusif Məmmədəliyevin 90 illiyi münasibətilə yubiley gecəsindəki nitqi zamanı deyib: "Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ix-

---

[223] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[224] K.Tahirov. Heydər Əliyev və Milli Kitabxana. Bakı, "Şərq-Qərb", 2022, 180 s. s.33

[225] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

tiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən, dünya neft kimyası elminə görkəmli töhfələr veribdir. Yusif Məmmədəliyevin elmi fəaliyyəti, alimliyi həm geniş nəzəri xarakter, eyni zamanda çox əməli, tətbiqi xarakter daşıyır. Hər bir alim qiymətlidir"[226].

28 sentyabr 1993-cü il tarixli məktubunda akademik *Azad Mirzəcanzadənin* 65 illiyi münasibətilə təbrik edən Heydər Əliyev deyirdi: "Sizi Azərbaycanın elm, təhsil və iqtisadiyyatının, xüsusilə də, neft sənayesinin inkişafında elmi istiqamətlərin əvəzsiz banilərindən bir kimi tanıyır və bu sahədə Azərbaycanın dünya şöhrəti qazanmasında misilsiz xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, Azərbaycan elminin inkişafında xalqın rifahı naminə atdığınız addımlar bundan sonra da səmərəli və uğurlu olacaq və siz vətənimizin tərəqqisi yolunda istedadınızı, zəkanızı, bacarığınızı əsirgəməyəcəksiniz"[227].

Heydər Əliyev akademik *Ziya Bünyadovun* tarix elmi qarşısında xidmətlərini də yüksək qiymətləndirib: "Ziya Bünyadov xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. O, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. O, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır"[228].

Böyük rəhbərin Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti akademik Ziya Bünyadova 70 illiyi münasibətilə göndərdiyi 20 dekabr 1993-cü il tarixli məktubunda deyilirdi: "Siz uzun illər boyu tarix elmimizin inkişafı yolunda gərgin axtarışlar aparmağı ömrünüzün mənasına çevirmisiniz. Orta əsrlər Azərbaycanının açılmamış səhifələrinin araşdırılmasına, öyrənilməsinə həsr edilən onlarca kitabınızla, yüzlərcə məqalənizlə şərqşünaslıq və tarix elmimizə beynəlxalq nüfuz qazandırmağa çalışmısınız. Alim səbriniz və işgüzarlığınız sayəsində Şərq tarixinin əvəzsiz nümunələri dilimizə tərcümə edilmişdir. Müqəddəs "Qurani-Kərim"i son 70 ildə

---

[226] Heydər Əliyev və mədəniyyət. 3 clddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.446

[227] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.201

[228] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

yenidən tərcümə edənlərdən və nəşrə hazırlayanlardan biri kimi böyük savab iş görmüsünüz.

Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik kimi Siz indi də elmi fəaliyyətinizi davam etdirərək xalqların tarixi sınağa çəkildiyi bir zamanda əlinizdən gələni əsirgəmirsiniz.

Ümidvaram ki, müstəqil Azərbaycanımız naminə bundan sonra da yorulmadan çalışacaq, bizi elm cəbhəsindəki uğurlarınızla sevindirəcəksiniz"[229].

Heydər Əliyev elm, təhsil və səhiyyə xadimi *Mustafa bəy Topçubaşov* haqqında deyib: "Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər göstərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli fəaliyyəti ilə məşhur olubdur"[230]...

AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlının *"Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər)"* adlı monoqrafiyasının *"III.2. Azərbaycan aliminə və elminə qayğı"* adlı bölməsində alim yazıb: "*Azərbaycan aliminə və elminə xüsusi qayğı* göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini ardıcıl və sistemli olaraq bir neçə istiqamətdə həyata keçirirdi: elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırır, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səylər edirdi, görkəmli alimlərin dövlətin müxtəlif orden, medal və mükafatları ilə təltif edilməsinə nail olurdu, Azərbaycan tarixi, dili və ədəbiyyatı üzrə tədqiqatların genişləndirilməsini təşviq edirdi, milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyaraq himayə edir, onlara yaradıcılıq şəraiti yaradırdı və s."[231]

M.Qasımlı Ulu öndərin institutların, görkəmli alimlərin yubileylərinin keçirilməsi, ev-muzeylərinin yaradılması ilə bağlı fikirlərini inkişaf etdirərək yazıb ki, "Heydər Əliyev EA-nın, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi önəm veribdi. Onun fikrincə, belə yubileylərin keçirilməsi respublikada elmə olan marağı daha da artırır, Azərbaycan elmini və alimlərini təkcə respublikada deyil, ölkədə və dünyada tanıdırdı. Bununla əlaqədar olaraq Heydər Əliyev ciddi qərarlar qəbul edirdi...[232]

[229] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.205

[230] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[231] Musa Qasımlı.Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.136-137

[232] Musa Qasımlı.Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər).

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il 30 dekabr tarixli iclasında Azərbaycan EA-nın 25 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi barədə qərar qəbul olunub. Qərara əsasən, elmi konfrans və simpoziumlar keçirilib. Yubiley tədbirlərində ölkə və xarici dövlətlərin müxtəlif elm ocaqlarının nümayəndələri iştirak edib, elmi müzakirələr, fikir mübadilələri aparılıb, Azərbaycan xalqının qədim tarixi, zəngin mədəni irsi təbliğ edilib.

1975-ci ildə Azərbaycan EA-nın 30 illik yubileyi qeyd edilib. Heydər Əliyev akademiyanın "Xalqlar dostluğu" ordeni ilə təltif edilməsinə nail olub. Azərbaycan EA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 50 illiyinin keçirilməsi haqqında qərar qəbul edib *(14 sentyabr 1982-ci il).* Azərbaycan KP MK qərarının qəbul edilməsi ədəbiyyat sahəsində tədqiqatların aparılmasına, ədədi irsə, elmə verilən qiymət və qayğının təzahürü olub.

Heydər Əliyev Sov. İKP MK-ya 1974-cü il may ayının 23-də 252 №-li tam məxfi məktub yazaraq *Ensiklopediyanın* I cildinin 1974-cü ildə, X cildinin 1980-ci ildə nəşr edilməsi barəsində icazə istəyib, Moskvanın razılığını alıb.

Azərbaycan KP MK bürosunun 1976-cı il 10 fevral tarixli iclasında Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyası və elmi-redaksiya şurası barədə qərar qəbul edilib. I cild 1977-ci ildə nəşr olunub ("Kommunict", 1977, 25 yanvar)[233].

Heydər Əliyevin səyləri ilə *Azərbaycan tarixi*, *Azərbaycan dili* və *mədəniyyətinə dair elmi tədqiqatlar* aparılıb, *monoqrafiyalar* nəşr edilib. Bir çox əsərə dövlət mükafatı verilib. *İctimai elmlər sahəsində* araşdırmalar gücləndirilib. Böyük rəhbər irad tutub ki, qədim, orta əsrlər tariximiz, XVIII, XIX, XX əsrlər tariximiz istənilən səviyyədə yazılmayıb[234]. Dövlət rəhbəri dərin narahatlığını ifadə edib.

Heydər Əliyev öyrədirdi ki, xalq tarixi kökünü bilməlidir. Elm və mədəniyyətindən ayırmamalıdır. O, tarixçilərə tarixi düzgün yazmağı, obyektiv öyrənməyi, qiymət verməyi tövsiyə edirdi.

Ulu öndər *qədim əlyazmaların qorunması, öyrənilməsi və tədqiqinə* xüsusi fikir verib. Bildirib ki, Azərbaycan xalqında əvvəlki əsrlərdə sistemli tarixşünaslıq olmayıb. Heydər Əliyevə qədər Əlyazma Fondundakı əlyazmalar öz binasının zirzəmisində bərbad vəziyyətdə saxlanılıb.

Bu məqsədlə Heydər Əliyev qərarların qəbul edilməsinə nail olub. O, 1981-ci ilin avqust ayında Azərbaycan KP MK *"Azərbaycan SSR EA Res-*

---

Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.143

[233] Yenə orada

[234] Yenə orada

*publika Əlyazmaları Fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında"* məsələ müzakirə edib, qərar qəbul olunub[235].

Heydər Əliyevin təşəbbqüsü ilə *EA Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi* şöbəsi, 1982-ci ildə *Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi* təşkil edilib.

9 oktyabr 1982-ci ildə *görkəmli şərqşünas-alim Mirzə Kazımbəyin* 180 illiyi qeyd edilib.

Heydər Əliyev *Azərbaycan folklorunun öyrənilməsini* tövsiyə edib, yazıçıların VIII qurultayındaki nitqində bildirib ki, "yurdun folkloru, müxtəlif el sənətləri, etimologiya, dil tarixi, hamısı küll halında öyrənilməlidir"[236]. Heydər Əliyev Azərbaycan elminin keyfiyyətcə yüksəldilməsinə xüsusi diqqət edib. O, Moskvada olsa da, Azərbaycan elminə və aliminə qayğısını əsirgəmiyib.

Heydər Əliyev *"Klassik irsimizdən"* adlı proqramın, *"Bulaq"* verilişinin təşəbbüskarı olub. "Heydər Əliyev belə hesab edirdi ki, azərbaycanlıların mənəviyyatı nə qədər yüksək olarsa, onlar vətənə, Azərbaycana, öz amallarına sədaqətli olarlar"[237].

Ümummilli lider elit şəxsiyyətini daim qoruyub, ucaldıb. Bu meyarla azərbaycanlıların mənəvi keyfiyyətlərini, özlərinə olan inamını gücləndirib və yüksəldib. Heydər Əliyev bütün azərbaycanlıların gözündə *qeyrət rəmzi* olub[238].

M.Qasımlı onu da yazıb ki: "Ümumiyyətlə, Heydər Əliyev Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə hörmətlə yanaşır, onları gözbəbəyi kimi qoruyur, inkişaf etdirir. Bununla da, xalqının milli ruhunu, milli özünüdərkini gücləndirirdi. O, *Azərbaycanın kommunist lideri* olmasına baxmayaraq, eyni zamanda ən böyük *millətsevəri* olaraq qalırdı. Məhz onun qayğısı ilə qorunub saxlanılan və inkişaf etdirilən milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının müstəqilliyinin bərpasında əsas rollardan birini oynadı"[239].

---

235 Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.143; "Kommunist" qəzeti, 13 avqust 1981-ci il

236 Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.143; ARƏİDA, f.340, siyahı l, bağ, 71, iş 1694, v.108

237 Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.177

238 Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.179

239 Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.179

Heydər Əliyevin alimlərə *vacib tapşırığı* bu olub ki: "Elmi axtarışların səmərəliliyini yüksəltmək, öz əməyində yüksək nəticələrə nail olmaq, bu nəticələrin praktikada tətbiqini sürətləndirmək alimlərin ən mühüm vəzifəsi və borcudur"[240].

Mütəfəkkir şəxsiyyət *milli elm və təhsilimizin potensialı* haqqında bildirib: "Bildiyiniz kimi, müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var. Azərbaycanda böyük universitetlər fəaliyyət göstərir, professorlar, elm adamları, mədəniyyət xadimləri, görkəmli sənətkar var... Onların adları bütün dünyada məşhurdur, onlar *Azərbaycan elmini, mədəniyyətini bütün dünyaya tanıdıblar...* Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyini əldə edib. İndi Azərbaycan müstəqil bir dövlətdir, dünya dövlətləri birliyinin üzvüdür və onların tərəfindən tanınıbdır. Bunların hamısı Azərbaycan ziyalılarının, siyasətçilərinin görkəmli şəxsiyyətlərinin xidmətlərinin nəticəsidir"[241].

Heydər Əliyev *ixtisas kadrlarının potensialı* haqqında tapşırığı bu olub ki, ölkəmizin, xalqımızın bütün sahələrdə yüksək ixtisasa malik, dünyada gedən elmi-texniki proseslərlə ayaqlaşan, müəyyən istiqamətlərə onları qabaqlamağa qadir olan kadr potensialı olmalıdır.[242]

Böyük rəhbər *Azərbaycan Milli Elmlər Akademiyasını* dəyərləndirib ki, o,*" xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir"*[243].

Heydər Əliyev *dünya sivilizasiyasına töhfələr* bəxş edib: "Bu da tam həqiqətdir ki, XX əsrdə *Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr* vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də *bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər"*[244].

Ulu öndər bildirib ki, "Xalq həmişə öz ziyalıları ilə, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə *mədəniyyəti* ilə, *elmi* ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir"[245].

***Təhsil.*** Heydər Əliyevin *təhsilə,elmə, müəllimə və alimə verdiyi* yüksək qiymət tarixi yaddaş nümunəsidir. O, bildirib ki: "Azərbaycan xalqı yüksək elmi biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmiş-

[240] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[241] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[242] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[243] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[244] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[245] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

dən indiyə qədər Azərbaycanda yaranmış *təhsil sisteminin* fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir”[246].

AMEA-nın müxbir üzvü Musa Qasımlı *“Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər)”* kitabının *“Milli kadrların hazırlanması”* adlı III fəslinin “III.I.Azərbaycan təhsilinin inkişafı” bölməsində yazıb: “Heydər Əliyevin təhsil sahəsində fəaliyyəti, əsasən, aşağıdakı istiqamətləri əhatə edirdi: Azərbaycan maarif sisteminin ştat heyətini yerli kadrlar hesabına milliləşdirir, respublikanın hər yerində, xüsusən, kənd yerlərində məktəblər tikdirir, müəllimlərə qayğı göstərir, təyinat sistemini genişləndirir, təyinatla kənd yerində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərin ali təhsil almalarına şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək məqsədilə gənclər ali məktəblərə müsabiqədən kənar qəbul etdirilir, ali məktəblərin sayını artırır, onların maddi-texniki bazasını gücləndirir, təhsil sistemi ilə əlaqəsini qurmaq üçün səylər göstərirdi”[247].

***

*Almaniyanın Köln Texniki Universitetinin professoru Rza Talibi-Dəryani* Ulu öndərin siyasi irsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev üçün böyük miras hesab edib: “Biz azərbaycanlılar ömrünün son anınadək ölkəmizin müstəqilliyi, Azərbaycan xalqının rifahı uğrunda mübarizə aparmış *dünya şöhrətli bir siyasətçini* itirdik.

Atasından *siyasi varis, möhtərəm İlham Əliyevə böyük bir miras qalmışdır* və mən inanıram ki, onun siyasətini Azərbaycan xalqı üçün İlham Əliyev davam etdirəcək”[248].Tarix bunu sübut etdi.

Prezident İlham Əliyev elm və təhsil haqqında tarixi əhəmiyyətli *Sərəncamlar* verib. Dövlət rəhbərinin Sərəncamları, xüsusilə, *“Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında”*[249] və *“Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında”*[250] sərəncamlar tarixi dəyər kəsb edib.

AMEA-nın 60 illiyində *Ümummilli liderin layiqli davamçısı* İlham Əliyev deyib: “O görüş rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri,

---

[246] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.

[247] Musa Qasımlı.Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşr.-tı, 2006, s.109

[248] Böyük insan haqqında. “Azərbaycan”, 2004, 296 s.

[249] Bakı şəhəri, 31 yanvar 2008-ci il

[250] Bakı şəhəri, 10 aprel 2008-ci il

ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir"[251].

İlham Əliyev qeyd edib ki, müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, ölkələrin inkişafını, potensialını elmin inkişafı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, onu da görəcəyik. Nə təbii ehtiyatları, nə coğrafi vəziyyəti yox, məhz intellektual potensial, məhz elmin səviyyəsi o ölkələrin tərəqqisini müəyyən edir, təmin edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir"[252].

Dövlət başçısı İlham Əliyev *elm və təhsilin sürətlə inkişafı* haqqında deyib: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir. Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir. Biz bununla daim fəxr edirik. Ancaq eyni zamanda o da həqiqətdir ki, ölkəmizdə, Azərbaycanda elm XX əsrdə çox sürətli inkişaf etmişdir. XX əsrdə Azərbaycan xalqının təhsillənməsi, yüksək təhsil ocaqlarının, institutların yaranması, xalqın təhsilə, ali təhsilə cəlb olunması, elmi-tədqiqat institutlarının yaradılması, elmi-tədqiqat işlərinin təşkil olunması və bunların nəticəsində 50 il bundan öncə *Azərbaycanda ilk dəfə Elmlər Akademiyasının yaranması* – bunların hamısı XX əsrdə Azərbaycanda elmin sürətlə inkişafını nümayiş etdirən faktlardır"[253].

Ümummilli lider Heydər Əliyev deyib: **"**Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar"[254].

*"Heydər Əliyev və Azərbaycan elmi"* kitabının[255] tərtibçiləri Aybəniz Əliyeva-Kəngərli və Gülbəniz Bağırovadır (elmi redaktoru, Əməkdar elm xadimi, professor A.Xələfov). Biblioqrafik göstəricidə Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsində çoxşaxəli fəaliyyətini əhatə edən materiallar əks etdirilib. Kitab Azərbaycan elminin inkişafında Ulu öndərin imzaladığı rəsmi sənədlər, elm xadimlərinə verdiyi təltif və mükafatlar, Azərbaycan və dünya elminin Heydər Əliyev irsinə verdiyi qiy-

---

[251] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[252] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[253] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.
[254] Heydər Əliyev.Müdrik fikirlər.İyun 1993–1998 oktyabr.I kitab.Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.; s. 116-128
[255] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

mət, milli elmin beynəlxalq əlaqələri, habelə, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının “Heydər Əliyev irsinin təbliği” *(hazırda “Heydər Əliyev və Azərbaycan dövlətçiliyi” şöbəsi–Ə.Ə.)* şöbəsinin fondundakı sənəd və informasiya resursları haqqında məlumat verib.Tərtibçilər yazıb: ”AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən ərsəyə gətirilən bu biblioqrafik nəşr öz əhatəliliyi, çoxmənbəliliyi və informativliyi ilə seçilir. Bu nəşr kitabxanamızda fəaliyyət göstərən “Heydər Əliyev irsinin təbliği” şöbəsində son illər ərzində toplanmış dəyərli materialların göstəricisidir”[256].

Kitab 7 hissədən ibarətdir. I hissə *“Heydər Əliyev və Azərbaycan elminin inkişafı”* adlandırılıb. Buraya Heydər Əliyevin elm və elm xadimləri haqqında, eləcə də görkəmli elm xadimlərinin Heydər Əliyev barəsində dəyərli fikirlərindən seçmələr daxil edilib.

*“Heydər Əliyev: Azərbaycan dövlətçiliyi və elmi”* adlı II hissədə Heydər Əliyevin müstəqillik illərində nəşr edilmiş əsərləri haqqında biblioqrafik məlumatlar ehtiva olunub. Kitabın *“Heydər Əliyev və Azərbaycanda elmin inkişafı”* adlı III hissəsi görkəmli elm xadimlərinin Heydər Əliyevə həsr edilmiş məqalələri haqqındadır. Tur Heyerdal, Çingiz Aytmatov və başqalarının Heydər Əliyev haqqında qiymətli fikirləri. *“Heydər Əliyev elm və elm xadimləri haqqında”* adlı IV hissə Heydər Əliyevin hakimiyyəti illərindəki Azərbaycanın beynəlxalq elmi əlaqələri haqqında məlumatları əhatə edib.

Nəşrin *“Heydər Əliyev siyasətinin layiqli davamçısı”* adlı V hissəsi İlham Əliyevin elm sahəsindəki fəaliyyətinə həsr olunub. İlham Əliyevin elmin inkişafına dair sərəncamları, kitab halında nəşr olunmuş əsərləri, dövlətçilik fəaliyyətinə həsr edilmiş kitablarının adları əksini tapıb. VI hissə *“Heydər Əliyev irsinin tədqiqi”* adlandırılıb. Bu hissədə Heydər Əliyev şəxsiyyətinə həsr edilmiş kitablar, dissertasiya və avtoreferatlar, məqalələr, elektron resurslar və multimedia vasitələri haqqında məlumat oxuculara çatdırılıb.VII hissə əlavələrdir.

Heydər Əliyev fəxarətlə bildirib: “XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir”[257].

AMEA-nın sabiq prezidenti, akademik Mahmud Kərimov *“Heydər Əliyev və müasir Azərbaycan elminin inkişaf strategiyası”* adlı məqaləsində yazıb: “Ötən əsrin 70-ci illərində Heydər Əliyev ən mötəbər ali məktəblərə gənclər göndərib, sonralar elmimiz beynəlxalq səviyyədə tanınmağa

[256] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.
[257] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, “Elm”, 2008, 268 s.

başlayıb, beynəlxalq elmi əlaqələr qurulub. Dünya ölkələri ilə fəaliyyət göstərən elm, təhsil müəssisələri ilə elmi əməkdaşlıq başlanıb, birgə layihələr həyata keçirilib... Müstəqillik illərində də beynəlxalq elmi əlaqələrin diapozonu genişlənib, Azərbaycan alimlərinin elmi kommunikasiyaları intensivləşib, bir çox aparıcı elmi müəssisələrlə təcrübə mübadiləsinin əsası qoyulıb. Bu gün ölkəmiz dünyanın ən nüfuzlu beynəlxalq elmi təşkilatlarının tamhüquqlu üzvüdür"[258].

Ulu öndər ruhumuzun müqəddəs yazıları olan *kitab haqqında* qiymətli fikirlər, aforizmlər söyləyib: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mədəni-ictimai həyatda çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamaq, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq... Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir"[259].

Heydər Əliyev *kitabxana haqqında* da qiymətli fikirlər, tezislər, aforizmlər söyləyib. Söyləyib ki, "Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir"[260].

Ulu öndər deyib: "Hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın Prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram"[261].

Heydər Əliyev *kitabxana işçilərinə* tapşırırdı ki: "Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumatlar gətirir. Ona görə də gərək bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun"[262].

Akademik Kamal Abdulla *kitab və kitabxana hamisi* haqqında yazıb: "Azərbaycan mədəniyyətinin, incəsənətinin mükəmməl inkişaf tarixi Ulu öndərimiz Heydər Əliyevin siyasi hakimiyyətindən sonra yeni inkişaf xətti götürmüşdür. O cümlədən *kitab nəşri, kitabxanaçılıq ənənələri* Heydər Əli-

---

[258] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[259] K.Tahirov. Heydər Əliyev və Milli Kitabxana. Bakı, "Şərq-Qərb", 2022, 180 s., s.33

[260] K.Tahirov. Heydər Əliyev və Milli Kitabxana. Bakı, "Şərq-Qərb", 2022,180 s. s.33

[261] K.Tahirov. Heydər Əliyev və Milli Kitabxana. Bakı, "Şərq-Qərb", 2022,180 s. s. 49

[262] K.Tahirov. Heydər Əliyev və Milli Kitabxana. Bakı, "Şərq-Qərb", 2022,180 s. s .63

yevin respublikaya rəhbərlik etdiyi dövrlərdə təkamül tapmışdır. Hələ respublikaya rəhbərlik etdiyi sovet dövründə onun diqqət və qayğısı nəticəsində ölkənin ən ucqar nöqtələrində belə kitabxanalar fəaliyyət göstərir, bilik və maaarif işinin, intellektual məkanın formalaşmasında bu mədəniyyət ocaqları xüsusi rol oynayırdı"[263].

Ulu öndər Heydər Əliyev *"Vətənə, dövlətə, xalqa sədaqət andı"* adlı miniatür kitabının təqdimat-sərgisində çıxış edib.

3 iyun 1995-ci ildə M.F.Axundzadə adına Azərbaycan Dövlət Kitabxanasında tarixi nitq söyləyib.

Qoşqar Əliyevin *"Heydər Əliyev və milli mentalitet fəlsəfəsi"*[264] kitabında Heydər Əliyevin *sosial fəlsəfəsi* və *xalqın mentalitetinin formalaşmasının elmi-metodoloji prinsipləri* göstərilib. Mentalitetin qaynaqları, tarixi yaddaş, vətən amalı, azərbaycançılıq ideyası, milli həmrəylik və siyasi mentalitet problemi öyrənilib.

*"Heydər Əliyev dünyanın gözü ilə"* kitabında[265] (tərtibçiləri Elşad Miraləm, Rüstəm Qaraxanlı, redaktoru f.ü.f.d.Təranə Tofiq qızı) məşhur dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri barəsində *dünya şəxsiyyətlərinin fikirlərindən* seçmələr özünə yer alıb.

*"Böyük insan haqqında"* kitabı[266] dünya sivilizasiyasında elit şəxsiyyət kimi Ümummilli liderin siyasət, diplomatiya, iqtisadiyyat və mədəniyyət sahəsində sivil baxışlarının mühüm tezis və müddəalarından ibarətdir.

***

Ulu öndər Heydər Əliyev elm və təhsillə bərabər, ***səhiyyənin*** də inkişafına xüsusi diqqət yetirib. Bu məqsədlə 1994-cü il aprelin 21-də Heydər Əliyev *Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Regional Bürosunun direktoru Co Asvalı* qəbul edib. O qeyd edib ki, ÜST– əsasən elmi təşkilatdır, intellektual xarakterlidir. Müharibənin davam etməsi, bir sıra *iqtisadi çətinliklərə* baxmayaraq, *ölkədə səhiyyənin vəziyyətini* qənaətbəxş hesab etmək olar. Bizim Sizdən, Sizin bizdən öyrənəcəklərimiz az deyil. Azərbaycanın səhiyyə təcrübəsi ÜST-ün özü üçün də maraqlı və faydalıdır. Biz Diaqnostika Mərkəzində, bir sıra digər xəstəxanalarda olduq, müalicə işinin yüksək səviyyədə təşkil edildiyini gördük"[267].

---

[263] Kamal Abdulla. Mədəniyyətimizin böyük hamisi. "Azərbaycan" qəzeti, 4 may 2023-cü il

[264] Qoşqar Əliyev. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, "Qismət", 2003, 248 s.

[265] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.

[266] Böyük insan haqqında. "Azərbaycan", 2004, 296 s.

[267] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.220

Heydər Əliyev 2000-ci il martın 31-də Prezident sarayında *Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Bürosunun regional direktoru Mark Danzonu* qəbul edib.

Mark Danzon Heydər Əliyevin diplomatiya və səhiyyə sahəsində böyük xidmətlərini nəzərə alaraq deyib: "Cənab Prezident, Sizin *bütün dünyada nüfuzunuzdan* və ümumiyyətlə, *səhiyyə sahəsində gördüyünüz işlərdən* bizim xəbərimiz vardır. Hətta biz bilirik ki, bir çox xəstəliklərə qarşı Siz amansız mübarizə aparmısınız...Deyə bilərəm ki, məhz Sizin kimi *şəxsiyyətin sayəsində* respublikada böyük dəyişikliklərin baş verdiyi bir şəraitdə səhiyyə sahəsində də böyük işlər görülməlidir... Sizin kimi bir şəxsiyyətin rəhbərlik etdiyi ölkədə sağlamlığın ən birinci sıraya, önə çəkilməsi çox böyük əhəmiyyətə malikdir"[268].

Mark Danzon bildirib ki, "bizim təşkilatın Azərbaycanla, Azərbaycanın Səhiyyə Nazirliyi ilə birgə *əməkdaşlıq proqramı* vardır. Mən daha yaxından izləyəcəm ki, bu əməkdaşlıq planı həyata keçirilsin. Bununla bağlı əlimdən gələni edəcəyəm ki, Azərbaycan ilə bu əməkdaşlıq sayəsində respublikanıza həm diqqət, həm də kömək getdikcə artsın. Xüsusilə, yoluxucu xəstəliklərə qarşı mübarizədə bizim əməkdaşlığımız daha yüksək səviyyəyə çıxacaqdır"[269].

Cənab Mark Danzon səhiyyə sahəsində Heydər Əliyevin uğurlarına ümumi nəzər ifadə edərək bildirib: "Cənab prezident, deməliyəm ki, Sizin ölkəniz səhiyyənin bir çox sahələrində gözəl nəticələr əldə etmişdir, uğurlara nail olmuşdur. Onlardan biri də malyariyaya qarşı mübarizədir. Sizin ölkə bu sahədə çox böyük uğurlar əldə etmişdir. Hətta bəzi Avropa ölkələri ilə müqayisə etdikdə belə, Sizin uğurlarınız göz qabağındadır və bu da bizi ruhlandırır"[270].

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Bürosu regional direktorunun *Heydər Əliyevə verdiyi elit dəyər* də çox maraqlıdır: "Cənab Prezident, icazə verin sözümün sonunda bir daha *Sizə heyranlığımı, hörmətimi* və bir də *rahatlığımı* bildirim. Ona görə rahatlığımı bildirim ki, kim olursa olsun, buraya gəlib səhiyyə ilə maraqlanarsa, Sizin kimi rəhbərin – *səhiyyəyə bu qədər ciddi münasibət göstərən bir rəhbərin* öz ölkəsində səhiyyə problemlərinə belə ciddi yanaşmasını görəndə, həmin adamda rahatlıq əmələ gələcəkdir. Biz də bunu çox yaxşı başa düşürük. ...Gördüyünüz bütün bu işlərə görə *xalq qarşısında olan borcunuzu* şərəflə yerinə yetirdiyinizə görə, Sizə minnətdarlığımı bildirirəm və yenə də deyirəm ki, bizim nümayəndələ-

[268] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.223
[269] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.223
[270] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.223

rin hansısa Azərbaycana gəlsə, bu ölkədə bu işləri görəndə onda bir daxili rahatlıq yaranacaqdır"[271].

***

Heydər Əliyev 13 dekabr 1998-ci ildə teleteatrda ***Uşaqların*** beynəlxalq televiziya və radio günü münasibətilə *"Uşaqlar dünyanın sevincidir"* devizi altında keçirilən mərasimində çıxış edib. O deyib: "Mən hər bir insan kimi uşaqları hədsiz dərəcədə sevirəm. Öz övladlarımı sevirəm, nəvələrimi sevirəm, bütün uşaqları sevirəm, bütün Azərbaycan uşaqlarını sevirəm, əziz balalar, sizi sevirəm. Mən bu sözlərimlə Azərbaycandakı bütün sağlam düşüncəli insanların fikrini ifadə edirəm. Hesab edirəm ki, hər bir sağlam düşüncəli insan uşağı sevməlidir, uşağa qayğı göstərməlidir, uşaqların yaşaması üçün, onların təhsil alması üçün, inkişafı üçün öz xidmətlərini göstərməlidir...

Sizin isə borcunuz ondan ibarətdir ki, yaxşı oxuyasınız, yaxşı təhsil alasınız, həyatda gələcəkdə özünüzə yer tapmaq üçün hazırlaşasınız, öz istedadlarınızdan səmərəli istifadə edə biləsiniz və Azərbaycanın gələcəyinin qurucuları olasınız"[272].

Ulu rəhbər 31 dekabr 1998-ci ildə Bakı Əyləncə Mərkəzində *Şəhid, qaçqın və köçkün uşaqları, habelə, valideyn himayəsindən məhrum olmuş uşaqlar* üçün yeni il şənliyində çıxış edib. O, 10 dekabr 2000-ci ildə uşaqların beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən şənliyində də nitq söyləyib.

*Beləliklə,* Ulu öndərin məramı bu olubdur ki, uşaqlarımız, valideynlərimiz bizim ümidimiz və gələcəyimizdir. Bizim də borcumuz onlara qayğı göstərməkdir.

---

[271] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.224

[272] s.491-492

***

***" Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".***

**Heydər Əliyev**

Heydər Əliyevin siyasi əzmkarlığı ilə ***Azərbaycan – YUNESKO əməkdaşlığı*** daim inkişaf etdirilib. Azərbaycanın *zəngin mədəni irsinin qorunub saxlanılması və təbliği* sahəsində Azərbaycanın BMT-nin elm, təhsil, mədəniyyət təşkilatı olan YUNESKO arasında əlaqələr ötən dövrdə səmərəli olub. Heydər Əliyev 1993-cü ilin dekabrında Parisdə, 1995-ci ilin avqustunda isə Almatıda YUNESKO-nun keçmiş Baş direktoru Federiko Mayor ilə görüşüb. Federiko Mayor 1996-cı ilin noyabrında *Füzulinin 500 illik yubileyində* iştirak etmək üçün Azərbaycana səfər edib.

YUNESKO-nun baş direktoru Koisura Matsuura 2000-ci ilin aprelində *"Kitabi-Dədə Qorqud"un 1300 illik yubiley* tədbirində iştirak üçün Bakıya gəlib. Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq inkişaf etdirilib.

***

Azərbaycan Respublikası Baş Məclisi *Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsi* barədə Təhlükəsizlik Şurasının 1992-ci il 14 fevral tarixli tövsiyəsi (sənəd A/46/880) və Azərbaycan Respublikasının üzv qəbul olunmaq barədə ərizəsinə (sənəd A/46/872-S/23558) əsasən Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsini qərara alıb. 112 dövlətin iştirakı ilə BMT Təhlükəsizlik Şurası tərəfindən qətnamə layihəsi (sənəd A/46/1.65 və ADD.1) hazırlanıb.

***

**Heydər Əliyev dövlət və siyasət xadimi kimi tarixi fəaliyyətində bu *təltiflərə* layiq görülübdür[273].**

*"Əmək rəşadətinə görə medalı".* Moskva, Kreml, 27 may 1949. N181 1250

Milli Təhlükəsizlik Nazirliyinin Bölmə rəisi

*"Döyüş xidmətinə görə" medalı.* Kapitan Əliyev Heydər Əlirza oğlu. Moskva, Krıml, 5 noyabr 1954

*"Qızıl ulduz" ordeni.* Podpolkovnik Əliyev Heydər Əlirzaoğlu. Moskva, Kreml, 26 may 1962. N119-VI

*"Lenin ordeni".* Azərbaycan KP MK-nın I katibi. 25 avqust 1971. N2074 VIII.

[273] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.

*"Lenin ordeni".*Kommunist Partiyası və Sovet dövləti qarşısında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan KP MK-nın I katibi Əliyev Heydər Əlirza oğlu. 8 may 1973. N4226 – VIII.

*"Sosialist Əməyi Qəhrəmanı"* adının verilməsi münasibətilə.*"Oraq və çəkic"* qızıl medalı təqdim olunmaqla. Moskva, Kreml, 24 avqust 1979. N 653 X.

Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd. Azərbaycan KP MK-nın I katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın *"Oktyabr inqilabı"* ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı. 10 mart 1982. N 6715 – X.

SSRİ Nazirlər Soveti Şədrinin I müavini, Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyev yoldaşın "Lenin ordeni" və "İkinci Oraq və çəkic" qızıl medalı ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı. Qəhrəmanın vətənində bürünc büstü qoyulşun. 7 may 1983. N 9265 – X.

Büst Naxçıvan şəhərində qoyulub.1983-cü ilin oktyabrında Naxçıvan şəhərində Azərbaycan xalqının böyük oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin büstünün açılışı olub. Büst Naxçıvan şəhərinin qədim məhəllələrindən birinin yerindəki mədəniyyət və istirahət parkında uca ərazidə yerləşib. Büstün müəllifi AMEA-nın akademiki, Xalq rəssamı Ömər Eldarovdur.

**Heydər Əliyev dövlət və siyasət xadimi kimi tarixi fəaliyyətində bu *orden* və *medallara* layiq görülübdür**[274].

*Ukraynanın Yaroslav Mudri ordeni.* 24 mart 1997-ci il

Ukrayna Prezidenti Leonid Kuçma H.Əliyevə Ukraynanın ali dövlət mükafatı olan *knyaz Yaroslav Mudri* ordenini təqdim edərkən deyib: "Ordendə belə bir yazı var: "Müdriklik, şərəf və şöhrət". Çox hörmətli Heydər Əliyeviç, bu sözləri tam mənası ilə sizə də aid etmək olar. Dövlət başçısı kimi siz ölkənizin inkişafının siyasi və iqtisadi məsələlərini, beynəlxalq problemlərin həllində müdriklik göstərirsiniz. Siz Zaqafqaziya regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyətinizlə artırmısınız. Ukrayna– Azərbaycan münasibətlərinin möhkəmlənməsinə sizin verdiyiniz böyük töhfələri xüsusi vurğulamaq istərdim"[275].

*Türkiyə Respublikanın "Dövlət nişanı".*

1997-ci il mayın 5-də Türkiyə Respublikasında səfərdə olarkən Heydər Əliyevə Çankaya köşkündə Türkiyənin yüksək mükafatı Dövlət nişanı" təqdim edilib.

O zaman Türkiyə Respublikanın Prezidenti *Süleyman Dəmirəl* deyib: "Biz qardaş Azərbaycan Respublikasının çox hörmətli prezidenti, qardaşım

[274] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.
[275] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.18

Heydər Əliyev, Türkiyə–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə Türkiyə Respublikanın "Dövlət nişanı"nı təqdim etmək məqsədi ilə buraya toplaşmışıq. Bu "Dölət nişanı" dövlətlər arasında dostcasına əlaqələrin inkişaf etdirilməsinə və millətlərin bir-birinə yaxınlaşmasına nail olan dövlət başçılarına verilir. Bu gün bu nişanı qardaş ölkənin dövlət başçısına –hörmətli Prezident Heydər Əliyevə təqdim etməkdən böyük şərəf duyuram.

Türklər və azərbaycanlılar bir xalq olmaqla bərabər, bu gün 2 müstəqil dövlətə malikdirlər. Eyni dildə danışan, müştərək mədəniyyətə malik, tarixi və ənənəvi tellərlə bir-birinə bağlı olan ölkələrin arasındakı münasibətlərin təməlində tarixi və mədəni köklər, qarşılıqlı sevgi və hörmət durur"[276].

*Beynəlxalq Kadr Akademiyasının "Elm və təhsilin inkişafına görə" beynəlxalq ordeni.*

1998-ci il dekabrın 14- də Heydər Əliyevə Bakıda, Prezident sarayında Beynəlxalq Kadr Akademiyasının *"Elm və təhsilin inkişafına görə"* beynəlxalq ordeni təqdim edilib.

Bu münasibətlə Heydər Əliyev Beynəlxalq Kadr Akademiyasının (BKA) rəhbərlərini – BKA prezidenti, B.Bioqrafiya mərkəzinin (Kembric, İngiltərə) direktoru, Amerika Coğrafiya İnstitutu Tədqiqat Assosiasiyasının (Vaşinqton, ABŞ) vitse-qubernatoru, professor, fəlsəfə doktoru, sosioloji elmlər namizədi Georgi Şokini, BKA-nın vitse-prezidenti, regionlararası işçi heyətinin idarəetmə AK-nın (Ukrayna) rektoru, BMT-nin eksperti, professor, psixologiya elmləri namizədi, siyasi elmlər doktoru Valeri Bebiki, BKA-nın baş direktoru və fəxri doktoru, professor, texnika elmləri namizədi, pedaqoji elmlər doktoru Leonid Oderini qəbul edib. Qəbul zamanı *professor Georgi Şokin* deyib: "Cənab prezident, çox hörmətli Heydər Əliyeviç!

İcazə verin, Avropa Şurasının və YUNESKO-nun akademik tanınma və mobillik üzrə milli informasiya mərkəzləri Avropa şəbəkəsinin üzvü olan BKA adından sizi, XX *yüzilliyin mübaliğəsiz olaraq görkəmli adamını, bütün dünyada tanınmış dövlət xadimini, Azərbaycanın çoxillik və şəksiz liderini* salamlayım.

BKA RH-nin bu il fevralın 25-də keçirilən və dünyanın müxtəlif ölkələrinin 15 nümayəndəsinin iştirak etdiyi geniş iclasında, çox hörmətli Heydər Əliyeviç, sizi demokratik humanitar siyasət apardığınıza görə, xalq təhsilinə, bu sahədə bu xalq əməkdaşlığına şəxsi töhfənizə görə bu ordenlə təltif etmək haqqında yekdilliklə qərar qəbul olunmuşdur"[277].

[276] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.21
[277] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.24

*Rusiya Rəssamlıq Akademiyasının "Ləyaqət" qızıl medalı.*

23 mart 2000-ci ildə Gürcüstana rəsmi səfəri zamanı Heydər Əliyevə Rusiya Rəssamlıq Akademiyasının "Ləyaqət" qızıl medalı təqdim edilib.

Bu münasibətlə Prezident E.Şevarnadze və Heydər Əliyev Rusiya Rəssamlıq Akademiyasının prezidenti, akademik Zurab Seritelinin Tbilisidəki emalatxasında olub. Zurab Seriteli deyib:

"240 il bundan əvvəl yaradılmış Rusiya Rəssamlıq Akademiyası "Ləyaqət" qızıl medalı təsis etmişdir. Biz istər Rusiyada, istifa də Azərbaycanda incəsənətin inkişafındakı xidmətlərinizə görə bu medalı sizə təqdim etmək istəyirik"[278].

Heydər Əliyev  28 mart 2001-ci ildə *Beynəlxalq Mühəndislik Akademiyasının "Böyük qızıl medalı"na* layiq görülüb. Beynəlxalq və Rusiya Mühəndislik Akademiyasının prezidenti Boris Qusev bu münasibətlə Heydər Əliyevə məktub göndərib. Məktubda deyilib: "Beynəlxalq Mühəndislik Akademiyası öz fəaliyyətində sizin diqqət və qayğınıza ümid bəsləyir və əmindir ki, belə münasibət Azərbaycanın tətbiqi elminin daha da inkişafına, sənaye sahələri qarşısında duran bir çox mühəndis problemlərinin həllinə, Azərbaycanın bundan sonra da beynəlxalq miqyasda tanınmasına, dünya elmi və mühəndis birliyinə inteqrasiyasının dərinləşməsinə xidmət göstərəcəkdir"[279]

2001-ci il mayın 18-də Bakıda, Prezident sarayında Heydər Əliyevə *Ukraynanın "Qızıl tale" Beynəlxalq Açıq Məşhurluq Reytinqinin "Qloriya Populi" qızıl ulduz* mükafatı təqdim edilib.

Bu münasibətlə Heydər Əliyev Ukrayna Müdafiə Naziri, ordu generalı Aleksandr Kuzmuku və "Qızıl tale" direktorluğunun sədri Dmitri Akimovu qəbul edib. A.Kuzmuk deyib: "Sizə bildirirəm ki, "Qızıl tale" *"Qızıl tale" Beynəlxalq Açıq Məşhurluq*  xadiminin, Ukrayna və Azərbaycan dövlətləri arasında münasibətlərin, xalqlarımız arasında dostluğun möhkəmlənməsi və inkişafı üçün böyük səylər göstərmiş müdrik siyasətçinin reytinqin ali mükafatı – "Qloriya Populi" qızıl ulduzu ilə təltif olunması haqqında qərar qəbul etmişdir. Bu mükafatın qədim tarixi var, onun tarixi qədim Kiyev Rus dövləti dövründən başlayır. İndi o bəzi ölkələrin ali nümunəsidir. Rəyasət Heyətinin ifadəsini yerinə yetirmək və indi bu mükafatı sizə təqdim etmək bizim üçün böyük şərəfdir"[280].

---

[278] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.27
[279] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.28
[280] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.31

Rus provaslav kilsəsinin I dərəcəli *"Moskva knyazı Müqəddəs Mömin Daniil"* ordeni 28 may 2001-cidə Heydər Əliyevə Bakıda, Prezident sarayında təqdim edilib.

H.Əliyev bu münasibətlə Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksini və onu müşayət edən şəxsləri qəbul edib. II Aleksi deyib: "Rus provaslav kilsəsinin Bakı və Xəzəryanı bölgə yeparxiyasına göstərdiyi diqqətə, köməyə və dəstəyə görə Azərbaycan Respublikasının Prezienti Heydər Əliyeviç Əliyev rus provaslav kilsəsinin birinci dərəcəli "Moskva knyazı Müqəddəs Mömin Daniil" ordeni ilə təltif edilir". Yepiskop Aleksandrın simasında Bakı və Xəzəryanı bölgə yeparxiyası mənim səfərimlə əlaqədar medal buraxmışdır. Mənə icazə verin, görüşümüz münasibətilə bu medalı Sizə təqdim edim...

...Moskva knyazı Daniil Moskvanı yaratmış və birləşdirmiş knyazdır. Bu orden Azərbaycanın yaradıcısı, Azərbaycan xalqının vəhdət halında birləşdiricisi kimi Sizə təqdim olunur..."[281].

*Gürcüstan "Qızıl runo" ordeni.*

29 sentyabr 2001-ci ildə Bakıda Heydər Əliyevə Gürcüstanın ali mükafatı kimi təqdim edilib.

Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqindən: "Mən layiqli şəxslər arasında ən layiqlisi haqqında bir neçə kəlmə deməyə borcluyam. Məni buna dövlətin tanınmış lideri, Azərbaycanı yeganə düzgün yolla aparan rəhbər ilə – Heydər Əliyeviçlə ağır sınaqlardan çıxmış dostluq vadar edir... Bir-birimizi 30 ildən çoxdur tanıyırıq. Bir- birimizi nəinki sadəcə olaraq tanıyırıq, əslində birlikdə işləyirik, eyni fikirlərlə yaşayırıq, eyni ümidlə – nəyin bahasına olursa-olsun müstəqil dövlətlər qurulmasına nail olmaq ümidi ilə yaşayırıq.

...Mən çox şeyi xatırlayıram, mən həm onu müdrik bir insan kimi, qarşısına qoyduğu məqsədə öz gərgin əməyi, ağıl-zəkası ilə daim nail olmuş insan kimi tanımışam və bu gün də tanıyıram. O məhz bununla hörmət, nüfuz qazanmışdır... Bu gün biz çox mühüm tarixi sazişlərdən danışdıq, onları vurğuladıq. Bu gün biz dedik ki, Avropanın cənub-şərq hissəsində vahid enerji sistemi qurmaq üçün real perspektivlər, real imkanlar var...

Təbii olaraq biz onu nəzərdə tuturuq ki, bu cür sistem yaradılarsa, bütün dövlətlər, o cümlədən, Rusiya, Ukrayna və başqa dövlətlər belə birliyin iştirakçısı olacaqlar. Bəs belə perspektiv hər halda necə meydana gəlmişdir? Hesab edirəm ki, əgər Heydər Əliyev olmasaydı, indi biz təkcə dövlətimiz

[281] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.34

üçün deyil, ümumən, bu regionun çox böyük məkanı üçün belə planlardan, belə perspektivlərdən söhbət aça bilməzdik”[282].

*Eduard Şevardnadze:* “Məni bu sözləri deməyə bizim nəslimizə, heç bir sınaqlara baxmayaraq, sülh və həmrəylik şəraitində yaşamağı vəsiyyət etmiş əcdadlarımızın xatirəsi vadar edir. Biz bu vəsiyyəti göz bəbəyi kimi qoruyuruq və bizdən sonra gələcək nəsillərə ötürəcəyik. Düşünürəm ki, bu baxımdan biz ikimiz, iki prezident – qeyri-təvazökarlığa görə üzr istəyirəm, – pis nümunə deyilik...”,–deyib: –Biz çox böyük regionumuzu – Cənubi Qafqazı sülh və sabitlik zonasına çevrirməyi qarşımıza məqsəd qoymuşuq. Heydər Əliyeviç dinc Qafqazdan danışdı. Biz bu bəyannaməni Tbilisidə birlikdə hazırlamış və imzalamışıq, etibarlı dostlara və mehriban qonşulara arxalanırıq, regionu dünya siyasi və iqtisadi strukturlarına qoşmaq, bu zaman olduqca böyük təbii ehtiyatlardan və hətta, deyərdim, nadir coğrafi mövqedən istifadə etmək barədə razılığa gəlmişik. Mən xoşbəxtəm ki, plan dönmədən həyata keçirilir. Biz sözübütöv adamlarıq, iş adamları olaraq qalırıq” – deyə bildirib.

Heydər Əliyevlə Eduard Şevarnadzenin Yeni Böyük ipək yolu barəsində ideyaları regiona xeyli sərmayə gətirib. Heydər Əliyev Bakıda Böyük İpək yolunun bərpasına həsr edilmiş konfrans keçirib... Gürcüstan Prezidenti davam edib: “Region sağlam rəqabət, ən yeni ideyalar və texnologiyalar meydanına, dünyanın ən güclü və ən zəngin ölkələrinin uzunmüddətli maraqlarının olduğu meydana, Qara dəniz – Xəzər dənizi dövlətlərinin səmərəli əməkdaşlığı meydanına çevrilir. Lakin bir vacib şərt – əsas dövlətlər olan Azərbaycan və Gürcüstan arasında ən xoş münasibətlər olmadan dünyada heç kim elə planlar qurmağa girişməzdi”[283]– deyə bildirib.O, əlavə edib: “Bizim böyük planlarımız var. Lakin Heydər Əliyeviç və mən onları tədricən, addımbaaddım açıqlayırıq. Lakin indiyədək nə edilibsə, bunlar da şəxsən Heydər Əliyeviç Əliyevin çox böyük xidmətlərinin nəticəsidir. Mən uzun illər davam edən dostluğumuzdan əmin olmuşam ki, o *strategiya məsələlərində sarsılmaz, qətiyyətli siyasətçidir,* gündəlik məsələləri həll etməkdə heyrətamiz dərəcədə çevikdir. Məhz bu nadir keyfiyyətlər onun tarixi qərarlarını, mən vurğulayıram, tarixi qərarlarını şərtləndirmişdir və bu qərarlar bugünki qlobal, dünya əhəmiyyətli layihələrin əsasını qoymuşdur”[284]...

“Onun hansı təhlükələrə məruz qaldığını və hansı təzyiqlərə davam gətirməli olduğunu çox yaxşı bilirik. Lakin mən deyə bilmərəm ki, bu təhlü-

---

[282] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.38
[283] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.40
[284] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.40

kələrdən bu gün həm onun üçün, həm də mənim üçün mövcud deyildir. Lakin biz birlikdə irəliləmişik. Ona görə də mən artıq neçənci dəfədir müdrik Azərbaycan xalqına təşəkkürümü bildirmək istəyirəm ki, o bizim olduqca mürəkkəb regiona və belə narahat zəmanəmizdə ölkəyə rəhbərliyi məhz Prezident Heydər Əliyevi etibar etmişdir"[285]...

"Xoşbəxtliyimiz ondadır ki, biz birik. Bu gün Heydər Əliyev siyasətçi kimi, bir insan kimi mübariz kimi layiq olduğu mükafatı alacaqdır. Sizin vətəninizin– Azərbaycanın, mənim Vətənimin – Gürcüstanın, eləcə də bütün digər xalqların mənafelərinin keşiyində dönmədən duran siyasətçi kimi, əsil dostluğun, əsil qardaşlığın qədrini bilən bir insan kimi və layiqlilərin, həqiqətən, ən layiqlisi kimi alacaqdır"[286].

*E.Şevardnadze* çıxışının sonunda bildirib: "Bu qeyri-adi ordeni Sizə təqdim edirəm. Onun tarixcəsi bəllidir. Böyük İpək yolu hələ qədimdən mövcud idi. O, Gürcüstandan, Azərbaycandan və digər ölkələrdən keçirdi. Gürcülər qızıl runo hazırlayırdılar, o, belə adlanırdı. O zaman Gürcüstanı zəbt etmiş yunanlar qızıl runonu oğurlamışdılar, sonra biz onu geri qaytardıq və ədalət rəmzi kimi bu ordeni, bütün layiqli insanlar üçün olan ordeni təsis etdik. Bununla biz, Heydər Əliyeviçə məxsus olan ədalət və sədaqətə görə minnətdarlığımızı ifadə etmək istəyirik. Əziz qardaşım, əsl dostum, bu ordeni sizə təqdim edirəm. Qoy gələcək nəsillər bizim bir-birimizə olan inamımızdan, etibarımızdan danışsınlar. Deyərlər ki, bizim xalqlarımız, o cümlədən Prezidentlər, hərdən ildə bir dəfə bu cür hadisələri ordenlər verməklə qeyd edirdilər"[287].

2002-ci il mayın 3-də Bakıda Heydər Əliyevə *Avropa Güləş Federasiyasının "Qızıl boyunbağı" fərqlənmə nişanı* təqdim edilib. Avropa Sərbəst və Yunan-Roma Güləşi Federasiyasının prezidenti Tseno Tsenov deyib: "Çempionatların təşkili məsələləri ilə əlaqədar onların irəli sürdüyü bütün tələblər Azərbaycanda ən yüksək səviyyədə yerinə yetirilmişdir. O, əmin olduğunu bildirdi ki, yaxın illərdə Azərbaycan paytaxtında güləş üzrə dünya çempionatı da keçiriləcəkdir"[288]. Qonaq dövlət başçılarının təltif olunduğu nişanı Heydər Əliyevə təqdim edib.

---

[285] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.40
[286] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.40
[287] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.40-41
[288] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.41

*İhsan Doğramacı Fondunun beynəlxalq qızıl sülh medalı.*
2002-ci ilin 27 iyununda Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olarkən Ankaranın tarixi yerlərindən olan "Ankara palats" hotelində mərasim zamanı verilib.

*Azərbaycan –Türkiyə Dostluq və Əməkdaşlıq Fondunun sədri* İ.Dağramacı deyib: "Əziz Prezidentim!

Sizin ölkənizdə nail olduğunuz iqtisadi və ictimai inkişaf hər kəsə bəllidir. Mənə icazə verin ki, bir az da dünya sülhünə etdiyiniz xidmətlərdən söz açım.

1990-cı illərin əvvəllərində dünyanın bir çox bölgəsində ilk savaşlar başladı. Ancaq bu savaşların dayandırılması üçün BMT və NATO qüvvələri araya girdi və müvəffəq oldular. Azərbaycanda Yuxarı Qarabağda 1980-ci illərin axırında ermənilər tərəfindən başlanan münaqişə isə uzun müddət davam etdi və 30-40 min nəfərin ölümünə səbəb oldu. Nəhayət, sizin səylərinizlə 1994-cü ilin may ayında atəşkəs elan edildi. 1993-cü ildə vətəndaş müharibəsi başlandı. Sizin sayənizlə bu, dayandırıldı.

Bütün bu xidmətləriniz dünyada çox lazım olan sülhə böyük xidmət sayılır. Onun üçün bizim fondumuz dünyada ikinci dəfə Sizə beynəlxalq sülh mükafatı olaraq qızıl medal təqdim edilməsinə qərar verdi. Burada bu sözlər yazılıb: "Beynəlxalq sülhün böyük üstadı Azərbaycan Prezidenti hörmətli Heydər Əliyevə İhsan Doğramacı Fondunun beynəlxalq qızıl sülh medalı". Sonra mükafat Prezidentə təqdim edilib.

Heydər Əliyev *Fransa Respublikasının "Fəxri legionun Böyük xaçı" ordeni ilə* 2003-cü il mayın 7-də təltif olunub.

Fransa Prezidenti Jak Şirak Heydər Əliyevə ünvanladığı məktubunda bildirib: "Ölkəniz qarşısındakı, onun tərəqqisi naminə və sülh uğrunda misilsiz xidmətlərinizi qiymətləndirmək üçün mən sizi *"Fəxri Legionun Böyük Xaçı"* ordeni ilə təltif etməyi qərara aldım. Arzu edərdim ki, Fransaya növbəti səfərin dövründə bu ordeni sizə təqdim etmək məmlunluğumu duyum. Bunun mümkünlüyünü oğlunuz İlham ilə birlikdə müzakirə etmişik"[289].

Prezident İlham Əliyev 2004-cü il yanvarın 23-də Fransada rəsmi səfərdə olarkən Fransa Respublikasının Prezidenti Jak Şirak Yelisey sarayının "Sa-

[289] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.53

lon des Aydes de Kamp" salonunda Prezident İlham Əliyevə həmin ordeni təqdim edib. Jak Şirak deyib: "Məni Prezident Heydər Əliyev ilə dostluq və hörmət telləri bağladığını siz bilirsiniz. O, *çox böyük cazibə qüvvəsinə malik müstəsna bir şəxsiyyət* idi. Yəni öz zəmanəsini, həqiqətən, səciyyələndirən şəxsiyyət idi. İğtişaşlar və çətinliklər dövründən sonra onun fəaliyyəti sayəsində Azərbaycan sabitlik əldə etdi və öz müstəqilliyini möhkəm təməl üzərində qura bildi. Heydər Əliyev çox cəsarətlə demokratik islahatlara da yol açdı. Bu islahatlar ölkənizi Avropa Şurasına daxil olmağa imkan verdi. Bir sözlə, Siz bu mirasla haqlı olaraq fəxr edə bilərsiniz"[290].

*"Fəxri legion"* ordeni 200 il əvvəl Napoleon tərəfindən təsis edilib. Ulu öndərə 80 illiyi münasibətilə verilib.

Prezident Heydər Əliyev 2003-cü il mayın 10-da *Rusiyanın "Müqəddəs apostol Andrey Pervozvanni" ordeni* ilə təltif edilib. Bu münasibətlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Fərman imzalayıb.

Həmin gün V.Putin Ankaraya– Gülhanə Hərbi Tibb Akademiyasına zəng vurub. Heydər Əliyevi 80 yaşı münasibətilə təbrik edib. 2004-cü il fevralın 6-da Prezident İlham Əliyev Rusiya Federasiyasında rəsmi səfərdə olub. Kremlin Yekatrina sarayında mərasim keçirilib. V.Putin həmin ordeni İlham Əliyevə təqdim edib.

H.Əliyev 2003-cü il mayın 12-də *Uşaq Fondları Beynəlxalq Assosiyasının Lev Tolstoy adına beynəlxalq qızıl medalı* ilə təltif olunub.

*Ukrayna mədəniyyət ictimaiyyətinin "Şərəf" ordeni* Heydər Əliyevə 2003-cü il iyunun 27-də Bakıda, Prezident sarayında təqdim edilib.

### *SSRİ dövründə Heydər Əliyevin təltif edildiyi orden, medal və fəxri nişanlar:*

*1945, 9 may* – "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı
*1945, 6 iyun*– "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı
*1948, 22 fevral*– "Sovet Ordusunun və Donanmasının 30 illiyi" yubiley medalı
*1949, 27 may*– "Əmək rəşadətinə görə" medalı
*1954, 5 noyabr*– "Döyüş xidmətlərinə görə" medalı
*1957,18 dekabr*– "SSRİ Silahlı Qüvvələrinin 40 illiyi"

[290] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.54

yubiley medalı
*1959, 2 dekabr–* II dərəcə “Nümunəvi xidmətə görə" medalı
*1960,15 aprel–* "DTK-nın fəxri əməkdaşı" nişanı
*1962, 26 may–* "Qırmızı Ulduz" ordeni
*1964, 4 dekabr–* I dərəcə "Nümunəvi xidmətə görə" medalı
*1964,9 yanvar–* Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı
*1965,7 may–* "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" yubiley medalı
*1967, 20 noyabr–* "Sovet milisinin 50 illiyi" yubiley medalı
*1967,15 dekabr–* "ÜFK-DTK-nın 50 illiyi" nişanı
*1967, 26 dekabr–* "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı
*1968, 28 may–* "SSRİ Sərhəd Qoşunlarının 50 illiyi" yubiley nişanı
*1970,15 aprel–* "V. İ. Leninin anadan olmasının 100 illiyi şərəfinə rəşadətli əməyə görə" yubiley medalı
*1971, 25 avqust–* Lenin ordeni
*1973, 8 may–* Lenin ordeni
*1975,25aprel–* "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" yubiley medalı
*1976, 27 dekabr–* Lenin ordeni
*1978, 28yanvar–* "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı
*1979, 24 avqust–* Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı
*1982,10 mart–* "Oktyabr İnqilabı" ordeni
*1982, 28 aprel–* Sov. İKP MK-nın "Politiçeskoye obrazovaniye" jurnalı redaksiya heyətinin Fəxri Fərmanı
*1982, 17 may–* "Kiyevin 1500 illiyinə xatirə" medalı
*1982, 5 oktyabr–* "Georgi Dimitrovun anadan olmasının 100 illiyi" yubiley medalı
*1983, 7 may–* Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı
*1983, 9 may–* Georgi Dimitrov ordeni
*1984, 8 iyun–* "Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı
*1984,12 iyul–* ÜİLKGİ MK-nın "60 il V. İ. Leninin adı ilə" fəxri nişanı
*1984 –* "Qırğızıstan SSR-in və Qırğızıstan Kommunist Partiyasının 60 illiyi" xatirə medalı

*1985, 24 yanvar–* "25 il Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı
*1985,12 aprel –* "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" yubiley medalı
*1985, 19 aprel–* "I dərəcə Vətən müharibəsi" ordeni
*1988, 28 yanvar–* "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı

**Heydər Əliyevin müstəqillik dövründə qazandığı *orden və medallar:***

*1997, 24 mart –* Ukraynanın Yaroslav Mudrı ordeni
*1997, 5 may –* Türkiyə Respublikasının "Dövlət nişanı"
*1998,14 dekabr –*Beynəlxalq Kadr Akademiyasının "Elm və təhsilin inkişafına görə" beynəlxalq ordeni
*2000, 23 mart –* Rusiya Rəssamlıq Akademiyasının "Ləyaqət" qızıl medalı
*2001, 28 mart –* Beynəlxalq Mühəndislik Akademiyasının "Böyük qızıl medalı"
*2001,15 may –* Ukraynanın "Qızıl tale" Beynəlxalq Açıq Məşhurluq Reytinqinin "Qloriya Populi" qızıl ulduzu
*2001, 28 may –* Rus pravoslav kilsəsinin birinci dərəcəli "Moskva knyazı müqəddəs mömin Daniil" ordeni
*2001, 29 sentyabr –* Gürcüstanın "Qızıl runo" ordeni
*2002, 3 may –* Avropa Güləş Federasiyasının "Qızıl boyunbağı" fərqlənmə nişanı
*2002, 27 iyun –* İhsan Doğramacı Fondunun beynəlxalq qızıl sülh medalı
*2003, 7 may –* Fransa Respublikasının "Fəxri Legionun Böyük Xaçı" ordeni
*2003,10 may –* Rusiyanın "Müqəddəs apostol Andrey Pervozvannı" ordeni
*2003,12 may –* Uşaq Fondları Beynəlxalq Assosiasiyasının Lev Tolstoy adına beynəlxalq qızıl medalı
*2003, 27 may –* Ukraynanın mədəniyyət ictimaiyyətinin "Şərəf" ordeni

**Heydər Əliyevin layiq görüldüyü**
***fəxri elmi adlar***

*1994, 9 fevral* – Ankara şəhərindəki Hacəttəpə Universitetinin fəxri doktoru
*1996, 9 mart* – Tbilisi Dövlət Universitetinin fəxri doktoru
*1997, 29 mart* – Moskva Hüquq Akademiyasının fəxri doktoru
*1997, 5 may* – İzmirdəki "Doqquz Eylül" Universitetinin fəxri doktoru
*1997, 8 may* – İstanbuldakı "Fatih" Universitetinin fəxri doktoru
*1997,11 iyun* – Əl-Fərabi adına Qazax Milli Dövlət Universitetinin fəxri doktoru
*1997,19 iyun* – Daşkənd Dövlət Universitetinin fəxri doktoru
*1998, 24 mart* – İzmir şəhərindəki Egey Universitetinin fəxri doktoru
*1998, 1 may* – Ərzurum Universitetinin fəxri doktoru
*1999, 23 fevral* – İsgəndərin şəhərindəki Universitetin fəxri doktoru
*1999, 28 noyabr* –İsparta Universitetinin fəxri doktoru
*2000,11 fevral* – Bakı Dövlət Universitetinin fəxri doktoru
*2000, 31 may* – Osmanqazi Universitetinin fəxri doktoru
*2001,16 mart* – Ankara Universitetinin fəxri doktoru
*2002,10 yanvar* –Bursa şəhərindəki Uludağ Universitetinin fəxri doktoru
*2002, 25 yanvar* –Moskva Dövlət Universitetinin fəxri professoru
*2002,11 may* – Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki
*2002, 28 iyun* – Qars şəhərindəki Qafqaz Universitetinin fəxri doktoru
*2002, 8 iyul* – Beynəlxalq Üzümçülük və Şərabçılıq Akademiyasının fəxri üzvü
*2002, 24 sentyabr* – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktoru
*2003, 12 mart* – Kırıkqala Universitetinin fəxri doktoru
*2003, 24 mart* – Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü

*2003,12 aprel –* Linkoln Universitetinin fəxri doktoru
*2003, 27 iyun –* Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru

**Heydər Əliyevin layiq görüldüyü digər *fəxri adlar və mükafatlar*:**

*1997, 25 mart –* Kiyev şəhərinin fəxri qonağı
*1997, 6 may –* Türkiyə-Azərbaycan Dostluğu Vəqfinin fəxri sədri
*1997, 2 avqust –* Texas ştatının fəxri vətəndaşı
*1997, 3 avqust –* Hyüston-Bakı Assosiasiyasının fəxri üzvü
*1997, 4 avqust –* Amerika–Avrasiya Sənaye-Ticarət Palatasının "1997-ci ilin adamı" mükafatı
*1997, 2 noyabr –* Milli Olimpiya Komitələri Assosiasiyasının "Ləyaqət" mükafatı
*1997, 28 noyabr –* Ankara İş Qadınları Dərnəyinin "1997-ci ilin görkəmli dövlət adamı" mükafatı
*1998, 27 yanvar –* Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin "Türk dünyasına xidmət" mükafatı
*1998, 10 fevral –* Kırpınar yağlı güləş yarışlarının "Baş Ağası"
*1998, 13 fevral –* Türkiyənin "Nərgiz TV" kanalının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı
*1998, 14 fevral –* Qars şəhər bələdiyyəsinin "1997-ci ilin insan haqları" mükafatı
*1998, 14 fevral –* Türk Sənayeçi və İş Adamları Vəqfinin "İlin dövlət adamı" mükafatı
*1998, 4 may –* Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü
*1998, 13 may –* Rusiyanın Saratov vilayətindəki "Yurd" Cəmiyyətinin fəxri üzvü
*1998, 23 may –* Türkiyə Qəzetəçilər və Yazarlar Vəqfinin "Beynəlxalq türk dünyası qohum millətlərin yaxınlaşması mükafatı"
*1998, 5 sentyabr –* Türkiyənin Bayqurd diyarının "Dədə Qorqud" mükafatı
*1998,5sentyabr –* Türkiyənin İzmir şəhərinin Qarşıyaka bələdiyyəsinin "İnsan haqları" mükafatı
*1998, 5 sentyabr –*Türkiyənin İpək Yolu Vəqfinin "İpək Yolu Xidmət Mükafatı və vəqfin fəxri üzvü

*1998, 12 noyabr* –Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin fəxri sədri
*1998, 27 noyabr* –Ankara İş Qadınları Dərnəyinin "1998-ci ilin dövlət adamı" mükafatı
*1998, noyabr* – Türkiyənin "Siyasət" jurnalının "İlin şərəf mükafatı
*1999, 19 yanvar* –Beynəlxalq Bioqrafiya Mərkəzinin "Dünyanın XX əsrdə görkəmli xadimi" mükafatı
*1999, 6 fevral* – Türk Sənayeçi və İş Adamları Vəqfinin "İlin dövlət adamı" mükafatı
*1999, fevral*– Türkiyənin İpək Yolu Vəqfinin 1998-ci il "Böyük lider" mükafatı və vəqfin fəxri sədri
*1999, 7 iyul* – Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin "Günümüzün ən dözümlü adamı" mükafatı
*1999, 7 iyul* – Azərbaycan Respublikası Əsilzadələr Məclisinin 1 nömrəli şəhadətnaməsi
*1999, 1 noyabr* – Atatürk Beynəlxalq Sülh Mükafatı
*2000, mart* – Türkiyənin İpək Yolu Vəqfinin " 1999-cu ilin dövlət adamı" mükafatı
*2000, 13 iyun* – Türkiyə Qəzetəçilər və Yazarlar Vəqfinin "Türk dünyası qardaşlıq və dostluq mükafatı"
*2000,17 iyun* – İ. Y. Yakovlev adına Ümumçuvaşiya Milli Mükafatı
*2000,18 dekabr* – Rusiya Kinematoqrafiya Sənəti Akademiyasının "Nika" mükafatı
*2001, avqust* – Türkiyənin İpək Yolu Vəqfinin "2001-ci ilin dövlət adamı" mükafatı
*2001,16 sentyabr* – Ankara İş Qadınları Dərnəyinin "2001-ci ilin müdrik dövlət adamı" mükafatı
*2001, 22 oktyabr* – Beynəlxalq Həvəskar Boks Assosiasiyasının fəxri mükafatı
*2002, 22 mart* – "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı
*2002, 9 iyun* – "Rusiyanın Milli Şöhrəti Mərkəzi"nin "Sivilizasiyaların dialoqu" beynəlxalq Andrey Pervozvannı mükafatı
*2002, 27 iyun* – Ankara İş Qadınları Dərnəyinin "2002-ci ilin dövlət adamı" mükafatı

*2002, 27 iyun –* Türk Sənayeçi və İş Adamları Vəqfinin "Üstün xidmət və başarı mükafatı"
*2002, 27 iyun –* Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin "Türk dünyasının 2001-ci il xüsusi mükafatı"
*2002, 2 avqust –* Avrasiya teleforumunun mükafatı və diplomu
*2002, 23 avqust –* Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin 2002- ci ilin "Baş müəllim Atatürk" mükafatı
*2002, 10 sentyabr –*Türk Sənayeçi və İş Adamları Vəqfinin fəxri sədri
*2002, 15 oktyabr –* Türkiyənin "Samanyolu" televiziya kanalının "Medianın dostu" mükafatı
*2003, 11 yanvar –* ANS Şirkətlər Qrupunun və Çingiz Mustafayev adına Fondun "2002-ci ilin adamı" mükafatı
*2003, 17 mart –* Türkiyənin "Siyasət" jurnalının "İlin dövlət adamı mükafatı"
*2003, 29 mart –* Türkiyənin İpək Yolu Vəqfinin "2002-ci ilin siyasət adamı" mükafatı
*2003, 1 may –* Məmməd Araz mükafatı
*2003, 2 may –* Türkiyənin "Zaman" qəzetinin "Avrasiyada sülh və dialoq" beynəlxalq mükafatı
*2004, 29 yanvar –* ANS Şirkətlər Qrupunun və Çingiz Mustafayev adına Fondun 2003- cü ilin adamı" mükafatı

***

Ümummilli lider Heydər Əliyev *dünyasını dəyişəndə* görkəmli siyasi-ictimai xadimlər fəxri qaravulda dayanıblar, şəninə xatirə əklilləri qoyublar, fəxri kitaba qiymətli xatirə yazıları yazıblar, siyasi varisi İlham Əliyevə başsağlığı veriblər. Bəzi görüntülər:

*Rusiyanın ORT, RTR, NTV, TVS telekanalları* xəbərlər proqramında hamı üçün hüznlü hadisə barədə məlumat verib və Rusiya Prezidenti Vladimir Putinin başsağlığı teleqramını oxuyub.

Rusiyanın teleşirkətlərinin şərhçiləri vurğulayıblar ki, Heydər Əliyevin vəfatı ilə *bütöv bir dövr –böyük işlər və xariqələr dövrü də tarixə qovuşub.* Bildiriblər ki, Azərbaycanın ən yeni tarixinin əsas taleyüklü hadisələri ölkənin sabitliyi və tərəqqisi mərhum prezident Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev görkəmli dövlət xadimi, bütün dünyanın adlı-sanlı siyasətçiləri arasında danılmaz nüfuzu olmuş *beynəlxalq səviyyəli siyasətçi* adlandı-

rılıb. Onun *Moskvada ali dövlət hakimiyyəti orqanlarında fəaliyyəti* xüsusi nəzərə çarpdırılıb.

Rusiya internet-qəzetləri və saytları da Azərbaycanın Ümumilli liderinin vəfatını geniş yad edib...[291]

*Ukraynanın elektron mətbuat, radio və televiziyası* dünya miqyaslı siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyəti haqqında oxuculara, dinləyicilərə geniş informasiya yayıb.

Dekabr 13-də *Belarus Respublikasının televiziya və radiosunun* bütün informasiya buraxılışları görkəmli siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin vəfatı barədə xəbər yayıb. Prezident Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevə və ailəsinə, bütün Azərbaycan xalqına başsağlığı verib.

*Gürcüstan Prezidentini icra edən Nino Burcanadze Rustavi-2 telekanalının* canlı yayınında bildirib: "Heydər Əliyev Gürcüstanın və gürcü xalqının sabiq və qayğıkeş dostu idi. Xalqımızın Heydər Əliyevin vəfatından kədərlənməsi təbiidir. Çünki biz gürcülər, eləcə də Gürcüstanda yaşayan başqa xalqlar, bu insanın qayğı və diqqətini yaxından hiss edərdi. Gürcüstanın ən ağır günlərində o, öz həyanlığını, dəstəyini bizdən əsirgəmirdi"[292].

*Sabiq Prezident, siyasi xadim Eduard Şevardnadze* isə deyib: "İllərdən bəri bildiyim Heydər Əliyevin vəfatı məni sarsıtdı. İnanın, bu yaşda dost itirilməsi çox ağırdır. Amma nə etmək olar, görünür, Tanrının hökmü belə imiş"[293].

*İranın televiziya kanalları* KİV-də *Azərbaycan liderinin dünyasını* dəyişməsi barədə məlumat, həmçinin onun həyatı, siyasi fəaliyyəti, Azərbaycan-İran münasibətlərinin inkişafındakı mühüm rolu və digər xidmətlərinə dair xüsusi verilişlər yayınlayıb, məqalələr dərc edib[294].

13 dekabr *Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində* Heydər Əliyevin vəfatı ilə əlaqədar matəm mərasimi keçirilib. Aşqabadda yerləşən səfirliklərin və Beynəlxaql nümayəndəliklərin başçıları və əməkdaşları səfirliyə gələrək Heydər Əliyevin portreti qarşısına əklil qoyub, bu böyük insanın xatirəsini bir dəqiqəlik sükutla yad edib. Başsağlığı kitabına ürək sözləri yazıblar[295].

---

[291] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.62
[292] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.66-67
[293] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.67
[294] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.67
[295] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.68

Türkmənistan Prezidenti Saparmurat Niyazov matəm kitabına ürək sözlərini yazıb, mərhumun dünya miqyaslı siyasətçi və əvəzedilməz insan kimi xatirəsinə həkk olunduğunu bildirib.

Türkmənistan Məclisinin sədri Övəzgəldi Atayev, xarici işlər naziri Rəşid Meredov, mətbuat və informasiya naziri Gözəl Nurəliyeva, Nazirlər kabineti sədrinin müavini Yelli Qurbanmuradov, Aşqabad şəhərinin meri Amangəldi Rəcəbov və başqa rəsmi şəxslər başsağlığı verib[296].

*Türkiyə Respublikasının sabiq prezidenti Əhməd Necdət Sezər* hüznlə bildirib: "Azərbaycanın *beynəlxalq aləmdə nüfuzunun artırmasına*, ölkələrimiz arasındakı *dostluq və qardaşlıq əlaqələrinin inkişaf edərək möhkəmləndirilməsinə* böyük töhfə vermiş Heydər Əliyevin dünyasını dəyişməsi Azərbaycanda olduğu kimi Türk ulusunda da dərin kədər yaratmışdır.

*Uzaqgörən və istedadlı idarəçiliyi* sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünki nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhünün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir"[297].

*Türkiyənin Almaniyadakı səfiri Mehmet Əli İrtemçelik* xatirə kitabına bu sözləri yazıb: "Azərbaycan xalqının dəyərli, seçkin, mümtaz övladı, böyük dövlət xadimi Heydər Əliyevin vəfatı bütün türk dünyası üçün böyük itkidir. Türkiyə dövləti və xalqı qardaş Azərbaycanın kədərinə şərikdir. Əziz, qəhrəman Heydər Əliyev adı türk dünyasında əbədi olaraq xatırlanacaq, onun adı və əməlləri hər zaman uca tutulacaqdır"[298].

Azərbaycan milli mədəni və təbii irsinin qorunub saxlanılması sahəsində həyata keçirdikləri layihələri Prezident Heydər Əliyevlə dəfələrlə Bakıda görüşüb müzakirə edən Azərbaycan milli Parklar Proqramına beynəlxalq dəstək fondunun təşəbbüsçüsü Zuqqov Fondunun üzvləri *Matəm kitabına* yazıblar: Azərbaycan Respublikasının dahi rəhbəri, müdrik dövlət başçısı

---

[296] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.69
[297] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.48
[298] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.69

Heydər Əliyevin vəfatı bizi sarsıtmışdır. O, Almaniya təbiəti mühafizə fondunun Azərbaycanda həyata keçirdiyi milli parklar proqramının ölkəsinin nadir, füsunkar təbiətinin mühafizəsi sahəsində həyata keçirilən işlərin ilhamçısı və əzmkar siyasi dəstəkçisi idi. Onun ailəsinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk”[299].

*Alman professoru Yeva-Mariya Anx* deyib: “Nəcib insan, görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı xəbəri məni sarsıtmışdır. Heydər Əliyev Azərbaycanın dirçəlişi, müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq aləmə nüfuzunun artmasına, o cümlədən ikitərəfli Almaniya – Azərbaycan münasibətlərinin inkişafı sahəsində tarixi rolu danılmazdır”[300].

“Fransanın Paris, Strasburq, Qrenobl və digər şəhərlərində yaşayan azərbaycanlılar və burada təhsil alan azərbaycanlı tələbələr istirahət günü olmasına baxmayaraq, səfirliyə aramsız zənglər edir, bütün türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı verir, ürək sözlərini bildirirdilər”[301].

Prezident Heydər Əliyevin vəfatı *Fransanın kütləvi informasiya vasitələrinin* də diqqət mərkəzində olub. Nüfuzlu mətbu orqanların səhifələrində və televiziya kanallarında Azərbaycanla Fransa arasında tərəfli əlaqələrin təməlini qoymuş və onun inkişafında böyük xidmətləri olmuş Heydər Əliyevin vəfatı ilə əlaqədar xəbərlər dərc edilirdi”[302].

*Avstriyanın Sidney şəhərindəki “Azərbaycanlılar Cəmiyyəti və Azərbaycanın səsi”* radiosundan daxil olmuş məktubda deyilirdi: “Böyük düha olan Heydər bəy Əliyev həyatını Azərbaycan xalqının əmin-amanlıq, firavanlığına, xoş günlər görməsinə, dünyada tanınmasına həsr etmiş *əvəzedilməz sərkərdə* və *müdrik rəhbər* idi.

Acımız böyükdür... Lakin təməlini Heydər Bəyin qoyduğu işlərin sizin kimi bir oğulun davam etdirəcəyinə ürəyimizdə qalan arzularımızı həyata keçirəcəyinə olan ümidimiz sonsuzdur. Bütün Azərbaycan xalqının başı sağ olsun”[303]!

*Azərbaycanın Səudiyyə Ərəbistandakı səfiri Elman Araslının* məlumatından da bir haşiyə: “Ölkənin Mərkəzi telekanalının xəbərlər proqramında və qəzetlərin 1-ci səhifəsində iki müqəddəs ocağın xadimi Kral Fəhd bin Əbdüləzizin, Vəliəhd, baş nazirin I müavini, Milli Qvardiyanın komandanı Abdulla bin Əbdüləzizin, baş nazirin II müavini, müdafiə və aviasiya naziri

[299] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.70
[300] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.70
[301] Yenə orada
[302] Böyük insan haqqında. Bakı, Azərnəşr, 2004, 296 s. s.71
[303] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.72

Sultan bin Əbdüləvəzin Azərbaycan prezidenti İlham Əliyevə göndərdiyi başsağlığı teleqramlarının mətni yayılmışdı: "Səudiyyə Ərəbistanın rəsmi, ictimai və işgüzar dairələrinin nümayəndələrindən səfirliyə daxil olan çoxsaylı məktubu və teleqramlarda deyilirdi ki, həyatını Azərbaycan xalqına həsr etmiş prezident Heydər Əliyev müasir dünyanın ən görkəmli şəxsiyyətlərindən biri kimi dərin hörmət qazanmışdır"[304].

Hüznlü günlərdə səfirliyə *İslam Konfransı Təşkilatı Baş katibliyindən, İslam İnkişaf Fondundan, Səudiyyə İnkişaf Fondundan və s. beynəlxalq və regional təşkilatlardan*, o cümlədən *Səudiyyə Ərəbistanında* çalışan azərbaycanlı mütəxəssislərdən məktub və teleqramlar gəlib[305].

*Beləliklə,* Heydər Əliyev görkəmli dövlət xadimi, bütün dünyanın adlı-sanlı başçıları sırasında layiqli yer tutmuş nüfuzu elit şəxsiyyət, beynəlxalq səviyyəli siyasətçidir.

[304] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.72
[305] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.72

# İKİNCİ FƏSİL

# AZƏRBAYCANDA QOVUŞAN ŞƏRQ VƏ QƏRB SİVİLİASIYALARI

***Yol - iqtisadiyyat, mədəniyyət,***
***bir sözlə, həyat deməkdir.***

**Heydər Əliyev**

## ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARI SİYASƏT VƏ DİPLOMATİYADA

***"Mədəniyyətdə, sivilizasiyada Qərb və Şərq bölgüsü simvolikdir. Eyni mövqedən qiymətləndirmə olmalıdır".***

**Heydər Əliyev**

Fəlsəfə elmləri doktoru, professor Rahid Uluselin Azərbaycanda Atatürk Mərkəzinin təşkilatçılığı ilə hazırladığı *"Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək"* adlı iri həcmli kitabının[306] (elmi redaktoru akademik Nizami Cəfərov, redaktoru Savalan Süleymanlı) *annotasiyasında* deyilir:

"Kitab dünyanın siyasi inkişaf məntiqində Heydər Əliyev fenomeninin necə dərk olunması, bu kontekstdə Azərbaycan –dünya münasibətlərinin necə qurulması, ölkələrin siyasət və mədəniyyət sahəsində qlobal əməkdaşlıq sferalarına daxil olması, Ümumilli liderin böyük irsinin Azərbaycan humanitariyasına necə təməl təşkil etməsi məsələsinə həsr olunub".

Müəllif *Rahid Ulusel* əsərin ön sözündə *sivilizasiyaların mənəviyyat təməli, orqanikası və sintezi* fəlsəfəsini aydınlaşdırıb: "Heydər Əliyev dünyanın siyasi prosesləri ilə sivilizasiya proseslərinin, mədəniyyət hadisələrinin ayrılmazlığı üzərində düşünərkən ümumbəşəri inkişafın ən yüksək mərhələsi və nəticəsi kimi təbii ki, *sivilizasiyaların orqanikası* preoritetini də diqqət mərkəzində saxlamışdır. Çünki sivilizasiyalararası münasibətlərin onların hər birinin faydalandırma istiqamətində inkişaf etməsi qlobal siyasi münasibətlərin də tərəqqisinə bilavasitə təsir edərək, onların "mənəviyyat" təməlini yaradır. Buna görə də müasir dövrdə humanist qlobal siyasətdə sivilizasiya-

[306] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.

lar arasında *sintez məqamının* tapılması və buna tarixdən örnəklər gətiriləərək prosesin gücləndirilməsi onun strategiyasının başlıca istiqamətidir"[307].

Sivilizasiyada *orqanika* haqqında:

R.Ulusel *sivilizasiyada orqanikanı (qanunauyğunluqların toplusu)* təmin edən amillərə toxunub: "Milli mədəniyyətlərin və onların daxil olduğu sivilizasiyaların inkişafına şərt olan bu *qanunauyğunluqların toplusu* onların orqanikasını yaradır. Bu orqanikada *identiklik (özgürlük)* və *universallaşma* keyfiyyətləri əgər yaradıcı sistemi formalaşdırırsa – bir-birini tamamlayır"[308].

*Qlobal sivilizasiya* haqqında:

Müəllifə görə, "dayanıqlı təkamülün davam etdirilməsi strategiyası *qlobal svilizasiyanın* əsas paradiqmasına söykənir". Alim *Qlobal sivilizasiyanın mahiyyətini* göstərib: "*Qlobal sivilizasiya* – fərqli lokal sivilizasiyaların vəhdətindən, onların ümumi planlar konsensusundan yaranır: qlobal svilizasiya məkanda fərqli lokal sivilizasiyalar mövcudluğunu tükəndirmir, əksinə, qarşılıqlı münasibətlərin intensivləşdiyi şəraitdə həm özləri inkişaf edir, həm də həmin qarşılıqlı münasibətlərin nəticəsi olaraq *dünyanın universal dəyərlərinin* formalaşmasında və tərəqqisində fəal iştirak edirlər; "*universal dəyərlərlə milli dəyər* və özəlliklər arasında anlamlı bir uyum və tarazlıq qurulur" – bir sivilizasiya, mədəniyyət subyektinin özü də olmayanı o birindən əxz edir, mübadilə münasibətlərinin müvazinətyaradıcı xüsusiyyətləri ilə qarşılıqlı faydalanma üçün unikal şərait yaradır; özünəməxsus spesifik keyfiyyətin kompleksini saxlamaq və tərəqqi etdirməklə fərqli lokal sivilizasiyaların identikliyindən universallığa doğru inkişafı təmin edir; *harmoniya fəlsəfəsinin* əsas prinsipinə – muxtariyyət vəhdəti prinsipinə görə mədəniyyət və sivilizasiyaların fundamental mənası, deməli, həm onların *identikliyində*, həm də *qarşılıqlı münasibətlərində* açılır; identiklik və universallıq keyfiyyətinə malik olması hər bir müasir lokal sivilizasiyanın ən mütərəqqi xüsusiyyəti kimi özünü göstərir, milliliyin və ümumbəşəriliyin harmoniyası hər bir mədəniyyətin özgürlük, yaşarılıq və tərəqqi şərti olur; hər hansı bir mədəniyyət və sivilizasiyalarda ən milli olan eyni zamanda ən ümumiləşdirici olandır; biosferdə oksigen dövranı canlı həyatın başlıca şərtidirsə, neosterdə də *diasinxron dəyər sirkulyasiyası* planetin mənəvi həyatında eləcə önəm daşıyır; qarşılıqlı faydalı simbioz -qarşılıqlı faydalı mövcudluğun

[307] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 241

[308] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 242

formasıdır ki, burada genotipiklik başlanğıclarının qorunması, özünəməxsusluğu mahiyyət və formada ahəngdar şəkildə saxlanılması hər hansı bir subyektin – o cümlədən identik mədəniyyət və sivilizasiyanın həyat prinsipidir; biosfer-sosiosfer-texnosfer səviyyələrində qlobal sivilizasiya özünə sistem və sistemaltılarını müxtəlifliyin vəhdəti prisnipi ilə qurmaq zərurətini daşıyır; universal dəyərlər kompleksi ümumi ünsiyyət vasitəsi olan *"metadil"* yaradır – "xalqların məhsuldar ünsiyyəti və bu dünyanın özünün möhkəmliyinin şərti-*metasivilizasiya* və *metamədəniyyətin*, hamıya anlaşıqlı olan və hamı tərəfindən qəbul edilən bu "metadillərin mövcudluğudur, tamamilə unudulmadan və milli, regional sivilizasiya və mədəniyyətləri sıxışdırmadan, onları tamamilə əvəz etmədən, metadillər sanki özünəməxsus sivilizasyon mədəni ümuməvəzedici qismində çıxış edərək onların üzərində qurulur", fərqli *lokal sivilizasiyalar ən dinamik, universal, ümumbəşəri mahiyyət kəsb edən komponentləri ilə təbii-harmonik sintezləşmə* məqamlarını tapır; universal dəyərlər qlobal sivilizasiyanın komponentləşdirici, konsentrasiyayaradıcı amili kimi formalaşmaqla bu vahid planetar sistemin substrafundamentini təşkil edir; planetar sistemin diasinxron-sinergiyalı özünütəşkili *milli mədəniyyət, lokal (regional) sivilizasiya – qlobal sivilizasiyanın* getdikcə böyümə, genişlənmə, dərinləşmə və mürəkkəbləşmə istiqamətində qurulan *subortinativ ierarxiyası* şəklində gerçəkləşir, milli mədəniyyət – lokal (regional) sivilizasiya – ümumdünya sivilizasiyasının tərkib hissəsi kimi çıxış edir; sinarxiya qanununa görə dünyanın qlobal-sivilizasion arxitekturanın əsasında məhz bu *pilləli inteqralizm ideyası* dayanır ki, *bu ideyanı bəşəriyyətin bütün tarixi ərsəyə gətirmişdir*; homouniversumun inteqral özünütəşkili qlobal sivilizasiya yaradıcılığının hamı tərəfindən qəbul edilən *dünya inkişafı layihəsi* kimi meydana gəlir; bu layihə əsasında quruluş tapan *dünyanın nüvəsi* ilə *periferiyalarının davamlı əlaqəsi* qırılmaz və təminatlıdır, çünki burada planetar sistemin bütün komponentləri qarşılıqlı asılılıq və fəaliyyətin proqramı ilə hərəkət edir və bu sistemin tarazlı inkişafının mütləq, bərabərhüquqlu subyekt-şərti olurlar"[309].

Filosof *Heydər Əliyevin siyasi baxışlarının konseptual əsaslarını* aydınlaşdırıb:

"Böyük mütəfəkkir Heydər Əliyev də siyasi baxışlarının ümumi konseptual nəticələrinə görə müasir dünya bütün başlıca parametrlərində *geopolitik münasibətlərlə sivilizasiyalararası münasibətlərin mürəkkəb konvergensiyası* kimi özünü təqdim edir. Lokal sivilizasiyaların qlobal sivilizasiya tər-

---

[309] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 243-244

kibində quruluşlanması bu konvergensiya amilini də nəzərə almaqla dünya sisteminin formalaşması üslubu olur”[310].

R. Ulusel *universallaşmanın əyaniləşməsində* tipik faktları xatırladıb: “*İdentikliyi* və *universallığı* harmoniya təşkil edən milli mədəniyyətlər müəyyən bir lokal (regional) sivilizasiya məkanında məhz ayrıcalıq, fərqlilik, özünəməxsusluq atritubları ilə *universallaşma, universal dəyəryaratma potensialına* malik olduqlarını bu gün də təsdiqləyirlər. Məsələn, dini orientasiyasına görə İslam sivilizasiyası məkanına daxil edilən ərəb ölkələri, İran, Pakistan, Türkiyə, Azərbaycan, İndoneziya, Şimali Qafqaz, Albaniya, Bosniya və s.-də İslam din, ideologiya, mədəniyyət və s. aspektlərə görə xeyli dərəcədə fərqlidir”[311].

Alim *Türk sivilizasiyasının tarixi önəmindən* danışıb: “Sivilizasiya hadisələrinə dinamik-sinarxik sistem kimi qlobalistik-sivilizoloji yanaşmada lokal (region) sivilizasiyalar sırasında böyük etnotarixi-etnosiyasi identikliyə və inkişaf potensialına, böyük mədəniyyət və dövlətçilik ənənələrinə malik olan *Türk sivilizasiyası* – Avrasiyanın seçkin və giqant bir sivilizasiya subyekti olaraq müəyyənlik tapır”. Əsasında *Mərkəzi Asiya, Ön Asiya və Qafqazdakı geosivilizasiya proseslərində strukturlaşan mütəşəkkil türk sivilizasiyası* – bütövlükdə planetin sivilizasiyalaşmasında mühüm rol oynamış, tarixən bir sıra lokal sivilizasiyaları bir- birinə bağlayan konservativ-kommunikativ məkan əhəmiyyəti daşımışdır”[312].

Azərbaycan *qlobal sivilizasiya məkanına unikal modelini* verir: “Azərbaycanda İslam və Qərb mədəniyyətinin təsiri və mövcudluğu, demək olar ki, eyni səviyyədə, özü də bənzərsizlik sintezindədir. ABŞ, Azərbaycan, Yaponiya, Rusiya, Ukrayna, Qazaxıstan və bu kimi ölkələr dünyada böyük əksəriyyət təşkil edirlər ki, onlar *milli mədəniyyət, regional sivilizasiya xüsusiyyətlərini saxlamaqla, qlobal sivilizasia məkanında inkişaf etməyin unikal imkanlarına* malikdirlər. ABŞ, bir çox parametrlərinə görə Qərb svilizasiyası blokuna aid edilsə də, o hazırda ümumdünya sivilizasiya ölçüləri ilə strukturlaşan bir ölkə xarakterində müəyyənləşir. Çin, Yaponiya, Hindistan isə qlobal sivilizasiya məkanına öz klassik fundamenti və onun meyarları ilə daxil olur”[313].

---

[310] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, “İdeal-print”, 2010, 610 s.; s. 246

[311] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, “İdeal-print”, 2010, 610 s.; s. 247

[312] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, “İdeal-print”, 2010, 610 s.; s. 248

[313] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –Dünya münasibətləri:

*YUNESKO-nun Baş direktoru K.Matsuura* deyib: "Mən çox şadam ki, biz ümumi səylərlə Xəzər hövzəsi regionunda da *elmi proqramları* müvəffəqiyyətlə həyata keçirə bilirik. Əsrlər boyu yolayrıcında, mühüm kəsişmə ərazisində yerləşən bu *regionun sivilizasiyaları, dinləri, mədəniyyətləri* beynəlxalq dialoqun və anlaşmanın inkişaf etməsinə kömək göstərəcəkdir"[314].

2001-ci il BMT tərəfindən *sivilizasiyalar arasında dialoq ili* elan olunubdur.YUNESKO bu sahədə öz töhfələrini verib.

Dövlət xadimi Heydər Əliyev deyib: "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk düynasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır"[315]

*BMT Baş katibi Butros Butros-Qali* Heydər Əliyevə müraciətlə deyib: "Siz ölkəniz haqqında olan biliklərimi artırmaqda və onu daha dərindən dərk etməkdə mənə kömək göstərdiniz. Bura *böyük Qərb və Şərq adət-ənənələrinin qovuşduğu* bir regiondur. Çoxlu mürəkkəblikləri, xalqları və ənənələri özündə cəmləşdirən bu regiona tarixən heyran olmuşlar. Bura *tarixin özünün formalaşdığı bir region* olaraq qalır. XX əsrin hər bir böyük hadisəsi bu ərazidən keçərək cərəyan etmişdir, imperiyalar yaranmış və süqut etmişdir. İndi *"soyuq müharibə"* dövrü bitdikdən sonra Azərbaycan yenidən coğrafi-siyasi dəyişikliklərin küləklərinə sinə gərməli olmuşdur. Siz *yenidən öz dövlətçiliyinizi əldə etmisiniz*. Lakin *suverenliyinizi* və *müstəqilliyinizi daha da təkmilləşdirmək uğrunda mübarizə* aparırsınız".[316]

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev:* "Görkəmli *siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan* həyatdan getdi.

Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür"[317],– deyə Heydər Əliyevin sivil zəkasına, biliyinə və şəxsiyyətinə daim hörmətlə yanaşıb.

*Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayev: "Qırğızıstanda* Heydər Əlirza oğlunun müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına

---

siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 249

[314] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.216

[315] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 354

[316] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. Bakı, 2000, 342 s.; s.95

[317] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.

misilsiz töhfə vermiş görkəmli *dövlət xadimi*, *dünya miqyaslı siyasətçi* kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirzaoğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

Heydər Əlirzaoğlu bizim xatirimizdə bütün ömrünü öz vətəninə xidmətə həsr etmiş görkəmli siyasətçi kimi, Azərbaycan xalqının sədaqətli oğlu kimi qalacaqdır”[318],– deyə onu ehtiramla yad edib.

*Bolqarıstan Respublikasının Prezidenti Georgi Privanov* Heydər Əliyevi görkəmli siyasətçi və dövlət xadimi kimi xatırlayıb: “Hörmətli *siyasətçi və dövlət xadimi* kimi Heydər Əliyev adı və nüfuzu Azərbaycanın və Bolqarıstanın beynəlxalq aləmdə birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır.

Biz müasir beynəlxalq gerçəklik şəraitində *Bolqarıstan–Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə* Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk”.

*Kalmıkiya Respublikasının Prezidenti, FİDE-nin prezidenti Kirsan İlyumjinov Ulu öndəri belə* səciyyələndirib. “Bütün postsovet məkanında müasir s*iyasətçilərin* bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimizlə bağlı xatirələri qəlbimdə həmişə saxlayacağam”[319].

*Çin Xalq Respublikasının sədri Xu Szintao* Heydər Əliyevdən razılıq ifadə edərək bildirib ki, beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev *Çin –Azərbaycan dostluq münasibətlərinin inkişafında* böyük rol oynayıb.

*Britaniya kraliçası II Elizabet* İlham Əliyevə müraciətlə etiraflar edib ki, Heydər Əliyev Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram”[320].

---

[318] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[319] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[320] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.

*İran islam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi* iki ölkə arasında normal münasibətləri nəzərə alaraq deyib: "Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirimdən silinməyəcəkdir. Onun keçən il İİR-na çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur"[321].

*Tacikistanın prezidenti Emomeli Rəhmanov* ölkə başçımızın Prezident kimi hörmət və nüfuzunu xüsusi vurğulayıb: "Heydər Əliyev adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh, axtarış, Heydər Əlirzaoğluna *bütün dünyada yüksək nüfuz və səmimi hörmət* qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır"[322].

*Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov* belə yazıb: "Azərbaycan müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir"[323].

*Litva Respublikasının prezidenti Rolandas Paksas* da Ulu rəhbər haqqında yüksək fikirdə olub: "Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurulmasına və Azərbaycanın beynəlxalq aləmdə oynadığı rolun möhkəmlənməsinə mühüm töhfə vermişdir. Şübhə etmirəm ki, Heydər Əliyevin demokratik *Qərb dövlətləri ilə sıx əlaqələr qurmaq siyasəti* uğurla həyata keçiriləcəkdir"[324].

*Moldova Respublikasının Prezidenti Vladimir Voronin* siyasi xadimin Avropada və bütün dünyada nüfuzu barədə deyib: "Heydər Əliyev bütün həyatını doğma xalqına, öz ana Vətəninə fədakarcasına xidmətə həsr etmişdir.

Moldova Respublikasında Heydər Əliyev həmişə böyük *vətənpərvər* kimi, *ölkələrimiz arasında dostluq münasibətlərinin* möhkəmləndirilməsi uğrunda, *Avropada* və *bütün dünyada demokratiya idealları* uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər"[325].

---

[321] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[322] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[323] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[324] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[325] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.

*Koreya XDR Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri Kim Yen Namo* deyib: "Heydər Əliyev ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında xidmətlərini yaddan çıxarmırıq və bu münasibətlərin gələcəkdə də inkişaf edəcəyinə ümid bəsləyirik"[326].

*Avropa Şurası Parlament Assosiyasının sədri Piter Şider* bildirib: "Heydər Əliyevin əfsanəvi yorulmaz iş qabiliyyəti var idi, amma təəssüf ki, həyatdan getdi. O, Azərbaycanın müstəqilliyini qüvvətləndirən və ölkənin Avropa ilə xüsusən Avropa Şurası ilə əlaqələrini möhkəmləndirən şəxs kimi həm də yadda qalacaqdır"[327].

*Bolqarıstan Sosialist Partiyası Ali Şurasının sədri Sergey Staniçev* vida kitabına bu sözləri yazıb: "Heydər Əliyev bizim yoldaşımızda Azərbaycan xalqının ləyaqətli bütün həyatını ölkəsinin inkişafına və çiçəklənməsinə həsr etmiş oğlu kimi qalacaqdır. Son 10 ildə Azərbaycandakı demokratik dəyişikliklər məhz onun adı ilə bağlıdır və o haqqlı olaraq müasir Azərbaycanın memarı hesab edilir.

Heydər Əliyev öz ölkəsinin hüdudlarından kənarda beynəlxalq aləmdə də böyük nüfuz və hörmət sahibi olan parlaq siyasətçi kimi tanınmışdır. Biz Bolqarıstan xalqının böyük dostunun həyatdan getməsinə səmimi qəlbdən kədərlənirik"[328].

*Dağıstan hökumətinin sədri Xizri Şıxsəidov* milli kədərini belə ifadə edib: "Görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin banisi, beynəlxalq aləmdə tanınmış lider və siyasətçi Heydər Əliyevin vəfatı təkcə Azərbaycan və Qafqaz üçün deyil, bütün dünya birliyi üçün əvəzsiz itkidir. Öz həyatı və misilsiz çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın bugünki və gələcək tərəqqisinə yol açan Heydər Əliyevin nurlu siması və adı qədirbilən nəsillərin xatirəsində həmişəlik qalacaq və tarixdə ən fəxri yer tutacaqdır. Öz qonşuları azərbaycanlıların bütün dərd-qəmini həmişə ürəkağrısı ilə qarşılayan dağıstanlılar bu ağır itkinin kədərinə şərikdirlər"[329].

*Ukrayna alimi, fəlsəfə elmləri doktoru, professor Valeri Rebkalo* Heydər Əliyevi *dünyamiqyaslı siyasətçi* kimi səciyyələndirib: "Heydər Əliyev həqiqətən dünyamiqyaslı siyasətçi idi. Onun həm *Qərb ölkələrində*, həm də bütün *İslam dünyasında* böyük siyasi nüfuzu vardı. Müdrik, uzaqgörən, qətiyyətli və mətin iradə sahibi olan Heydər Əliyev eyni zamanda demokratik, xoşrəftar, ünsiyyətcil bir insan idi. O, Azərbaycan və Ukrayna xalqlarının

---

[326] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[327] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[328] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[329] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.95

dostluğunun inkişafına və möhkəmlənməsinə böyük töhfə vermişdir. Bu əvəzsiz itki Ukrayna xalqını da kədərləndirir”[330].

*Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti və İcra aparatının rəhbəri Natiq Ağamirov* Heydər Əliyevi *Dünya Azərbaycanlılarının lideri və ağsaqqalı* kimi qiymətləndirib: ”Heydər Əliyev fenomenal şəxsiyyət idi. Heydər Əliyev sözün həqiqi mənasında uzaqgörən insan və rəhbər idi. Biz siravi insanlar onun 10 il əvvəl gördüyünü indi görə bilirik. Dünya miqyaslı şəxsiyyətlər arasında Heydər Əliyevin öz yeri var. Həm də Ümummilli liderimizi kiminləsə müqayisə etmək mümkün deyil. O, hamının nümunə götürə biləcəyi insan və şəxsiyyət idi... Onun *iti zəkası, dərin intellekti, geniş dünyagörüşü* həyrət doğururdu...

Heydər Əliyevin bütün varlığı ilə bağlı olduğu doğma xalqı qarşısında xidmətlərinin əsl dəyərini müəyyənləşdirmək çox çətindir. O, millətin və dövlətin dar günündə – Azərbaycanın xaosa, vətəndaş müharibəsinə sürükləndiyi bir məqamda siyasət meydanına qayıtmalı, xilaskarlıq missiyasını öz üzərinə götürməli oldu. Məhz Heydər Əliyev siyasi rəşadəti, dönməz iradəsi sayəsində Azərbaycan dərin ümummilli böhrandan çıxıb sabit inkişaf və yüksəliş yoluna qədəm qoydu.

Heydər Əliyev təkcə Azərbaycan xalqının yox, *bütün dünya azərbaycanlılarının lideri və ağsaqqalı* idi. O, vətənin üzləşdiyi problemləri həll etməklə kifayətlənmir, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın qayğılarını diqqət məkrəzində saxlayırdı. Məhz Heydər Əliyevin sayəsində dünya azərbaycanlılarının həmrəyliyinin təmin edilməsi dövlət siyasəti səviyyəsinə qaldırıldı. Həyata keçirirdi. Məhz onun xeyir-duası və dəstəyi ilə Rusiyada yaşayan soydaşlarımızı öz sırasında birləşdirən *diaspor təşkilatı* və ümumrusiya Azərbaycan Konqresi yaradıldı və fəaliyyətə başladı. Azərbaycanın qürbətdəki övladlarının bir araya gəlməsi ana yurdun tərəqqisi naminə qüvvələrinin birləşdirilməsi işində Heydər Əliyevin misilsiz xidmətləri oldu.

*Müdrik insan* və *bacarıqlı dövlət adamı* kimi Heydər Əliyev bütün dünyada ilk növbədə keçmiş sovet məkanında böyük nüfuz sahibi idi. Onun, xüsusilə, Rusiyada necə sevildiyini həmişə qürur hissi ilə müşahidə etmişik...

...Heydər Əliyevin ölməz ideyaları ətrafında sıx birləşən bu ideyaları həyat reallığına çevirmək üçün əlimizdən gələni əsirgəməmişik. Xoşbəxtlikdən, Heydər Əliyev siyasi məktəbinin prezidenti İlham Əliyev kimi layiqli

---

[330] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.96

davamçısı var. Gəlin hamımız cənab İlham Əliyevin yardımçısı olaq, vətənin çiçəklənməsi naminə ona dayaq olaq"[331].

Akademik İsmayıl Hacıyev "*Dünya miqyaslı siyasətçi*"[332] adlı elmi-publisistik məqaləsində Heydər Əliyevin *siyasətçi kimi psixoloji-mənəvi keyfiyyətlərini* obrazlaşdırıb. Müəllif Ulu öndəri dünyanın nadir, unikal, seçilən, təhlillər aparmağı bacaran siyasət adamı kimi təcəssüm etdirib, fərdiləşdirib: "Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diqtə edən nadir şəxsiyyətlərdən biri idi"[333]. Akademik səciyyələndirib ki, "H.Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi"[334].

Bu siyasi publisistika nümunəsində ulu rəhbər Heydər Əliyevin psixoloji obrazına baxış təbii fərdi yanaşma, əhatəli qiymətləndirmə meyarları kimi diqqəti daha artıq cəlb edir: "*Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısında qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və s. cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi*"[335].

İsmayıl Hacıyev mahir siyasətçinin *nadir şəxsiyyət* kimi fərqində olub: "Hətta *dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşmələrini*, *ondan öyrəndiklərini* dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "*Liderlərin lideri*" adlandırırdılar"[336].

Akademik sual edib: onun siyasətinin gücü nədə idi? Cavab olaraq mənəvi-əxlaqi-psixoloji amilləri göstərib: *siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi*

---

[331] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.99
[332] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4
[333] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.218
[334] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.218
[335] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.219
[336] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.219

*iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbrliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında* – bir sözlə, *fenomenal şəxsi keyfiyyətlərində* idi”[337].

Heydər Əliyev siyasət aləminin çox güclü, səriştəli, təcrübəli və müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, *Qərbə inteqrasiya yolunu* tutdu”[338].

Görkəmli siyasətçinin *Qərbə inteqrasiyası* səbəblərinin nəticələri: yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin iradəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi”[339].

Heydər Əliyev siyasətinin gücü, qalib qüdrəti haqqında akademik İsmayıl Hacıyevin bu fikirləri də xarakterikdir: Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda *ən tanınmış siyasətçiləri belə təəccübləndirir* və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Alim ümumxalq sevgisini, Ulu öndərin keyfiyyətlərini də bu qənaətlərdə görüb: Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevir. Təsadüfi deyil ki, akademik İsmayıl Hacıyev Heydər Əliyevin beynəlxalq aləmdə özünütəsdiqinin faktı kimi bunları yazıb: siyasətçilərin beynəlxalq reytinqinin müəyyənləşdirilməsində keçirilmiş beynəlxalq sorğuda, siyasi institut araşdırmaları və sosioloji mərkəzin araşdırmalarında Heydər Əliyevin adı birincilər sırasında deyilib (*Braziliya. “Planetin səsi” qəzeti.* 9 dövlətin jurnalistlərinin: *“Dünyanın hansı super siyasətçisinin adını çəkə bilərsiniz” sorğusu və altı dövlətin jurnalistlərinin birinci olaraq Heydər Əliyevin adını çəkməsi və s.).*

---

337 Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.220
338 Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.220
339 Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.220

*Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir*, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun *dünyada apardığı sülh siyasətinə* verilən qiymət idi.

Alimin bir seçilən məntiqi də Heydər Əliyevin *siyasi-kulturoloji baxışlarını qlobal-başəri səviyyədə xarakterizə* etməsi, dəyərləndirməsidir. Yazıb ki, Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar: onun yer üzərinə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcınıngörkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyata və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir[340].

*Siyasi-mənəvi irs və varisliyi dialektik əsasda ümumiləşdirən* akademik İsmayıl Hacıyev sosial-siyasi və mədəni estafetin cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinə də xüsusi yer ayırıb və bildirib: “Bu siyasətin icraçısı Ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir”[341].

***

6 cilddə ***“Heydər Əliyev və Şərq”*** adlı V kitab[342] (tərtibçiləri XİN-in müşaviri, f.e.d.Qaley Allahverdiyev, XİN-in müşaviri Vəhdət Sultanzadə, məsləhətçi-rəyçisi Azərbaycan Respublikası Prezidenti Aparatının sabiq şöbə müdiri, Fövqəladə və Səlahiyyətli səfir Novruz Məmmədov, redaktoru Milli Məclisin deputatı, f.e.n.,dosent Mübariz Qurbanlı) *İslam Konfransı Təşkilatı* dövlətlərinə həsr edilib.*“Tariximizin və siyasətimizin bayraqdarı”* adlı ön sözdə göstərilib ki, təşkilat 1995-ci ilin noyabrın 12-də qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulub[343].

Ön sözdə bildirilib ki, “ölkəmiz beynəlxalq münasibətdə hamı tərəfindən qəbul edilmiş norma və qaydalara, beynəlxalq konvensiya və sazişlərə sadiq olduğu barədə dalbadal bəyanatlar verib. Ayrı-ayrı dövlətlərlə sazişlər və müqavilələr bağlayıb, memorandurmlar imzalayıb.

---

[340] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.224
[341] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.224
[342] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, “Çaşıoğlu”, 2005, 357 s.
[343] Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 1996, s.6

Ölkəmiz bu qəbildən olan rəsmi sənədlər vasitəsilə həm beynəlxalq normalara riayət edən *sivil diplomatiya* yoluna qədəm qoyub, həm də demokratik ənənələrə sədaqət və yüksək *sivilizasiya* nümayiş etdirib. Azərbaycan MDB-yə, Qara dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına, İTƏ-ə, GU-ÖAM-a, Avropa Şurasına, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulub, hər il çağırılan məşhur Davos forumunun, BMT-nin sessiyalarının, ATƏT-in, İKT-nin Türkdilli dövlət başçılarının sammitlərinin daimi iştirakçısı olub[344].

Xaricdə Azərbaycanın səfirlikləri və diplomatik nümayəndəliklərinin açılması, 140-a yaxın dövlətlə diplomatik əlaqələrin qurulması, dünyanın bir çox aparıcı dövlətlərinin Bakıda öz səfirliklərini və nümayəndəliklərini açması da bu dövrə düşüb[345].

"Heydər Əliyev və Şərq" adlı V kitabın *"Tariximizin və siyasətimizin bayraqdarı"* adlı ön sözündə göstərilib ki: "Heydər Əliyev Azərbaycanın diasporuna daimi diqqət göstərib. O, 23 fevral 1994-cü ildə Böyük Britaniyadakı həmvətənlərimizlə görüşərkən deyib: "Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəyi gərək daim Azərbaycanın nəbzi ilə bir vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz ana vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər və daha çox bilməlidirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz – Azərbaycanın Respublikası var, azərbaycanlılar üçün Ana vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Deməli, harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən"[346].

Prezident Heydər Əliyevin səyləri nəticəsində 2001-ci il noyabr ayının 9-10-da Bakıda *"Dünya azərbaycanlılarının I qurultayı çağırılıb,* forumda diaspor öz müstəqilliyini gücləndirib, ideya-siyasi cəhətdən təşkilatlanıb. Hər il dekabrın 31-i *Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi günü* bayramı kimi qeyd edilir.

Böyük tarixi şəxsiyyətin sayəsində *sivilizasiyalı* birgəyaşayış qaydaları və prinsipləri əsasında bütün qonşu ölkələrlə, xalqlarla, xüsusən, Yaxın və Orta Şərq ölkələri ilə qonşuluq və əməkdaşlıq ab-havası yaradılıb.

Heydər Əliyev deyib: "... Bizim xarici siyasətimiz *sülhsevər siyasətdir,* biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi

---

[344] Heydər Əliyev və Şərq. 6 clddə.V kitab. Bakı, "Çaşıoğlu",2005,357 s., s.11
[345] Heydər Əliyev və Şərq. 6 clddə.V kitab. Bakı, "Çaşıoğlu",2005,357 s., s.11
[346] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab, Bakı, 1997, s.432

güdmürük. Lakin eyni zamanda respublikaların suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa olsun, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq"[347].

Ölkənin xarici iqtisadi əlaqələri də gücləndirilib, ölkədaxili islahatlarintensivləşdirilib, demokratikləşdirilib, liberallaşdırılıb.

Heydər Əliyev siyasətinin təməl prinsiplərindən biri *avropalaşma, Avropaya yaxınlaşma, qərbçilik, müasirlik, Avropa mədəniyyətinə qovuşma, Qərb dəyərlərindən yararlanma* olub. Şərq və Qərb mədəniyyətlərinin sintezindən *çağdaş mədəniyyət* yaratma olub.

Nə qədər özümüzü *sivilizasiyaya* yaxın bir xalq, ölkə kimi göstərsək də, bütün bunları qəbul etmək məcburiyyətində qaldığımız həqiqətdir. Çünki müsəlman-xristian qarşıdurması var (açıq çatdırılmasa da), –Heydər Əliyev də bunu nəzərə alıb. O, ilk gündən "qonşu Şərq ölkələri, ərəb və islam aləmi ilə də sıx əlaqələr qurmaq üçün əlindən gələni əsirgəməyib"[348].

Heydər Əliyev *Yaxın və Orta Şərq ölkələri ilə qonşuluq və əməkdaşlıq* ab-havasının yaradılmasında 70-ci illərin təcrübəsindən, Şərq ölkələrinin rəhbərlərilə şəxsi əlaqələrindən, təmaslarından istifadə edib. Heydər Əliyev vaxtilə Sov. İKP MK Siyasi Bürosunun üzvü kimi SSRİ-nin beynəlxalq əlaqələrinin inkişafda iştirak eləyib, dəfələrlə nümayəndə heyətlərinə başçılıq edib, Avropa, Asiya, Afrika, Latın Amerikası ölkələrinə səfirlərdə olub, Yaxın və Orta Şərq ölkələrinin rəhbərləri ilə danışıqlar aparıb. Əslində SSRİ-nin bu ölkələrlə və islam dünyası ilə apardığı siyasət bir növ Heydər Əliyev tərəfindən formalaşdırılıb[349].

Ulu öndər 1982-1987-ci illərdə Misir, Suriya, İordaniya, Liviya, İraq, Yəmən, Pakistan ölkələrinə səfərlərdə olub, kral Hüseyn Ənvər Sadat, Hafiz Əsəd, Səddam Hüseyn, Benazir Bhutto və başqa İslam liderləri ilə görüşüb. Bu ölkələrin rəhbərlərinin bir çoxu ilə köhnə əlaqələrini bərpa edib. "Elə Kasablanka Zirvə toplantısında Asiyanın müsəlman ölkələri adından nitq söyləməyin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə həvalə edilməsi dünya siyasətində ona edilən böyük ehtiramın təsdiqidir. Asiya ölkələri adından Azərbaycan Prezidentinin çıxış etməsi həm də onun başçılıq etdiyi Azərbaycana göstərilən diqqət və münasibətin nəticəsidir"[350]. Bu əlaqələr Heydər Əliyevin sayəsində hələ 1970-ci illərdə qurulmuşdu.

---

[347] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s.205

[348] Yenə orada

[349] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, "Çaşıoğlu",2005, 357 s., s.15

[350] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, "Çaşıoğlu",2005, 357 s., s.16

Heydər Əliyev *"Şərq siyasətimizə bir nəzər"* məqaləsində yazıb: "İKT, o cümlədən ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, İraq, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malaziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərdən biri kimi Prezident Heydər Əliyev tərəfindən müəyyənləşdirilib"[351].

*İslam Konfransı Təşkilatı* ilk gündən BMT ilə əməkdaşlıq şəraitdə *(1975)* BMT yanında müşahidəçi statusu alıb. BMT Baş Məclisinin 36-cı sessiyada *"BMT ilə İKT arasında əməkdaşlıq haqqında"* qətnamə qəbul edilib. Hazırda İslam Konfransı Təşkilatı dünya siyasətində nüfuzlu təşkilatdır.

Heydər Əliyev ilk dəfə 1994-cü ilin dekabrında İKT-yə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak edib...

Dünya və ölkə diplomatiyasında *Azərbaycan –Türkiyə əlaqələri tarixi və çağdaş* yer tutur. *Azərbaycan –Türkiyə əlaqələrinin* əsası 1967-ci ildə Bakıda qoyulub... 1992-ci il mayın 28-də Azərbaycan–Türkiyə körpüsü: həsrət, ümid körpüsü tikilib. Heydər Əliyevin 1992-ci ilin fevralında Süleyman Dəmirəlin dəvətilə Ankaraya səfəri başlayıb. Dövlət başçısı kimi ilk rəsmi səfəri 1994-cü ilin fevralın 8-11-də olub.

Heydər Əliyev 18-19 oktyabr 1994-cü ildə başçılıq etdiyi nümayəndə heyəti ilə birlikdə Türkiyənin İstanbul şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının II Zirvə toplantısında iştirak edib. Görüş zamanı *İstanbul Bəyannaməsi* qəbul edilib.

Dövlət başçısı 11-15 dekabr 1994-cü ildə İKT-yə üzv olan dövlət başçılarının Mərakeşdə keçirilən Kasablanka Zirvə toplantısında iştirak edib. Onun başçılıq etdiyi nümayəndə heyəti 1995-ci il avqustun 28-29-da Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türkdilli Dövlət Başçılarının III zirvə toplantısında iştirak edib, *Bişkek Deklorasiyası* qəbul edilib.

Bu zirvə görüşünün əsası 1992-ci ilin oktyabrında Ankarada qoyulub. Heydər Əliyev deyib: "Avrasiya məkanın xeyli hissəsini böyük iqtisadi insan potensialını birləşdirən türk dövlətləri təşkil edir. Çoxəsrlik tarixi boyu dünya sivilizasiyası xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellərlə bir-birinə bağlı olan bu xalqlar və ölkələr üçün sıx və səmərəli əməkdaşlığa çox geniş imkanlar var"[352].

[351] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, "Çaşıoğlu", 2005, 357 s., s.39
[352] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, "Çaşıoğlu", 2005, 357 s., s.112

Heydər Əliyev 1995-ci il oktyabrın 20-də BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak etmək üçün ABŞ-a yola düşərkən İstanbulun Atatürk Hava Limanında mətbuat konfransı keçirib. Azərbaycan neftinin ixracı yolları, bu barədə Türkiyə Prezidenti Süleyman Dəmirəl və Baş Nazir, xanım Tansu Çillərlə danışıqlar aparıb.

Respublika Prezidenti 1995-ci ilin sonunda– Azərbaycan nümayəndə heyəti ilə birlikdə türkdilli dövlətlərin və icmaların İzmir şəhərində 1995-ci il sentyabrın 30-dan oktyabrın 28-dək keçirilmiş III Dostluq və Qardaşlıq qurultayında iştirak edib.

30 may 1996-cı ildə Azərbaycan Türkiyə iqtisadi əməkdaşlığının perspektivlərinə həsr edilmiş konfrans keçirilib. 2 ölkə arasında *iqtisadi əlaqələrin* problemləri araşdırılıb.

11 iyun 1996-cı ildə Bakıda Qara dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının parlament məclisinin VII sessiyası çağırılıb. Heydər Əliyev forumda çıxış edib.

21-22 oktyabr 1996-cı ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlət Başçılarının IV Zirvə toplantısı keçirilib. *"Daşkənd Deklorasiyası"* qəbul olunub. Prezidentlər Əmir Teymurun 660 illik yubileyində iştirak edib.

13 aprel 1997-ci ildə Heydər Əliyev Türkiyə müğənnisi Əbru Gündəşin konsertində iştirak edib və ailəsi ilə birlikdə onunla görüşüb.

30 aprel 1997-ci ildə İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı olub. Toplantıda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçıları, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, BMT və bir sıra digər Beynəlxalq təşkilatların nümayəndələri, Qərb ölkələrindən, o cümlədən, ABŞ-dən iş adamları toplantıda iştirak edib[353].

Heydər Əliyev Süleyman Dəmirəlin dəvəti ilə 5-8 may 1997-ci ildə ikinci dəfə Türkiyə Respublikasına rəsmi səfər edib. 9 sənəd imzalanıb.*"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyanat"* qəbul edilib.

Heydər Əliyev 13-14 fevral 1998-ci ildə Türkiyədə işgüzar səfərdə olub. Səfər zamanı ona Türkiyənin "Nərgiz TV" televiziyasının 1997-ci il üçün *"Dünyada ilin adamı"* mükafatı təqdim verilib.

1998-ci il iyun ayının 9-da Qazaxıstanın Astana şəhərində Türk Dövlət Başçılarının növbəti Zirvə görüşü keçirilib, Heydər Əliyevin Süleyman Dəmirəllə növbəti görüşü olub.

---

[353] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı, "Çaşıoğlu", 2005, 357 s., s.136

8-9 sentyabr 1998-ci ildə Azərbaycan Respublikasında beynəlxalq səviyyədə "İpək yolu"nun bərpasına həsr edilmiş və Heydər Əliyevin sədrlik etdiyi konfransda Süleyman Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti iştirak eləyib.

28-31 oktyabr 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının 75 illiyi münasibətilə ölkədə keçirilən bayram mərasimində iştirak edib. Səfər zamanı Azərbaycan, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə dövlət başçıları, habelə, ABŞ-nin Enerji Naziri tərəfindən Bakı-Ceyhan neft-boru kəmərinin həyata keçirilməsi barəsində *bəyannamə* imzalanıb.

Tədbirdə, habelə, Pakistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Albaniya, Qırğızıstan, İsrail, Tacikistan və Moldovanın prezidentləri, Bolqarıstan parlament sədri, Ukraynanın Baş Naziri və digər ölkələrdən gəlmiş qonaqlar, Türkiyənin yüksək vəzifəli şəxsləri, dövlət və iş adamları iştirak edib. Görüşdə Heydər Əliyev Süleyman Dəmirələ "böyük öndər Mustafa Kamal Atatürkün Azərbaycan rəssamı tərəfindən muncuqlardan toxunmuş portretini" təqdim edib. Dəmirəl Heydər Əliyevə Cümhuriyyətin 75 illiyi münasibətilə xatirə medalı verib.

Heydər Əliyev yubiley tədbirləri zamanı oktyabrın 28-də Ankarada öz istiqamətgahında *ABŞ Prezidenti Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, Səfir Riçard Morninqstarı* qəbul edib.

Respublika rəhbərinin iştirakı ilə 29 oktyabr 1998-ci ildə Türkiyə Böyük Millət Məclisinin binasında Xəzər regionunun enerji ehtiyatları, xüsusən, Azərbaycan neftinin dünya bazarlarına çatdırlıması üçün *Bakı-Tbilisi-Ceyhan marşurutunun* müəyyənləşdirilməsini nəzərdə tutan *Ankara Bəyannaməsi* imzalanıb. Bəyannaməni Türkiyə dövləti adından Süleyman Dəmirəl, Baş Nazir Məsud Yılmaz, Azərbaycan dövləti adından Heydər Əliyev, Gürcüstan dövləti adından Eduard Şvarnadze, Qazaxıstan dövləti adından Nursultan Nazarbayev, Özbəkistan dövləti adından Prezident İslam Kərimov, habelə, ABŞ dövləti adından Energetika Naziri Bill Riçardson imzalayıb.

Heydər Əliyev oktyabr ayının 30-da İstanbulun "Hilton" mehmanxanasında Türkiyənin "Mərmərə Qrupu"nun strateji və sosial araşdırmalar vakfının *"Bakı-Ceyhan boru xətti"* mövzusunda keçirdiyi mərasimdə iştirak edib. Qrup 1985-ci ildə yaradılıb, hazırda 200-dən çox üzvü vardır.

Heydər Əliyev 1999-cu ilin 17-31 yanvarında Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicədə olub.

1999-cu ildə Heydər Əliyev *Atatürk "Sülh mükafatı"na,* Süleyman Dəmirəl isə *"İstiqlal" ordeninə* layiq görülüb.

1999-cu il avqustun 17-də Türkiyədə dəhşətli zəlzələ olub. Azərbaycan Türkiyə ölkəsinə yardım göstərib.

Ölkə başçısı 1999-cu ilin sentyabrında Türkiyənin "Mərmərə Qrupu" adlı Strateji və Sosial Araşdırmalar Fondu tərəfindən türk dünyasının problemlərinin həlli yolunda göstərdiyi səylərinə görə *"İlin ən dözümlü şəxsi"* seçilib.

Heydər Əliyev 1999-ci ilin 31 oktyabr– 2 noyabr tarixlərində Türkiyədə səfərdə olub. Zəlzələdən zərər çəkənlərə humanitar yardım göstərib. Türkiyəyə 100 000 ABŞ dolları həcmində yardım edib.

Ölkə Prezidenti 1999-cu il noyabrın 17-də İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının V Zirvə görüşündə iştirak edib və nitq söyləyib. Toplantı tarixə *"İstanbul Zirvə görüşü"* kimi düşüb.

Heydər Əliyev 1999-cu il noyabrın 27-28-də Türkiyənin Ankara şəhərində işgüzar səfərdə olub, *"Təbiətin mühafizəsi və eroziyaya qarşı mübarizə"* konfransında iştirak edib.

24-26 mart 2000-ci ildə Türkiyənin Samsun şəhərində *"Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq ə əməkdaşlıq"* qurultayının VIII forumu keçirilib. Forumda elm və mədəniyyət xadimləri iştirak edib.

8-9 aprel 2000-ci ildə Süleyman Dəmirəl Türkdilli Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi -Dədə Qorqud"un 1300 illiyə həsr edilmiş yubileyində iştirak etmək üçün Bakıya gəlib. Heydər Əliyev ona Azərbaycanın fəxri vətəndaşı adını verib.

2000-ci ilin sentyabrında Bakıda Dünya Türk Gənclər Birliyinin X qurultayı və Gənclik günləri keçirilib. Ulu öndər 9-10 noyabr 2000-ci ildə Türkiyədə işgüzar səfərdə olub.

Heydər Əliyev 2001-ci il yanvarın 16-da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul edib.

Ulu öndər 2001-ci il martın 12-17-də III dəfə Türkiyədə rəsmi səfərdə olub və parlamentdə çıxış edib. Ona Ankara Universitetinin fəxri doktoru adı verilib.

Heydər Əliyev 26-27 aprel 2001-ci ildə İstanbulda keçirilən VII Zirvə görüşündə iştirak edib.

***

Heydər Əliyev diplomatiyasının uğurlu göstəricilərindən tarixi faktlar, örnəklər göstərmək də mühümdür. Belə:

*Azərbaycan –İordaniya əlaqələri.* İordaniya İKT-nin üzvüdür. İordaniya 28 dekabr 1991-ci ildən Azərbaycanın dövlət müstəqilliyini tanıyıb. Diplomatik əlaqələr 13 fevral 1992-ci ildən başlayıb.

*Azərbaycan–Səudiyyə Ərəbirstanı əlaqələri* 24 fevral 1992-dənbaşlayıb. Heydər Əliyev Türkiyə və İrandan sonra bu ölkəyə rəsmi səfər edib. Məkkə, Mədinə və Ciddə şəhərlərində ziyarətdə olub. 9 iyul 1994-cü ildə bu ölkəyə rəsmi səfərə yola düşüb.

Heydər Əliyev Səudiyyə Ərəbistanında olarkən İslam dünyasının 2 müqəddəs şəhərini – Məkkə və Mədinəni, oradakı müqəddəs yerləri ziyarət edib. Mədinədəki Peyğəmbər məscidini ziyarət edərkən Məscidin şərəf kitabına aşağıdakı ürək sözlərini yazıb: "Bismillahir-Rəhmanir-Rəhim!

Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrət Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.

Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.

İslamın dünyada yayılması üçün, islam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən, son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur. İki müqəddəs şəhərin xadimi cənab Fəhd ibn Əbdül Əziz əl-Səudun gördüyü işlər əvəzsizdir. Böyük minnətdarlıq hissi doğurur. Bu müqəddəs şəhəri yaşadanlara, əsrlərdən-əsrlərə abadlaşdıranlara, xüsusən, əziz dostum, qardaşım, iki müqəddəs şəhərin xadiminə hörmət və ehtiramımı bildirirəm"[354].

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti. 12 iyul, 1994*

*Azərbaycan –İran əlaqələri.* İran İKT-nin üzvüdür. Ölkə ilə 12 mart 1992-ci ildən, müstəqillik dövründə diplomatik əlaqələr yaradılıb.

29 iyun – 2 iyul 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başçılıq etdiyi nümayəndə heyəti ilə Tehranda səfərdə olub. İİR-in Ali Rəhbəri S.Ə.Xamneyi, Prezident Ə.Haşimi Rəfsəncani, İslam Şurası Məscidinin sədri Ə.Natiq Nuri və digər rəsmi şəxslərlə görüşlər keçirilib. 1993-cü il oktyabrın 26-28-də olan görüşdə 2 ölkə arasında dostluq və əməkdaşlıq haqqında *memorandum* imzalanıb.

*Azərbaycan –Liviya əlaqələri.* Ölkə Azərbaycan ilə 16 mart 1992-ci ildən diplomatik əlaqələr yaradıb.

[354] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab. Bakı,"Çaşıoğlu",2005,357 s.,s.136

1995-ci ilin aprel ayında Bakıda Liviya Ərəb Xalq Sosialist Cümhuriyyəti səfirliyinin təsis edilməsi məqsədilə Liviyadan Azərbaycana nümayəndə heyəti gəlib, həmin tarixdən etibarən Bakıda ölkənin səfirliyi fəaliyyətə başlayıb.

*Azərbaycan –Misir əlaqələri.* Azərbaycan ilə diplomatiya əlaqələri 27 mart 1992-dən başlayıb. Əslində bu əlaqələr 1994-cü ilin sentyabrına, Heydər Əliyevin bu ölkəyə səfərinə aiddir. Misir hökuməti Azərbaycanın müstəqilliyini 26 dekabr 1991-ci ildən tanıyıb.

Bütün beynəlxalq forum və təşkilatlarda, o cümlədən, İKT çərçivədə keçirilən tədbirlərdə MƏR-in ölkəmizə göstərdiyi dəstək tarixən böyük əhəmiyyət kəsb edib.

*Azərbaycan –Suriya diplomatik əlaqələri* 28 mart 1992-ci ilə aiddir. Dəməşqdə 1997-ci ildən Azərbaycan Respublikasının səfirliyi təsis edilib.

*Azərbaycan –İraq əlaqələri* 30 mart 1992-ci ildən yaradılıb. Azərbaycanın dövlət müstəqilliyini 2 yanvar 1992-ci ildən tanıyıb. 30 mart 1992-ci ildən ölkələr arasında diplomatik münasibətlər qurulub.

Azərbaycanın İraqla əlaqələri elm, təhsil, mədəniyyət sahələrini əhatə edib, siyasi münasibətlər Bakıdakı İraq səfirliyi, BMT və İKT çərçivəsində həyata keçirilib.

*Azərbaycan –Pakistan əlaqələri* 9 iyun 1992-ci ilə aiddir. Heydər Əliyev 9-10 aprel 1996-cı ildə Pakistan ölkəsinə səfər edib. Baş Nazir xanım B.Bhutto ilə görüşüb. İki tərəfli *bəyanat* qəbul olunub.

Pakistan hökuməti Azərbaycanın dövlət müstəqilliyini 12 dekabr 1991-ci ildən tanıyıb. Bakıda 12 mart 1993-cü ildən Pakistan İslam Respublikasının səfirliyi açılıb.

*Azərbaycan –Mərakeş əlaqələri* 25 avqust 1992-ci ildən yaradılıb. "1994-cü ilin 13-15 dekabrında Kasablankada keçirilən İKT-nin Dövlət və Hökumət Başçılarının VII Zirvə görüşü zamanı Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev ilə Mərakeş kralı II Həsən arasında keçirilmiş ikitərəfli görüşdə Azərbaycan –Mərakeş əlaqələrinin inkişafı və əməkdaşlığın gələcək perspektivləri müzakirə edirilib"[355].

*Azərbaycan –Birləşmiş Ərəb Əmirlikləri əlaqələri* 1 sentyabr 1992-ci ildən yaradılıb.

Heydər Əliyev 1997-ci ilin 11 aprelində Milli Məclisin Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində səfirliyinin təsis edilməsi haqqında qərarı Heydər Əliyev tərəfindən təsdiq edilib, 2 dövlət arasında yeni mərhələ başlayıb.

---

[355] Heydər Əliyev və Şərq.6 cilddə.V kitab. Bakı,"Çaşıoğlu",2005, 357 s., s.282

*Azərbaycan –Livan əlaqələri* 18 sentyabr 1992-ci ildən başlayıb. 9-11 dekabr 1997-ci ildə İKT-nin Tehranda çağırılan Zirvə toplantısında Azərbaycan Respublikası prezidenti Heydər Əliyevlə Livan prezidenti İlyas Hərəvi arasında qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

*Azərbaycan –Əlcəzair əlaqələri* 22 aprel 1994-cü ildən yaradılıb. Azərbaycanın dövlət müstəqilliyini 26 dekabr 1991-ci ildən tanıyıb.Ölkələrimiz arasında əlaqələr Əlcəzairin və Azərbaycan Respublikasının Ankaradakı səfirlikləri tərəfindən həyata keçirilib.

*Azərbaycan –Qatar əlaqələri* 14 sentyabr 1994-cü ildən başlayıb. Ölkələrimiz arasında əməkdaşlıq BMT və İKT çərçivəsində aparılıb.

Heydər Əliyev 1999-cu ilin 8 fevralında həmin ölkəyə Qatar Dövlətinin Əmiri tərəfdən dəvət edilib. 28 sentyabr 2002-ci il tarixli Prezident fərmanına əsasən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistandakı səfiri E.Araslı Qatar Dövlətinə Fövqəladə və Səlahiyyətli səfir təyin edilib.

*Azərbaycan – Küveyt əlaqələri* 7 oktyabr 1994-cü ilə aiddir. Heydər Əliyev 13 dekabr 1994-cü ildə ilk dəfə İKT-nin Kasablanka Zirvə toplantısında Küveyt əmiri Şeyx Cabir Əhməd Sabah ilə görüş keçirib, dostluq və qardaşlıq əlaqələrinin əsası qoyulub.

*Azərbaycan–Çin münasibətləri. İpək ticarət Yolu* tarixən Çin, Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçib. Çin –Azərbaycan əlaqələrinin qədim tarixi vardır…

Azərbaycan Respublikasının müstəqilliyini qəbul edən ilk ölkələrdən biri kimi Çin Xalq Respublikası 1991-ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 2-dən başlayıb. 1992-ci ilin avqust ayında ÇXR-nın Azərbaycan Respublikasında səfirliyi açılıb. 1993-cü ilin dekabr ayının 1-də ilk səfir təyin edilib. 1993-cü il sentyabrın 3-də isə Çin Xalq Respublikasında ölkəmizin səfirliyi fəaliyyətə başlayıb.

1994-cü il 7-10 mart tarixində *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə* olub. ***Prezident Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin, Baş Nazir Li Pen*** ilə rəsmi görüşlər keçirib. Səfər zamanı iki dövlət arasında 8 müqavilə imzalanıb.

İki ölkə arasında hava yolunun açılması, elmi-texniki və mədəni əməkdaşlıq, təbabət, radio və televiziya, turizm sahəsində sazişlər bağlanıb.

Martın 8-də Heydər Əliyev *ÇXR Dövlət Şurasının Baş Naziri Li Penlə* görüşüb. Görüş zamanı ikitərəfli münasibətlərin müxtəlif yönlərinə toxunulub.

1996-cı il aprelin 17-18-ində *Çin Xalq Respublikası Baş nazirinin müavini Tsyan Tsiçen* Azərbaycanda səfərdə olub. Azərbaycan Respublikasının

Prezidenti Heydər Əliyev Tsyan Tsiçeni qəbul edib. Bu zaman ikitərəfli münasibətlərlə yanaşı, Azərbaycanın dövlət suverenliyi və torpaqlarımızın işğalı məsələsi müzakirə edilib.

1997-ci il avqustun 27-30-da Çin Xalq Respublikasının nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Səfər zamanı iki ölkə arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi barədə görüşlər keçirilib.

1998-ci il sentyabrın 8-də Bakıda Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək yolunun bərpası üzrə *TRASEKA proqramı* çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşü olub, beynəlxalq konfrans baş tutub.

2000-ci il iyunun 21-24-də Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri Li Pen Azərbaycana səfər edib. Li Pen Prezident Heydər Əliyev və digər dövlət rəsmiləri ilə görüşlər keçirib…

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında *İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının* birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyib. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün perspektivlər müəyyənləşdirilib.

2019-cu il aprelin 24-də ***İlham Əliyev Çinə səfər*** edib. O, aprelin 26-27-də Pekində keçirilən 2-ci *"Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda* iştirak edib…

Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika, tikinti və digər sahələrdə əməkdaşlıq edir.

İki ölkə arasında mədəni əməkdaşlığa dair müqavilə 1995-ci il aprelin 12-21-də olub. Pekin Beynəlxalq sərgi mərkəzində görkəmli rəssam Səttar Bəhlulzadənin əsərlərinin sərgisi keçirilib…

Azərbaycanda iki Konfutsi İnstitutu fəaliyyət göstərir. Ölkəmizdə Çin mədəniyyəti və Çin dilinə maraq artıb[356].

Musa Qasımlının *"Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər)"* adlı qiymətli monoqrafiyasının[357] annotasiyasında deyilir: "Azərbaycan, Rusiya, Gürcüstan arxivlərində uzun illər boyu "tam məxfi", "məxfi", "xidməti istifadə üçün" qrifləri altında saxlanılmış materiallardan, ABŞ, Türkiyə, Böyük Britaniya, Polşa, Fransa və Rusiya müəlliflərinin əsərlərin-

[356] "Azərbaycan", 10 mart 1994-cü il

[357] Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.

dən və başqa mənbələrdən istifadə edilərək yazılmış monoqrafiyanın sovet hakimiyyəti illərində Azərbaycan xalqını düşündürən başlıca predmetlər, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması, hakimiyyətə gəldikdən sonra azərbaycanlıların birliyinə nail olması, azərbaycanlı kadrları hazırlaması, Azərbaycan aliminə və elminə qayğısı, tarixi-mədəni, milli mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti, ədəbi irsə və ədəbiyyata qayğısı, milli incəsənətin tərəqqisi naminə çalışmaları, Azərbaycan dilinin dövlət dili statusunu qoruyaraq inkişaf etdirməsi, milli hərbçi kadrları hazırlanması, əsassız erməni iddialarına qarşı mübarizəsi, Azərbaycanı beynəlxalq aləmdə tanıtması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması istiqamətində səyləri, Cənubi Azərbaycan məsələsinə diqqət yetirməsi, türk dünyasına münasibətdə mövqeyi, gələcək müstəqil dövlətçiliyin əsaslarını hazırlaması elmi-tarixi baxımdan öyrənilmişdir. Mənbə və ədəbiyyatların demək olar ki, hamısı elmi dövriyyəyə ilk dəfə gətirilmişdir”. Kitab elmi dairələr, siyasətçilər və geniş oxucu üçün nəzərdə tutulub.

Musa Qasımlının *“Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər)”* kitabı giriş və 14 fəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyat hissələrindən ibarətdir.

*I fəsildə* “Azərbaycan xalqının qarşısında duran başlıca problemlər və Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması”, *II fəsildə* “Azərbaycanlıların birliyinə nail olunması”, *III fəsildə* “Milli kadrların hazırlanması” ( *III.1.* Azərbaycan təhsilinin inkişafı. *III. 2.* Azərbaycan aliminə və elminə qayğı), *IV fəsildə* “Tarixi-mədəni, milli-mənəvi dəyərlərin mühafizəsi və inkişaf etdirilməsi” (*IV.1.*Tarixi abidələrin mühafizəsi, *IV.2.* Milli-mənəvi dəyərlərin qorunması, *IV.3.* Mədəni-maarif müəssisələrinin qurulması, *V fəsildə* “Ədəbi irsə və ədəbiyyata qayğı”, *VI fəsildə* “Milli incəsənətin tərəqqisi”, *VII fəsildə* “Ana dilinə qayğı”, *VIII fəsildə* “Demoqrafik inkişaf”, *IX fəsildə* “Hərbçi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsi”, *X fəsildə* “Erməni iddialarına qarşı mübarizə”, *XI fəsildə* “Azərbaycanın beynəlxalq aləmdə tanıdılması”, *XII fəsildə* “Xaricdə yaşayan həmvətənlərlə əlaqə”, *XIII fəsildə* “Cənubi Azərbaycan məsələsi”, *XIV fəsildə* “Heydər Əliyev və Türk dünyası” problemləri həllini tapıb.

*Görkəmli diplomat, dövlət və elm xadimi Hafiz Paşayevin “Yüksəkliyə doğru”* kitabında[358] Azərbaycanın ABŞ-dakı ilk səfirinin seçilmiş məqalələri toplanıb. Kitab redaktordan, Minnətdarlıq, Ön söz, Xəritələr, Giriş, 4 fəsil və 2 Əlavədən ibarətdir.

[358] H.M.Paşayev. Yüksəkliyə doğru. Bakı, Azərbaycan Marketinq Cəmiyyəti, 2008, 339 s.

Birinci fəsil "Azərbaycanın Vaşinqtonun xəritəsində yerləşdirilməsi (1993-1994)", ikinci fəsil "Güclü ABŞ – Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi (1995-2001)", üçüncü fəsil "Əməkdaşlıq və tərəfdaşlıqdan strateji münasibətlərə doğru (2002-2006)", dördüncü fəsil "Nəşr edilmiş məqalələr və redaktora məktublar" adlı bölmələri əhatə edib.

Birinci əlavə "Azərbaycan haqqında ümumi məlumat", ikinci əlavə "907-ci bölmənin ləğv edilməsi və ya dəyişdirilməsi istiqamətində atılmış addım" adlandırılıb.

Görkəmli diplomatın manifesti belə olub ki, 1993-1994-cü illərdə Azərbaycan Vaşinqtonun xəritəsində artıq yerləşdirilmişdi. 1995-2001-ci illərdə güclü ABŞ – Azərbaycan münasibətləri inkişaf etdirilmişdi. 2002-2006-cı illərdə əməkdaşlıq və tərəfdaşlıqdan strateji münasibətlərə doğru fəaliyyət başlanmışdı. Və bütün bunların yekunu nəşr edilmiş məqalələr və redaktora ünvanlanmış məktublarda ifadə olunmuşdu.

30 iyun 1998-ci ildə Bakıda, Prezident sarayında *Azərbaycan və Rumıniya Prezidentlərinin birgə mətbuat konfransı* keçirilib. Rumuniya Prezidenti Emil Konstantinesku bəyanatında deyib: "Prezident Əliyev görkəmli siyasətçidir və qarşılıqlı maraq doğuran məsələləri son illər ərzində onunla bir neçə dəfə səmimi və konstruktiv şəraitdə müzakirə etmək mənə nəsib olmuşdur.

Gördüyünüz kimi Rumıniya nümayəndə heyəti çox böyük tərkibdədir. Biz burada Rumıniyanın xarici işlər, ticarət və sənaye, nəqliyyat nazirliklərinin, EA-nın maliyyə qurmalarının məsul şəxsləri ilə təmsil olunmuşuq. Bu, Azərbaycanın Xəzər regionunda oynadığı böyük rola, həm Avropada, həm də Asiyada oynadığı böyük rola görə və bizim bu görüşlərə verdiyimiz xüsusi əhəmiyyətə görədir…

Rumuniya və Azərbaycan qədim ənənələrə, tarixə malik iki ölkədir və onlar eyni proseslərlə tamamilə yeni təcrübə ilə üzləşirlər. Ümid edirəm ki, hər iki ölkə bu prosesdən uğurla çıxacaqdır…"[359]

"Mən cənub Əliyevə bir daha təşəkkür etmək istərdim ki, o infrastrukturun ən vacib layihələrdən birini dəstəkləyir. Dünya miqyaslı bu layihə gələn minillik üçün nəzərdə tutulmuşdur. Bu Sakit okeandan Atlantik okeana – Yaponiya və Çindən Fransa və İspaniyaya qədər uzanacaq layihədir"[360].

---

[359] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.612

[360] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.612, 613

"…Dediyim kimi, təşəbbüsçüsü cənab Əliyev olan layihə Rumıniya üçün də çox vacibdir. Uzun çəkən söhbətimiz zamanı biz razılaşdıq ki, bu layihəni dünya miqyasında dəstəkləmək üçün birləşmiş səylərimizi əlaqələndirək"[361].

30 sentyabr 1998-ci ildə Bakıda, Prezident sarayında *NATO-nun Baş katibi Havyer Salona* ilə birgə mətbuat konfransı olub. NATO-nun Baş katibi bəyanat yayıb:

"Bu dövrdə həqiqətən çox iş görülmüşdür. Lakin 2 məqamı ayrıca vurğulamaq istərdim. Azərbaycan qoşunlarının təlimlərdə iştirakına görə Sizə, sizin hökümətinizə və xalqınıza xüsusilə təşəkkür etmək istərdim. Məs. Makedoniya ərazisində çox mühüm təlimlər keçirildi və bu təlimlərdə Azərbaycan da iştirak etdi.

Həqiqətən, çox rəmzidir ki, biz regionda sabitliyin, təhlükəsizliyin və sülhün təminatçısı kimi birlikdə işləyirik. Sizə demək istəyirəm ki, biz bu istiqamətdə sonraki illərdə də işləməyi davam etdirəcəyik"[362].

2 dekabr 1999-cu ildə Prezident Heydər Əliyevlə Bolqarıstan Prezidenti Petr Stoyanovun birgə mətbuat konfransı olub.

Bolqarıstan Prezidenti Petr Stoyanovun bəyanatında deyib: "Mənə elə gəlir ki, mən yalnız bir təfərrüatı – Prezident Heydər Əliyevlə təkbətək görüşdə toxunduğum təfərrüatı buraxmışam. Biz TRASEKA və İNOQEYT kimi çoxcəhətli layihələr barədə öz təsəvvürümüzü uyğunlaşdırmaq barədə razılığa gəldik. Məsələn, mən Azərbaycanın yardımına görə Cənab Heydər Əliyevə təşəkkür etdim, ona görə ki, Bolqarıstan öz yüklərinin daşınmasında heç bir maneələrlə qarşılaşmır, çünki Azərbaycan burada əsas dövlətdir. Hesab edirəm, bu baxımdan Azərbaycanı nümunə göstərmək olar, çünki Bakı bəyannaməsi rüsumların, gömrük tariflərinin qaldırılmasına deyil, bütün daşınmaların asanlaşdırılmasına yönəldilmişdir"[363].

Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin təşkilatçılığı ilə İslam Konfransı Təşkilatı Kasablanka /1994/, Tehran /1997/, Məkkə /2005/, Dakar /2008/ Zirvə görüşləri və XİN Şurasının 33-cü Bakı sessiyasının materialları əsasında *"Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında (Azərbaycan və ingilis dillərində. Bakı, Baku, Bakou – 2008)" kitabı*[364] hazırlanıb.

---

[361] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.615

[362] Heydər Əliyev və mətbuat. 4 cilddə. III cild (iyul 1998 – sentyabr 2000). Bakı, "Nurlar", 2003, 640 s.; s.116

[363] H.Əliyev və mətbuat. 4 cilddə. III cild (iyul 1998 – sentyabr 2000). Bakı, "Nurlar", 2003, 640 s.; s.304

[364] Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında (Azərbaycan və ingilis

Kitab Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin növbəti nəşridir. Topluda Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin İKT-nin Kasablanka və Tehran zirvə görüşlərindəki çıxış və müsahibələri, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Məkkə zirvə görüşlərindəki və İKT Xarici İşlər Nazirliyi Şurasının Bakıda keçirilən 33-cü sessiyadakı çıxışların" mətnləri özünə yer alıb *(annotasiyasından).*

30 oktyabr 2002-ci ildə Heydər Əliyevin dəvəti ilə Rumuniya Prezidenti İon İliyeskunun Azərbaycana rəsmi səfəri olub. Sənədlərin imzalanmasından sonra Prezidentlər mətbuat konfransında bəyanatla çıxış ediblər.

Heydər Əliyev bu səfəri əlamətdar hadisə kimi qiymətləndirib, 2 ölkə arasında ardıcıl inkişafın göstəricisi hesab edib. Dövlətimizin başçısı bildirib ki, 1994-cü ildən üzübəri onlar dəfələrlə müxtəlif şəraitdə görüşüblər.

Bu səfər İliyeskonun Azərbaycanla ikinci görüşüdür. Heydər Əliyev deyib: "Biz bu səfər zamanı çox ətraflı müzakirələr apardıq. Prezident cənab İliyesku ilə təkbətək görüşümüzdə bir çox məsələlərə toxunduq. O, bir çox məsələlər haqqında eyni fikirdə olduğunu mənə bildirdi. Rumuniya –Azərbaycan əlaqələri və onların gələcək inkişafı Azərbaycanın ən ağrılı problemi: Ermənistan– Azərbaycan münaqişəsi və bunun tezliklə həll olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, suverenliyinin təmin olunması, beynəlxalq terrorizm, onun törətdiyi təhlükələr, terrorizmə qarşı həm Rumuniya, həm də Azərbaycan tərəfindən fəal mübarizənin aparılması, Qafqazda və regionda olan indiki vəziyyət, bir çox beynəlxalq məsələlər və təbiidir ki, əsas məsələ: Rumuniya –Azərbaycan əlaqələri və onların inkişaf etdirilməsi barəsində fikir mübadiləsi apardıq"[365].

İon İliyesku Heydər Əliyevlə birlikdə yaratdıqları *Rumuniya –Azərbaycan müştərək iqtisadi komissiyasının* fəaliyyətinə xüsusi əhəmiyyət verdiyini bildirib. Prezidentlər birlikdə Bəyannamə imzalayıblar.

Rumuniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olub. *Rumuniya Prezidenti İon İlyesku* ilk dəfə 1996-cı ilin mart ayında Azərbaycana səfər edib. Rumuniya ATƏT-in sədri olub, münaqişənin siyasi yolla həllinə çalışıb. Rumuniyanın dövlət rəhbəri bildirib ki: "Biz insanların əzab çəkdikləri bu münaqişəni həll etmək üçün göstərilən bütün səylərdə həmişə Sizin yanınızda olacağıq. Əlbəttə, dövlətlər arasında münasibətləri tənzimləyən əsas prinsiplərə hörmət edərək. Bu isə dövlətlərin ərazi bütövlüyü, elə-

---

dillərində). Bakı, Baku, Bakou – 2008. Bakı, "Apostrof", 2008, 414 s.

[365] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.582

cə də fəlakətə gətirib çıxara biləcək hərbi yoldan imtina etmək prinsipləri-dir"[366].

7 yanvar 2003-cü ildə Bakıda, Prezident sarayında Prezidentlərin birgə mətbuat konfransı olub. *Azərbaycan –Türkiyə nümayəndə heyətinin iştirakı ilə görüş* başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransında jurnalistlər qarşısında bəyanatla çıxış ediblər.

*Heydər Əliyev* bəyanatında bildirib ki, Türkiyə –Azərbaycan əlaqələrində əlamətdar hadisə baş verib. Türkiyə Cümhuriyyətində keçən ilin noyabrında seçkilərdə Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlib və hökumət qurub. Partiyanın sədri, dostum cənab Ərdoğan bir neçə vacib səfərdən sonra Azərbaycanda, Qafqazda, Orta Asiya cümhuriyyətlərində səfərlərdə olub. Rəcəb Tayyib Ərdoğan Azərbaycana gəlişi münasibətilə təşəkkürünü bildirib və deyib: "Türkiyə və Azərbaycan arasındakı dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri xüsusi xarakter daşıyır, həyatımızın bütün sahələrini əhatə edir və bu dostluq əlaqələrini Azərbaycanda həmişə yüksək qiymətləndiriblər, bu gün də biz yüksək qiymətləndiririk.

...Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə edəndən Türkiyə həmişə Azərbaycanla bərabər olub, bir yerdə olub və Azərbaycanın bütün qayğılarını bölüşübdür. Dedim ki, bizim əlaqələrimiz çox yüksək səviyyədədir və həyatın bütün sahələrini əhatə edir. Ancaq hesab edirəm ki, indi Türkiyədə yeni hökumət yaranandan sonra bir partiyanın iqtidarda olması Türkiyə Cümhuriyyətinin surətlə inkişaf etməsinə şərait yaradıb və belə halda təbii ki, Türkiyə –Azərbaycan əlaqələri də gərək o sürətli inkişafla ayaqlaşsın. Yəni onunla bərabər getməyə qadir olsun"[367].

Heydər Əliyev daha sonra gələcək perspektivlər barəsində söz deyib: "Güman edirəm ki, yaxın vaxtlarda cənab Ərdoğan Türkiyənin baş naziri olacaq, ondan sonra mənim dəvətim var, dəvətimi qəbul edib yenə də ilk olaraq Azərbaycana səfər edəcəkdir. *Proqramı biz onunla daha geniş tutacağıq*. Bizim daha çox söhbət etməyə, danışmağa, Azərbaycanda belə bir söz var, dərdləşməyə vaxtımız olacaqdır"[368],– deyə arzu və inamını ifadə edib.

---

[366] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild./Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov. Bakı, "Nurlar", 2003, 640 s.; s.584

[367] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.591-592

[368] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar.

*Rəcəb Tayyib Ərdoğanın* bəyanatından: "Cənab Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi inkişaf və nailiyyətlər həmişə bizim diqqət mərkəzimizdədir. Bu gün cənab Heydər Əliyevlə son dərəcə faydalı danışıqlar apardıq. Türkiyə ilə Azərbaycan arasında dərin qardaşlıq və dostluq münasibətləri mövcuddur. Kifayət qədər yüksək səviyyədə olan ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinin ölkələrimizin mənafeyi üçün mühüm nəticələr doğuracağına inanırıq. Ürəkdən inanırıq ki, bu ziyarətimiz də əlaqələrimizi daha da inkişaf etdirmək əzmindədir. Cənab Əliyevin iş başına gəlməsindən bəri Azərbaycanın da eyni əzm və qərarlılıq içində olduğuna şahidik.

Cənab Prezidentə də dedim ki, biz iki qardaş və dost olmaqla yanaşı, ölkələrimiz arasında bütün sahələrdə bəzi məsələləri aşkarlıq şəraitində müzakirə etməyimizin lazımlı və faydalı olduğunu düşünürəm.

Bu səfərə gələndə özümlə türk iş adamlarını, ictimai təşkilatların rəhbərlərini, o cümlədən Türkiyə ticarət palatasının rəhbərlərini də buraya gətirdim. Onlarla bərabər, 50-yə yaxın mətbuat işçisi də bu səfəri işıqlandırmaq üçün buraya gəlmişdir. Dörd nazirimiz mənimlə bərabərdirlər. Bu da Azərbaycana səfərimizə verdiyimiz böyük əhəmiyyətə bir sübutdur.

Hörmətli mətbuat nümayəndələri!

Bakı –Tbilisi –Ceyhan layihəsinin həyata keçirilməsində ölkələrimizin gərgin səyləri artıq öz bəhrəsini vermişdir. Marşrutun haradan keçməsi barəsində Gürcüstanda yaşanan problemin aradan qaldırılması sevindirici bir hadisədir. Türkiyə bundan sonra belə problemlərin ortaya çıxmaması üçün məsələləri ciddi şəkildə izləyəcəkdir...

...Bundan sonrakı əsas işimiz isə *Bakı– Ərzurum qaz kəmərinin tikintisini* gerçəkləşdirməkdir. Bu layihənin həyata keçirilməsi nəticəsində Azərbaycan qazı Türkiyə üzərindən Avropaya nəql edəcəkdir. Sabah terminala gedərək, bu işlərə nə qədər böyük əhəmiyyət verdiyimizi əyani şəkildə göstərəcəyik.

...Biz *ortaq bir mədəniyyətə* mənsubuq. Bu mənada mədəniyyət sahəsində də atacağımız ciddi addımlar var. Ona görə də mədəniyyət nazirimizi də özümlə gətirdim. Mədəni əlaqələr sahəsində aramızdakı münasibətləri daha da möhkəmləndirəcəyimizə inanıram"[369].

---

4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.592

[369] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.593-594

Prezident İlham Əliyevin rəhbərliyi ilə *Qarabağa Böyük qayıdış hərəkatı* başlanıb. Bu sahədə Dövlət Proqramı qəbul edilib.

İlham Əliyev *"Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında"* Sərəncam verib ("Azərbaycan qəzeti, 5 yanvar 2022). 2022-ci il prezident sərəncamı ilə *"Şuşa İli"* elan edilib. *Şuşa şəhərinin 270 illiyi* qeyd edilib. Elmi-filoloji fikirdə *Şuşa mövzusu* aktual olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyun 2021-ci ildə Şuşa şəhərində Azərbaycan– Türkiyə müttəfiqlik münasibətləri haqqında *Şuşa bəyannaməsini* imzalayıb.

Heydər Əliyev qonşu dövlətlər: Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistanla *beynəlxalq hüquq normalarına* uyğun münasibətlər qurub, tarazlaşdırma siyasəti həyata keçirib.

Azərbaycan 1992-ci ildən NATO-nun *Şimali Atlantika Əməkdaşlıq Şurasına*, 1997-ci ildən *Avropa-Atlantika Tərəfdaşlıq Şurası* – AATŞ-yə qoşulub.

1994-cü ildən NATO-nun *"Sülh naminə tərəfdaşlıq proqramı"* qəbul olunub. Hərbi hissəmiz sülhməramlı qüvvələrin Kosovoda və Əfqanıstandakı əməliyyatlarında iştirak edib. NATO parlament Assambleyası 2002-ci ildə İstanbuldakı iclasında Azərbaycan Respublikasını NATO Parlament Assanbleyasının assosiasiyalaşdırılmış üzvlüyünə qəbul olunub.

***

***“Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba yurdudur”.***
***”Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma vətəndir”.***
***”Harada yaşamasindan asılı olmayaraq öz ənənələrinə sadiq qalan, milli-mənəvi köklərinə bağlı olan vətənpərvər soydaşlarımız tarixi Vətənə – Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirir”.***

**Heydər Əliyev**

Ümummilli lider *hesab edib* ki, azərbaycanlıların bir çox dünya ölkələrinə səpələnib yaşaması mənfi hal deyildir. Millətin hamısı yığışıb bir ölkədə, bir məkanda yaşamamalıdır. Dövlət başçısı *vəzifə və məsuliyyət hissi* bilib ki, azərbaycanlılar harada yaşamasından asılı olmayaraq öz ana vətənlərinə qayğı göstərsinlər, onu unutmasınlar, doğma vətənlərinin qayğıları ilə yaşasınlar. *Tövsiyə edirdi* ki, bütün dünyada yaşayan azərbaycanlılar nüfuzlu olmaq istəyirlərsə, təşkilatlanmalıdırlar. Ulu öndər *tapşırırdı* ki: “Azərbaycanlılar Qazaxıstanda da, Özbəkistanda da, Amerikada da, İngiltərədə də yaşasınlar. Harada kimin üçün xoşdursa, orada özünə yer tapıbsa, yaşasın. Ancaq azərbaycanlılığını, dilini, dinini, adət-ənənələrini, öz əcdadlarını, ulu babalarını, köklərini unutmasın”[370].*Öyrədirdi* ki, hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da vətəni Azərbaycandır[371]. *İnamlı və məmnun* idi: “Müstəqilliyimizin bizə verdiyi ən böyük nemətlərdən, ən böyük müsbət nəticələrdən biri odur ki, indi dünyanın hər yerində yaşayan azərbaycanlılara soydaşlarımız kimi həm qayğı göstərmək, həm onlarla əlaqə yaratmaq, həm də onların hüquqlarının qorunması haqqında düşünmək və onlarla tez-tez görüşmək imkanımız var”[372].

Heydər Əliyev dünyada ***Azərbaycan diasporunun*** yaradılmasına tarixi zərurət kimi baxıb. Bu baxımdan Azərbaycan diasporunun təşkilatlandırılması məsələsi onu ciddi narahat edib və həlli istiqamətində gərgin əməli fəaliyyət göstərib. Diplomatik və ideoloji fəaliyyətin əsasları elmi-təcrübi olaraq araşdırılıb, öyrənilib və praktikaya tətbiq edilib.

---

370 Heydər Əliyev. Müdrik fikirlər.İyun1993-1998 oktyabr. I kitab. Heydər Əliyev Fondu. Bakı, 2008, 399 s. ; s.325 - 334

371 Heydər Əliyev. Müdrik fikirlər.İyun1993-1998 oktyabr. I kitab. Heydər Əliyev Fondu. Bakı, 2008, 399 s. ; s.325 - 334

372 Heydər Əliyev. Müdrik fikirlər.İyun1993-1998 oktyabr. I kitab. Heydər Əliyev Fondu. Bakı, 2008, 399 s. ; s.325 - 334

Professor Vaqif Arzumanlı *"Azərbaycan diasporu (reallıqlar, qayğıları problemlər)"* monoqrafiyasında[373](elmi redaktoru fəlsəfə elmləri doktoru Vəli Həbiboğlu, rəyçiləri fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev, Dünya azərbaycanlıları mədəniyyət Mərkəzinin prezidenti, xalq şairi Söhrab Tahir və AMEA BMİ-nin Azərbaycan diasporu" şöbəsinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru
Razim Məmmədli) Azərbaycan diasporunun aktual problemlərini nəzərdən keçirib, muxtəlif ölkələrdə fəaliyyət göstərən diasporun ictimai-siyasi, sosial-mədəni reallıqlarına, onun mövcud səviyyəsinə diqqət yetirib.

Kitab *giriş əvəzi* ("Dünya azərbaycanlıları XX əsrdə"), *3 fəsil (I fəsil:* "Dünyaya səpələnmiş soydaşlarımız", "Azərbaycan diasporunun fəaliyyət üfiqləri", "Rusiya Federasiyasında və MDB-nin digər ölkələrində Azərbaycan diasporu", "Avropa ölkələrində Azərbaycan diasporu", "Türkiyədə Azərbaycan diasporu", "ABŞ, Kanada və Avstraliyada Azərbaycan diasporu", (*II fəsil:* "Diasporamızın fəaliyyətində yeni mərhələ", "Dünya azərbaycanlılarının birliyi yeni mərhələdə", "Dünya azərbaycanlıları konqresi", "Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyası", "Ümumrusiya azərbaycanlıları konqresi", "Ukrayna azərbaycanlıları konqresi", *III fəsil: "*Müstəqil Azərbaycan Respublikası və diasporamız", "Dünya azərbaycanlılarının həmrəyliyi naminə", "Diasporamızın fəaliyyətini öyrənmək və istiqamətləndirmək cəhdləri", "Ermənistan –Azərbaycan münaqişəsi və diasporamız"), *Nəticə*, rus və ingilis dillərində *Xülasə* və *Əlavələrdən* ibarətdir. Əlavələrdə "Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan milli mədəniyyət mərkəzləri və cəmiyyətləri", "Xarici ölkələrdə diasporamızın nəşr etdirdiyi bəzi qəzet və jurnalları", "Dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə qərarlar", "Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə Azərbaycan prezidentinin təbrikləri","Dünya azərbaycanlıları I qurultayının keçirilməsi haqqında Azərbaycan prezidentinin sərəncamı", "Azərbaycan diasporu nümayəndələrinin Azərbaycan prezidentinə göndərdiyi təbriklərdən", "Azərbaycan diasporu və lobbisi ilə əlaqədar müsahibələr və V.Arzumanlının məqalələri, habelə, diasporamız haqqında kitab, məqalə, çıxış, məruzə və xəbərlərin mətnləri özünə yer alıb.

Vəli Həbiboğlunun *"Heydər Əliyev və Azərbaycan diasporası"*[374](redaktoru professor V.Arzumanlı, rəyçisi professor Ə.Tağıyev) kitabında isə

[373] Vaqif Arzumanlı. Azərbaycan diasporu (reallıqlar, qayğıları problemlər). Bakı, "Qartal", 2001, 800 s.

[374] Vəli Həbiboğlu. Heydər Əliyev və Azərbaycan diasporası. Bakı, "Qartal", 2001, 358 s.

Heydər Əliyevin Azərbaycan diasporasının formalaşdırılması və inkişafı sahəsində fəaliyyəti, xaricdəki soydaşlarımız qarşısında çıxışları, respublika və xaricdə mühacir azərbaycanlılarla görüşləri ifadəsini tapıb.

Heydər Əliyev xarici ölkələrdə dağınıq halda yaşayan mühacirləri bir araya gətirmək, onları birləşdirmək məqsədilə 2002-ci ildə *xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsini* yaradıb ki, "xarici ölkələrdə yaşayan həmvətənlərimiz diaspor təşkilatları ətrafında birləşsin". 2001 və 2006-cı illərdə *Bakıda Dünya Azərbaycanlılarının qurultayları* keçirilib. 2007-ci il martın 9-da isə *Bakıda Azərbaycan və türk diaspor təşkilat rəhbərlərinin I Forumu* çağırılıb, 48 ölkədən 513 nümayəndə iştirak edib. Professor Teymur Əhmədov yazıb: "Bu ali forum bütün türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsini, sosial-mədəni, ictimai-siyasi əlaqələrin daha da möhkəmlənməsi ilə sıx bağlı məsələləri müzakirə etdi. Türk dünyasının iki böyük lideri – Mustafa Kamal Atatürk və Heydər Əliyev yüz illərdən bəri arzu olunan bu ideyanın XX əsrdə reallaşması istiqamətində konkret əməli tədbirlərin təməlini qoydular. Bu ali məclis Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir", Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik" müdrik sözlərinin əyani sübutu oldu"[375].

Professor Teymur Əhmədov *"Diaspor siyasətinin uğuru"* məqaləsində[376] Ümummilli lider Heydər Əliyevin bütün diaspor təşkilatlarının yaradılması, möhkəmləndirilməsi, vahid mərkəzdə birləşdirilməsi və əməli fəaliyyətinə qiymət verib və "onları həmrəyliyə çağırmaq, bu barədə təşəbbüskarlıq etmək bizim müstəqil Azərbaycan Respublikasının tarixi missiyasıdır!" – deyə Heydər Əliyevin fikir mövqeyini səciyyələndirib.

XX əsrin 60-80-ci illərində Heydər Əliyev xarici ölkələrə axın olduğu, dissident hərəkatı hiss olunduğu vaxtlarda soydaşlarımızın təşkilatlanması, doğma vətənlə əlaqə yaratması üçün *xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin yaradılmasını* təmin edib, imperiyanın dağıdılması ərəfəsində Azərbaycanda ictimai-siyasi həyatda və ictimai şüurda milli oyanış və milli-azadlıq hərəkatı cəhdləri güclənib. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında *Milli Həmrəylik və Birlik gününün* təsis olunması qərara alınıb.

2002-ci il dekabrın 27-də *"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında"* qanun qəbul olunub. 2004-cü ilin oktyabr ayında *Ümumrusiya Azərbaycan Konqresinin II qurultayı* keçirilib. Türkiyə, Qaza-

[375] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.220
[376] "Füyuzat", № 1, 2009, s. 2-4

xıstan, Ukrayna, Moldova və Avropanın bir sıra ölkələrində *diaspor konqresləri* fəaliyyətə başlayıb. Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasları cəmiyyətdə möhkəmlənib, "Dünya azərbaycanlılarının milli özünüdərk və ümummilli azərbaycançılıq məfkurəsi, milli dövlətçilik ətrafında sıx birləşməsi prosesinə" təkan verib. Hazırda dünya ölkələrində 370-dən artıq diaspor təşkilatı yaradılıb[377].

*Beləliklə,* Ümummilli lider Heydər Əliyevin peşəkar siyasət və diplomatiyası nəticəsində vətənpərvər soydaşlarımız təşkilatlanır, harada yaşamasından asılı olmayaraq ənənlərinə sadiq qalır, milli-mənəvi köklərinə bağlı olur, Tarixi Vətənə –Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirirlər.

---

[377] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 clddə. IV cild. Bakı, "Nurlar", 2015, s.326

## ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARI İQTİSADİYYATDA

***"Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz".***

**Heydər Əliyev**

1970-1980-ci illər ***Azərbaycan neft sənayesinin inkişafı*** Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu illərdə neft sənayesi möhkəmlənib, geniş infrastrukturu yaradılıb. Dəniz yataqlarının işlənməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilib. Bakıda dərin dəniz özülləri zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilib. Neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük sıçrayış yaranıb.

Xarici neft şirkətləri ilə danışıqlar1980-ci illərin axırlarından başlayıb. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin əsası olub.

1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında Qərbin neft şirkətləri ilə neft sazişləri bağlanıb. Sonradan bu saziş "Əsrin müqaviləsi" adı ilə tarixə, müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olunub.

*"Əsrin müqaviləsi"* müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü olub. Ulu öndər deyib:

"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etmədən ibarətdir"[378].

Azərbaycan Prezidenti Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanma mərasimində deyib: "Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi" haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasına üç il davam edən danışıqlar sona çatmış və müştərək işlərin aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir"[379].

---

[378] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.*2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.3

[379] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.

H.Əliyev qonaqları salamladıqdan sonra Azərbaycanın milli sərvəti olan neftin istifadəsi tarixini – 1847-ci ili, Bakı, Bibiheybətdəki ilk dəfə fontan vuran neftin tarixini, sonra 1872-ci ildə Novel qardaşlarının Bakıda ilk neft şirkəti yaratdıqlarını, xarici ölkə şirkətlərinin, xarici kapitalın ölkəmizə gəldiyini xatırladıb.

XIX əsrin ikinci yarısından bir sıra dünya ölkəsi şirkətləri Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərib. Azərbaycanda neft sənayesi inkişafa başlayıb, Heydər Əliyev bu dövrü şərti olaraq Azərbaycan neft sənayesi tarixinin birinci mərhələsi adlandırıb. Azərbaycanda böyük sahibkarlar meydana çıxıb, külli miqdarda mənfəət əldə ediblər. Bakı neftindən bütün dünya istifadə eləyibdir. Neft sənayesi Azərbaycanın inkişafına böyük təkan veribdir. Bakı böyük sənaye şəhərinə çevrilib, Rusiya imperiyası ərazisində ən iri sənaye mərkəzlərindən biri olub.

1918-ci ildə ölkəmizdə demokratik dövlət AXC yaradılub, müstəqilliyini əldə edib, rifah naminə səylər göstərib, lakin müstəqilliyini qoruyub saxlaya bilməyib, 1920-ci ildə AXC süquta uğrayıbdır.

Azərbaycan 70 il Sovet quruluşu şəraitində yaşayıb, neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilib. Neft sənayesi sürətlə inkişaf etdirilib.

Neft sahəsində böyük təhsil ocaqları, elmi-tədqiqat institutları yaradılıb. Mütəxəssis hazırlığı üçün Neft Akademiyası adlanan institutut açılıb. Neft sənayesi sahəsində Azərbaycanın tarixinə şanlı səhifələr yazılıb.

1941-45-ci illərdə Azərbaycanın neft sənayesi alman faşizminin məğlub edilməsi üçün böyük xidmət göstərib. Sibir -Tümen yataqlarının kəşfi və istismarında, böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri olub.

1920-ci illərin əvvəlləri, 1930-cu illərdə neft çıxarılması sahəsində iri addımlar atılıb, 7 noyabr 1949-cu ildən isə Xəzərdə neft çıxarılmasına başlanılıbdır. Həmin gün Xəzərin neft daşları sahəsində neft quyğusu ilk dəfə fantan vurubdur. 45 il ərzində Azərbaycanın dəniz neftçiləri zəngin təcrübə əldə edib.1970-ci ilər, 1980-ci illərin əvvəlləri neft həyatının əhəmiyyətli ikinci mərhələsi olub.

Azərbaycan 3 il əvvəl müstəqilliyini əldə edib, azad Respublika olub. Ölkənin həyatında yeni dövr başlanıb. Neft sənayesi tarixində şərti üçüncü mərhələ başlanıb. 3 il ərzində xarici ölkələrin neft şirkətləri ilə danışıqlar aparılıb, sazişlər əldə etmişik.

*Heydər Əliyev məlumat verib:* "Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılıbdır. Xəzərin Azərbaycana aid hissəsi də 45 ildə 400 milyon ton neft hasil edibdir. Bu müd-

dətdə eyni zamanda 400 milyon kubmetrədək qaz çıxarılıbdır. Bütün bunlar böyük nailiyyətdir və gələcəkdə Azərbaycan respublikası iqtisadiyyatının, neft sənayeisinin inkişafı üçün böyük əsas və təməldir”, –deyə bildirib.

Bütün bunlara baxmayaraq, indiyədək Azərbaycan xalqı öz sərvətlərinin sahibi olmayıb. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən, Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi”[380].

1920-ci ildən sonra da Azərbaycan öz neftinin yeganə tam sahibi olmayıb, bütün bu sərvətlərimiz sovet dövlətinə məxsus olub, indi isə dövlətimiz və ölkəmiz müstəqildir, xalq öz sərvətinin sahibidir.

“3 illik danışıqlarımız hamar yolla getməyib. “Xəzərin Azərbaycana aid sektorundakı “Azəri”, “Çıraq” neft yataqlarının, “Günəşli” neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə ADNŞ ilə xarici ölkələrin arasında aparılan danışıqlar nəticələrdə, nəhayət, hazırlanıb başa çatdırılıbdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilibdir. Sizə məlum olduğu kimi sentyabrın 14-də müqavilənin layihəsi təhlil ediləndən sonra mən onun ADNŞ tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul edibdir”[381],–deyə dövlət başçısı bildirib.

H.Əliyev deyib: “Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılıbdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır”[382]. Müqavilə 30 il müddətinə bağlanıb.

Müqavilənin imzalanmasında ABŞ, Rusiya, Böyük Britaniya, Türkiyə və Norveç dövlət və hökumət başçıları iştirak edib. Heydər Əliyev bildirib ki, Azərbaycan sentyabrda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında sazişi” (sənəd rəsmən belə adlanır) ADNŞ prezidenti Natiq Əliyev və konsorsuma daxil olan xarici neft şirkətinin prezidetləri imzalayıblar[383].

---

[380] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.14
[381] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.15
[382] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.15-16
[383] Heydər Əliyev. Təltiflər, Bakı, 2004, 337 s.; s.16

Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, habelə, Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətlər ilə 21 neft sazişi imzalanıb. Həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Azərbaycan hazırda dünyanın ən iri neft regionları sırasındadır.

İlk beynəlxalq neft sazişi ilə iqtisadiyyatda dinamik inkişafın, köklü dəyişikliyin əsas qoyulub. "Çıraq–1" dəniz platformasının tikintisi başa çatdırılıb, neft hasil edən ilk quyu qazılıb.

1997-ci il noyabrın 12-də *"Əsrin müqaviləsi"* üzrə ilkin neft hasili başlayıb, platformadan Səngəçaldakı sahil terminalınadək və Neft daşlarındakı kompressor stansiyasınadək sualtı boru kəmərləri çəkilib. Səngəçalda sahil terminalı tikilib, Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparılıb. 1997-ci ilin oktyabrında bu neft kəməri istismara verilib. "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" nəhəng dəniz qazma qurğuları istifadəyə verilib.

1997-ci il aprelin 17-də Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Ukrayna Prezidenti Leonid Kuçmanın iştirak ilə Bakı-Supsa neft kəməri və Gürcüstan Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verilib. İlk dəfə neft şimala yox, Qərbdə istiqamət götürüb.

Heydər Əliyevin neft strategiyasının əsas tərəflərindən biri Azərbaycan neftinin dünya bazarına nəqli olub. *Bakı-Tbilisi-Ceyhan* əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin iş gedib, danışıqlar uğurla nəticələnib.

Dövlət başçısı neft şirkəti rəhbəri ilə mütəmadi danışıqlar aparıb, Azərbaycan neftinin Türkiyədən nəql olunması barədə hökumətlərarası sazişlər imzalanıb. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşünün gedişində Heydər Əliyev, Eduard Şevardnadze və Türkiyə Cümhuriyyəti Prezidenti Süleyman Dəmirəl "xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətlərinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalayıb. Eyni zamanda Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyərək *"İstanbul bəyannaməsi"ni* imzalayıb.

Böyük rəhbər növbəti mühüm addım atıb: uzunmüddətli siyasi, iqtisadi mənbələr, genişmiqyaslı beynəlxalq əməkdaşlıq, regionda sülhün, sabitlik və təhlükəsizliyin bərəqrar olması üçün Xəzər Dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqları, "Şahdəniz" qaz yatağı Heydər Əliyevin neft strategiyasının açdığı yeni era, yeni sivilizasiya olub.

Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişlənməsi, Qafqaz nəqliyyat dəhlizinin inkişafı, İNOQEYT, TRASEKA və s. nəhəng layihələrin gerçəkləşməsində Azərbaycan Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərdən birinə çevrilib.

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında Xəzər şelfində neft yataqlarının birgə işlənməsi haqqında ADNŞ ilə bir qrup xarici şirkət arasında müqavilənin imzalanması münasibətilə mərasim keçirilib. *"Britiş petreleum" şirkətinin prezidenti Con Braunun* çıxışından: "Cənub Prezident, zatialiləri, nazirlər, xanımlar, cənablar! Bu müqavilənin imzalanması mərasimində iştirak etmək mənim üçün böyük şərəf və sevincdir. Bu gün bütün dünyanın nəzərləri Bakıya dikilmişdir. Çünki bu müqavilə yeni mərhələlərin, yeni beynəlxalq münasibətlərin rəmzidir. Elə münasibətlər ki, onlar XXI əsas yeni dünya qurmağa kök edə bilər"[384].

*Con Braun* davam edib: "Bu gün bir yeni yüzilliyin ən iri layihələrindən birinin əsasını qoyuruq. Elə bir layihə ki, enerji təchizatı sahəsində işgüzar münasibətlərin formaları və məzmununu dəyişməsinə və ümumən, Azərbaycan xalqının uzun müddət ərzində tərəqqisinin təmin olunmasına kömək edəndir. Uzun sürən və səylə aparılan danışıqlardan sonra biz sazişə gəldik. Bütün tərəflərin fikrincə, bu müqavilələri ədalətli hesab etmək olar"[385].

*AMOKO şirkətinin prezidenti Uilyam Laurinin* çıxışından: "Mən bu müddət ərzində bizə göstərilmiş təmkin və səmimi qonaqpərvərliyə görə Azərbaycan xalqına da təşəkkürümü bildirmək istərdim. Bu olduqca həyəcanlı andır və bizimlə Azərbaycan xalqı arasında əməkdaşlığın başlanğıcı deməkdir. Zənnimcə, əməkdaşlığımız qarşıdakı illər ərzində inkişaf edəcək və möhkəmlənəcəkdir"[386].

*Uilyam Lauri Azərbaycan haqqında* da fikir söyləyib: "Azərbaycan öz xalqının sayəsində, neft sənayesinin tarixinə, öz mütəxəssislərinə, sizə, habelə, Xəzər dənizinin təbii və ekoloji xüsusiyyətlərinə görə nadir ölkədir. Azərbaycan mütəxəssisləri ilə aparılmış diskussiya və tədqiqatların gedişində bir çox böyük təcrübə və bilik əldə etdik"[387].

---

[384] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.*2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.3

[385] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.17

[386] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.18

[387] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.18

*Uilyam Lauri Dağlıq Qarabağ haqqında da* fikir bildirib: "Belə bir fakt bizə ümid verir ki, Dağlıq Qarabağda atəşin dayandırılması rejimi uzun müddətdir ki, davam edir. Biz inanırıq ki, bu, həmin münaqişənin müvəffəqiyyətlə həlli əlamətidir.

Amerika şirkəti adından mən bu gün buraya toplaşanları bir daha təbrik etmək və Prezident Heydər Əliyevə onun layiqli xidmətinə görə minnətdarlığımı bildirmək, habelə, Azərbaycan xalqını ölkənin gələcəyi üçün çox mühüm mərhələnin başlanması münasibətilə təbrik etmək istərdim"[388].

*"Pennzoyl" şirkətinin prezidenti Tom Hamiltonun Qobustan haqqında* çıxışından: "Dalbadal neçə ildir ki, Azərbaycana gəlirəm. Axırıncı səfərim zamanı yolum şəhərin cənub hissəsinə, ətraf qəsəbələrə, Qobustana düşdü. Bu, mənim üçün unudulmaz gün oldu. Özü də bir sıra səbəblərə görə, orada olmayanlara deyə bilərəm ki, Qobustan dağlar, qayalar və mağaralar olan bir yerdir. Qaya və mağaralarda həkk olunmuş qədim rəsmlər, yazılar *qədim tarixi* və *sivilizasiyanın inkişafını* əks etdirir, insanların necə keşməkeşli yollar keçdiyinə, onların həyatının necə tədricən yaxşılaşdığına dəlalət edir"[389].

"Biz buraya Azərbaycanın və onun xalqının rifahı naminə işləmək üçün, birgə uzaq gələcək barədə düşüncələrlə gəlmişik. Fəlsəfəmiz bundan ibarətdir ki, biz Azərbaycan xalqına onun yeni təşəbbüsünə kömək etmək üçün gəlmişik. Bizim bu fəlsəfəmiz əməli işlə – qazın yığılmasına dair "Pennzoyl" şirkəti və ortağımız olan "Remko" şirkəti tərəfindən hazırlanmış layihənin həyata keçirilməsi ilə təsdiq edilir.

Mən cənab Prezident Heydər Əliyev və Azərbaycan hökumətinin uzaqgörənliyini də qeyd etmək istərdim. Böyük yolumuzun başlanğıcında hamınıza uğurlar arzulayıram. Tam əminəm ki, bu müqavilənin müvəffəqiyyəti Azərbaycanının gələcəyinə və onun xalqının tərəqqisinə olduqca böyük töhfə verəcəkdir"[390], – deyə *"Pennzoyl" şirkətinin prezidenti Tom Hamilton* bildirib.

*Türkiyənin dövlət naziri Nəcməddin Cövhərinin* çıxışından: "Bu gün burada ADNŞ ilə Qərb konsorsiumu arasında imzalanan və Azərbaycana böyük mənfəət gətirəcək bu müqavilənin bağlanması mərasimində istirak edirik. Müqavilənin imzalanması Azərbaycan tarixində önəmli hadisələr və mühüm bir dönüş mərhələsinə çevriləcəkdir. Mən bu mərasimə ölkəmin

---

[388] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.18

[389] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.18

[390] Yenə orada

xalqı və hökuməti adından gəlmişəm və müqavilənin imzalanmasına sadəcə iqtisadi bir hadisə kimi baxmıram. Müqavilə yalnız dənizdəki neftin çıxarılması demək deyildir, həm də dost və qardaş Azərbaycan Cümhuriyyətinin qərb dünyası tərəfindən alqışlanması deməkdir. Mən xalqım adından bu hadisəni qərbin Azərbaycan və onun bayrağı qarşısında baş əyməsi kimi qiymətləndirirəm. Xalqın ümumi sərvətindən onun rifahı naminə istifadə edibdir. Hörmətli Prezident Heydər Əliyevin söylədiyi kimi bəşəriyyət neftdən müharibə üçün yox, insanların xoşbəxtliyi, rifahı, inkişafı üçün istifadə etməlidir"[391]. *Türkiyənin dövlət naziri Nəcməddin Cövhəri* davam edib: "Mənim bu mərasimdə gördüyüm diqqətəlayiq cəhətlərindən biri Xəzər dənizində və onun incisi olan *Bakıda Şərq və Qərbin qovuşması*dır. San-Fransisko bəyannaməsində deyilir ki, istiqlal hər bir insanın, hər bir ölkənin, hər bir millətin təbii hüququdur. Azad və müstəqil Azərbaycanın bu müqavilələri imzalanması münasibətlə türk xalqının keçirdiyi qüruru ifadə edirəm"[392].

*Yeri gəlmişkən:* "BP" Britaniyanın ən böyük neft şirkətidir. Azərbaycan müstəqil olandan bu sahədə ilk addımlarını atıb. 1992-ci ilin sentyabrında Birləşmiş Krallığın keçmiş baş naziri Marqaret Tetçer Azərbaycana qeyri-rəsmi səfərdə olub. O, ingilis və Norveç şirkətlərinin Azərbaycan tərəfi ilə hazırlıq sazişlərində iştirak edib.

1993-cü ilin fevralında Heydər Əliyev Moskvada Britaniyanın Rusiyada və Azərbaycandakı səfiri ilə görüşüb. O, Naxçıvanın maliyyə-iqtisadi çətinliklərinin aradan qaldırılması üçün kömək xahiş edib[393].

Səfir *Tomas Yanq* Britaniya hökumətinin Azərbaycan sərhədlərini tanıdığını bildirib[394].

Tomas Yanqın bəyanatına uyğun olaraq Britaniya hökuməti Ağdamın Ermənistan tərəfindən işğalına etiraz edib, 27 iyul 1993-cü ildə 853 saylı qətnamə qəbul olunub.

1993-cü ilin oktyabrında Azərbaycana səfərə gələn *Böyük Britaniyanın dövlət naziri Duqlas Hoqq Azərbaycan Prezidenti Heydər Əliyevin andiçmə*

[391] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.19

[392] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.19

[393] Azərbaycan –Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyəti, Bakı, Əbilov, Zeynalov və oğulları, 2001

[394] www.fco.gov.uk

*mərasimində* iştirak eləyib. O, Azərbaycan –Ermənistan münaqişəsində Azərbaycanın mövqeyini ifadə edib[395].

***Azərbaycan Prezidenti Heydər Əliyev*** 22-25 fevral 1994-cü ildə ilk dəfə ***Böyük Britaniyada rəsmi səfərdə*** olub. Səfər zamanı o ölkənin Baş naziri Con Meycor, xarici işlər və birlik işləri üzrə naziri Duqlas Hördlə görüşüb. Səfər zamanı Heydər Əliyev və Con Meycor iki ölkə arasında "Dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə"ni imzalayıblar. Vergi, energetika, aviasiya sahəsində əməkdaşlıq üzrə daha səkkiz müqavilə bağlanıb.

Heydər Əliyev Britaniyanın Kral Beynəlxalq Əlaqələr İnstitutunda geniş nitq söyləyib. O, ölkənin böyük şirkətlərinin nümayəndələri ilə də görüşlər keçirib.

20 sentyabr 1994-cü ildə Bakıda Böyük Britaniyanın "BP" şirkətinin ən çox paya malik olduğu ARDNŞ-lə xarici neft şirkətləri arasında "Əsrin müqaviləsi" adlanan neft sazişi bağlanıb. Həmin imzalama mərasimində Britaniyadan energetika naziri Tim Eqqarın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

3 yanvar 1996-cı ildə krallığın dövlət katibi Malkolm Rifkindin səfəri olub. Səfər zamanı o, Heydər Əliyevlə görüşüb. Heydər Əliyevin iştirakı ilə Malkolm Rifkind ilə Azərbaycanın xarici işlər naziri arasında "İnvestisiyaların qorunması haqqında" saziş imzalanıb.

Ölkə başçısı Heydər Əliyev 1998-ci ilin iyulunda Britaniyaya ikinci rəsmi səfər edib. Həmin səfərdə o, Böyük Britaniyanın baş naziri Toni Beleyerlə Dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. İngiltərə neft şirkətləri ilə üç neft sazişi də bağlanıb. Heydər Əlyev həmçinin kraliça II Yelizaveta ilə də görüşüb.

2000-2003-cü illərdə Böyük Britaniya və Azərbaycan arasında digər rəsmi səfərlər də həyata keçirilib[396].

1994-cü il fevralın 22-də ***Böyük Britaniyanın keçmiş Baş naziri, "Dəmir ledi" Marqaret Tetçer*** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görüşünə gəlib.

Görüş zamanı müstəqil respublikamızda demokratik proseslərin gedişi, yüksək sivilizasiyalı cəmiyyət quruculuğundan söz açılıb, ölkə başçısı bildirib ki, Azərbaycan siyasi plüralizm, sərbəst bazar iqtisadiyyatı və insan hüquqlarının qorunması yolu ilə gedir və inamla irəliləyəcəkdir. Heydər Əliyev altı ildən çox davam edən müharibənin səbəbləri və mahiyyəti barəsin-

---

[395] www.fco.gov.uk

[396] "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana. WWW.MFA.GOV.AZ

də M.Tetçerdə dolğun təəssürat yaradıb. Bildirib ki, Ermənistan Silahlı Qüvvələri nüfuzlu beynəlxalq təşkilatların qərarlarına, dünyanın iri dövlətlərinin təsirinə məhəl qoymadan Azərbaycan ərazisinin xeyli hissəsini işğal edib, bir milyondan çox vətəndaşımız doğma torpaqlarından qaçqın düşüb, evsiz-eşiksiz qalıblar. Heydər Əliyev deyib ki, Azərbaycan müharibə istəmir, xalqımız və ordumuz işğalçı qoşunların ərazilərimizdən çıxarılması üçün ədalətli müharibə aparır və bu mübarizə dönmədən davam etdiriləcəkdir.

Görüşün axırında Ümummilli lider Marqaritta Tetçerə nəfis xalça bağışlayıb[397].

Həmin gün "Britiş Petroleum" şirkətinin prezidenti Saymon Devid də Azərbaycan Prezidentinin görüşünə gəlib. Heydər Əliyev bildirib ki, "BP" hələ əsrin əvvəlində Azərbaycan neftinə böyük maraq göstərib. Bu gün də Qərbin bu nüfuzlu şirkəti ilə sıx əməkdaşlığa tərəfdarıq. İnanırıq ki, şirkətlə əlaqələr Azərbaycan neft sənayesi, habelə, sosial sahənin inkişafına güclü təkan verəcəkdir[398].

Böyük Britaniyanın nüfuzlu firmalarından olan "Con Braun" şirkətinin sədri Yan Robinson da Azərbaycan Prezidenti ilə görüşüb. Qəbul zamanı kimya sənayemizin perspektivləri, onun inkişaf məsələləri ətraflı müzakirə olunub. Bildirilib ki, "Con Braun" şirkəti Sumqayıt kimyaçılarının ən yaxın köməkçisinə çevrilə bilər[399].

Həmin gün Azərbaycan Prezidenti Qərbin nüfuzlu firmalarından olan "Ci-Pi-Tİ" şirkətinin rəhbərlərini də qəbul edib. Görüşdə Azərbaycan rabitə sisteminin yenidən qurulması və modernləşdirilməsi məsələləri nəzərdən keçirilib, "Ci-Pi-Ti" ilə Azərbaycan Rabitə Nazirliyi arasında əməkdaşlıq haqqında razılıq əldə olunub.

Fevralın 22-də Azərbaycan Prezidenti Heydər Əliyev öz iqamətgahında "Kayzer injinirinq" şirkətinin direktoru Qram Muri və şirkətin digər rəhbərlərini də qəbul edib.

Fevralın 22-də axşam Azərbaycan Prezidenti H. Əliyev Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında da olub. Görüşü Böyük Britaniyanın "Britiş Petroleum" və Norveçin "Statoyl" şirkətləri təşkil ediblər. Heydər Əliyev İngiltərə sənayeçiləri qarşısında çıxış edib və onları maraqlandıran suallara cavab verib[400].

---

[397] Aslan Aslanov. AZƏRTAC-ın xüsusi müxbiri. London
[398] Aslan Aslanov. AZƏRTAC-ın xüsusi müxbiri. London
[399] Aslan Aslanov. AZƏRTAC-ın xüsusi müxbiri. London
[400] Aslan Aslanov. AZƏRTAC-ın xüsusi müxbiri. London

Heydər Əliyev *ilk xarici səfərləri zamanı özü ilə xəritə götürüb*, görüşdüyü auditoriyaya Ermənistanın təcavüzünü əyani şəkildə göstərib. Böyük Britaniya Beynəlxalq Əlaqələr İnstitutunda keçirdiyi görüşdə də belə olub. Ulu Öndər xəritə önündə professor-müəllim heyətinə işğal olunmuş ərazilər, milli sərvətlərimizin talan olunması, milli abidələrimizin məhvi barəsində təsəvvür yaradıb[401].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Toni Bleyrin dəvəti ilə1998-ci il iyulun 19-24-də Böyük Britaniyada rəsmi səfərdə olub.

Həmin gün Prezident Heydər Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığın beynəlxalq inkişaf üzrə *dövlət katibinin müavini Corc Foulks,* Böyük Britaniyanın *«Şell» şirkətinin icraçı direktoru Fill Vatsa* və *«Lazma» şirkətinin prezidenti Con Darbilə* görüşüb.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər üzrə dövlət naziri Daq Henderson Londonda Prezident Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edib. O, Birləşmiş Krallığın Azərbaycanla Xəzər regionunda strateji əlaqə yaratmaq istədiyini diqqətə şatdırıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Londonda Britaniya Şurasının baş direktoru doktor Deyvid Driyuri, Londonda Böyük Britaniyanın «Monument Oyl and qaz» şirkətinin baş direktoru Tim Eqqar və şirkətin icraçı direktoru Terri Adams ilə görüşüb.

İyulun 21-də Heydər Əliyev Londonda öz iqamətgahında Böyük Britaniyada çıxan «Först» jurnalının beynəlxalq prezidenti Patrik Kormakı qəbul edib. Daha sonra Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Respublikasının Beynəlxalq Bankı arasında beynəlxalq bank-kredit xətti açılması haqqında sazişin imzalanması mərasimi olub. Mərasimdən sonra Heydər Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Çarlz Frankla görüşüb.

Həmin gün ***Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizaveta*** ilə görüşən ***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev*** Böyük Britaniya ilə bütün sahələrdə qaşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli olduğunu, II Yelizaveta da öz növbəsində Böyük Britaniyanın Azərbaycana böyük maraq göstərdiyini bildirib.

Dövlət rəhbəri Heydər Əliyev Londonda Böyük Britaniyanın ticarət və sənaye üzrə dövlət katibi, Ticarət Şurasının prezidenti xanım Marqaret Bekett ilə də görüşüb.

[401] Yenə orada

Heydər Əliyev Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Toni Bleyr ilə görüşüb.Görüş zamanı Azərbaycanla Böyük Britaniya arasında əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirilib. Baş nazir deyib ki, iki ölkə arasında iqtisadi və siyasi əlaqələrin durmadan inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

Prezident Heydər Əliyevlə Baş nazir Toni Bleyrin görüşündən sonra sənədlərin imzalanması mərasimi olub. Onlar Azərbaycan Respublikası Prezidenti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Dostluq Münasibətləri və Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzalayıblar. Bundan başqa Xəzər dənizinin Azərbaycan sektorundakı «Araz», «Alov» və «Şərq» perspektivli strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi Böyük Britaniyanın «Britiş Petroleum» şirkəti, Norveçin «Statoyl» şirkəti və ARDNŞ tərəfindən imzalanıb. «İnam» perspektivli strukturunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında saziş ABŞ-ın «AMOKO» şirkəti, Böyük Britaniyanın «Monument Oyl and Qaz» şirkəti, Rusiyanın «Mərkəzi Yanacaq» şirkətilə ARDNŞ arasında imzalanıb. Azərbaycan Respublikasında quruda yerləşən «Muradxanlı» və «Cəfərli» neft yataqları və «Zərdab» perspektivli strukturunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında sazişi Böyük Britaniyanın «Ramko» şirkəti ilə ARDNŞ imzalayıb.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Londonda onun üçün ayrılmış iqamətgahda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və Sənaye Departamentinin dövlət naziri Con Bətti ilə görüşüb.

Kraliça və Baş nazirlə keçirdiyi görüşləri, apardığı danışıqları bu ölkəyə rəsmi səfərinin ən mühüm hadisələri hesab etdiyini vurğulayan Prezident Heydər Əliyev Toni Bleyr ilə birlikdə imzaladığı sənədin ölkələrimiz arasında əlaqələrin gələcək inkişafında mühüm rol oynayacağını bildirib.

*Ölkə başçısı Heydər Əliyevin Birləşmiş Krallığa rəsmi səfəri Böyük Britaniya mətbuatının diqqət mərkəzində* olub. Böyük Britaniyanın ən nüfuzlu televiziya kanalı olan Bi-Bi-Si-nin müxbiri iyulun 21-də Prezident Heydər Əliyevdən müsahibə alıb. Müsahibə elə həmin axşam Bi-Bi-Si televiziya kanalı ilə yayımlanıb.

Həmin gün Londonun lord-meri Riçard Nikols Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edib.

İyulun 22-də dünyanın bir sıra ölkələrindən 300-dən çox nümayəndə toplaşan, Böyük Britaniyanın «Ay-Bi-Si» şirkətinin Londonun «Royal Qarden» mehmanxanasında təşkil etdiyi «Azərbaycanda biznes» mövzusunda beynəlxalq konfransda Azərbaycan Prezidenti Heydər Əliyev çıxış edərək

qeyd edib ki, kim gəlib Azərbaycanda sağlam iş görmək istəyirsə, bizim ölkəmizdə onun üçün bütün imkanlar vardır.

Həmin gün Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan səfirliyində Böyük Britaniyada yaşayan Azərbaycan icması nümayəndələri ilə görüşü keçirilib. Sonra prezident Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər və birlik işləri üzrə dövlət katibi Robin Kuk ilə görüşüb. Azərbaycanın Avropa strukturları ilə əlaqələrinin artmasından söhbət açan cənab Robik Kuk bildirib ki, Böyük Britaniya Avropa Şurasına Azərbaycanın tam hüquqlu üzv kimi qəbul olunması üçün lazımi işlər görəcək və bu məsələ Birləşmiş Krallıq tərəfindən dəstəklənəcəkdir.

İyulun 23-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri zamanı Ulu öndər Şotlandiyanın Edinburq şəhərində də olub. Həmin gün «Siti Çembers»də Edinburq şəhərinin lord-provostu Erik Miliqanla görüşüb, Britaniyanın «Britiş Petroleum» şirkətinin Qreyncmaut şəhərindəki sənaye-istehsal kompleksində olub. Daha sonra Edinburqun «Balmoral» mehmanxanasında Şotlandiyanın biznes dairələrinin nümayəndələri ilə görüşüb.

Həmin gün Azərbaycan Prezidenti Heydər Əliyev Edinburqda – Şotlandiyada yaşayan soydaşlarımızla da görüşüb. Görüşdə çıxış edən prezident qeyd edib ki, xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması və onun fəaliyyətinin gündən-günə gücləndirilməsi, Azərbaycanın haqq işini dünya ictimaiyyətinə çatdırmaq üçün səylərin birləşdirilməsi vacibdir.

İyulun 24-də Azərbaycan Prezidenti Heydər Əliyev Londondakı Azərbaycan Mədəniyyət Mərkəzində yeni açılmış sərgidə olub[402].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizaveta ilə görüşüb[403].

*II Yelizaveta:* Cənab prezident Heydər Əliyev, sizi səmimi-qəlbdən, ürəkdən salamlayır, Böyük Britaniyaya rəsmi səfərinizdən məmnunluğumu bildirirəm.

Zati-aliləri, İkinci Dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ilin mayında Londonda keçirilmiş şənliklərdə sizinlə görüşüm mənim yaxşı xatirimdədir. Mən, həmçinin, qeyd etməliyəm ki, Birləşmiş Krallıq Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük maraq göstərir.

---

[402] Yenə orada

[403] London, Bukingem sarayı. 21 iyul 1998-ci il

*Heydər Əliyev:* Hörmətli əlahəzrət kraliça! Sizinlə görüşümüzdən mən də böyük məmnunluq duyuram. Dünyanın ən nüfuzlu dövlətlərindən biri olan Böyük Britaniya ilə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsi müstəqil Azərbaycan Respublikası üçün çox əhəmiyyətlidir.

Sizi, hörmətli kraliça, Azərbaycanda çox yaxşı tanıyır və sevirlər. Xalqlarımız arasında əlaqələrin tarixi də qədimdir. Hələ orta əsrlərdə İngiltərə ilə Azərbaycan arasında iqtisadi əlaqələr, xüsusilə, ticarət əlaqələri var idi.

*II Yelizaveta:* Sizin ölkəniz haqqında mənim geniş məlumatım var. Sizin rəhbərliyiniz ilə son illər Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlər İngiltərədə maraqla izlənilir.

Böyük Britaniya şirkətlərinin Azərbaycanda geniş fəaliyyət göstərməsi üçün yaradılan şəraitə görə sizə minnətdarlığımı bildirirəm. Ölkələrimizin bütün sahələrdə, xüsusən, elm, mədəniyyət, təhsil sahəsindəki əlaqələrinin durmadan inkişaf etdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğulayıram.

*Heydər Əliyev:* Bu sahədə hər iki tərəfdən atılan addımlar xüsusi əhəmiyyətə malikdir. Bilirsiniz ki, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi üçün imzalanmış tarixi müqavilələrin həyata keçirilməsində Böyük Britaniyanın neft şirkətləri yaxından iştirak edir.

Baş nazir Toni Bleyerlə bugünkü görüşümdən sonra Azərbaycan və Böyük Britaniya şirkətləri arasında bir sıra yeni müqavilələr imzalanacaqdır. Ölkələrimiz arasında iqtisadi sahədə əlaqələr hazırda yüksək səviyyədədir. Hüquqi, demokratik dövlət quruculuğunda və iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsində böyük uğurlar qazanmış Azərbaycan həm də bir sıra problemlərlə qarşılaşmışdır. Bu problemlərdən biri Ermənistan silahlı qüvvələrinin ölkəmizə 1988-ci ildən bəri davam edən hərbi təcavüzüdür. Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal olunmuşdur. Bu ərazilərdən qaçqın düşmüş 1 milyondan çox vətəndaşımız hələ də çadırlarda ağır vəziyyətdə yaşayırlar. İşğal edilmiş Azərbaycan ərazilərində yüzlərlə şəhər və kənd dağıdılmış, yandırılmış, evlər, məktəblər, xəstəxanalar talan olunmuş, qədim mədəniyyət abidələri məhv edilmişdir. Hazırda atəşkəsə əməl edilir və qan tökülmür. Lakin bu, sülh demək deyildir.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in bu məqsədlə yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, üç böyük dövlətin - ABŞ-ın, Rusiyanın və Fransanın Minsk qrupuna həmsədrlik etməsindən bəhs edərkən onu vurğulamaq olar ki, münaqişənin həlli üçün həmsədrlərin irəli sürdükləri təkliflər Azərbaycan tərəfindən maraqla qarşılanmış və diqqətlə öyrənilmişdir. ATƏT-in üzvü olan dövlət və höku-

mət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin siyasi vasitələrlə həlli barədə qəbul olunmuş prinsipləri 53 dövlət, o cümlədən Böyük Britaniya təsdiq etmişdir. Biz bu münaqişənin həmin prinsiplər əsasında tezliklə həll olunmasına tərəfdarıq.

Regionda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün bu münaqişənin tezliklə aradan qaldırılmasının vacib olduğunu, dünya ictimaiyyətinin, nüfuzlu dövlətlərin bu məsələyə xüsusi diqqət yetirilməsinə ehtiyac duyulduğunu vurğulayıram.

Azərbaycan demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş, Dünya Birliyi ilə sıx əlaqələr qurmuş, öz qapılarını xarici iş adamlarının üzünə açmış, iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasına, Avropa strukturlarında bərabər hüquqlu üzv kimi iştirak etməyə böyük əhəmiyyət verir. Onu da xatırlatmaq istəyirəm ki, hazırda respublikamızda Böyük Britaniyanın 100-dən çox şirkəti fəaliyyət göstərir.

Birləşmiş Krallıq ilə Azərbaycan arasında hələ bu əsrin əvvəllərində sıx əlaqələr olmuşdur. Müstəqil respublikamız Böyük Britaniya kimi nüfuzlu bir dövlətlə müttəfiq olmaqdan, onun simasında özünə yaxın dost tapmaqdan çox məmnundur. Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı əlaqələr qurulmuşdur. Biz əminik ki, ölkəmizin haqq işinin müdafiə olunmasında İngiltərə səylərini daha da artıracaqdır.

Bildirirəm ki, dünya ölkələri Azərbaycanla qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa böyük maraq göstərirlər. Regionda strateji əhəmiyyətə malik olan respublikamızda Avropa-Qafqaz-Asiya dəhlizinin normal işləməsi sahəsində xeyli müsbət tədbirlər görülmüşdür. TRASEKA proqramı uğurla həyata keçirilir. Transqafqaz nəqliyyat dəhlizi qısa müddət ərzində Azərbaycanı, bütünlükdə Qafqazı, Avropanı birləşdirmişdir.

Dünya xalqlarının iqtisadi, mədəni əlaqələrinin qurulmasında vaxtilə böyük əhəmiyyət daşımış qədim "İpək yolu"nun bərpası üçün Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində bu il sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcəkdir. Biz əminik ki, bu beynəlxalq tədbir iştirakçı dövlətlərin hamısı üçün xüsusi əhəmiyyət daşıyacaqdır.

Azərbaycanda iqtisadi islahatlar, özəlləşdirmə ardıcıl surətdə müvəffəqiyyətlə həyata keçirilmiş, keçmiş sovet məkanında yerləşən ölkələr arasında ilk dəfə Azərbaycanda torpaq şəxsi mülkiyyətə verilmiş, ölkəmizdə siyasi plüralizm, söz azadlığı bərqərar olunmuşdur. Müstəqil respublikamız Qərbin inkişaf etmiş dövlətlərinin bütün sahələrdə təcrübəsinin öyrənilməsinə və tətbiqinə daim böyük əhəmiyyət verir.

İnanıram ki, Azərbaycan Respublikasının Prezidenti kimi mənim bu ölkəyə rəsmi səfərim Azərbaycanla Böyük Britaniya arasında elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin durmadan inkişaf etdirilməsində yeni mərhələ açacaqdır. Respublikamızda fəaliyyət göstərən ingiltərəli iş adamlarının xalqlarımızın mədəni, insani münasibətlərinin daha da möhkəmləndirilməsinə lazımi səylər göstərməsindən razılığımı bildirirəm. (Əlahəzrət kraliçanı 1995-ci ildəki görüşündə Azərbaycana rəsmi səfərə dəvət etdiyini xatırladan respublikamızın rəhbəri dedi ki, xalqımız onu hörmətli qonaq kimi qəbul etməkdən çox məmnun olardı).

Əminəm ki, əlahəzrət kraliçanın ölkəmizə səfəri Azərbaycan xalqı üçün əlamətdar hadisəyə çevrilər. Xalqımız sizi hörmətli qonaq kimi qəbul etməkdən məmnun olar.

*II Yelizaveta:* Hörmətli cənab prezident, mən bu dəvətə görə minnətdarlığımı bildirir, Azərbaycana həqiqətən böyük maraq göstərdiyimi vurğulayıram[404].

Heydər Əliyev 19-24 iyul 1998-ci il tarixində Böyük Britaniyaya ikinci rəsmi səfər edib. Səfər zamanı Böyük Britaniya kraliçası II Yelizaveta ilə görüşüb, tərəfləri maraqlandıran məsələlər müzakirə edilib.

Kraliça Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərin ölkəsində maraqla izləndiyini bildirib[405].

*Böyük Britaniyanın energetika naziri Tim Eqqarın* çıxışından: "Cənab Prezident, mən sizi hər şeydən əvvəl, belə müqaviləyə razılıq vermək barədə uzaqgörənliklə qərar qəbul etməyiniz münasibətilə təbrik etmək istərdim. Mən əminəm ki, həmvətənləriniz sizə yalnız minnətdar olacaqlar.

Özü də uzun illər üçün bəri başdan minnətdar olacaqlar. Şəxsən mən səni əmin edirəm ki, ingilis hökuməti bu müqaviləni alqışlayır, həm də çox səmimiyyətlə.

Bununla əlaqədar sizə bildirməyə şadam ki, Böyük Britaniyanın Baş naziri Con Meycorun, bizim Ticarət Nazirliyi İdarə Heyətinin Prezidenti Mayke Hezltayının sizə şəxsi məktublarını gətirmişəm. Onların məktublarında bu günki tarixi nailiyyətlə əlaqədar sizin ünvanınıza təbrikləri ifadə edilmişdir"[406].

---

[404] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir *(çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar).* Azərnəşr, Bakı, 2005, XVI cild, səh.332-336

[405] Böyük liderin 90 anı. Heydər Əliyev irsini Araşdırma Mərkəzi. "Şərq-Qərb", Bakı, 2013, s.126

[406] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı*

*ABŞ Energetika nazirinin müavini Uilyam Uaytın* çıxışından: "Biz inanırıq ki, bu layihə dünyanın bu bölgəsində yeni bir dövrün əsasını qoyacaqdır. Biz tam əminik ki, bu layihənin həyata keçirilməsi nəticəsində on minlərlə azərbaycanlı üçün yeni iş yerləri təmin ediləcək, onlar öz ailələrinin rifahını yüksəldə biləcəklər"[407].

*"Dan ulduzu", və "Əşrəfi" strukturlarının birgə işlənməsi haqqında"* sazişin imzalanması mərasimi zamanı (1996, 14 dekabr) ADNŞ ilə ABŞ-ın "AMOKO","YUNOKAL", Yaponiyanın "İTOÇU" və Səudiyyə Ərəbistanının "Delta" şirlətləri arasında müqavilənin imzalanması şəraitində *Yaponiya nümayəndə heyətinin başçısı Toşiro Tzunozaki* deyib: "Yaponiya hökuməti Azərbaycan öz müstəqilliyini elan etdiyi gündən ölkənizə dəstək verir və iqtisadi sahədə onu dəstəkləməyə daim səy göstərir. Məs. Yaponiya hökuməti Azərbaycanda idarəetmə, maliyyə proqramları hazırlayır. Hökumətiniz dərindən inanır ki, son nəticədə bunun Azərbaycana böyük xeyiri olacaqdır. Biz sinin ölkəyə texniki sahədə dəstəyi gələcəkdə də davam etdirmək niyyətindəyik. Eyni zamanda Azərbaycanın keçid dövründə yaşadığını nəzərə alaraq Yaponiya hökuməti ona 2,3 milyon ABŞ dolları dəyərində humanitar yardım göstərmişdir. Yaponiya hökuməti Azərbaycandakı makroiqtisadi inkişafı nəzərə alaraq ölkənizə hansı cəhətdən dəstək vermək barədə planlar işləyib hazırladım. Hökumətimiz Azərbaycana ticarət sahəsində də koməklik göstərəcəkdir"[408].

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 24-27 fevral 1998-ci ildə **Yaponiyaya rəsmi səfəri*** zamanı  mühüm iqtisadi məsələlərə toxunulub.

Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiyanın Baş naziri Ryutaro Haşimotonun dəvəti ilə 24-27 fevral 1998-ci ildə *Yaponiyaya ilk rəsmi* səfərdə olub. Səfər Yaponiyanın Tokio və Kioto şəhərlərini əhatə edib. Heydər Əliyev ölkənin imperatoru əlahəzrət Akixito, Baş nazir Haşimoto, hökumətin bir sıra üzvləri, habelə, ölkənin çoxsaylı investorları, iş adamları ilə görüşüb. İki ölkə arasında yeddi sənəd imzalanıb. Onların içərisində "İki ölkə arasında dostluq və tərəfdaşlıq haqqında birgə bəyanat" və "Yaponiya ilə Azərbaycan arasında iqtisadiyyat və ticarət sahəsində əməkdaşlıq haqqında birgə bəyanat" da olub. Sənədlər 26 fevral 1998-ci ildə Tokioda Ya-

---

*naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.20

[407] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.20

[408] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001,   493 s.; s.56-57

poniyanın baş naziri Haşimoto və Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən imzalanıb. Digər beş sənəd:

1. "Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Xarici ölkələrlə İqtisadi Əməkdaşlıq Fondu arasında "Şimal Buxar-Qaz Elektrik Stansiyasının tikintisi" layihəsi haqqında kredit sazişi üzrə notalar mübadiləsi" *(26 fevral 1998-ci il, Tokio);*

2. "Azərbaycan Respublikasında ərzaq istehsalının artırılmasına kömək məqsədilə kənd təsərrüfatı maşın və avadanlıqlarının alınması üçün Yaponiya Hökuməti tərəfindən əvəzsiz yardım kimi ayrılan qrant üzrə nota mübadiləsi və protokol" *(26 fevral 1998-ci il, Tokio);*

3. "Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın İdxal-İxrac Bankı arasında Etilen-Polietilən zavodunda EP –300 qurğusunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsi haqqında kredit sazişi" *(26 fevral 1998-ci il,Tokio);*

4. "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "Mitsui" Neft Şirkəti arasında pay iştirakının verilməsi haqqında saziş" *(26 fevral 1998-ci il, Tokio);*

5. "Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Xarici Ölkələrlə İqtisadi Əməkdaşlıq Fondu arasında "Şimal Buxar-Qaz Elektrik Stansiyasının tikintisi" layihəsi haqqında kredit sazişi" *(27 fevral 1998-ci il, Tokio)* olub.

İlk görüş məşhur *"İtoçu" neft şirkətinin prezidenti Minoro Murofuşi* ilə başlanıb. Azərbaycan–Yaponiya iqtisadi münasibətlərinin əsası 1996-cı ildə üç neft yatağının birgə işlənməsini nəzərdə tutan "Əsrin müqaviləsi" ilə qoyulub."İtoçu" şirkətinin rəhbərliyi Azərbaycan Prezidentinin şərəfinə rəsmi ziyafət verib. Heydər Əliyev *"Niçimen" şirkətinin vitse-prezidenti İto Şunro, "Tomen" şirkətinin prezidenti Akixiro Tzuçi, "Mitsui" şirkətinin prezidenti Yeşimo Şqey, Yaponiya İdxal-İxrac Bankının prezidenti Yasuda Xiroşi, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin prezidenti Kimio Fucita, Yaponiya Xarici Ticarətin İnkişafı Təşkilatının sədri Toyoşimo Toro, Yaponiyanın Xarici Ölkələrdəki İqtisadi Əməkdaşlıq Fondunun prezidenti Akiro Nişiqaki* ilə təkbətək görüşüb danışıqlar aparıb.

***Azərbaycan Prezidenti Heydər Əliyev*** 25 fevral 1998-ci ildə ***Yaponiyanın İmperatoru əlahəzrət Akixito*** ilə görüşüb. Daha sonra dövlət başçısı Yaponiyanın *"Mitsubişi" şirkətinin prezidenti Şinroku Moroxaşi, "Sumitomo" şirkətinin prezidenti Miyuxara Kinci, Yaponiya Milli Neft Korporasiyasının prezidenti Kunio Komats* ilə də danışıqlar aparıb. *Yaponiya Milli Neft Korporasiyasının* rəhbərliyi adından H.Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Ölkə başçısı fevralın 26-da Tokioda iri yapon şirkətlərinin rəhbərləri ilə görüşüb. O, "Nissö İvai" şirkətinin prezidenti Husamiçe Masataki, "Marubeni" şirkətinin prezidenti İvao Toriumu, "Capeks" şirkətinin prezidenti cənab Vada, "Niçimen" şirkətinin vitse-prezidenti İto Şunro, "Soni Media Uorld" şirkətinin rəhbərləri ilə də aparıb. Həmin gün Heydər Əliyev "Kaydaren" İqtisadi Təşkilatlar Federasiyası, Xarici Ticarət Məsləhəti Cəmiyyəti, habelə, Yaponiyanın Rusiya, Mərkəzi və Şərqi Avropa ilə "Rotobo" Ticarət Assosiasiyasının təşəbbüsü ilə yapon investorları ilə görüşlər keçirib və əhatəli nitq söyləyib. Azərbaycanın dövlət başçısının şərəfinə həmin təşkilatlar rəsmi ziyafət təşkil ediblər.

Heydər Əliyev 27 fevral 1998-ci ildə Yaponiyanın *Xarici Ticarət və Sənaye Naziri Mistio Xoriuçi* ilə görüşüb. İki ölkə arasında ticarət və sənaye sahəsində əməkdaşlığın perspektivləri müəyyənləşdirilib. Həmin gün Azərbaycan Prezidenti Kioto şəhərinə gəlib. Kioto prefektura və bələdiyyə idarəsi, şəhərin Ticarət-Sənaye Palatası adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib. Dövlət başçımız Azərbaycandakı iqtisadi islahatlar, Tokioda iki ölkə arasında imzalanan sənədlər və aparılan danışıqlar barəsində geniş nitq söyləyib. Heydər Əliyev Nişicin-Ori-Kalkan toxuculuq-sənaye mərkəzində müasir istehsal prosesi ilə tanış olub.

Heydər Əliyev səfər zamanı Röyter agentliyinə, Yaponiyanın "Asahi" və "En-Eyç-Key" telekanallarına, "Nikkey Simbun", "Asahi Simbun", "Sankey Simbun", "Yomiuri Simbun" qəzetlərinə geniş müsahibələr verib. Həmin rəsmi səfəri Yaponiya və Azərbaycan arasında diplomatik, siyasi-iqtisadi əlaqələrin yaradılması və inkişafında mühüm tarixi hadisə kimi yüksək qiymətləndirilib.

2007-ci ilə qədər Yaponiya ilə Azərbaycan arasındakı ticarət dövriyyəsi 295 milyon ABŞ dolları təşkil edib. İdxal məhsulları arasında qara metaldan borular, borucuqlar, içiboş profillər, minik avtomobilləri, mexaniki kürəklər, ekskavatorlar, birçalovlu yükləyicilər, elektrik transformatorların hissələri də olub.

Hazırda Yaponiyanın "İtoçu", "Mitsui", "Sumitoma", "Capeks", "Marubeni" şirkətləri ölkəmizdə uğurla fəaliyyət göstərirlər. Yaponiya hökuməti Azərbaycanda "Şimal" Elektrik Stansiyasının yeni enerji blokunun tikintisi üçün 40 il müddətinə 339 milyon ABŞ dolları, Sumqayıt Etilen-Polietilen zavodunda Buxar-Generator qurğusunun tikintisi üçün 90 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayırıb.

Azərbaycan Prezidenti İlham Əliyevin 8-11 mart 2006-cı ildə bu ölkəyə rəsmi səfərindən sonra iki dövlət arasında siyasi-iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub[409].

*AMOKO şirkətinin prezidenti Don Steysinin* çıxışından: "Cənab Prezident!

Bizi bugünki böyük mərasimə sizin uzaqgörənliyiniz, dönməzliyiniz və Azərbaycanın gələcəyinə inamınız gətirib çıxarmışdır. Cənab prezident, biz bilirik ki, Azərbaycanda siyasi vəziyyətin sabitləşdirilməsində sizin həyat təcrübənizin böyük köməyi olmuşdur. Biz onu da bilirik ki, Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün siz olduqca gərgin iş aparmısınız. Sizə və Azərbaycan xalqına uğurlar arzulayırıq"[410]. Don Steysi bildirib ki, "AMOKO "Yunokal" "İtoçu" və "Delta" şirkətləri hədiyyə olaraq azərbaycanlı qaçqınlar üçün 12 ev tikməyi qərara alıb.

*"Yunokal" şirkətinin vitse-prezidenti Marti Millerin* çıxışından: "Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı təqdirəlayiq uzaqgörənlik və qətiyyət nümayiş etdiribdir. Bu uzaqgörənlik dünyanın ən mühüm enerji istehsalçısı kimi Azərbaycanın tarixi ənənələrini özünə qaytaracaqdır. Azərbaycan neft sənayesi haqqında xəbərlər bütün dünyada diqqətlə izlənir.

Cənab Prezident Heydər Əliyev, bütün bu işlərin reallığa çevrilməsində sizin rəhbərliyiniz xüsusilə təqdirəlayiqdir. Bu yolda qarşısında çoxlu maneələr dururdu. Buna baxmayaraq, siz qətiyyətli irəlilədiniz, öz bacarıq və imkanlarınızı hamıya sübut etdiniz... Azərbaycan xalqı həqiqətən bəxtəvərdir ki, sizin kimi lideri vardır. Azərbaycan sizin rəhbərliyinizlə, dünya hadisələrini görmək bacarığınızla fəxr edir və edəcəkdir"[411].

*"Delta" Səudiyyə Ərəbistanı şirkətinin prezidenti Bədr əl-Əybanın* çıxışından: "Zati-aliləri, sizin müdrik siyasətiniz və rəhbərliyiniz altında imzalanan həmin tarixi müqavilələr keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın siyasi və hüquqi baxımdan ən sabit ölkələrdən biri olduğunu bütün dünyaya nümayiş etdirdi...

Zati-aliləri Heydər Əliyev, Azərbaycanda siyasi, maliyyə və hüquqi sahədə mövcud olan möhkəm sabitlik sizin öz xalqınıza göstərdiyiniz ən böyük xidmətdir. Bu gün istər neft sahəsində işləyən, istərsə də başqa yönlü

[409] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri (24-28 fevral 1998-ci il). "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana

[410] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.58

[411] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.60

bir çox xarici şirkətlər Azərbaycana sərmayə qoyuluşunu öz ölkələrindəki kimi eyni dərəcədə təhlükə hesab edirlər. Siz bütün xalqınızı bolluğa və firavan həyata apara bilən cəlbedici iqtisadi şərait yaratmısınız. Məhz buna görə də gələcək nəsillər Sizin misilsiz xidmətlərinizi heç vaxt unutmayacaqlar"[412].

1997-ci il yanvarın 13-də Parisin Yelisey sarayında *"Lənkəran-dəniz"* və *"Talış-dəniz"* yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması mərasimində Fransa Prezidenti Jak Şirak və Azərbaycan Prezidenti Heydər Əliyev iştirak edib. Xəzərin Azərbaycan sektorundakı "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə Fransa "Elf Akiten" və "Total" şirkətləri arasında müqavilənin imzalanması mərasimi olub. Müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev, "Elf Akiten"nin prezidenti Filip Zefre və "Total"ın prezidenti Tyeri de More imzalayıb. *Fransa Prezidenti Jak Şirak* bəyanatı zamanı deyib:

"Nəyahət, deməк istəyirəm ki, bu müqavilənin Parisdə imzalanmasına Azərbaycan Prezidentinin razılıq verməsi faktını mən yüksək qiymətləndirirəm, halbuki, tamamilə aydındır ki, ənənəyə görə həmin müqavilə Bakıda imzalanmalı idi. Demək istəyirəm ki, Prezidetin bu addımında ölkəmizə dostluq münasibətinin əlamətini görürəm. Əziz Prezident, ümidvaram ki, bu ölkələrimiz arasında siyasi-iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılmış addımdır. Mən bu əlaqələrin möhkəmlənməsinə çalışıram"[413].

1997-ci il, avqustun 10-da *"Abşeron", "Naxçıvan", "Oğuz"* strukturlarının birgə işlənməsi haqqında üç sazişin imzalanması mərasimi olub. *ABŞ-ın vitse-prezidenti Albert Qor* çıxışı zamanı deyib:

"Cənab Prezident, ümidvar olduğumuzu bildiririk ki, bu müqavilələr Azərbaycanın artmaqda olan tərəqqisinə, müstəqilliyinə kömək edəcəkdir. Ümid edirik ki, Sizin regionunuzda təhlükəsizliyə və əməkdaşlığa söykənən ədalətli sülh dövrü başlanacaqdır. Beləliklə, sizin və mənim şahidliyimizlə indicə imzalanacaq müqavilələr Azərbaycan və bütün Xəzər regionu üçün yeni bir mərhələnin başlanğıcından xəbər verir. Bu gün sizin regionun dövlətlərinin bir-biri ilə, bütövlükdə dünya ilə kommersiya və ticarət əlaqələri yaradaraq münasibətlər saxlamaq istiqamətində göstərdikləri davamlı səy-

[412] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.; s.61

[413] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* I hissə, Bakı, 2001, s.67

lərin tarixi bir hissəsi əlamətdar gün kimi yadda qalacaqdır"[414].

1998-ci il iyulun 21-də Xəzər dənizinin Azərbaycan sektorundakı *"Araz", "Alov" və "Şərq"* strukturlarının, *"İnam"* strukturunun, quruda yerləşən *"Muradxanlı"* və *"Cəfərli"* neft yataqlarının və *"Zərdab"* strukturunun birgə işlənməsi haqqında üç sazişin imzalanması mərasimi olub. Mərasim zamanı *Böyük Britanıyanın Baş naziri Toni Bleyer* deyib: "Prezident Əliyevi burada salamlamaq bizim üçün böyük şərəf və başucalığıdır. Bu, ölkələrimiz arasındakı əlaqələrdə dönüşün yaranmasını və onların dərinləşməsini göstərir.

Cənab Prezident, bu, Azərbaycan və xalqınız üçün o deməkdir ki, burada, Birləşmiş Krallıqda sizin yaxşı dostlarınız var. Əlaqələriniz bu gün də, sabah da möhkəmlənəcəkdir. Kommersiyanın özlüyündə çox vacib sahə olmasına baxmayaraq, yalnız bu sahədə deyil, siyasi sahədə də əlaqələr möhkəmlənəcəkdir.

Biz inanırıq ki, *Azərbaycan müasir dünyada həlledici siyasi və iqtisadi rol oynayır.* Həmin rolu inkişaf etdirməkdən ötrü biz sizinlə birlikdə işləmək istəyirik. Bu gün çox vacib olan kommersiya sazişləri ilə yanaşı, siyasi bəyannaməni imzalamağımız faktı gələcək əməkdaşlığımızın möhkəm əsasını təşkil edir"[415].

***"Əsrin müqaviləsi"ndə*** 8 ölkə: Azərbaycan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı və 13 məşhur neft şirkəti iştirak edib.

1997-ci il noyabrın 12-də Respublika sarayında Xəzər dənizinin Azərbaycan sektorunda, xarici şirkətlərlə birgə işlənən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə mərasim keçirilib. Mərasimdə Gürcüstan Prezidenti Eduard Şevarnadze, Türkiyənin Baş naziri Məsud Yılmaz, Rusiya aş nazirinin I müavini Boris Nentsov, ABŞ-ın Energetika naziri Federiko Penyanı, Böyük Britaniyanın dövlət xarici işlər naziri Derik Façetti, Ukrayna Baş nazirinin I müavini Anatoli Qolubçenko, Özbəkistanın Baş nazirinin müavini Kayum Xakulov, Norveçin Energetika və Sənaye nazirinin müavini Hokon Gili, Almaniya, Yaponiya, Qazaxıstan, Avropa Birliyi Komissiyası, AB energetika xartiyasının nümayəndəliyi və başqa rəsmi şəxslər iştirak edib.

---

[414] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* I hissə, Bakı, 2001, s.70

[415] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* I hissə, Bakı, 2001, s.85

*Rusiya Baş nazirinin I müavini Boris Nentsov* Azərbaycandan öyrənməyi, yeni beynəlxalq iqtisadi layihələri nəzərə alaraq deyib: "Hesab edirəm ki, biz Azərbaycandan çox şey öyrənə bilərik. Həqiqətən, burada həyata keçirilən gözəl beynəlxalq layihələr digər Xəzəryanı ölkələri də Xəzərdəki yataqların necə istismar olunması barədə düşünməyə vadar edir. Zənnimcə, Xəzərin təbii ehtiyatlarından istifadə məsələsinə, nəhayət, nöqtə qoymaq vaxtı gəlib çatmışdır. Bunu çoxdan etmək lazım idi. Yeri gəlmişkən, bu məsələləri Heydər Əliyeviç də dəfələrlə, o cümlədən, iyulun əvvəllərində Moskvaya axırıncı səfəri zamanı da qaldırmışdır. Məncə, indi biz belə bir məqama gəlib çatmışıq ki, bu müqaviləni bağlamaq lazımdır"[416].

*ABŞ-ın Energetika naziri Federiko Penyanı* Azərbaycanın həm bölgə, həm də dünyanın gələcəyi üçün mühümlüyünü ifadə edərək bildirib: "Azərbaycan tərəqqi, beynəlxalq əməkdaşlıq erasını açır və bu era həm Azərbaycanın, həm də bölgələrin gələcəyi üçün çox vacibdir. Həm Azərbaycan, həm də bölgə dünyanın gələcəyi üçün çox mühümdür.

Xanımlar və cənablar! Bu layihə *("Əsrin müqaviləsi"– Ə.Ə.) Prezident Heydər Əliyevin cəsur liderliyi*, beynəlxalq biznes dairələri ilə əməkdaşlığı nəticəsində *həmkarlıq və sərmayələr* olmasaydı, mümkün olmazdı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti – bu layihəni inkişaf etdirən konsorsium valehedici beynəlxalq bir komandadır, ən yaxşıları özündə birləşdirir. Biz qürur hissi keçiririk ki, ABŞ-ın "AMOKO", "Eksson", "Pennroyl" və "Yunokal şirkətləri bu uğurun bir hissəsidir.

Cənab Prezident Əliyev! Siz Azərbaycanın enerji ehtiyatlarını inkişaf etdirmək, ölkənizi və bölgənizi beynəlxalq aləmə tanıtmaq üçün yorulmadan işləyirsiniz. Tutduğunuz yol ölkənizin vətəndaşlarının həyat səviyyəsini qaldıracaq, bu nailiyyət Azərbaycanın və bütün bölgələrin müstəqilliyini, demokratiyasını və tərəqqisini təmin edəcəkdir"[417].

*Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Tetri Adamsın* çıxışında "Prezident Heydər Əliyev sülh qızıl gülü" haqqında deyilib: "Möhtərəm Prezident, Azərbaycan üçün bu böyük gündən xatirə olaraq *Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti* rəmzi məna daşıyan bir hədiyyə hazırlamışdır. İnanırıq ki, bu hədiyyə həm Sizin, həm də Azərbaycan xalqının daimi iftixar və məmnunluq mənbəyi olacaqdır. Cənab Prezident, Beynəlxalq Qızılgül Cəmiyyətində əbədi olaraq Sizin adınızla qeydiyyatdan ke-

---

[416] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə*. I hissə, Bakı, 2001, s.146

[417] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.147

çirilmiş yeni bir qızılgül növü seçilmişdir. Həmin qızılgül növü Ülyahəzrət Böyük Britaniya kraliçasına ithaf edilmiş orijinal gül növlərindən xüsusi olaraq yetişdirilmişdir. Cənab Prezident, Sizin qızılgülünüzün bu gündən etibarən özünəməxsus adı olacaqdır: *"Prezident Heydər Əliyev sülh qızıl gülü".*

Cənab Prezident, indi isə yeni qızılgülümüzün rəsmi botanik şəklini böyük məmnunluq hissi ilə Sizə hədiyyə edirik. Həmin qızılgülün 200 kolu Sizin seçəcəyiniz yerlərdə əkilmək üçün Bakıya gətiriləcəkdir. Bundan başqa, qızılgül kolları bizim payçı şirkətlərin hamısına hədiyyə ediləcəkdir ki, "Prezident Heydər Əliyev sülh qızılgülü" *Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin* konsorsiumunda təmsil olunmuş ölkələrin hər birinin dövlət nabatat bağlarını bəzəsin. Cənab Prezident, qoy bu qızılgüllər əsasını qoyduğunuz və atası olduğunuz müstəqil Azərbaycanın beynəlxalq simvoluna çevrilsin.

Möhtərəm Prezident, *Azərbaycan xalqını açıq-aydın, dinc və çiçəklənən gələcəyə doğru aparan uzaqgörənliyiniz və öndərliyinizlə* bir daha təbrik edirik. Bizim bu uğurumuzu bu şanlı ölkənin azadlıq və müstəqilliyini təsbit etmiş yeni demokratik Konstitusiyasının ikinci ildönümü günündə bayram etməyiniz, həqiqətən, çox yerinə düşür. Diqqətinizə görə təşəkkür edirəm"[418].

Respublika sarayında "Əsrin müqaviləsi"nin 5-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə *ABŞ-ın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Stenli Eskuderonun* çıxışından: "Bu sənədi "Əsrin müqaviləsi" adlandıraraq həqiqət düzgün idi. Çünki bu müqaviləni imzalamaqla Prezident Əliyev əsrin əvvəllərində Azərbaycanın layiqincə qazandığı dünya bazarının əsas neft və qaz təchizatçısı kimi beynəlxalq statusunu əsrin sonunda qaytarmaq üzrə ilkin addımlarını başladı. İlham Əliyevin məruzəsində deyildiyi kimi Prezident Heydər Əliyev bu müqavilədən müdrikcəsinə və uzaqgörənliklə istifadə etmişdir. İmzalanmış müqavilə o dövrdəki yaralı millətin damar və əzələlərinə yeni nəfəs verdi. O, bu müqavilədən istifadə edərək, daha sonra dünyanın beynəlxalq aparıcı, iri, zəngin təcrübəli neft şirkətləri ilə 18 müqavilə işləyib imzalamışdır. Məhz bu müqavilədən sonra Azərbaycan Qərb ölkələri ilə də sıx əməkdaşlığı başladı ki, mənim ölkəm də bu sırada axırıncı yeri tutmur. Ən əsası isə odur ki, bu müqavilə bütün dünyaya güclü bir siqnal verdi ki, Azərbaycan dünya səhnəsində neft və qaz sahəsində kommersiya, iqtisadiyyat, istehsalat üzrə layiq olduğu lider rolu-

[418] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.149-150

nu oynamağa hazırdır. Həm də yalnız ona görə yox ki, Azərbaycan nəhəng neft və qaz ehtiyatlarına malikdir. Azərbaycan ona görə bu lider mövqeyindədir ki, coğrafi şərait belə tələb edir. *Bütün Qərb-Şərq nəqliyyat dəhlizi Azərbaycandan keçir.* Bütün Xəzər regionunda və ondan şərqdə yerləşən ərazilərdən keçən dəmir yolları, magistralları, avtomobil yolları Avropaya Azərbaycanın ərazisindən keçir. Bu isə o deməkdir ki, tale Azərbaycana elə bir qismət vermişdir ki, *Şərqdə Çin səddindən, Qərbdə Aralıq dənizindən* bütün xalqların inkişafında aparıcı rol oynasın.

Bu müqavilə inkişaf prosesində belə rolu oynayacaq ilk addımdır. Ona görə də "Əsrin müqaviləsi" adı ona həqiqətən yaraşır. Elə ona görədir ki, biz burada birlikdə bu ildönümünü qeyd edirik"[419].

1998-ci il 2 iyunun 2-də "Xəzərneftqaz – 98" sərgi-konfransı keçirilib. *Norveç dövlətinin Neft və Energetika naziri Marit Arnstad* bunu xüsusi vurğulayıb: Bakı miqyaslı sərgilər qəbul edən eksklüziv şəhərdir. İcazə verin, Bakı dünyanın beynəlxalq energetika şəhərləri klubunun tamhüquqlu üzvüdür. O deyib: "Bu gözəl auditoriya qarşısında çıxış etmək mənim üçün böyük şərəfdir. Ötən illərlə müqayisədə "Xəzərneftqaz" sərgisi öz iştirakçılarının sıralarını xeyli genişləndirmiş və Bakı belə miqyaslı sərgilər qəbul edən eksklüziv şəhərlər sırasına daxil olmuşdur. İcazə verin, Bakını bu nailiyyət münasibətilə, habelə, dünyanın beynəlxalq energetika şəhərləri klubunun tamhüquqlu üzvü olması münasibətilə təbrik edim.

Cənab prezident, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi ilə əlaqədar öz hökumətimin təbriklərini sizə və bütün Azərbaycan xalqına yetirmək istərdim.

Azərbaycan neft-qaz yataqlarının işlənməsinin inkişafı tarixi 125 il bundan əvvəl başlamışdı – o vaxtlar Abşeron yarımadasına gələn bir çox adamlar burada neft-qaz yataqlarının işlənməsi sahəsində görülən işlərə heyran qalırdılar. Norveçin ən məhşur yazıçılarından biri, Bakıda olmuş *Kunt Hamsun 1903-cü ildə "Möcüzələr ölkəsində"* adlı kitab yazmışdır. Kitabda o, Azərbaycan neft-qaz yataqlarının necə işləndiyini təsvir etmiş, Qara şəhərdəki hisli-paslı neftayırma zavodlarından, Balaxanıdakı neft göllərindən yazmışdır. O, Nobel qardaşları ilə, Nobel qardaşlarının şirkətində işləyən norveçlilərlə görüşmüş, onların neft daşıyan tankerində Xəzərdə gəzintiyə çıxmışdır"[420].

---

[419] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.202-203

[420] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.297

*İtalyanın Sənaye və Ticarət naziri Luici Bersaninin* çıxışında isə diqqət bu nöqtələrdə olub: “Belə bir fakt da əhəmiyyətlidir ki, *bu cür mühüm tədbir Azərbaycanda keçirilir,* elə bir ölkədə ki, *bunda son illər neft sənayesi qeyri-adi surətdə inkişaf edir* və o, həm *xam neftin ixracatçısı* kimi, həm də *bütün Xəzər bölgəsinin* olduqca *zəngin neft-qaz ehtiyatlarının nəqli* üzrə *ixrac marşrutlarının kəsişdiyi məntəqə* kimi *enerji daşıyıcılarının dünya bazarında əsas iştirakçılardan biri* olacağını vəd edir.

Bu cür *nəticələr Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində* əldə edilmişdir. Cənab Prezident üçün *beynəlxalq əməkdaşlıq qazanılmış müstəqilliyin* və *Azərbaycanın inkişafının əsas vasitəsi* olmuşdur və olaraq qalır. Bir neçə il ərzində o, dünyanın ən iri neft şirkətlərini, Xəzər hövzəsini XXI əsrdə *karbohidrogen xammalının* əsas regionlardan birinə, sabitlik və tərəqqi şəraitində yaşayan regiona çevirməyə yönəldilmiş böyük layihənin tərəfdaşları kimi cəlb etməyə müvəffəq olmuşdur”[421].

4 iyul 2000-ci ildə Vyanada, Prezident aparatında Prezident Heydər Əliyev və Prezident Tomas Klestil birgə mətbuat konfransında bəyanatla çıxış ediblər.

*Avstriyanın Federal Prezidenti Tomas Klestil* Azərbaycan Respublikası Prezidentini böyük maraqla, böyük sevinclə salamlayıb. 2 dövlət arasında əlaqələrin vacibliyini bildirib. ATƏT-in sədri kimi Avstriyanın Cənubi Qafqazın bu bölgəsinə əhəmiyyətinin üstünlüyünü vurğulayıb... Prezident Cənubi Qafqaz bölgəsi, habelə, Ermənistan –Azərbaycan münaqişəsinə diqqət yönəldib. O, deyib:“Avstriyanın ATƏT-ə sədrlik etdiyi dövrdə bizim üçün ən öncül vəzifələrdən biri məhz Cənubi Qafqaz regionunda münaqişələrin, ən əsası isə Ermənistan – Azərbaycan münaqişəsinin həllərinə nail olmaqdır. Bəri başdan deməк lazımdır ki, biz başa düşürük ki, münaqişə təkcə Ermənistan –Azərbaycan arasında deyildir. Orada çox şey qarışıb, çulğaşıb, başqa münaqişələr də mövcuddur. Mən artıq dedim ki, *həmin regionun çox böyük coğrafi-siyasi,* hətta *qlobal* rolu var. Ona görə də məsələyə realistcəsinə yanaşmaq lazımdır. Hesab edirəm, biz bunun həllinə kömək göstərə biləcəyik”[422].

26 yanvar 2001-ci ildə Yelisey sarayı qarşısında ***Fransa Prezidenti Jak Şirak ilə Azərbaycan Prezidenti Heydər Əliyev*** birgə mətbuat konfransı keçirib.

---

[421] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.302

[422] Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001, s.504-505

*Fransa Prezidenti Jak Şirak* bəyanat zamanı deyib: "Prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərdən də artıq əlaqələr yaranmışdır. Mən *Prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.*

Mən ilk növbədə Prezident Əliyev və onun ölkəsini Azərbacyanın Avropa Şurasına qəbul olunması münasibətilə təbrik etmək istərdim. Dediyim kimi, Avropa Şurasına bu qəbul sübut edir ki, Azərbaycanda demokratiya möhkəmlənmişdir və getdikcə möhkəmlənir. Prezidet Əliyevin səfəri bizə iki tərəfli münasibətlərlə, xüsusən, çox gözəl olan iqtisadi əlaqələrlə bağlı məsələlərə də toxunmağa imkan vermişdir. Sizə məlumdur ki, Azərbaycan istər Avropada, istərsə də Fransanın işgüzar dairələrində böyük nüfuza malikdir. Biz iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsindən danışdıq. Təbii ki bu Dağlıq Qarabağ probleminə də toxunduq. Sİzə məlum olduğu kimi Fransa ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. Fransa bu problemin dincliklə həll edilməsinə əlindən gələnköməyi göstərməyə çalışır. Şübhəsiz, Fransa çalışır ki, bu problemin həlli tarazlı xarakter daşısın, yəni hər iki tərəf üçün məqbul olsun. Fransa münaqişəsinin həlli üçün hər iki ölkədə göstilən səyləri dəstəkləyir"[423].

1991-2003-cü illərdə *iqtisadiyyat məsələsi ölkəmizin xarici siyasətində* mühüm olub. Azərbaycan *beynəlxalq maliyyə-bank qurumları* ilə əməkdaş edib, ciddi iqtisadi islahatlar keçirib. Beynəlxalq təşkilatlarla əlaqə nəticəsində *Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi layihəsi* həyata keçirilib, Azərbaycan tranzit ölkəyə çevrilib. Vacib istiqmətlərdən biri də *enerji diplomatiyası* olub. Nəticədə Azərbaycan *sosial-iqtisadi və siyasi sabitliyini əldə edib*, müstəqil dövlət kimi möhkəmlənib. Azərbaycanın *neft strategiyası* ölkənin beynəlxalq nüfuzunun artmasına səbəb olub. *Xəzər dənizinin hüquqi statusu* müəyyən olunub.

Akademik İsa Həbibbəylinin ümumi şərhləri ilə desək, Heydər Əliyevin şah əsərlərindən olan *"Əsrin müqaviləsi"* –bu neft kontraktı "dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın *beynəlxalq aləmdə tanıdılması* istiqamətində aparılmış geniş miqyaslı tədbirlər, tarazlaşdırılmış regional siyasətin uğurla həyata keçirilməsi, respublikamızın *dünya birliyindəki yerinin müəyyən edilməsi* və *daha da möhkəmləndirilməsinə* şərait yaratmışdır"[424].

---

[423] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild (noyabr 2002, mart 2003). /Tərtibçilər Əli Abbasov,Teymur Əhmədov/.Bakı, "Nurlar",2003,640 s.; s.42

[424] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.45

Akademik İsa Həbibbəyli *Bakı–Tbilisi–Ceyhan neft kəmərinin* şərhinə xüsusi yer ayırıb. Bu, Heydər Əliyevlə başlanan, İlham Əliyevlə tamamlanan nəhəng magistraldır. Bu, *siyasi-iqtisadi və milli diplomatiyanın* uğurudur. Bu, İlham Əliyevin dünya ictimaiyyəti qarşısında uğurlu hesabatıdır. Bu, Azərbaycan neft elminin, mühəndis-texniki təcrübəsinin uğurudur. Bu, İlham Əliyevin uğurlu neft siyasətinin məntiqi yekunudur. Nəhayət, bu, *"Azərbaycanın Xəzər nefti"* monoqrafiyasının müəllifi İlham Əliyevin kompleks yanaşma metodunun – siyasi, diplomatik, iqtisadi və elmi yanaşmaların konkret əməli nəticəsidir"[425]. İsa Həbibbəyli bunu da əlavə edib ki, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars–Naxçıvan dəmir yolu layihələri də *cəmiyyət həyatı* və *beynəlxalq aləmə yanaşmalarının* reallıqlarıdır.

Heydər Əliyevin iqtisadi strategiyası ilə bağlı xeyli təhlil kitabları da yazılıb.

Ə.Nağıyev, V.Novruzov, H.Allahverdiyev və Ə.Əlirzayevin *"Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı"* kitabında[426] (rəyçisi AMEA-nın müxbir üzvü Ağasəlim Ələsgərov) "1969-1997-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatının inkişafında, bazar münasibətlərinin formalaşmasında, islahatların həyata keçirilməsində, xarici iqtisadi əlaqələrin geniş vüsət almasında Azərbaycan Respublikasının Prezidenti, dünya şöhrətli siyasətçi və müdrik dövlət xadimi Heydər Əliyevin böyük rolu, təşkilatçılıq məharəti, peşəkar idarəçilik səriştəsi və zəngin iş təcrübəsi, onun yeritdiyi düzgün və səmərəli sosial-iqtisadi siyasət konkret faktlar, materiallar və rəsmi sənədlər əsasında" öyrənilib.

Müşfiq Atakişiyevin *"Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş"* adlı monoqrafiyası[427] da Heydər Əliyevin neft siyasətinə, Şərq və Qərb sivilizasiyasının kəsişən səviyyəsini əks etdirib. Kitab "XX əsrin sonlarında Azərbaycanın yeni neft siyasətinin həyata keçirilməsi prosesinin özəlliklərini, "Əsrin müqaviləsi"nin imzalanmasından əvvəlki və sonrakı dövrdə regionda baş verən ictimai-siyasi hadisələrin mahiyyətini" aydınlaşdırıb...

Əsərdə "Heydər Əliyevin yeni neft strategiyasının konseptual əsaslarının hazırlanmasında göstərdiyi tarixi xidmətlər və prezident İlham Əliyevin

---

[425] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, s.113

[426] Ə.Nağıyev, V.Novruzov, H.Allahverdiyev, Ə.Əlirzayev. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı, Azərnəşr, 1998, 388 s.

[427] Müşfiq Atakişiyev. "Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş". Bakı, Azərbaycan, 2004, 264 s.

həmin siyasətin həyata keçirilməsində oynadığı rola dair faktlar" öz əksini tapıb.

Əməkdar elm xadimi, i.e.d. prof Arif Şəkərəliyevin *"Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi"* monoqrafiyasında[428] "dövlətin cəmiyyətin siyasi sistemində oynadığı rol, bazar iqtisadi şəraitində dövlətin rolu və funksiyaları, dövlətin iqtisadi siyasəti, dövlətin neft siyasəti, ticarət siyasəti, gömrük siyasəti, ixrac siyasəti, dövlətin büdcə-vergi siyasəti, investisiya siyasəti, sosial-siyasət və s. məsələlər araşdırılıb. Həmçinin monoqrafiyada iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətləri və problemləri, ekoloji siyasət, dövlətin iqtisadi siyasətinin davamlı və dayanıqlı inkişafa təsiri məsələləri tədqiq edilib" *(annotasiyasından).*

Qərib Məmmədovun *"Azərbaycanda Hedər Əliyevin aqrar siyasəti"* kitabında[429] "Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanın kənd təsərrüfatının dirçəldilməsi istiqamətində gördüyü işlərdən, eləcə də 1993-2003-cü illərdə onun ikinci dəfə hakimiyyətə qayıdışından sonra bilavasitə rəhbərliyi altında respublikada aparılan aqrar islahatların, xüsusən, torpaq islahatının aparılması, əldə olunan nailiyyətlər, onların nəticələrindən bəhs edilib". Tədqiqatda həmçinin "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən sonra aqrar sektorun inkişafı istiqamətində həyata keçirdiyi dövlət əhəmiyyətli proqram layihələr sayəsində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərdən ətraflı məlumat verilib".

*"Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası"* (elmi redaktoru professor Ədalət Muradov) monoqrafiyasında[430] "Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetləri, müasir dövrdə ölkəmizin dinamik və davamlı sosial-iqtisadi inkişafının amilləri, inkişaf perspektivləri" təhlil olunub. Kitab ön söz (professor Ədalət Muradov) və 3 fəsildən ibarətdir. *I fəsil* "Ulu Öndər Heydər Əliyev müasir sosial-iqtisadi inkişaf strategiyasının banisidir", *II fəsil* "H.Əliyev islahatlar strategiyası Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasının əsasıdır", *III fəsil* "Azərbaycanda sosial-iqtisadi inkişaf statusunda varislik və onun İlham Əliyev tərəfindən yaradıcılıqla inkişafı" adlandırılıb. Müəllif əsaslandırıb ki, Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycanın milli iqtisadi inkişafının formalaşmasının keçid modelini ha-

---

[428] Arif Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, İqtisad Universiteti, 2011, 542 s.

[429] Qərib Məmmədov. Azərbaycanda Hedər Əliyevin aqrar siyasəti. Bakı, "Elm", 2013, 344 s.

[430] Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. Bakı, Şərq-Qərb, 2019, 328 s.

zırlayıb, onun reallaşdırılmasını nəzəri və praktik cəhətdən təmin edib. Nəticə həm də bu olub ki, inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçən və müstəqil dövlətə çevrilən bir çox postsovet respublikaları ölkəmizdə formalaşdırılmış milli iqtisadi inkişaf modelinin təməl prinsiplərindən, onun islahatlar strategiyasından bəhrələnib.Ön sözdə bildirilib ki, ölkəmizdə bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı reallaşdırılan islahatlar strategiyası, *əslində makroiqtisadi sabitləşməyə, leberallaşmaya, iqtisadi demokratiyaya və dünya iqtisadiyyatına* fəal inteqrasiyaya əsaslanan prinsiplərə söykənib, sivil xarakter kəsb edib.

"Ümumən, 1993-2003-cü illərdə Azərbaycanda milli iqtisadiyatın inkişafı sahəsində əldə olunmuş uğurlar bir daha əyani surətdə göstərir ki, müstəqilliyin ilk illərində həyata keçirilən iqtisadi, siyasi institusional islahatlar nəticəsində Azərbaycanın gələcək inkişafı üçün güclü zəmin yaradılmış, demokratik proseslər dönməz xarakter almışdır"[431].

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun *"Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu illər)"* adlı kitabı[432] Ümummilli liderin Azərbaycan Respublikasının rəhbəri vəzifəsinə gəlişinin 50 illiyinə həsr olunub.

Kitab məqalələr toplusudur, Ulu öndərin inkişaf strategiyasının mühüm sosial-iqtisadi nəticələrinin (1969-2019-cu illər) göstəricisidir.

Kitabın *girişində* müəllif Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhlivan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah Əfşar kimi dövlət xadimlərinin siyasət tarixindəki yerini xatırladıb. Və XX əsrdə Corc Vaşinqton, Franklin Ruzvelt, Şarl De Qol, Cavahirləl Nehru və Mustafa Kamal Atatürk kimi şəxsiyyətlərin adlarını çəkməklə Heydər Əliyevin elit şəxsiyyət nümunəsini müqayisəyə gətirib, onu dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət və qüdrətli dövlət başçısı kimi xarakterizə edib.

Professor Ş.Muradov H.Əliyev şəxsiyyətini onun siyasi-tarixi fəaliyyəti fonunda, fəqət şəxsi taleyinin cizgilərilə birlikdə canlandırıb. O, Heydər Əliyev fəlsəfəsinin mahiyyətini Ümummilli liderin öz kəlamları ilə ifadə

---

[431] Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. Bakı, Şərq-Qərb, 2019, 328 s.; s.7

[432] Şahbaz Muradov.Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu illər). Bakı, "Avropa", 2019, 594 s.

edib: " Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı olmamışdır. Bu da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev siyasi büronun üzvü olubdur və sairə. Bəli, olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin Sarayında qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla olub. Çünki Azərbaycan mənim doğma vətənim, torpağımdır"[433].

Müəllif Ulu rəhbərin vəzifəyə yüksəlmiş yeganə azərbaycanlı, bütünlükdə müsəlman aləmi, türk dünyasının fəxri, müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycanın qurucusu olduğunu faktoloji zəmində, şəxsi taleyindəki məqamlarla birlikdə ifadə edib...

Kitabda 34 məqalə verilib. Bütün məqalələrin mahiyyəti Heydər Əliyevin iqtisadi inkişaf strategiyası ilə bağlıdır. Məqalələr içərisində *prezident və xalq,* türk dünyasının *müdrik ağsaqqalı, müstəqillik və milli mənəviyyatın qarantı,* işıqlı gələcəyimizin təminatçısı, ölkədə demoqrafik vəziyyət, *demoqrafiya siyasəti* və demoqrafik proseslər, *Azərbaycan xalqının əbədiyaşar lideri* mövzularına toxunulub. Kitabın əlavə hissəsində isə akademik Cəlal Əliyevə açıq məktubu çap olunub.

Professor Ş.Muradov "Xalq öz prezidenti ilə fəxr edir" məqaləsini Ulu öndərin "Dünyada ilin adamı" fəxri adına layiq görülməsi münasibətilə yazıb. Türkiyənin Sənaye və İş adamları Vakfına təşəkkürünü bildirib ki, Heydər Əliyevi dünyanın birinci adamı elan edib. Sevinib ki, demokratiya və insan haqları, torpaq bütövlüyünün qorunması və müstəqilliyin möhkəmləndirilməsi yolunda tarixi uğurlar əldə edib.

"Türk dünyasının müdrik ağsaqqalı" məqaləsində müəllif dahi rəhbərə minnətdarlığını, ehtiramını ona görə bildirib ki, "Azərbaycanda 30 ilə yaxın rəhbərlik etmiş bu böyük insan yer kürəsi əhalisinin cəmi 0,1 faizinin yaşadığı Azərbaycanı indi dünyanın ən qüdrətli və super dövlətləri olan ABŞ, Fransa, İngiltərə, Almaniya, Yaponiya, İtaliya, Çin kimi ölkələrlə bərabər şəraitdə dostluq, iqtisadi, mədəni və elmi əlaqələr yaratmaq səviyyəsinə gətirib çıxarıb"[434].

İqtisadçı-alim "Müstəqilliyimizin və milli mənəviyyatımızın qarantı məqaləsini dövlət müstəqilliyimizin bərpasının 10-cu ildönümü münasibətilə yazıb. Dahi rəhbər milli mənəviyyatımız və onun qorunması bağlı bəyanat

[433] Yenə orada
[434] Yenə orada

verib. Bəyanatda deyilir: "Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra onun qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi bir çox mühüm taleyüklü tarixi vəzifələr qoyulmuşdur. Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun işlənib hazırlanması və həyata keçirilməsini, bu məqsədlə ölkənin malik olduğu intellektual və sosial-iqtisadi potensialından, habelə, ictimai-siyasi qüvvələrdən səmərəli istifadə olunmasını tələb edir". Ş.Muradov göstərib ki, 1991-1993-cü illərdə – Azərbaycanın çətin vəziyyətdə olduğu bir vaxtda hakimiyyətə gələn Heydər Əliyev ilk növbədə hakimiyyət boşluğu problemini həll edib, müxtəlif ərazilərdə baş qaldırmış separatçı qüvvələri xalqın köməyi ilə zərərsizləşdirib, vətəndaş müharibəsinin qarşısını alıb, dövlətlə xalqın birliyini təmin edib, *"Əsrin müqaviləsi"* olan (1994) neft kontraktını imzalayıb, təxribatçı qüvvələri sıradan çıxarıb, ümumxalq referendumu ilə ilk demokratik Konstitusiyanı qəbul edib Milli Məclisə demokratik seçkilər keçirib...

*"Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə"* qiymətli kitabı[435] Ümummilli liderin iqtisadi siyasətinin real tərkib hissəsidir.

*Beləliklə,* Heydər Əliyevin neft strategiyası nəticəsində Avropa və Asiya arasında siyasi və ticarət əlaqələri genişlənib, Qafqaz nəqliyyat dəhlizi inkişaf etdirilib, İNOQEYT, TRASEKA və s. nəhəng layihələr gerçəkləşdirilib. Azərbaycan Xəzəryanı və Qafqaz regionunda mühüm əhəmiyyət kəsb edən bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilib.

[435] Heydər Əliyevin neft strategiyası. *Azərbaycanın müstəqilliyi və rifahı naminə.* 2 hissədə. I hissə. Bakı, 2001, 493 s.

## ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARI İDEOLOGİYADA

***"Xəzər dənizində ilk dəfə neft hasilatına başlayan Azərbaycanın XX əsrin sonunda bu hövzənin zəngin enerji ehtiyatlarını ünya üçün açması, heç şübhəsiz, dünya birliyi, dünya iqtisadiyyatı ilə ix inteqrasiya olunmaq istəyindən irəli gəlmişdir".***

**Heydər Əliyev**

30 aprel 2002-ci ildə Trabzonda *Türkiyə, Azərbaycan və Gürcüstan Prezidentlərinin* birgə mətbuat konfransı keçirilib. Mətbuat konfransı Trabzon Zirvə görüşünün yekunlarına həsr edilib. Dövlət başçıları bəyanatla çıxış ediblər.

Türkiyə Prezidenti *Əhməd Necdət Sezər* bəyanatında *işbirliyinin genişləndirilməsi* sahəsində bildirib ki: "Toplantıda gündəlikdə duran iqtisadi işbirliyi, təbii ehtiyatlardan istifadə terrorizmlə mübarizə ilə bərabər, ölkələrimizi maraqlandıran digər regional və beynəlxalq məsələlər barədə söhbətlər apardıq. Bölgəmizdəki son vəziyyəti dəyərləndirdik. Hörmətli Əliyev və hörmətli Şevardnadze ilə təkbətək görüşlərimizdə isə ikitərəfli əlaqələrimizə aid məsələləri gözdən keçirdik. İşgüzar və dostcasına keçən önəmli görüşlərimizin sonunda Türkiyə, Gürcüstan və Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi, xalqlarımızın mənafeyinə uyğun işbirliyimizin genişləndirilməsi və çeşidləndirilməsi sahəsində eyni mövqedə olduğumuzu bir daha görməkdən böyük məmnunluq duyduq...
... Qafqazda sülhün, sabitliyin bərqərar olması və işbirliyimizin gücləndirilməsi ölkələrimizin qarşısında duran əsas məqsədlərdir"[436].

Azərbaycan Prezidenti *Heydər Əliyev* bəyanatında *Şərq-Qərb dəhlizinin təhlükəsizliyinin təmin edilməsi sahəsində üçtərəfli əməkdaşlığın təməlinin qoyulduğuna* diqqət çəkib: "Türkiyə, Gürcüstan və Azərbaycan regional işbirliyi ilə əlaqədar toplantımız başa çatdı. Hesab edirəm ki, Trabzon görüşü uğurla başa çatıb və biz bölgəmiz üçün çox əhəmiyyətli məsələləri müzakirə etdik və nəticədə hökumətlərimiz arasında müvafiq saziş imzalandı. Bu, bizim bölgəmizdə yeni bir hadisədir. Bu, eyni zamanda bizim bölgəmizdə Türkiyənin, Gürcüstanın və Azərbaycanın bütün başqa sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində, beynəlxalq terrorizmlə mübarizə sahəsində və xüsusən, Şərq-Qərb dəhlizinin təhlükəsizliyinin təmin edilməsi sahəsində

[436] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.405

üçtərəfli əməkdaşlığın təməlini qoymuşdur. Hesab edirəm ki, biz çox dəyərli iş görmüşük və bu əməkdaşlığımız həm ölkələrimiz üçün, həm də bölgəmiz üçün çox əhəmiyyətli olacaq, bu bölgədə üç dövlətin əməkdaşlığının yeni mərhələsini müəyyən edəcəkdir.

Beynəlxalq terrorizmlə mübarizə indi bütün bəşəriyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir..."[437]

Gürcüstan Prezidenti Eduard Şevardnadzenin bəyanatında *Xəzərin karbohidrogen ehtiyatlarının Gürcüstan və Türkiyə torpaqları üzərindən digər ölkələrə nəql edilməsi* məsələsi səsləndirilib: "Biz görüşlərimizdə bu üç dövlətin Avropa və bütün dünya üçün, eləcə də həyata keçirdiyimiz böyük layihələr üçün nə qədər önəmli olduğunu vurğuladıq. Şərq-Qərb enerji dəhlizi və Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması layihələrindən danışarkən mənim çox yaxın, səmimi dostum, cənab Heydər Əliyevin qəhrəmancasına, cəsarətli davranışlarından söz açmasam, doğru olmaz, Çünki *Xəzərin karbohidrogen ehtiyatlarının Gürcüstan və Türkiyə torpaqları üzərindən digər ölkələrə nəql edilməsi məsələsi* hörmətli Əliyevin təşəbbüsü ilə olmuşdur və artıq bu həyata keçirilmək üzrədir. Tarixi önəmi olan bu böyük layihələrin indiki hala gətirilməsi sahəsində Türkiyə Cümhuriyyəti hökumətinin, nazirlərinin əməyini də yüksək qiymətləndirirəm. Eyni zamanda görüşlərdə iştirak edən ABŞ-in neft şirkətlərinə, maliyyə dairələrinə də təşəkkürümü bildirirəm"[438].

18 may 2002-ci ildə Tehranda, Prezident Dövlət iqamətgahında *Azərbaycan Respublikasının Prezidenti və İran İslam Respublikasının Prezidenti* arasında təkbətək görüşün əvvəlində jurnalistlərin suallarına cavab verilib.

*Heydər Əliyev:*"Biz burada mənim rəsmi səfərim çərçivəsində İran–Azərbaycan əlaqələrinə aid bütün məsələləri müzakirə etmişik. Məmnuniyyətlə, qeyd etmək istəyirəm ki, bütün görüşlərimizdə, apardığımız bütün danışıqlarda bir-birimizə xoş münasibət göstərmişik, bir-birimizi anlamaq istəmişik. İran–Azərbaycan dostluq, əməkdaşlıq əlaqələrini möhkəmləndirərək və inkişaf etdirmək istəmişik. Hesab edirəm ki, biz bu sahədə böyük nailiyyətlər əldə etmişik. Bizim danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçibdir. Bunların nəticəsi olaraq bu gün İİR ilə Azərbaycan arasında hökumətlərarası 10 sənəd imzalanıbdır. İmzalanmış sənədlər içərisində

[437] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.407

[438] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.409

İİR və Azərbaycan arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə xüsusi yer tutur. Bildirmək istəyirəm ki, İİR ilə Azərbaycan arasında 10 ildən artıqdır ki, diplomatik əlaqələr mövcuddur. Ancaq indiyə qədər bu gün imzaladığımız sənəd kimi, yeni İran İslam Cümhuriyyəti ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə kimi sanballı sənəd imzalanmamışdı...

Bu müqavilə İran– Azərbaycan əlaqələrində ilk böyük hüquqi sənəddir. Ölkələrimiz arasındakı əlaqələri bütün sahələrdə tənzimləyir. Hesab edirəm ki, bu mənim səfərimin, bizim görüşlərimizin ən əhəmiyyətli nəticələrindən biridir”[439], –deyib.

*Seyid Məhəmməd Xatəmi* bildirib: “Xoşbəxtlikdən bütün sahələrdə mənimlə cənab Heydər Əliyev arasında, eyni zamanda digər məsul şəxslər arasında, onların öz aralarında yaxşı, faydalı danışıqlar aparılmışdır. İkitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi, digər sahələrə dair yaxşı danışıqlar aparıldı.

Hörmətli müxbirlər də şahid oldular ki, bu gün çox faydalı sənədlər imzalandı. Amma bu sənədlərdən də əhəmiyyətlisi hər iki tərəfdən göstəriləcək iradə və əzmkarlıqdır. Biz bunu qəbul edirik ki, taleyimiz bir-birimizlə bağlıdır”[440].

23 sentyabr 2002-ci ildə Kremlin “Səfir salonu”nda *Azərbaycan– Rusiya sənədlərinin imzalanması* mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti birgə mətbuat konfransı keçiriblər.

*Azərbaycan Prezidenti Heydər Əliyev* bəyanatında bildirib ki, Rusiya – Azərbaycan münasibətləri həmişə normal olub. V.V.Rutinin Azərbaycana ilk rəsmi səfərindən sonra bu münasibətlər xüsusilə inkişaf edib. 2001-ci il yanvarın 9-da Rusiya Prezidenti XXI əsrdə ilk dəfə bizim ölkəmizə, Azərbaycana səfər edib. Məsələlər ətraflı müzakirədə olunub. İki ildə iqtisadi, siyasi və digər sahələrdə nəzərə çarpacaq nəticələr əldə edilib. Bu nəticələr Rusiya– Azərbaycan münasibətlərinin inkişafında yeni mərhələ kimi dəyərləndirilə bilər.

Dövlətimizin öndəri qiymətləndirib ki, V.V.Rutin Rusiya –Azərbaycan münasibətlərinə güclü təkan verib. O, əvvəllər mövcud olan bəzi maneələri

---

[439] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, “Nurlar”, 2003, 640 s.; s.419-420

[440] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild (noyabr 2002, mart 2003). /Tərtibçilər Əli Abbasov,Teymur Əhmədov/.Bakı,“Nurlar”,2003,640s.;s.421

aradan qaldırıb. Bu cəhətdən özünü çox uzaqgörən siyasi xadim kimi göstərib. Heydər Əliyev deyib: "Həmin vaxtdan biz, hər şeydən öncə Prezident V.V.Putinin Azərbaycana, xalqımıza səmimi münasibətini, ikincisi isə onun münasibətlərimizin inkişafına çox böyük maraq göstərdiyini – biz bunu daha çox istəyirik – üçüncüsü, onun Azərbaycana, bizim işlərimizə hədsiz diqqətini hiss edirik"[441].

Heydər Əliyev yayda V.V.Putinlə Sankt-Peterburqda görüşüb. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışında birlikdə olublar. Bu faktın özü də Rusiya – Azərbaycan arasında normal münasibətlərin təzahür göstəricilərindən biri olub.

Dövlət rəhbəri Rusiya Prezidentinin dəvəti ilə üç dəfə Moskvada olub. Onu öz növbəsində Azərbaycana dəvət edib.

Azərbaycanın dövlət rəhbəri imzalanmış əsas sənədlərlə bağlı mövqeyini bildirib: "Mən bu qiymətlə tam razıyam. Mən bəyan edirəm ki, bu çox mühüm addımdır. *Xəzər dənizinin statusu,* onun sektorlara böyüməsi məsələsi artıq bir çox illərdir ki, gündəlikdədir və müzakirə olunmuşdur. Siz qısa vaxt ərzində bu işə qoşuldunuz və Qazaxıstanda saziş imzaladınız. Bilirəm ki, onlarla da, Azərbaycanla da bu sənədlər üzərində çox işləmisiniz. Biz də uzun müddət işləmişik. Dediyiniz kimi, biz üç Xəzəryanı dövlət mövqeyimizi müəyyənləşdirmişik və bu, digər sahilyanı ölkələr üçün nümunə olacaqdır. Başqa yol yoxdur. Biz bu məsələ ilə çox illər məşğul olmuşuq və çoxlu variantlar tapmışıq. İndiki variant *beynəlxalq hüquq normaları prinsiplərinə*, *orta xətt prinsiplərinə* uyğundur. Burada da Vladimir Vladimiroviçin böyük rolu olmuşdur"[442].

Heydər Əliyev bildirib ki, Rusiya –Azərbaycan münasibətləri onun xarici siyasətinin öncül istiqaməti olub. Müdrik siyasətçi: "Dövlət müstəqilliyi qazanmağımız bir-birimizdən uzaqlaşmağa heç bir əsas vermir, əksinə, bu münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək lazımdır"[443], – deyə bildirib.

[441] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.552

[442] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.552-553

[443] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild./Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.553

Vladimir Putin Azərbaycan– Rusiya *iqtisadi əməkdaşlığından* danışıb, *mədəniyyət sahəsində* əməkdaşlıq barədə, rus dilinin Azərbaycanda işləkliyinin səviyyəsindən məmnun olduğunu bildirib, təhsil sahəsində, diplomların tanınması sahəsində razılığını ifadə edərək deyib: "Bu il Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Prezident açılış mərasimində şəxsən iştirak etdi və Rusiya Federasiyasının mədəniyyət xadimləri ilə görüşdü. Bütün bunlar *iqtisadi əlaqələrin* inkişafı üçün əlverişli mühit yaradır"[444].

Azərbaycan Prezidenti Heydər Əliyev 22-25 fevral 1994-cü ildə ilk dəfə Böyük Britaniyada rəsmi səfərdə olub. Prezident Heydər Əliyev Bakıdan Londona gələrkən təyyarədə jurnalistlərin suallarına cavabında bildirib:

"Respublikamız Avropanın böyük dövlətləri ilə əlaqələri inkişaf etdirir. Bildiyiniz kimi, keçən ilin dekabrında Fransada çox faydalı görüşlərimiz oldu və mühüm əlaqələr yarandı. İndi də Britaniyanın Baş naziri Con Meycor məni bu ölkəyə rəsmi səfərə dəvət edib. İngiltərədə məni çox səmərəli görüşlər, danışıqlar gözləyir. İnanıram ki, bütün bunlar Azərbaycanla Böyük Britaniyanın münasibətlərində yeni mərhələ açacaqdır. Əslində bu iki ölkə arasında indiyədək elə bir əlaqə qurulmayıb. Səfərimiz zamanı biz bir sıra mühüm sənədlər imzalayacağıq ki, bu da müstəqil Azərbaycan Respublikasının xarici ölkələrlə əlaqələrinin inkişafına və xüsusən də, Qərblə çox sıx əlaqələr qurulmasına lazımi kömək edəcəkdir"[445].

Heydər Əliyev 8 mart 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfər edib. Pekində mətbuat konfransında bəyanat verib. Ulu öndər *Çin ilə Azərbaycan* arasında münasibətlərin hərtərəfli inkişaf etdirilməsini nəzərdə tutaraq həmin bəyanatında deyib:

"İki gündür ki, biz Pekindəyik. Mən buraya dövlət səviyyəsində rəsmi görüşə Çin Xalq Respublikası sədrinin dəvəti ilə gəlmişəm. Mənimlə birlikdə Azərbaycan nümayəndələrinin böyük bir qrupu da gəlmişdir. Çin rəhbərliyi ilə kifayət qədər səmərəli görüşlərimiz olmuşdur. Dünən rəsmi qarşılanma mərasimi oldu və ÇXR sədri cənab Tszyan Tszeminlə danışıqlar aparıldı… Belə bir yekdil qənaətə gəldik ki, Çin ilə Azərbaycan arasında münasibətlər hərtərəfli şəkildə və daha müvəffəqiyyətlə inkişaf etdirilməlidir. Ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları, əldə olunmuş razılaşma nəticəsində imzaladığımız sənədlərdə əksini tapmışdır. Biz beynəlxalq vəziyyətin aktual məsələləri barəsin-

[444] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild./Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.554

[445] Aslan Aslanov. AZƏRTAC-ın xüsusi müxbiri. London

də də fikir mübadiləsi etdik. ÇXR-nın öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən, iqtisadiyyat qazanma və müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var”[446].

Heydər Əliyev dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, Azərbaycanla Ermənistan arasında gedən müharibə, uydurma Qarabağ münaqişəsi və hərbi əməliyyatları dayandırmaq, müharibəyə son qoymaq barəsində Çin sədri ilə danışıqlar aparıb, məsələləri sülh və razılaşma yolu ilə həll etmək cəhdləri və iqtisadiyyat məsələlərindən söz açıb, bu sahələrdə mövqe və baxışların tamamilə uyğun gəldiyini bildirib:
“Biz bu məsələlərin və dövlətlərin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı, suverenlik, iqtisadiyyat məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq. Mən Azərbaycanın həyatı və indiki vəziyyəti haqqında ÇXR sədrinə müfəssəl məlumat vermək imkanına malik oldum. Mən təxminən 6 ildən bəri Azərbaycanla Ermənistan arasında gedən müharibə barəsində, uydurma Qarabağ münaqişəsi barəsində və hərbi əməliyyatları dayandırmaq, müharibəyə son qoymaq və məsələləri danışıqlar yolu ilə, sülh və razılıq əldə olunması yolu ilə həll etmək cəhdlərimiz barəsində ətraflı məlumat verdim”[447][448].

Görkəmli diplomat səfərinin siyasi nəticələrini də xatırladıb: “O ki qaldı Çinə səfərimizin siyasi nəticələrinə, Çin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını müdafiə edir. Bunlar həm imzaladığımız bəyannamə, həm ÇXR rəhbərlərinin bəyanatlarında öz əksini tapmışdır. Deməli, Çinin nümyəndələri beynəlxalq təşkilatlarda da öz fəaliyyətlərində bunu əsas tutacaqlar. Bunun özü, beynəlxalq aləmdə bizim nailiyyətimiz deməkdir”[449].

16 sentyabr 1996-cı ildə Prezident sarayında *Azərbaycan və Qazaxıstan* Prezidentlərinin birgə mətbuat konfransı keçirilib. Bəyanatı zamanı qarşılıqlı əməkdaşlığı əsas tutaraq *Qazaxıstan Prezidenti Nursultan Nazarbayev* bildirib: “Sovet rejimi dövründə demək mümkün deyildi ki, biz eyni türk köklərinə, tarixə malik idik. Müstəqillik əldə etdikdən sonra hər bir xalq öz

---

[446] Heydər Əliyev və mətbuat. 4 cilddə. I cild (yanvar 1990, iyul 1996). Bakı, “Nurlar”, 2003, 640 s.; s.110

[447] Heydər Əliyev və mətbuat. 4 cilddə. I cild (yanvar 1990, iyul 1996). Bakı, “Nurlar”, 2003, 640 s.; s.110

[448] Heydər Əliyev və mətbuat. 4 cilddə. I cild (yanvar 1990, iyul 1996). Bakı, “Nurlar”, 2003, 640 s.; s.110

[449] Heydər Əliyev və mətbuat. 4 cilddə. I cild (yanvar 1990, iyul 1996). Bakı, “Nurlar”, 2003, 640 s.; s.121

nəzərlərini öz mənəvi qaynaqlarına yönəldir. Onları biz də axtarırıq. Bilirsiniz ki, türkdilli ölkələrin dövlət başçılarının tezliklə Daşkənddə müşavirəsi keçiriləcəkdir. Bu ya 5-ci, ya da 6-cı görüşdür. Bizim hamımız iqtisadi əməkdaşlıq təşkilatına daxil olduğumuza görə əməkdaşlıq edirik, özü də yaxşı əməkdaşlıq edirik. Buna Sərəxs-Məşhəd yolunun birləşdirilməsi sübutdur. Onun vasitəsilə bütün Mərkəzi Asiya respublikaları İran körfəzinə çıxmışlar. Buna görə də bir-birinə meyil göstərmək və ümumi mənəvi kökləri olan dövlətlər kimi, qardaş dövlətlər kimi biz bunu müstəqillik çərçivəsində bərabərliyin tanınması, bir-birinin işlərinə qarışmamaq çərçivəsində həll etməli, ölkələrimizin iqtisadiyyatlarının inkişafında bir-birinə qarşılıqlı yardım göstərməli və bununla da dövlətlərimizə və xalqlarımıza öz rifahını yüksəltməkdə kömək etməliyik"[450]. 23 aprel 1997-ci ildə Prezident sarayında *Azərbaycanla Qırğızıstan* arasında ikitərəfli sənədlərin imzalanması mərasimi keçirilib. Sonra birgə mətbuat konfransında bəyanat verilib.

Qırğızıstan Prezidenti Əsgər Akayev ümumbəşəri dəyərləri əsas tutmaq tərəfdarı olduğunu bildirib, dinləri bir-birinə qarşı qoymaq meyillərinə etiraz eləyib. Hesab edib ki, bütün sivilizasiya, bəşəriyyət insanlığa xidmət etməlidir. O, bildirib: "Demək istərdim ki, əziz dostlar, biz hamımız ümumbəşəri prinsipləri və ümumbəşəri dəyərləri rəhbər tutmalıyıq. Yeri gəlmişkən, bu gün biz danışıqlar apararkən sizin Prezident Heydər Əliyev bu barədə çox yaxşı dedi ki, qarşıdurmaya səbəb olan, dünyanı parçalayan, vətəndaş müharibələrinə gətirib çıxaran amillərdən biri də insanları xristianlara, müsəlmanlara bölmək, dinləri bir-birinə qarşı qoymaqdır. Ona görə də biz hər halda ümumbəşəri prinsipləri əsas götürməliyik. Harada, hansı ölkədə baş verməsindən, kim tərəfindən törədilməsindən asılı olmayaraq, soyqırıma bəraət qazandırmaq olmaz. Hesab edirəm ki *bütün sivilizasiya,* bəşəriyyət, biz hamımız mümkün olan hər şeyi etməliyik ki, belə hallar heç vaxt baş verməsin. Azərbaycanın azadlığı, müstəqilliyi, bütövlüyü uğrunda həyatını qurban vermis minlərlə azərbaycanlı oğlanın və qızın dəfn olunduğu Şəhidlər xiyabanını bu gün ziyarət edəndə də mən xatirə kitabına bu sözləri yazdım"[451].

*Yeri gəlmişkən:* Fəlsəfə elmləri doktoru, professor Məmməd Əliyevin

---

[450] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.25

[451] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.217

"İslam–xristian dialoqu: tarix, müasirlik və perspektiv"[452] adlı monoqrafiyası da dinşünaslığın aktual problemlərindən birinə– dinlərarası dialoqa həsr olunub. Müəllif tədqiqat əsərində mənbələri, islam-xristian dialoqunun müasir vəziyyəti, bu iki İlahi dinin tarixi-mənəvi qarşılıqlı əlaqəsinin təhlilinə həsr olunub.

Azərbaycanın fəlsəfə və dinşünaslıq tarixində ilk dəfə bu problemin tarixi-fəlsəfi aspektləri araşdırılıb.

Kitab giriş, 4 bölmə, xülasə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

*Birinci bölmədə* dinlərarası dialoqun formalaşması və inkişafı problemi dörd yöndən: islam-xristian dialoqunun tarixi əsasları və V-XIV əsrlər Qərbi Avropa fikrində islam və xristianlıq baxışlarının inkişafı, Orta əsrlərin sonu və yeni dövrdə Qərbi Avropa fikrində islam və xristianlıq, habelə, rus dini-fəlsəfi fikrində islam məcrasinda öyrənilib.

Monoqrafiyanın *"İslam-xristian dini fikrinin dialektikasına Qərb və Şərq maarifçilərinin baxışları"* adlı ikinci bölməsində erkən Orta əsrlərdə Azərbaycan dini fəlsəfəsinin əsas istiqamətlərinin müəyyən edilməsi və qiymətləndirilməsində problematik məsələlər, diaxronik kəsimdə islam inanclarının fəlsəfi-dini prinsipləri və səciyyəvi xüsusiyyətləri haqqında Qərbi Avropa konsepsiyaları araşdırılıb.

Kitabın üçüncü bölməsi *"Müasir islam və xristianlıq"* adlanır. Problem üç şaxədə: "Müsəlman dünyasında xristianların ənənəvi statusu", "Müasir dünyada islam-xristian qarşılıqlı əlaqələri" və "Müxtəlif inanclı dövlətlərin xarici siyasətində islam və xristianlıq mühüm sosial dinamik komponent kimi" deyə tədqiq olunub.

Tədqiqatda Azərbaycan elmi-təcrübi fikrində qovuşan sivilizasiyaların dini-fəlsəfi şərhləri və problemin həlli nəticələri göstərilib.

26 avqust 1997-ci ildə Varşavanın Prezident sarayında *Polşa və Azərbaycan Prezidentləri* birgə mətbuat konfransı keçirib.

Polşa Prezidenti Aleksandr Kvasnevski bəyanatında bildirib ki: "əvvəla, müstəqil Azərbaycan Prezidentinin Polşaya ilk səfəri zamanı bizim bu qədər müqavilə imzalamağımız zənnimcə, sanballı faktdır. İmzaladığımız bəyannamə çox mühüm sənəddir. O, hər iki dövlətin siyasi iradəsini əks etdirir. Dövlətlərimiz arasında hüquqi bazanın yaradılması haqqında, ikiqat vergi qoyulmaması haqqında sazişlər, nəqliyyata, habelə, turizmə dair müqavilələr çox mühümdür… Elm və mədəniyyət haqqında müqavilə də əhəmiyyətlidir… Lakin ən başlıcası budur ki, bu gün biz bu qədər akt imzaladıq.

[452] Bakı, "Kitab aləmi", 2007, 211 s.

Bu, sərhədləri bir-birindən uzaqlarda olan ölkələrimiz arasında möhkəm, əlverişli əlaqələr yaradacaqdır"[453].

*Azərbaycan və Moldova* Prezidentlərinin birgə mətbuat konfransı iki ölkə arasında dostluğu inkişaf etdirmək və əməkdaşlığı möhkəmləndirmək məqsədi daşıyıb.

*Moldova Prezidenti Petrn Luçinski* deyib: "Azərbaycan Prezidenti Heydər Əliyev doğru deyir ki, biz MDB-ni dağıtmaq istəmirik, çünki adamlar onsuz da bir-biri ilə bağlı olacaqlar. Dünən biz xatırlatdıq ki, 12 gün bundan əvvəl Moldova frankofon, yəni fransız dilli ölkələr hərəkatının 50-ci tamhüquqlu üzvü olmuşdur, belə ki, bizim məktəblərin 70 faizində fransız dilini öyrənirlər. Həmin hərəkata Afrika ölkələri, Kanada, Belçika, İsveçrə, bir sözlə, ən müxtəlif dövlətlər daxildir. Təbii ki, biz dünyanın müxtəlif hissələrində fəaliyyət göstərməyə çalışacağıq. Lakin biz uzun illər ərzində birlikdə yaşadığımız ölkələrlə əlaqələri kəsə bilmərik…

İndi də "Çıraq" yatağı haqqında məsələ barədə. Bu ikinci İran körfəzidir və sizə açığını deyəcəyəm, biz Moldova iqtisadiyyatını həmin yataqdan neft və neft məhsulları əldə edilməsinə qoşmaq ümidindəyik…"[454]

*Heydər Əliyev:* "O ki qaldı Ermənistan və Rusiyanın TRASEKA layihəsində iştirakına, biz bunun üçün heç bir qadağa qoymamışıq. Biz təşəbbüs irəli sürərkən dörd ölkə idik – Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan. Sonra bu proqrama Qazaxıstan, Qırğızıstan və Ukrayna da qoşuldu. Daha sonra Moldova, Bolqarıstan da qoşulacaq"[455],– deyə əlavə şərh verib.

Azərbaycan Prezidenti Heydər Əliyev 27 fevral 1998-ci ildə *Yaponiyanın "Sankey Simbun" qəzetinin müxbirinə də müsahibə* verib. Müsahibə zamanı o, Yaponiyaya səfərinin nəticələrindən: uğurlardan, Yaponiya ilə Azərbaycan arasında iki mühüm sənəddən – iki ölkə arasında dostluq və tərəfdaşlıq haqqında, habelə, ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında birgə bəyanatdan, Azərbaycandakı "Kürdaşı" neft yatağının bir hissəsinin birgə işlənməsi sazişindən, Xəzəryanı beş dövlətin Xəzər dənizini müzakirə mövzusundan, Yaponiya ilə ge-

[453] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.449

[454] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.513

[455] Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild (iyul 1996, iyul 1998). Müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlar. Bakı, "Nurlar", 2003, 640 s.; s.513

niş əməkdaşlıq planlarından, Avropa –Asiya nəqliyyat magistralından (yüklərin həmin nəqliyyat magistralı ilə Mərkəzi Asiyadan Avropaya, yəni Özbəkistan, Qazaxıstan, Türkmənistan və Qırğızıstandan Xəzər dənizi vasitəsilə bərələrlə Bakıya gətirilməsi, buradan Gürcüstanın Qara dənizdəki Poti limanına çatdırılması, oradan isə Avropaya göndərilməsi), "İpək yolu"nun bir hissəsindən, habelə, "İpək yolu"nun böyük bir hissəsinin (Yaponiyadan başlamış İspaniyaya, İrlandiyaya qədər daşınma) müzakirəsindən, bütün ölkələrlə iqtisadi əlaqələr qurmaq istəyindən, Yaponiyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkə olması və müasir texnologiyaya, texnikaya yiyələnməsi və bu cəhətdən, onunla daha geniş əməkdaşlıq şəbəkəsinin qurulmasından, hər bir ölkənin öz işinə müstəqil yanaşma maraqlarından, Rusiya ilə olan geniş iqtisadi əlaqələrdən danışıb[456].

*Beləliklə,* Ümummilli lider Heydər Əliyevin siyasət və diplomatiyası, onun iqtisadi inkişaf strategiyasının mahiyyət və fəlsəfəsi bir amala– bütün dünya ölkələrində vahid sivilizasiyaya: humanizmə, fikir, düşüncə plüralizminə, birliyə, sülhə, demokratiyaya, qarşılıqlı dostluğa, həmrəyliyə, mədəniyyətə və bəşəri tərəqqiyə xidmət edib.

[456] "Azərbaycan" qəzeti, 28 fevral 1998-ci il

## ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARI MƏDƏNİYYƏTDƏ

***"Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir".***
***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir".***

**Heydər Əliyev**

Türk dövlətləri birliyinin ədəbiyyat və incəsənəti də dünyadakı *sivilizasiyalar* üçün *mədəniyyət* göstəriciləridir. Bəşəriyyət üçün *dahi Nizami, Xaqani, Nəsimi, Xətai, Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, H. Cavid, C. Məmmədquluzadə, M.Ə.Sabir, S. Vurğun, R. Rza, habelə, Cəlaləddin Rumi, Yunus Əmrə, Ə. Nəvai, Məhdimqulu, Abay, Ç. Aytmatov, O. Süyeymenov* və başqaları elə nadir söz inciləri bəxş edib ki, onların ideya-estetik məzmunundan bütün bəşəriyyət bəhrələnib. Elə nadir mədəniyyət abidələri yaradılıb ki, onların fütühatından bütün dünya faydalanıb. Heydər Əliyev siyasi-diplomatik fəaliyyətində həmişə bu mədəni-ideoloji amilləri önə çəkib, onları əsas tutub. Belə ki, bir sıra görkəmli ümumtürk sənətkarının mədəni irsini göstərə bilərik ki, hər biri Şərq və Qərb mədəniyyətinə bəşəri qida verib. H.Əliyev də inamını ifadə edərək onu öyrədib ki, "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir"[457].

Heydər Əliyev 13 oktyabr 2001-ci ildə *Rəşid Behbudovun xatirə gecəsində* iştirak edib. Xatirə gecəsində mədəniyyətimizin böyük hamisi geniş nitq söyləyib. Xatirə gecəsi müstəqil Azərbaycanın 10 illiyi münasibətilə keçirilmiş bayramlar sırasındadır, –deyən dövlət rəhbəri Rəşid Behbudovu nadir bir insan, nadir bir şəxsiyyət, Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustası kimi xarakterizə edib.Ulu Öndər deyib: "Rəşid Behbudov öz təkraredilməz, məlahətli səsi ilə, xarici görünüşü ilə, artistlik istedadı ilə böyük musiqiçi və gözəl müğənni idi. Rəşid Behbudovun Azərbaycan mədəniyyətinə gəlməsinin bir neçə mərhələsi var. Onların hər biri bizim xalqımızın mədəniyyətini, musiqisini, mahnı sənətini, incəsənətini yüksəldib və onlara yeni-yeni forma vermişdir"[458].

---

[457] Heydər Əliyev Fondu. Electron ünvanı
[458] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.411

"Rəşid Behbudov mərhum Tofiq Quliyevlə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olubdur. Bilirsiniz ki, 40-cı illərdə artıq estrada musiqisi çox cazibədar olmuşdu. Ancaq bir çox hallarda bu, ümumi, trafaret xarakter daşıyırdı. Ancaq Rəşid Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan musiqi folklorundan, Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Yəni deyə bilərəm ki, Rəşid Behbudov Azərbaycanın xalq mahnıları ilə, musiqi folkloru ilə, müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətləri daşıyan sintezini yarada bilmişdir"[459].

"...Deyə bilərəm ki, *Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir.* İkinci beləsi olmayıbdır.

Yenə bir hadisə yadıma düşür. Bir dəfə bizim bir neçə yoldaş, o cümlədən mən Rəşid Behbudovun evinə getmişdik. Oturub söhbət edirdik, çay içirdik. O, Türkiyə səfərindən qayıtmışdı. O vaxt hələ televiziya yox idi. Radio musiqini o qədər də geniş verə bilmirdi. Rəşid Behbudov demək olar ki, bizim mədəniyyət xadimlərindən *Sovet vaxtı Türkiyəyə gedən ilk Azərbaycan elçisi, müğənnisi* olmuşdur"[460]. Rəşid Behbudovun məlahətli səsi dalğa-dalğa yayılaraq qitələri qovuşdurub.

Heydər Əliyev Rəşid Behbudova oxuması barəsində bir neçə mahnı təklif edib. Onlardan biri sözləri Ənvər Əlibəylinin, musiqisi Rauf Hacıyevin olan "Azərbaycan" mahnısıdır. Müslüm Maqomayev isə sözləri Nəbi Xəzrinin olan "Azərbaycan" mahnısını oxuyub.Heydər Əliyev Rəşid Behbudova mahnı teatrını yaratmaq üçün bina verib.

Heydər Əliyev 28 iyul 1999-cu ildə Respublika sarayında *Xalq artistləri Müslüm Maqomayev və Tamara Sinyavskayanı* qəbul edib. Qəbul zamanı Müslüm Maqomayev deyib: "Heydər Əliyeviç, kitaba görə çox sağ olun. Mən təklif etdim ki, Svyatoslav Belzanın haqqımda yazdığı ön sözə mənim də sözlərim düşsün. Orada mən respublikamıza münasibətimdən, respublikamızın, Azərbaycan Prezidentinin məni indi də Rusiyanın "Vaqrius" firması tərəfindən bu kitab buraxılarkən də dəstəklədiklərini, onun yaxşı kağızda nəşrinə kömək etdiklərini söyləmişəm. Naşirlər onu mənim ad günümə buraxmağı vəd etmişlər. Siz bilirsiniz ki, bu kitabdan bir çox hissələr qəzetdə dərc olunmuşdur.

---

[459] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.412

[460] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.415

"Vaqrius" nəşriyyatı planetimizin görkəmli siyasi xadimlərinin memuarları seriyasını nəşr etməyə başlayıb və məndən xahiş edib ki, əgər arzu edirsinizsə, memuarlarınızı buraxmağı Sizə təklif edim. Mən onlara dedim ki, Prezident Heydər Əliyev memuarlarla məşğul olmağa nə qədər vaxtı olacağını bilmirəm. Amma siz bilirsiniz ki, onlar adam ayırarlar, istənilən boş vaxtınızda ona diqtə edərsiniz, sonra isə onlar kitabı tərtib edərlər. Güman edirəm ki, bu sizə edilən ilk belə təklif deyildir. *Prezident Heydər Əliyev* deyib:"Təxminən 1988-ci ildən, istefaya çıxdığım vaxtdan başlayaraq əvvəlcə Moskvada, sonra isə *Qərb ölkələrindən*, *Amerikadan* mənə dəfələrlə müraciət ediblər. Xatirimdədir, buraya ABŞ-dan insanlar gəlmişdi, 10 gün bu ümidlə oturub gözlədilər ki, razılığa gəlmək mümkün olacaqdır. Özü də deyirdilər ki, onlar kitabı hansısa nəşriyyatla buraxacaqlar, buna çox böyük maraq var. Mənə çox böyük müraciətlər olubdur. Ancaq təəssüflər olsun ki, mənim vaxtım yoxdur. Mən təəccüblənirəm, necə olur ki, insanlar işləyə-işləyə memuarlar yazırlar? Təəssüflənirəm ki, təxminən mənim kimi vəzifədə olan adam bir kitab, ikinci kitab yazır. Necə yazır, nə vaxt yazır? Mən bu barədə çox görkəmli xadimlərdən birindən soruşmuşdum. O dedi: –Bilirsiniz, mən səhər saat beşdə dururam, saat 6-ya, səkkizədək roman yazıram, sonra isə işə gedirəm. Hesab edirəm ki, bu mümkündür, amma inanmaq çətindir"[461].

M.Maqomayev *Heydər Əliyevin portretini* çəkib. T.Salahov və N.Safronov da baxıb. Portreti Heydər Əliyevə təqdim edib. T.Sinyavskaya bildirib ki, "bu, 1972-ci ildə bizim tanış olduğumuz həmin Heydər Əliyevdir"[462]. Ulu öndər bildirib ki, sağ olun. Başlıcası odur ki, bu işi üzərinizə götürmüsünüz, böyük zəhmət qoymusunuz, bunu qəlbdən etmisiniz. Portret çox yaxşı alınıbdır. Əlbəttə, məni ev şəraitdə çox adam görür. Siz isə hamıdan çox görürsünüz"[463].

Müslüm Maqomayev şəkli Heydər Əliyevin fotoqrafının çəkdiyi bir neçə nümunə əsasında çəkib, ümumiləşdirib, özünü də əlavə edib. Heydər Əliyev bildirib ki, sən ümumiyyətlə peşəkar rəssam deyilsən. Sən müğənni və musiqiçisən, amma yaxşı portret çəkmisən.

Müslüm Maqomayev C. Verdi, S.Raxmaninov, P.İ.Çaykovski, A.S.Puşkin və H.Əliyevi çəkib. Lakin bunları Heydər Əliyev portretindən sonra çəkib.

[461] s. 80-81
[462] s. 83
[463] s. 83

Heydər Əliyev M.Maqomayevin "Azərbaycan" mahnısının üzərində sözləri olan *not yazısını* xatırladıb. Görkəmli bəstəkarın çəkdiyi portreti evində yox, muzeyə təhvil verəcəyini bildirib.

Dövlət başçısı 7 sentyabr 2002-ci ildə Prezident sarayında *görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevə* 60 illiyi münasibətilə "İstiqlal" ordeni təqdim edib.

Heydər Əliyev 28 iyul 1999-cu ildə tanınmış müğənni *Yaqub Zurufçunu* qəbul edib. O, Klivlinddə müalicədə olunarkən Yaqub Zurufçu qəflətən oraya gəlib. Böyük şəxsiyyət başqalarına icazə vermədiyi halda, onu qəbul edib. Maraqlı konsert nömrəsi olub, televiziya da onu işıqlandırıb.

Y. Zurufçu bildirib ki, mən öz videokameramla həmin görüşü çəkib yaşadığım Los Anceles şəhərindəki televiziyada göstərdim, o çox qiymətli görüş idi.

Tanınmış müğənni böyük öndərdən müsahibə götürmək istəyib. Heydər Əliyev razılıq verib və bildirib ki, sən Azərbaycanın ağır illərində öz sənətinlə xalqımıza çox xeyir vermisən. Arzunu yerinə yetirməyə hazıram...

Y.Zurufçu 1989-cu ildən Bakıya gəlib, Azərbaycanla bağlanıb. Bildirib ki, Amerikaya gəlmisiniz, bilirsiniz ki, burada "vətənin qoxusu, nəfəsi orada yoxdur", təəssüf ki, biz vətəndən uzaqlarda yaşayırıq. "Amma biz burada yaşasaq da, vətən, Azərbaycan kəlməsini, öz milli mədəniyyətimizi yadımızdan çıxarmırıq. Biz azərbaycanlı olmağınızla fəxr edirik. Yaqub Zurufçu Heydər Əliyevə təklif edib ki, Amerikada Azərbaycan televiziyası açılsın. Dünya reklam üzərində qurulub. "Kaliforniyada Azərbaycan televiziyasının açılması mütləq lazımdır". Kaliforniya televiziyasının gecə saat 10-dən 11-ədək olan verilişlərini bütün Amerika görür. Orada öz televiziyamızı aça bilsək, yaxşı olar. Orada erməni televiziyası hər gün 8 saat ərzində öz verilişlərini yayır.

Yaqub Zurufçu bildirib ki, ermənilər Kaliforniyada televiziya açıblar, azərbaycanlılar isə yox. O, təklif edib ki, *Amerika –Azərbaycan Dostluq Cəmiyyəti* yaradılsın. Bakıda da yeri, klubu olsun.Y.Zurufçu təklif verib:– Biz bir mərkəz yaratmalıyıq. Mən amerikadan bir neçə müğənninin şəklini də gətirmişəm. Onlar Azərbaycana gəlməyə hazırdırlar. Biz istəyirik ki, onlar gəlib bu klubda oxusunlar və amerikalılar öz musiqilərinə qulaq asmaq imkanı qazansınlar. Y.Zurufçu bildirib ki, Los-Ancelesdə, xüsusən, amerikalılar çox istəyirlər ki, görkəmli dövlət xadimi Heydər Əliyevə qulaq assınlar. Amerikalı iş adamları Azərbaycanla daha sıx əlaqələr qurmaq istəyirlər.

Heydər Əliyev müsahibəsi zamanı Azərbaycan haqqında, Ermənistan–Azərbaycan münaqişəsi, özünün hakimiyyət dövrlərinin sosial-siyasi, iqti-

sadi-mədəni tərəfləri haqqında məlumat verib. Y.Zurufçu bildirib ki, Heydər Əliyev dediklərini yaysın. Amma Amerika televiziyaları: Ey-Bi-Si, SNN televiziya kanalları bu müsahibəni ingilis dilində tərcümə edib vermək istəyiblər.

Heydər Əliyev 14 oktyabr 1999-cu ildə *Naxçıvanda Mömünə xatun türbəsini* ziyarət edib. O, deyib: "Yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim. Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istərdim. Onda memarın nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məs. Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Mömünə xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, Mən Bakıya, ordan Leninqrada, Moskvaya gedəndən sonra burdakı kitablarım, çəkdiyim şəkillərim hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkilmiş çox gözəl şəkillərim vardı"[464].

Ulu öndərin nitqi genişdir. O, abidənin memarlıq üçün əhəmiyyətindən də danışıb. Deyib: "Ancaq hesab edirəm ki, bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir"[465].

Heydər Əliyevin sivil şəxsiyyəti kənar dünyanın incəsənət xadimləri üçün də maraqlı olub. Rusiya, Polşa, İspaniya, Avstriya, İtaliya, Gürcüstan və digər ölkələrin mədəniyyət xadimləri üçün.

Görkəmli dövlət rəhbəri 28 aprel 1997-ci ildə *Mstislav Rostropoviç, onun zövcəsi Qalina Vişnevskaya* və ailəsinin digər üzvləri ilə görüşdə çıxış edib.

*Mstislav Rostropoviç* Qara Qarayevdən, Dmitri Şostakoviçdən dərs alıb. Niyazinin, Q.Qarayevin məzarını ziyarət edib. O, deyib: "Bilirsinizmi, bu gün biz qəbristanlıqda olarkən göz yaşlarımızı saxlaya bilmədik. Biz insanların, o cümlədən həyatlarına müharibənin son qoyduğu cavanların məzarlarını gördükdə düşündüm ki, müharibəni mənim sevimli Azərbaycanımın prezidenti, siz dayandırdınız. Buna görə də səmimi qəlbdən sizə baş əyirəm. Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz – xalqı ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir

---

[464] Heydər Əliyev və mədəniyyət. III cild. s.142
[465] Heydər Əliyev və mədəniyyət. III cild. s.144

insan ki, bu müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır”[466].

“Mən çox həyəcanlıyam. Əziz dostum, çox sağ olun ki, Parisə gəlib məni öz hörmət və ehtiramınızla sevindirdiniz. Mən buna görə sizə öz minnətdarlığımla cavab verəcəyəm. Qalina Vişnevskaya da Bakıya səfərdən aldığı təəssüratını bölüşdü. O dedi: Mən Zaqafqaziyaya ilk dəfədir gəlirəm və xalqınızla görüş mənə olduqca böyük təsir bağışladı, məğrur, azadlıqsevər xalqdır. Bu gün qəbristanlıqda gördüklərimiz bizi sarsıtdı. Bunu görmədən mən inana bilməzdim ki, belə bir şey ola bilər. Biz bu hadisələr haqqında eşitmişdik, oxumuşduq, amma həlak olanların xatirəsinə ucaldılmış bu əzəmətli abidəni gördükdə insanın qəlbində güclü bir təlatüm əmələ gəlir. Bunu ağıl-zəka ilə dərk etmək mümkün deyildir. Bunu ancaq emosional surətdə anlamaq və bütün həyatın boyu yadda saxlamaq olar. Xalqınıza dərin hörmətimi bildirirəm, istəyirəm ki, xalqınız arzuladığı kimi yaşasın, ölkəniz bir daha heç vaxt təhqirlərə, sıxıntılara məruz qalmasın. Allah sizə xoşbəxtlik, ailələrinizə firavanlıq bəxş etsin, öz əzizlərini itirənlərin hamısına təskinlik versin. Sizə ən xoş arzularımı bildirirəm”[467].

Heydər Əliyev *Mstislav Rostropoviçə* Bakılı olduğunu xatırladaraq deyib: “Xalqımız *Qərb mədəniyyətindən* çox şey əxz edibdir. Ölkəmizdə Qərb mədəniyyətinin yayıcılarından biri də sizin atanız, valideynləriniz olmuşlar. Sizin valideynləriniz kimi gözəl insanlar Azərbaycana gələrək burada çox böyük iz qoymuş və *Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda olan Azərbaycan xalqının* öz milli, özgün mədəniyyətini qoruyub saxlaması, dünya sivilizasiyasına, professional musiqiyə, Qərb incəsənətinə qovuşması üçün çox iş görmüşlər”[468].

28 aprel 1997-də *Mstislav Rostropoviçin* R.Mustafayev adına incəsənət muzeyində yubileyi – 70 illiyi keçirilib. H. Əliyev zəmanəmizin görkəmli musiqiçisi *Mstislav Leopoldoviç Rostropoviçə* yubileyi münasibətilə 27 mart 1997-ci il tarixli təbrik məktubu göndərib.

Məktubda deyilir: “Siz violonçel sənəti tarixinə bu alət haqqındakı təsəvvürü kökündən dəyişdirmiş bir ustad kimi əbədi daxil olaraq öz *ifaçılıq, dirijorluq, bəstəkarlıq və pedaqoji fəaliyyətinizlə* elə bir təzahürü nümayiş

---

[466] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 clilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.74

[467] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.75

[468] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.76

etdirə bildiniz ki, onu cəsarətlə Rostropoviç fenomeni aldırmaq olar. Müxtəlif dövrlərin və xalqların sizin ifanızda səslənən musiqisi ülvi bəşəri dəyərlərə sədaqəti ilə ürəkləri fəth edən əsil sənətin gücünü bir daha dünyaya göstərdi”[469].

1 may 1997-ci ildə KİV ilə görüşdə bəyanat verilib, Avstriya, Gürcüstan, Misir, Çin, Rusiya, Özbəkistan və Fransa jurnalistləri iştirak edib, suallara cavab verilib. Yubiley gecəsi və konsert qurtardıqdan sonra Heydər Əliyev çıxış edib (2 may 1997).

Heydər Əliyev *12 iyun 1998-ci ildə M.Rastropoviçə* “Şöhrət” ordeni verib. *M.Rastropoviç* də Heydər Əliyevə 2 fotoalbom hədiyyə edib. Biri onun qaçqınların çadır şəhərciyinə getməsi, o biri fotoalbom isə ona “Şöhrət” ordeninin verilməsinin ifadəsidir. Heydər Əliyev 22 noyabr 1999-cu ildə də M.Postropoviçi qəbul edib. 26 noyabr 1999-cu ildə isə konsertində iştirak eləyib. Ulu öndər bəşəri musiqiçini *7 oktyabr 2000-ci ildə* də qəbul edib. 3 mart 2002-ci ildə isə ona “İstiqlal” ordeni verib.

Mistislav Rostropoviç böyük insan Heydər Əliyevin vəfatından böyük kədərini və başsağlığını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bu sözlərlə ifadə edib: ”Çox hörmətli Prezident, əziz dostlar!

Sevimli dostum, məni vətənimə qaytarmış böyük insanın, Heydər Əlirza oğlu Əliyevin vəfatından sarsılmışam.

Mən bu itkidən bütün Azərbaycan xalqı ilə birlikdə kədərlənirəm.

Bu çətin vaxtda mən Sizə atanızın müəyyənləşdirdiyi yolla xalqınızı firavanlığa və xoşbəxtliyə doğru aparmağı davam etdirmək üçün qüvvə və cansağlığı arzulayıram”[470].

Heydər Əliyev 4 avqust 1997-də *Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri* ilə görüşdə nitq söyləyib. Heydər Əliyev diaspora işindəki təşkilatlanmanın lazımi səviyyədə olmadığından gileyini də bildirib: “Mən çox məmnunam ki, respublikamızın hüdudlarından kənarda, o cümlədən ABŞ-da azərbaycanlılar artıq bir-birinə yaxınlaşırlar, bir yerə toplaşırlar və cənnətlər qururlar... Ancaq təəssüflər olsun ki, ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar təşkilatlarla, bir-biri ilə yaxşı ünsiyyət qura bilmirlər”[471]...

---

[469] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.51

[470] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.96

[471] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr,*

Prezident Heydər Əliyevin 27 avqust 1997-ci ildə Varşavada, Ostrovski qəsrində bəstəkar *Friderik Şopenin muzeyi ilə* tanışlıq, onun əsərlərinin mahir ifaçısı Beynəlxalq müsabiqələr laureatı *Rafael Luşçevskiyə* təşəkküründən sonra səmimi minnətdarlıq ifadə edib: "...Şopenin musiqisi, polyak xalqı üçün böyük fəxr və sərvətdir. Siz az bir müddətdə beynəlxalq miqyasda uğurlar qazana bilmisiniz. Musiqini, o cümlədən Şopenin sənətini sevən insan kimi deyə bilərəm ki, siz bu nailiyyətləri tamamilə haqlı olaraq ədalətli qazanmış, yəni həmin mükafatlara layiq görülmüsünüz. Bunu bu gün inandırıcı şəkildə nümayiş etdirdiniz"[472].

Heydər Əliyev R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində 15 may 1998-ci ildə Rusiyanın məşhur rəssamı *Nikas Safronovun sərgisinin açılışında* çıxış eləyib. Rusiya rəssamı N.Safronov Heydər Əliyevlə görüşdəki *29 iyun 1999-cu il* tarixli söhbət zamanı ona Zərifə xanımın portretini hədiyyə edib.

Prezident 25 iyul 1999-cu ildə məşhur *İspaniya müğənnisi Xulio İqlesiası* qəbul edəndə Heydər Əliyevlə görüşü zamanı deyib: "Çox sağ olun, cənab prezident. Mənim sizə deyiləcək bir neçə sözüm vardır. Həmişə mənim ürəyimdə və beynimdə olubdur ki, bu ölkəyə səfər edim. Mən bundan sonra öz həmkarlarıma, biznesdə olan dostlarımın hamısına deyəcəm ki, Azərbaycana səfər etmək çox maraqlı və çox gözəldir. *Azərbaycanın həm xalqı, həm də Prezidenti çox gözəldirlər.*

Siyasətçi olmayıb müğənni olmağım heç də o demək deyil ki, mən insanlar barədə düşünmürəm. Əlbəttə ki, mən qaçqınların düşdüyü vəziyyəti, onların əzab-əziyyətlərini, onların gündəlik yaşadığı çətinlikləri dərindən duyuram. Ümidimi itirmirəm ki, onlar çox tezliklə evlərinə qayıdacaqlar. Mən uşaqların sifətlərinə diqqətlə baxdım, hamının sifətini gördüm. Onların sifətlərində yalnız bir şey yazılmışdı. Onlar o ümiddədirlər ki, tezliklə evlərinə qayıdacaqlar. Hara gedirəmsə gedim, bu haqda hamıya deyəcəyəm. Çünki bu ölkədə oldum, *bu ölkəni sevdim, bu ölkənin xalqını sevdim.* Çox şadam ki, buraya gəldim. Çox şadam ki, Cənab Prezident, sizinlə tanış oldum.

Cənab prezident, *sizə bu ölkəyə, bu ölkənin qonaqpərvərliyinə* minnətdaram. *Sizin gözəl, hər şeyi görə biləcək gözləriniz* vardır.

---

*təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s.; s.119

[472] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s.; s.135

*Heydər Əliyev* cavab verib: – Siz bunu dünən də mənə dərhal dediniz. Mən özüm heç o qədər də təsəvvür edə bilmirəm ki, mənim siz dediyiniz kimi gözlərim vardır. Gözlərim itidir, ancaq gözəlliyini deyə bilmərəm.

*Xulio İqlesias* deyib: –Cənab prezident, bilirsiniz ki, əgər prezidentin gözləri gözəl olmasa, onun üçün çətin olar. İnsanlar hər insanı gözündən oxuyurlar... Həqiqətən Azərbaycana valeh oldum və insanların hamısını sevdim, onların gözlərini çəkdim. Cənab Prezident, ilk növbədə sizin gözlərini bəyəndim"[473].

Heydər Əliyev 5 iyul 2000-ci ildə *Avstriyada, Vyananın Hofburq Kral Sarayında, Vyana Motsart orkestrinin konsertində* olub. Konsertdən sonra opera müğənniləri *Marianna Kulikova və Maruks Pelt, dirijor Ernst Ottenzamer* ilə görüşüb. Onları Azərbaycana dəvət edib, konsertlərindən çox razı qaldığını bildirib. O, Motsart orekstrinin xatirə kitabına bu sözləri yazıb: "Vyana Motsart orkestrinin konserti məni heyran etdi. Gözəl klassik musiqi əsərləri orkestrin ifasında böyük təsir etdi. Dirijor, orkestrin bütün ifaçıları, vokal artistləri mahnıları böyük məharətlə ifa etdilər. Mən böyük həzz aldım. Səmimi qəlbdən təşəkkür edirəm". Heydər Əliyev Avstriya Federal Prezidenti cənab Tomas Klestilə minnətdarlığını çatdırıb.

Ulu öndər 8 dekabr 2000-ci ildə R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində *"Azərbaycanda məcburi köçkünlər: avtoportret"* fotosərgisinin açılışında iştirak edib və nitq söyləyib. İtaliyanın "ACİP" şirkətinin təşəbbüsü ilə öz həyatlarını çəkdikləri fotoşəkillər nümayiş etdirilib.

Dövlət başçısı 10 dekabr 2000-ci ildə YUNİSEF-in müəyyən etdiyi proqramın həyata keçirilməsi münasibətilə *uşaqların beynəlxalq televiziya və radio günü şənliyində* nitq söyləyib. Bu, YUNİSEF-in ən böyük bayramı olub. Bu bayram təşkilata üzv ölkələrin uşaqları ilə eyni vaxtda keçirilib.

Heydər Əliyev deyib: "Bu gün hamımız – yəni həm bu salonda olanlar, həm də Azərbaycanda televiziya ekranı önündə bu mərasimi diqqətlə izləyənlər bir daha şahidi oluruq ki, Azərbaycan uşaqları nə qədər istedadlı, bilikli və nə qədər xalqımızı, millətimizi –bizləri sevindirməyə qadirlirlər və sevindirirlər"[474].

---

[473] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.80

[474] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı,"Nurlar", 2008, 536 s.; s.355

Prezident Heydər Əliyev 20 dekabr 2000-ci ildə *IV "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalının açılış mərasimində* iştirak edib.

Respublika Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru, Xalq artisti, kinorejissor Oqtay Mirqasımov bildirib ki, tədbirlərin sponsoru *"Filip Morris"* şirkəti olub. O, Azərbaycandakı nümayəndəliyə təşəkkürünü bildirib. Ulu Öndər Heydər Əliyevə minnətdarlığını ifadə edib.

"Filip Morris" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə *meneceri xanım Patrisia Trikorake, Amerika Kino Fondunun direktoru Herri Makvey* festival iştirakçılarını təbrik edib, kino sənətinə olan diqqət və qayğısına görə Heydər Əliyevə təşəkkürünü bildiriblər. Xanım Trikorake 2000-ci il də, yəni bu il 15 min tənha *qocaya və məcburi köçkün ailəsinə ərzaq və dərman verilməsini nəzərdə tutan xeyriyyə proqramının* həyata keçirildiyini bildirib, onları qarşıda gələn Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə təbrik edib.

Cənab Herri Makvey Amerika Kino Fondunun keçirdiyi "Azadlıq" kinofestivalının məramından danışaraq qeyd edib ki, münsiflər heyəti bu il "Azadlıq" mükafatını Azərbaycanda istehsal olunmuş "Sarı gəlin" filminə verir. *Fondun direktoru Cənub Makvey* həmin mükafatı filmin rejissoru Yavər Rzayevə təqdim edib.

Moskvada yaşayan həmyerlimiz *Yuli Qusman* xatırladıb ki, Rusiya kinematoqrafiya sənəti akademiyasının "Nika" mükafatı var. Y.Qusman deyib: "Nika" şərəf və ləyaqət mükafatıdır və kino sahəsində böyük xidmətləri olan sənət adamlarına verilir. Lakin bu gün bu mükafat – o, xaricdə xüsusi olaraq hazırlanmışdır – bütün həyatı boyu öz xalqına xidmət göstərmiş *Azərbaycan xalqına və vətənimizin adını dünyada ucaltmış şəxsiyyətə, Prezident Heydər Əliyevə* təqdim olunur"[475].

*Rusiya Federasiyasının Mədəniyyət naziri Mixail Şvikdov: "Biz* Heydər Əliyevin ölkələrimiz arasında mehriban dostluq münasibətlərinin inkişafına töhfəsini, onun Azərbaycan Respublikasında sabitliyin möhkəmlənməsi sahəsində fəaliyyətini yüksək qiymətləndiririk",– deyə Ulu öndərə məmnunluq ifadə edib. Müəllif yazıb: "Heydər Əliyev Sovet ittifaqı hökumətində

[475] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.361

mədəniyyət və ictimaiyyətin inkişafı məsələləri ilə məşğul olarkən onun göstərdiyi qayğını və diqqəti yaxşı xatırlayırıq”[476].

***

Azərbaycan ölkəsinin *xalça sənəti bütün dünya üçün sivilizasiya* hadisəsidir. Azərbaycan xalçası Şərq və Qərb sivilizasiyalarında milli mədəniyyət faktıdır. Diqqətlə öyrənilməyə layiqdir.

*“Azərxalça” İstehsalat Birliyinin baş direktoru, Xalq rəssamı Kamil Əliyev* deyib:

“Heydər Əlirza oğlu, sizin mənə verdiyiniz orden 30 min, 50 min, 100 min, bəlkə də, yarım milyon xalçaçı qadınlara aiddir. Bizim elə bir sahəmiz yoxdur ki, orada 100 min nəfər əhatə olunsun. Amma 8 milyonluq Azərbaycan xalqının içində ən azı 100 min xalçaçı var. Xalçaçılıq, xalq sənətinə verdiyiniz qiymət bizim xalçaçılarımızın ürəyindən oldu. Çünki bu tətbiqi incəsənətə, bizə məxsus olan xalçaçılıq sənətinə heç kim belə qiymət verməyibdir.

Cürbəcür sahələrdə işləyənlər *Amerikada, İngiltərədə, Fransada, Leninqradda* (Sankt-Peterburqda) oxuyublar. Onların çox böyük inkişafları var. Amma xalçaçılıq sənəti anamızın sənətidir. Zümzümə ilə ilməvurmaqla bu sənəti elə bir professional səviyyəyə gətirib çıxarıblar ki, indi *xalçaçılarımız bütün dünyada* məşhurdur”[477].

*Beləliklə,* Heydər Əliyev bir daha xatırladıb ki, xalqımız *Qərb mədəniyyətindən* çox şey əxz edib. Dünya sivilizasiyasına, professional musiqiyə, Qərb incəsənətinə qovuşmaq üçün çox iş görüb. Lakin *Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda olan Azərbaycan* öz milli, özgün mədəniyyətini qoruyub saxlayıb.

---

[476] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[477] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, “Nurlar”, 2008, 536 s.; s.406

# ÜÇÜNCÜ FƏSİL

# TÜRK DÜNYASI: SİVİLİZASİYALARIN DİALOQU

***"Hər bir xalqın milliliyini, mənavi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".***

**Heydər Əliyev**

## SİVİLİZASİYALARIN DİALOQU SİYASƏT VƏ DİPLOMATİYADA

***Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.***

**Heydər Əliyev**

### Heydər Əliyev və türkçülük

***Ortaq türk dünyası bəşər tarixində:*** *onun yeri, dilləri, adın mənşəyi və mənası, coğrafiyası, ilk ulu vətəni, miqrasiyaları və ən qədim mədəniyyətlərinə nəzər.* Bir az nəzəriyyədən, bir az təcrübədən.

Dünyada 30-dan artıq türk etnosu yaşayır. Onlar Asiya və Avropa əhalisinin xeyli hissəsini təşkil edir. ***Türklər Asiya, Avropa və Afrika arasında mədəniyyət və sivilizasiya ötürücüləri*** olublar. Maddi və mənəvi mədəniyyət dəyərləri *Çindən və Hindistandan Şərqi Avropaya, Uzaq Şərqdən Yaxın Şərqə* tacirlər və ictimai təməllər vasitəsilə həyata keçirilib. Türklər Avrasiyanın bir başından o biri başına yürüşlər ediblər, yeni torpaqlara yiyələniblər, oralarda öz dövlətlərini qurublar, mədəni daşıyıcılarını özləri ilə gəririblər. Onlar qonşu etnoslarla– *monqollar, çinlilər, hindlilər, İran və Qafqaz xalqları, yunanlar, slavyanlar, germanlar, fin-uqorlar və Sibirin qədim xalqları* ilə mədəni mübadilədə olublar.

***Türk dilləri və ləhcələri*** 180 milyona yaxın insanın ana dilidir. Bu dildən ikinci dil kimi istifadə edənlərin sayını da nəzərə alsaq, ümumi rəqəm 250 milyondan artıq olar. Danışanların sayına görə Türkiyə birinci, Azərbaycan ikinci sıradadır. Sonra özbək, qazax, uyğur, türkmən, tatar və qırğız dil sıraları gəlir.

***Türk dilləri*** Şərqdən Qərbə doğru–Uzaq Şərq, Qərbi Çin və Sibirdən Şərqi Avropa və Kiçik Asiyaya qədər, şimaldan cənuba doğru– Ural-Volqa-

boyu və Cənub-Qərbi Sibirdən Şərqi Türküstan, Şimali Əfqanıstan, Şimali İran və Qafqaza qədər yayılıblar. Türk dilləri üç böyük qola ayrılıbdır: *qıpçaq, oğuz və qarluq dilləri.*

***"Türk" sözü*** Çin mənbələrində *"dəbilqə",* M. Qaşqaridə *"yetkinlik, kamillik",* A.Vanperiyə görə, *"mənşə, törəmə, nəsil"* anlamındadır. Ziya Göyalpa görə, *"qanun", "qayda-qanuna malik olan"* mənasındadır. *"Güc, qüdrət "* mənasını da ifadə edib. Tarixən türk adı *Göytürk dövləti* ilə bağlıdır.

***Türküstan, Türkiyə***– türklərin yaşadığı məkan ilk dəfə *Mərkəzi Asiya və onun ətrafına* aid edilib. Coğrafi termin kimi istifadəsi VI əsrə aiddir. IX-X əsrlərin Bizans mənbələrində *"Türkiyə"* adı Volqa çayından Mərkəzi Avropaya qədər uzanan ərazilərə aid edilib. XI-XIII əsrlərdə "Türkiyə" adı ilə Misir və Suriya qeyd olunub. XII əsrdən Anadolu (Kiçik Asiya )Türkiyə adlandırılmağa başlayıb.

Hazırda *türk xalqları 6 müstəqil dövlətdə:* Azərbaycan, Qazaxıstan, Qörğızıstan, Türkmənistan, Türkiyə və Özbəkistanda, bundan başqa muxtar respublika və bölgələr olaraq: Altay Respublikası, Başqırdıstan Respublikası, Dağıstan Respublikası, Kabardin-Balkar Respublikası, Qaraçay-Çərgəz Respublikası, Saxa (Yakutiya), Tatarıstan Respublikası, Tıva Respublikası, Xakasiya Respublikası, Çuvaç Respublikası *Rusiya Federasiyası tərkibində;* Sincan-Uyğur Muxtar Rayonu Çin Xalq Respublikasında; Qaqauz Yeri Muxtar Ərazi Qurumu *Moldava Respublikası tərkibində;* Qaraqalpaq Muxtar Respublikası *Özbəkistan Respublikası tərkibində* yaşayır. Türk əhalisi Çinin başqa bölgələrində də, İran, İraq, Suriya və Balkanlarda da yaşayır.

***Türk xalqlarının ilk ulu vətəni*** *Mərkəzi Asiya və ona bitişik bölgələrdir.* Mərkəzi Asiya şərqdə Xinqan dağlarından (Şərqi Monqolustan) qərbdə Xəzər dənizi və İdil (Volqa) hövzələrinə qədər, cənubda Hindiquş (Əfqanıstan, Pakistan) və Qaraqorum (Şərqi Türküstanın cənub hissəsi) dağlarından şimalda Sibirə qədər uzanan geniş bir məkandır.

***Ən qədim türklərin yaşadığı əsas bölgələr*** *Cənubi Sibir, Monqolustan, Ordos (Çinin şimalı), Tanrı dağının (Tyan Şan) şimal ətəkləri, Yeddisu (Qırğızıstan, Qazaxıstanın cənub-şərqi), Sırdərya hövzəsi, Aral dənizi ətrafı, Volqa və Yayık (Ural) çayları hövzələri və Azərbaycan* sayılır.

***Türklərin başqa bölgələrə köçləri*** *siyasi, sosial, iqtisadi* və *mədəni* səbəblərlə bağlı olub. Nəticədə onlar Asiya ilə yanaşı, Avropa və Afrika qitələrində də məskunlaşıblar. Türklərin *vətəndən ilk köçləri* e.ə. XV əsr hesab olunur. Böyük dövlətlərin yaranması hər zaman onların köçləri ilə bağlı olub. Beləliklə, Koreya yarımadasından Qara dənizə qədər uzanan məkanda türk birliklərinin mərkəzləşdirilməsi dövlət qurulmasında mühüm amil

olub. İqtisadi-ticarət əlaqələrində türklərə heyvandarlıqdan başqa, şəhərlər, karvansaralar da lazım olub. Bu səbəbdən köçəri təsərrüfatla yanaşı, *şəhər mədəniyyəti* də davam etdirilib.

Mərkəzi Asiyanın ən qədim mədəniyyətləri əsasən *Anav, Afanasyev və Andronov mədəniyyəti* hesab olunur.

Çin mənbələrinə görə e. ə. III– b.e.III əsrləri arasında *Asiya hunlarının imperiyası* olub. İlk məlum hökmdarı Tuman (Teoman ) olub. Ərazisi Mərkəzi Asiya, Cənubi Sibir, Monqolustan, Şimali Çin, Çərqi Türküstanı (hazırda ÇXR-nın Sincan-Uyğur Muxtar Rayonu) əhatə edib. Toumanın oğlu Mete Çinin xan sülaləsinin qoşunlarını darmadağın edəndən sonra Şimali Çinin bir çox ərazisini tutub. Asiya hun imperiyası çinlilərin döyüşləri nəticəsində III əsrdə süqut edib. Hunların bir hissəsi Çinə yayılıb, kiçik dövlətlər qurub, digər hissəsi Qərbə üz tutub, Şərqi Avropada öz dövlətlərinin əsasını qoyublar. Hunların dili qədim türk dili olub.

***Usunların dövləti*** *e.ə.II – b.e.IV əsrləri arasında usunlar* qüdrətli dövlət yaradıb. Onlar indiki Qansu bılgəsində, Sinlən-Şan dağlarının şərq tərəfi ilə Dunxuan (Qərbi Çin) arasındakı ərazilərdə məskunlaşıblar. Sonralar onların dövlətlərinin sərhədləri Şərqi Türküstanın (indiki ÇXR-nın Sincan-Uyğur Muxtar Rayonu) şimal hissəsini, Yeddisu və Mərkəzi Tanrıdağını da əhatə edib. Paytaxtı İssık-Kul gölü sahilində yerləşən Çuquşen (Qırmızı vadi) şəhəri olub. Qədim Usunlar dövləti süquta uğradıqdan sonra tərkibində olan qəbilə və tayfalar Göytürk və Qərbi-Türk xaqanlıqlarına daxil olub. Onlar da Türkeş dövlətini yaradıb. O da Qaraxanlı və Moğolustan dövlətlərinin etnik əsasını təşkil edib.

***Qədim qırğızlar*** Mərkəzi Asiyanın ən qədim xalqlarından biridir. Tarixi e.ə. III əsrdən başlayıb. *Qədim qırğızlar və Qırğız xaqanlığı* ortaq türk tarixinin bir hissəsidir. Tarixən qırğızlar şərqi Tanrı dağdan və Voro-Horo dağ silsiləsindən şimalda  və indiki Urumçi şəhərindən qərbdəki ərazidə məskunlaşıblar.

***Kanquy dövləti*** *(Kanqlı, yaxud Kanqha) e.ə. II əsrdən b.e. III əsrinə qədər* mövcud olub. Ərazisi Sırdəryanın (Seyhun) orta axınının hövzəsini və Qərbi Yeddisu bölgəsini (Cənubi Qazaxıstan) əhatə edib. Bu dövlət Kanq, yaxud Kanquy kimi tanınıb. Bu dövlət Qərbi Yeddisu, Orta Sırdərya, Çaç (Daşkınd), Xarəzm, Soqd kimi beş bölgəni əhatə edib. Dövlətin zamanında Sırdərya hövzəsindən İssıkgölə qədər olan ərazilərdə  onlarla erkən şəhərin təməli qoyulub. Onlar İpək yolunun şimal hissəsində qabaqcıl mədəniyyət və ticarət mərkəzinə çevrilib. III əsrdə daxili çəkişmələr nəticəsində zəifləyib. Bu dövlətin ərazisində qədim dövrdən indiyə kimi Sırdəryanın orta hövzəsində Kanqlı adlı türk boyu yaşayır. Azərbaycan, qazax, qaraqal-

paq, qırğız və özbəklərin bir boyu olan kanqlılar (Kanger–Kəngər) yakutlar arasında da vardır.

***Parkana (Davan) dövləti*** *e.ə. I minilliyin yarısından b.e. ilk əsrlərində* mövcud olub. Fərqanə vadisinin (Özbəkistan, Qöröızıstan əraziləri) mərkəzi və şərq hissələrini əhatə edib.

***Kuşan imperiyası*** *e.ə. II– b.e.III əsrləri arasında* mövcud olub. Ərazisi Mərkəzi Asiyanın cənub-qərb hissəsini (qədim Baktriya/Yuxarı Amudərya hövzəsi), Xorasanı, tarixi Şimali Hindistanı (Əfqanıstanın bir hissəsi, pakistan) və Şərqi Türküstanı (indiki ÇXR-in SUMR-nu) əhatə edib. Kuşanlar Parfiya və Sasani dövlətləri ilə mübarizə ediblər. Hindistanın şimal torpaqlarını ələ keçirib İpək yolunun cənub xəttini nəzarətdə saxlayıblar. Kuşanlar Qandhara (Pakistan) mədəniyyətinə töhfələr verib. Amudərya sahillərində şəhər salıb, buddizm mədəniyyətini yaradıblar. III əsrə doğru zəifləyib. Sasani sülaləsinin təsiri ilə tarix səhnəsindən çıxıblar.

***Avropa Hun imperiyası*** *IV-V əsrlərdə* mövcud olub. Ərazisi Şimali Qafqazı, Qara dənizin şimal sahillərini və Şərqi Avropanı əhatə edib. Roma imperiyası ilə döyüşüb, Balkan yarımadasını tutub, Fransaya qədər gedib çıxıblar. Hunlar əvvəl şərq qotlarını, sonra qərb qotlarını məğlub ediblər. Roma imperiyasının şimal əyalətləri dağıdılıb, İspaniyaya qədər olan ərazidə Avropanın etnik siması dəyişdirilib.

***Hun hökmdarı Atilla*** (434-453) dövründə hun dövləti böyük imperiyaya çevrilib.

Avropa hunları özlərindən sonra Şərqi Avropada türk əsilli *(bolqar, avar, oqur),* yaxud türklərlə qohum olan tayfaların *(macar)* siyasi birliklərinin əsasını qoyublar.

***Cənub hunlarının dövləti*** *IV-V əsrlərdə* mövcud olub. Tarixdə Hionit adı ilə tanınıb. Onun ərazisinə Baktriya (Mərkəzi Asiyanın cənub-qərbi, Xorasan və Şimali Hindistan aid edilib (Əfqanıstan, Pakistan).

III əsrdə Asiya hunlarının imperiyası dağılıb. Hunların böyük bir hissəsi qərbə, şərqi Avropaya köç ediblər, bir hissəsi də güman ki, cənub-qərbə, Amudərya və Sırdərya çayları arasına üz tutublar.

IV əsrin sonuna doğru hunlar Səmərqəndi tutublar. Sasanilər üzərində nəzarəti ələ keçiriblər. Burada mərkəzi Toharıstan dövləti yaradıblar. Sasanilərə qarşı mübarizədə üstünlük qazanıblar. Şimali Hindistanda da mövqelərini gücləndiriblər.

***Ağ Hun (Eftallar) dövləti*** *IV-VI əsrlərdə* mövcud olub. Ərazisi Mərkəzi Asiyanın cənub-qərb ətrafları (Qədim Baktriya), Xorasan, Şimali Hindistan və Şərqi Türküstanın cənub-qərb hissəsini əhatə edib. Onlar Bizans mənbələrində Eftallar, ərəb və fars dilli mənbələrdə Haytal, Çin salnamələrində

Ye-da, yaxud Yen-ta adlandırılıb. Ağ hunlar cənub hunlarının da davamçılarıdır. Bizans və Çin mənbələrində bunlar *hunlar* adı ilə verilib. Eftallar da Sasanilər üzərində qələbə qazanıb, Şimali Hindistan və Kabil vadisini nəzarətdə saxlayıblar. Onlar yabqu, tigin, tarxan kimi titullar daşıyıb. Ərəb mənbələrinə görə, onlar uzun illər öz hakimiyətini Əfqanıstanın Kabil, Qəznə və Qəndəhar bölgələrində qoruyub saxlayıblar. Eftalların nəsilləri abdallar, halaçlar, qarluqlar və kəncinə türkləri olub. Ağ hunların törəmələri Hindistan, Əfqanıstan və İran ərazilərində qurduğu dövlətlərin hərbi qüvvələri olub.

***Jujan imperiyası*** *V-VI əsrlərdə* mövcud olub. Onların ərazisi Mərkəzi Asiyanın şimal-şərq torpaqları: Monqolustan, Altay, Şərqi Türküstanın şimal-şərq hissəsi, Cunqariya əraziləri olub. Çinlilər onları *Juan-juan,* türklər *Apar* adlandırıblar. Onlar mənşəcə güman edilir ki, avarlara bağlı olub. Juan-juanlar Çinin üzərində üstünlük qazanıb, Yüeban və Qaoçe kimi türksoylu tayfaları özlərinə tabe ediblər. Tərkibi türk və monqol tayfaları olan Juan-juan dövləti mövcud olduğu müddətdə hökmdar Şelun ilk dəfə *xaqan* titulunu qəbul edib.

Jujan dövləti VI əsrin birinci yarısında Monqolustan, Şimali Çin və Koreyaya qədər əraziləri əhatə edən imperiya olub. Tərkibində olmuş Aşina tayfası 552-ci ildə onların hökmranlığına son qoyub. Onlar sonra qərbə köç edib, daha sonra Şərqi Avropada yaranmış Avar xanlığının əsasına son qoyduğu güman edilir.

Türklərin əcdadları əsasən *çöl və meşəlik bölgələrdə* yaşayıb. Həyatlarında atların əhəmiyyəti böyük olub.

Şərqi Avropadan Çinə, Sibirə və Uzaq Şərqə qədər uzanan *İpək yolunun* şimal xətti hunların nəzarəti və himayəsi altında olub. Mərkəzi Asiyanın iqtisadi və mədəni inkişafına imkan yaradıb. Bu yol hunların Çin, Hindistan, İran, Şərqi Avropa, Şimali Asiya ölkələri ilə mədəni əlaqələr qurmasına vasitə olub.

Qədim türklərin *dini Tanrıçılıq* olub, bu da türklərin islamı asanlıqla qəbul etməsinə zəmin yaradıb.

Tarixdə 8 *türk xaqanlığı* göstərilir: Göytürk, Avar, Xəzər, Türkeş, Uyğur, Koço Uyğur, Qarluq Yabqu dövləti, Qırğız xaqanlıqları, Kimak və Qıpçaq dövlətləri.

***Göytürk xaqanlığı*** *552-744-cü illərdə* mövcud olub. *İlk Mərkəzi Avrasiya* imperiyasıdır. Dövlətin əsasını köçəri Aşina türk tayfası qoyub. Baniləri *Bumın* və *İstəmi* qardaşları tərəfindən qoyulub. Göytürk hökmdarları *xaqan titulu* daşıyıb. Dövlətin sərhədləri Uzaq Şərqdən Xorasana və Şimali Hindistanacan uzanıb. İmperiya Çin, Bizans və Sasanilərlə mübarizə aparıb.

Onlarla Mərkəzi Asiya tayfası, Şərqi Türküstan, Amudərya və Sırdərya hövzəsi, Xorasan və Şimali Hindistan yerləşən 20-dən çox dövlət Göytürk xaqanlığının hakimiyyəti altında olub. Ötükən bölgəsi (indiki Monqolustan), Suyab və Taraz (Yeddisu), Cabqukənd və Xatunkənd (Daşkənd), Ağ-Tağ və Beşbalıq (Şərqi Türküstan) əsas inzibati şəhərləri olub.

***Göytürk imperiyası*** Asiya Hun imperiyasından sonra *Mərkəzi Asiyada ikinci böyük türk dövləti* olub. Tarixdə *Türk adı ilk dəfə dövlət adı* kimi bu dövrdə işlənib. VII əsr mənbələrinə görə İdil (Volqa) və Xorasandan Çinə qədər uzanan ərazilər *Türküstan adı* ilə bəlgələnib. *Mərkəzi Asiya və ətrafları* bu adla tanınıb.

Göytürk xaqanlığının *Bumın, Muğan xaqan, İstəmi Yabqu, İltəris Qutluq xaqan, Qapağan xaqan və Bilgə xaqan* kimi məşhur hökmdarları olub. Muğan xaqan, İstəmi Yabqu dövrü xaqanlığın ən qüdrətli çağları olub. 682-725-ci illərdə üç xaqana ayquçu (baş vəzir) olmuş Tonyukuk, ordu başçısı şahzadə Kül tigin və bir sıra başqa görkəmli şəxsiyyətlər dövlətin yüksəlişində böyük xidmətlər göstəriblər. Tarixən xaqanlıq iki qanaddan idarə olunub: mərkəzi Ötükən (Orxan vadisi, Monqolustan) olan *Şərqi Göytürk xaqanlığı* və mərkəzi Yeddisu olan *Qərbi Göytürk xaqanlığı*. Bumın xaqanın varisləri Cənubi Sibir, Monqolustan, Uzaq Şərq və Şimali Çini Şərq Göytürkləri idarə edib. Orxon çayının vadisi və Ötükən vilayətində çoxlu daşlar (bitikdaş) qoyulub. Daşların üzərindəki yazılarda bildirilir ki, türk tayfaları öz birliklərini qorumalı və yalnız bu birlik sayəsində Bengü ili (Əbədi eli) saxlayacaq və millət kimi var olacaqlar.

Xaqanlığın Altay dağlarından Qara dənizin şimal sahillərinə, Yayikdən (Ural) və İdildən (Volqa) Şimali Hindistana qədər olan hissəsini isə İstəmi yabqunun nəsilləri Qərb göytürkləri idarə edib. Dövlət Yeddisu bölgəsindəki 10 türk soyunun birliyindən yarandığına görə Qərbi Göytürk xaqanlığı rəsmi olaraq On Ok (On ox ) adlandırılıb.

Göytürklər Çinin Suy və Tan sülalələri, Bizans imperiyası və Sasanilər dövlətləri ilə əlaqədə olublar.

Qərb göytürklərinin ərazisi olan Amudərya və Sırdərya çayarası və bitişik ərazilərdə VII -IX əsrlərdə Çaç (Daşkənd) tiginləri, Fərqanə Aşina sülaləsi, Toharıstan yabquları və Kabil tigin-şahları kimi sülalələr hökmranlıq ediblər. Onların mənşəyi Aşina sülaləsinə gedib çıxır. Bu dövrdə Xəzər dənizinin şimal-şərqində yerləşən Dehistan, Gürqan və Mərv (indiki Türkmənistan) torpaqları da Göytürklərin tabeliyində olub.

***Avar xaqanlığı*** *VI-IX əsrlərdə* mövcud olub. Avarların imperiyası Şərqi Avropada qalmış Hun tayfalarının Mərkəzi Asiyadan gələn digər türk nəsilləri ilə qarışması nəticəsində yaranıb. Dövlətin qurucusu Bayan xaqan

olub. Sərhədləri Dunayçayının orta hövzəsi, Transilvaniya, Panoniya (Macarıstanın keçmiş adı) və Karpat dağlarını əhatə edib. Avarlar Bizanslara qarşı vuruşub. Bir sıra german və slavyan tayfalarını özlərinə tabe edib. Güman edilir ki, xaqanlığın əsasını qoyanlar juan-juanlar və ağ hunlarla (eftallar) qohum olublar. Onlar Mərkəzi Asiyadan gəlib, hunlardan törəyib. Xaqanlıq dövründə Şərqi Avropada türk mədəniyyətinin təsiri çox olub. İndiki Macarıstan, Avstriya və Almaniyanın cənub-şərqində yaşayan xalqların formalaşmasında bu dövrün mühüm rolu olub. Xüsusilə, fin-uqor və türk xalqlarının qarışması nərticəsində formalaşmış macar xalqı üçün əhəmiyyətli olub.

***Xəzər xaqanlığı*** *VII-X əsrlərdə* mövcud olub. Dövlətin əsası Aşina nəslinin davamçıları olub. Onlar Qərbi Göytürk xaqanlığını idarə edib. Mərkəzi əraziləri Aşağı Volqaboyu və Xəzər dənizinin şimal-qərb sahillərini əhatə edib. Müxtəlif dövrlərdə dövlətin paytaxtı Xanbalıq (Səməndər, Dağıstan), İdil, Bələncər və Sarkel şəhərləri olub.

Xəzər xaqanlığı Qara dənizin şimalından Aral dənizinə, Azərbaycandan Ural dağlarına qədər ərazilər olub. Onun ərazisində türk, slavyan, Qafqaz, İran və fin-uqor (madyarlar) etnosları yaşayıb. Bu bılgədə türklər sayca çoxalıb. Xüsusilə, Azərbaycan türkləri, qumuq, qaraçay və balkarlar, krım tatarlarının formalaşmasında xaqanlığın rolu böyük olub.

Xaqanlığın hakim zümrəsi yəhudiliyi qəbul edib. Ölkə ədalətlə idarə olunub.Yəni ölkədə 7 baş hakim olub. 2 müsəlmanlığı, 2-si xristianlığı, 2-si yəhudiliyi, 1-i qədim türk dininə –tanrıçılığa etiqad edib və rusların məhkəmə işlərinə baxıb. Xaqanlar dini işlərə müdaxilə etməyib. Xəzərlər Şərqi Avropada 100 ildən çox mövcud olan imperiya yaradıb. Xəzər mədəniyyəti rus və macar mədəniyyətinə təsir göstərib. Şimali Qafqazda, Kuban və Don çayları hövzələrində türk maddi mədəniyyət nümunələri tapılıb. Bunlar Göytürk və Xəzər xaqanlığına aiddir. İzləri qaraçaylılar, balkarlar, qumuqlar və Şimali Qafqazın digər türk xalqlarının mədəniyyətində yaşamaqdadır. Qaraçaylılar və balkarlar arasında islamdan əvvəlki inanclara aid olan Teyri (Tenqri) və Umay Ene (qədim türk ilahəsi Umay) haqqında rəvayətlər vardır.

***Türkeş xaqanlığı*** Qərbi Göytürk xaqanlığının davamı kimi yaranıb. *699-766-cı illərdə* mövcud olub. Əsasını Uçele (Yüzlük) xaqan qoyub. Paytaxtı Suyab şəhəri olub. Ən məşhur hökmdarı Sulu xaqan olub. Xaqanlıq dəfələrlə çinlilərə, ərəblərə qarşı müharibə aparıb. Müttəfiqi qörğız xaqanlığı olub. Ərəblərlə çinlilər arasındakı müharibədə–Talas döyüşündə (751-ci il) türk-qarluqlar ərəblərə kömək edib, nəticədə Çin ordusu darmadağın edilib. Bundan sonra islam dini Mərkəzi Asiyada geniş yayılıb. Xorasan və

Mavəraünnəhr *islamı ilk qəbul edən türk tayfaları* olub. Sonra Xəzər xaqanlığı, habelə,Volqa bulqarları ərazisində geniş yayılıb.

***Uyğur xaqanlığı*** Şərqi Göytürk xaqanlığının varisi olub. *VIII-IX əsrlərdə* mövcud olub. Siyasi mərkəzi Ötükən düzənliyində Ordu şəhəri olub. Tərkibinə Monqolustan, Uzaq Şərq, Cənubi Sibir və Şimali Çin daxil olub. Qurucusu Qutluq Bilgə Gül xaqandır.Çinə qarşı uğurlu müharibələr aparıb. Monqol və mancur əsilli tayfaları tabe edib. Tarixində Moyon-Çur, Bögü xaqan və Bağa Tarkan kimi məşhur hökmdarlar olub. Çin üzərində nüfuzu artıq olub. Bögü xaqanın dövründə manilik dini geniş yayılıb. Ordubalıq şəhərində Mani məbədi də tikilib. Xaqanlıqdan əvvəl Göytürk run əlifbasından istifadə edilib. Bu əlifba ilə yazılan Şine-Usu (Moyon-Çur) və Qarabalqasun (Ordubalıq ) abidələri Uyğur xaqanlığının tarixindən bəhs edir. Sonralar soqdi əlifbası əsasında uyğur əlifbası yaradılıb və istifadə olunub. Türk bitikçiləri– mirzələr bu əlifba ilə yazıb-yaradıb.

***Qonsu (Kançou) Uyğur dövləti.*** Uyğur xaqanlığı dağılandan sonra uyğurların bir hissəsi indiki Çinin şimal-qərbində yerləşən Qansu vilayətinə gəlib burada Qonsu (Kançou) Uyğur dövlətini qurublar. Uyğurlar özlərinin dövlətçiliyini təkcə Qansuda deyil, həm də Turfan vahəsində (Koço dövləti) bərpa ediblər. Qonşu Çinlə ticarət əlaqələri yaradıblar. Uyğurları 940-cı ildə onlar əvvəl Şimali Çinə hakim olan kitanların (qarakitay), sonra tanqutların, daha sonra Çingiz xanın (1226) idarəsi altında monqolların hakimiyyətini qəbul ediblər.

***Koço Uyğur dövləti*** *IX əsrdən XIII əsrə qədər* mövcud olub. Monqolların əsarətində olub. Göytürk və Uyğur xaqanlıqlarının varisləri tərəfindən qurulub. Şərqi Türküstanın Turfan və Qumul bölgələrini əhatə edib. Bura Dunxuan ərazisi də (Şimal-Qərbi Çin) daxil olub. Qurucusu *Pan tigindir.*Burada qədim türk mədəniyyəti ilə yanaşı, manilik və buddizm inanclarının da olduğu mədəni mühit yaranmışdı. Dövlət özündən sonra buddizm dininə aid məbədlər, divar rəsmləri, heykəllər, qədim türk, soqdi və pəhləvi dillərində yazılmış epiqrafik abidələr yadigar qoyublar. Dövlət oturaq mədəniyyətə malik olub. 500 il yaşayıb. Əlvan mədəniyyətlərində manilik, buddizm, xristian, Çin, yerli tohar və qədim türk kültürü qovuşub.Tolerant dövlət olub.

***Qarluq Yabqu dövlətinin*** əsasını qarluq türkləri təşkil edib. Əvvəl Orxon (Monqolustan), Altay və Tarbaqatayda (Şərqi Qazaxıstan) yaşayıb, sonralar cənub-qərbə köç edib. 766-cı ildə Yeddisuda Türkeş xaqanlığının hakimiyyətinə son qoyub, Mərkəzi Taraz (Talas) şəhəri olan dövlət yaradıblar. Yeddisu şəhərində müsəlman türklərin sayı artmışdı. VIII əsrin ortalarında Yeddisuda qarluqların hakimiyyəti güclənib.

***Qırğız xaqanlığı*** dövlətini *V-VI əsrlərdə* Yeniseyin yuxarı axarında yaradıblar. 555-ci ildə Türk xaqanlığından asılı vəziyyətə düşüblər. 630-cu ildə dağılandan sonra qırğızlar öz müstəqilliyini bərpa ediblər. 648-ci ildə ilk səfirlərini Çin hökumətinə göndəriblər. Göytürklər yenidən güc yığdıqdan sonra qırğızlar onların tabeliyinə keçiblər.VIII əsrin 20-30-cu illərində müstəqilliyini bərpa edib. 840-cı ildə Ötükənddə Uyğur dövlətini məğlub ediblər, qüdrətli Böyük Qırğız xaqanlığı yaradılıb. Bu dövr Yenisey qırğızlarının siyasi qüdrəti, hərb sənətinin zirvəsi dövrü olub. 840-924-cü illərdə xaqanlığın ərazisi Mancuriyanın qərb sərhədlərindənTanrı dağına qədər uzanıb. Bu dövlət Böyük İpək Yolunda nüfüza malik olub. Çində Tan sülaləsi ilə əlaqə saxlayıb. Bu dövr qırğız mədəniyyətinin yüksəliş dövrüdür. Hadisələr "Manas" dastanında xatırladılıb. X əsrdə Böyük Qırğız xaqanlığı zəifləyib, parçalanıb. XIII əsrdə monqolların hakimiyyəti altına düşüblər. Bir hissəsi Sibirdə qalıb, bir hissəsi Altay dağlarının cənub-qərb bölgələrinə, IX -XIII əsrlərdə bir neçə axınla Tanrı dağın şimal-qərb rayonlarına köç ediblər.

***Kimak və Qıpçaq dövlətləri.*** Kimak dövləti *IX-X əsrlərdə* Qərbi Altay və Balxaş gölünün şimal-şərqində yaşayan kimak türkləri tərəfindən qurulub. Cənubda və cənub-qərbdə Qarluq və Oğuz yabquluqları ilə, şimal-şərqdə isə Qırğız xaqanlığı ilə həmsərhəd olub. Bu dövrdə Mərkəzi Asiyanın bu bölgələrində İpək yolunun Altay və Sibirə gedən xəttində beynəlxalq ticarət canlandırılıb.

Kimak türkləri Göytürk xaqanlığına xas olan qədim türk dövlətçilik ənənələrini qoruyub saxlayıblar, yüksək mədəniyyətə malik olub, şəhər və kəndlər salıblar.

***Qıpçaq dövləti*** isə *XI-XIII əsrlərdə* Avrasiya çöllərinin müəyyən hissəsi, yəni indiki Qazaxıstanın ətraf və çöl ərazilərini əhatə edib. Kimak xaqanlığı zəiflədikdən sonra onun ərazilərində Qıpçaqlar hakimiyyəti ələ keçiriblər. XI əsrin ikinci yarısından başlayaraq Aral və Xəzər dənizləri arasındakı oğuz yerlərini tutublar. *Mefedet el-Quzz–Oğuz çölü* əvəzinə, *Dəşti-Qıpçaq –Qıpçaq çölü* termini işlənməyə başlayıb. XI əsrin ortalarına doğru qıpçaq tayfaları İdil çayını keçib qərbə doğru hərəkət ediblər. Sonra Bizans və Bolqarıstan ərazilərinə basqın edərək 1071-1080-ci illərdə Dunay çayı sahillərinə yerləşiblər. Bəzi qıpçaq tayfaları isə başqa türk tayfaları ilə birlikdə Kiçik Asiyaya yayılıblar.

XI-XII əsrlərdən Altay dağlarından Karpat dağlarına və Dunay çayına qədər uzanan ərazilərdə yaşayan tayfalar *Qıpçaqlar* adlandırılıb. Bu geniş məkanda bir neçə qıpçaq xanlığı olub. Ən nüfuzlusu İl-Börili sülaləsi olub. Hökmdarlarından biri Abar xan olub. XI əsrin sonlarına doğru qıpçaqlar

Manqışlaqda və Xəzər dənizinin şərq sahilində hökmranlıq ediblər.1096-cı ildə Qıpçaq Birliyi Uluq xanın başçılığı altında Xarəzmə yürüş ediblər, lakin Səlcuqlar Manqışlaqda qarşısını alıblar. Çingiz xanın qoşunları qıpçaq bəyliklərinə son qoyub. Sonralar qıpçaq tayfaları ilə türk-monqol tayfaları Qızıl Ordu və başqa Çingizi sülalələrinin idarəçiliyinə qatılıb, bölgənin siyasi və mədəni həyatında mühüm rol oynayıb.

Bizanslılar qıpçaqları *kun, kuman,* ruslar isə *polovets* adlandırıblar. Bir sıra qıpçaq nəsilləri Cənubi Rusiya çöllərindən, Qara dəniz bölgəsindən Bizans sərhədlərinə, yəni Şərqi Avropaya qədər köç ediblər. Qıpçaq türkləri arasında Oğuz soyundan olan türklər də olub ki, Bizans mənbələrində *Uz,* qədim rus salnamələrində *Torki* (Türk) kimi adı çəkilib. Onlar indiki Ukrayna ərazilərində özlərinin siyasi qurumlarını yaradıblar.

Uz/torkilərin bir hissəsi digər türk nəsilləri kimi Ukrayna və onun ətrafında yaşayan yerlilərlə qarışıb slavyanlaşıb, bir hissəsi isə muzdlu əsgərlər kimi Bizans imperatorlarına xidmət edib. Onlar sonralar Səlcuqlu –Bizans müharibələrində qan qohumları olan oğuzlar tərəfə keçiblər. Səlcuqların Anadolunu tutmalarına yardımçı olublar. Uzların bir hissəsi isə Mərkəzi Asiyaya geri qayıdıb. Özbəklər arasında hazırda *Uz* və *Kara Uz* kimi soyadlar vardır.

B.e.I minilliyinin ortalarından türklərin Şərqi Avropaya davamlı köçləri qıpçaqların Qərbə irəliləmələri ilə güclənib. IV əsrdə xüsusilə Macarıstan və onun ətrafına avarlar, bulqarlar, on oqurlar, peçeneqlər, kunlar, kumanlar (qıpçaqlar) gəlib yerləşiblər. Fin-uqorlarla qarışma indiki macar (madyar) xalqını formalaşdırıb. Bizanslarda *Tourkia* sözü Macarıstan bölgəsinə, *türk* sözü isə macarlara aid edilib. Qıpçaq dövlətinin yaranması türk dilinin qıpçaq ləhcəsinin geniş yayılmasına səbəb olub. Sonralar qazax, qırğız, tatar, başqırd, qaraqalpaq, noqay, özbək dilinin qıpçaq dialekti, qumuq, qaraçay-balkar dilləri qıpçaq ləhcəsi əsasında formalaşıb. Azərbaycan xalqının etnogenezinə də töhfələrini veriblər.

Bir dövlət daxilində fərqli mədəniyyətlərdə ortaq dəyərlərin yaranmasına zəmin yaradıb.Mərkəzi Asiya türkəri xüsusilə, ətraf bölgələrə yayılmaqla Şimali Hindistan, Xorasan, Qafqaz və Qara dəniz sahillərinə köç edərək yeni vətəntapıblar.Beynəlxalq ticarət canlanıb, yeni ticarət şəhərləri salınıb,Tanrıçılıq inancı, zərdüştilik, buddizm genişlənib, təsviri sənət (divarlarda saray həyatı nişanələri, dini ayinlər, əyləncə,ov və müharibə səhnələri), türklər, soqdilər, hindlilər, çinlilər, və s.birarada olmaqla qarşılıqlı mədəni əlaqələr yaradıblar.

***İlk türk-müsəlman dövlətləri*** *Oğuz Yabqu dövləti, Qaraxanlı xaqanlığı, Sacilər dövləti, Volqa Bulqar dövləti, Qəznəvilər dövləti, Böyük Səlcuqlu dövləti, Azərbaycan Atabəylər dövləti və Xarəzmşahlar dövləti* olub.

VIII-XIII əsrlərdə Xilafət– *Əməvilər, Abbasilər sülalələri* hakimiyyətdə olub. Mərkəzi Asiyada islam dininin yayılmağı güclənib, Çinin buradakı nüfuzu zəifləyib.

***Oğuz Yabqu dövləti*** qədim türk tayfalarının *VIII əsrin II yarısı – IX əsrin sonu* yaratdığı siyasi birlikdir. Qədim türk xaqanlıqları dövründə, əsasən, Monqolustanda yaşayıblar. VII-VIII əsrlərdə qərbə doğru irəliləyiblər. Sırdəryanın orta və aşağı hövzələrində – Aral gölü ətrafında Xarəzm və Xorasan bölgələrində məskunlaşıblar.

Sırdəryanın orta hövzələrində VIII-IX əsrlərdə Oğuz Yabqu dövlətini qurublar. Sərhədləri şimal və şimal-qərbdə Qaraçuq (Qaratau) dağları və Yeddisunun qərbinə (İsficab bölgəsi) qədər, qərbdə isə Cənt (Aşağı Sırdərya) və Aral gölü ətrafəna qədər uzanıb. Burada Südkənd, Yengikənd, Otrar, Cənt şəhərlərində müsəlman türklərinin sayı artıb və İpək yolunun şimalında ticarəti canlanıb. Bürünc və gümüş pullar kəsiblər.Üzərini ərəb yazısı ilə yazıblar. Ərəblər və farslar oğuz türklərini *Quzz* adlandırıblar.

Oğuz Yabqu dövləti bir müddət Xəzər xaqanlığının tərkibində olub. Getdikcə güclənən oğuzlar Mavərannəhrin daxili ərazilərində (Nurata/Buxara), Xarəzm və Xorasan sərhədlərinə qədər yayılıb. Mahmud Qaşğariyə görə, Daşkənd bölgəsindəki Benaket vadisi oğuzların məskəni olub. Oğuz Yabqu dövlətinin yaranması Mərkəzi Asiyada türk dilinin oğuz qolunun yayılmasına səbəb olub. Bu qol Anadolu, Azərbaycan, türkmən, özbək, qaqauz dil qruplarının yaranmasına zəmin olub.

***Qaraxanlı xaqanlığı*** *840–1212-ci illərdə* mövcud olub, *Mərkəzi Asiyada* yaranıb, ilk türk-müsəlman dövlətlərindən biridir. Əsası ehtimala görə, hakim türk Aşina nəslindən islamı qəbul etmiş *Bilgə Kül Qədir xan* tərəfindən qoyulub. Şərqi Türküstan və Yeddisu torpaqlarında yaradılıb. Mərkəzləri əvvəl Qaşqar və Balasaqun şəhərləri olub.

Qaraxanlılar 999-cu ildə Samanilərə qarşı vuruşub, Səmərqənd və Buxaranı tutublar. Sərhədləri Amudərya çayına qədər uzanıb. Şimal əraziləri Qaraxanlılara, cənubu isə Qəznəvilərə baxıb. Amudərya çayı ikisi arasında sərhəd olub. İki qüdrətli dövlət bir-birinin ərazi bütövlüyünü tanıyıb...

Başqa bir türk sülaləsi Səlcüqların meydana çıxması Asiyanın müsəlman hissəsində ciddi siyasi dəyiçikliklər doğurub. Səlcuqluların böyük sultanı *Məlik şah* (1072-1092) 1082-ci ildə Mavəraünnəhri zəbt edib. Üzkəndə (Fərqanə) daxil olub. Şərqi Qaraxanlı hökmdarı Həsən xan onun hakimiyyətini tanıyıb. Qaraxanlılar Səlcuqluların vassalına çevrilib.1141-də Səmər-

qənd yaxınlığında ikisinin birləşmiş ordusu *qarakitaylara* məğlub olub. Qaraxanlılar dövlətinin şərq hissəsi qarakitayların təbəliyinə keçib.

Tarixdə Qaraxanlıları *Əfrasiyab oğulları* adlandırıblar. Onlar mənşəyini Əfrasiyab ləqəbli Alp Ər Tonqa ilə bağlayıblar.

Qaraxanlılar dövründə dünya sivilizasiyasına Yusif Balasaqunlu, Mahmud Qaşqarlı, Əhməd Yəsəvi kimi müsəlman mütəfəkkirləri töhfə verib. Qaşqar, Taraz, İsficab, Üzkənd, Buxara və Səmərqənd şəhərləri islam mədəniyyətinin mərkəzlərindən olub.

***Sacilər (Sacoğulları) dövləti*** IX-X əsrlərdə mövcud olub. İlk türk-müsəlman dövlətlərindən biridir. Qurucusu *Məhəmməd Sacoğlu* olub. Paytaxtı əvvəl Marağa, sonra Ərdəbil olub. Yusif Sacoğlı zamanında dövlətin pulu olub, iqtisadiyyat sürətlə inkişaf edib. Şərqi Anadolunun xeyli hissəsində hakim mövqe tutublar.

***Volqa Bulqar dövləti*** IX-XIII əsrlərdə Volqa (İdil) çayının orta hövzəsi ərazisində yaradılıb. Mərkəzi Bulqar şəhəri olub. İlk müsəlman dövlətlərindəndir. *"Bulqar"* sözü *"qarışıq"* mənasındadır. Bu xalq Kutriqur, Utriqur tayfaları və Şərqi Avropadan geri qayıdan hunların qarışığından formalaçıb. Əvvəl Göytürk xaqanlığının hakimiyyəti altında yaşayıb. Zəiflədiyi halda bulqarlar VII əsrdə Böyük Bulqar dövlətini yaradıblar. Buna Xəzər xaqanlığı son qoyub. Bulqarların Asparux xanın tabeliyindəki hissəsi Dunaya üz tutub və Balkanlara gəlib çıxıblar.VII əsrin 70-ci illərində Dunay bulqarları dövlət yaradıb. Onlar sonra yerli slavyanlarla qarışıb. 864-cü ildə Boris xan provoslav məzhəbini qəbul edib, xristian olublar. Bu günkü bolqarlar qismən onların nəslidir.

Bolqarların o biri hissəsi Volqa və Kama çaylarının qovuşduğu bölgədə məskunlaşıb.Volqa bulqarları yerli fin-uqor və bəzi türk tayfaları ilə birlikdə vahid dövlət yaradıb. Dovlətdə islam dini və müsəlman mədəniyyəti yayılıb.

Monqollar Kalka çayı sahilində rusları darmadağın edib şərqə qayıdan zaman bulqarların tələsinə düşüb və ağır itkilər verib. Monqol baş komandanı Batı xan 1236-cı ildə bulqarların üzərinə yürüş edib. O, Dəşti-Qıpçaq torpaqlarında Qızıl Ordunu yaradıb. Bu dövrdə bulqarlar müəyyən qədər müstəqilliyini saxlaya bilib.

Volqa Bulqar dövlətinin əhalisi *hunlar, bulqarlar, xəzərlər və suvarlardan* ibarət olub. Onlar sonralar *çuvaşlar, tatarlar, başqırdlar və Şimali Qafqaz türk xalqlarının (qaraçaylılar, balkarlar, qumıqlar)* formalaşmasında rol oynayıb.

Volqa Bulqar dövlətində şəhər mədəniyyəti inkişaf etdirilib, ticarət xeyli canlanıb.

Abbasilər xilafəsindən buraya *islam alim-ilahiyyatçıları* və *memarlar* göndərilib. Şair *Qul Əli* (1174-1248) türkcə *"Qisseyi-Yusif"* əsərini yazıb.

***Qəznəvilər dövləti*** *X-XII əsrlərdə* mövcud olub. Bundan əvvəl Xorasan, Mavəraünnəhr və Yeddisunun qərb bölgələrində Samanilər dövləti vardı. Fars dili və islam mədəniyyəti Qəznəvilər dövlətinin həyatında əsas olub. Türklərin hərbi qüdrəti artdığı şəraitdə samanilərin tabeliyində olan Əfqanıstan bölgəsində idarəçiliyə türk əsilli rəis və komandirlər gətirilib, bu da türk sülalələrinin yaranmasına zəmin olub.

X əsrin II rübündə Samanilər sülaləsi zəifləyib. Türk əsilli samani sərkərdəsi *Alp tigin Qəznədə (Əfqanıstanda) Qəznəvilər dövlətinin* əsasını qoyub. Mahmud Qəznəvinin dövründə (998-1030) dövlət qüvvətlənib. Qəznəvilər dövləti Əfqanıstan, Xorasan və Şimali Hindistan (Pakistan) torpaqlarını əhatə edib. Sərhədlər sonralar Amudəryadan Hind çayına, oradan Hind okeanına qədər uzanıb. Mahmud Qəznəvinin oğlu I Məsudun zamanında dövlət torpaqlarının bir hissəsini itirib. Qərb bölgələrinin hamısı demək olar ki, itirilərək 1040-cı ildə Dəndənəkən (Aşqabadın ətrafları) vuruşması zamanı Səlcuqlu dövlətinin əlinə keçib.

1151-ci ildə əfqan əsilli Gurlular sülaləsi Qəznəvi hökmdarı Bəhram şahı (1117-1157) məğlub edib və Qəznə şəhərini tutub. Qəznəvilər Lahora (Pakistan) çəkilərək Hindistanın içəri bölgələrində islamı yayıblar. Qəznəvi hökmdarı Xosrov Məlik Gurlular tərəfindən 1187-ci ildə əsir alınıb və Qəznəvilər dövlətinin mövcudluğuna son qoyulub. Sultan Mahmud Hindistana yürüşlər edərək burada islam dinini yayıb. Ədəbi və tarixi əsərlərdə onun yürüşləri "Hindistanın fəthi" kimi tərənnüm olunub.

***Böyük Səlcuqlu dövləti*** *XI-XII əsrlərdə* mövcud olub. Əvvəl bir hökmdarın tabeliyində olub, sonra Kirman Səlcuqluları, Suriya Səlcuqluları, Anadolu Səlcuqluları tərəfindən idarə olunub. Sərhədləri Yaxın Şərq (İordaniya, Suriya, İraq ) və Anadoludan Şərqi Türküstana (Qaşqar) qədər uzanıb.

Səlcuq bəy Oğuz Yabqu dövlətinin sərkərdəsi olub. Sonralar yabqu ilə anlaşa bilmədiyindən müəyyən qrupla mərkəzdən ayrılıb və Cənt şəhərində yerləşib. Yeni dövlətin qurucuları Səlcuq bəyin nəvələri *Toğrul bəy* və *Çağrı bəy* olub. Dövlətin paytaxtı Nişapur, birinci sultanı Toğrul bəy olub. Sonralar paytaxt Rey və İsfahan şəhərlərinə köçüb. Toğrul bəyin hakimiyyəti illərində İran, Yaxın Şərq, Azərbaycan və Cənubi Qafqaz sülalələri tərkibinə qatılıb.1048-ci ildə Ərzurum yaxınlığında Səlcuqlular Bizans-gürcü ordusunu məğlub ediblər.

1055-ci ildə Toğrul bəy xəlifə Qaimin dəvəti ilə Bağdada girib, Buveyhiləri Xilafətin paytaxtından çıxarıb. Səlcuqluların islam dünyasında nüfuzu güclənib.

1063-cü ildə Toğrul bəy ölüb, qardaşı Çağrı bəyin oğlu *Alp Arslan* (1063-1072) hakimiyyət başına keçib. O, dövlətin sərhədlərini daha da genişləndirib.1071-ci ildə Anadoluda *Malazgird döyüşündə* Bizans imperatoru Romen Diogeni məğlub edib. Əhəmiyyəti bu olub ki, döyüş türklərə Anadolunun qapılarını açıb. Səlcuqlu sərkərdələri yeni torpaqlar əldə edib, müstəqil bəyliklərini və dövlətlərini qurublar.

1072-ci ildə Alp Arslan vəfat edib, hakimiyyətə oğlu *Məlikşah* (1072-1092) gəlib. Onun hakimiyyət illəri Səlcuqluların ən parlaq dövrüdür. Dövlətin sərhədləri şərq-qərb yönündə Mərkəzi Asiyadan Anadoluya, şimal-cənub yönündə Qafqazdan Hicaza (Ərəbistan) qədər genişlənib. Məlik şahın ölümü ilə hakimiyyət zəifləyib. Oğlu Səncər (1118-1157) taxta oturub. Dövləti bərpa etmək istəsə də, mümkün olmayıb. Müharibə və üsyanlar hakimiyyəti zəiflədib.1157-ci ildə onun Sultan Səncərin vəfatından sonra Böyük Səlcuqlu dövləti süqut edib.

Türklər Malazgird zəfərindən sonra Anadoluda özlərinə yeni vətən qazanıb. İslam dinini inkişaf etdirib, Səlib yürüşlərinə qarşı mübarizə aparıb, islamı qoruyub.

Səlcuqlar Azərbaycan, İran, İraq, Suriya və Anadoluda hakimiyyət qursalar da, əcdadlarını unutmayıb, onların yaşadıqları torpaqlarla əlaqələri tarixi yaddaşlarında qoruyublar. Bunu "Oğuznamələr", orada adları çəkilən Türküstan, Sayram, Qazıqurd, Cənt, Taraz kimi qədim türk şəhər və bölgə adları təsdiq edir.

### *Türkiyə (Anadolu ) Səlcuqlu dövləti*

IV əsrdə hunlar, VI əsrdə sabarlar Anadoluya basqınlar edib, Anadoluya Abbasilər xilafəti qoşunları tərkibində gəliblər. Onlar türklərin hərbi gücündən Abbasilərin Bizansa qarşı döyüşlərində istifadə ediblər. Çağrı bəyin başçılığı ilə 1015-1021-ci ildə Anadoluya ilk Səlcuqlu yürüşləri başlayıb.

*Malazgird zəfərindən* sonra Bizans əldə olunmuş razılığa əməl etmədiyindən *Sultan Alp Arslan* sərkərdələrinə Anadoluda yeni torpaqlar fəth etməyə qərar verib. Bu sərkərdələrdən biri də *Qutalmışoğlu Süleymanşah* olub. O, Bizansın İznik bölgəsini tutub və Türkiyədə Səlcuqlu dövlətinin əsasını (1077) qoyub.

Ondan sonra dövlətin başına *I Qılınc Arslan* gəlib. Onun Anadoluda yeni fəthlər etməsi Bizansı çətin vəziyyətə salıb, bu səbəbdən *Səlib yürüşləri* başlayıb.

I Qılınc Arslan I Səlib yürüşü zamanı uğurlar qazanıb, bununla belə paytaxtı İznikdən Konyaya köçürməyə məcbur olub (1096). Anadolu Səlcuqluları səlibçilərlə mübarizəni davam etdiriblər. İlk üç səlib yürüşü onların mövqeyini möhkəmləndirib. Səlibçilərdən başqa, Bizansla da mübarizə aparan Anadolu Səlcuqluları 1176-cı ildə II Qılınc Arslanın hakimiyyəti dövründə Miryokefalon zəfəri ilə Anadolunun türk yurdları olduğunu sübut ediblər.

Dövlətin ən parlaq dövrü *Sultan Əlaəddin Keyqubadin* (1220-1237) hakimaiiyyət illəri olub. Türklər Alanya liman şəhərini tutub, Aralıq dınizi hövzəsindəki ticarət yollarına nəzarət ediblər. Səlcuqluların inşa etdiyi karvansaraları, tacirlərin mallarını qorumaq üçün tətbiq etdikləri sığorta sistemi ilə ticarəti canlandırıblar.

Anadolu Səlcuqluları siyasət və ticarət sahəsində uğurlarla bərabər, Konya, Ağsaray, Kayseri, Alanya, Sivas kimi şəhərləri mədəniyyət halına gətiriblər. Paytaxt şəhəri Konya mədəniyyət mərkəzi olub. Bu şəhərlərdə məscidlər tikilib, mədrəsə və xəstəxanalar tikilib, sosial həyat canlanıb. Mövlana Cəlaləddin Rumi, Yunus Əmrə, Hacı Bektaş Vəli həmin dövrün görkəmli şəxsiyyətləri olub. Onlar türk mədəniyyətinin inkişafında önəmli xidmət göstəriblər.

***Azərbaycan Atabəylər (Eldənizlər) dövləti***

*XII-XIII əsrlərdə* mövcud olub. Şimali və Cənubi Azərbaycanda hakimlik ediblər. Sülalə Azərbaycan Atabəyləri adı ilə tanınıb. Dövlətin əsasını qıpçaq mənşəli Səlcuqlu atabəyi Şəmsəddin Eldəniz ( 1136 -1175) qoyub. Dövlətin paytaxtı Naxçıvan olub.

Onun vəfatından sonra böyük oğlu Məhəmməd Cahan Pəhləvan (1175-1186) hakimiyyət başına keçib. Dövlət iqtisadi, siyasi cəhətdən qüvvətlənib. Paytaxt Həmədan olub. Qardaşı Qızıl Arslanın zamanında (1186-1191) paytaxt Təbrizə köçürülüb.

1175-1191-ci illər Atabəylərin yüksəliş dövrü olub. İran, İraq, Şərqi Anadolu və Qafqazın müəyyən hissəsi nəarətə götürülüb. Axırıncı hökmdarı Əbu Bəkr (1191-1210) və Özbəyin (1210-1225) dövründə Səlcuqlu əmirləri və Xarəzmşahların (Anuştiginlər) zərbələri ilə zəifləyib.1220-ci ildə monqolların basqınları olub.1225-ci ildə Xarəzmşah *Cəlaləddin Məngü Berdi* Atabəylərin siyasi varlığına son qoyub.

Şərqi Anadoluda Artuklu (1102-1109), Suriyada Börülü (1104-1154) və Zəngi (1127-1250), Ərbildə (Şimali İraq) Begtegini (1144-1233), İranda Salqurlu (1148-1286) sülalələri bu dövlətin ərazisində müstəqil qurumlar olub. Bu dövrdə Azərbaycanda və ətraflarda *iqtisadiyyat və mədəniyyət* sürətlə inkişaf edib. Bir sira memarlıq abidələri (Möminə xatun türbəsi), ədəbi

əsərlər yaradılıb. Memar Əcəmi Naxçıvani və dahi Nizami Gəncəvi bu dövrdə yaşayıb-yaradıblar.

### *Xarəzmşahlar dövləti*

*Xarəzmşahlar (Anuştiginlər) dövləti XI-XIII əsrlərdə* mövcud olub. Əvvəllər Səlcuqlulara sərkərdələr kimi xidmət etmiş türkəsilli Anuştiginlər sülaləsi dövlətin əsasını qoyublar.

Xarəzmşahların  müstəqilliyi türk əsilli Anuştigindən başlayıb.1128-ci ildə *Atsız* Xarəzmə vali təyin edilib. Bu şəraitdə Anuştiginlər müstəqil idarəçilik yolu tutublar.1142-ci ildə onlar Xorasana hücum edərək Mərv və Nişapuru tutublar.

*Atsız* və *İl Arslan* (1156-11720) dövründə Xarəzmşahlar İraq Səlcuqlularına, həm də qarakitaylara qarşı mübarizə aparıblar. Onlar 1157-ci ildə *Sultan Səncərin* ölümündən sonra müstəqilliyini elan ediblər.

Dövlətin yüksəlişi *Əlaəddin Təkəş* (1172-1200) dövründə olub. O, özünü Səlcuqluların varisi sayıb, Səncər titulunu götürüb. Təkəşin oğlu *Əlaəddin Məhəmmədin* (1200-1220) hakimiyyəti dövründə Xarəzmşahlar Xorasan, Mavəraünnəhr, Qafqaz və İranın bir hissəsini tutublar. Onların əsas məqsədi Çini tutmaq olub.

1220-ci ildə monqolların Mərkəzi Asiya və ətraflara basqınları başlayıb.1221-ci ildə paytaxt Ürgənc ələ keçirilib. Burada monqolların hakimiyyət dövrü başlayıb. Əlaəddin Məhəmmədin oğlu *Cəlaləddin Məngü Berdi* monqollarla mübarizəni davam etdirib. Lakin o, cənuba geri çəkilməyə məcbur olub. Oradan Hindistana– Dehli hakimi, türkəsilli Eltutmuşun yanına gedib. O, İran və İraqdan keçərək Azərbaycana daxil olub.1225-ci ildə *Cəlaləddin Məngü Berdi* Eldənizlər üzərində qələbə çalıb. Sonra Təbrizi tutub, Gürcüstanı işğal edib.1226-cı ildə Tiflisi tutaraq sərhədləri Cənubi Qafqazdan Şərqi Anadoluya qədər genişləndirib.1230-cu ildə Yassıçəmən döyüşündə Anadolu Səlcuqluları tərəfindən məğlub edilib. Onun vəfatı ilə (1231) Xarəzmşahlar dövləti də süqut edib.

Xarəzmşahlar dövlətinin hərbi gücünü, əsasən, oğuz, kanqlı və qıpçaq türkləri təşkil edib. Şahlıq dövründə *türk-müsəlman və İran mədəniyyəti* əsas olub. Ürgənc şəhəri (Xarəzm vahəsi) *islam mədəniyyətinin* mərkəzlərindən birinə çevrilib.

Xarəzm türkləri on ildən artıq Hindistan, İran, Qafqaz və Şərqi Anadoluda monqollara qarşı mübarizə aparıb. Cəsur Cəlaləddin Məngü Berdi Şərqi Anadoluda şəhid olub. Hazırda Anadoluda Xorzum, yaxud Xarəzm adlı kəndlər vardır.

Xarəzmşahlar dövləti dövründə *elm, ədəbiyyat* və *incəsənət* önəmli olub. Mahmud Zəmahşarinin əxlaq, dil və fəlsəfəyə dair əsərləri, Süleyman

Bakırqaninin (Həkim Ata) “Bakırqan kitabı”, Bürhanəddin Rabğuzinin “Qısas əl-ənbiyə-i Rabğuzi” əsərləri məşhurdur. Xarəzm türkcəsində yazılmış ədəbi əsərlər Mərkəzi Asiya və İdil-Ural türkləri arasında geniş yayılıb. Xarəzm şairləri Qızıl Ordu ədəbiyyatının inkişafına böyük töhfə veriblər.

İlk türk-müsəlman dövlətlərində *sosial, iqtisadi* və *mədəni həyat* yüksək olub. Türk cəmiyyətində məşhur memarlıq abidələrinin bir qismi qadınların şərəfinə inşa edilib. Ayşə bibi türbəsi (Qaraxanlı dövrü, XII əsr), Möminə xatın türbəsi (Eldənizlər, XII əsr), Törəbikə xanım türbəsi (Köhnə Ürgənc, XIV əsr), Bibixanım məscidi (Səmərqənd, Əmir Teymur, XV əsr), Tac-Mahal türbəsi (Baburlar dövrü, Aqra, XVII əsr) və s.

İslamla əlaqədar şəhər mədəniyyətinin inkişafı güclənib, müsəlman türk karvanları Ərəbistan yarımadasında, Hindistan, İran və Sibirdə, Volqa-Ural vadisində qarşılıqlı ticarətdə vasitəçi olub. Bulqar şəhəri iqtisadi və mədəni mərkəzə çevrilib, Səmərqənd, Buxara, Qaşqar, Balasaqun, Taraz şəhərləri də Qaraxanlıların başlıca siyasi və mədəni mərkəzləri olub. Xüsusilə, Səmərqənd, Buxara din və elm mərkəzi kimi inkişaf edib, habelə, mədrəsə təhsili güclənib. Türk sülalələri ərazilərində *türklərin mədəniyyəti* ərəb, hind, əfqan xalqları, eləcə də Qafqaz xalqlarının mədəniyyəti ilə qarşılıqlı əlaqədə olub. Əksər əhali islam dininə keçid prosesində olub. Türk alimləri əsərlərini əsasən ərəb və fars dillərində yazıb. Qəznə, Kabil, İsfahan, Rey, Bağdad, Şiraz və Təbriz şəhərlərində mədrəsə, xəstəxana, məktəb, hamam, körpü və yollar inşa edilib.

İpək yolunun Aralıq dənizindən Çinə qədər olan şimal və cənub yönləri türklərin nəzarətində qalıb. Fars, ərəb, hind və çinlilərin ticarət karvanları malları uzaq məsafələrə maneəsiz çatdıra bilib.

VI-IX əsrlərdə türklər fərqli mədəniyyətlərə malik olublar. Şərqi Avropadan Çinə qədər 10 min km.-lərlə uzanan geniş ərazilər *Bilad əl-Türk* (Türk ölkələri) kimi adlandırılıb və erkən orta əsrlərin tarixi mədəniyyət yaddaşıdır. Mahmud Qaşqarlı *“Divanü lüğat-it-türk”* əsərində türk tayfalarının yaşadıqları geniş coğrafiyanı əhatəli öyrənib.

*Əl-Xarəzmi–* Məhəmməd ibn Musa əl-Xarəzmi IX əsrdə yaşayıb, alim və riyaziyyatçı, astronom, *Əl-Fərabi–* Əbu Nəsr Məhəmməd ibn Tarhan ibn Uzluğ əl-Fərabi IX əsrdə yaşamış türk filosofu, riyaziyyatçısı və musiqi nəzəriyyəçisi olub.

## ***Türk-monqol dövlətləri***

Bunlar *monqol imperiyası, Qızıl Ordu dövləti, Cığatay dövləti, Moğolustan dövləti, Elxanilər (Hülakülər) dövləti, Xubilay xanın dövləti* hesab olunur.

***Monqol imperiyası*** *XIII-XIV* əsrlərdə mövcud olub. Qurucusu *Çingiz xan (Timurçin)* olub. Bu imperiya Monqolustan, Çin, Koreya, Cənubi Sibir, Mərkəzi Asiya, İran, Kiçik Asiya, Qafqaz və Şərqi Avropanı əhatə edib.

XIII əsrin əvvəllərində indiki Monqolustanın ərazisində türkdilli nayman, kerey (kereyit), cəlairi, konqurat, monqol, tatar xanlıqları və siyasi birlikləri olub. Timurçin Kiyat monqol tayfasına mənsub olub. O, *Çingiz xan* ləqəbi ilə 1206-cı ildə siyasi qurumları ləğv edib. Şərqi Türküstan və Yeddisunu, 1219-cu ildə Xarəzmşahların Otrar, Səmərqənd, Buxara və Ürgənc şəhərlərini tutub.1224-cü ilə qədər Mərkəzi Asiyanı nəzarətdə saxlayıb. Xubilay və Hülakü adlı nəvələri Çin, İran, Azərbaycan, Cənubi Qafqaz və İraq torpaqlarını da özlərinə birləşdirib. Beləliklə, Çingiz xan və törəmələri tarixdə Qızıl Ordu dövləti, Cığatay dövləti, Monqolustan xanlığı, Elxanilər dövləti və Xubilay xanlığı (Yuan imperiyası) kimi uluslar, dövlətlər yaradıblar.

***Qızıl Ordu dövləti*** tarixdə Uluq Ulus ("Böyük dövlət") kimi tanınıb.1240-cı ildə böyük oğlu Cuci tərəfindən Ulusu əsasında Monqol imperiyasının qərbində yaradılıb. Əraziləri Şərqi Avropa, Şimali Qafqaz, Cənubi Rusiya və Dəşti-Qıpçaq əraziləri olub. Qızıl Ordunun sərhədləri cənubda Qara dəniz, Qafqaz dağları və Elxanilər dövlətinin tabeliyində Azərbaycanacan çatıb. Bulqar (Qazan), Saray-Batı (indiki Həştərxan yaxınlığı) və Saray-Bərkə (indiki Volqaqradətrafı) şəhərləri dövlətin inzibati mərkəzləri olub. Cucinin böyük oğlu *Batı xanın* (1227-1256) sayəsində Şərqi Avropaya yürüşləri olub, əraziləri genişlənib. Şərqi Avropa dövlətləri, rus knyazlıqları Qızıl Ordu dövlətindən asılı vəziyyətdə olub.

*Bərkə xan* (1258-1266) islam dinini qəbul edib. O,1260-cı ildə İdil çayının aşağı hövzəsində Saray-Bərkə şəhərinin əsasını qoyub. O, bir çox başqa monqol sülalələri ilə, habelə, Elxanilərlə vuruşub.

Bərkə xanın vəfatından sonra *Məngü Teymur xan* (1266-1282), *Toxta xan* (1290-1312), *Özbək xan* (1312-1342) və *Canıbəy xan* (1342-1357) Qızıl Ordunun qüdrətini təmsil edib...

Qızıl Ordununun daxilində çəkişmələr nəticəsində Moskva knyazlığı müstəqillik əldə edib. Krım xanlığı Moskva knyazlığından qərbdəki əraziləri ələ keçirib.1502-ci ildə Qızıl Ordununun mövcudluğuna son qoyulub.

Özbək xanın zamanında *islam dövlət dini* kimi qəbul olunub. Uyğur əlifbsı ilə türk dilində *əmr və fərmanlar* yazılıb. Özbək xanın adına gümüş pullar zərb edilib.

Qızıl Ordunun yerində XV-XVII əsrlərdə Qazan xanlığı, Krım xanlığı, Həştərxan xanlığı, Qasım xanlığı, Tümün xanlığı, (Sibir), Özbək xanlığı (Əbülhayr), Şeybanilər, Qazax xanlığı, habelə, Noqay ordusu kimi *siyasi qurumlar* yaranıb.

*Mədəniyyət* sahəsində şəhərlər salınıb, ölkəyə şairlər, fəqihlər, ilahiyyatçılar, sənətçi və alimlər dəvət edilib. XIV əsrdə yaşamış şairlərdən Seyfi Sarayinin "Gülüstan bit-türki" ("Türk dilindəki Gülüstan"), Xoca bəy Xarəzminin "Məhəbbətnamə", Qütbün "Xosrov və Şirin", Durbəyin "Yusif və Zülüyxa" əsərləri, Asan Kayqı və Kaztuğan-Cırav kimi xalq ozanlarının şeirləri, Ötəmiş Hacının "Çingiznamə" (XVI əsr) əsəri, Qızıl Ordu xanlığının fərmanları, "Edigü dastanı" dövrün parlaq ədəbi, tarixi əsərləri olub. Qədim qıpçaq türkcəsi və latın hərfləri ilə yazılmış "Codex Cumanicus" ("Kuman/qıpçaq kitabı"), Mahmud Bulqarinin "Nəhcül-Fəradis" ("Cənnətə açıq yol") əsərləri dövlərin dil və mədəniyyətinin göstəricilərindən olub. Xalq şairi (akın) Asan Kayqının əsərlərində mədəniyyət ortaqlığından (noqay, qazax, qaraqalpaq, başqırd, qumıq, qırğız, Krım türkləri arasında kök birliyi) bəhs edilib.

***Cığatay dövləti*** əvvəl Çingiz xanın imperiyasının tərkibində olub. Yeddisu, Şərqi Türküstan, Mavəraünnəhr əraziləri Çingiz xanın oğlu *Cığatay* tərəfindən idarə edilib. Cığatay dövlətinin əsası 1227-ci ildə qoyulub.1370-ci ildə Teymur tərəfindən dağıdılıb.1242-ci ildə Çingiz xanın ölümündən sonra varisləri imperiyaya qarşı vuruşub.1266-cı ildə *Mübarək şah* taxta çıxıb. İslam dinini qəbul edib. Dövlət ən parlaq dövrünü Kebek xanın (1320-1326) hakimiyyəti dövründə yaşayıb. Köçəri həyatdan imtina olunub. Mübarək şah Karşı şəhərində saray tikdirib, oturaq həyatı təmin edib. Dövlətdə iqtisadiyyat inkişaf etdirilib, ilk Cığatay pulları zəbt olunub. Üsuli-idarədə islamlaşma ilə türkləşmə prosesi baş verib. Türkləşmiş Qərbi Cığatay xanlığı özlərini Cığataylı adlandırıblar. Bəzi tarixçilər onları Cığatay türkləri, ədəbi dillərini isə Cığatay dili və ya Cığatay türkcəsi adlandırıblar.

XIV əsrdə Cığatay dövləti parçalanıb. Dövlətin Şərqində taxta çıxan *Tuğluq Teymur* qərb bölgələrini birləşdirib, xanlığın ərazisini yenidən bərpa edib. Dövlətin siyasi həyatında barlas, cəlairi, arlat, konqurat, arqın, duqlat kimi türk-monqol tayfalarından olan sərkərdələr nüfuz sahibləri olublar. Onlara *"soyurqal"* adlı hədiyyə torpaqları verilib. Sonralar dövlətin Yeddisu və Şərqi Türküstan bölgələrində *dulatlar,* Mavəraünnəhrdə isə barlaslar dövlət idarəsində böyük nüfuza malik olublar.

***Moğolustan dövləti*** *XIV əsrin ortalarından XVI əsrin əvvəllərinə qədər* mövcud olub. Cənub-Şərqi Qazaxıstan, Qırğızıstan və Şərqi Türküstan hüdudları ərazisində yaşayıb. Dövləti dulat tayfasından *Bolatşı* idarə edib. Dövlətin əsasını dulat, kereit, barlas, cəlairi, kanqlı, arqın, həmçinin qırğız tayfaları təşkil edib.1348-ci ildə Tuğluq Teymur taxta çıxıb. Moğolustan dövlətinin paytaxtı Almalıq şəhəri olub. Tuğluq Teymurun vəfatından sonra taxta *İlyas Xoca* çıxıb.1365-ci ildə Daşkənd yaxınlığında onunla Əmir Teymur arasında şiddətli döyüşlər olub, Əmir Teymur məğlub edilib, lakin yürüşləri davam etdirib, nəticədə Moğolustan dövləti zəifləyib.1405-ci ildə Əmir Teymurun vəfatından sonra Moğolustan yenidən müstəqil olub. XVI əsrin əvvəllərinə doğrü parçalanıb."Tarixi-Rəşidi" adlı əsərdə Moğolustan dövlətinin ərazisi belə göstərilib: "Moğolustan adlanan ölkənin uzunluğu və eni yeddi-səkkiz aylıq yoldur. Şərqdə Barısgöl, Emel və İrtış da daxil olmaqla kalmıkların torpaqları ilə, şimalda Gökçədəniz (Balxaş), Türküstan və Daşkəndlə, cənubda isə Fərqanə vilayəti, Qaşqar, Ağsu, Çalış və Turfanla həmsərhəddir".

***Elxanilər (Hülakülər) dövləti*** *XIII-XIV* əsrlərdə hökm sürüb. Dövlətin mərkəzi torpaqlarını tarixi Azərbaycan ərazisi təşkil edib. Paytaxtı Təbriz olub. Dövlət Çingiz xanın nəvəsi *Hülaku* (1256-1265) tərəfindən qurulub. Elxan (ilhan) titulu ilə *Elxanilər dövləti* adlanıb. 1256-cı ildə Azərbaycanın bütün əraziləri monqollar tərəfindən tutulub. Hülaku xan 1258-ci ildə Bağdadı ələ keçirib. Abbasilər xilafətinə son qoyub. Suriya və Fələstini işğal edib, Misirə hərəkət eləyib.

Elxanilər (Hülakülər) dövləti imperiyaya çevrilib. Mərkəzi tarixi Azərbaycan olub. İran, İraq, Kiçik Asiya, Cənubi Qafqaz hakimiyyəti tabeliyində olub. Əhalinin əsas hissəsini Oğuz türkləri təşkil edib. Türk-monqol tayfaları da imperiyanın daxilində olub. Ölkənin rəsmi dili *türk, monqol* və *fars* dilləri olub. Elxanilər *Qazan xanın* (1295-1304) dövründə islam dinini qəbul ediblər. Tibet buddizmi və nestorianlığın (xristanlıqda təriqət) yayılmasına güc veriblər. Daxili çəkişmələr nəticəsində Elxanilər dövləti parçalanıb.1335-ci ildə Əbu Səid Bahadırın (1316-1335) vəfatı ilə proses sürətlənib.

***Xubilay xanın dövləti*** *XIII-XIV əsrlərdə* mövcud olub. Paytaxtı Çindəki Xanbalıq (Pekin) şəhəri olub. Dövlət Hülaku xanın qardaşı *Xubilay xan* tərəfindən qurulub.Yuan imperiyası adı ilə də tanınıb.1276-cı ildə dövlət cənubda Sonq səltənətinə son qoyaraq Çin torpaqlarını birləşdirib...

Çingiz xanın ordusu mərkəz, şərq və qərb qollarından ibarət olub, tümən (on minlik), minlik, yüzlük və onluqlara bölünüb. Bu quruluş Hun və türk imperiyalarının tarixi və ənənəvi davamı olub.Tarixçi və dövlət xadimi

*Əlaəddin Ata Məlik Cüveyni* "Tarixi Cihan-Güşa" ("Cahan fatehinin tarixi) və Rəşidəddin Fəzlullah Həmədaninin "Cami üt-Təvarix" ("Tarixlərin cəmi") əsərləri türk-monqol xalqlarını dünyaya tanıdıb.

***Türk dünyası XIII-XVI əsrlərdə***

***Dehli sultanlığı*** *1206-1526-cı illərdə* mövcud olub. XI-XII əsrlərdə Mərkəzi Asiyadan türkəsilli sərkərdələr Hindistana gəliblər. Onlar güclənərək dövlət idarəçiliyini nəzarətə ala biliblər. Belə sərkərdələr Məmlüklər adlandırılıblar (*məmlük*–mülk edilən, kölə, hökmdar qvardiyasına mənsubluq). Gurlular sülaləsindən (XI-XII əsrlər) sonra bir əsr Hindistanın şimal hissəsini məmlüklər idarə ediblər. *Qütbəddin Aybək* (1206-1210) Dehlidə bu türk dövlətinin əsasını qoyub. Dövlət 320 il yaşayıb. Onu 4 türk sülaləsi idarə edib: Məmlüklər, Halaçlar, Tuğluqlar, Seyyidlər. Dövlətin mədəniyyət və incəsənətin inkişafında böyük rolu olub. Əmir Xosrov Dəhləvi şeirlərini farsca yazıb. Çoxlu memarlıq abidələri tikilib (Qütb minarəsi, Hisar, Caupur və Firuzabad şəhərlərinin salınması və s.).

***Misir türk-məmlük dövlətinin*** əsasını *Muizzuddin Aybək* (1250-1257) qoub. Ondan əvvəl dövlət Tulunilər və İhşidlər tərəfindən idarə edilib. Dövlətin paytaxtı Qahirə olub. İki əsr məmlüklər Misirdə və Ön Asiyada (İordaniya, Fələstin, Suriya) siyasi nüfuza malik olub. Mənbələrdə Misir türk-məmlük dövlətinin adı *əd-Dövlətüt-Türkiyə* kimi də verilib. Misir məmlükləri mənşəcə daha çox Mərkəzi Asiya, xüsusən, Dəşti-Qıpçaqın türk tayfaları ilə bağlı olub. Türk sərkərdələr Abbasi dövründə böyük nüfuz qazanıb, Avropa səlib yürüşünə qarşı mübarizədə uğur əldə ediblər. Ön Asiyada güc sahibi olublar. Dövlətin əsasını qoyan Muizzuddin Aybək oğuz əsilli (türkmən) türk olub. Məmlüklər dövründə türk dili Ərəbistan və Şimali Afrikada da yayılıb. Qahirə, Fələstin və Suriyada bir sıra memarlıq abidələri məmlük hökmdarları tərəfindən inşa edilib.

***Osmanlı imperiyası*** *1302-1922-ci illərdə* mövcud olub. 6 əsrdən çox yaşayıb. Dövlətin qurucusu Oğuz türklərinin Qayı boyundan *Ərtoğrul Qazinin oğlu Osman Qazi*dir. Sülalənin əcdadları XIII əsrin birinci yarısından Mərkəzi Asiyanın cənub-qərb bölgəsindən Azərbaycana, sonra da Anadoluya köç ediblər.

Səlcuqlu dövləti 1243-cü ildə Kösədağ döyüşündə məğlub edilib, Anadolunun siyasi birliyi pozulub. Parçalanmalar nəticəsində Qaramanoğulları, Aydınoğulları, Əşrəfoğulları, Kərəsioğulları, İsfəndiyaroğulları, Mentəşəoğulları kimi bəyliklər yaranıb.

1281-ci ildə Ərtoğrul Qazi bəyliyini oğlu Osman Qaziyə vəsiyyət edib.1302-ci ildə Səlcuqlu dövləti zəifləyib, Osman qazi müstəqillik elan edib, dövlətin əsasını qoyub. Paytaxtı Söyüt olub, sonra torpaqlarını Bizan-

sa doğru genişləndirib.1326-cı ildə Bursanı alıb, bununda böyük iqtisadi və siyasi əhəmiyyəti olub.

Bursanın fəthindən sonra Osmanın oğlu *Orxan bəy* Dardanel boğazından (Çanaqqala) keçib Rumelini (Balkanların tarixi adı) zəbt edib. İznik və İzmit kimi Bizans şəhərlərini tutub. Bəyliyin sərhədlərini Qara dəniz və Üsküdara qədər genişləndirib. Karesi bəyliyini də özünə birləçdirib. Balıkəsir və Çanaqqalanı, Mərmərə dənizinin cənub sahillərini tutub. Başqa bəylik torpaqlarının ələ keçirilməsi dövlətin dənizdə gücünü artırıb, Avropa ərazisinə keçməyə zamin yaradıb.1353-cü ildə Avropa tərəfdə yerləşən Çimpe qalasını tutblar. Osmanlıların əsas məqsədi Anadoludakı türk-müsəlman bəyliklərini yox, islamı yaymaq olub. Onlar Bizans imperiyası, Avropanın başqa xristian dövlətlərini işğala çalışıblar.

*Sultan I Murad* Osmanlını güclü dövlət halına gətirmək istəyib. Osmanlılar Balkanlarda irəliləməklə dövlətə qarşı səlib yürüşləri başlayıb. Kosovo döyüşü osmanlıların qələbəsi ilə nəticələnib.1389-cu ildə *İldırım Bəyazid* taxta çıxıb. Niqbolu döyüşündə səlibçiləri məğlub edib. Lakin Ankara döyüşündə (1402) Teymura uduzub. Ölkə parçalanma təhlükəsində olanda *I Mehmet* qayda-qanunu möhkəmləndirib (1413), *II Murad* ölkəni şərqə və qərbə doğru genişləndirib. *II Murad*ın oğlu II Mehmet prosesi daha da sürətləndirib.

*Mehmet* (1451-1481) 1453-cü ildə İstanbulu (Konstantinopolu) fəth edib. Şərqi Roma imperiyasına son qoyub. İstanbulun alınması ilə islam və türk dünyası canlanıb. Asiya və Avropa qitələrindəki ərazilər birləşdirilib. Anadolu və Balkanlardakı hakimiyyətləri güclənib. Onlar Qara dənizlə Aralıq dənizini birləşdirən dəniz yolunu nəzəarətə alıb, iqtisadi cəhətdən güclənibələr.

*II Mehmet* İstanbulu paytaxt edib. Alim, tacir və incəsənət adamlarını gətirdib şəhəri *mədəniyyət* və *ticarət mərkəzinə* çevirib. İstanbulun şərəfinə özünə *Fateh ləqəbi* götürüb. Avropada feodalizm çöküb, *mərkəzi krallıqlar* formalaşmağa başlayıb.

İstanbul fəth edilməklə Bizans alimlərinin bir hissəsi şəhəri tərk edib, İtaliyaya köçüb, onlar *Yunan və Roma sivilizasiyalarına* malik olublar. Onların İtaliyaya getmələri ilə olkədə İntibah dövrü başlayıb. Bəzi tarixçilər İstanbulun fəthini orta əsrlərin sonu, yeni eranın başlanğıcı hesab ediblər.

II Mehmet sonralar Yunanıstan və Trabzonu (Trapezund) işğal edib. Onun zamanında (1481) dövlət ərazisi 2 milyon kv. km olub. Dünyanın ən qüdrətli imperiyalarındandır.

Osmanlı dövləti qədim türk dövlət ənənələrini davam etdirib. İlk vaxtdan islam dinini yayıblar. Osmanlı dövlətinin sürətlə böyüməsi və öz hökmranlığını üç qitə üzərində saxlamasında idarə üsulunun böyük rolu olub.

Şahzadələr xüsusi müəllimlərin nəzarətində ciddi təlim-tərbiyə alırdılar, erkən yaşlarından oxuma, yazma, islam əxlaqı və hüquq dərslərinə yiyələnirdilər. Müəllimlərin nəzarətində *sancaq* adlanan əyalətlərdə dövlət idarəçiliyini təcrübi olaraq öyrəniblər. Ən önəmli vəzifə ölkəni ədalət prinsipləri ilə idarə etmək olub. Qeyri-müsəlman əhaliyə münasibətdə güclü tolerantlıq olub. Onlar dinlərinə sərbəst etiqad edib, imperiyada din azadlığı qorunub. Etiqad azadlığı nəticəsində bosniyalılar və albanlar islamı qəbul ediblər. Osmanlı imperiyası dövrünün ən iri iqtisadi mərkəzi olub. Adriatik, Qara dəniz, Aralıq dənizi və Qırmızı dəniz kimi su yolları uzun müddət Osmanlıların nəzarəti altında olub. Tacirlər Osmanlı limanları vasitəsilə üç qitə ölkələrinə gedə biliblər.

Osmanlı mədəniyyətində Vəqflər (fondlar) yaradılıb. Onlar sultan da daxil olmaqla dövlət xadimləri və varlı adamlar tərəfindən qurulub. Nəticədə çoxlu xeyriyyə, təhsil və dini qurumlar meydana gəlib. İslam ənənələri əsasında mədrəsələr inkişaf etdirilib.

Sultan Mehmet İstanbulu ən böyük elm mərkəzi etmək istəyib. Bu məqsədlə məşhur Sahnı-Seman (Səkkiz mədrəsə) mədrəsəsini açdırıb. Dərs demək üçün bura türk astronomu və riyaziyyatçısı, Səmərqənddə təhsil almış və Osmanlı imperiyasında şöhrət sahibi olmuş Əli Quşçunu İstanbula dəvət edib.

Dövlətdə memarlığa böyük əhəmiyyət verilib. İstanbul başda olmaqla, Balkan, Yaxın Şərq, Misir, Tunis və Əlcəzairdə yüzlərlə məscid, mədrəsə, karvansara, bazar, körpü və s. tikililər inşa edilib. Osmanlılar dövründə İstanbul, Bursa, Sarayevo, Sofiya, Skopye, Dəməşq, Bağdad, Məkkə, Mədinə, Qüds, Qahirə şəhərləri elm və mədəniyyət mərkəzlərinə çevrilib.

Anadolunun türkmən bəyliklərinin xalq mədəniyyətinə Azərbaycan mədəniyyətinin böyük təsiri olub. *Abdalan-i Rumun* –Abdal Kalenden təriqətinə mənsub Anadolu dərvişlərinin ən məşhurları Azərbaycandan gələnlər olub. Azərbaycan-Şərqi Anadolu-İraq bölgəsi XIII-XV əsrlərdə vahid siyasi-mədəni birlik təşkil edib. Nəsimi, Füzuli, İdrisi, Bitlisi Təbrizdən Şərqi Anadolu və Kərbəlaya qədər uzanan türkmən bəlgəsində yaşayıb və osmanlı mədəniyyətinin inkişafında xidmətlər göstərib.

***Teymurilər dövləti*** *XIV-XVI əsrlərdə* mövcud olub. Barlas türk tayfasından olan *Teymurun* (1370-1405) adı ilə bağlıdır. Cığatay xanlarının sərkərdələrindən olub. Dövləti möhkəmləndirib.1370-ci illərdə türk-monqol əmirləri ilə müharibələr aparıb. Mərkəzi Asiya, Şimali Hindistan, İran, Yaxın

Şərq, Anadolu və Qafqaz, Qara dənizin şimalı, Dəşti-Qıpçaq,Volqa-Ural və s. bölgələrdə hərbi uğurlar qazanıb, dövlətini nəhəng imperiyaya çevirib. İmperiyanın paytaxtı Səmərqənd və Herat olub. Türk-müsəlman mədəniyyətinin mərkəzi sayılıb. Teymur 1370-1405-ci illər arasında şimalda Avrasiya çölləri, şərqdə Yeddisu, cənubda Hindistan, qərbdə ərəb ölkələri və Kiçik Asiya torpaqlarına hakim olub.1395-ci ildə Dəşti-Qıpçaqın daxilində Qızıl Ordu hökmdarı Toxtamışı,1398-1399-cu ildə Hindistanda türk əsilli Tuğluqlar sülaləsinin hakim olduğu Dehli sultanlığını məğlub edib.1402-ci ilə qədər 4 yürüşlə İraq, Suriya, və Cənub-Şərqi Anadolunu ələ keçirib.1402-ci ildə İldırım Bəyazidi məğlub edib. Osmanlı dövlətini 4 osmanlı şahzadəsi arasında bölüşdürüb.

Teymur 1405-ci ildə Çin səfərinə çıxıb. Otrarda xəstələnərək vəfat edib. Dövlət oğulları və nəvələri arasında bölüşdürülüb. Nəvəsi Xəlil Sultan Səmərqəndə, Pir Məhəmməd və İskəndər İrana, oğlu Miranşah Bağdad və Azərbaycana, kiçik oğlu Şahrux Xorasana hakim təyin edilib. Şahruxun oğlu *Mirzə Uluqbəy* Səmərqənddə Amudərya hövzəsinin şimal hissəsində yarımmüstəqil hakim olub, elmin inkişafına böyük əhəmiyyət verib, astonomiya və riyaziyyat sahəsində traktatlar yazıb, mədrəsələr tikdirib. Uluqbəy mədrəsəsi dünyanın ən qabaqcıl rəsədxanaslı olub.

*Hüsey Bayqaranın* (1470-1506) hakimiyyəti dövründə Xorasan türk ədəbiyyatının zirvəsi hesab olunub. Paytaxtı Heratda ən məşhur türk şairləri və alimləri çalışıb.

*Məhəmməd Şeybani* əvvəl Səmərqəndi, 1507-ci ildə Heratı ələ keçirib, teymuriləri zəiflədib. Sülalənin nümayəndəsi *Babur* Türküstanda duruş gətirməyib, Hindistana yollanıb. Orada Böyük Moğol imperiyasını yaradıb.

Teymurilər imperiyası türklərin Mərkəzi Asiyada yaratdıqları ən böyük dövlətlərdən olub. O dövdə Türküstan və Xorasanda islam memarlığı çiçəklənib. XV əsrin sonundan Cığatay türkcəsi Türküstan, Krım, Qazan və Azərbaycanda yüksək mədəniyyət dili halına gətirilib. Din, elm və incəsənət qorunub, inkişaf etdirilib. Səmərqənd, Buxara, Şəhrisəbz, Yassı (Türküstan) Herat kimi yerlərdə heyrətamiz memarlıq abidələri inşa edilib.

Teymurilər dövründə *sosial, iqtisadi* və *mədəni həyat* canlanıb, ərazi geniş, əhali və din tolerant olduğundan fars və türk dili əsas yazışma dilləri olub, tarixi əsərlər farsca yazılıb, fərman və əmrlər qədim uyğur əlifbası ilə türk dilində yazılıb. Ərəb dili isə daha çox elmi və dini sahələrdə işlədilib. Memarlıq abidələri çox tikilib, kənardan ölkəyə memar, sənət adamları və alimlər gətirilib.

İqtisadi həyatda *ortaq mədəniyyət* üstünlük təşkil edib. İpək yolunun-Teymurilərin nəzarətində olması *beynəlxalq iqtisadi* və *mədəni əlaqələrin*

inkişafını təmin edib. Səmərqənd, Buxara, Yassı (Türküstan), Bəlx, Herat, Kabil, Səbzivar və Şiraz şəhərləri *ticarət mərkəzlərinə* çevrilib. Əkinçiliyə diqqət yetirilib.Çoxsaylı kitabxana və mədrəsə tikilib. XIV-XV əsrlər Səmərqəndin qızıl dövrü adlandırılıb. Türküstan *dünya sivilizasiyasının önəmli mərkəzlərindən* olub.

***Qaraqoyunlu dövləti*** *XIV-XV əsrlərdə* mövcud olub. Sülalənin əsasını Yivə oğuz-türk tayfalarından olan *Bayram Xoca* qoyub. Qaraqoyunlular tayfası əvvəl Azərbaycanda, sonralar isə Dəclə və Fərat çayları axarlarındakı ərazilərdə yaşayıblar. Bayram Xoca Baharlı tayfasının başçısı olub. Türk-monqol əsilli Cəlairilərin tabeliyi altında öz hakimiyyətini yaradıb. Qardaşı *Murad Xoca* Cəlairilərin Mosuldakı canişini olub.1365-ci ildə onlar Cəlairilər dövlətinin tabeliyində olub. Bayram Xocanın ölümündən sonra oğlu *Qara Məhəmməd* onu əvəz edib.1389-cu ildə dövlətin başına Qara Yusif keçib. O,1400-cü ildə Cəlairilər tərəfində döyüşlərdə iştirak edib. Lakin Teymurilər tərəfindən məğlub olub. Sonra Osmanlı dövlətinə sığınıb. Qara Yusif Teymurun ölümündən sonra Təbrizi və Azərbaycanı tutub, Ağqoyunlu hakimi Qara Yuluq Osmanın üzərində qələbə çalıb. Təbrizi paytaxt, özünü hökmdar elan edib.1410-cu ildə Cəlairilər hökmdarını məğlub edib. Bağdadı ələ keçirib. Kənd təsərrüfatı və kəndlilərin rifahına böyük diqqət yetirib.

Teymuri hökmdarı Şahrux Qaraqoyunluları məğlubiyyətə uğradıb. Sonra *Qara İsgəndər* (1420-1436) güclənib. O, Qara Yuluq Osman üzərində qələbə çalıb. Sonra hakimiyyətini Şərqi Anadolu üzərində bərqərar edib.1435-1436-cı ildə Şahrux Qara İsgəndərə qarşı yürüş təşkil edib, taxttacını əlindən alıb, əvəzində ona sadiq *Cahan şahı* Təbrizə canişin təyin edib. O, Gürcüstan, İsfahan, Fars və Kirmanı tutub.1458-ci ildə Heratı ələ keçirib.1468-ci ildə dövlətin varlığına Ağqoyunlu *Uzun Həsən* son qoyub.

Qaraqoyunlu dövləti dövründə dini memarlıq abidələri yaranıb (Vanda Ulu Cami, İsfahanda Cümə məscidi, Təbrizdə Göy məscid və mədrəsələr).

***Ağqoyunlu dövləti*** Oğuz türklərinin Bayandurlu boyuna mənsub olub. Əsası *XIV-XV əsrlərdə Qara Yuluq Osman* tərəfindən qoyulub. Paytaxt *Diyarbəkr* olub.1403-cü ildə Qara Yuluq Osman özünü Diyarbəkrin hakimi elan edib.1435-ci ildə Qaraqoyunlularla döyüşdə həlak olub. Ölümündən sonra oğulları arasında hakimiyyət mübarizəsi gedib.1453-cü ildə nəvəsi *Həsən bəy* (1453-1478) Diyarbəkri ələ keçirib.1468-ci ildə Həsən bəy Qaraqoyunlu sülaləsini məğlubiyyətə uğradıb. Paytaxtı Diyarbəkrdən Təbrizə köçürüb. Bu dövrdə dövlətin ərazisi şərqdə Xorasandan qərbdə Fərat çayına, şimalda qafqazdan cənubda Ərəbistan dənizinə qədər uzanıb. Sultan Mehmetin Trabzonu fəth etməsi Osmanlılarla Ağqoyunlular arasında müha-

ribəyə səbəb olub. Ağqoyunlu dövləti siyasi və hərbi nüfuzunu itirib.1478-ci ildə Həsən padşah ölüb, oğlanları arasında mübarizə başlayıb. Ağqoyunlu dövləti zəifləyib.1503-cü ildə Şah İsmayıl Xətai Ağqoyunlu dövlətinin hakimiyyətinə son qoyub[478].

Türk dünyasının *ortaq mədəni irsi* zəngindir. ”Oğuz Kağan”, “Kitabi-Dədə Qorqud”,“Alpamış”,”Manas”, “Törəyiş”, “Köç”,“Koroğlu” türk xalqlarının ortaq qəhrəmanlıq dastanlarındandır.

***Haşiyə:*** XVI əsr Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləri uğrunda mübarizə əsri olub. Azərbaycanda Səfəvi sülaləsi hakimiyyətə gəlib. Dövlətin əsasını görkəmli sərkərdə və dövlət xadimi Şah İsmayıl Xətai qoyub. Sonra ölkənin siyasi və hərbi vəziyyətinin agır olduğu bir şəraitdə Şah I Abbas hakimiyyətə gəlib. XVII əsrdə Roma imperiyası, İngiltərə, Fransa, İspaniya və Rusiya ilə diplomatik əlaqələri genişləndirib, dövlətin beynəlxalq nüfuzunu artırıb.

XVIII əsrdə Rusiyanın Osmanlı imperiyası ilə müharibələri uğursuz alınıb. Qara dənizə çıxış əldə edə bilməyib, diqqəti Xəzər dənizi hövzəsinə yönəldib. XVIII əsrin II yarısı Azərbaycan üçün xanlıqlar dövrü olub.

Ölkədə yeni dövr XIX əsr hesab olunur. Əsrin əvvəlləri çar Rusiyasının Cənubi Qafqazı işğal etməsi ilə müşaiyət olunub. O, Azərbaycanın şimal hissəsində öz idarəçilik sistemini qurub.1860-1890-cı illərdə burjua islahatları keçirib.

AXC Azərbaycanın müasir dövrü hesab olunur. Cümhuriyyət Dövlət quruculuğu sahəsində mühüm siyasi-iqtisadi və mədəni tədbirlərə başlayıb.

1920-1990-cı illər Azərbaycanda sovet hakimiyyəti dövrü olub. 1991-ci ildən ölkənin dövlət müstəqilliyi başlanıb.

Y.Qarayev *“Əli bəy Hüseynzadənin irsi və varisləri”* məqaləsində yazıb: “Əli bəy Azərbaycanda yox, bütün *türklük miqyasında* qövmi özünüdərkin, *istilal düşüncəsinin* təkcə rəssamı deyil, həm də memarıdır... Məhz bu mənada nəinki Məhəmməd Əmin və Nəriman Nərimanov, üstəlik Ziya Göyalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayıb”[479].

Ə.Hüseynzadə milli-mənəvi mədəniyyətimizin elm, sənət, fəlsəfə, sosiologiya... sahələrini birləşdirib.Böyük ədib əvvəl “Tərəqqi” deyib, sonra “İt-

---

478 *“Ortaq türk dünyası bəşər tarixində”* bölməsi hazırlanarkən Türk Dövlətləri Təşkilatı dövlət başçılarının zirvə görüşünün qərarına uyğun olaraq Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin təhsil nazirlikləri tərəfindən razılaşdırılmış dərs vəsaitindən istifadə olunub. *Beynəlxalq Türk Akademiyası*. Müəlliflər: professor Darxan Kıdırəli, dosent Qaybulla Babayar. Bakı, Aspoliqraf LTD MMC, 2023, 160 s.

479 Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı, “Elm”, 2016, 728 s.; s.283

tihad və tərəqqi" partiyasının məramında "Turan" yazıb. *"Turan"* dedikdə Əli bəy böyük tarixi Vətəni nəzərdə tutub. "Bu Vətənin ərazisi – *vahid islam olub, vahid türk kültürü, dili və mənəviyyatı* olub.

Ə.Hüseynzadə Qərb və Şərq münasibətlərində aydın bir fikir irəli sürüb. O, "Kasablanka faciəsi və Osmanlı-İran komediyası" əsərində yazıb: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istiyoruz, özlərinə deyil! Biz istəriz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin! Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın"[480].

Y.Qarayev sorğulayıb: *"Əli bəy kimdir* və onun *"türk" anlamı* nələrdən ibarətdir?"

Ə.Hüseynzadə "Məktubi-məxsusi"də *türk, türklük,* onun *adı, dili, tarixi* və *coğrafiyasına* aid nəzəri-metodoloji fikirlər söyləyib. Bu baxımdan Yaşar Qarayev *Azərbaycanın ilk linqvistik* və *tarixi-coğrafi xəritəsini* Cəlil Məmmədquluzadəyə, *türkün linqvistik* və *tarixi-coğrafi xəritəsini* Əli bəy Hüseynzadəyə aid edib. *"Türklər kimdir və kimlərdən ibarətdir?"* – bu ad altında Ə.Hüseynzadənin yalnız bir əsərini yox, bütün əsərlərini toplayıb nəşr etmək olar", – deyə Y.Qarayev düşünüb.

Ədəbiyyatımızın filosofu fikir və mühakimələrini, əsasən, Böyük Mirzə Fətəli Axundzadəyə görə nizamlayıb, bu irsdən, müqayisədən, mənbədən çıxış edərək orijinal fikirlər, tezis və müddəalar irəli sürüb. Budur, hesab edib ki, *"Qərb-Şərq sintezi"nin* böyük nümayəndəsi M.F.Axundzadədən sonra Əli bəy Hüseynzadədir. Onun "sintez"ində həm *türklük* "Qərbdən və Şərqdən nə alıb", həm də *"dünyaya nə verib"* sualına cavab ehtiva olunub...

*Beləliklə,* Heydər Əliyev ortaq türk və müstəqil dövlətçilik tarixinin qüdrətli varisi kimi tarixin səhnəsinə çıxıb, türk hökmdarlarının tarixi vəsiyyətlərini siyasi-mənəvi yaddaşında rəhbər tutub, onları mənimsəyib, əməli fəaliyyətinin məqsəd və məramına çevirib, nadir siyasi lider və elit şəxsiyyət kimi Şərqlə Qərbin qovuşan sivilizasiyasında görünüb, dünya siyasətinə nüfuz edib, milli-bəşəri tərəqqi naminə fədakar mübarizə aparıb və qalib gəlib. Azərbaycan– Türkiyə qardaşlığı, habelə, türk dövlətlərinin birliyi və təşkilatlanması sahəsində Ümummilli liderin tarixi missiyası böyük olub. Türk və İslam qavrayışı Ulu öndərin həyat və dövlət idealı olub. Heydər Əliyev dünya tarixində sivilizasiya hadisəsidir.

---

[480] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı, "Elm", 2016, 728 s.; s.284

## Heydər Əliyev və Türkiyə

***"Azərbaycan bayrağının Türkiyə bayrağının yanında, Türkiyə səmasında dalğalandığını görmək bütün millətimiz üçün bir bayramdır".***

**Mustafa Kamal Atatürk**

***"Biz bir millət, iki dövlətik".***

**Heydər Əliyev**

*Türkiyə Böyük Millət Məclisinin sədri Bülənd Arınç* Heydər Əliyevin türk dünyasının bütün beynəlxalq birliyi tərəfindən qəbul edilən müdrik rəhbərliyi barəsində deyib: "Qardaş və dost Azərbaycanın firavanlıq və sabitlik şəraitində yaşayan bir ölkə olması üçün böyük xidmətlər göstərən mərhum *Heydər Əliyevin müdrik rəhbərliyi türk dünyasının bütün beynəlxalq birliyi* tərəfindən təqdirlə qarşılanır.

Azərbaycanın yetirdiyi böyük dövlət adamı Heydər Əliyev ölkələrimiz arasında müştərək tarix və mədəniyyətə əsaslanan əlaqələrin inkişafına və bununda da qardaşlıq və dostluğumuzun möhkəmlənməsinə böyük töhfə vermişdir"[481].

*Demokratik Sol Partiyası sədri Bülənd Ecevit* dərin tarixi kökləri və mədəni bağları olan Azərbaycan və Türkiyə qardaşlığını, habelə, Heydər Əliyevin *bütün Qafqazda sülh və demokratiyanın* inkişafına xidmətlərini xatırladaraq bildirib: "Hörmətli Heydər Əliyevin dediyi kimi, bir millət, 2 dövlət: Azərbaycan ilə Türkiyə arasında *dərin kökləri olan tarixi* və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir.

Təkcə Azərbaycanda yox, *bütün Qafqazda sülh və demokratiyanın* inkişafında xidmətləri olan hörmətli Heydər Əliyev heç vaxt unudulmayacaqdır. İnanıram ki, hörmətli Heydər Əliyevin dəyəri ölkəsində, bölgədə və hətta *dünyada günü-gündən* daha yaxşı anlaşılacaqdır"[482],– deyə Bülənd Ecevit əlavə edib.

---

[481] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.82
[482] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.90

*Türkiyə –Azərbaycan Dostluq, əməkdaşlıq və həmrəylik vəqfinin baş katibi, professor A.Yüksəl Bozər* İlham Əliyevə riqqətlə bildirib: "Hörmətli Prezident!

Azərbaycan Respublikasının *böyük öndəri, türk dünyasının çox dəyərli nümayəndəsi* Heydər Əliyevin əbədiyyətə qovuşması hamımızı çox kədərləndirmişdir. Qəbri nurla dolsun, Allah rəhməti üzərində olsun. Zati-aliniz başda olmaqla, bütün ailə üzvlərinizə və qardaş Azərbaycan xalqına səmimi hisslərlə başsağlığı verir, ən dərin hörmət və ehtiramımı çatdırıram"[483].

***

*"Heydər Əliyev və Şərq"* adlı kitabın[484] birincisi Türkiyəyə həsr edilib. Kitabda Ulu öndərin sivil şəxsiyyət olmaq gerçəklərinin informasiya zənginliyi diqqəti çəkir. Bildirilib ki, Heydər Əliyev öz ölkəsində və regionda *böyük bir lider olduğunu* sübut edib. Bu, hamı tərəfindən qəbul edilmiş bir həqiqətdir.

"Heydər Əliyev və Şərq" adlı V kitabın *"Tariximizin və siyasətimizin bayraqdarı"* adlı ön sözündə göstərilib ki: "Bu uğurlardan biri də o oldu ki, ölkəmiz prezidentimizin yorulmaz səyləri nəticəsində türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxarıldı. Türk dünyasına məxsus olan, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətləri bərpa edilərək bəziləri ilə olduqca yüksək səviyyəyə çatdırıldı. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci il Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur *"Bakı bəyannaməsi"nin* elan edilməsi ilə başa çatmışdır"[485].

Bildirilib ki: *"Heydər Əliyev diplomatiyasının müdrik addımlarından sayılan açıq qapı" siyasəti* də uğurlu olub. Keçici çətinliklərə baxmayaraq, Azərbaycanın dünyanın bütün ölkələri (Ermənistandan başqa) və xalqları üçün açıq ölkə elan edilməsi öz müsbət nəticələrini verməyə başladı. Ölkəmizdəki sabitliyi, plüralizmi, demokratikliyi, qanunların aliliyini öz gözləri ilə görən, işlərində hiss edən xarici ölkə vətəndaşları, siyasətçiləri və iş adamları bir tərəfdən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına yardım edir, digər tərəfdən isə yeni-yeni investisiyaların qoyulması üçün ən yaxşı reklam və təbliğat rolunu oynayır. Azərbaycanın bütün ölkələr və

[483] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.101

[484] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. I kitab. Çaşıoğlu, 2005, 542 s.

[485] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab.Bakı,"Çaşıoğlu",2005,357 s., s.12

xalqlarla dost olmaq niyyətini dünyaya çatdırır, dostlarımızın sayını artırırlar”[486].

Heydər Əliyev 24 may 1999-cu ildə *Mustafa Kamal Atatürkün* köşkündəki ev muzeyində Muzeyin xatirə kitabına bu sözləri yazıb: “Böyük Mustafa Kamal Atatürk ev muzeyini qürur hissi ilə ziyarət etdim. Bu mənim üçün tarixi hadisədir. Muzey Atatürkün həyatının nə qədər sadə və nə qədər də mənalı, zəngin olduğunu gözəl əks etdirir. Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti uca abidə kimi yaşayır. Türk xalqına uğurlar olsun”.

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*24 may 1999-cu il*[487]

6 aprel 1999-cu il Heydər Əliyev *Türkiyənin TRT–1 televiziya kanalına müsahibə* verib. Professor, doktor Özer Ozankaya Çankayada (Ankara) Heydər Əliyevə ayrılmış iqamətgahda onunla görüşüb, 1 saat söhbət olub, o, “birincisi, 75 illik sosializm quruculuğunu yaşayan və onun zəifləyərək, dağılması zamanı da öz xalqına istiqamət verən bir şəxs kimi, Heydər Əliyev Türkiyədə həyata keçirilən Mustafa Kamal Atatürkün demokratik inqilabi ilə bağlı fikirlərini dinləyib”[488].

Jurnalistin sualına cavabında Heydər Əliyev deyib: “***Mustafa Kamal Atatürk*** XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı və dövlət başçısı kimi ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə saga, nə sola dönmək mümkün deyil. Bu M.K.Atatürk müdrikliyini göstərir, dahiliyini götərir, öz xalqının böyük xidmətlərinin nəticəsini göstərir”[489].

Heydər Əliyev davam edib: “Ancaq I Dünya müharibəsindən sonra Osmanlı imperatorluğu dağıldı. Türkiyənin torpaqlarını əlinə keçirmək istəyən başqa ölkələr o vaxt çox idi. Yalnız M.K.Atatürk iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı imperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratsın. Onu da M.K.Atatürk yaratdı.

...M.K.Atatürkün başçılığı ilə, onun başqanlığı, rəhbərliyi ilə aparılan Qurtuluş savaşı türk xalqını bütün bu ölkələrin Türkiyəyə qarşı yönəldilmiş

---

[486] Heydər Əliyev və Şərq. 6 cilddə.V kitab.Bakı,“Çaşıoğlu”,2005,357 s., s.12
[487] Yenə orada
[488] H.Əliyev və mətbuat. 4 cilddə. III cild (iyul 1998 – sentyabr 2000). Bakı, “Nurlar”, 2003, 640 s.; s.117
[489] H.Əliyev və mətbuat. 4 cilddə. III cild (iyul 1998 – sentyabr 2000). Bakı, “Nurlar”, 2003, 640 s.; s.178

cəhdlərindən xilas etdi. Burada, Türkiyə torpağında yerləşən yunanlar, italyanlar, oradan ermənilər, onunla bərabər Rusiya Türkiyənin şərq hissəsini əllərinə keçirmək istədilər, bunların hamısının qarşısı alındı və nəhayət, 1923-cü ildə Türkiyə torpağında 700 illik imperatorluq tarixi olan bir ölkənin üzərində yeni bir dövlət – Türkiyə Cümhuriyyəti yarandı"[490].

*Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti Süleyman Dəmirəl* bu sivil şəxsiyyətin *azərbaycançılığı, türk tarixi və mədəniyyətinə bağlılığı* haqqında deyib: "Zəngin təcrübəsi, qeyrəti, qətiyyətliliyi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz sevgisi, türk tarixinə, mədəniyyətinə və türkçülüyə bağlılığı, vətənpərvərliyi misilsizdir"[491].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev *Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndəri, dahi Mustafa Kamal Atatürkün* məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyib, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını dəfələrlə ifadə edib.Ulu öndər deyib: "Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və çağdaşlığının gələcək yoluna parlaq işıq saçir"[492].

Azərbaycan Respublikasının Prezidenti *Azərbaycanda Atütürk Mərkəzinin yaradılması haqqında* sərəncam verib. Sərəncamda deyilir: "Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə qərara alıram: *1. Azərbaycanda Atatürk Mərkəzi yaradılsın"*[493].

Ümummilli lider Heydər Əliyev 13 aprel 1999-cu ildə Türkiyə dövlətinin ən nüfuzlu mükafatına – "Atatürk sülh mükafatına" layiq görülüb[494].

Mükafatın verilməsi "Atatürk Beynəlxalq Sülh Mükafatı Kömitəsində yekdilliklə qərara alınıb, Türkiyə Respublikasının Prezidenti tərəfindən təsdiq edilib, mövcud əsasnaməyə uyğun olaraq 19 may 1999-cu ildə Ankarada keçirilən təntənəli mərasimdə Türkiyə Prezidenti Süleyman Dəmirəl tərəfindən Heydər Əliyevə təqdim edilib[495].

---

[490] H.Əliyev və mətbuat. 4 cilddə. III cild (iyul 1998 – sentyabr 2000). Bakı, "Nurlar", 2003, 640 s.; s.179

[491] Yenə orada. s.10

[492] Azərbaycan Respublikasının prezidenti, Heydər Əliyev. 8 fevral 1994, yenə orada. s.137

[493] Azərbaycan Respublikası prezidentinin sərəncamı. Azərbaycan Atütürk Mərkəzinin yaradılması haqqında. Bakı, şəhəri. 9 mart 2001-ci il

[494] Türkiyə Respublikası prezidenti mətbuat xidmətinin məlumatı. 13 aprel 1999-cu il

[495] "Azərbaycan" qəzeti, 14 aprel 1999-cu il. "Heydər Əliyev və Şərq". 6

*Türkiyənin tanınmış ictimai xadimi İhsan Doğramacının* yaratdığı *"Türkiyə –Azərbaycan dostluq, əməkdaşlıq və həmrəylik fondu"nun* (1996) Fəxri sədrləri Süleyman Dəmirəl və Heydər Əliyev olub.

Təşkilatın tərkibində "Azərbaycan Evi" fəaliyyət göstərir. Əsasən mədəniyyət tədbirləri və bədii gecələr keçirir. Hər iki ölkə arasında mədəni-humanitar əlaqələr daim inkişaf etdirilir. Bu sahədə ən çox təmsilçi mədəniyyət, xarici və daxili işlər nazirliklərinin əlaqəli orqanları YÖQ *("Yüksək Öyrətim Qurumu"),*TURKSOY ("Beynəlxalq Türk Mədəniyəti Təşkilatı"), TRT *("Türkiyə Radio Televiziya Qurumu"),* DİB *("Diyanət İşləri Başkanlığı"),* BYEGM *("Mətbuat, Nəşr, İnformasiya Baş müdirliyi"),* AMDTYQ *("Atatürk Mədəni, Dil və Tarix Yüksək Qurumu")* kimi təşkilatlar və TÜ-DEV *("Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və İşbirliyi Vəqfi),*TKAE *("Türk Mədəniyyətinin Araşdırma İnstitutu"),*TDAV *(Türk Dünyası Araşdırma Vəqfi)* kimi özəl təşkilatlar fəaliyyət göstərir[496].

"Heydər Əliyev və Şərq" kitabının ikincisi də Türkiyəyə həsr edilib[497]. Görkəmli türk alimi İhsan Doğramacının 80 illik yubileyinə həsr olunmuş təntənəli gecədə Prezident Heydər Əiyev Azərbaycan Dövlət Opera və Balet teatrında çıxışı zamanı deyib: –Sizi hər yerdə, Türkiyədə də, Avropada da, Amerikada da sevirlər. Sizi fədakar əməyinizə görə, ağlınıza, zəkanıza görə sevirlər. Sizi dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinizə görə, onu zənginləşdirdiyinizə görə sevirlər. Sizi həm də böyük insan olduğunuza görə, geniş qəlbinizə görə sevirlər. Azərbaycanda isə sizi hədsiz dərəcədə sevirlər. Yəqin ki, bu günlər özünüz bunun şahidi oldunuz...

Azərbaycanda incəsənət xadimləri, mədəniyyət işçiləri çox fəaldırlar. Siz onların bir hissəsini Bilkənddə öz yanınıza aparmışsınız, onlar orada çalışırlar, sizinlə bərabər işləyirlər. Bu, yaxşı bir haldır. Bizim bir rəssamımız sizin rəsminizi çəkib. Güman edirəm ki, bu dəyərli bir rəsmdir. Yubiley münasibətilə mən onu sizə təqdim edirəm[498].

Heydər Əliyev 6 may 1997-ci ildə Ankarada Bilkənd Universitetində Doğramacının qonağı olub, burada çıxış edib[499].

---

cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s.; s.13

[496] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. I kitab. Çaşıoğlu, 2005, 542 s.; s.393-394

[497] Heydər Əliyev və Şərq.6cilddə.Türkiyə.II kitab."Çaşıoğlu", 2005, 589 s.; s.178

[498] Heydər Əliyev və Şərq.6 cilddə.Türkiyə. II kitab."Çaşıoğlu", 2005, 589 s.; s.178

[499] Heydər Əliyevin Ankarada Bilkənd Universitetindəki çıxışından. 6 may 1997-ci il. Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab. "Çaşıoğlu", 2005, 589 s. s.178

*Bilkənd Universiteti idarə heyətinin sədri, məşhur ictimai xadim İhsan Doğramacı* bildirib: *"*Heydər Əliyev əsrimizin yetişdirdiyi nadir dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyat boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çarpışmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

O, fırtınalı həyatının hər dövründə *Azərbaycanı, türklüyünü unutmayan* böyük bir şəxsiyyətdir. Ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır.

...Mən həyatda çox mükafatlar almışam. Amma *sizinlə dostluğumuzu* özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz. Siz həm təcrübəli, həm də orijinal adamsınız. Sizin sağlamlığınız, varlığınız, Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir"[500].

"Heydər Əliyev və Şərq" kitabının[501] üçüncüsü də Türkiyəyə həsr edilib.Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Heydər Əliyevlə vida çağlarında bir daha "Türkiyə– Azərbaycan əbədi dostluğunu xatırladıb: "Azərbaycanı 10 illik zaman ərzində dünyaya tanıdan böyük dünya dövləti səviyyəsinə yüksəldən məhz Heydər Əliyevdir. Azərbaycan müstəqil bir dövlət kimi əbədiyyətə qədər ayaqda dura bilməsini vəsiyyət edən də məhz Heydər Əliyevdir. *"Türkiyə– Azərbaycan dostluğu daim yaşayacaqdır, heç bir şey buna mane ola bilməz"* deyən də Heydər Əliyevdir. Bu gün onu minnətdarlıq və təşəkkür hissləri ilə yad edirik. Qurulması üçün çox böyük əmək sərf etdiyi müstəqil Azərbaycan dövləti əbədi yaşayacaq, Türkiyə ilə Azərbaycan arasındakı dostluq da əbədi yaşayacaqdır. Azərbaycan xalqına deyirəm, "Sizin dərin hüznünüzə şərik oluram. Bir tək təsəllimiz odur ki, *2 dost və qardaş ölkə* bundan sonra əl-ələ, çiyin-çiyinə verəcək, bir-birinə yardım edəcək, dəstək olacaqdır, Azərbaycan doğru-düzgün bir yoldadır. Prezident böyük siyasi xadim Heydər Əliyevə Allahdan bir daha rəhmət diləyirəm. Torpağı nurla dolsun!.."[502]

*Yeri gəlmişkən:* Süleyman Dəmirəl Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 12 iyun 1999-cu ildə *"İstiqlal"* ordeni ilə təltif edilib.

Dünya sivilizasiyasının böyük insanı, elit şəxsiyyətinin siyasi, iqtisadi və mədəni quruculuq sahəsində tarixi xidmətləri barəsində qiymətli fikirlər

---

[500] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s.; s.11-12

[501] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s.

[502] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s. ; s.8-9

söylənib[503]. Bu barədə yuxarıda yazılıb. Burada isə türk dünyasından bəzi yarpaqları təqdim edirik.

*Türkiyə Baş nazirinin baş müşaviri Namiq Kamal Zeybəkin* fikirləri qürürvericidir: *"*Azərbaycanda sizin kimi görkəmli Cümhur başqanı olduğu üçün biz çox sevinirik. Sizin zəkanız bizə də lazımdır. Allaha şükür edirik ki, sizi bizə vermişdir, uzun müddət Azərbaycanın rəhbəri olmağınızı arzulayırıq. Bu Türkiyə və Azərbaycan üçün vacibdir və bunu söyləməkdən fəxr duyuram"[504].

*Türkiyə Baş nazirinin müavini Ərdal İnönünün* də fikirləri də tarixi əhəmiyyətə malikdir. O: "Heydər bəyi çox sevirik. Bir zamanlar babam İsmət Paşaya həyatdakı Atatürk deyərdilər. *Heydər Əlirza oğlu da həyatdakı Atatürkdür"*[505]*,–* deyə qürurunu ifadə edib.

*Türkiyənin ictimai xadimi Kamal Akın* isə deyib: "Heydər Əliyev Sovet İttifaqının tarixində uzun illər sovetlər rejiminin, Kremlin zirvəsində oturmuş yeganə türkdür"[506]...

Türkiyə ölkəsində Heydər Əliyevin *əziz xatirəsi* əbədiləşdirilib.

Türkiyənin TV-8 kanalı Heydər Əliyev haqqında film çəkib və 16 yanvarda AZTV-I proqramı ilə nümayiş etdirilib. Türkiyədə orta məktəbə, habelə, Türkiyənin Qaziantep vilayətinin Şahinbəy qəsəbəsindəki 700 nəfərlik orta məktəbə Heydər Əliyevin adı verilib. Məmləkətin bir prospekti isə "***Azərbaycan"*** adlandırılıb.

*Türkiyə –Azərbaycan dostluq, əməkdaşlıq və həmrəylik vəqfi* "Heydər Əliyev təqaüdü" təsis edib. Təsis vəqfin sədri, professor İhsan Doğramacının təşəbbüsü ilə olub.

*Daşkənddə* Heydər Əliyevin adına küçə verilib. Azərbaycan Mədəniyyət Mərkəzi *"Heydər Əliyev adına Azərbaycan evi"* adlandırılıb. Burada "Heydər Əliyev muzeyi" fəaliyyət göstərir. Binanın yerləşdiyi küçə Heydər Əliyevin adınadır. Bütün Türk ölkələrində Heydər Əliyevin *əziz xatirəsi* bu və ya digər şəkildə əbədiləşdirilib.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin ***xatirəsinin əbədiləşdirilməsi*** haqqında Azərbaycan Respublikası Prezidenti-

[503] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.
[504] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s. ; yenə orada. s.11
[505] Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1999-2003-ci illər. III kitab. "Çaşıoğlu", 2005, 757 s. ; s.13
[506] Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, 148 s.; s.15

nin Fərmanı olub.[507] Sərəncama əsasən Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeni təsis edilib.

Azərbaycan Ali Hərbi Məktəbinə, Bakı Beynəlxalq Aeroportuna, Bakı Dərin Özüllər Zavoduna, Respublika Sarayına, Bakı şəhərindəki İdman-Konsert Kompleksinə, Bakı şəhərində küçə və meydanlardan birinə, Azərbaycan şəhər və rayonlarında küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilib.

Heydər Əliyevin şərəfinə platin, qızıl və gümüş xatirə sikkələri buraxılıb.

Bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma quyusuna Heydər Əliyevin adı verilib.

İctimai əsaslarla *Heydər Əliyev Fondu* yaradılıb.

***

***"Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk düynasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir.***

**Heydər Əliyev**

Heydər Əliyev 28 avqust 1995-ci ildə Bişkekdə ***"Manas"*** *dastanının 1000 illiyinə* həsr olunmuş təntənəli yığıncaqda çıxış edib. Dövlət xadimi deyib: "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, *bütün dünya sivilizasiyasının,* bəşəriyyətin dəyərli sərvətidir, türk düynasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır"[508].

Heydər Əliyev dastanın *ümummilli sərvət* olmasına diqqət çəkərək deyib: "Manas"ı min il bundan əvvəl qüdrətli qırğız dövləti yaratmışdı. Bu gün qırğız xalqı yenidən milli müstəqillik əldə etmişdir, onun öz milli dövləti var. "Manas" dastanının 1000 illiyini məhz belə şəraitdə Qırğızıstanda

---

[507] İ.Əliyev. Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 10 mart 2004

[508] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 354

və başqa ölkələrdə geniş və təntənəli surətdə, dünya miqyasında qeyd etmək mümkün olmuşdur"[509].

Dövlətimizin başçısı *çoxəsrlik tarixi dostluq tellərini* nəzərə alaraq deyib:

"Qırğız və Azərbaycan xalqlarını ümumi köklərimizdən, tarixi keçimişimizdən, adət və ənənələrimizdən, dilimizdən və dinimizdən, bir çox başqa xüsusiyyətlərdən doğan çox əsrlik dostluq telləri başlayır. Biz qırğız xalqı ilə olan bu dostluğumuzu əziz tuturuq. Qırğızıstan torpağında gedən prosesləri biz dostcasına müşahidə edirik. Dünən və bu gün biz Qırğızıstanda baş vermiş və indi də davam edən böyük dəyişikliklərin şahidi oluruq. Bütün bu dəyişikliklər onu göstərir ki, böyük Manasın vəsiyyətləri həyata keçir. Bu həm də qırğız xalqının, Qırğızıstan dövlətinin öz müstəqilliyini və suverenliyini möhkəmləndirmək üçün gördüyü böyük işlərlə bağlıdır. Bütün bunlarda bizim böyük dostumuz, Qırğızıstanın layiqli rəhbəri, Qırğızıstan Respublikası Prezidentinin, qardaşımız Əskər Akayevin böyük xidməti var"[510].

Heydər Əliyev 2 avqust 1995-ci ildə Talasda *"Manas" muzeyinin təntənəli açılış* mərasimində də çıxış edib.

***

***"Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir".***

**Heydər Əliyev**

1997-ci ildə qərara alınıb ki, ***"Kitabi-Dədə Qorqud"un*** *1300 illiyi* YUNESKO-nun Baş Məclisi tərəfindən qeyd edilsin. Tədbirlər YUNESKO-nun baş qərargahında olub. Baş qərargahda 2 gün şənliklər keçirilib, tamaşaçılar filmlərə, rəqslərə, musiqiyə maraq göstərib, sərgi və elmi simpoziumlar vasitəsilə Dədə Qorqud irsi beynəlxalq ictimaiyyətə çatdırılıb. Bildirilib ki, *Misir ehramları* kimi, *"Kitabi-Dədə Qorqud" incisi* də, ümumi mədəni irs olaraq hamının memarlıq abidəsinə çevrilməli, belə böyük əsər bəşəri olaraq daha çox bölüşülməli, ondan daha çox həzz almağı bacarmalıyıq. *K.Matsuura* deyib: "Zati-aliləri, cənab Prezident! Sizin xalqın zəngin irsi *dünya sivilizasiyasına* böyük töhfə verməklə kifayətlənmir, eyni zaman-

---

[509] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 354

[510] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.354-355

da, qiymətli mənbə kimi bu günün çətinliklərinə sinə gərməkdə və gələcəyi qurmaqda Sizə kömək edir"[511].

Azərbaycan Prezidenti Heydər Əliyev 16 fevral 1999-cu ildə prezident sarayında "Kitabi- Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət komissiyasının iclasında giriş sözü, 8 aprel 1999-cu ildə Prezident sarayında Dövlət Komissiyasının növbəti iclasında giriş və yekun sözü, 9 aprel 2000-ci ildə yubiley mərasimində nitqi söyləyib.

2000-ci il aprelin 9-da Bakıda Respublika sarayında *"Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə* həsr edilmiş yubiley tədbiri keçirilib. Tədbirdə Baş nazirin müavini Elçin Əfəndiyev, Yubiley komissiyası üzrə sədrin müavini, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Komissiyanın sədr müavini, Azərbaycan EA-nın prezidenti Fərəməz Maqsudov, Komissiyanın sədr müavini, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Əsgər Akayev, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Özbəkistan Ali Məclisinin Sədri Erkin Xəlilov, YUNESCO-nun baş direktoru Koisiro Matsuura və Türkmənistan Məclisinin Sədri Səhhət Muradov çıxış edib. Türkdilli dövlətlərin başçılarının *Bakı Bəyannaməsi* qəbul edilib.

Yekun yubiley tədbiri zamanı *Heydər Əliyev* deyib: "Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır"[512].

*YUNESKO-nun Baş direktoru Koisuro Matsuuranın* nitqində Prezident Heydər Əliyevin böyük nüfuzuna olan hörmət hissiyyatlı ifadə olunub. O deyib: "Eyni zamanda siyasi və ictimai sahədə göstərdiyi saysız səylərinə və xidmətlərinə görə Prezident Heydər Əliyevə öz ehtiramımı bildirirəm"[513]. "Mən prezidentlərin mədəni irsə göstərdikləri marağa valehəm. Onlar yalnız dil və mədəni irs problemlərinə deyil, həmçinin mədəni özünüdərk məsələlərinə də xüsusi diqqət yetirirlər"[514]. Koisuro Matsuura qiymətləndirib ki, "YUNESKO üzvü olan ölkələr, bütün bəşəriyyət *"Kitabi-Dədə Qorqud"un ədəbi və tarixi əhəmiyyətini* dərk edirlər. *Şifahi ədəbiyyat nümunələri* dünyanın varlığıdır və gələcək nəsillərə, millətlərə, xalqlara, regionlara zənginlik gətirir. Bu yalnız ədəbi ənənə məsələsi deyil. *"İliada",*

---

[511] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.216
[512] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. Bakı, 2000, 342 s.; s.210
[513] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.215
[514] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.215

*"Mahabharata", "Kitabi-Dədə Qorqud"* kimi böyük eposlar tarixi, sosial, siyasi, etnik, coğrafi məlumatlarla fərqlənir və bütün cəmiyyəti zənginləşdirir. Bu eposlar yazıya alınıb tərcümə edildikdən sonra bütün dünyaya yayılıb insanlığa qismət olur"[515].

*"Kitabi-Dədə Qorqud"* dastanının yubiley mərasimləri Drezden, Moskva, Türkiyənin bir çox şəhərində keçirilib, bütün dünyada tanıdılıb.Tədbirdə çoxlu xarici qonaqlar iştirak edib.

Koisuro Matsuura böyük öndər Heydər Əliyevin mərasimin möhtəşəm, əzəmətli keçirilməsi sahəsində göstərdiyi şəxsi təşəbbüslərini yüksək qiymətləndirərək deyib: "Sizin *ölkənizin çox qədim tarixi, zəngin mədəniyyəti* vardır. Mən bu gün səhər Sizin şəhərinizin görməli yerləri ilə tanış oldum, *İçərişəhərdə* oldum və *Qız qalasını* gördüm. Ölkəniz barədə indiyə qədər eşitdiklərim və bu günlərdə burada olarkən əldə etdiyim məlumatlar, tanışlıqlarım "Dədə Qorqud" dastanında oxuduğum və haqqında təsəvvür formalaşdırdığım Azərbaycan xalqı ilə tamamilə uyğundur. Cənab prezident, fürsətdən istifadə edərək "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin belə möhtəşəm, əzəmətli keçirilməsi üçün şəxsi təşəbbüslər göstərdiyinizə görə Sizə xüsusi təşəkkürümü bildirirəm"[516].

Baş direktor *Heydər Əliyevin elit şəxsiyyətinə* də yüksək qiymət verib: "Son 7 ildə Sizin ölkənizə *liderliyiniz* sayəsində apardığınız böyük işləri və gördüyünüz nəhəng işləri qeyd etməyə bilmirəm. Hesab edirəm ki, Siz ölkənizi çox ağır bir vəziyyətdən çox işıqlı gələcəyə aparan yollara çıxarmısınız, məhz Sizin səyləriniz sayəsində Azərbaycan dövlət quruculuğu sahəsində çox önəmli səylər göstərməkdə, böyük işlər görməkdədir"[517].

YUNESKO-nun Baş direktoru Koisuro Matsuura nitqinin sonunda üzərində Eynşteynin əksi olan *"YUNESKO medalı"nı* Heydər Əliyevə təqdim edib.

*Haşiyə:* Koisuro Matsuura YUNESKO-nun Baş direktoru vəzifəsindən əvvəl Dünya İrs Komitəsinin sədri olub, ondan əvvəl isə ölkəsi Yaponiyanı həmin Komitədə təmsil edib. Ona görə də mədəni irsə milli və beynəlxalq münasibətlər səviyyəsində baxmağı bacarıb.

K.Matsuura ***TÜRKSOY****-un mədəni əməkdaşlıq təşkilatı* olmasından, türk dilini, mədəniyyətini, ənənələrini inkişaf etdirmək missiyasından danışıb: "Türksoy təşkilatı mədəni əməkdaşlıq baxımından böyük əhəmiyyətə malikdir. YUNESKO və Türksoy mədəni inkişaf baxımından eyni mövqedə-

---

[515] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.215
[516] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.219
[517] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində. 2000, 342 s.; s.219

dirlər. Türk dilini, mədəniyyətini, ənənələrini inkişaf etdirmək, onlara sadiq qalmaq *türkdilli xalqların XXI əsrə qovuşması* deməkdir”[518].

K.Matsuura *qədim İpək yolu, mədəni özünüdərk, dialoqa, plüralizmə* aparan yolun, regional əməkdaşlığın faydasını xatırladıb: “Bu gün qədim İpək yolu mədəni əlaqələrin, region ölkələrinin əməkdaşlığının möhkəmləndirilməsində yenə də keçmişdəki kimi mühüm rol oynayır və mədəni özünüdərketməyə, dialoqa, plüralizmə aparan yol olaraq qalır. Bu dialoq, əməkdaşlıq daha sıx əlaqələr, daha yaxşı anlaşma yaratmaq məqsədi daşıyır və bunun üçün geniş yollar açır. Avropa ilə Asiyanın qovuşduğu bu ərazidə regional əməkdaşlıq gələcək iqtisadi, sosial, insani inkişafa böyük ümidlər yaradır”[519].

Ümummilli lider Heydər Əliyev 6 noyabr 1996-cı ildə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonunda ***Türk dünyası yazıçılarının III qurultayında*** nitq söyləyib.

İlk qurultay 1992-ci ildə *Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın* təşəbbüsü ilə Ankarada keçirilib. İkinci qurultay *Prezident Süleyman Dəmirəlin* təşəbbüsü, iştirak ilə Ankarada olub.

Heydər Əliyev *III qurultayda* deyib: “Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq *dünya, bəşər mədəniyyətinə* böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarixi boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bu günkü günlərə gətirib çatdırmışdır. Biz öz *tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə* fəxr edə bilərik”[520].

Heydər Əliyevə *türk qövmlərinin bütün görkəmli sənətkarları* hüsn-rəğbət bəsləyiblər. Hər şeydən əvvəl Ümummilli liderin özü onlara böyük dəyər veribdir. Xüsusilə, üç bəşəri şəxsiyyəti fərdiləşdirmək istərdim.

Heydər Əliyev 9 avqust 1995-ci ildə Almatıda böyük qazax şairi *Abay Kunanbayevin 150 illik yubileyində* iştirak edən dövlət başçıları və nümayəndə heyətləri rəhbərlərinin şərəfinə rəsmi qəbulda nitq söyləyib. Dövlət başçısı deyib: “Qazaxıstan dünyanın böyük dövlətlərindəndir, dünya birliyində layiqli yer tutur və qazax xalqı, Qazaxıstan müstəqil dövləti milli

---

[518] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.216
[519] Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ailəsində, 2000, 342 s.; s.216
[520] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.; s.468

dövlət quruculuğu, xalqın taleyi, bu günü və gələcəyi ilə bağlı məsələləri uğurla həll edir. Bu isə Abayın ideyalarının həyata keçməsinin parlaq təcəssümüdür...

Bu gün Qazax xalqına layiqli rəhbər, Qazaxıstan rəhbəri, bizim əziz dostumuz *Nursultan Nazarbayev* başçılıq edir. Abay arzu edirdi ki, onun ardıcılları – həm mütəfəkkirlər, həm ideoloqlar, həm yazıçılar, həm bəstəkarlar, həm müğənnilər, həm də dövlət xadimləri olsun. İndi Qazaxıstan bütün bu imkanlara malikdir. Lakin ən başlıcası budur ki, ərazisinə, iqtisadiyyatına, bəzi başqa cəhətlərə görə mürəkkəb olan bu ölkəyə bir çox illər ərzində uğurla rəhbərlik edən bir dövlət xadimi var”[521].

2008-ci ildə Bakıda *Çingiz Aytmatov həftəsi* keçirilib, görkəmli yazıçı Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə və Anar haqqında qiymətli fikirlər söyləyib.

Akademik İsa Həbibbəyli Çingiz Aytmatovun 90 illiyinə həsr edilmiş “Müqayisəli ədəbiyyatşünaslıq. Komparativistika” jurnalının xüsusi buraxılışında[522] *“Çingiz Aytmatov: dünya ədəbiyyatının əbədiyaşar fenomeni”* məqaləsini çap etdirib. Məqalədə Çingiz Aytmatov XX əsr bədii-ictimai fikri və dünya ədəbiyyatında yeni nəslin qüdrətli nümayəndəsi kimi təqdim olunub.

İ.Həbibbəyli *Heydər Əliyev– Çingiz Aytmatov, Çingiz Aytmatov– Heydər Əliyevin* səmimi münasibətlərindən də söz açıb. Çingiz Aytmatov deyib: “Heydər Əliyev həqiqətən də *tarixi, hətta əfsanəvi* bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev və onun yaşıdlarının və hətta, ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – *müasir dövrün ən aktual çağırışlarına hazır olmağı* nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsi və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət və maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə *Azərbaycan dövlətinin müasir inkişafını* və *tərəqqisini təmin edəcək* əsas amillərdir”[523].

---

[521] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.;  s. 352

[522] Bakı, “Elm və təhsil”, 2018, 243 s.

[523] Bakı, “Elm və təhsil”, 2018, s.24

*Heydər Əliyev* də əzəmətlə bildirib: "Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir"[524].

Ölkə Prezidenti cənab İlham Əliyev də dünya şöhrətli sənətkara yüksək qiymət verib, onu "Dostluq" ordeni ilə təltif eləyib (2008), akademik İ.Həbibbəyli yazıçının 90 illik yubileyi münasibətilə üç dildə *"Çingiz Aytmatov haqqında söz"* monoqrafiyasını[525] çap etdirib. Kitab akademikin Çingiz Aytmatovun həyat və yaradıcılığına həsr edilmiş ədəbi-tarixi və elmi-nəzəri araşdırmalarının məhsulu olub, yazıçının dünya ədəbi-ictimai prosesləri və qırğız ədəbiyyatındakı yerini, mövqeyini dəyərləndirib.

Kitab müəllifi *"Qırğızıstandan dünyaya və Azərbaycana"* bölməsində Heydər Əliyev və Çingiz Aytmatov ikiliyinə münasibət bildirib, hətta onun İlham Əliyev haqqında: *"İlham Əliyev qloballaşan dünyanın lider etalonudur",* – fikrini də yada salıb. Alim qiymətləndirib ki, "Yeni epoxanın liderlərindən biri olan İlham Əliyev və məşhur yazıçı Çingiz Aytmatovun münasibətləri XXI əsrdə böyük siyasətlə böyük ədəbiyyatın dialoqunun dünyaya və xalqlara gətirəcəyi dəyərlərin, aça biləcəyi imkanların geniş üfüqlərinin yenidən istiqamətləndirilməsinə xidmət edir"[526].

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 13 iyul 2018-ci ildə *"Çingiz Aytmatov: milliliklə bəşəriliyi birləşdirən fenomen" mövzusunda beynəlxalq simpozium* keçirilib, yazıçı və ictimai xadimin yaradıcılıq ideallarından, *Heydər Əliyev– Çingiz Aytmatov, Çingiz Aytmatov– Heydər Əliyev* birgəliyindən danışıb, ədibin sənətinin cövhəri "elmi-nəzəri fikrin müasir meyarları səviyyəsindən təhlil" edilib. Beynəlxalq simpoziumda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı TÜRKSOY-un Baş katibi, professor Düsen Kaseyinov, Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusubov, Türkiyə Cümhuriyyəti Yunus Əmrə İnstitutunun Azərbaycan təmsilçiliyinin müdiri Cihan Özdəmir və başqaları çıxış edib.

YUNESKO-nun statistikasına əsasən dünya şöhrətli Çingiz Aytmatovun əsərləri dünya xalqlarının 170-dən çox dilinə tərcümə edilib, 100 milyon tirajla nəşr olunub.

1999-cu il martın 4-də Prezident sarayında Heydər Əliyevin Qazaxıstanın İtaliya və Yunanıstandakı səfiri, Qazax yazıçısı *Oljas Süleymenovla* görüşü olub, hər ikisi keçmiş vaxtları xatırlayıb *(Azərbaycandakı Füzuli yubi-*

[524] Bakı, "Elm və təhsil", 2018, s.25
[525] Bakı, "Elm və təhsil", 2018, 232 s.
[526] Bakı, "Elm və təhsil", 2018, s. 42

*leyi).* Heydər Əliyev Oljas Süleymenovun yazıçı və siyasi xadim kimi Azərbaycanda böyük nüfuzunu yada salaraq deyib: "Azərbaycanın 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən işğalı zamanı Sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü Sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz. Bunu Azərbaycanda çox yaxşı xatırlayırlar"[527].

Heydər Əliyev dünya şöhrətli yazıçı və ictimai xadimə "tarixi köklərini, tarixi keçmişini, milli özgürlüyünü və milli ləyaqətini daha dərindən dərk etmiş bütün xalqlarımızın görkəmli nümayəndələrindən biri kimi" qiymət verib.

Oljas Süleymenov Ümumilli liderə bildirib ki, Azərbaycana gözlənilmədən gəlib, Almatıdan İstanbul vasitəsilə Romaya gedərkən 2 saat vaxt imkanından istifadə edib. "Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir *şəxsiyyət* kimi, *dövlət xadimi* kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədr-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda 1990-cı ildə Siz burada olsaydınız, həmin o "Qara yanvar" olmazdı"[528],– Oljas Süleymenov belə deyib.

Görkəmli qazax yazıçısı o zaman "Moskva" mehmanxanasında qızdırmalı halda yatdığı vaxt gecə saat 3-də dostlarından zəng gəlib, o da Qanlı Yanvar hadisəsindən xəbər tutub, xalqımızın hüznünə, kədərinə qoşulub və Heydər Əliyevə, xalqımıza başsağlığı verib.

Heydər Əliyevlə görüşü zamanı Oljas Süleymenov böyük rəhbərə bunu da deyib ki: "Bu torpağa, onun xalqına, şəxsən sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaşdırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm. Bu xalqın, onun rəhbərliyinin nikbinliyi ümid verir ki, hər şey qaydasına düşəcək, digər xalqların köməyi, arzu və ümidləri ilə burada da günəş bərq vuracaqdır. Azərbaycan buna layiqdir. Sizinlə görüşərkən mən bax bunları demək istəyirdim"[529].

Ulu Öndər məşhur qazax yazıçısının xalqımıza göstərdiyi diqqəti yüksək qiymətləndirib, ona bəzi siyasi olayları xatırladıb: M.S.Qorbaçovun şovinist siyasətini, 1986-cı ilin dekabr hadisəsini – Kolbinin ilk siyasi təcavüz olaraq Qazaxıstana başçı göndərildiyini, bu milli siyasətin ciddi fikir ayrı-

[527] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.286
[528] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.287
[529] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.287

lıqlarını, baş katibin türk mənşəli müsəlman xalqlarına mənfi mövqeyini, Özbəkistanda Şərəf Rəşidova olan kompaniyanı, günahsız cəzaları və Heydər Əliyevin bütün bunlara olan etirazlarını. Ulu Öndər 1986-cı ilin dekabr hadisələrini, 1987-ci ilin istefasının səbəblərini, M.S.Qorbaçovun siyasi məkrlərinin mahiyyətini, şovinistliyini, 1988-ci ilin Qarabağ hadisələrini, gürcü-abxaz, gürcü-osetin, Çeçenistan, Moldova münaqişələrini yada salıb, buna rəğmən Oljas Süleymenov deyib: "Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir, peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsil mənasında azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir. Sizə möhkəm can sağlığı, dünən tribunadan çoxminlik salonu lərzəyə gətirdiyiniz kimi güclü enerji arzulayıram. Mən gənclərin Sizi necə alqışladığını gördüm. Təcrübə ilə gənclik hərarətinin bu vəhdəti, bu birliyi çox şey deyir. Sizə can sağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram..."[530]

*25 aprel 2016-cı ildə* Ədəbiyyat İnstitutunda görkəmli *Qazax şairi, ictimai xadim Oljas Süleymenovun 80 illiyi* və Ədəbiyyat İnstitutunun fəxri doktoru seçilməsi münasibətilə mərasim keçirilib. Akademik İsa Həbibbəyli *"Görkəmli Qazax şairi və ictimai xadim Oljas Süleymenov haqqında",* Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev "Oljas Süleymenova Nizami adına Ədəbiyyat İnstitutunun fəxri doktoru diplomunun təqdim edilməsi" mövzusunda giriş sözü söyləyiblər.

*Beləliklə,* Heydər Əliyev Avrasiya qitəsinin böyük hissəsini tutan türkləri dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş türkdilli xalqlar, millətlər kimi dəyərləndirib. Onların tarixi-milli kökləri, mənəvi dəyərləri, ənənələri bir olan böyük türk tarixilə fəxr etdiyini bildirib.

[530] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.288

## SİVİLİZASIYALARIN DİALOQU İDEOLOGİYADA

***"TÜRKSOY təşkilatının əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bu irsi nəsillərə çatdırmaqdan ibarətdir".***

**Heydər Əliyev**

27 aprel 2001-ci ildə Ankaranın Çırağan sarayında *Türkdilli ölkələrin dövlət başçılarının* birgə mətbuat konfransı keçirilib.

***Türkdilli Dövlətlər Birliyi*** 1992-ci ildə Ankarada yaradılıb. Azərbaycan bütün Zirvə görüşlərində iştirak edib, TDB-nə öz töhfəsini verib.

Azərbaycan Prezidenti Heydər Əliyev *birliyin əhəmiyyəti* haqqında deyib: "Biz Türkiyənin, türk xalqının, Türkiyə Cümhuriyyətinin nə qədər qonaqpərvər olduğunu və türkdilli dövlətlərin birləşməsi üçün nə qədər böyük səylər göstərdiyini bu günlər bir daha müşahidə etdik. Bu, şəxsən məndə, bütün Azərbaycan xalqında böyük qürur hissi doğurur. Türkiyə Cümhuriyyətində, qardaş türk torpağında böyük Mustafa Kamal Atatürkün Cümhuriyyətində yenidən və yeni təmaslarda olmaq, burada türkdilli dövlətlərin gələcək prinsipləri haqqında müzakirələr aparmaq bizim üçün çox önəmlidir"[531].

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev *vahid iqtisadi mədəni və mənəvi əməkdaşlıq məkanın yaradılmasının vacibliyini* önə çəkib: "Türk dünyası, türkdilli dövlətlər tarixi reallıqdır. İndi bu, dünya sivilizasiyasına öz töhfələrini vermək istəyən türkdilli xalqlardan və 6 müstəqil dövlətdən ibarətdir. Biz özümüzü yenicə dərk etməyə başlamışıq. Mədəni, tarixi, mənəvi istiqamətdə yaxınlaşırıq. Bizim hər birimiz öz daxilimizdə və öz aramızda qapanıb qalmaq istəmirik. Birliyimiz hansısa yerli problemlərə, kiminsə əleyhinə, yaxud kiminsə xeyrinə yönəldilməyibdir. Ona görə də bu gün biz ilk növbədə *vahid iqtisadi mədəni və mənəvi əməkdaşlıq məkanı* yaradılmasına çalışırıq. Əgər kimsə düşünmürsə ki indi biz əl-ələ verib hər hansı bir tərəfi tənqid etməyə bu və ya digər mövqe tutmağa başlayacağıq, onda ümumtürk əməkdaşlığından tezliklə heç nə qalmaz"[532].

---

[531] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı, "Nurlar", 2003, 640 s.; s.172

[532] Heydər Əliyev və mətbuat. Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə. IV cild. /Tərtibçilər Əli Abbasov, Teymur Əhmədov/. Bakı,

*Türkdilli Dövlətlərin Birliyi Türkiyə* Cümhuriyyəti, Prezident Süleyman Dəmirəlin təşəbbüsü ilə yaradılıb. Türkdilli Dövlətlər Birliyinin yaranması türk dünyası, türk xalqlarının həyatında tarixi hadisədir. Türkdilli Dövlətlər Birliyinin yaranmasından 8 il keçəndən sonra Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşündə görülmüş işlər təhlil edilib.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayev, Özbəkistan Ali Məclisinin sədri Erkin Xəlilov, Türkmənistan Məclisinin sədri Səhhət Muradov, YUNESKO-nun Baş katibi Koisuro Matsuura, Fransa Parlamentinin üzvü, veteran Jak Bomel iştirak edib...

Heydər Əliyev 16 yanvar 2001-ci ildə ***TÜRKSOY*** *toplantısının iştirakçıları* ilə görüşüb. Heydər Əliyev təşkilat barəsində deyib: "*TÜRKSOY* təşkilatına daxil olan ölkələrin mədəniyyət naizirlərinin XV görüşü keçirilir...*TÜRKSOY* barədə çox danışmışıq. Ancaq bu gün mən onu deyə bilərəm ki, Türkdilli dövlətlər birliyi yaranandan indiyə qədər *TÜRKSOY* təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır...

Bəli, bu təşkilatın əsas məqsədi birinci növbədə *bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq* və *bu irsi nəsillərə çatdırmaqdan* ibarətdir. Çünki 70 illik sovet cəmiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovet İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik, bir ölkənin tərkibində idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqilik əldə ediləndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri *TÜRKSOY* təşkilatıdır"[533].

Ümummilli lider Heydər Əliyev türk dünyasının elə ədəbi-ictimai-siyasi şəxsiyyətləri vardır ki, onların mövqeyinə siyasi-diplomatik və ideoloji səviyyədən dəyər verib. Məs., *Çingiz Aytmatov, Oljas Süleymenova.* Dünya

"Nurlar", 2003, 640 s.; s.176

[533] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.382

şöhrətli yazıçı, görkəmli ictimai xadim *Çingiz Aytmatova* 6 dekabr 1998-ci il tarixdə 70 illiyində təbrik məktubunda bildirib: "Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş bir yazıçı kimi siz həm Qırğızıstanın, həm də *bütün türk dünyasının* fəxrisiniz. Sizin yaradıcılığınız, xüsusən, "Ana torpaq","Əlvida, Gülsarı","Cəllad kötüyü","Əsrə bərabər gün" və digər əsərləriniz *ümumbəşəri dəyərləri* əks etdirməklə yanaşı, *türk övladlarının milli mənlik, özünü dərketmə şüurunun formalaşması* üçün son dərəcə qiymətlidir"[534].

4 mart 1999-cu ildə Heydər Əliyev görkəmli Qazax yazıçısı, Qazaxıstan, İtaliya və Yunanıstanın səfiri *Oljas Süleymenovla* görüşdəki söhbətində deyib: –Oljas, çox şadam ki, siz bizə qonaq gəlmisiniz. Azərbaycanda sizi xalqımızın böyük dostu hesab edirlər. Təbii ki, mən də bu fikirdəyəm. Hesab edirəm ki, siz Azərbaycan xalqının da dostusunuz, mənim də dostumsunuz. Sizə böyük hörmət hissləri bəslənilir, həm yazıçı, həm də siyasi xadim kimi, Azərbaycanda böyük nüfuza maliksiniz. Azərbaycanın 1990-cı ilin yanvarında *sovet qoşunları tərəfindən işğalı zamanı* sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz. Bunu Azərbaycanda çox yaxşı xatırlayırlar[535].

H.Əliyev həm də qazax oğlunun ruhi aləmini qiymətləndirirdi: "İndi öz *tarixi köklərini, tarixi keçmişini milli özgünlüyünü və milli ləyaqətini* daha dərindən dərk etmiş bütün xalqlarımızın belə görkəmli nümayəndələrindən birisiniz. Siz hələ cavanlığınızda bu məsələlərlə çoxlarına nisbətən daha böyük yetkinlik nümayiş etdirirdiniz...

Buna görə də şadam ki, siz Azərbaycanı unutmursunuz, buraya gəlmisiniz, özü də qəfildən, gözlənilməzdən gəlmisiniz. Dünən qəfildən, günortadan sonra mənə xəbər verdilər ki, siz buraya gəlirsiniz. Əlbəttə ki, mən sevindim, çünki bu çox xoş xəbər idi... Bir sözlə sizi salamlayıram"[536].

*Oljas Süleymenov* deyib: –Heydər Əliyeviç, mən sizə həmişə dərin hörmətlə yanaşmışam, yanaşıram, yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş sovet ittifaqları üçün, Azərbaycan üçün,

---

[534] s.475

[535] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.27

[536] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.28

yer üzündəki bütün türk xalqları üçün qədir- qiymətini bilirəm. Zənnimcə, əgər 1990-cı ildə siz burada olsaydınız, həmin o qara yanvar olmazdı”[537].

“Mən gəldim və dostlarımın, doğma Azərbaycanın müsibətinə və ağrı-acılarına şərik çıxdım. O vaxtdan həmin günlər, sonralar baş vermiş hadisələr barədə xatirələr mənim ovqatıma təsir göstərir. Mən ilk qaçqınları görmüşəm və bu gün onların məskənlərinə getmək, onlarla dərdləşmək, onların ümid və iztirablarından hali olmaq istəyirəm. Biz bütün bunlara biganə qala bilmirik.

Bu gün mən sizinlə, Azərbaycanla bir daha görüşürəm. Burada gördüklərimi və hiss etdiklərimi dostlarıma və başqa ölkələrdə ünsiyyətdə olduğum adamlara da danışacağam. Bu torpağa, onun xalqına, şəxsən sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaşdırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm. Bu xalqın, onun rəhbərliyinin nikbinliyi ümid verir ki, hər şey qaydasına düşəcək, digər xalqların köməyi, arzu və ümidləri ilə burada günəş bərq vuracaqdır. Azərbaycan buna layiqdir. Sizinlə görüşərkən mən bax bunları demək istəyirdim.

*Heydər Əliyev:* –Mən sizin təşəbbüsünüzü qiymətləndirirəm və bayaq dediyim kimi istərdim ki, burada çox qalasınız. Ancaq hər halda Azərbaycanda olmaq üçün ayırdığınız vaxt ərzində biz çalışacağıq ki, qaçqınlarınızın yaşadıqları çadır düşərgələrini də, mümkün olan hər şeyi də görəsiniz. Bizim üçün başlıcası sizin ölkəmizə, xalqımıza göstərdiyiniz diqqətdir. Bu diqqət də öz ifadəsini sizin buraya gəlişinizdə tapır...

Əlbəttə, 1986-cı ilin dekabrını da xatırlayıram. Yeri gəlmişkən, deməliyəm ki, bu Sovetlər İttifaqının tərkibinə daxil olan xalqlara qarşı necə deyərlər, *ilk siyasi təcavüz* idi. O vaxt mən Siyasi Büronun üzvü idim və yeri gəlmişkən, M.Qorbaçov oraya Kolbini MK-nın I katibi kimi göndərməyi qərara aldıqda ona oz fikrimi söylədim. Öz narahatlığımı bildirdim, çünki bundan əvvəl o, Şimali Qafqaz respublikaları barəsində artıq müəyyən işlər görmüşdü – orada yerli millətlərdən olan adamları ruslarla əvəz etmişdi. Sonra 1986-cı ilin dekabrında Almatıda bu hadisə baş verdikdə Solomentsev başda olmaqla – siz onu Qazaxıstanda hələ keçmişdəki fəaliyyətindən tanıyırdınız – komissiyaya göndərildiyini və nə kimi qədər qəbul edildiyini xatırlayıram.

Mən öz fikrimi çox kəskin şəkildə bildirdim. Qorbaçovun yeritdiyi milli siyasət məsələləri ilə əlaqədar bizim aramızda əvvəllər də ciddi fikir ayrı-

---

[537] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, “Nurlar”, 2008, 536 s.; s.28

lıqları olurdu. Yeri gəlmişkən, deməliyəm ki, öz sələflərindən fərqli olaraq o müsəlman xalqları, türk mənşəli xalqlar barəsində çox mənfi mövqe tuturdu. Siyasi Büronun iclaslarda – xüsusən də bu iclaslar "məhdud" dairədə keçəndə - oturmaq və olduqca xoşagəlməz söhbətləri eşitmək mənim üçün çox ağır idi. Məsələn, yadınızda olduğu kimi Özbəkistanda rəhmətlik Şərəf Rəşidova qarşı kompanya başlanmışdı və əslində günahsız insanları zindanlara salırdılar. Hər həftə iclasında Rusiya Federasiyasının bu və ya digər vilayətlərinin siyahılarını təklif edir, adamlar seçir və onları Özbəkistana göndərirdilər. Soruşurdum, niyə? Mənə cavab verirdilər ki, orada kadrlar yoxdur. Özbəkistan belə yüksək səviyyədə olduğu halda, demə, orada kadrlar yox imiş.

Sonra bütün bunlar o yerə gətirib çıxardı ki, Qazaxıstanda o cür kadrları olan respublikada sən demə, yerli millətdən olan adam yox idi, oraya Kolbini göndərmək lazım imiş.

Beləcə, 1986-cı ilin dekabr hadisələri baş verdi və bir il sonra, hətta bir az da tez, 1987-ci ilin oktyabrında mən bütün vəzifələrdən istefaya getdim. Qazaxıstanla bağlı hoqqabazlıq mənə çox ağır təsir bağışladı və əslinə qalsa, Qorbaçovla münaqişəmizin zirvəsinə çevrildi. Yeri gəlmişkən, o vaxt mən Almaatıda rəsmi səfərdə olanda bu barədə parlamentdə Nursultan Abişeviçə danışdım..."[538]

*Heydər Əliyev* davam edib: –Əslinə qalsa, məhz bu ona gətirib çıxardı ki, sonralar 1988-ci ilin fevralında *Dağlıq Qarabağ üstündə* Ermənistanla Azərbaycan arasında münaqişə başlandı. Sözün düzü, mən hər yerdə və həmişə dəfələrlə açıq demişəm ki, günahkar o Qorbaçovdadır. "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin mümkünlüyü barədə müraciət edən ermənilərə o vəd vermişdi. O, erməniləri arxayın salmış, onlara razılıq vermişdi, sonra da onlar baş qaldırdılar. Onlar baş qaldıranda isə o, bunun qarşısını ala bilərdi – o vaxt hələ Sovet İttifaqı kimi bir dövlət vardı. Axı Dağlıq Qarabağ məsələsi tarixin əvvəlki mərhələlərində də qaldırılmışdı. Mən burada 14 il respublikanın rəhbəri işləmişəm və bir müddət də həmin məsələni dəfələrlə qaldırmışdılar. Biz müzakirələrdə sübut edirdik ki, bu mümkün deyildir, qanunauyğun deyildir və məsələ obyektiv həll olunurdu. Amma bu dəfə o, həmin məsələni xüsusi olaraq qızışdırdı, faciə baş verdi. 10 ildən çoxdur davam edir.

Əslində digər bütün münaqişələr, gürcü-abxaz münaqişəsi, gürcü-osetin münaqişəsi də, nəhayət, Çeçenistan, Moldova münaqişələri Dağlıq Qarabağ

---

538 Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.30

münaqişəsi başlandıqdan sonra yarandı. Onların hamısı sonra meydana gəldi, çünki bu, zəncirvari reaksiyadır. Tarixdə həmişə belə olmuşdur. Ermənistan– Azərbaycan münaqişəsi birinci idi. İndi həlli müşkülə düşən bütün bu münaqişələrin yarısında Qorbaçov təqsirkardır. Muxtəsəri, sizi gördükdə, bütün keçmişi xatırlayıram.

*Oljas Süleymenov:* –Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir, peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə, bəlkə də, bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir. Sizə möhkəm can sağlığı, dünən tribunadan çox minlik salonu lərzəyə gətirdiyiniz kimi, güclü enerji arzulayıram. Mən gənclərin sizi necə alqışladığını gördüm. Təcrübə ilə gənclik hərarətinin bu vəhdəti, bu birliyi çox şey deyir. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyət arzulayıram”[539],– deyə siyasi mövqeyini bildirib.

*Beləliklə,* Heydər Əliyev siyasi-ideoloji fikirlərində türk oğlunun ruhi aləmini həmişə yüksək qiymətləndirib. Öz *tarixi kökləri, tarixi keçmişi, milli özgünlüyü və milli ləyaqətini* daha dərindən dərk etmiş xalqlarımızın görkəmli nümayəndələrini, onların daha yetkin yaradıcı təfəkkürlərini dəyərləndirib.

---

[539] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, “Nurlar”, 2008, 536 s.; s.30

# DÖRDÜNCÜ FƏSİL

## MƏDƏNİYYƏT SİYASƏTİ: SİVİLİZASİYALARIN MİLLİLİYİ VƏ BƏŞƏRİLİYİ

***"Ədəbiyyatımız, incəsənətimiz, rəssamlığımız, heykəltaraşlıq məktəbimiz, musiqimiz, teatr mədəniyyətimiz dünya səviyyəsində yüksək zirvələrə qalxmışdır".***

**Heydər Əliyev**

Elmi-nəzəri fikirdə humanizm və vətənpərvərlik milli və bəşəri sivilizasiyaların başlıca ideyası olub.Təsadüfi deyil ki, *Xalq yazıçısı Anar "Xoşbəxtliyin açarı"* (27-28 fevral 2018) adlı məqaləsində yazıb: "Bəşər tarixinin ən müxtəlif dövrlərində *Şərqin və Qərbin çeşidli ölkələrində* böyük mütəfəkkirləri– şairləri, alimləri, filosofları, dövlət xadimlərini– insan səadəti düşündürmüşdür və düşündüklərini fərqli janrlarda qələmə almışlar– fəlsəfi traktat, öyüd-nəsihət kitabları, poemalar..."[540]

Professor Rahid Ulusel*"Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək"* adlı iri həcmli kitabının[541] (elmi redaktoru akademik Nizami Cəfərov, redaktoru Savalan Süleymanlı) *"Heydər Əliyevin dəyərləndirməsində Azərbaycan və dünya mədəniyyəti"* adlı III hissəsində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və dünya mədəniyyəti", "Mədəniyyətlərarası ideya dialoqunun klassik təcrübəsi", "Heydər Əliyev və intibah yaradıcıları", "Klassik romantizmi dəyərləndirən siyasi realizm", "H.Əliyev və Cəlil Məmmədquluzadə irsi", "Humanizm – sivilizasiyanın ən başlıca ideyası", "Ümumilli vəhdətin poetik dünyası", "Milli mənəviyyatın dərinliklərində: tarixi-genetik bütövlük necə dərk olunur", "Elm və incəsənət mədəniyyət fenomenində" kimi məsələlərdən bəhs edib.

Alim *milli mədəniyyətlərin sosial, etik, psixoloji bazasını– milli mentalitetdə transmilli korporasiyalar, beynəlxalq təşkilat və şirkətlərdə çalışan ölkə vətəndaşlarının da yerini* daha müasir, çağdaş reallıqlarda təzahür etdirib. O, qeyd edib ki, transmilli korporasiyalarda, müxtəlif beynəlxalq təşkilat və şirkətlərdə çalışan müxtəlif ölkələrin yüz minlərlə vətəndaşı yalnız funksioner deyil, həm də öz ölkələrini və bu *ölkələrin milli mədəniyyətlərini*

[540] Anar. Söz dünyası. 5 cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2018, 520 s.; s.302
[541] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətindən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.

təmsil edən, özünəməxsus dünyagörüşə və mentalitetə malik insanlardır. Bu insanların qarşılıqlı münasibətlərlərindən, xüsusən, *dünya əhəmiyyətli böyük layihələrin* həyata keçirilməsindəki ümumi səylərindən – elmi-praktik fəaliyyətin planetləşməsindən *qlobal sivilizasiyanın* özünəməxsus sosial, etik, psixoloji bazası formalaşır[542].

Filosof *iqtisadiyyat, siyasət və mədəniyyətdəki çağdaş sivilizasiyanın* planetar səviyyəsini təzahür etdirərək yazıb: "*Qlobal sivilizasiya quruculuğu iqtisadi, siyasi inteqrasiya proseslərinin ahəngdar inkişafından* nə qədər asılıdırsa, bir o qədər *planetar dünyagörüşü* və *mənəviyyatın formalaşmasından*, bu başlıca istiqamətlərin hər üçündən *(iqtisadiyyat, siyasət, mədəniyyət),* millilik-ümumbəşərilik balansının gözlənilməsindən asılıdır"[543].

Rahid Ulusel *dil, din, adət-ənənə və sənət* kimi fenomenləri qlobal sivilizasiyanın *–çox mədəniyyətlilik* ("multikulturalizm") və *çoxsivilizasiyalıq* "harmoniyasının" əsas şərti hesab edib:

"Qlobal sivilizasiya –çox mədəniyyətlilik ("multikulturalizm") çoxsivilizasiyalıq zəminində təşəkkül tapır və onların konsentrasiyasında mövcudlaşır: "Multukultralizm konsepsiyası qloballaşma, müasir dünyada baş verən mədəni universalizasiya və unifikasiya meyillərinə əks olaraq *mədəni müxtəlifliyin* ifadəsi olan bütün fenomenlərin *(dil, din, adət-ənənə, sənət və s.)* mühafizə və qayğısını bəşər mədəniyyətində "harmoniyanın" əsas şərti hesab edir"[544]...

---

[542] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –Dünya münasibətləri: siyasətindən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 249

[543] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –Dünya münasibətləri: siyasətindən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 252

[544] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.; s. 254

## MƏDƏNİYYƏT SİYASƏTİNİN MİLLİ VƏ BƏŞƏRİ MƏZMUNU İDEOLOGİYADA

***"Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik!".***

**Heydər Əliyev**

Heydər Əliyev *milli mədəniyyətimiz* haqqında deyib:*"XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçmişdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir"*[545].Ulu rəhbər mədəniyyət hadisəsinə həmişə dövlət və xalq mənafeyindən yanaşıb, mütərəqqi qayə izləyib. Mədəniyyət siyasətinin milli və bəşəri məzmununda ideoloji aspektləri güclü nəzərə alıb və onu yüksək səviyyədə həyata keçirməyə çalışıb. Bu baxımdan müdrik rəhbərin *milli bayramlar, teatr, kino, ədəbiyyat, memarlıq, rəssamlıq, heykəltaraşlıq, turizm* və digər *müvafiq sahələrdə* ideoloji-mədəni siyasətini aydın görürük.

Ulu öndər *milli ədəbiyyatımıza* milli ruh, zövq mənbəyi, istedad, mənəvi-əxlaqi dəyər, tarixi yüksəliş, milli kimlik, mənəvi şüur, milli özünüdərk, bəşəri sərvət, nəhayət, siyasət, diplomatiya və ideologiya, tarix və çağdaşlıq mənbəyi kimi baxıb.

Heydər Əliyev ədəbiyyat və incəsənətə həmişə yüksək qiymət verib, ona ideoloji siyasətin tərkib hissəsi kimi yanaşıb və milli mədəniyyətə nəzər və qiymət meyarı formalaşdırıb. Ümumən, ədəbiyyat və incəsənət xadimlərini dövlət mükafatları, habelə, ad günləri, yubileyləri münasibətilə təbrik edib.

Dövlət rəhbəri *dahi Nizami, Nəsimi və Füzulinin* qlobal irsinə milli və bəşəri dəyər verib, onları Şərq və Qərb sivilizasiyaları səviyyəsində qiymətləndirib və YUNESKO səviyyəsində yubileylərinin keçirilməsinə nail olub.

Ulu öndər çıxışlarının birində deyib: "Biz *Nizamidən, Füzulidən* danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş *mütəfəkkirlər* kimi tanıtmalıyıq. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir"[546].Ulu öndər 22 aprel 1996-cı il-

[545] Heydər Əliyev və mədəniyyət. 3 clddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 240

[546] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

də Rusiya Federasiyasının Lüksenburqdakı səfirliyi ərazisində böyük Azərbaycan şairi *Nizami Gəncəvinin heykəli* önündə çıxış edib.

Heydər Əliyev milli ədəbiyyatımızın hamisi olub. 1979-cu ildə *Nizami Gəncəvi irsinin yenidən öyrənilməsi* sahəsində qərar verib, AMEA, AYB, Mədəniyyət Nazirliyi, respublika nəşriyyatları və kütləvi informasiya vasitələri qarşısında vəzifələr qoyub. Akademik Teymur Kərimli və professor Vilayət Quliyev bu ədəbi-tarixi işin klassik və müasir fəlsəfəsinə işıq tutub, Ümummilli liderin tarixi obrazını bu fonda canlandırıb: "Nizami Gəncəvinin yaradıcılıq irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı irəli sürülən vəzifələr respublika elminin və mədəniyyətinin, mənəvi tərbiyə işinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar və perspektivlər açıb"[547].

1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi respublikamızda təntənəli surətdə qeyd olunanda Heydər Əliyevin işlətdiyi və geniş əks-səda doğurduğu *"Qoy ədalət zəfər çalsın"* nidasının məna və mahiyyəti böyük tarixi reallıq kəsb edib. "Heydər Əliyev Nizaminin səkkiz əsr əvvəl öz əsərlərində irəli sürüb əsaslandırdığı bir çox mənəvi-əxlaqi qənaətlərin, humanizm və ədalətlilik prinsiplərinin bu gün də yaşayan olduğunu, onun yalnız öz doğma xalqına deyil, bütün bəşəriyyətə, insanlığa xidmət etdiyini göstərmişdi"[548].

Heydər Əliyev 24 may 2000-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət edib və nitq söyləyib.

9 iyun 2002-ci ildə Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılış mərasimi olub. Sankt-Peterburq qubernatoru Vladimir Yakovlev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti Heydər Əliyev çıxış edib[549].

Ümummilli lider *İmadəddin Nəsiminin* də ədəbi-fəlsəfi irsinə dövlət əhəmiyyətli ideolji məsələ kimi baxıb.

Heydər Əliyev 1970-ci ildə Suriyada olub, *İmadəddin Nəsiminin* məzarını ziyarət edib. İ.Nəsimi yubileyi YUNESKO-nun tədbirlər planına daxil edilib və keçirilib. Nəsiminin Bakının mərkəzi meydanlarından birində abidəsi qoyulub. Anadilli yaradıcılığını əhatə edən üççildlik əsərlərinin elmi-tənqidi mətni hazırlanıb, əsərləri Azərbaycan və rus dillərində çapdan çıxıb, akademik Həmid Araslının "İmadəddin Nəsimi" əsəri dünya dillərinə tərcü-

---

[547] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.108.

[548] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.113.

[549] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.

mə olunub. Qabil "Nəsimi" poemasını yazıb. Akademik B.Nəbiyevin rus dilində məqalələr toplusu çap edilib. Müəlliflər T.Kərimli və V.Quliyev İmadəddin Nəsiminin 600 illiyinin dünyada baş verən əks-sədasını, Azərbaycanı nə qədər tanıtdığını, hürufi şairin Hələb şəhərində məzarının tapıldığı və ziyarətgaha çevrildiyini xatırladıb. Xatırladıblar ki, 2008-ci ildə Azərbaycan Prezidenti, cənab İlham Əliyevin təşkilatçılığı ilə Hələb şəhərində beynəlxalq konfrans keçirilib, Nəsimini ərəb elmi dairələrində tanıdıb, onun yüksək humanist fikirləri ilə tanış olublar. 2004-cü ildə Nəsimi irsinin ikicildliyi latın qrafikası ilə 25 min tirajla çap edilib.

1972-ci ildə S.Mümtazın "Divan"ı dil baxımından təkmilləşdirilərək yenidən çap edilib. İ.Nəsimi türkmən ədəbiyyatının klassiki kimi təqdim olunurdu. Müəlliflər yazıb ki: "Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi, eləcə də yaxından qayğısı ilə Azərbaycanda keçirilən Nəsimi təntənələri böyük humanist olan filosof-şairin həm soy-kök, həm də yaradıcılıq baxımından daha qədim ədəbi-mədəni ənənələri ilə seçilən Azərbaycan xalqının yetirməsi olduğunu, bununla yanaşı, türkcə danışan bütün xalqların da ədəbiyyatının inkişafında mühüm rol oynadığını bir səslə təsdiq etdi"[550].

Müəlliflər Ulu öndər Heydər Əliyevin *Məhəmməd Füzuliyə* münasibətində də ədəbi-tarixi missiya görüblər. Bildiriblər ki, böyük rəhbər Məhəmməd Füzuliyə dünya miqyaslı filosof, böyük alim kimi dəyər verib. Heydər Əliyev Məhəmməd Füzuli yubileyini çətin şəraitdə həyata keçirib. Bu, respublikada 1990-cı illərdə mövcud xaosla bağlı olub. 1994-cü ildən geniş hazırlıq işləri başlanıb, ədəbiyyatçılar, dilçilər, mətnşünaslar, tarixçilər və kulturoloqlardan ibarət yubiley komissiyası yaradılıb.

Böyük öndər Füzulinin timsalında Azərbaycan xalqının tarixi köklərə malik olduğunu, Füzulinin isə görkəmli şair və mütəfəkkir, dünya mədəniyyətinə töhfə vermiş ədəbi şəxsiyyət kimi dünyaya bəyan etmək, Yaxın və Orta Şərqdə, nadir bəşəri sənətkar səviyyəsində göstərmək məqsədi izləyib. Hətta, rəssamlığa böyük marağı olmuş Heydər Əliyev Məhəmməd Füzulinin portretini də çəkib. Şairin əsərlərinin nəşri və təbliği sosial-siyasi və mədəni missiyaya xidmət edib.

1-2 noyabr 1994-cü ildə Füzulinin Türkiyədə, Ankarada, 1996-cı ilin payızında isə Azərbaycanda, Bakıda 500 illik yubileyi keçirilib. Müəlliflər yazıb: "YUNESKO-nun qərarı ilə 1996-cı il dünya miqyasında Füzuli ili elan olunmuşdu. Bu qərarın qəbul edilməsinin nə kimi texniki və yaradıcılıq çə-

---

[550] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.117

tinlikləri ilə bağlı olduğu məlumdur. Azərbaycanda isə tam əminliklə demək olar ki, 1994-cü ildən 1996-cı ilə qədər, tam üç il ərzində Füzuli illəri yaşandı. Bu müddətdə şairin əsərlərinin yeni altıcildliyi və ikicildliyi çap olundu, altı dildə Füzuli irsindən seçmələr işıq üzü gördü, şair haqqında yeni tədqiqat əsərləri ədəbi ictimaiyyətə təqdim edildi"[551].

Böyük rəhbər dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinin keçirilməsinə də tarixi-siyasi və ədəbi hadisə kimi dəyər verib. Bu barədə akademik B.Nəbiyev yazıb: "Füzuli H.Əliyevin sənətinə pərəstiş etdiyi nadir Azərbaycan dahilərindən biri idi. Ulu Öndər Füzuli haqqında ən müxtəlif münasibətlərlə çox maraqlı fikirlər söyləmiş, şairin Azərbaycan ədəbiyyatında, Şərq poeziyası və dünya ədəbi-ictimai fikri tarixində mövqeyini dönə-dönə yüksək qiymətləndirmişdir"[552].

Heydər Əliyevin uzaqgörənliyi sayəsində Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsinin mənəvi coğrafiyası çox geniş olub. Bu tədbir Türkiyənin Ankara və İstanbul, Rusiyanın Moskva və Sankt-Peterburq, İranın Tehran və Təbriz, İraqın Bağdad, Kərbəla və Kərkük ərazilərini, habelə, Tiflis, Daşkənd, Dərbənd, Mahaçqala və başqa şəhərləri əhatə edib. Bu münasibətlə Parisdə YUNESKO-nun baş qərargahında bir sıra yığıncaq, beynəlxalq forum, Türk dünyası yazıçılarının üçüncü qurultayı, türksoy təşkilatının 8-ci toplantısı, Bakıda beynəlxalq simpozium keçirilib.

Heydər Əliyev 1996-cı il noyabrın 8-də Bakıda keçirilmiş zirvə toplantısında Füzuli sənətinin fəlsəfi mahiyyətini, onun özünəqədərki dövrün Şərq və Qərb fəlsəfəsini, zəmanəsinin fəlsəfi fikrini dərindən öyrəndiyini, bir sıra əsərlərini fars, ərəb və türk dillərində yazmış şairin poetik irsinin əhəmiyyətini xüsusi qeyd etmişdir"[553].

Akademik B.Nəbiyev Füzuli yubileyindən danışanda onun tarixi-siyasi əhəmiyyəti haqqında bəlgələyib ki, "Füzuli–500" tədbiri xalqımızın mənəvi həyatını zənginləşdirmək, adamlarımızı ruhlandırmaq, Vətənə, torpağa sədaqət ruhunda tərbiyələndirməklə bərabər, "Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək üçün hamımızı səfərbər edir"[554]. Akademik qeyd edib ki, Heydər Əliyev müdrik

---

[551] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.142-143

[552] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.58

[553] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.60

[554] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.60

siyasətçi və dövlət xadimi kimi qiymətləndirirdi ki, "yubileylərin keçirilməsi bir tərəfdən yubilyarların xalq, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir"[555]. "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın" – belə öyüd-nəsihət edirdi Ulu öndər. "Beləliklə də, H.Əliyev dövlət yubiley komissiyasının üzvləri, elmi müəssisələr, yaradıcılıq təşkilatları, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, yerli icra orqanları qarşısında vəzifə kimi qoyur və tələb edirdi ki, bu tədbir vasitəsilə Azərbaycan xalqı dünyaya daha yaxından tanıdılsın". "Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin tarixi mədəniyyəti var"[556]. Akademik B.Nəbiyev fikirlərini dinamik inkişaf etdirərək ümumiləşdirib: "H.Əliyev iftixar duyğusu ilə deyirdi ki, bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə, Bağdadda, həm də Ankarada Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər türk cümhuriyyətləri də vüqarla dayanmışdır. Ay, ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin bayraqları dalğalanır. Bunlardan biri də Azərbaycanın bayrağıdır"[557].

Heydər Əliyev 1 noyabr 1994-cü ildə Ankara yaxınlığındakı Bilkənd Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxış edib[558]. 2 noyabr 1994-cü ildə Türkiyə parlamentində mütəfəkkir sənətkarın anma mərasimində nitq söyləyib.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Məhəmməd Füzulinin *türkdilli, türksoylu xalqlara, türk-islam dünyasına mənsubluğu* haqqında deyib: "Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, islam dünyasına mənsubdur"[559].

---

[555] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.61

[556] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.61

[557] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.62

[558] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 233

[559] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

Ulu öndər 17 noyabr 1994-cü ildə Moskvanın Sütunlu salonunda Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqda nitq söyləyib. 15 iyul 1996-cı ildə Məhəmməd Füzulinin 500 illiyi münasibətilə Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfransın iştirakçılarına təbrik məktubu göndərib. 23 iyul 1996-cı ildə Respublika sarayında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxışı və yekun sözü olub. 6 noyabr 1996-cı ildə Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş Beynəlxalq Simpoziuma təbrik məktubu göndərib. 8 noyabr 1996-cı ildə Respublika sarayında Məhəmməd Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli gecədə nitq söyləyib. 8 noyabr 1996-cı ildə Gülüstan sarayında Məhəmməd Füzulinin 500 illik yubileyi şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitq söyləyib.

Füzuli tədbirinin ədəbi-ictimai əhəmiyyəti bir sıra nailiyyətlərlə yanaşı, bundan ibarət olub ki, Bakı, Tehran, Təbriz, Ankara, İstanbul, Bağdad, Kərkük, Paris, Moskva və Pekində yığıncaqlar, elmi sessiyalar, beynəlxalq simpoziumlar keçirilib. "1996-cı ildəki beynəlxalq simpoziumda dünya füzulişünaslığının 32 ölkəsindən 70 nümayəndə məruzə etmişdir", "dahi sənətkarın parlaq irsinin XXI əsrdə tədqiqinə dair konkret istiqamətlər müəyyən edilmişdir"[560].

Ulu ondər *Şah İsmayıl Xətaiyə* dövlətçilik tariximizin bir hissəsi kimi baxıb. Müdrik şəxsiyyət deyib: "Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır"[561].

1967-ci ildə *Molla Pənah Vaqifin 250 illiyi* keçirilib, 1976-cı ildə Şuşada *məqbərəsi* ucaldılıb, məqalə müəlliflərinin qeyd etdiyi kimi "bu məqbərəsinin simvolunda klassik Azərbaycan poeziyasının daha bir təbliğ və tədqiq auditoriyası yaradılmışdı"[562]. Görkəmli şairin 300 illik yubileyi isə 2017-ci ildə YUNESKO səviyyəsində Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin böyük təşkilatçılığı ilə təntənəli surətdə qeyd edilib. Müəlliflər məqalədə Heydər Əliyevin M.Ş.Vazeh, M.F.Axundzadə, N.Nəri-

---

[560] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.64

[561] Heydər Əliyev. Müdrik fikirlər. I kitab. İyun 1993–1998 oktyabr. Bakı, Heydər Əliyev Fondu, 2008,399 s.; s.257-289

[562] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.148

manov, H.Cavid, S.Vurğun, C.Məmmədquluzadə, C.Cabbarlı ilə bağlı qərarları üzərində də təfərrüatlı dayanıblar.

Akademik B.Nəbiyevin məlumatına görə Molla Pənah Vaqifin Şuşadakı heykəlinin açılışında vilayətin o zamankı bütün erməni rəhbərliyi, ziyalıları iştirak edib. H.Əliyev "Böyük Azərbaycan şairi Vaqifin timsalında Qarabağda XVIII əsrin ortalarında məskunlaşan ermənilərə başa salırdı ki, torpağın əsl sahibləri, onun təəssübünü çəkənlər, onun şöhərtini dünyaya yayanlar kimlərdir"[563]."H.Əliyevin iradəsilə Şuşada ucaldılan Vaqif məqbərəsi yalnız konkret bir şairin abidəsi deyildi, bu məqbərə daha çox, türk-azərbaycanlı ruhunun əsrlər boyu Qarabağda hakimiyyətinin simvolu idi, bu torpaqda yaranmış təkrarsız sənətin simvolu idi"[564].

Şuşada Vaqifin məqbərəsinin açılışı dövlət siyasətinə xidmət edib, ermənilərin və onların havadarlarının Azərbaycana olan torpaq iddialarına qarşı Ulu öndər H. Əliyev həm də mədəniyyət, ideologiya tədbirlərini həyata keçirib, onu əleyhdarlarına qarşı sipər bilib. 14 yanvar 1982-ci ildə Şuşada *Vaqifin məqbərəsinin* açılışı olub. *Poeziya evinin* açılışında dövlət başçısı çıxış edib. Heydər Əliyev, Süleyman Rüstəm və Mirzə İbrahimov lenti kəsiblər.

Heydər Əliyev Poeziya evinə toplaşanlara müraciətlə bildirib: "Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya evi də açılmışdır. Gərək çalışasınız ki, bu ev şəhərdə əsl poeziya mərkəzinə çevrilsin, ədəbiyyatı təbliğ etsin, şuşalıları, ilk növbədə də gəncləri, böyüməkdə olan nəsli vətənpərvərlik ruhunda tərbiyə etsin, onlara gözəllik hissi aşılasın.

Şuşanın zəngin tarixi vardır... Şuşanın tarix muzeyi bunu əks etdirir. Muzeydə toplanmış çoxlu eksponat keçmişin maddi mədəniyyətini təmsil edir. Onun bölmələrindən biri Şuşada yetişmiş, öz yaradıcılığı ilə Azərbaycan mədəniyyət salnaməsində çoxlu şanlı səhifə yazmış, ölkənin mənəvi həyatının xəzinəsinə töhfələr bəxş etmiş ədəbiyyat və incəsənət ustalarından bəhs edir.

...Rəsm qalereyasının açılması, şübhəsiz, yaxşı təşəbbüsdür, şəhər sakinlərinin estetik tərbiyəsinə kömək edəcəkdir..."[565]

---

[563] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.64

[564] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.65

[565] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.131

Heydər Əliyev deyib ki, "yeni binalar tikməklə yanaşı, qədim şəhərin qorunub saxlanmasına, tarixi keçmişin abidələrinə də xüsusi fikir vermək lazımdır. Şuşa qədirbilən şairlər, musiqiçilər, rəssamlar məskəni kimi məşhur olmuşdur. Buranın havasında poeziya və musiqi duyulur, təbiət özü yaradıcılığa ruhlandırır, ilham gətirir. Zənnimcə, burada mədəniyyət ustaları üçün yaradıcılıq evi tikmək məqsədəuyğun olardı"[566].

1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə böyük mütəfəkkir *Mirzə Fətəli Axundzadənin* büstü bərpa edilib.

Heydər Əliyev M.F.Axundzadənin ikimərtəbəli mülkünü erməni, erməniqarışıq gürcü ailələrindən geri aldırıb, adına layiq *ev-muzeyi* yaradılıb. "Sonralar bu ünvan gürcüstanlı azərbaycanlıların *Mədəniyyət Mərkəzinə* çevrilibdir"[567].

Ümummilli lider Heydər Əliyev Azərbaycan dramaturqu haqqında deyib: "M.F.Axundovun yaradıcılıq yolunu səciyyələndirən tarix səhifələrini vərəqləyərkən biz böyük iftixar hissi keçiririk ki, xalqımız ağır zamanlarda, gerilik, dini fanatizm şəraitində belə görkəmli şəxsiyyət, öz dövrünü qabaqlayaraq gözəl əsərlər yaradan bir insan yetişdirmişdir"[568].

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə deyib: "Mirzə Fətəli Axundzadə bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açmışdır"[569].

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev irsinə sadiq olaraq Mirzə Fətəli Axundzadənin qəbirüstü abidəsinin yenidən qurulması və orada xiyabanın yaradılması barədə irəli sürdüyü təşəbbüs qiymətlidir[570].

Şərhçilərin *Hüseyn Cavid* haqqında fikirləri də əhatəlidir. Müəlliflər Heydər Əliyevin obrazını Hüseyn Cavidə münasibətdə türkçü və ümmətçi kimi təqdim ediblər: "Heydər Əliyevin fikrincə, milli özünüdərkin yeni intibah dövrü yaşadığı 1990-cı illərdə Cavidin ideyaları, bütünlükdə Cavid yaradıcılığı daha böyük əhəmiyyət və aktuallıq kəsb edibdir"[571]. Müəlliflərin

---

[566] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.132

[567] Yenə orada, s.274

[568] Milli Kitabxananın elektron ünvanı

[569] Milli Kitabxananın elektron ünvanı

[570] Yenə orada. s.278-279

[571] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat.

şərhindən aydın olur ki, Heydər Əliyev Hüseyn Cavidə əsərlərinin vüsətinə, fəlsəfi, elmi səviyyəsinə görə dəyər verib, onu Şekspir və Höte ilə, "İblis"i "Faust"la müqayisə edibdir.

23 oktyabr 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi təntənəli qeyd edilib, ev-muzeyi yenidən qurulub, məzarı üzərində məqbərəsi tikilib və 1996-cı ilin oktyabrında açılışı olubdur. Cənab İlham Əliyevin rəhbərliyi ilə dramaturqun "Külliyyatı"nın beş cildliyi Turan Cavid tərəfindən nəşr edilib, 2005-ci il sərəncamı ilə əsərləri latın qrafikasında buraxılıb.

Heydər Əliyev Hüseyn Cavid irsinə də yüksək qiymət verib. Akademik B.Nəbiyev yazıb ki, "H.Əliyevin nəzərində H.Cavid Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmiş dahi sima idi. Onun yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Ulu öndər əsaslandırırdı ki, bu hörmətli sənətkarın bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırır. Ədib həmişə öz iradəsiylə yaşamış, öz xalqına sadiq olmuşdur, xalqını həddən artıq sevmiş və ona yetərincə xidmət etmişdir." Buna görə də Heydər Əliyev onun qəbrini 1982-ci ildə Naxçıvanda ata-baba torpağına tapşırıb. 1997-ci ildə *böyük ədəbiyyat hamisi* Hüseyn Cavid məqbərəsinin açılışı zamanı deyib: "Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim..."[572]

Heydər Əliyev deyib: "Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır... Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəşrlər üçün dərslik kitabıdır"[573].

Ulu öndər 10 iyun 1995-ci ildə görkəmli Azərbaycan dramaturqu Hüseyn Cavidin məqbərəsi və ev-muzeyinin yaradılması ilə bağlı keçirilmiş müşavirədə çıxış edib. 29 oktyabr 1996-cı ildə Naxçıvan şəhərində Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsi ucaldılıb.

---

*Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.177

[572] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.68

[573] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

Dövlət xadimi Hüseyn Cavidin 115 illiyi münasibətilə məqbərəsinin təntənəli açılış mərasimində geniş nitq söyləyib. Ölkə rəhbəri ölməz Cavid irsi haqqında deyib: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstəribdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır"[574].

Respublika prezidenti *Azərbaycanın milli azadlıq ruhuna* istinad edərək söyləyib: "Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çatdırıbdır. O, həmişə iradəsi ilə yazmış, öz iradəsinə, millətinə sadiq olubdur, millətin xalqını həddən artıq sevib və millətinə həddindən artıq xidmət edən bir insan olubdur"[575].

Heydər Əliyev Cavid məqbərəsinə *tarixi memarlıq abidəsi* kimi yüksək dəyər verib: "Hüseyn Cavidin məqbərəsi Naxçıvanın memarlıq tarixində yeni bir səhifədir. Naxçıvanda böyük memarlıq, milli, mədəni abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır. Ümidvaram ki, "Möminə xatun" abidəsi kimi, bu abidə də əsrlər boyu yaşayacaqdır. Güman edirəm ki, gələcək nəsillər bu günü xatırlayacaq və bu abidəni yaradanları unutmayacaqlar"[576]. Məqbərəni yaradanlar memar Rasim Əliyev, heykəltaraş Ömər Eldarov və "Star" şirkəti olub.

*Haşiyə:* 24 sentyabr 2022-ci ildə Hüseyn Cavidin 140 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Azərbaycanın İstanbuldakı Konsulluğunun təşkilatçılığı ilə 25 noyabr 2022-ci ildə Hüseyn Cavidin 140 illiyi münasibətilə İstanbulda simpozium keçirilib.

24 oktyabr 2022-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Hüseyn Cavid sənəti: ideallar və müasir dövr" adlı beynəlxalq elmi konfrans keçirib[577] *(24 oktyabr 2022).*

---

[574] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.463

[575] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.463

[576] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.466

[577] "Hüseyn Cavid sənəti: ideallar və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans. Bakı, 24 oktyabr 2022

Müəlliflər Heydər Əliyevin *Cəlil Məmmədquluzadə* irsinin mahiyyəti üzərində geniş dayanıb, görkəmli yazıçını Azərbaycan xalqının azadlığı, müstəqilliyi, dövlət suverenliyi, milli şüur və müstəqillik ideyaları, azərbaycançılıq ideologiyası, "Molla Nəsrəddin" jurnalı baxımından şərh ediblər. C.Məmmədquluzadənin 125 illiyi ilə bağlı Heydər Əliyevin çıxışından sitatda deyilir: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər, Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər, Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bu günkü vəziyyətdən çıxarmaqda bizə kömək edir"[578].

17 yanvar 2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam verib.

Azərbaycan Mədəniyyət Nazirliyi, TÜRKSOY, AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, M.F.Axundzadə adına Milli Kitabxana beynəlxalq elmi konfrans keçirib *(18 yanvar 2019).*

Cəlil Məmmədquluzadə Heydər Əliyevin "ən çox sevdiyi, yaradıcılığına pərəstiş etdiyi icitmai fikir bahadırı idi." Ulu öndər 1998-ci il dekabrın 28-də Respublika Sarayında müdrik yazıçının 125 illik yubileyindəki nitqində "C.Məmmədquluzadənin öz yaradıcılığı ilə Azərbaycan xalqının milli oyanışında misilsiz rol oynadığını əsaslandırırdı." Əsaslandırırdı ki, yeni milli ideologiyanın yaradıcıları ilk növbədə bu dahi sənətkarın ədəbi-ictimai irsinə müraciət etməlidir: "C.Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır. Və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də C.Məmmədquluzadənin

[578] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.165

yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın yaranmasına, formalaşmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir"[579].

Heydər Əliyev deyib: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir"[580].

Ölkə başçısı 28 dekabr 1994-cü ildə Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılış mərasimində, 125 illik yubiley gecəsində geniş nitq söyləyib (28 dekabr 1994).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qürurla bildirib ki: "Bizim XX əsr ədəbiyyatşünaslığında ən fəxr etdiyimiz şəxsiyyətlər Sabirdir, C.Məmmədquluzadədir"[581].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bildirib: "Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır"[582].

Görkəmli dövlət xadimi, yazıçı və dramaturq *Nəriman Nərimanovun* şəxsiyyəti üzərində geniş dayanan müəlliflər bildiriblər ki, "Heydər Əliyevin fikrincə, Nəriman Nərimanovun faciəsi bunda idi ki, o özü də istəmədən sistemin əsirinə çevrilmişdi, lakin namuslu bir şəxsiyyət və vətənpərvər kimi hər vasitə ilə bu sistemin doğma xalqına göstərəcəyi iztirabları yüngülləşdirməyə çalışırdı. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi Heydər Əliyev Nəriman Nərimanovun günahlarından deyil, bir yaradıcı ziyalı və rəhbər xadim kimi faciəsindən danışmağı daha məqbul hesab edirdi"[583].

Heydər Əliyev millətin genefondunun qorunmasında Nəriman Nərimanovun roluna və xidmətlərinə dəyər verərək deyib ki, "amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məhəmməd Əmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarov və Şıxlinskini

---

[579] Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 2000, s.265

[580] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[581] Mirzə Ələkbər Sabir – 150. Biblioqrafik göstərici. Sumqayıt –2013 Sumqayıt Şəhər Səməd Vurğun adına Mərkəzi Kitabxana.

[582] Mirzə Ələkbər Sabir – 150. Biblioqrafik göstərici. Sumqayıt 2013 Sumqayıt Şəhər Səməd Vurğun adına Mərkəzi Kitabxana.

[583] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:*Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı,"Şərq-Qərb", 2009, s.160

həbs etmək istəyirdilər...”[584]HeydərƏliyev N.Nərimanovun 125 illiyinin (1995-ci il) keçirilməsi haqqında sərəncam[585] verib və yüksək səviyyədə yubileyi keçirilib. Heydər Əliyev *Nəriman Nərimanovu* öz dövrünün, yaşadığı mühitin içərisində yetişmiş görkəmli sima kimi, böyük siyasi xadim kimi dəyərləndirib.

*Yeri gəlmişkən:* Heydər Əliyev görkəmli ziyalılar, tarixi şəxsiyyətlər, partiya və dövlət xadimləri haqqında tarixi fikirlər söyləyib. Qiymətləndirib ki: “Bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin *arxivləri* dövlət əhəmiyyəti kəsb edən sərvətdir”. O, daim çalışıb ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıtsın. Bilsinlər ki, xalqımızın çoxəsrlik zəngin tarixi və mədəniyyəti vardır. H.Əliyevin tarixi dəyər verdiyi milli örnəklərdən bəzi seçmələri verməklə kifayətlənirik.

O, bir vəzifə bilib ki, *Nizamini, Füzulini* dünyaya təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtsın. Hesab edib ki, Nizami, Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, həm də bütün bəşəriyyətin dahi mütəfəkkiridir. Müdrik şəxsiyyət *Şah İsmayıl Xətaiyə* qədim dövlətçilik tariximizin üzvi hissəsi kimi baxıb. *Hüseyn Cavidi* Azərbaycan xalqını milli-fəlsəfi dəyərləri ilə yüksəklərə qaldıran böyük ədəbi sima kimi qiymətləndirib.
Dəyərləndirib ki, xalqımızın milli şüurunun formalaşmasında *“Molla Nəsrəddin”* jurnalı və *Mirzə Cəlilin* ədəbi-ictimai, hətta siyasi rolu əvəzsizdir. “Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynayıb”[586]. Dövlət xadimi, xüsusilə, *Üzeyir Hacıbəyovun* əzəmətli Dövlət Himninə heyranlıq duyğusunu ifadə edib. Çıxışı zamanı deyib: “Mən hər dəfə ayrı-ayrı ölkələrdə Üzeyir Hacıbəyov musiqisi ilə yaradılmış Himnin səsləndiyini duyarkən qürur hissi keçirirəm. Təkcə ona görə yox ki, müstəqil Azərbaycanın Dövlət Himni dünyanın bir çox ölkələrində səslənir və Azərbaycanın Dövlət Bayrağı qalxır. Bir də ona görə ki, həqiqətən Himnin musiqisi çox cazibədardır, gözəldir”[587].

*Səməd Vurğun* Ulu öndərin çox sevdiyi sənətkarlardandır. Çünki Səməd Vurğun poeziyası Azərbaycan dilini zənginləşdirib, onu inkişaf etdirib. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edib. Səməd Vurğun Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərib. Hey-

---

[584] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.161

[585] Yenə orada

[586] Yenə orada

[587] Yenə orada

dər Əliyevin özü də yeri olub ki, şairin *"Azərbaycan"* şeirindən əzbər deyib. Əliağa Vahidi böyük bir bədii xəzənənin sahibi hesab edib.

Heydər Əliyev poeziyasına çox yüksək dəyər verdiyi *Bəxtiyar Vahabzadəni* dissident kimi qiymətləndirib, onun müdrik-fəlsəfi şeirinin Azərbaycan xalqı, onun gənclərinin şüuruna təsir gücündən danışıb. Böyük vətənpərvər şair-filosof *Məhəmmədhüseyn Şəhriyara* klassik irslə müasir ədəbi həyatı bir-birinə bağlayan nadir sənətkar kimi baxıb.

Ümummilli lider *Mustafa bəy Topçubaşova* elm, təhsil, səhiyyə və ictimai sahənin böyük şəxsiyyəti kimi dəyər verib.

*Yusif Məmmədəliyevə* Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirən zəka sahibi kimi baxıb.

*Ziya Bünyadov* onun nəzərində milli oyanış, milli dirçəliş adamı olub, məhz onun ictimai-siyasi fəaliyyyətini xalqa xidmət nümunəsi hesab edib.

Heydər Əliyev tarixən Qafqaz xalqlarını birləşdirən, həmrəy edən *Şeyx Şamili* Qafqaz xalqlarının qəlbində əbədi yaşayan qəhrəmanlıq, milli azadlıq simvolu kimi dəyərləndirib.

Ulu öndər *İhsan Doğramacı* ilə dost olub, onu dünya miqyaslı şəxsiyyət, türkün, türk xalqının böyük zəkalı mütəfəkkiri adlandırıb.

*Mustafa Kamal Atatürkü* müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyekti kimi qiymətləndirib.

*Süleyman Dəmirəli* türk dünyasının böyük şəxsiyyəti, bütün dünya siyasətçiləri içərisində tanınmış, çox hörmət qazanmış siyasi lideri kimi dəyərləndirib. *Və s.*

XX əsrin böyük tarixi şəxsiyyəti *Nəriman Nərimanovu* doğma xalqına Ümummilli lider Heydər Əliyev qaytarıb, onun Bakı şəhərində əzəmətli heykəlini ucaltdırıb. Böyük siyasi xadimin ölkəmizdə müxtəlif illərdə yubileyləri qeyd edilib. Cənab İlham Əliyevin 14 fevral 2020-ci il tarixli sərəncamı ilə tarixi şəxsiyyətin 150 illik yubileyi keçirilib. Sərəncam əsasında iki cilddə "Seçilmiş əsərləri"[588] (2020), professor T. Əhmədovun "Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)" monoqrafiyası[589] nəşr edilib...

Azərbaycan xalqının görkəmli dövlət və elm xadimlərindən biri də *Əziz Əliyevdir.* Tarixi simasına yüksək qiymət verdiyi Heydər Əliyev ictimai-si-

[588] N. Nərimanov. Seçilmiş əsərləri (tərtibçi, ön söz müəllifi Teymur Əhmədov). Bakı,"Nurlar", 2020

[589] T. Əhmədov Nəriman Nərimanov *(həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı).* Bakı, "Nurlar", 2020, 338 s.

yasi şəxsiyyətin anadan olmasının 100 illiyinə həsr edilmiş 14 may 1998-ci il tarixli təntənəli yubiley gecəsində Respublika sarayında parlaq nitq söyləyib. Həmin nitqi zamanı görkəmli şəxsiyyəti *Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvolu* kimi xarakterizə edib. Dövlət rəhbəri bildirib: "Bu günki təntənə, Əziz Əliyevin 100 illiyinə həsr olunmuş, Dağıstanda və Azərbaycanda keçirilmiş yubiley tədbirləri xalqlarımız, ölkələrimiz, dövlətlərimiz arasında, insanlar arasında olan səmimi dostluq münasibətlərini bir daha nümayiş etdirir. Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir"[590].

Milli mədəniyyətimizin nümunəvi təşkilatçısı və mübəlliği Heydər Əliyev "*Cəfər Cabbarlını* zəmanəsinin fəlsəfəsi, psixologiyası baxımından qiymətləndirib. Göstərib ki, o, dövlətlər arasında qırılmaz əlaqəni, xalqın tarixi müqəddəratının rəşadətli səhifələrini açıq təcəssüm etdirib. Onun gördüyü işlər – sözün əsl mənasında yorulmaz əmək fədaisinin hünəri olub...

Dahi Azərbaycan bəstəkarı *Üzeyir Hacıbəyli* Şərqdə opera sənətinin banisi, yazıçı, publisist və ictimai xadim kimi fəaliyyət göstərib. 1995-ci ildə Heydər Əliyev dahi bəstəkarın 110 illiyini təntənəli keçirib, onu həm də AXC məsələləri ilə bağlı səciyyələndirib, qiymətləndirib.

Ulu öndər Üzeyir Hacıbəyov haqqında ruh yüksəkliyi ilə bildirib: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur"[591].

Akademik Bəkir Nəbiyev "Heydər Əliyev haqqında etüdlər"[592] əsərində həyəcanlı, nikbin salnaməçi kimi görünür. O, bütün böyük sənətkarların yubileylərinin məna və mahiyyətindəki alt qatları: tarix və siyasəti də bəlgələmiş, onların sənət missiyasının cövhərini, fitrətini üzə çıxarıb oxucuya təqdim edib. Baxın, Xalq şairi *Səməd Vurğun* haqqında danışanda da Ulu öndərin siyasi xadim fitrətinin gizli mənalarını belə vurğulayırdı: "Azərbaycan ədəbiyyatının keçən əsrdəki inkişafının mühüm mərhələsi onun *(S.Vurğunun – Ə.Ə.)* şərəfli adı, böyük istedadı və çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə üzvü surətdə bağlıdır". "Yüksək humanist dəyərləri, həyati və tarixi ha-

---

590 Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.348

591 Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

592 Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009; Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı, "Elm", 2007

disələri fəlsəfi dərinliyi ilə qavrayıb mənalandırmaq, xəlqilik bədii sözün, çoxəsrlik ənənələri, qırılmaz varislik əlaqələri, romantik vüsət S.Vurğun poeziyasının əsas xüsusiyyətlərindəndir. O, milli şeirimizi novator keyfiyyətlərlə zənginləşdirmiş, yüksək sənət məktəbi yaratmışdır"[593]. Ədəbiyyat bilicisi Heydər Əliyev xüsusi vurğulayırdı ki, "XX əsr, xüsusilə də həmin yüzillikdə S.Vurğunun yazıb-yaratdığı 1920-50-ci illər bəşər tarixinin çox mürəkkəb, ziddiyyətli proseslərlə əlamətdar olan bir dövrüdür. Birinci Dünya müharibəsi, milyonlarla günahsız insanın qanı bahasına Rusiya imperiyasında sosializmin bərqərar olması, faşizmin Avropaya meydan oxuması, İkinci Dünya müharibəsi, "soyuq müharibə"nin təzadları, Böyük Vətən müharibəsi ərəfəsində və faşizm üzərində qələbədən sonra sovetlərin möhkəmlənməsi, ölkədə 1930-1950-ci illərdə şəxsiyyətə pərəstişin tüğyan etməsi... "belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi"[594].

Akademik Bəkir Nəbiyev qeyd edib ki, Heydər Əliyev Səməd Vurğunun poeziya dilini çox yüksək qiymətləndirib. O deyirdi: "M.P.Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırmışdır... Vaqif Azərbaycan şeirində yeni bir yol açmışdır. S.Vurğun isə Azərbaycan şeir dilini tarixin yeni mərhələsinin tələblərinə əsasən daha da zənginləşdirib, inkişaf etdirib, ana dilimizi hər bir azərbaycanlı üçün daha da doğma, "sevimli və şirin edibdir"[595].

Müdrik şəxsiyyət Heydər Əliyev 1930-1950-ci illərin mürəkkəb tarixi şəraitini, ədəbi prosesin çətinliklərini Xalq şairi *Süleyman Rüstəmə* münasibətində belə səciyyələndirib.

11 aprel 1998-ci il tarixli təbrikində Heydər Əliyev *Məhəmmədhüseyn Şəhriyarı* böyük vətənpərvərlik duyğularının tərənnümçüsü kimi təqdim edib. Bildirirdi ki, "Şəhriyarın irsi onun yaşayıb-yaratdığı zamanın, ictimai-siyasi, fəlsəfi və ədəbi görüşlərinin parlaq inikasıdır"[596].

Respublika Prezidenti dahi şair Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubiley mərasimini keçirib *(11 aprel 1998).*

---

[593] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.69

[594] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.69

[595] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.70

[596] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.73

Heydər Əliyev ədəbiyyata siyasət, diplomatiya və mədəniyyət faktoru kimi yanaşıb. Ədəbiyyatı milli şüur və milli özünüdərkin mühüm amili kimi dəyərləndirib. Ədəbiyyata ümumAzərbaycan, milli dövlətçilik və ideologiya, türkçülük və turançılıq vasitəsi kimi baxıb. Ədəbiyyat və sənət xadimlərinə yaxından qayğı göstərib, onlari şərəfləndirib.

Heydər Əliyev *millətlər arasında dostluq və əlaqələri təmin etmək* məqsədilə ədəbiyyat və sənət dekadalarının keçirilməsinə də lazımi diqqət yetirib. Məsələn, 20 oktyabr 1975-ci ildə *Azərbaycanda sovet ədəbiyyatı günlərinin* təntənəli açılışı olub. Heydər Əliyev nitq söyləyib. Ədəbiyyat günlərində Fransa, Portuqaliya, Yaponiya, Bolqarıstan, Macarıstan, Almaniya Demokratik Respublikası, Monqolustan, Polşa, Rumuniya və Çexiyadan qonaqlar iştirak edib.*Və s.*

***

Ümummilli lider Heydər Əliyev ***Novruz bayramını*** bahar bayramı olmaqla yanaşı, *Azərbaycanın müstəqillik və dövlətçilik rəmzi* kimi dəyərləndirib. Hesab edib ki, bu bayram hər bir azərbaycanlı üçün əziz bir bayramdır. Bu, hər bir insanın, hər bir vətəndaşın bayramıdır, ulu babalarımızdan əsrlərdən-əsrlərə keçib gəlmiş əziz bayramdır. Bu bayram həm *adi insan* bayramıdır, həm *millət,* həm *xalq,* həm də *dövlət* bayramıdır[597].

Dövlət rəhbəri 19 mart 1996-cı ildə Novruz bayramı münasibətində xalqını təbrik edib. 21 mart 1996-cıildə Bakının Gənclər meydanında – Qoşa qala qapısı önündə Novruz şənliyində çıxış eləyib. Qədim milli bayramımız olan Novruz onun hakimiyyəti illərində ölkə miqyasında təntənəli keçirilib, televiyiza kanalı ilə yayınlanıb[598].

20 mart 1996-cı ildə *Şəhid uşaqları və kimsəsiz uşaqlar* üçün təşkil olunmuş Novruz şənliyində çıxış edib.

Prezident Novruz bayramı münasibətilə Azərbaycan xalqına 19 mart 1997-ci il tarixli təbrik məktubu göndərib. 20 mart 1997-ci il tarixdə Şəhid övladları və kimsəsiz uşaqlar üçün təşkil edilmiş Novruz şənliyində, 21 mart 1997-ci ildə Gənclər meydanı, Qoşaqapı önündə Novruz şənliyində çıxış edib.

Heydər Əliyev hər il Novruz bayramında xalqa təbrik *(19 mart 1998)* ünvanlayıb, Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə *Qaçqınlar və məcburi köçkünlər* üçün keçirilən bayram şənliyində

---

[597] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.153-174

[598] Musa Qasımlı. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşr.-tı, 2006, s.178

*(20 mart 1998)*, "Gənclər" meydanındakı Qoşaqala qapısı önündə keçirilən Novruz bayramı şənliyində nitq *(21 mart 1998)* söyləyib.

Heydər Əliyev ədəbiyyat və dövlət xadimi Şıxəli Qurbanovdan sonra Novruz bayramını xalqın və tarixin yaddaşına qaytarıb. Novruz bayramını ümummxalq səviyyəsində hər il təntənəli surətdə həyata keçirib...

***

Ölkə başçısı Heydər Əliyev 16 aprel 1997-ci ildə ***Qurban bayramı*** münasibətilə Azərbaycan xalqını təbrik edib.

Qurban bayramı münasibətilə Mirmövsüm ağanın ziyarətgahında keçirilən görüşdəki nitqi zamanı *(8 aprel 1998)* deyib: "Mən 1994-cü ildə buraya gəlmişdim. 1994-cü ildə bütün bunlar yox idi. Mirmövsüm ağanın xatirəsinə layiq olan həmin o gözəl məqbərə də yox idi, o şəkildə deyildi. Amma bu müddətdə bunlar hamısı yaranıbdır. Bunu yaradanlar sizlərsiniz və Mirmövsüm ağanın xatirəsinə sadiq qalıb, onun ruhunu daha da şad etmək istəyən insanlardır. Bununla siz öz xalqınıza, dininizə, millətinizə xidmət edirsiniz. Amma eyni zamanda biz fəxr də edə bilərik ki, belə bir ziyarətgahımız var. İnsanlar buna inanır, bu inamla da yaşayır və buraya ziyarətə gəlirlər".

Ulu öndər dəyərləndirib ki, mübarək Qurban bayramı adətən, insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribançılıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olubdur[599].

Prezident 19 aprel 1996-cı ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrikini çatdırıb. Dövlət başçısı deyib: "Böyük xalqın bəxş etdiyi nemətlərə görə bu minnətdarlıq günündə etdiyimiz dua və niyyətlərin çoxu doğma Azərbaycanımızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, xalqımızın əmin-amanlıq içində, xoşbəxt və firavan həyata qovuşmasına yönəlmişdir. Əminəm ki, sizin bütün arzu və diləkləriniz Allahın köməyi və xalqımızın iradəsi ilə həyata keçəcəkdir"[600].

***

Dövlət başçısı Heydər Əliyev ***Ramazan bayramını*** hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir şəxsin qəlbində olan bayram hesab edirdi[601].

---

[599] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.153-174

[600] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.409

[601] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.153-174

Heydər Əliyev 2 mart 1995-ci ildə Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. 3 mart 1995-ci ildə Ramazan bayramı münasibətilə keçirilən mərasimdə nitq söyləyib.

***

*Xatirə Quluzadə "Heydər Əliyev və mənavi-estetik dəyərlər"*[602] kitabında mənəvi-estetik dəyərlərdən, *Almaz Ülvi* isə*"Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı"* adlı kitabında[603] (redaktoru Nazim Süleymanov) Ulu rəhbərin Azərbaycan ədəbiyyatına böyük qayğısından bəhs ediblər.

*Nizami Cəfərov, Osman Musayev, Dəyanət Osmanlının "Türk dünyasının yeni lideri"* adlı kitabı[604] muntəxabat toplusudur. Əsərdə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Türk dünyasının birliyi istiqamətində böyük fəaliyyətinə həsr olunmuşdur. Burada xalqımızın Ümummilli lideri, dünya türklərinin fəxri Heydər Əliyevin banisi olduğu türk dünyasının birliyi strategiyasını Prezident İlham Əliyevin yeni dinamika ilə davam etdirməsi və bununla da türk dünyasının yeni lideri imicini qazanmasının əsas məqamları əksini tapmışdır" *(annotasiyasından).*

Kitabda 3-42 səhifəlik "Türk dünyasının birliyi: Heydər Əliyevdən İlham Əliyevə" adlı ön söz, Səfərlər, Mərasimlər (İlham Əliyevin Qazaxıstanda, Özbəkistanda, Azərbaycanda Atatürk Mərkəzlərinin təntənəli açılış mərasimində (10 aprel 2004) nitqi, Türkiyədə, Qırğızıstanda, habelə, siyasi, iqtisadi sahədə görüşlərin, müsahibələrin tarixi xronikası verilib.

*Ağahüseyn Həsənovun "Milli mənəvi dəyərimiz"*[605] monoqrafiyası da maarifçilik sahəsində H.Əliyev siysəti və ideologiyasının mənəvi-əxlaqi yönlərini aydınlaşdırıb.

*"Heydər Əliyev: Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə"*[606] (tərtibçisi f.e.d. Əmrəli İsmayılov, redaktoru siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı) adlı kitab Heydər Əliyevin tədris siyasəti ilə bağlı təhsil-tərbiyə, pedaqoji-metodik məsələlərinə həsr edilib.

*Timurçin Əfəndiyevin "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz"* (redaktor f.e.d., professor Aqşin Babayev, rəyçilər AMEA Nizami Gəncəvi

---

[602] Xatirə Quluzadə. "Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı, Azərnəşr, 2002, 176 s.

[603] Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı. Bakı, "Nurlan", 2004, 107 s.

[604] Nizami Cəfərov, Osman Musayev, Dəyanət Osmanlı. Türk dünyasının yeni lideri. Azərbaycanda Atatürk Mərkəzi. Bakı, "Çaşıoğlu", 2009, 760 s.

[605] Ağahüseyn Həsənov. Milli mənəvi dəyərimiz. Bakı, "Elm və təhsil", 2010, 360 s.

[606] Heydər Əliyev: Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə. Bakı, "Müəllim", 2008, 637 s.

adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev, AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Rəna Məmmədova)[607] adlı monoqrafiyası mədəniyyət irsindən bəhs edir. Monoqrafiyanın girişi "Heydər Əliyevin irsi milli sərvətimizdir" adlanır. Kitabın *I fəslində* "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", *II fəslində* "Ümummilli liderin ədəbi irs təlimi", *III fəslində* "Azərbaycan teatrının böyük hamisi", *IV fəslində* "Milli kino sənətimizə tükənməz qayğı", *V fəslində* "Rəssam duyumlu müdrik insan – Heydər Əliyev", *VI fəslində* "Musiqi aləmindən dünyaya baxış" mövzuları verilib, məsələlərə dövlətçilik mövqeyindən, azərbaycançılıq fəlsəfəsi nəzərindən, metodoloji yanaşmadan baxılıb.

Onun *Heydər Əliyev: mədəniyyət və əbədiyyət*[608] (redaktoru f.e.d., professor Gülşən Əliyeva-Kəngərli, f.e.d., professor Aqşin Babayev, f.e.d., professor Əlikram Tağıyev, ingiliscə mətnin tərcüməçisi Səadət İbrahimova) adlı kitabı isə fotomonoqrafiyadır. Ümummilli liderin 90 illik yubileyinə həsr edilib.

*Zahid Qaralovun "Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə)"* adlı kitabı[609] giriş, 6 fəsil, son söz, əlavələr və ədəbiyyat siyahısından ibarətdir. (*I fəsil:* "Heydər Əlirza oğlu Əliyevin həyat yolu barədə yığcam məlumat", *II fəsil:* "Siyasi və mənəvi təkamül", *III fəsil:* H.Əliyevin siyasi partiya quruculuğu üzrə fəaliyyəti /"Sov. İKP sıralarındakı fəaliyyəti", "Azərbaycanda çoxpartiyalılığa keçid", "Azərbaycan sizin sözünüzü gözləyir (H.Əliyevə müraciət)", "Yeni müstəqil Azərbaycan uğrunda (H.Əliyevin Azərbaycan ziyalılarının müraciətlərinə cavabı)", "Yeni Azərbaycan Partiyası. Naxçıvan. Təsus konfransı", "YAP barədə Heydər Əliyevin fikirlərindən seçmələr", "YAP Naxçıvan təsus konfransında (21.11.92-ci ildə qəbul edilmiş nizamnaməsi", "YAP Naxçıvan təsus konfransında (21.11.92-ci ildə qəbul edilmiş proqramı", "Çoxpartiyalı siyasi mühitdə YAP-ın yeri barədə Naxçıvan MR-nın dövlət quruculuğu və MR Ali Məclisinin sədri Heydər Əliyevin müdafiəsi", "Komitənin yaradılması (protokol №1, 1992, 24 oktyabr)", "YAP-ın yaradılmasından keçən 6 il", "YAP-ın I qurultayı", "YAP-ın II qurultayı", "YAP-ın yaradılmasının 10 illiyi", "YAP-ın III qurultayı", "YAP-ın IV qurultayı", "İlham Əliyevin YAP Qızıl fondu – 91-lər" barədə söylədiyi fikirlərdən seçmələr"/, *"IV fəsil* ("Xüsusi ilə ümuminin vəhdəti",

[607] Timurçin Əfəndiyev. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, "Zərdabi LTD MM", 2011, 368 s.

[608] Timurçin Əfəndiyev. Heydər Əliyev: mədəniyyət və əbədiyyət. Bakı, "Təhsil", 2013, 128 s.

[609] Zahid Qaralov. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə) . I cild. Bakı, Şərq-Qərb, 2013, 302 s.

"Heydər Əliyev insan haqlarının ən etibarlı qurucusu olub", "İnsanlararası səmərəli əlaqələr qurmaq prinsipi", "Heydər Əliyevin yeni cəmiyyət quruculuğunda modernləşmə siyasəti", "Müharibələr, soyqırımlar məsələsi", "SSRİ-nin dağılmasının səbəbləri barədə", "Dünyada gedən durulma prosesləri barədə", "Korrupsiya və ona qarşı müharibə barədə", "İnsan haqqları və hüquqları barədə", "Gənclərə yalnız düz yol göstərilməlidir", "Problemlər: Yaranma səbəbləri, həlli yolları", "Mənəviyyat", "Əxlaq", "Ədəb" kateqoriyaları barədə", "Dinlərə və inamlara hörmət", "Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ problemi barədə", "Şəxsiyyət azadlığı barədə", "Qarşılıqlı soyqırım və terror anlayışları barədə", "Qlobal təhlükələr necə yaranır", "Milli mentalitet və ziyalılıq barədə", "Heydər Əliyev Azərbaycanla Gürcüstan arasında əlqələrin inkişaf strategiyası barədə","Heydər Əliyevin sivilizasiyalara, mədəniyyətlərə münasibəti barədə", "KİV-dən istifadə problemi")...bölmələrini əhatə edib.

Kitabın IV fəslinin davamı, habelə, sonrakı fəsillər onun ikinci hissəsində[610] verilib. IV fəslinin davamı ("...Yeniləşmənin və gənclərin ideya-siyasi, əmək və əxlaq tərbiyəsi sahəsində kompleks tədbirlər barədə", "Tərəfdaşlıq. Etalon seçimi", "Heydər Əliyevin elmi irsində maddi və mənəvi dəyərlərə münasibət sistemi. Regional məsələlər"), *V fəsil:*"Heydər Əliyevin dğvlətçilik nəzəriyyəsi və təcrübəsi barəsində", *VI fəsil* bunları özündə ehtiva eləyib *("*Ənənəvi ilə müasirliyin birliyi: inkişafın mənbəyi", *"*Xalq, vətən, mənəviyyat anlayışlarındakı hikmətlər", *"*H.Əliyevin müasirləşmə və inkişaf strategiyası haqqında", *"*H.Əliyevin Azərbaycanı inkişaf etdirmək ideyaları və onları reallaşdırmağın elmi-nəzəri əsasları", *"*Heydər Əliyevin milli inkişaf strategiyası haqqında", *"*Heydər Əliyevin insanlığın inkişafına göstərdiyi əvəzsiz xidmətləri haqqında", *"*Azərbaycanın davamlı inkişaf strategiyasının elmi əsasları barədə", *"*Heydər Əliyevin həyata keçirdiyi əsaslı islahatlar haqqında", *"*Heydər Əliyevin əqli mülkiyyət xəzinəsi, ondan səmərəli istifadə etməyin imkanları və yolları", *"*Heydər Əliyevin elmə, təhsilə münasibəti və qayğısı barədə", "Azərbaycan xalqına, Yeni Azərbaycan Partiyasına ünvanlanmış müdrik bir müraciət barədə", "Nəsihətlər, həqiqətlər").

Milli mədəniyyət və ideologiyamız haqqında qiymətli tədqiqat kitabları da yazılıb və yazılmaqdadır. *Akademik Rafael Hüseynovun "Böyük yolun həqiqəti"* kitabında[611] "dövlətimizin XX əsrin son və XXI yüzilliyin ilk

---

[610] Zahid Qaralov. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə) . I cild. Bakı, "Şərq-Qərb", 2013, 302 s.; II cild. Bakı, "Şərq-Qərb", 2013, 309 s.

[611] Rafael Hüseynov. Böyük yolun həqiqəti. "Elm və təhsil", Bakı, 2020, 360 s.

onilliklərində keçdiyi çətin və mübarizələrlə dolu yolundan bəhs edilir. Azərbaycanın bərpa edildikdən sonra yenidən ciddi təhlükələrlə qarşılaşmış dövlət müstəqilliyini, vətəndaş müharibəsi astanasında olan ölkəni, çökmüş iqtisadiyyatın doğurduğu fəsadlardan əziyyət çəkən xalqı dərin və miqyaslı düşüncəsi, əzmi və qətiyyəti ilə xilas edərək sağlam məcraya yönəltmək, müasir və qüdrətli dövlətin əsaslarını yaratmaq Heydər Əliyevin tarixi missiyası idi. Estafeti qəbul edən Prezident İlham Əliyev həmin böyük yolu uğurla davam etdirərək, Azərbaycanın istiqlalını daha da sarsılmaz etmiş, ölkəmizi dünya dövlətləri arasında üstün mövqeyə çıxarmış, qlobal enerji və nəqliyyat layihələrini genişləndirərək Azərbaycanın müstəqilliyinin dönməzliyi və Azərbaycan xalqının firavanlığının təmin edilməsində əvəzsiz töhfələrini vermişdir. İki qüdrətli liderin çoxcəhətli fəaliyyətini əks etdirən kitabı, onların böyük yolu haqqında müəllifin sözlərinə Azərbaycanın tanınmış bəstəkarlarının yazdığı musiqi əsərləri tamamlayır" (annotasiyasından). Kitab Ön söz, "Bu yolda yorulmaq yox","Müstəsnalıq","Onun söylədiyi dağ", "Prezident sözünün gücü", "Vətən şərqiləri", habelə "Heydər oratoriyası (yenilməzlik hekayəsi","Vəfa dərsi", "Sənin arzun", "İki qüdrət", "Sən tarixi yaradan", "Zirvələrdən baxan öndər", "Bahar kimi qayıtdın", "Davamçın var"), Nəğmələr ("Millətin səninlədir", "Vətən xəritəsi", "Var olsun bayrağımız", "Zəriflik", "Nur kimi", "İstiqlal imtahanı", "Sənin adın", "Ucalacaq Azərbaycan", "İnanır sənə ellər","İlham gərək", "Bu vətənçün", "Şah əsər Azərbaycan", "Vətənin başlanğıcı", "Səslə bizi", "Heydər yolu, İlham yolu" və sözardı, qeydlər, oxuyacaqlarınız hissələrindən ibarətdir.

*"Heydər Əliyev"* kitabı[612] ön söz əvəzi, "Azərbaycan xalqının lideri", "Sovet dövlətinin tanınmış rəhbərlərdən biri", "XXI əsrə doğru irəliləyən müstəqil Azərbaycan rəhbəri" bölmələrini özündə ehtiva edib. Kitab Azərbaycan nəşriyyatında hazırlanıb. Kran şəhərinin Qorenski tisk" mətbəəsində çap edilib. Tərtibçilər Nazim İbrahimov və Akif Muradəliyevdir.

*Sakit Hüseynovun "Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənmizlənməsində rolu"* monoqrafiyası[613] Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə həsr olunub.

Kitabda müstəqillik dövrünün dövlət-din siyasətinin fəlsəfi-sosioloji cəhətləri, İslamın Qafqazda yayılmasında Azərbaycanın rolu, dövlət– din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının bərqərar olunması, di-

---

[612] Heydər Əliyev *(Azərbaycan, ingilis və rus dillərində).* Bakı, 2022, 237 s.

[613] Sakit Hüseynov. Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənmizlənməsində rolu. Bakı, "Tuna" QSC mətbəəsi. 2023, 277 s.

ni tolerantlıq, dini ekstremizm və dini təhlükəsizlik haqqında Heydər Əliyev və prezident İlham Əliyevin fəaliyyəti geniş sferada araşdırılıb. Bununla yanaşı, Heydər Əliyevin "İslam birliyi" ideyası və prezident İlham Əliyevin müsəlman ölkələrinə "islam həmrəyliyi" çağırışı dövlət-din siyasətində yeni istiqamət kimi aktuallıq kəsb edib. Əsər tələbə, doktorant, ilahiyyatçılar, dinşünaslar, orta və ali məktəb müəllimləri, geniş oxucu kütləsi üçün faydadır.

*Teymur Kərimlinin "Heydər Əliyev və klassik irs"*adlı monoqrafiyasi[614] (elmi məsləhətçisi akademik İsa Həbibbəyli, redaktoru tarix üzrə fəlsəfə doktoru Cavid Cəfərov) Ulu öndər Heydər Əliyevin Azərbaycan klassik irsinə sevgi və qayğısından, həmin irsin öyrənilməsi, tədqiqi və təbliği məsələlərindən bəhs edir.

*Gülbəniz Babaxanlının "Ümummilli lider Heydər Əliyev: Hüseyn Cavid irsinin böyük hamisi"* adlı "kitabında[615] (elmi məsləhətçi akademik İ.Həbibbəyli, elmi redaktoru akademik T.Kərimli) Ümumilli lider Heydər Əliyevin mütəfəkkir-şair Hüseyn Cavid naminə gördüyü iºlər, göstərdiyi misilsiz xidmətlər elmi-nəzəri tədqiqata cəlb edilib. H.Cavid irsinin böyük hamisi olan Heydər Əliyevin təşəbbüsü ilə dahi ədibin nəşinin uzaq Sibirdən vətənə qaytarılması, mənəvi bəraət alması, adının uca tutulması, xatirəsinin əbədiləşdirilməsi, yaradıcılığının tədqiq, təbliğ, nəşr olunması tarixşünaslıq və cavidşünaslıq aspektindən araşdırılıb" *(annotasiyasından).*

Monoqrafiyada Ulu öndər Heydər Əliyevlə Hüseyn Cavid arasında mənəvi körpünün varisi, bu il həm də 100 illik yubileyi qeyd olunan Turan Cavidin də xidmətlərindən bəhs olunub.

Kitab giriş, "İki dahi", "Ədəbiyyatın böyük hamisi", "Naxçıvandan başlanan tanışlıq, yaxud əbədi bəraət", "H.Cavid irsinin bilicisi", "İki qayıdış", "Hüseyn Cavid əbədiyyəti uğrunda", "Heydər Əliyev və Hüseyn Cavid arasında mənəvi körpü", "Sönməz nur", "Tükənməz məhəbbət" və sözardı hissələrindən ibarətdir.

Azərbaycanın sadiq dostu, Küveyt dövlətinin İslam işləri və vəqflər Nazirinin I müavini, Asiya Müsəlmanları Komitəsinin sədri, doktor Adil Abdulla Əl-Fəlahın *"Heydər Əliyev və milli-mənəvi dəyərlər"*[616] kitabının elmi redaktoru Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor Şeyxülislam Allahşükür Paşazadə, rəyçiləri akademiklər Vasim

---

[614] Teymur Kərimli. Heydər Əliyev və klassik irs. Bakı, "Elm və təhsil", 2023, 188 s.
[615] Gülbəniz Babaxanlı. Ümummilli lider Heydər Əliyev: Hüseyn Cavid irsinin böyük hamisi. Bakı, "Elm və təhsil", 2023, 184 s.
[616] Adil Abdulla Əl-Fəlah. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı, 2013, CBS, 108 s.

Məmmədəliyev, Fuad Qasımlı, Bəkir Nəbiyev və tarix elmləri doktoru, professor Anar İskəndərovdur. Monoqrafiyanın "İslam əxlaqi-mənəvi dəyərlər qaynağı kimi" adlı III bölümündə Heydər Əliyevin fəaliyyətində *islami-əxlaqi dəyərlərin yeri və mövqeyi* işıqlandırılıb.

***

Heydər Əliyevin *mədəniyyət siyasətini* ehtiva edən iki mühüm dövlət kitabı nəşr olunub: *"Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar"* adlı 3 cildlik[617] və *"Heydər Əliyev mədəniyyətin keşiyində"* adlı 3 cildlik kitablar.

***"Heydər Əliyev və mədəniyyət.*** *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar"* adlı 3 cildlik kitabın[618] layihə rəhbəri və ön söz müəllifi Əbülfəs Qarayev, tərtibçiləri Sevda Məmmədəliyeva və Teymur Əhmədov, redaktoru Lətifə Məmmədovadır.

Kitabın I cildində *1969-82-ci illərdə, habelə, 1993-1996-cı illərdə* Azərbaycan mədəniyyəti, incəsənəti, kinosu, ədəbiyyatı, memarlığı və turizmi sahəsində materiallar xronoloji ardıcıllıqla toplanıb. Nəşrin annotasiyasında deyilir: "Bu sənədlərdə ölkəmizdə həmin dövrün ictimai həyatında baş vermis mədəni yüksəlişin ümumi mənzərəsi, eyni zamanda Ulu öndərin mədəni irsə və ənənəyə münasibəti, milli mədəniyyətimizin ayrı-ayrı sahələri haqqında fikirləri doğlun əksini tapmışdır".

Kitaba Ulu öndərin sovet hakimiyyəti dövrü və müstəqillik illərində sənət adamları, yazıçılar, elm xadimləri ilə görüşləri zamanı çıxışları, nitqləri və dəyərli tövsiyələrinin mətni daxil edilib.

*Nəşrin II cildində*[619] Ümummilli liderin xalqımızın tarixi keçmişi, Azərbaycanın mədəniyyət, ədəbiyyat və elm xadimləri ilə görüşləri, ədəbi-mədəni irsə, maddi-mənəvi abidələrə qayğısı materiallar, habelə, tövsiyə, nitq və çıxışları əsasında ifadəsini tapıb.

III cilddə Ulu öndərin *"1999-2003-cü illərdə* ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimləri ilə görüşləri, müsahibələri, tövsiyələri,

---

[617] Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə. I cild 1969-1982, 1993- 1996. "Nurlar", Bakı, 2008, 504 s.

[618] Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə. I cild 1969-1982, 1993- 1996. "Nurlar", Bakı, 2008, 504 s.

[619] Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə, II cild, 1969-1982, 1993-1996. "Nurlar", Bakı, 2008, 520 s.

milli-mənəvi dəyərlərə verdiyi yüksək qiymət barədə materiallar" toplanıb[620] *(annotasiyadan).*

*3 clddə "Heydər Əliyev və mədəniyyət"* kitabları[621] Heydər Əliyevin 85 illik yubileyi münasibətilə çapdan buraxılıb. Mədəniyyət milli və bəşəri məzmunu, əhatə coğrafiyası və yüksək səviyyəsi ilə Ümummilli lider üçün həmişə xüsusi məram və məqsəd izləyib.

Ümummilli lider Heydər Əliyevin Kütləvi İnformasiya Vasitələri haqqında fikirləri, dərsləri və tövsiyələri də qiymətlidir. O, bildirirdi ki, biz milli mətbuatımızın inkişaf mərhələlərini, Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixini, "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini milli mətbuatımızın səhifələrindən öyrənmişik.

Ulu öndər qiymətləndirirdi ki, Azərbaycan mətbuatı zəngin və şərəfli inkişaf yolu keçib, xalqın istək və arzularını, həyatın bütün sahələrini özündə əks etdirib, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasına, inkişafına güclü təkan verib. Heydər Əliyev və mətbuat məsələləri hərtərəfli öyrənilib, onun müsahibələr, bəyanatlar, müraciətlər və çıxışları toplanıb və nəşr edilib.

4 clddə "***Heydər Əliyev və mətbuat***" kitabının[622] I cildi (yanvar 1990, iyul 1996) müsahibələr, bəyanatlar, müraciətlər və çıxışlardan ibarətdir. Nəşrin tərtibçiləri Əli Abbasov və Teymur Əhmədovdur.

Professor Teymur Əhmədov *"Heydər Əliyev və mətbuat"*[623] məqaləsini *"Heydər Əliyev və mətbuat"* adlı dördcildliyin nəşri münasibətilə yazıb. Müəllif: "Çox nəfis və müasir kitab mədəniyyətinin ən vacib poliqrafiya estetikasını özündə daşıyan bu dördcildlikdə Azərbaycan xalqının Ümumilli lideri, Azərbaycan dövlətinin və Azərbaycan demokratik sisteminin arxitektoru, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin çox mühüm bir cəhəti – mətbuatla bağlı son on illik ömür yolu öz əksini tapmışdır"[624],– deyə bildirib.

---

[620] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild, *1999-2003*. Bakı, "Nurlar", 2008, 536 s.

[621] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.

[622] Heydər Əliyev və mətbuat. 4 cilddə. I cild (yanvar 1990, iyul 1996). Bakı, "Nurlar", 2003, 640 s.

[623] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 624 s.

[624] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.543

Professor Teymur Əhmədov *bu dördcildliyi* Ulu öndər haqqında yazılmış başqa nəşrlərdən fərqləndirib, həm də o səbəbdən ki, Ümumilli lider tarixən mətbuata çox bağlı olub, onun funksiyasına çox yüksək dəyər verib. Heydər Əliyev hesab edib ki, mətbuatın xalqa, ölkənin inkişafına, milli-mənəvi dəyərlərin formalaşmasına, mədəniyyət, elm və incəsənətin tərəqqisinə çox böyük faydası olub.

Azərbaycan mətbuatı milli dilimizi qoruyub, zənginləşdirib, jurnalistikanın açıq söz demək cəsarətini gücləndirib, yazıçıların, mədəniyyət işçilərinin qurultay və yığıncaqları keçirilib, bütün bunlar Ulu öndərin təşkilatçılığı və rəhbərliyi ilə olub. Mətbuat Ulu öndər üçün siyasət məqsədi daşıyıb. Professor Teymur Əhmədov bu baxımdan hesab edib ki, dörd cildlik *"bir xalqın dilinin, dininin, mənəvi sərvətlərinin* qorunması məktəbini yaradıb, dünyada hesaba alınan, sayılan-seçilən bir dövlət yaratmış bir Ümumilli liderin siyasi kursunun ensiklopediyası kimi qiymətlidir[625].

Professor Teymur Əhmədov *4 cildliyi müntəxabat* adlandırıb, Ümumilli lideri isə *dünya səviyyəli siyasi xadim və müdrik dövlət başçısı* kimi obrazlaşdırıb, dəyərləndirib ki, həm də *bu kitablar Heydər Əliyev fenomeninin qüdrətini* əks etdirib.

Alim *Qarabağ problemləri ilə bağlı fikirləri* dördcildliyin mühüm hissəsi hesab edib. Həmin bu fikir və mülahizələr böyük rəhbərin mətbuata, jurnalistlərə verdiyi müsahibələr və müxtəlif görüşlərdəki çıxışları ilə bağlıdır. Heydər Əliyev Qarabağ probleminə həssas və müdrikcəsinə yanaşıb, hansı çətinliklərlə məsələlərin dünya ictimaiyyətinə çatdırıldığını bəyan edib.

Digər bir məsələ Heydər Əliyevin *azad söz, azad fikir, demokratik düşüncə* ilə bağlı məntiqi-ideoloji mühakimələridir.

Ulu ödərin demokratik dəyərlərə qiymət verməsi mühüm strateji əhəmiyyət kəsb edib, müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsinə xidmət göstərib.

Professor Teymur Əhmədovun ifadə etdiyi mühüm elmi müddəa *Ulu öndərin Azərbaycanda hüquqi, vətəndaş dövlətin qurulmasını fəaliyyətinin mühüm istiqaməti* hesab etməsi ilə bağlıdır. Mətbuat nümayəndəsi şərh verib: ulu rəhbər ölkədə ilk növbədə *sabitliyə, sabitlik fonunda demokratik dəyərlərin formalaşmasına* nail olub, *azad mətbuat, azad fikrə qayğını siyasi kursunun əsas parametrlərindən* hesab edib. "Prezidentin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ölkədə plüraliz-

[625] Yenə orada, s.544

min bu günkü və sabahkı inkişafının qarantı rolunu oynayır"[626]. Fərman əsasında senzura siyasəti dayandırılıb, "*fərmandan sonra Azərbaycanda söz azadlığı, azad mətbuat modeli mühüm inkişaf istiqamətinə qədəm*" qoyub.

Mətbuat xadimi Teymur Əhmədov "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" fərmanın əhəmiyyətini bunda görüb: *elmi və praktik cəhətdən dəqiqliyində, dəqiq icraya yönəlmiş istiqamət, milli mətbuatın tarixi inkişaf mərhələlərini araşdıran sənəd olmasında və s.* Alim bu fərmanı mətbuat tariximizin qısa və lakonik salnaməsi hesab edib. Bu fərmanda "XIX əsrin sonlarında Azərbaycan mətbuatını inkişaf etdirmiş Ünsüzadə qardaşları, Məhəmməd ağa Şahtaxtlı və onun "Şərqi-rus" qəzeti, mədəniyyətimizin möhtəşəm ədəbi abidəsi olan "Molla Nəsirəddin" jurnalı, Cəlil Məmmədquluzadə və Ceyhun Hacıbəyli kimi jurnalist şəxsiyyətləri, sovet dönəmi Azərbaycan jurnalistikası, müasir mətbuatımızın, yeni jurnalistikamızın durumu barədə neçə illər bundan sonra da aktual olacaq qiymət meyarı vardır"[627].

Təbii ki, Ümumilli liderin KİV-in hüquqi bazasının yaradılması, iqtisadi bazasının möhkəmlədirilməsi, qəzetlərin dövlət nəşriyyatlarına borcunun ləğvi, KİV-ə güzəştli dövlət kreditlərinin verilməsi ilə bağlı müstəqil mətbuatın inkişafına köməyi bol bəhrə verib.

Milli mətbuatın ən yaxın hamisi, *"Jurnalistlərin dostu"* mükafatının sahibi Ulu öndər Heydər Əliyev mediyanın mühüm nəzəri məsələlərinə də toxunub, professor Teymur Əhmədov isə dahi rəhbərin nitqindən irəli gələn nəzəri anlayışların, mühüm elmi nəticələrin şərhini verib. *Buraya aiddir:* jurnalistin cəmiyyətlə, insanlarla intensiv əlaqəsi, cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqəyə ehtiyac, istədiyi informasiyanı almağın, ötürməyin vacibliyi və aktuallığı. Jurnalist ədalətsizliklə barışmamalıdır. Jurnalist cəmiyyətlə yaxın olarsa, cəmiyyət jurnalisti sevərsə – cəmiyyət və jurnalist uğur sahibi olar. Jurnalistlər obyektiv olmağa borcludur. Kəskin, sensasiyalı yazılar olmasa, oxucu marağı olmaz, qəzetlər alınmaz. Jurnalist hücum obyekti axtarmamalı, kəskin tənqidə yol verməməli, hər iki tərəf bir-birini nəzərə alarsa, jurnalistlərlə insanların dostluğu təmin oluna bilər və s.

Professor Teymur Əhmədov hesab edib ki, Ümumilli lider Heydər Əliyev dördcildliyi *mübarizə salnaməsidir*, Azərbaycanı dünyanın sivil ölkələri sırasına çıxarmağın yoludur. Bu baxımdan alim ümumiləşdirib ki, Ulu öndərin xarici ölkələrdəki görüşləri, dünya jurnalistlərinə verdiyi müsahibə-

---

[626] Yenə orada, s.546

[627] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.547

lər mahiyyətcə Azərbaycanın ən yeni dövrünün inkişaf istiqamətlərinin göstəricisidir.

Görkəmli alim və mətbuat xadiminin ümumi qənaətləri budur ki, Heydər Əliyev ömrü fundamental tədqiqatların obyekti, "dördcildlik kitablar isə bu məhsuldar insan ömrünün tədqiqatçıları üçün çox ciddi faktik material rolunu oynayacaqdır"[628].

Nəşrlərin tərtibçiləri professorlar Teymur Əhmədov və Əli Abbasovdur. Kitab poliqrafik cəhətdən mükəmməl nəşrdir.

Professor Teymur Əhmədov bildirib ki, o çətin günlərdə "Vətən səsi" qəzetinin 25 oktyabr 1991-ci il tarixli nömrəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin o zamankı sədri Heydər Əliyevin 2 teleqramını, "Vətən səsi"nin 30 oktyabr 1991-ci il tarixli nömrəsində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarını dərc edib. Bu səbəbdən 6 noyabr 1991-ci il tarixli nömrəsindən qəzetin dərci dayandırılıb. Alim məqaləsində *Heydər Əliyevin obrazını faktoloji informasiya zəminində* canlandırıb, milli diaspor siyasətinə münasibət əsasında təqdim edib.

Əvvəli iki kitabdan ibarət olan ***"Heydər Əliyev mədəni irsimizin keşiyində"*** adlı nəşr[629] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin *ədəbiyyat və incəsənət xadimləri ilə çoxsaylı görüşlərini, söhbətlərini* əks etdirir.

Birinci kitabda Prezident Heydər Əliyevin ədəbi irsin qorunması və təbliği sahəsində *xəbərlər,* Azərbaycan yazıçıları və şairləri ilə *görüş və söhbətləri* toplanıb.

İkinci kitabda[630] isə ölkəmizin başçısı Heydər Əliyevin *teatr, kino, balet, musiqi, memarlıq və heykəltaraşlıq, rəssamlıq, tətbiqi sənət* kimi sahələrdə çalışan görkəmli xadimlər, gənc istedadlar, xarici ölkələrin tanınmış incəsənət ustaları ilə *görüşləri,* mühakimələri verilib *("Oxucuya" hissəsindən).*

2011-ci ildə kitabın üçüncü hissəsi çap olunub[631]. Bu kitabda mədəniyyətimizin böyük hamisi Heydər Əliyevin Azərbaycan sənətkarlarına *təbrik məktubları*, habelə, *onlarla görüşləri zamanı nitqləri və çıxışları* verilib. Bu hissədə bir çox incəsənət xadiminin Heydər Əliyevə *minnətdarlıq məktubları* da ifadəsini tapıb.

---

[628] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.549

[629] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001

[630] Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001

[631] Heydər Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351s.

***

***"Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər".***

**Heydər Əliyev**

Heydər Əliyev ideologiyasının bir yönü ***elm və təhsil siyasətinə*** aiddir. Ölkə başçısı hesab edib ki, müstəqil Azərbaycan Respublikasında *təhsil, tərbiyə işi,* dövlətin, prezidentin xüsusi qayğısı altında olub onun əsas vəzifələrindən biridir. O, təhsil sahəsini həyatımızın ən mühüm sahəsi hesab edib. Ulu öndər deyib: "İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün şübhəsiz ki, *yüksək təhsilə, elmə* nail olmalıyıq"[632].

Heydər Əliyev məktəbin və müəllimin vəzifəsini ölkə, cəmiyyət və xalq üçün dəyərli vətəndaşlar hazırlamaqda görüb. Bu mənada o, ali təhsil ocaqlarını, universitetləri elm, mədəniyyət və mənəviyyatımızın zirvəsində hesab edib. Təhsil ocaqları, ali məktəblərin əsas məqsədini mənəvi cəhətdən sağlam gənclərin tərbiyə edılməsində görüb. O, fərəh hissi ilə bildirib ki, Azərbaycan alimi, professoru, müəllimi gedib Türkiyədə, Amerikada, Almaniyada universitetdə dərs deyə bilirsə, biz bunu böyük iftixar hissi ilə qəbul etməliyik. Ulu öndər fəxr edirdi ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycanın dünya şöhrətli, görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyətini zənginləşdiriblər, eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar[633].

1971-də Heydər Əliyevin təşəbbüsü ilə *Cəmşid Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbi* yaradılıb.

O, ali təhsili inkişaf etdirib, rəhbərliyi ilə Teatr İnstitutu, Xarici Dillər İnstitutu, Naxçıvan, Xankəndi Pedaqoji İnstitutları, İnşaat Mühəndisləri İnstitutu, Gəncə Texnologiya İnstitutları yaradılıb. SSRİ-nin məkrəzi ali məktəblərində də Azərbaycan üçün kadrlar hazırlanıb.

---

[632] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.116-128

[633] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.116-128

1972-ci ildən Azərbaycan EA Naxçıvan Elmi Mərkəzi fəaliyyətə başlayıb. 1978-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi yaradılıb və s.

Elmi-pedaqoji fikrimiz Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsində çoxşaxəli fəaliyyətinin təcrübəsini, elm və tədris siyasətini öyrənən, ümumiləşdirən araşdırmalar aparır, kitablar yazırlar. Belə kitablardan biri *"Heydər Əliyev və Azərbaycan elmi"* adlanır. Nəşrin tərtibçi-müəllifi f.e.d. Aybəniz Əliyeva-Kəngərli, elmi redaktoru, professor Abuzər Xələfovdur. Biblioqrafik göstəricidə Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsində çoxşaxəli fəaliyyətini əhatə edən materiallar əks olunub. Nəşrin məqsədi "Azərbaycan elminin inkişafı sahəsində Ümumilli liderin imzaladığı rəsmi sənədlər, elm xadimlərinə verdiyi fəxri adlar və mükafatlar, Azərbaycan və dünyanın elm xadimlərinin Heydər Əliyev irsinə verdiyi qiymət, Azərbaycan elminin beynəlxalq əlaqələri, AMEA Mərkəzi Elmi Kitabxanasının "Heydər Əliyev irsinin təbliği" (hazırda *"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi")* şöbəsinin fonduna daxil olan sənəd və informasiya resursları haqqında oxuculara məlumat verməkdir" *(annotasiyasından).*

Kitab AMEA-nın sabiq prezidenti, akademik Mahmud Kərimovun ümumi rəhbərliyi ilə hazırlanıb.

***

***Hər bir xalqın milliliyini, mənavi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.***

**Heydər Əliyev**

Ümummilli lider Heydər Əliyevin ideologiyasında ***dil siyasəti*** vacib amillərdən biri olub. O, dilə, millətə fəlsəfi məfhum, tarixi anlayış kimi baxıb. Hesab edib ki, millətin milliliyinin birinci vacib şərti onun dilidir. Fəqət əsrlər boyu müxtəlif istiqamətlərdən xalqımıza, dilimizə, mədəniyyətimizə və elmimizə mənfi təsirlər olsa da, xalqımızın dahi simaları Azərbaycan dilini daim yaşadıb, milli şüurunu, məfkurəsini, milliliyini inkişaf etdirib.

Heydər Əliyev doğma ana dilimiz barəsində deyib: "Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir"634. Onu da nəzərə alıb ki, "dil birliyimiz, türkdilli ölkələr, türk dövlətləri qrupuna daxil olmağımız üzərimizə çox vəzifələr qoyur"[635].

[634] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.110-116

[635] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı,

Ölkə rəhbəri qürurla bildirib: "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!"[636]

Ulu öndərin dil siyasətinin öyrənilməsi, nəşri və təbliği sahəsində lazımi işlər görülməkdədir.

Akademik Bəkir Nəbiyev "Etüdlər"kitabında Heydər Əliyevin həm xarakterik cizgilərini, həm də onun cazibədar nitqinin siyasi-ideoloji, ədəbi-estetik mahiyyətini vurğulayıb, onun müasir tarixi əhəmiyyətini səciyyələndirib. "O çıxışlarında heç bir natiqi təkrar etməz, yubileyi qeyd olunan ədəbi sima və onun yaradıcılığı haqqında şəxsən öz qənaətlərini söylər, həm də bu zaman özünə xas olan iti hafizə, elmi məntiq nümayiş etdirərdi"637, – deyə bildirib.

*"Heydər Əliyevin dil siyasəti (rəsmi sənədlər)"*kitabında[638] dövlət başçısının dil siyasətini ifadə edən sənədlər, milli dillə bağlı çıxışları, müdrik kəlamları, deyimləri və tövsiyələri toplayıb.

*Afad Qurbanov "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı"* kitabında[639] Ulu öndərin timsalında milli təhsilimizdən bəhs edib.

Nəsimi adına Dilçilik İnstitutu *"Qarabağın və Şərqi Zəngəzurun dialektoloji Atlasını* (2022) hazırlayıb və nəşr etdirib[640].

***

***"Xalqı həmişə mənəviyyat birləşdirmişdir.***
***Çünki başqa əsaslara nisbətən***
***mənəvi əsaslar daha üstündür".***

**Heydər Əliyev**

Görkəmli mütəfəkkir Heydər Əliyev deyib: "Planetimizin ən dəyərli sərvəti insandır. Yer kürəsində hər şey insanların yaşayışı, dünya nemətlərindən faydalanması və həm maddi, həm mənəvi cəhətdən yüksək səviyyədə inkişafı üçündür.Təbiət də, Yerin təki də, onun üstündə olan sərvətlər də,

---

Heydər Əliyev fondu, 2008, s.110-116

[636] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.110-116

[637] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.74

[638] Heydər Əliyevin dil siyasəti (rəsmi sənədlər).Bakı, Şirvannəşr,2009,136 s.

[639] Afad Qurbanov. Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı. Bakı, "Gənclik", 1997, 36 s.

[640] Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji Atlası. Bakı, "Elm və təhsil", 2022,358 s.

dövlət də, insan və xalq üçündür. Bütün təşkilatlar da insanın bu günü və gələcəyi üçündür"[641].

Bu mənada ***musiqi*** ekologiyası da sərhəd tanımır, qitələri, meridianları kəsişdirir, millilik ilə bəşəriliyin, *vahid sivilizasiyanın* mənbəyi, faktoru kimi çıxış edir. XX əsr (sovet dövründə) beynəlmiləlçilik deyilən ideyanın, təbliğatın bir faktı da təşkilatlanma ilə bağlı olub, dekadalar, ədəbiyyat, incəsənət ongünlükləri, yaxud ad günləri keçirilib. 19 yanvar 1982-ci ildə Heydər Əliyev Azərbaycan KP MK-da SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin I katibi, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı *T.N.Xrennikovu* qəbul edib.

T.N.Xrennikov çıxışı zamanı Azərbaycan bəstəkarlıq məktəbinin böyük müvəffəqiyyətlərini, bu işdə görkəmli musiqiçi, ictimai xadim və vətəndaş *Üzeyir Hacıbəylinin misilsiz xidmətlərini* göstərib. Onun Azərbaycanda musiqi mədəniyyətinin təbliği sahəsində çox iş gördüyünü, respublika partiya təşkilatının bu işdə fəal iştirakını qeyd edib[642].

Heydər Əliyev görkəmli Azərbaycan bəstəkarı *Qara Qarayevin* Şərq və Qərb sivilizasiyalarındakı mövqeyinə yüksək dəyər verib, onun yubileylərini keçirib, onu dövlət mükafatları ilə dəyərləndirib. 18 may 1982-ci ildə görkəmli bəstəkarın dəfn mərasimində Ulu öndər deyib: "Qara Qarayev doğma Azərbaycan, *bütün ölkə mədəniyyətinin* inkişafına, *dünya musiqi mədəniyyəti xəzinəsinə* böyük töhfə vermişdir. Onun gözəl əsərləri bəstəkarın yalnız özünə xas olan əlvan musiqi boyaları ilə, Qarayev koloriti ilə, yüksək ideyalılığı, həqiqi vətəndaşlıq ruhu ilə fərqlənir, bu əsərlər professionalizmin zirvələridir. Qara Qarayev fəlsəfi düşüncələr və bəşəri duyğularla zəngin olan və ecazkar musiqisi ilə insanlara daha yaxşı yaşamaqda və işləməkdə, əsil sərvətlərə daha mükəmməl yiyələnməkdə, mənəvi kamilliyə can atmaqda kömək edir.

Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Bu irs opera və baletdən tutmuş, suitalar və mahnılaradək bütün bəstəkarlıq janrlarını əhatə edir. Qara Qarayev bu janrların hər birində Azərbaycanın musiqi sənətində yeni yollar açan, onun dünya şöhrətini ucaldan əsərlər yaratmışdır. Qara Qarayev Azərbaycan xalqının zəngin tarixinə, onun yaradıcı ənənələrinə, Xəzərin şanlı dəniz neftçilərinin hünərinə neçə-neçə ilhamlı səhifələr həsr etmişdir. "Yeddi gözəl" baletinin romantik ruhlu

[641] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.149

[642] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.136

musiqisində o, öz müqəddəratını həll edən xalq kütləsinin nəhəng qüvvəsini açıb göstərmişdir...

"İldırımlı yollarla" baletində *qaralar Afrikası xalqlarının* irqi ayrı-seçkiliyə və sosial zülmə qarşı mübarizəsi mövzusu onun musiqisində yenilməz emosional qüdrətlə təcəssüm olunmuşdur... "Vətən" operası Vətən müharibəsi cəbhəsində rəşadətli vuruşmaların pafosu ilə, "Leyli və Məcnun" simfonik poeması ülvi məhəbbətin poeziyası ilə aşılanmışdır. Qara Qarayevin yazdığı "Vyetnam" süitası Vyetnam xalqının azadlıq mübarizəsində onunla birlikdə iştirak etmişdir. "Çılğın qaskoniyalı" tamaşasına yazdığı musiqi bəstəkarın yaradıcılıq zirvələrindən biri olmuşdur...

Qara Qarayevin dünya miqyasında şöhrət qazanmış və təqdir olunmuş əsərləri bütün sovet musiqi sənətinin inkişafında mühüm mərhələdir. Bu əsərlər sənətkarın Azərbaycan xalq melodiyasının mənbələrinə və ənənələrinə dərindən bələd olması ilə, demokratizmi, təkrarsız fərdiyyəti, sayıqlığı və prinsipiallığı ilə fərqlənir. D.Q.Şostakoviç çox gözəl demişdir: Qarayev musiqisinin müvəffəqiyyətinin sirri "yalnız onun özünə xas olan istedadında, parlaq qabiliyyətində, xalq ənənələrini, klassik irsi ən müasir musiqi formaları ilə birləşərək məharətindədir...

Qara Qarayevin öz təbiətinə görə *milli* olan əsərləri məzmunu, ruhu və mahiyyəti etibarilə *beynəlmiləl* əsərlərdir. Onlar Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin bütün zənginliyini, Qarayevin böyük müəllimləri Üzeyir Hacıbəyovun, Dmitri Şostakoviçin, rus, dünya klassik və müasir musiqisi korifeylərinin bütöv bir dəstəsinin yaradıcılığını özündə təcəssüm etdirir... [643]

Heydər Əliyev onu ümumittifaq və dünya şöhrəti qazanmış *Qarayev bəstəkarlıq məktəbinin* yaradıcısı kimi yüksək qiymətləndirib.

Ümummilli lider deyib: "Qara Qarayev adı böyük mütəfəkkir alim, görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yaxşı tanışdır. Respublika EA-nın  həqiqi üzvü, Azərbaycan Dövlət Konservatoriyasının professoru kimi, o, müasir mərhələdə Azərbaycan musiqisinin inkişafına dair bir sıra mühüm problemləri araşdırmış, musiqi estetikası haqqında qiymətli əsərlər yaratmışdır. Müasir musiqi dilinin və formasının ən mühüm problemləri haqqında onun məqalələri və məruzələri ölkəmizdə və xaricdə geniş dərc olunmuşdur. Qara Qarayev Azərbaycan musiqisinin vəzifələrindən, rus klassik musiqi irsinin böyük ənənələrindən, bəstəkar kadrların hazırlanması prisipindən, sovet incəsətinin prinsipindən və beynəlxalq vəzifələrindən –

[643] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.148

bütün bunlardan yazarkən və danışarkən onun yazdıqları və dedikləri daim müəllifin sarsılmaz ideya əqidəsinə əsaslanırdı”[644].

Qara Qarayev Azərbaycanın ictimai-siyasi həyatında da iştirak edib. Azərbaycan Dövlət Konservatoriyasının direktoru, respublika Bəstəkarlar İttifaqının sədri, SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifələrində işləyib. SSRi Ali Sovetinin deputatı, qurultay nümayəndəsi olub.

Ulu öndər 18 sentyabr 1994-cü ildə böyük dirijor və bəstəkar *Niyazinin ev-muzeyinin* təntənəli açılışında çıxışı zamanı deyib: “Niyazi Respublikada da, keçmiş sovet ittifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür...

Türkiyədə opera sənətinin, o cümlədən də Avropa, Rusiya bəstəkarlarının klassik əsərlərinin səhnə təcəssümünün əsasını Niyazi qoymuşdur. O, Türkiyədə dəfələrlə olmuşdur. O vaxtlar yeni Türkiyə ilə heç bir əlaqəmiz olmadığı dövrdə bunları Niyazi etmişdir. Böyük türk bəstəkarları Adnan Sayqunun “Koroğlu” operasını da məhz Niyazi səhnəyə qoymuşdur”[645]...

Heydər Əliyev görkəmli Azərbaycan bəstəkarı, dünya şöhrətli sənətkar *Arif Məlikovu* da yüksək qiymətlandirib, onu bəzi dövlət tədbirlərinə də dəvət edib.14 sentyabr 1993-cü ildə bəstəkar Arif Məlikova 60 yaşı münasibətlə təbrik məktubu göndərib. 5 fevral 1995-ci ildə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində görkəmli bəstəkarın müəllif gecəsində çıxış edib.

Xalq artisti Arif Məlikova 12 sentyabr 1998-ci ildə 65 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb.

---

[644] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.; s.149

[645] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.; s. 233

***

***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir".***

**Heydər Əliyev**

Ümummilli lider Heydər Əliyevin dövrü respublikada ***memarlıq** və **şəhərsalma*** sahəsində *intibah dövrü* hesab edilir[646]. O, ədəbiyyat və mədəniyyətimizi xalqımızın milli sərvəti, onun *intellektual mülkiyyəti* kimi dəyərləndirib.

Heydər Əliyev dünya sivilizasiyasının təzahür sahələri içərisində *memarlıq sənətinin* də adını çəkib. O, bildirib: "Azərbaycan tarixi mədəniyyət, elm, ədəbiyyat, *memarlıq sahəsində* çox zəngindir. Bizim çoxəsrlik ədəbiyyatımız var. Nizami, Xaqani, Nəsimi, Füzuli, Vqaif və bunlardan sonra gələn dahilər. Bizim *qədim memarlıq abidələrimiz* var. Bizim qədim rəssamlıq sənəti nümunələrimiz var. Azərbaycan xalqı *dünya sivilizasiyası* xəzinəsinə böyük töhfələr vermişdir"[647].

Ulu öndər xatırladıb ki, ədəbiyyat və incəsənət, *memarlıq*, fəlsəfə və dəqiq elmlər sahəsində xalqımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri *bütün bəşəriyyətin tərəqqisinə,* onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir[648].

Dövlət rəhbəri *tarixi memarlıq abidələrimiz* sırasında, xüsusilə, *Şirvanşahlar sarayının* adını səsləndirib. O deyib: "Şirvanşahlar sarayı Azərbaycan xalqının iftixar etdiyi tarixi memarlıq abidəsidir. Bu həm bizim memarlığımızın ən yüksək səviyyədə olduğunu göstərir, həm də *dövlətçiliyimizin tarixini* əks etdirən bir abidədir, kompleksdir və şübhəsiz ki, *dünyadada* məşhurdur"[649].

1970 və 80-ci illərin əvvəlləri Azərbaycanda memarlıq və şəhərsalma mədəniyyəti sahəsində də intibah dövrü hesab olunur.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini *Əliş Ləmbəranski paytaxtın abadlaşdırılması və tikintisində* böyük xidmətlər göstərib. *Dənizkənarı park* yenidən qurulub, ərazisində *"Bakı Venetsiyası"* şəhərciyi salınıb. *Fəvvarələr meydanı* yaradılıb. 1970-ci illərdə

---

[646] Nəriman Əliyev. Heydər Əliyev və Bakının memarlığı. Bakı. "Ulduz", 2003, 223 s.

[647] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.128-140

[648] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.128-140

[649] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.128-140

*Bakı Dəniz vağzalı*, *Heydər Əliyev sarayı, Respublika velotreki* tikilib, *Azadlıq meydanının memarlıq ansamblı* yaradilib. 1980-ci illərdə *"Gülüstan" sarayı*, yeni *zoopark,* örtülü *idman kompleksi* qurulub. Bakıda yeni mikrorayonlar, *Əhmədli, Günəşli, Badamdar yaşayış massivləri* salınıb.

*Kütləvi kitabxanaların* sayı artırılıb, *Azərbaycan xalçası* və *tətbiqi sənət muzeyi*, Bakıda Üzeyir Hacıbəyov, Səməd Vurğun, Cəfər Cabbarlı, Bülbül, Naxçıvanda Hüseyn Cavidin *ev-muzeyləri*, yeni *tarix-diyarşünaslıq muzeyləri* təşkil olunub. Bakıda 1969-cu ildən *"Qobustan" almanaxı*, 1970-ci ildən *"Sovet türkologiyası",* 1975-ci ildən *"Azərbaycan təbiəti"* jurnalları çap olunub. Azərbaycanda 1946-cı ildə 87 qəzet, 1990-cı ildə 259 qəzet və jurnal nəşr olunub.

Nəriman Əliyev şərh edib ki, Heydər Əliyevin zamanında Bakının baş planı yeni əsaslarla hazırlanıb. İçərişəhər – *"Qoruq şəhəri"* elan edilib. Nəhəng zavod və fabriklər tikilib. Şəhərin mühəndis kommunikasiyaları çəkilib. Magistral yollar salınıb.

1970-1980-ci illərin memarlıq əsərləri bədii-estetik cəhətdən zənginləşib, xüsusi dövr təşkil edib.

Arxitektorlar müasir inşaat materiallarından və texnikalardan istifadə əsasında milli memarlığımızın müasir simasını yaratmaq cəhdində olub. Yaradıcı sərbəstlik nəticəsində 1970-1980-ci illərdə milli memarlığımız yeni bədii-estetik və fundamental-konstruktiv axtarışlar və tapıntılarla zənginləşdirilib.

Heydər Əliyevin zamanında, 1998-ci ildə "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası", "Memarlıq fəaliyyəti", və "Şəhərsalma" əsaslarına dair qanunlar qəbul edilib.

Tanınmış memar Nəriman Əliyevin "*Heydər Əliyev və Bakının memarlığı"* adlı kitabı[650] ön söz və 2 fəsildən ibarətdir. Bu fəsillərdə Bakı şəhərinin orta əsrlərdən, Bakı qalasından sonra gələn 2 parlaq səhifəsinə –Bakının tarixi və müasir dövrdəki inkişafına həsr edilib.

İnqilab Kərimovun *"Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlıq haqqında"* kitabında[651] ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz, o cümlədən, teatr və kino sənətinin inkişafındakı rolu, sənətə, sənətkarlara böyük qayğısı, hörməti və incəsənət barəsindəki fikirlərindən bəhs olunub.

---

[650] Nəriman Əliyev. Heydər Əliyev və Bakının memarlığı. Bakı. "Ulduz", 2003, 223 s.

[651] İnqilab Kərimov. Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı, "Ulu", 2005, 228 s.

*Sübhi Kəngərlinin "Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır"*[652] kitabının tərtibçi-müəllifi C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası ədəbiyyat muzeyinin direktoru, muzeyşünas Sübhi Kəngərlidir (redaktoru Xanım İsmayılova, Muzeyim əmədaşı İradə Məhərrəmova və rəyçisi professor Lətif İtusuzadə). Əsərdə Naxçıvanda muzey quruculuğu, xüsusilə, son 30 ildə muzeylərin geniş şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi, Heydər Əliyevin bu sahəyə qayğısı və diqqəti sənədlər əsasda şərh edilir.

***

***"Azərbaycan qadını mərd,***
***cəsarətli, qeyrətli, namuslu qadındır".***

**Heydər Əliyev**

Ulu öndər *cəmiyyətdə **qadın və ailənin** yerinə, mövqeyinə* dövlətçilik işinin tərkib hissəsi kimi baxıb. Qiymətləndirib ki, qadınlar cəmiyətin bəzəyi, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz. Azərbaycan qadınları da öz ağılları, zəkaları, bilikləri və istedadlarına görə dünya qadınları içərisində çox yüksək yer tutur. Azərbaycan qadınları eyni zamanda cəmiyyətimizi gözəlləşdirir, insanlarda sevinc, məhəbbət, nikbinlik hissləri yaradır. *Qadınların bayramı* bütün xalqımızın, cəmiyyətimizin, ölkəmizin bayramıdır.

Heydər Əliyev qadın mövzusunun tarixinə, onun keçmişi, bu günü və gələcəyinə diqqət yetirib. Dəyərləndirib ki, Azərbaycan qadınının tarixi böyük və zəngindir. Ancaq XX əsrdə Azərbaycan qadınının keçdiyi yol, əldə etdiyi nailiyyətlər *dünya miqyasında* böyük iftixar mənbəyinə çevrilib. Əyaniliklə ifadə edib ki, "Kitabi-Dədə Qorqud"un qadın surətləri bu günə qədər mətinliyin, böyük iradə və mərdliyin parlaq rəmzi sayılıb. Böyük rəhbər xatırladırdı ki, Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik olan şair, hökmdar və qəhrəman qadınlar fəaliyyət göstəriblər. H. Əliyev ümumiləşdirib ki, Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, mərdliyi və vətənpərvərliyi, millətinə və torpağına hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınıbdır".[653]

Ulu öndərin rəhbərliyi ilə qadınların cəmiyyətdə rolu güclənib. Bu sahədə verdiyi fərman və sərəncamlar əhəmiyyətli olub. Qadın və ailə məsələlə-

[652] Sübhi Kəngərli. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan, "Əcəmi", 2003, 92 s.

[653] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.223 -238

rinin öyrənilməsi və təbliği işi aparılan araşdırmalarda da faydalıdır.

*Məlahət Həsənovanın "Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi"* monoqrafiyası [654] Azərbaycan dövlətçiliyində qadınlarımızın yerinə və mövqeyinə həsr edilib. Kitabın ön söz müəllifi akademik T.Bünyadov, redaktoru S.Qəndilov, rəyçisi Zəhra Quliyevadır. Kitabda "Heydər Əliyev və Azərbaycan qadın hərəkatının inkişafı", "Müstəqilli Azərbaycanda qadın hərəkatının yeni mərhələsi", "H. Əliyevin qadınlar haqqında aforizmləri" bölmələri və Ədəbiyyat siyahısı verilib. Ulu öndərin qadın haqqında aforizmlərindən: "Ana həyatın başlanğıcıdır", "Hər birimiz Anaya borcluyuq və hər bir qadın da ana olmaqla fəxr etməlidir", "Təbiət dünyanı dəyişdirərkən cənnəti qadınla əvəz etdi. Biz kişilər cənnət haqqında düşünməməliyik. Cənnət –qadınlar bizim yanımızdadır", "Səadət anlayışı qadın üçün çox böyük, geniş anlayışdır, hər bir qadın istəyir ki, xoşbəxt olsun, o səadətə nail olsun", "Azərbaycan qadını mərd, cəsarətli, qeyrətli, namuslu qadındır", "Dünyanın ən gözəl qadınları Azərbaycandadır", "Qadınların bayramı xalqımızın, cəmiyyətin, ölkəmizin bayramıdır".

Heydər Əliyev hakimiyyətə gələndən sonra qadınların cəmiyyətdə rolu artıb. Azərbaycan Respublikası 1995-ci ildə *"Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında"* konvensiyaya qoşulub. Heydər Əliyev bu sahədə fərman və sərəncamlar verib. 1998-ci ildə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılıb.

[654] Məlahət Həsənova. Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. Bakı, Elm, 2001, 80 s.

***

***"İdman, bədən tərbiyəsi hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir".***

**Heydər Əliyev**

Ümummilli lider Heydər Əliyev bildirib ki, dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir[655]. Ulu ğndər ölkəmizdə ***bədən tərbiyəsi** və **idmanı*** dövlət siyasətinin tərkib hissəsi hesab edib. O, *ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına* xüsusi qayğı göstərib. Ölkə rəhbəri deyib: "İdman, bədən tərbiyəsi *hər bir sivilizasiyalı xalqda,* ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir"[656].

Heydər Əliyevin 90 illiyinə həsr edilmiş *"İdmanın böyük himayədarı"* adlı kitabında[657] Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illərdə ölkədə bədən tərbiyəsi və idmanın inkişafına göstərdiyi qayğıdan bəhs edilib.

Kitab *Ön söz,* "H.Ə.Əliyev – Azərbaycan xalqının ümumilli lideri", "Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövrü (1969-1982), "Müstəqil Azərbaycan idmanında Heydər Əliyev faktoru (1993-2003)", "Ümumilli lider Heydər Əliyevin 1993-2003-cü illər ərzində idman sahəsində keçirdiyi görüşlər", "Ümumilli lider Heydər Əliyevin idman tədbirlərində çıxışları", "Ümumilli lider H.Əliyev idmanla bağlı imzaladığı fərman və sərəncamlar", "Dəyişən illərin dəyişməz dəyərləri" bölməsindən ibarətdir. Bu bölmələrdə idmanda H.Əliyev faktoru, bu sahədə həyata keçirdiyi tədbirlər, idmançılara tövsiyələri, verdiyi fərman və sərəncamlar xarakterizə edilib.

***

---

[655] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.128-140

[656] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.128-140

[657] İdmanın böyük himayədarı, Bakı, 2013, 168 s.

***"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır".***

**Heydər Əliyev**

***"Şuşa İli – 2023"***

2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələri Mədəniyyət Nazirlərinin Daimi Şurası növbədənkənar iclas keçirib. İclas zamanı Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün *"Türk dünyasının mədəniyyət paytaxtı"* elan edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məsələ ilə əlaqədar olaraq "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" 6 dekabr 2022-ci il tarixli Sərəncam imzalayıb.

25 sentyabr 2023-cü ildə Qətər dövlətinin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin XII konfransında İCESKO-nun İslam Dünyasının Mədəniyyət Paytaxtı Proqramına əsasən mədəniyyətimizin beşiyi sayılan Şuşa 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtına namizəd verilib və qəbul olunub. *2024-cü il Şuşa şəhəri İslam dünyasının mədəniyyət paytaxtı* elan edilib.

Heydər Əliyev daim yaddaşımızı oyaq saxlayaraq dərk etdirib ki, Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, qədim abidələrimizin, qədim dövlətçiliyimizin şəhəridir. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, Millətini sevən hər bir vətəndaşımız üçün əziz bir çəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir[658].

Heydər Əliyev çıxışlarında *Şuşanın tarixinə, mədəniyyətinə, qəhrəmanlığına* varıb. Bildirib ki: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan guşəsidir. Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır"[659].

Dövlər başçısı Şuşanı *tarixi muzey* qismində də dəyərləndirib."Şuşa həqiqətən, bir şəhər kimi, eyni zamanda vahid bir muzey– Azərbaycan xalqı-

---

[658] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.305

[659] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.305-310

nın tarixinin, mədəniyyətinin elminin böyük bir hissəsiniəks etdirənmuzeydir”[660].

Şuşanı *mədəni mərkəz* kimi də qiymətləndirib. Təsadüfi deyil ki, 2023-cü il Şuşa *türk dünyasının mədəniyyət paytaxtı* elan edilib. ”Şuşa rayonu Azərbaycanın tarixi və mədəni mərkəzidir, orada Azərbaycan xalqının nadir memarlıq və incəsənət abidələri vardır”[661]

Şuşa *milli, tarixi rəmzimiz* kimi dəyər kəsb edib. Heydər Əliyev söyləyib: ”Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır. Deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir”[662].

Prezident İlham Əliyev*“Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında”* 2 dekabr 2020-ci il tarixli sərəncam imzalayıb. Hər il *8 noyabrın* Azərbaycanda *Zəfər Günü kimi* qeyd edilməsi qərara alınıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi fondu 2022-ci il fevralın 24-də *“Şuşa ili”* münasibətilə tədbir keçirib.

2022-ci ilin martında TÜRKSOY-un Daimi Şurasının iclasında *Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”* elan edilib. 2022-ci il mayın 19-20-də “Türk Dövlətləri Təşkilatı Şuşa şəhərində *“Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf”* mövzusunda beynəlxalq konfrans keçirib.

*Xarıbülbül musiqi festivalının* bayram konserti təşkil edilib. *Vaqif poeziya günləri*
keçirilib. Qarabağ mövzusunda kitablar çap olunub. *Və s.*

Şuşa ilində Azərbaycan Milli Elmlər Akademiyasında da xeyli əhəmiyyətli tədbir keçirilib.

AMEA Mərkəzi Elmi Kitabxanası *“Şuşa – 270” biblioqrafik göstəricisi”ni* (2022) çap etdirib.

AMEA Tarix İnstitutu *“Şuşa – 270”: dünya mədəniyyətləri kontekstində”* beynəlxalq elmi konfrans keçirib (2022).

[660] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.305-310

[661] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.305-310

[662] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.305-310

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu *"Akademiyanın Şuşa-naməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış"* mövzusunda beynəlxalq elmi konfransı təşkil edib.

"Konfransın materiallarında Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə *Vətən müharibəsində* qazanılmış tarixi Zəfər Günü, habelə, Qarabağın və onun ayrılmaz tərkib hissəsi olan Şuşanın tarixi inkişaf yolu və elmi-ədəbi ənənələrindən bəhs olunub"[663].

16 noyabr 2023-cü ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda *"Əhməd Ağaoğlu və türk dünyası"* mövzusunda beynəlxalq konfransın keçirilməsi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" 6 dekabr 2022-ci il tarixli Sərəncamının vəzifələrindən irəli gəlmişdi...

Erməni seperatizmi və onların havadarlarına qarşı 19-20 sentyabr 2023-cü il tarixli lokal antiterror əməliyyatı uğurla başa çatdırılıb. Ağdərə, Xocalı, Xocavənd, Xankəndi, Əskəran bölgələrində şanlı üçrəngli bayrağımız ucaldılıb. 9 Noyabr Bayraq Günümüz qeyd edilib. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Heydər oğlu Əliyev Xankəndidə möhtəşəm *Zəfər paradını* qəbul edib. Ölkəmizin hər yerində *hərbi yürüşlər* olub. Bütün dünya *Tarixin müzəffər qələbəsinə* salama gəlib! Xalqımızın və ordumuzun şanlı qələbəsi Vətənin *Bütövlük Günü* kimi tarixə qovuşub. Heydər Əliyevin dediyi kimi "Azərbaycanın suverenliyini, dövlətçiliyini, müstəqilliyini və torpaqlarını qorumağa qadir olan güclü ordusu vardır"[664]."Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir"[665]. Azadlığın, bütövlüyün, zəfərin mübarək, qürurlu, ləyaqətli Azərbaycan!

---

[663] Beynəlxalq elmi konfransın materialları. Bakı, Elm, 2022, 404 s.

[664] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.47-64

[665] Heydər Əliyev fondu. Electron ünvanı

## MƏDƏNİYYƏT SİYASƏTİNİN MİLLİ VƏ BƏŞƏRİ MƏZMUNU MƏDƏNİYYƏTDƏ

***"Xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb".***

**Heydər Əliyev**

Ulu öndər ***müdrik xalqımız*** haqqında deyib: "Xalqımız *qədim* xalqdır, *qədim tarixə,* böyük *mədəniyyətə* malik olan xalqdır"[666]. Xalqımız əsrlərdən-əsrlərə istedadlar yetirib. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını, elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər[667]. Azərbaycan xalqı istedadlı xalqdır. "Azərbaycan xalqı *bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş edib*, onların əsərləri dünya elmini, mədəniyyətini zənginləşdirib, insanları maarifləndirib[668].

"Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir",– deyə H.Əliyev bildirib. Bu mənada böyük rəhbər milli və bəşəri incəsənət xadimlərinin sənətinə böyük qiymət verib. Onların mədəni-mənəvi irsini həm də milli-bəşəri səviyyədən dəyərləndirib. Ümummilli lider həmişə fəxr edib ki, bizim böyük bəstəkarlarımız, müsiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu Azərbaycan xalqını ruhlandırıb və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırıbdır[669].

Heydər Əliyev xatırladıb: "Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist – bunlar fitri istedada malik olan nadir adamlardır"[670].

Ulu öndər 18 sentyabr 1996-cı ildə – Müslüm Maqomayev və Üzeyir Hacıbəyovun anadan olduğu gün Respublika sarayında görkəmli Azərbaycan bəstəkarı *Müslüm Maqomayevin* 110 illiyinə həsr edilmiş yubiley gecəsin-

[666] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008, s.175-192

[667] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab, Bakı, Heydər Əliyev fondu, 2008,s.175-192

[668] Heydər Əliyev və Azərbaycan elmi. Bakı, "Elm", 2008, 268 s.

[669] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s.128-140

[670] Yenə orada

dən sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxış edib. *Müslüm Maqomayevin 90 və 100 illik yubileyləri* yüksək səviyyədə qeyd edilib.

Müslüm Maqomayev Xalq şairi Nəbi Xəzrinin “Azərbaycan” şeirinə musiqi bəstələyib. Heydər Əliyev mahnı haqqında deyib: “Vaxtilə Müslüm Maqomayev bu mahnının mənə ithaf olunduğunu demişdi. Lakin mən bununla razılaşmamışdım, indi isə qəbul edirəm. Mən bu mahnını sevirəm, o, məni çox həyəcanlandırır, çünki mahnıda deyilir ki, Azərbaycan həyatımın mənasıdır. Azərbaycan, həqiqətən də, mənim həyatımın mənasıdır. Ona görə də bu mahnını qəbul edirəm”[671].

Müslüm Maqomayevin ağsaqqalı görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyev olub.

Azərbaycanın Xalq artisti Müslüm Maqomayevə 17 avqust 1997-ci ildə təbrik məktubu göndərən böyük rəhbər deyirdi: “Güclü səsiniz, coşqun temperamentiniz və yüksək vokal mədəniyyətiniz, üstəlik daim təkmilləşməyə can atmağınız sizi sönməz ulduza çevirmişdir. Çoxcəhətli istedadınız sayəsində siz hər mahnıya təkraredilməz rövnəq verirsiniz, onun ifasını bir aktyorun teatrına çevirirsiniz. Məhz bu məziyyət xüsusi olaraq sizin ifanız üçün yazılmış çoxlu mahnının yaradıcılığına səbəb olmuşdur. Bəstəkarlıq fəaliyyətiniz isə dövrün rəmzinə çevrilən doğma diyarımız Azərbaycanı təcəssüm etdirən əsərlər meydana gətirmişdir”[672].

“Azərbaycanın musiqi mədəniyyətinin inkişafına çox böyük töhfə vermiş yaradıcılığınız, şübhəsiz millətin qızıl fonduna daxil olmuşdur və hələ uzun illər ülvi sənətə xidmət etməyin parlaq timsalı olacaqdır”[673].

Heydər Əliyev məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin yaradıcılığının 35 illiyi münasibətilə yubiley gecəsindəki nitqində (17 oktyabr 1997) dahi sənətkarı yetirən mühit və ənənələri nəzərdə tutaraq deyib: “Əsrimizin əvvəlində musiqidəki, yüksək incəsənətdəki mühit məhz böyük Üzeyir Hacıbəyov və böyük müğənni Müslüm Maqomayevin yaradıcılıqları sayəsində çox güclü şəkildə özünü göstərirdi. Onlar gözəl məktəb yaratmışlar. Üzeyir Hacıbəyovun yaratdığı Azərbaycan Dövlət Konservatoriyasını götürək – bizim musiqiçilərimizin, bəstəkarlarımızın, incəsənətimizin görkəmli xadimlərinin böyük bir nəsli buradan keçmişlər və bütün əsr ərzində Azərbaycanı sevindirirlər, Azərbaycan xalqının musiqidə, incəsənətdə nəyə

---

[671] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.; s.456

[672] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.132

[673] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s.,s.132

qadir olduğunu nümayiş etdirirlər. Məhz Üzeyir Hacıbəyov, Əbdülmüslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi, Rəşid Behbudov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Rauf Hacıbəyov, indi burada bizimlə bir yerdə olan Tofiq Quliyev və bir çox başqaları məhz onlar və onların silahdaşları Azərbaycanda bu gözəl musiqi mühitini yaratmışlar. 30, 40, 50 illərin və sonrakı illərin Azərbaycanı həqiqətən bununla məşhur idi. Bizim əzizimiz Müslüm də məhz bax bu mühitdə doğulmuş, boya-başa çatmış və belə bir müğənni, böyük musiqiçi və böyük vətəndaş olmuşdur”[674].

24 iyul 2002-də Azərbaycan Prezidenti Heydər Əliyev Müslüm Maqomayevin 60 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb. 6 sentyabr 2002-də görkəmli müğənniyə “İstiqlal” ordeni verib.

Müslüm Maqomayev: “Heydər Əliyevin vəfatı mənim üçün ən doğma bir adamın itkisidir. Hələ bir ay əvvəl xəbər tutdum ki, kədərli sonluq qaçılmazdır. Buna baxmayaraq, çox ümid edirdim ki, bu, belə tez olmayacaqdır. Heydər Əliyev mənə ata əvəzi olmuş, həmişə və hər işdə çox böyük mənəvi dəstək göstərmişdir. Bilmirəm, mən niyə onun xoşuna gəlirdim. Axı xasiyyətim ağırdır. Amma Heydər Əlirza oğlu məni daim fərqləndirir, dostu adlandırırdı və hər il öz iqamətgahında doğum günümü qeyd edirdi. Həyatda bəxtim gətirmişdi, çünki Azərbaycan Prezidentini yaxından tanıyırdım. O, dünyamiqyaslı siyasətçi olsa da, şən, xoşbəxt, səmimi insan olaraq qalırdı.

Boyakarlıqla çoxdan məşğul idim. Bir dəfə hədiyyə verdiyim portretdə onu məhz belə təsvir etməyə çalışdım, şən, səmimi. Deyəsən əsərim xoşuna gəldi, söz verdi ki, bu rəsmi öz muzeyindən asacaqdır”[675],– deyə dünyəvi bəstəkar dövlət başçısı ilə bağlı olayları xatırladıb.

Ulu öndər *Fikrət Əmirov* yaradıcılığına yüksək qiymət verib.7 noyabr 2002-ci ildə Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, bəstəkar Fikrət Əmirovun 80 illik yubileyinin keçirilməsi haqqında verdiyi Sərəncamda deyib:

“F.Əmirovun yaradıcılığı XX əsr Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır. Musiqi sənətinin müxtəlif janrlarında yaratdığı əsərləri ilə o, öz adını Azərbaycan musiqi mədəniyyəti tarixinə həmişəlik həkk etmişdir. Fikrət Əmirov yaradıcılığında Azərbaycan milli musiqi ənənələri ilə dünya musiqi mədəniyyətinin nailiyyətləri üzvi şəkildə birləşmişdir. Fikrət Əmirov simfonik muğam janrının yaradıcılarından biridir…

[674] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar*. 3 cilddə, II cild, “Nurlar”, Bakı, 2008, 520 s., s.153

[675] Böyük insan haqqında. Bakı, Azərbaycan nəşriyyatı, 2004, 296 s.; s.119

Onun opera, balet, musiqili komediya, simfonik muğam, xoreoqrafik poema, instrumental konsert, mahnı, romans və sair janrlarda yazdığı əsrləri Azərbaycan musiqi mədəniyyətinin qızıl fondunu təşkil edir. Fikrət Əmirov yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konfrans salonlarında səslənərək, Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir"[676].

Heydər Əliyev 6 dekabr 2002-ci ildə *dünya şöhrətli dirijor, görkəmli bəstəkar Niyazinin 90 illiyinə* həsr olunmuş yubiley gecəsində deyib:"...Əgər Niyazi olmasaydı, Azərbaycanın simfonik orkestri bu səviyyəyə çatmazdı. Niyazi olmasaydı, bizim Azərbaycanın görkəmli bəstəkarlarının yaratdıqları gözəl opera əsərləri, simfoniyalar bu qədər yüksək səviyyəyə çatmazdı. Bunların hamısında Niyazinin xidməti var, rolu var. Və təkcə musiqiçilər yox, bütün Azərbaycan xalqı ona minnətdar olmalıdır.

Şəxsi nöqteyi-nəzərdən Niyazi özünü çox sevdirən bir adam idi, məzəli insan idi. Burada dedilər, onun sərtliyi də var idi. Bəzən heç kəsi eşitmirdi. Mülayimliyi də var idi, hamısı var idi. Bu da təbiidir. Onun xarakteri idi. O, ömrü boyu öz xarakteri ilə yaşadı və böyük işlər gördü. Burada dedilər, yeganə Azərbaycan dirijordu ki, öz ölkəsinin sərhədlərindən çıxıb dünyanın böyük, yüksək musiqi sənətinə malik olan ölkələrində ən tanınmış sinfonik orkestrlərə dirijorluq etmişdir. Bu Leninqrad da olmuşdur. Oranın Opera və Balet teatrı dünyada ən məhşur teatrlardan biridir. Bu, Praqada da, Londonda da, Parisdə də, Türkiydə də olubdur"[677].

***

Böyük mədəniyyət hamisi Heydər Əliyev incəsənətin ***rəssamlıq*** sahəsinə də yüksək dəyər verib, özü də memarlıq və rəssamlıqla qismən də olsa, məşğul olub və bu sahələrə daimi həvəs göstərib. İncəsənət xadimlərini də dövlət mükafatları, habelə, ad günləri, yubileyləri münasibətilə təbrik edib.

Ulu öndər deyib: "Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltaraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdığı əsərlərdir"[678].

Dövlət rəhbəri 15 may 1982-ci ildə yüksək mükafatların təqdimetmə mərasimində təsviri sənətin inkişafında xidmətlərinə görə və anadan olma-

[676] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.; s.235

[677] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.; s.254-255

[678] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s.128-140

sının 60 illiyi ilə əlaqədar olaraq *SSRİ xalq rəssamı Mikayıl Abdullayevi* "Xalqlar dostluğu" ordeni ilə təltif edib. H.Əliyev bildirib ki, Mikayıl Abdullayev peşəsinə sadiqdir, istedadlıdır. V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda təhsil alıb. Azərbaycan rəssamlıq məktəbinin inkişafına layiqincə xidmət göstərib. Mikayıl Abdullayevin yaradıcılığı çoxcəhətlidir.O, əmək qəhrəmanlarının portretlərinin böyük bir qalereyasının müəllifidir, onları sevdikləri işlə məşğul olduqları vəziyyətdə təsvir edir. Rəngkar qəhrəman neftçilərin, kənd əməkçilərinin hünərinə müraciət edir, həmişə həyatın qaynağındadır...

Nizami, Nəsimi, Füzulinin, habelə, neftçilərin, əməkçi qadınların çəkdiyi kompozisiyaları maraqlıdır... Hindistanın təbiəti, həyatı və adamlarından da əsərlər yaradıb. Əsərlər silsiləsinə görə, Cəvahirləl Nehru mükafatına layiq görülüb. Əsərləri ən yaxşı muzeylərdə, xaricdə nümayiş etdirilib. SSRİ Rəssamlar Akademiyasının müxbir üzvüdür. Azərbaycan SSR Ali Sovetinin deputatı, respublika Ali Sovetinin sədri olub[679].

Ulu öndər Xalq rəssamı Mikayıl Abdullayevin 60 illiyinə ünvanladığı məktubunda (18 dekabr 1997) onun sənətinə yüksək qiymət verib. Heydər Əliyev 19 iyun 2003-cü ildə Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Mikayıl Abdullayevin xatirəsini əbədiləşdirmək məqsədilə sərəncam verib. Sərəncam əsasında Fəxri xiyabanda qəbirüstü abidəsi ucaldılıb, yaşadığı binaya xatirə lövhəsi vurulub.

Heydər Əliyev 15 dekabr 1993-cü ildə *Xalq rəssamı Tahir Salahovu* 65 illiyi münasibətilə təbrik edib. Məktubda deyilib: "Əmin olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da xalqımızın mədəniyyətinin dünya miqyasında təbliğ edilməsi, onun mənəviyyatının, bədii-estetik zövqünün zənginləşdirilməsi, gənc rəssamlarımızın böyük sənətə cəlb olunması naminə səylərinizi əsirgəməyəcək, ənənələrlə zəngin olan Azərbaycan təsviri sənətinə yeni töhfələr verəcəksiniz"[680].

Heydər Əliyev 17 dekabr 1994-cü ildə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində *böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin* 85 illiyinə həsr olunmuş sərginin açılışındakı çıxışında deyib: "Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər

---

[679] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.146

[680] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.204

yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəssam illər boyu yaşayacaq və heç şübhə etmirəm ki, zaman keçdikcə, Səttar Bəhlulzadə yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır"[681]. 17 dekabr 1994-cü il tarixli yubiley gecəsində çıxışı zamanı demişdir: "Səttar Bəhlulzadə Azərbaycan Rəssamlıq sənətində yeni bir məktəb yaratmışdır. Onun əsərləri, sənətkarlıq və rəssamlıq üslubu çox orijinal və özünəməxsusdur"[682]. Böyük rəhbər "Fəxri qonaqlar" kitabına ürək sözlərini də yazıb.

Heydər Əliyev məşhur rəssam və müğənni, respublikanın *Xalq rəssamı Toğrul Nərimanbəyovun* yaradıcılıq gecəsindən sonra 12 may 1998-ci ildə konsertin ifaçıları ilə görüşdə Azərbaycan Dövlət Opera və Balet Teatrında çıxış edib.

29 iyun 1998-ci ildə Heydər Əliyev *Azərbaycan Rəssamlar İttifaqının qurultayına* təbrik məktubu göndərib.

***

Heydər Əliyev *ölkə muzeylərinin* yenidən qurulması və zənginləşdirilməsi işinə yaxından diqqət yetirib. 1976-cı ilin yanvarında *Yusif Məmmədəliyevin Ordubadda ev muzeyi* açılıb. Tanınmış alim və partiya işçiləri çıxış edib[683]. Heydər Əliyev 16 sentyabr 1998-ci ildə Bakıda akademik Yusif Məmmədəliyevin abidəsinin açılış mərasimində nitq söyləyib.

Mədəniyyət hamisi 13 oktyabr 1999-cu ildə Naxçıvan şəhərində *Cəlil Məmməquluzadənin ev muzeyinin* açılış mərasimində iştirak edib.

Akademik Bəkir Nəbiyev, Xalq yazıçısı Hüseyn İbrahimov, Xalq şairi Qabil və başqaları çıxış edib. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə nitq söyləyib.

Dövlət xadimi *Azərbaycan professional vokal sənətinin banisi Bülbülün Bakıdakı xatirə ev-muzeyində* çıxış edib (3 dekabr 1997), anadan olmasının 100 illiyinə həsr olmuş təntənəli yubiley gecəsindəki nitqində (3 dekabr 1997) bildirib: "Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tari-

---

[681] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 260

[682] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s. 263

[683] "Kommunist", 1976, 4 yanvar

xində nadir, parlaq bir hadisədir. Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır. Bülbülün sənətinin əsasını təşkil edən onun təkraredilməz səsi, fitri istedadı, fədakarlığı və böyük yaradıcılıq yoludur. Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin, yaradıcısının banisi olaraq eyni zamanda xalqımıza bu sahədə çox uğurlu yollar açmışdır"[684].

Ulu öndər 18 iyun 2002-ci ildə Naxçıvan şəhərində *Bəhruz Kəngərli muzeyinin təntənəli açılış mərasimində,* 24 oktyabr 2002-ci ildə H.Cavidin Bakıda, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda *Hüseyn Cavidin ev muzeyinin açılış mərasimində* nitq söyləyib.

*"Heydər Əliyev və ev muzeyləri" mövzusunda respublika elmi-nəzəri konfransının materialları"nda*[685]Azərbaycanda, əsasən, Bakı şəhərində fəaliyyət göstərən görkəmli şəxslərin ev, xatirə, mənzil və memorial muzeylərinin yaradılması, fəaliyyəti və gələcək perspektivləri haqqında məruzələrin tam mətni toplanıb. Heydər Əliyev Ömər Eldarovun görkəmli oftolmoloq, akademik *Zərifə Əliyevanın xatirəsinə* həsr etdiyi *"Elegiya" adlı əsərin– mərmər abidənin və albomun təqdimat mərasimində*[686] çıxış edib. Ulu öndər deyib: "Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl həqiqətən böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu çox illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin demək olar ki, hamısı ilə tanışam. Hələ 10, 20 il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltaraşlıq sahəsindəki xidmətləri bu fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyirəm. Ömər Eldarovun yaratdığı heykəltaraşlıq əsərləri Azərbaycan xalqının maddi-mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir"[687].

---

[684] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s.,s.259

[685] "Heydər Əliyev və ev muzeyləri" mövzusunda respublika elmi-nəzəri konfransının materialları. Bakı, "Elm və təhsil", 5 may 2023, 148 s.

[686] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.69

[687] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı,

Heydər Əliyev ***milli kinomuza*** təəssübkeşlik və hamilik edib. Bu sahədə qiymətli filmlərin çəkdirilməsinə nail olub. Kino təbliğatı ilə xalqın vətənpərvərlik, milli-mənəvi və azadlıq ruhunu ayıq saxlayıb, mədəniyyət siyasətini həyata keçirib. O, bildirirdi ki, Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir, mədəniyyətə qovuşubdur[688].

*Aydın Kazımzadənin "Heydər Əliyev və kinomatoqraf"* adlı kitabında[689] Heydər Əliyevin "kinomuzun təəssübkeşi və hamisi olması, ümumən, kinomatoqraf haqqında fikirləri təhlil edilib*" (annotasiyasından).*

Əsərdə Heydər Əliyevin kino və kinomatoqrafçılar haqqında dəyərli fikirləri, habelə, kino xadimlərinin Ulu öndər haqqında xatirələrindən bəhs edilib.

Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Əməkdar incəsənət xadimi, Avropa Kino və Televiziya Akademiyasının üzvü *Vaqif Mustafayevin* "Şöhrət" ordeni ilə təltif edilməsi barəsində 27 avqust 2003-cü il tarixli fərman verib.

***

Ümummilli lider ***uşaq və gənclər haqqında*** qiymətli fikirlər söyləyib. Onları ölkəmizin, xalqımızın milli sərvəti, onun ümidi, gələcəyi hesab edib. Ona görə də tövsiyə edirdi ki, uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur.Tapşırırdı ki, biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq, onlara yaxşı təhsil vrrməliyik, onları gələcək üçün yaxşı hazırlamalıyıq. "Bizim ümidimiz, gələcəyimiz bizim uşaqlarımızdır, balalarımızdır", –deyirdi. "Uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir"[690]. "Gələcəyimizi necə tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.Ona görə də bu, bizim müqəddəs borcumuzdur[691]. Buna görə də uşaqlara, gənclərə qayğı və diqqət Azərbaycanın dövlət hakimiyyəti və Prezidentinin ümdə vəzifəsi olub. Ulu öndər uşaqların, gənclərin inkişaf mənbəyinin əsasında elmi, təhsili, ədəbiyyat, mədəniyyət və dini, İslam dinini

2008, 520 s., s.69

[688] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s.128-140

[689] Aydın Kazımzadə. Heydər Əliyev və kinomatoqraf. Bakı, "Mütərcim", 2007, 204 s.

[690] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s.239-256

[691] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s. 239-256

görürdü, bu sahələrlə bütün dünyaya geniş yollar açmağın vacibliyini, lazımlığını bildirirdi. Dövlət rəhbəri göstərirdi ki, gənclər Azərbaycanın genefondudur, onları hərtərəfli qorumalıyıq. "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.Gənclik xoşbəxtlikdir"[692]. Böyük rəhbər milli ideologiya konsepsiyası haqqında danışanda gəncləri birinci növbədə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiqliyini önə çəkib, bu baxımdan onların tərbiyəsini vacib bilib[693].

Heydər Əliyev 2 fevral 2000-ci ildə ***Gənclər gününə*** həsr edilən bayram gecəsində iştirak və çıxış edib. Dövlət başçısı 30 dekabr 2000-ci ildə prezident sarayında ***"Bakılı oğlanlar"*** *komandasının üzvlərini* qəbul edib. O, 10 iyun 2001-ci ildə *"Bakılı oğlanlar"* komandasının konsertində olub.

6 iyul 2001-ci ildə Prezident sarayında *elm, mədəniyyət və idman xadimlərinin* bir qrupu "İstiqlal" və "Şöhrət" ordenlərinə layiq görülüb. H.Əliyev *"İstiqlal" ordenini* Tahir Salahov, Şeyxulislam Allahşükür Paşazadə, Xalq artisti Əminə Dilbazi, Xalq rəssamı Kamil Əliyev, ARDNŞ-in vitse-prezidenti Xoşbəxt Yusifzadə, Xalq artisti Vera Şiryeyə, "Şöhrət" ordenini Mariya Kojnikova, Məmməd Aslan, Bəkir Nəbiyev, İsmixan Rəhimov, Xuraman Qasımova, Fuad Qasımzadə, jurnalist Svetlana Mirzəyevaya təqdim edib.Əminə Dilbazi, Zəlimxan Yaqub, Tofiq Bakıxanov, Hafiz Əmirxanov, Zəroş Həmzəyeva, T.Salahov, K. Əliyev çıxış eləyiblər.

*Beləliklə,* Azərbaycan xalqı bəşər tarixinə, bəşər sivilizasiyasına dahi simalar bəxş edib, onların əsərləri milli mənliyimizi və dünya mədəniyyətini zənginləşdirib.

---

[692] Heydər Əliyev. Müdrik fikirlər.İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s. 239-256

[693] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993 –1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev fondu, 2008, 399 s.; s. 239-256

# BEŞİNCİ FƏSİL

# HEYDƏR ƏLİYEVİN FENOMEN ŞƏXSİYYƏTİ AZƏRBAYCANIN ELMİ-FİLOLOJİ VƏ BƏDİİ-İCTİMAİ FİKRİNDƏ

***"İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-tərəqqi səviyyəsində inkişaf etdirmək üçün şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq".***

**Heydər Əliyev**

## MİLLİ ELMİ SİVİLİZASİYAMIZ SİYASƏT VƏ DİPLOMATİYADA

***"Biz fəxr edirik ki, qədim zamanlardan, orta əsrlərdən Azərbaycanın dünya çöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, başər mədəniyyətini zənginləşdiriblər və eyni zaman da Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar".***

**Heydər Əliyev**

Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev haqqında zəmanəmizin elm[694], ədəbiyyat[695] və mədəniyyət[696] xadimləri qiymətli fikirlər

[694] [1]Akif Əlizadə. Azərbacyan elminin inkişaf strategiyasının banisi. Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.20-29; [2.] Cəlal Əliyev. Heydər Əliyev dünyanın nadir şəxsiyyətlərindən biri idi. Yenə orada. s.30-43; [3]Mahmud Kərimov. Heydər Əliyev siyasətinin elmi əsasları və elm siyasəti. Yenə orada. s.10-19; [4]İsa Həbibbəyli Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası. Yenə orada. s.206-215; [5]İsmayıl İbrahimov. Heydər Əliyevin həm siyasi, həm də mənəvi keyfiyyətlərinə heyran qalırdım. Yenə orada. s.44-49; [6]Arif Mehdiyev. Dahiliyin Heydər Əliyev zirvəsi. Yenə orada. s.50-57; [7]Vasim Məmmədəliyev. Heydər Əliyev və dövlət-din münasibətləri. Yenə orada. s.66-75; [8]Teymur Bünyadov. Bayrağımız, bayraqdarımızdı. Yenə orada. s.76-82; [9] Rəfiqə Əliyeva. Biz ona sitayiş edirdik. Yenə orada, s.82-91; [10] Fəttah Heydərov. Böyük insan, işıqlı şəxsiyyət, müdrik ağsaqqal. Yenə orada. s.106-115; [11]Əhliman Əmiraslanov. Böyük azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır. Yenə orada. s.116-123; [12]Adilə Namazova. Uşaqları çox sevən dövlət başçısı Heydər Əliyev. Yenə orada. s.124-133; [13]Nailə Vəlixanlı. Heydər Əliyev və Azərbaycanda milli muzey işi. Yenə orada. s.134-139; [14]Tofiq Nağıyev. Heydər Əliyev və Milli Ensiklopediya. Yenə orada. s.152-155; [15]Tofiq Hacıyev. Özü, varisi və ana dili. Yenə orada. s.156-165; [16]Məşədixanım Nemət. Könüllərdə yaşayan dahi. Yenə orada. s.166-173;

[17]Siddiqə Məmmədova. Heydər Əliyev. XX əsr türk dünyasının möcüzəsidir.Yenə orada. s.184-191; [18]Ömər Eldarov. Sənətin və sənətkarın hamisi. Yenə orada. s.192-199; [19]Çingiz Qacar. Böyük azərbaycanlı, vətənpərvər və ziyalı. Yenə orada. s.200-205; [20]İsmayıl Hacıyev. Dünya miqyaslı siyasətçi. Yenə orada. s.216-231; [21]Böyükkişi Ağayev. Müdrik və qayğıkeş insan. Yenə orada. s.226-231; [22]Arif Məlikov. Tarixin əbədi simfoniyası. Yenə orada. s.232-239; [23]Rafael Hüseynov. Heydər Əliyevin ən vacib yadigarı. Yenə orada. s.240-261; [24]Rəna Məmmədova. Heydər Əliyev və Azərbaycan incəsənəti. Yenə orada. s.240-261; [25]Səlahəddin Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: "Azərbaycan Universiteti," 2002, 232 s. [26]Lider. Dövlət Cəmiyyət. Bakı: "Azərbaycan Universiteti," 2001, 358 s.; [27]Yaqub Mahmudov. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, "Təhsil", 2002, 328 s.; [28]Nizami Cəfərov. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Azərbaycanda Atatürk Mərkəzi, Bakı, "Çaşıoğlu", 2004, 160 s.; [29]Azərbaycanşünaslığın əsasları. Bakı: "AzAtaM", 2013, 352 s.; [30]Rafiq Əliyev. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı, "Əbilov, Zeynalov və oğulları". 1998, 76 s.; [31]Fəraməz Maqsudov. Heydər Əliyev və Azərbaycan elmi. Bakı: "Elm", 1998, 260 s.; [32]Qoşqar Əliyev. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, "Qismət", 2003, 248 s; [33]Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan – Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-Print, 2010, 609 s; [34]Misir Mərdanov. Azərbaycan təhsil tarixi. Bakı: "Təhsil", 2012, 909 s; [35]Salatın Əhmədova. Heydər Əliyev və ədəbi-tarixi proses. Bakı: "Elm", 2013, 156 s.*Və s.*

[695] [1]Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun elmi araşdırmalarında. Bakı, "Elm", 2004, 148 s.; [2]Heydər Əliyev və mətbuat: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 clddə / tərtibçilər: Ə.Abbasov, T.Əhmədov, R.Mehdiyev. I cild. Yanvar 1990 – iyul 1996. Nurlar NPM, 2003, 640 s. II cild, iyul 1996 – iyul 1998. III cild, İyul 1998 – sentyabr 2000. IV cild noyabr 2002 -mart 2003; [3]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 1998, 178 s; [4]Xatirə Quliyeva. Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı, Azərnəşr, 2002, 176 s; [5]Ramiz Məmmədov. Heydər Əliyev və milli mənəviyyatımız. Bakı, "Nasir", 2004, 104 s; [6]Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı. Bakı, "Nurlan", 2004, 80 s. [7]Adil Abdulla Əl-Fələh. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı, "Qismət", 2007, 108 s. [8]Akif Əliyev. Heydər Əliyev və ədəbiyyatımız. Bakı, "Nurlan", 2007, 307 s; [9]Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. Bakı, "Çinar-Çap", 2007, 136 s; [10]Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, "ADPU nəşr", 2007, 399 s; [11]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, 245 s; [12]Ümumilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri. 2010-cu ilin mayın 5-də keçirilmiş ümumrespublika elmi-nəzəri konfransının materialları. Bakı, "Elm və təhsil", 2010, 422 s; [13]Timurçin Əfəndiyev. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, "Zərdabi LTD MMC NPM, 2011, 260 s; [14]Gülbəniz Babaxanlı. Heydər Əliyev və Hüseyn Cavid. Bakı, "Proqress", 2013, 159 s; [15]Heydər Əliyev irsi və Azərbaycan folklorşünslığının aktual problemləri Bakı: "Nurlan", 2013, 190 s; [16]Ayşən Sadıqlı. Ümumilli lider Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Mütərcim", 2013, 304 s; [17]Leyla Məmmədəliyeva. Elçin publisistikasında "Tənha adam" – Ulu öndər obrazı. Bakı, "Elm", 2016, 116 s; [18]Heydər Əliyev və qədim türk mifoloji folklor irsinə həsr edilmiş elmi-praktik konfransın materialları. Bakı, 2003; [19]Heydər Əliyev və Cənubi Azərbaycan milli-mənəvi dəyərləri. Heydər Əliyev və milli dəyərlər mövzusunda

söyləyib, zəngin faktlar və dəlillər əsasında Ulu öndərin obrazlı təfəkkürünü canlandırıblar.

Ölkəmizin akademiya və universitetlərində fəaliyyət göstərən *elm xadimləri,* habelə, görkəmli *şair, yazıçı və incəsənət xadimləri* ixtisas özəllikləri üzrə deyil, ifadə etdikləri *humanitariya, vətənpərvərlik, insanpərvərlik və vətəndaşlıq* missiyasına görə Heydər Əliyevin sivil şəxsiyyətinə xüsusi diqqət yetiriblər.

---

konfransın materialları, Bakı, 2003; [20]Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil", 2018, 400 s; [21]Bəxtiyar Sadıqov. Heydər Əliyev Azərbaycanda söz və mətbuat azadlığının tərənnümçüsüdür. Dirçəliş – XXI əsr. 2003, №63, s.72-79; [22]Vasim Məmmədəliyev. Heydər Əliyev zəkasının işığı və mənəvi dəyərlərimiz. Dirçəliş – XXI əsr, 2004, № 74-75, s.169-176; [23]Elnarə Akimova. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və Heydər Əliyev. "Azərbaycan", 2014, №5, s.108-114; [24]Fərhad Mədətov. Yeni Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı. Səbir Əhmədlinin romanları əsasında. Bakı, "BDU", 2003, 116 s; [25]Hüseynbala Mirələmov. Həqiqət: publisistik düşüncələr. Bakı, "Azərbaycan", 2003, 446 s; [26]Bir günəş var: tarixi-publisistik düşüncələr. Bakı, "Səda", 2004, 240 s; [27]İşığın izi ilə: tarixi-ədəbi esse. Bakı, "Azərbaycan", 2004, 288 s; [28]Millətin atası: publisistik düşüncələr, tarixi esseler, məktublar. Bakı, "Azərbaycan", 2004, 288 s; [29]Z.Yaqub. Böyük ömrün dastanı. Bakı, XXI-YNE, 2004, 143 s; [30]Ürəklərdə ucalan abidə. Bədii və publisistik əsərlər. Kitab 1, Kitab 2, Kitab 3.Bakı, "Nekfor NT", 2005, 400 s; [31]Zəlimxan Yaqub. Allahım mənə bir ağsaqqal yetir. Bakı, "1993"; [32]Zəlimxan Yaqub. Şair harayı. Bakı, 1995, s.22-24; [33]Zəlimxan Yaqub. Əbədiyyət dastanı. "Ozan dünyası", 2013, №1, s.9-25; [34]Zəlimxan Yaqub. Heydər Əliyev ucalığı. "Ozan dünyası", 2013, №1, s3-8; "Mədəni həyat", 2013, №8, 2-5; [35]Şərəbanı Məmmədova. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Naxçıvan Dövlət Universiteti, "Naxçıvan", 2014, 160 s; [36]Tahir Paşazadə. Heydər Əliyev və Azərbaycan xalq yaradıcılığı. AMEA Folklor İnstitutu. Bakı, 2018, 162 s; [37]Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 93 illik yubileyinə həsr edilmiş "Filologiya elminin aktual problemləri" I Respublika tələbə elmi-praktik konfransının materialları. Bakı, 29 aprel 2016, Bakı, "Mütərcim", 2016, 252 s. *Və s.*

[696] [1]Nigar Ələkbərova. Mədəniyyət və siyasət. Bakı, "Azərbaycan", 2000, 288 s; [2]Heydər Əliyev və Azərbaycan incəsənəti. Bakı, "Elm", 2000, 124 s; [3]Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab Bakı, 2001, 438 s. II kitab. Bakı, 2001,547 s; [4]İnqilab Kərimov. Heydər Əliyev: sənət, sənətkar və sənətkarlıq haqqında. Bakı, "UlU İKF, 2005, 228 s; [5]Müasir Azərbaycan mədəniyyəti: problemlər və perspektivlər. Bakı, EL NPŞ MMC, 2007, 256 s.; [6] Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə. I cild, 1969-1982, 1993-1996, Bakı, "Nurlan", 2008, 504 s; [7]Heydər Əliyev və mədəniyyət. 3 cilddə. II cild, 1997-1998, Bakı, "Nurlar", 2008, 520 s; [8]Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild, 1999-2003, Bakı, "Nurlar", 2008, 536 s; [9]Heydər Əliyev: mənəviyyat, mənəvi dəyər, mənəvi tərbiyə, Bakı, "Müəllim", 2011, 635 s; [10]Nağdəli Zamanov. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Kitab 1. Bakı, "Elm və təhsil", 2013, 477 s; [11]Ərtegin Salamzadə. Heydər Əliyev və Azərbaycan bədii mədəniyyəti. Türkologiya, 2017, №2, s.54-60**.** *Və s.*

2013-cü ildə AMEA-nın sabiq prezidenti, *akademik Akif Əlizadənin* rəhbərliyi ilə "*Azərbaycan və azərbaycanlılar*" adlı qiymətli kitab çapdan çıxıb.

Kitab Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi münasibətilə cənab prezident İlham Əliyevin Sərəncamı əsasında nəşr edilib.

***Elmdə:*** Akademik *Akif Əlizadə* Heydər Əliyevi Azərbaycan elminin inkişaf strategiyasının banisi adlandırıb.O, *"Azərbaycan elminin inkişaf strategiyasının banisi"* məqaləsində dahi rəhbərin obrazını müdriklik simvolu, xalqın intellektual gələcəyi *(elm və təhsilə qayğı),* milli müstəqilliyin intellektual zəmini olaraq elm və təhsil, elmi-tədqiqat institutlarının yaradılması, intellektual potensiala *(AMEA-ya)* qiymət, elm və mədəniyyət, sosial həyat sahəsində yeni uğurların əldə olunması baxımından canlandırıb[697].

Akademik *Arif Mehdiyev* "*Dahiliyin Heydər Əliyev zirvəsi*" adlı məqaləsində[698] Heydər Əliyev obrazının əsas cizgilərini iqtisadi, siyasi və mədəni *inkişafa xidmət*, elm, təhsil, texnika, mədəniyyət və digər sosial sahələrdə *kadr hazırlığı,* dünya siyasi arenasında *böyük nüfuz*, *müdrik siyasət, dönməz əqidə* və *tarixi uzaqgörənlikdə*, bir də Azərbaycan Milli Elmlər Akademiyasina *milli sərvət kimi dəyər* verməsi ilə səciyyələndirib.

Müstəqil milli dövlətin atributlarından biri kimi Azərbaycanın türk-islam birliyi ölkələrinə qovuşması milli dövlət siyasətinin tərkib hissəsi olub. Bu baxımdan akademik *Vasim Məmmədəliyevin* "*Heydər Əliyev və dövlət-din münasibətləri*" məqaləsindən[699] Azərbaycan və türk-islam birliyi tarixi gerçəkliyinin ideya ifadəsi əsas xətt kimi keçib, ideoloji mətn üçün başlıca məfkurə-obraz müəyyənliyi *Heydər Əliyev fenomeni* olub. Məqalədə insanın dini adətlərə qayıdışı, İslam dininin inkişafında dövlətin rolu, ölkədə bütün millətlərə dinindən, dilindən, irqindən və siyasi mənsubiyyətindən asılı olmayan tolerant münasibət – *azadlıq və hürriyyət,* islam dinini qorumaqla *əxlaq və mənəviyyatımıza ehtiram*, başqa *millətlərə və dinlərə hörmət*, *islam dəyərlərinə münasibət,* müsəlman olmaq fəxarəti, başqa dinlərlə barış və anlaşma hissi əhatəli ifadəsini tapıb. Akademikin məqaləsində *mədəniyyətdə demokratiya və hüquq*, demokratiyada yüksək mənəviyyat, *tərbiyədə islam dəyərlərindən* qaynaqlanma, milli dünyəvi dövlətdə *dinlə bir-*

[697] Akif Əlizadə. Azərbacyan elminin inkişaf strategiyasının banisi. Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.20-29

[698] Arif Mehdiyev. Dahiliyin Heydər Əliyev zirvəsi./ Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.

[699] Vasim Məmmədəliyev. Heydər Əliyev və dövlət-din münasibətləri./ Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.

*lik, həmrəylik, dinlə dövlətdə sıx əməkdaşlıq,* zəngin *milli mentalitet* qavrayışı və dərki xüsusilə obrazlaşdırılıb.

AMEA-nın müxbir üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor *Yaşar Qarayevin "Müstəqillik dövrünün milli öndəri"* adlı elmi-publisistik məqaləsi "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabındandır[700]. Məqalə *"Müstəqilliyimiz əbədidir"* və *"Qayıdış"* kitabları, habelə, müstəqillik dövrünün *bədii ədəbiyyatı* əsasında yazılıb. Analitik yönlü, sosial-siyasi və fəlsəfi-etik əsərdir

Professor Yaşar Qarayev dövlət və sənət məsələlərinə mental dəyərlər səviyyəsindən yanaşıb, göstərib ki, torpağın və yaddaşın sərhədləri belə bir sərvətin olduğu yerdə –vahid və bölünməz məkanda parçalanmır. Bütün hallarda qələbələrimizin hamısı bu güclü və müstəqil dövlətin, dövlətçilik şüurunun möhkəmliyi zəminində mümkün olur[701]. Elə sabitliyin də əsas səbəbi mentalitetin –milli-mənəvi dəyərlərin dövlətin keşiyində ayıq-sayıq dayanması ilə bağlı olub.

Görkəmli alim Yaşar Qarayev "Müstəqillik dövrünün milli öndəri" adlı fəlsəfi yazısında Ümummilli Lider Heydər Əliyevi *ədəbi-tarixi yaddaş və tarixi şəxsiyyət* baxımından təqdim edib, onun siyasi fəaliyyətini yüksək qiymətləndirib. Yazıb ki, yeni yüz ildə, yeni minillikdə Azərbaycanda miqyaslı sabitliyin, əmin-amanlığın qorunmasında xalqın vaxtında seçdiyi Heydər Əlirza oğlu Əliyev adlı tarixi şəxsiyyətin müstəsna xidmətləri vardır[702].

Y.Qarayev Heydər Əliyevin Ümummilli lider obrazını 3 *tarixi mərhələ* baxımdan təqdim edib: *1.1990-cı illərə qədərki rəhbər-ideoloq, ictimai-siyasi xadim. 2. Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini.3. Öndərlik, tarixi missiya fəaliyyəti*[703].

Alim bu tarixi mərhələlərdə siyasi rəhbərin hərtərəfli fəaliyyətinin əsaslarına dövlətçilik və ədəbiyyat fəlsəfəsi zəminindən diqqət yetirib.

Müəllif əvvəlcə Ulu öndərin *milli xarakterini* oxucuya təqdim edib. Yəni Heydər Əliyev üçün siyasət fövqəlməqsəd olmayıb; o, hakimiyyətə tankda gəlməyib və hakimiyyətdən təyyarədə qaçmayıb. Arxaik, populist iqtidar

---

[700] *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 1998, s.125-177; Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri (5 cilddə), V cild, Bakı, "Elm", 2016, 728 s.

[701] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.9

[702] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.9

[703] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.9-10

davası və belə davaların çevriliş, qəsd, piket, terror kimi üsulları onun bioqrafiyasına yaddır. Heydər Əliyev müasir demokratik dəyərlərlə, parlaman yolu ilə, siyasi intellekt və unikal iradəsi ilə ibtidai, kustar, primitiv mübarizəyə yer qoymayıb. Nəticədə bütün bu ali keyfiyyətlərilə millətin coşub-daşan enerjisini dəqiq məcraya, uğurlu axara yönləndirə bilmişdir[704].

Y.Qarayev hesab edib ki, Heydər Əliyevə *ideoloq və ictimai-siyasi xadim* kimi "həm xoşbəxt, həm də tragik şəxsiyyətin həyatını, taleyini yaşamaq qismət olmuşdur"[705]. Alim bu əzəmətli şəxsiyyətin xarakterindəki müxtəlifliyi təcəssüm etdirib:"Ümumiyyətlə, bu tərcümeyi-hal çox ziqzaqlıdır: o, imperiya lideri də olub, fərdi təqaüdçü də, istiqlal lideri də olub, DTK generalı da. Ən böyük təqdirin də hədəfi olub, ən kəskin tənqidin də; ləyaqətinə şər atmaq üçün də, şəninə mədhiyyə demək üçün də mikrofonda növbəyə düzülənlər həmişə tapılıb. Amma bu dəyişən mərhələlərin də hamısında təkcə bir şey dəyişməyib: eyni bir daxili, fitri ideala xidmət əzmi, *milli Azərbaycan ideyası!* Ən böyük əbədi sabitliyi o, məhz milliliyə, müstəqilliyə, suverenliyə sədaqətdə göstərib"[706].

Yaşar Qarayev Heydər Əliyevin siyasi xadim kimi həm *sovet,* həm *keçid*, həm də *müstəqillik* mərhələlərindəki fəaliyyətinə diqqət edib. Göstərib ki, Heydər Əliyev xalqı, milləti üçün tarixi məsuliyyəti həyatı boyu yaşayıb, milli-mənəvi dəyərlərimizdən sonsuz güc alıb: "Dövlət, cəmiyyət miqyasında sabit, qlobal ictimai əxlaq, təfəkkür və ideologiya yalnız onda sabitləşir və etibarlı olur ki, o, milli-mənəvi dəyərlərə güvənir"[707]. "Məhz bu mənada Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində ən böyük öndərlərin vəsiyyət və ənənəsinə sadiq qalır"[708].

Yaşar Qarayev Heydər Əliyevin *xarakter fərdiyyətində* siyasət və sənət birgəliyi görüb, ona bu baxımdan dəyər və qiymət verib: "Heydər Əliyevin ifasında və icrasında həmişə siyasət də sənət, siyasətçi də sənətkar səviyyəsinə qalxa bilir. Daha doğrusu, məhz "siyasət əməldə, hərəkətdə fəlsəfəyə çevriləndə (yalnız bu zaman!) siyasətçi də sənətkara çevrilir, filosof təcəssümü, mütəfəkkir obrazı, alim statusu ala bilir. Bütün bunlar "Heydər Əliyev fenomenindən həm də bir sənət və sənətkarlıq hadisəsi kimi danışmağa əsas verir. Belə bir söhbətin təkcə siyasi ideya əsası yox, həm də konkret ədəbi predmeti var: son iki ildə Heydər Əliyevin beş fundamental kitabı

[704] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.12
[702] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.13
[706] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.13
[707] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.13
[708] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.13

çapdan çıxıb və elmi ictimaiyyətə çatdırılıb"[709].

Ədəbiyyatımızın filosofu analitik təhlillərində 2 suala cavab axtarıb: *1. Heydər Əliyev kimdir? 2. "Əliyevlik nədir?"* O, suallara cavab amacı ilə Azərbaycanın siyasi dövlətçilik tarixinə ekskursiya edib, siyasi-tarixi keçmişi bir məcrada canlandırıb: "Azərbaycanda Mircəfər Bağırovdan sonra milli rəhbərin siyasi müstəqilliyi az qala sıfıra bərabər idi (keçid dövründə /1988-1993/ bu qeyri müstəqillik həm "yuxarılardan" /Moskva, Kreml/, həm də "aşağılardan" iki qat asılılıq şəklini almışdı). Bu ölçünü sıfırdan sonsuza gətirib-çıxaran Heydər Əliyev oldu. Hətta, sovet dövründə də Heydər Əlirza oğlu öz müstəqillik *(milli mənafeyə sədaqət)* fəaliyyətini dondurmadı. Onun türk ağılı Siyasi Büronun vahid rus-slavyan düşüncəsində aydınca seçildi və o, bu ali rəhbər strukturda da türk-islam lideri kimi təkcə sovet məkanında yox, bütöv dünyada türklüyün mənafeyini cəsarətlə müdafiə etdi. Azərbaycanın milli mənafeyi naminə Baş katibin özünü düz üç dəfə Bakıya gətirdi..."[710]

Heydər Əliyev ittifaq miqyasında *görkəmli rəhbər-ideoloq və ictimai-siyasi xadim* olub: "Azərbaycanın dövlətçilik təcrübəsini bütün sovet məkanında yaymaq üçün Y.V.Andropov şəxsən H.Ə.Əliyevi Moskvaya, Kremlə dəvət etmişdi"[711]. Y.Qarayev o möhtəşəm 10 ili yox, böhranlı, ağır və çətin, lokal son beş ili bir rəhbər kimi H.Əliyev üçün öz tərcümeyi-halının və önderlik fəaliyyətinin zirvə məqamı hesab eləmişdir[712].

Ümummilli Lider bu baxımdan Gürcüstanın Prezidenti E.A.Şevardnadre ilə özü arasında bir bənzərlik görüb və bunu etiraf edib. E.Şevardnadze gürcü xalqı üçün nəyi etmişdirsə, Heydər Əliyev də Azərbaycan xalqı üçün onu edib.

Y.Qarayev Heydər Əliyevi bizə *sərt həqiqətlər məcrasında* təqdim eləyib. Parçalanma Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə aradan qalxıb, milli dövlətçilik xilas edilib, ərazinin bərpası üçün ilkin şərait, obyektiv tarixi imkan yaranıb, bu istiqamətdə miqyaslı, strateji diplomatiya başlanıb.

Müəllif Heydər Əliyev *xarakterinin inam və iradəsini* müxalifətin öz cəbhəsindən canlandırıb: "Taleyin ən çətin anında, tarixi intixab və sınaq məqamında da tələb, cəngavər, müdrik öndəri əməldə, işdə hamı etiraf və

[709] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.14

[710] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.19-20

[711] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.10

[712] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.10

təsdiq etdi: opponent də, həmfikir və həmkar da! Təsəvvür edin: indiki müxalifət könüllü şəkildə hakimiyyətdən əl çəkdi, əvvəl spiker kürsüsünü, sonra prezident masasını tərk etdi ki, vakansiyanı yeni lider tutsun. Bu –Heydər Əliyev şəxsiyyətinə və intellektinə inamın, etibar və ehtiramın ifadəsi idi"[713].

Y.Qarayev Heydər Əliyevin *əyilməz, məğlubedilməz ruhunu* dəqiq, obrazlı təcəssüm etdirib: müxalif arsenala qarşı dövlət xadimi güzəştsiz olub. "Ömründə tək bir dəfə diz çöküb: bir prezident kimi əyilib milli bayrağı öpəndə..."[714]

Alim Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" və "Qayıdış" kitabları üzərində geniş dayanıb[715] onların həm də elm, sənət və ədəbiyyatımızla bir bütövdə olduğunun nümunəsini göstərib.

Y.Qarayev beş kitabda böyük rəhbərin *qlobal siyasətdə unikal, elit şəxsiyyət* olduğunun faktlarını verib, hesab edib ki, "beş fundamental kitabda... məhz elitar peşəkarlığın və qeyri-adi, unikal təhtəl şüurun, intuisiyanın stixiyası cisimləşir və sənədləşir"[716].

Kitablarda siyasi müstəqillikdə dönməzliyin nəzəri təlimi, elmi-strateji əsasları, intizam və icra kodeksi, canlı həyat təcrübəsi, gündəlik dərsləri göstərilib. Yaşar Qarayev Heydər Əliyevdən müstəqil dövlətçilik tarixində haqqı olan şəxsiyyət kimi danışıb. Bu haqqın arxasında Azərbaycanda və keçmiş sovet məkanında yarım əsrə yaxın rəhbərliyin sınaqdan çıxmış tarixi təcrübəsi durur. Bu haqqın arxasında Heydər Əliyev şəxsiyyətinin qlobal miqyası ilə epoxal vüsətinin vəhdəti dayanır.

Mütəfəkkir Y.Qarayev mövcud beş kitabın əhatə tarixi, coğrafiyası, milli-mənəvi məkanı və dəyərləri haqqında intonasiyalı danışıb, fərdi filosof özəlliyini təcəssüm etdirib. Belə: "Beş kitabda əhatə olunan dörd ildən əvvəlki dörd-beş on illiyin də, ondan sonrakı üç ilin də alt qatı və arxa planı görünür, yaxınlaşan üçüncü eranın astanasında həm ən qədim türk və islam dəyərlərini, həm də Avropa mentalitetinin ən modern siyasi dəyərlərini içinə alan miqyaslı fon, məcra və məkan müəyyənləşir"[717].

Alim Heydər Əliyevin *siyasi natiqlik məharətinin fərdiyyətini*, onun ca-

---

[713] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.12

[714] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.13

[715] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, "Qayıdış", Bakı, 1997

[716] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.15

[717] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.15

zibəsini sözün ecazkar qüdrətilə maddiləşdirməyə xüsusi səy göstərib. Bir baxın: "Öz şifahi nitq üslubu, improvizasiya təbiiliyi ilə də müəllifin dili, ifadə tərzi ənənəvi rəsmi ədadan (konselyariya və profokopsiya) əsaslı şəkildə fərqlənir, fikrin dinamizmi, sözün enerjisi, kəlmənin bədii zərbə gücü –bunların hamısı tribunadan gəlir, auditoriya ilə birbaşa ünsiyyətdən gəlir"[718].

Heydər Əliyevin natiqlik gücünün fərdilikləri, unikallığı detalları ilə dəqiq ifadə edilib: "Uçuşqabağı verilən intervülər, səfərbərlik anında xalqa xitablar, əcnəbi opponentlə təkbətək dialoqlar, dünya liderləri ilə müsahibələr məqamında mikrofona deyilmiş improvizasiyalar... Onlarda fitriliyin təbiiliyi, sözdə, tələffüzdə, ahəngdə və ritmdə etnik ilkinliyin, ozan-əcdad stixiyasının duruluğu və diriliyi var"[719].

Y.Qarayev tarixi sənəd olan "Qayıdış" kitabını və bu qayıdışı akademiklər İsa Həbibbəyli və Rafael Hüseynov kimi obrazlı mənalandırıb: "Heydər Əliyevin milli öndərlik tərcümeyi-halında *"müstəqillik mərhələsi"* onun Naxçıvana tarixi qayıdışı ilə başlayır. Təsadüfi deyil ki, bu dövrlə bağlı sosioloji və publisist çıxışların toplandığı kitab da "Qayıdış" adlanır... Naxçıvanda başlayan "qayıdış" Bakıda davam etdi və Azərbaycanda sosial-mədəni tərəqqi tarixində doxsanıncı illər təzədən yetmişinci illərin təbii, məntiqi davamına çevrildi. Ənənədə tarixi estafet, dövlətçilikdə irsilik probleminin həlli aradakı "böhran" və "parçalanma" mərhələsindən çıxa bilməyin yeganə mümkün və məqbul yolu kimi özünü doğrultdu. Yetmişinci və doxsanıncı illər bir-birinin davamına, Heydər Əliyev isə hər iki on ilin müştərək, ortaq liderinə çevrildi. Genetik kökə, milli "Mən"ə, tarixi yaddaşa, dünya ilə inteqrasiyaya daha miqyaslı şəkildə qayıtdı... *Bütün bunların da məntiqi yekunu və nəticəsi o olacaq ki,* ***Qarabağ Azərbaycana və Şuşa Qarabağa qayıdacaqdır"***[720].

Filosof-alim Heydər Əliyevin *5 kitabını "Müstəqillik haqqında elm"* adlandırıb və bu kitabları türk dövlətçilik tarixini dünyaya bəyan etmiş "Qutadqu-bilik"lə – xoşbəxtlik haqqında elmlə bağlayıb.

Y.Qarayev Heydər Əliyev *fitrətinin nəzəri yazmaqdan çox, praktik-əməli hərəkət xüsusiyyətini* də orijinal ifadə edib: "Türk dövlətləri, öndərləri tarixi işlə və əməllə həyatın özündə yazmağa daha çox üstünlük verir, nəinki

---

[718] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.15

[719] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.15-16

[720] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.16

onu qələmlə, kağızda yazmağa. Məhz bu ənənələr də Prezident Heydər Əliyevin simasında yenidən birləşib vəhdət təşkil edir: *o, tarixi əməllə həyatda, həm də qələmlə kitabda yaradır"*[721].

Əsərdə analitik təhlillər kifayət qədər davamlıdır: "Tarixi də, tarix kitabını da yaradarkən filosof, mütəfəkkir və yazıçı Heydər Əliyev qələmə və kağıza ehtiyac hiss eləmir. Unikal hadisədir ki, bu kitablar əslində, əlyazması olmayan kitablardır[722]. "Şərqdə ərənlər, şamanlar, ozanlar... yazmağa yox, söyləməyə üstünlük veriblər"[723].

Məqalədə Heydər Əliyevin kitabları ilə "Avesta", "Qorqud" kitabları arasında obrazlı müqayisələrin də öz hüsnü, öz cazibəsi var: "Avesta"nın da, "Qorqud"un da avtoqrafları –əlyazmaları yoxdur. Əvəzində "gen yazmaları" var, damarda, qanda yazılan "qan yazmaları" var, hafizədə, huşda, ruhda qorunan "yaddaş yazmaları" var. Və mən burada sehrli və ibrətli bir tipologiya görürəm"[724].

Filosof maraqlı müqayisələr edib: üstünə *"sinif", "inqilab", "dövlət", "proletar"* sözləri yazılmış kitablar var. *"İntibah", "Ana vətən", "Azadlıq", "Millət", "Xalq"* sözləri yazılmış kitablar da! Birincidə –ölüm, keçicilik, lokallıq, ikincidə – əbədi tarix, qlobal, bəşəri dünyagörüş, şüur və yaddaş vardır!

Y.Qarayev *"Heydər Əliyev kimdir", "Əliyevlik nədir"* suallarına "Qayıdış" kitabı vasitəsilə cavab verib. Fikir konkretdir: "Əliyevliyin ən böyük qələbəsi onun xalqla, zamanla vəhdətidir. Xalq –Öndər münasibətlərinin tənasübü budur! Heydər Əliyev hasarı, səddi tarixi-milli arxetiplə ən çağdaş dünya, Avropa dövlətçilik mentaliteti arasından götürdü, onları vahid axara yönəltdi", – Y.Qarayev belə düşünüb! Müəllif davam edib: *"Heydər Əliyev – Zaman, Heydər Əliyev – Tarix* münasibətlərində bir məqam da diqqəti cəlb edir. Heydər Əliyevin ideya rəqibləri həmişə və hər yerdə olub, amma ən böyük qələbəni o, Zamanla əlbəyaxada qazanıb. 75 il –zamandan fəth olunan nəhəng zirvə deməkdir. Və bu zirvədə hər şey –birinci növbədə yaddaş toxunulmaz, suveren və bütöv qalıb: bu 75 ildə zaman bu yaddaşdan bir sm. də olsa, ərazi işğal edə bilməyib!.."[725] Doğrudan da, mənalı və mahiyyətlidir! Mütəfəkkir Yaşar Qarayev "Milli dirçəliş günü"nü *(17 noyabr 1988),* "Dövlət müstəqilliyi günü"nü *(18 oktyabr 1991),* "Qurtuluş günü"nü *(15 iyun 1993)* dövlət müstəqilliyinin tarixi qanunauyğunluğu kimi dəyər-

---

[721] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.17
[722] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.17
[723] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.17
[724] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.18
[725] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.19

ləndirib!

Ədəbiyyatımızın mütəfəkkiri Yaşar Qarayev Heydər Əliyevin adı və xidmətlərilə bağlı *ədəbiyyat və incəsənət faktlarına* müqayisələr əsasında böyük məna verib, tarixin və yaddaşın parçalanmasının nəticəsi kimi torpaq parçalanmalarından, yaddaşın parçalanması faktlarından danışıb: "...Vətənin torpağının beşdə biri işğal zolağına, millətin yeddidə biri qaçqına və didərginə həmin mərhələdə çevrildi *(1990-1998 – Ə.Ə.).* Milli iflas, daxili siyasi, hüquqi, mənəvi hərc-mərclik, hərbi xəyanətlər, dövlət çevrilişi cəhdləri əbədi, əzəli dəyər və sərvətlərin qiymətdən düşməsi, mənəvi ictimai həyatın, istisnasız bütün sahələrdə "bazar dövrü" bu vaxtdan başlandı"[726]. "Qara yanvar (1990), Ermənistandan, Əsgərandan, Xankəndindən qaçqınlar, Sumqayıt, Quqark, Bağanis-Ayrım, Ağdaban, Xocalı, Şuşa tacirləri bu vaxt baş verdi. Beş ilə seçilən, lakin bir ildə duruş gətirməyən iqtidarlar, dörd il ərzində üç prezident (üç hakimiyyət) dəyişməsi mənəvi-ədəbi-bədii həyatda da qeyri-sabitliyə gətirib çıxardı. Siyasi-ictimai həyatın özündəki mürəkkəblik, rəyasətçi şizofreniya elə bir miqyas aldı ki, hətta, orta soldat təfəkkürlü və adi bez parça, yun idraklı adam da prezidentlik iddiasına düşdü. Təkcə torpaq yox, tarix də parçalandı: üzdən iraq populist "dahilər" hər şeyi yenidən, sıfırdan (bazardan, vağzaldan) başlamağın bədnam yoluna ayaq qoydular. Yüz illər boyu yaranan hər şeyə – hətta, Mirzə Fətəliyə, Sabirə, Mirzə Cəlilə əl qaldıran nankorlar meydan suladı"[727].

Yaşar Qarayev tarixin hadisələrini, dərslərini ardıcıl izləyib. Xaos – çox keçməmiş, ümummilli hərəkata təsirini göstərib, Xalq Cıdır düzünə, Topxanaya yox, sahil meydanına axışıb: "Ümummilli hərəkat – erməni ilə Qarabağ davası, Torpaq və Vətən savaşı çeşidli təbəqələr, tayfalar və qruplar arasında vəzifə və mənsəb davasına, "yuxarılarla" "aşağılar" arasında hakimiyyət və rəyasət qarşıdurmasına çevrildi. Kükrəyən kütlə Şuşa və Laçın hayında, həm köhnə, həm də təzə "rəhbərlər" vəzifə və karyera hayında! Heydər Əliyev – Moskvada, "ev dustağı" halında!"[728]

Analitik təhlilçi xaosdakı ahəngi də unutmayıb: "Bu son dövrü – 1990-1998-ci illər arasındakı zaman zolağını həm ədəbiyyatda, həm də tənqiddə bugünkü tarixi finala gətirib çıxaran qanunauyğunluq baxımından bir boşluq hesab etmək olmaz: siyasətdə də, ideologiyada da bilavasitə bugünkü mərhələnin astanası məhz bu dövrün sosial, ictimai və ədəbi hadisələri

[726] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 clddə. V cild, Bakı: "Elm", 2016, s.25
[727] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.25
[728] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı:"Elm", 2016, s.25

idi..."[729] "Ədəbiyyatın milli "Mən"ə, əcdada, kökə, mənəvi suverenliyə qayıdış çağırışları artıq ilk real bəhrələrini verməyə başladı. Şəkinin, Gəncənin, Beyləqanın, Goranboyun tarixi adları özünə qaytarıldı. Latın əlifbası bərpa olundu, üçrəngli bayraq, səkkiz guşəli ulduz, ənənəvi milli dövlət simvolikası əməli, hüquqi status əldə etdi. Milli azadlıq hərəkatı real bəhrələri verdi. Bağımsız Azərbaycan bərabər hüquqla dünya səltənətləri sırasına daxil oldu. Azərbaycanın bayrağı BMT-də dalğalanmağa başladı"[730].

Yaşar Qarayev məqalə boyunca bədii yaddaşdan ibrətli örnəklər verib, əxlaqi böhran faktlarına diqqət yetirib, Anar, Elçin, Sabir Əhmədli, Zəlimxan Yaqub yaradıcılığından nümunələr gətirib, bu fonda Heydər Əliyevin tarixi fərmanlarını xatırladıb. Dövlət fərmanlarında başlamış vətəndaş yanğısı, obrazlı desək, sözün divanında, ədəbiyyatda davam etmişdi. "Bu, artıq siyasətin sənəti, Heydər Əliyevin Anarı və Sabir Əhmədovu qabaqlaması demək idi"[731].

Müəllif məqalə boyu sənətlə siyasətin qovuşan, kəsişən məqamlarına, tarixin və sənətin təcrübəsinə istinad edib, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Arazın istiqlal poeziyasından, Zəlimxan Yaqub və Vaqif Səmədoğlu poeziyasından heyrətli məntiqlə, müqayisə və təşbehlərlə söz açıb, sənətin və siyasətin gücünü vəhdətdə canlandırıb.

Məqalə müəllifi yeni tarixi dövr üçün nəzəri təkliflər ünvanlayıb, müasir humanitar elm, ədəbiyyat və incəsənətin təcrübəsini, tarixi inkişaf mənzərəsini, nəzəri problemləri öyrənməyi vacib bilib və hesab edib ki: "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ilin əvvəlində EA əməkdaşları ilə görüşdə irəli sürdüyü cari və perspektiv vəzifələrin, konseptual problemlərin həlli də yalnız humanitar istiqamətin keyfiyyətcə yeniləşməsi zəminində axıracan gerçəkləşə bilər"[732].

Alim vacib bilib ki, müstəqil dövlətçilik şəraitində qədim dövr, orta əsrlər, XIX-XX əsrlər, dil, ədəbiyyat və incəsənətin yeni tarixi konsepsiyası işlənməli, klassik milli etnogenezin sənətdə əksini tapan inkişaf mərhələlərinə diqqət yetirilməli, Azərbaycan və türk xalqlarının mədəniyyəti, ədəbiyyat, dil, fəlsəfə, folklor, etnogenez, tarix, etnopsixologiya və siyasət problemlərinin kompleks tədqiqi başlanmalı, türk xalqları arasındakı elmi-mədəni və siyasi əlaqələr qüvvətləndirilməli, dünya türkologiya mərkəzləri ilə

[729] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.24
[730] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.24
[731] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.32
[732] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.60

yeni, müasir əlaqələrin yaradılması mexanizmi işləməli, Bakı və Elmlər Akademiyası yenidən dünyanın türkologiya mərkəzinə çevrilməlidir[733].

Dahi rəhbərin *siyasi liderliyini* şərtləndirən amillər üzərində ardıcıl dayanan akademik *İsa Həbibbəyli* onun liderlik istedadının *birinci mərhələsini* keçmiş sovet hakimiyyəti illəri ilə bağlayıb, onun milli dünyagörüşlü, təcrübəli xadim olmasını, cəsarətli ideyalar irəli sürməsini, böyük təşkilatçılıq qabiliyyətini, bacarığını və uzaqgörənliyini, Heydər Əliyevin siyasi liderlik nümunəsini təcəssüm etdirib. Təsadüfi deyil ki, *Avropa siyasiləri onu dünya sivilizasiyasında elit şəxsiyyət* adlandırıb.

Akademik İ.Həbibbəyli siyasi liderin müstəqillik dövründən başlayan *qüdrətli xilaskar* missiyasına xüsusi diqqət yetirib. Heydər Əliyev Dünya azərbaycanlılarının Həmrəylik gününü elan edib, Yeni Azərbaycan Partiyasını *(21 noyabr 1992)* yaradıb, milli qurtuluş hərəkatının əsasını qoyub, "beləliklə, 15 iyun 1993-cü il müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil olmuşdur"[734].

Alim Heydər Əliyevin *siyasi liderliyinin* digər səciyyəvi hadisələrini onun prezidentlik dövrü ilə əlaqəli şərh edib. O, 3 oktyabr 1993-cü ildən ömrünün sonuna qədərki mövcud siyasi islahatların gedişini izləyib və qiymətləndirib ki, "geniş miqyaslı böhranı, vətəndaş qarşıdurmasını aradan qaldırması, dünyanın aparıcı dövlətləri ilə "Əsrin müqaviləsi"ni imzalaması, Bakı-Tiblisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz borusu çəkilişləri ilə bağlı qərarları, xalqın iqtisadi böhranlardan xilası, ordu quruculuğu, dövlətçilik təsisatlarının milli əsasları, müstəqillik dövrünün Azərbaycan Konstitusiyası *(12 noyabr 1995),* milli parlamentin formalaşdırılması, sosial-siyasi sabitliyin möhkəmləndirilməsi, beynəlxalq sahədə əlaqələr, xarici və daxili siyasət strategiyası, geniş mənada Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda müstəqil dövlətçiliyin möhkəm əsaslarının yaradılması milli qurtuluşun məntiqi yekunu və qanunauyğun nəticəsi kimi mühüm tarixi hadisədir"[735].

İ.Həbibbəyli keçilmiş tarixi yolu diqqətdə saxlayıb, fərdiləşdirib ki, Heydər Əliyevin müdrik siyasətilə Gəncə qiyamı yatırılıb, Talış-Muğan Respublikası dağıdılıb, ölkədən qanunsuz hərbi sursatlar yığışdırılıb, silahlı dəstələr tərksilah edilib, dövlət çevrilişi cəhdləri aradan qaldırılıb, ordu quruculuğu prosesi sürətləndirilib. "Ona görə də görkəmli dövlət xadimi Hey-

---

[733] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə. V cild, Bakı: "Elm", 2016, s.61

[734] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.23

[735] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.23

dər Əliyev Azərbaycan xalqının və müstəqil dövlətinin qüdrətli xilaskarıdır... Ümummilli lider Heydər Əliyev Azərbaycanda Böyük Qurtuluşun banisidir"[736], "İnkişaf etmiş müstəqil Azərbaycan Milli Qurtuluşun parlaq nümunəsidir"[737].

Akademik İsa Həbibbəyli Heydər Əliyevin *islahatçılıq missiyası* üzərində geniş dayanıb (neft müqaviləsi, ordu quruculuğu, Azərbaycanın Yeni Konstitusiyası və milli parlamentizmi), Ulu öndərin siyasi iradəsi ilə yaranıb möhkəmləndirilmiş sosial-siyasi sabitliyin mahiyyətini, respublikanın dünya ölkələri ilə normal əlaqələr qurmasını, ölkəmizin xarici strategiyasının düzgün xəttini, diplomatiya bacarığını, ölkənin beynəlxalq aləmdə artan nüfuzunu, Avrasiya Dəmir İpək Yolunun əhəmiyyətini, ölkənin tranzit ölkəyə çevrilməsini ifadə edib, Heydər Əliyev Azərbaycan Respublikasını Milli Qurtuluşdan yeni intibaha çatdıran görkəmli dövlət xadimi kimi xarakterizə olunub: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionlarının inkişafı, qeyri-neft sektorunun "turizmin inkişaf etdirilməsi və Bakıətrafı qəsəbələrin yenidən qurulması proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi ölkəmizin simasını tanınmaz dərəcədə dəyişdirmişdir. Aparılan məqsədyönlü və möhtəşəm quruculuq işləri paytaxtımız Bakını dünyanın müasir şəhərləri sırasına çıxarmışdır"[738].

Hazırda Azərbaycan dövlətçiliyinin yeni epoxası çoxcəhətli, məqsədyönlü, yorulmaz mübariz, analitik təfəkkürlü, müdrik siyasətçi, dərin baxışlı ölkə prezidenti *İlham Əliyevlə* bağlıdır. Milli mənafe, dövlətçilik maraqlarının üstünlüyü onun siyasətinin təməl prinsipidir, siyasi yanaşmaların hamısı *Azərbaycançılıq fəlsəfəsinə* xidmət edir.

İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən görkəmli siyasi liderdir. Bu dövlətçilik bacarığı isə "müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır", "böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır"[739].

Heydər Əliyevin milli dövlətçilik təlimi İlham Əliyevin çoxcəhətli fəaliyyətinin strategiyasıdır. "Heydər Əliyev siyasi kursu – Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsaslarından ibarətdir. Heydər Əliyev təlimi – ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yo-

---

[736] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.26

[737] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.27

[738] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.213

[739] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013,Bakı, NPB, 2013, 272, s.42

lunun uzunmüddətli proqramıdır. Heydər Əliyev fəlsəfəsi – Azərbaycan idealının ölkənin çoxcəhətli inkişafında özünütəsdiqinin dialektikasından ibarətdir. Ölkəmizin Prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, ardıcıllıqla və yaradıcılıqla həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və istedada malikdir"[740].

İlham Əliyev Heydər Əliyevin dövlətçilik strategiyasını yaradıcı şəkildə, böyük səriştə ilə inkişaf etdirir. Əsər müəllifi yazıb: "Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezidentimiz İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, böyük idarəçilikdə Heydər Əliyev siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir"[741]. Daha bir tezisi də qiymətlidir: "Prezident İlham Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin qüdrətli memarı, geniş mənada isə bütövlükdə yeni çağın, müasir dövrün görkəmli siyasi lideridir"[742].

Akademik İsa Həbibbəyli təbii ki, İlham Əliyev siyasətinin Azərbaycançılıq, millətlərarası münasibətlər sistemi, neft siyasəti, enerji təhlükəsizliyi, dünyəvi sferada çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi, dövlətçilikdə xalq amilinin aktual məsələlərini qabardıb: "Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır"[743].

Alim İlham Əliyevin siyasi fərdiyyətini həm də bunlarda görüb: mühüm dövlətçilik məktəbi keçməsində! Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsili, Krım mühitindəki proseslərdən xəbərdarlığı, Azərbaycan Dövlət Neft Şirkətində birinci vitse-prezidentliyi, Respublika Olimpiya Komitəsinin Prezidentliyi, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, Baş Nazir kimi vəzifə məsuliyyəti, həyat təcrübəsi və siyasi təcrübəsi, Avropa dillərində sərrast danışmaq qabiliyyəti və s. "Heydər Əliyevin dövlətçilik və si-

[740] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013,Bakı, NPB, 2013, 272 s., s.42

[741] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.69

[742] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013,Bakı, NPB, 2013, 272 s., s.72

[743] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.95

yasət akademiyasından" dərs alan İlham Əliyevi – "Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında ilk növbədə əsl, həqiqi, dönməz Heydər Əliyevçini görür və yüksək dəyərləndirir"[744].

XX əsrin II yarısında Heydər Əliyev Azərbaycan xalqının tarixi müqəddəratında mühüm rol oynayıb. Görkəmli dövlət xadimi Azərbaycan xalqının tarixini, mədəniyyət və ədəbiyyatını dərindən bilib, ədəbi-tarixi irsdən bacarıqla istifadə edib, N.Gəncəvi, M.F.Axundzadə, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, H.Cavid, M.Ə.Sabir, Ə.Cavad, S.Vurğun, R.Rza, B.Vahabzadə, X.Rza və M.Arazı özünə mənəvi varislər bilib. Ədəbiyyat həm də milli dövlət müstəqilliyi uğrunda mübarizədə Heydər Əliyevin məfkurə siyasəti olub. Bu baxımdan alimin bir neçə tezisini konkretləşdirməyin də əhəmiyyəti böyükdür: dövlət xadimləri xalqı həm də milli ədəbiyyatın zəngin ideyalarının işığında mübarizəyə hazırlayıblar. Siyasətin və ədəbiyyatın qarşılıqlı əlaqəsi milli mənafelərə xidmət edən böyük elmin də əsas problemləri sırasındadır. Hazırda siyasətlə ədəbiyyatın bir yerdə, qarşılıqlı əlaqədə tədqiqat predmeti götürülməsi də müasir dövrün böyük elminin əsas vəzifələrindəndir. "Bu mənada dövlətçilik siyasətində Mustafa Kamal Atatürkdən Heydər Əliyevə, ədəbiyyatda Nizami Gəncəvidən, Yunus İmrədən çağdaş ədəbiyyata qədər keçilən çoxəsrlik siyasi-tarixi və ədəbi yolun təcrübəsinin vahid mövqedən öyrənilməsi mühüm elmi nəticənin əldə edliməsinə sanballı töhfə verə bilər"[745]. *Dahilik və zaman böyük siyasətin, böyük elmin və ədəbiyyatın əbədi problemidir.*

İsa Həbibbəyli *Heydər Əliyev və Yeni Azərbaycan Partiyasının* (21 noyabr 1992-ci il) vəhdətindən danışarkən onun təşkilini Azərbaycanın gələcək taleyi və rifahı üçün ümumrespublika səviyyəli siyasi hadisə kimi qiymətləndirib.

İsa Həbibbəyli *"Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə" (2007)* əsərində tarixə Heydər Əliyev partiyası kimi daxil olmuş bu faktı altı mühüm tezisdə ümumiləşdirib. Birincisi, bu partiya Heydər Əliyevin XX əsrin 90-cı illərində dünya və ölkədə gedən ictimai-siyasi prosesləri dəyərləndirmək, dövlətə və xalqa kömək etmək, ölkəni böhrandan çıxarmaq, müstəqil dövləti xilas etmək zərurətindən yaranıb və əsası 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində qoyulub. İkincisi, partiyanın Proqram və Nizamnaməsi Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Üçüncüsü,

[744] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.97

[745] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.49

ömrünün sonuna qədər bu partiyaya rəhbərlik edib. Dördüncüsü, ölkənin əsas ziyalı potensialı, aparıcı siyasi qüvvələri Heydər Əlyevə görə bu partiyanın sıralarına daxil olublar. Beşincisi, partiyanın I və II qurultayları Heydər Əliyevin rəhbərliyi ilə keçib, məruzə və çıxışları bu partiyanın inkişaf strategiyasının əsasını təşkil edib. Altıncısı, bu partiya Ulu öndərin sayəsində şöhrət tapıb, beynəlxalq aləmdə tanınıb. Geniş mənada xalqın dəstəyi ilə ölkə prezidentliyinə seçilmiş Heydər Əliyev fəaliyyəti ilə Azərbaycan siyasi tarazlığını qoruyub saxlayıb, müstəqil dövlət təbliğ olunub, siyasi proseslər, mövcud ideologiya yönləndirilib və Azərbaycançılıq sahəsində Yeni Azərbaycan Partiyası mühüm xidmətlər göstərib.

Partiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin taleyində də özünəməxsus rol oynayıb. Minlərlə gənc İlham Əliyevin ardıcılı olaraq taleyini Yeni Azərbaycan Partiyası ilə bağlayıb. O, partiyanın inkişaf etdirilməsi, imicinin qorunması, aparıcı qüvvə olaraq qalması, iqtidar partiyası olmasına, genişlənməsinə ciddi fikir verib, yeniləşən Azərbaycanın yetkin siyasi partiyası kimi şöhrətini getdikcə artırıb.

İlham Əliyevin dünya birliyi ilə əlaqələrinin genişləndirilməsi, inteqrasiya proseslərinin dərinləşdirilməsi sayəsində partiya da özü üçün geniş perspektivlər açıb. İsa Həbibbəyli yekunlaşdırıb: "Yeni Azərbaycan Partiyasının görkəmli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyevdən ölkəmizin Prezidenti İlham Əliyevə qədər keçdiyi şərəfli yol müstəqil Azərbaycan dövlətinin siyasi tarixinin ən parlaq səhifələrini təşkil edir"[746].

*"Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasirlik"* (2010) məqaləsində akademik İsa Həbibbəyli yazıb ki, Heydər Əliyev dünyada sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimidir. Onun xüsusi rəğbət bəslədiyi şair və yazıçılar olub, hətta Cəlil Məmmədquluzadənin "Ölülər", Səməd Vurğunun "Azərbaycan", Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam", "Molla Nəsrəddin" məcmuəsi, Üzeyir Hacıbəylinin "Koroğlu", Hüseyn Cavidin "İblis" əsərlərinə üstünlük verib. Heydər Əliyev ədəbiyyata xalqın milli tarixi varlığı, mədəniyyətinin üzvi hissəsi kimi baxıb. Heydər Əliyev ədəbiyyatda tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər verib. "Millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir"[747].

[746] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.60

[747] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, Bakı, NPB, 2013, 272 s., s.76

İsa Həbibbəyli ədəbiyyat siyasətində *tarixilik prinsipi* üzərində də əsaslı dayanıb. “Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır”[748]. İsa Hüseynov, Elçin, Əzizə Cəfərzadə, Hüseyn İbrahimov, Fərman Kərimzadə, Əlisa Nicat və başqalarının tarixi mövzuda əsərləri milli-tarixi özünüdərk baxımından əhəmiyyətli olub. Tarixi mövzuda teatr tamaşaları, film çəkilişləri də bu sıraya daxildir.

Alim ədəbiyyat siyasətində bir faktoru da *müasirlik prinsipində* görüb. Bəlgələyib ki, böyük siyasətçinin nəzərində müasirlik geniş kateqoriya alıb, müasir düşüncəni, yeni təfəkkürü ədəbiyyatda və sənətdə ehtiva edib. O, bu baxımdan Heydər Əliyevin: “Öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir” tezisini nümunə gətirib.

İsa Həbibbəyli ümumiləşdirib ki, yeni dövr Azərbaycan ədəbiyyatının son yarım əsrdəki inkişafında Heydər Əliyevin ədəbiyyat siyasətinin mühüm əhəmiyyəti olub. Hazırda vacib vəzifə ədəbiyyatda Ümummilli liderin ədəbi-bədii obrazını yaratmaqdır. *Yeri gəlmişkən,* belə bir vəzifə “Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala” adlı 2018-ci il tarixli kitab ilə həyata keçirilib. “2023 – “Heydər Əliyev İli”ndə isə Ədəbiyyat İnstitutu daha bir filoloji-ideoloji kitabı– “Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə” əsərini Ulu öndərin yubileyinə hədiyyə edib.

*“Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr” (2013)* adlı əsəri görkəmli dövlət xadimi Heydər Əliyevin *çoxillik ictimai-siyasi fəaliyyətinə* həsr edilib. Akademikin “Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr” monoqrafiyasında Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük xidmətlərindən, yeni epoxada Naxçıvan Muxtar Respublikasında gedən ictimai-siyasi proseslərdən və elmi-mədəni hadisələrdən bəhs edilir”[749].

[748] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s., s.84

[749] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, 272 s.

Kitab *giriş, "Dahilik və zaman", "Həyatda və böyük siyasətdə İlham Əliyev körpüləri"* və *"Naxçıvan Muxtar Respublikası: Heydər Əliyevdən İlham Əliyevə"* adlı üç bölmədən ibarətdir.

Girişdə Heydər Əliyevin "Azərbaycanın böyük yaradıcısı və qurucusu, əsl mənada xilaskar və müdrik rəhbər", "beynəlxalq aləmdə, dünya siyasəti miqyasında mühüm sima" kimi fəaliyyəti şərh olunub.

Müstəqil Azərbaycan Heydər Əliyevin möhtəşəm əsəridir, – deyən akademik İsa Həbibbəyli Ümummilli liderin Azərbaycançılıq təliminə ümumi baxış ifadə edib, xüsusilə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ulu Öndərin 90 illik yubileyi haqqında 21 yanvar 2013-cü il tarixli Sərəncamından nümunə gətirib, böyük rəhbərin tarixi-siyasi fəaliyyətinin əsas istiqamətlərini əhatə edib: "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsi, müasir Azərbaycan dövlətinin qurulması və xalqımızın müstəqillik arzusuna çatmasına nail olubdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayıb və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır"[750].

Kitabın *"Dahilik və zaman"* bölməsinə "Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası", "Heydər Əliyevin Azərbaycançılıq siyasəti: ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə", "Dahilik və zaman", "Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə", "Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr", "Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasirlik" əsərləri daxil edilib.

Alim Heydər Əliyevin siyasi-tarixi fəaliyyətini üç dövrdə xarakterizə edib: Sovet rejiminin inkişaf dövrü (1969-1986), mürəkkəb keçid prosesləri dövrü (1987-1990), milli dövlət müstəqilliyi dövrü (1991-2003). Əsər müəllifi bu dövrlərin geniş analitik sosial-siyasi təhlillərini verib və bütövlükdə

---

[750] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Bakı, NPB, 2013, Bakı, NPB, 2013, 272 s., s.4

onu Heydər Əliyev siyasi kursu kimi xarakterizə edib. Müəllif 35 illik epoxanın sosial-siyasi nəticələrini bir nümunəvi məktəb hesab edib: "Heydər Əliyevin qiymətli siyasi irsi: məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar, hətta verdiyi tapşırıq və tövsiyələr küll halında həmin böyük siyasət məktəbinin möhtəşəm və mötəbər dərsliyidir. Heydər Əliyev siyasi kursu zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir.

Kitabın ikinci bölməsi "Həyatda və böyük siyasətdə İlham Əliyev körpüləri" adlanır. Bu bölmədə "Yalnız İlham Əliyevlə", "İlham Əliyevin dövlətçilik strategiyası: çoxaspektli yanaşma, dinamik inkişaf və modernləşmə", "İlham Əliyev körpüləri: həyatda və siyasətdə", "Böyük quruculuğun və vətənpərvərliyin uğurlu hesabatı", "Xəzərdən Ceyhana və Cahana" əsərləri verilib.

Müəllif*"Böyük qayıdış epopeyası"(2022)* məqaləsində Azərbaycan Zəfərini çoxəsrlik tariximizin nadir hadisəsi hesab edib. Bu Zəfər Vətən müharibəsi– Qarabağ savaşında qazanılmış tarixdir. 44 gün ərzində Azərbaycan Ordusu təcavüzkar Ermənistanın 30 illik işğalına son qoyub. "Azərbaycanın Vətən müharibəsi dünya hərb tarixinə ədalətli müharibə nümunəsi kimi daxil olmuşdur"[751]. Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin siyasi ideoloqudur. İsa Həbibbəyli də yazıb ki, "II Qarabağ savaşında –Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevin qazandığı tarixi Zəfər uzaqgörən görkəmli dövlət xadimi Heydər Əliyevin göstərdiyi mübarizə yolunun yaradıcı çəkildə davam və inkişaf etdirilməsi, uğurla başa çatdırılmasının misilsiz nümunəsidir"[752].

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Milli Qurtuluş Günü– 15 iyun 2021-ci il tarixdə azad olunmuş Şuşa şəhərində imzaladıqları Şuşa Bəyannaməsi Böyük Qayıdış epopeyası ideyalarının gerçəkləşdiriləcəyinin möhtəşəm siyasi, hərbi və iqtisadi təminatıdır"[753], –deyə İ. Həbibbəyli inamını ifadə edib. Alim siyasi ideyanın mənbəyini belə ümumiləşdirib: "Azərbaycan–Türkiyə birliyi uzaqgörən görkəmli dövlət xadimi Heydər Əliyevin "Bir millət– iki dövlət" ideyasının beynəlxalq miqyasda və dövlətlərarası münasibətlərdə ən çətin sınaqlardan alnıaçıq səviyyədə çıxmış sarsılmaz həmrəyliyinin əyani təcəssümüdür"[754].

[751] Azərbaycan ədəbiyyatşünaslığı, 2022, № 2, s.6
[752] Azərbaycan ədəbiyyatşünaslığı, 2022, № 2, s.6
[753] Azərbaycan ədəbiyyatşünaslığı, 2022, № 2, s.11
[754] Azərbaycan ədəbiyyatşünaslığı, 2022, № 2, s.11

*7 may 2018-ci ildə* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə həsr edilmiş *"Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala"* mövzusunda elmi konfrans keçirilib. Akademik İsa Həbibbəyli konfransı açaraq Heydər Əliyev irsinin mahiyyəti, reallıqları, fəlsəfəsi və tarixi əhəmiyyəti, kitabın məqsəd və vəzifələrindən danışıb.

15 dekabr 2022-ci ildə *"Akademiyanın Şuşanaməsi:ədəbi-tarixi ənənə və gələcəyə baxış"* adlı beynəlxalq elmi konfrans keçirilib. "Elmi-filoloji fikirdə Şuşa mövzusu" bölümündə 30 məruzə dinlənilib. Konfransın materialları çap olunub[755]. Materiallarda "Elmi-filoloji fikirdə Şuşa mövzusu","Qarabağ ədəbi mühiti: tarix və müasirlik", "Şuşa mövzusu bədii publisistikada", "Şuşa mövzusu bədii nümunələrdə" bölmələri verilib.

Heydər Əliyev ilinə həsr edilmiş 28 fevral 2023-cü il tarixli *"Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri"* mövzusunda keçirilmiş elmi sessiyada isə akademik İsa Həbibbəyli geniş giriş sözü söyləyib, Ulu öndərin dövlətçilik zirvəsini fəthindən, 1970-ci illərin milli intibahından, böyük rəhbərin keçib gəldiyi siyasi yolun tarixi əhəmiyyətindən, AMEA-da geniş tədbirlər planının hazırlanması və həyata keçirilməsindən, Qarabağ Zəfərində Heydər Əliyevin Milli Ordu quruculuğu və diplomatik uğurlarından, bu parlaq zəkanın elmə göstərdiyi tarixi xidmətdən və əldə etdiyi böyük töhfələrdən, 2 cilddə "Heydər Əliyev Ensiklopediyası"ndan, Azərbaycan, türk və dünya alimləri və dövlət adamlarının iştirakı ilə keçiriləcək beynəlxalq konfransın perspektivlərindən, dahi liderə həsr edilmiş yeni kitab nəşrlərindən, elmi-tədqiqat jurnalları –xüsusi buraxılışların hazırlanması və çapından, il boyu keçiriləcək tədbirlərdən, Ədəbiyyat İnstitutunun yubiley sahəsində xüsusi fəallığı və əldə etdiyı mühüm elmi nəticələrdən əhatəli məlumat verib. Elmi sessiyada Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev "Azərbaycan reallığında Heydər Əliyev epoxası", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu ”Müstəqillik dövrü nəsrində Heydər Əliyev", f.e.d. Elnarə Akimova "Ədəbiyyatda azadlıq ideallarının intişarında Heydər Əliyevin rolu", f.e.d. Əlizadə Əsgərli "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" və professor Vüqar Əhməd " Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda məruzə edib.

Akademik İsa Həbibbəyli Heydər Əliyevin ictimai-siyasi xadim obrazını çeşidli məqalələr və kitablar fonunda canlandırıb, müəllifin yazı üslubuna hissi idrakın duyğu, qavrayış, təsəvvür, məntiqi idrakın anlayış, mühakimə

[755] Akademiyanın Şuşanaməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış (tərtib edəni Ə.Əsgərli). Bakı, "Elm", 15 dekabr 2022-ci il, 404 s.

və əqli nəticələrinin ictimai-siyasi, ideoloji-mənəvi və əxlaqi-fəlsəfi rəngləri qarışıb.

Akademik *Rafael Hüseynov* professor Tərlan Novruzovun "Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı"[756] kitabına yazdığı *"Dayaqlar"* adlı ön sözündə deyib: "Azərbaycanın 2 prezidenti – unudulmaz Heydər Əliyev və onun dövlətçilik, vətənçilik yolunun layiqli davamçısı *İlham Əliyev* dövlətə başçılıq etdikləri illərin hamısında sözün gerçək mənasında ədəbiyyatın, ədəbiyyat adamının qayğıkeşi olublar, Böyük Sözümüzü həm də dövlət işinin mühüm bir hissəsi sayıblar"[757].

Ədəbiyyatşünas-alimin nəzəri görüşlərində *"dayaq" anlayışı* Heydər Əliyev obrazının simvolik mənasıdır. Müəllif "dayaq" qavrayışının bir bəlgəsini belə dəyərləndirib: "Hər ikisi müdrik şəxsiyyətlər olduqlarından həm ədəbi irsimizi, o sərvətləri yaratmış misilsiz dühaları qaldırıblar, çağdaşı olduqları yaradıcılara pasibana çevriliblər, həm də bu sərvəti və gücü məharətlə dövlətin, Azərbaycanın, ölkəmizin, millətimizin daha da hörmətli, şöhrətli, qüdrətli olması səmtinə yönəldiblər"[758].

Rafael Hüseynov yazısında daha pafoslu, emosional, estetikdir, esseist düşüncə və məntiqlə yazıb, Heydər Əliyev və İlham Əliyev dayaqlarına yüksək səviyyədə obrazlı, bədii-publisistik münasibət bildirib.

Mətn təhkiyəsində İlham Əliyevi Heydər Əliyev işığında daim "hərəkətdə" göstərən müəllif "dayaq" qavrayışının məna və fəlsəfəsinə varıb, Heydər Əliyev Şah İsmayıl Xətaiyə müncər edilib. İlham Əliyev isə "dayaq" olaraq Heydər Əliyevdən güc alır və bir-birini tamamlayır: "Müasir müstəqil Azərbaycan dahi Heydər Əliyevin şah əsəridirsə, müasir firavan, güclü sabaha inamlı Azərbaycan da Prezident İlham Əliyevin şah əsəridir"[759].Və hər ikisi olduğu yerdə – bu dayaqda "Azərbaycan əslində olduğundan daha böyük görünür"[760].

Alimin nəzərində "dayaq" Heydər Əliyevin və xalqın varolma və irəliləmə düsturudur. İlham Əliyev bu düsturun nəticəsi, cavabıdır. R.Hüseyno-

[756] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı.Bakı, "Elm və təhsil", 2015, 444 s.

[757] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.4

[758] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.4

[759] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.15

[760] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.15

vun cənab Prezidentin seçki ilində arzuları daha təravətli səslənir: "Bu gün ona – Prezidentimizə və millətə – hamımıza bir ülvidən-ülvi arzum var – könül istər ki, həmin əziz millət bayramına imzanı Prezident İlham Əliyev öz həyatının yeni başlanan ikinci yarım əsrinin birinci ilində hamımızın ömrünün təzə başlanacaq növbəti ilində atsın"[761].

Ədəbiyyatşünas-alim dövlət-millət-rəhbər birgəliyinin dayağını da orijinal ifadə edib: "Böyük Sabah Quruculuğunda Azərbaycan ədəbiyyatı, Azərbaycanın zamanının sınaqlarından ötüb gələn möhtəşəm bədii sözü və indi yaranan ədəbi sərvətləri Prezident İlham Əliyevin yenilməz dayaqlarındandır.

Və bu ədəbiyyat, bu ədəbiyyatın əbədi ömürlü inciləri, bu ədəbiyyatı yaratmış və yaratmaqda davam edən istedadlar da xoşbəxtdirlər ki, onların Prezident İlham Əliyev kimi qüdrətli, canıyanan, dəqiq və ədalətli, qiymətləndirməyi, layiqincə şərəfləndirməyi bacaran Dayağı var!

Belə əzəmətli Dayaqlar vəhdətdə olduqca Azərbaycan daha da ucalacaq"[762].

Akademik Rafael Hüseynov *"Heydər Əliyevin ən vacib yadigarı"* adlı məqaləsində[763] Heydər Əliyevin əbədiyyətə qovuşma anlarında düşüncələrini ifadə edib. Alim hesab edib ki, İlahi Qüdrət nadir şəxsiyyətləri millətlərə və məmləkətlərə sərvət kimi, irs kimi yetirir.

Alim Heydər Əliyevin ölməz obrazının səciyyəvi xüsusiyyətlərini *Tarix fonunda* göstərib. Çünki bu fon pozulmazdır. "Azərbaycan Tarixinin pozulmaz yazısında Heydər Əliyev adı və möhürü əbədilik qalacaq – bu, şübhəsizdir"[764].

Rafael Hüseynov Heydər Əliyevi *Tarixin ayrılmaz bir parçası* hesab edib, xatırladıb ki, o, qətiyyətli, cəsarətli, yenilikçi, risksevər olduğu halda, ömrünü çərçivəyə salıb, davranış və danışığına sədd qoyub, buna baxmayaraq, yeri olanda, "özünüifadəyə daha münbit meydan tapardı, tarix səhnəsində yeni-yeni keyfiyyətləri, məziyyətləri ilə görünərdi"[765].

Alim Heydər Əliyevin *müstəsna şəxsiyyət* faktını ifadə etmək üçün XX əsrin 80-ci illərinin sonları, 90-cı illərin əvvəllərini xatırladıb: "Onsuz yaşa-

---

[761] T.Novruzov. Müstəqillik illərində Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.19

[762] Rafael Hüseynov. Dayaqlar. Bax: Tərlan Novruzov. Müstəqillik dövründə Azərbahycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.; s.20

[763] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.243

[764] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.243

[765] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.243

dıq və gördük nələr baş verir! Gördük sənətimiz nə təhər dəyişir, gördük illərlə qazandıqlarımızı nə asanca itirə bilirik"[766].

Akademikin Heydər Əliyevi ifadə fərdiyyətinin forması orijinaldır: "Sovet "KQB"-sinin sıravi əməkdaşından general rütbəsinəcən, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderlərindən birinə qədər yüksəlmək elə möhtəşəm universitetlər idi ki, o yolu qədəm-qədəm adlayandan sonra çox üstün qafalı insanşünas və cəmiyyətşünasa çevrilmək labüd idi"[767].

Müəllif məqaləsində hər bölmənin birinci cümləsində bir iqrari hökm verib, sonra onun izahı, təfsilatı gəlib. Məs: "İkinci Heydər Əliyev olmayacaq", yaxud "Vaxt hamımızdan güclüdür" və s. Yuxarıdakı fikir əslində "İkinci Heydər Əliyev" olmayacaq hökmünün şərhi, izahıdır.

Rafael Hüseynov həmişə faktı göstərməyi, nəticəni verməyi xoşlayır. Məs: fakt budur: "Heydər Əliyev cavan deyildi, bütün vəzifələrini itirmişdi, bağında oturub dincələn, ömrün qalan parçasını yaxşı halda, imkan versələr, sakit təqaüdçü güzəranı keçirməklə başa vurmalı bir klassik idi". Məhz klassik! Nəticə: *Bu, tale ilə barışmadı!"*[768] *Birinci, yenə Üstün, yenə Qüdrətli olmaq üçün Qayıtdı*"[769].

Alim nəticələrə, xülasələrə qədər –dəyər, qiymət, mənalandırma effektləri ardınca gedib. *Fakta, nəticəyə fon verib:* "Heydər Əliyevin qayıdışı bütün ba°qa xüsusiyyətlərdən əlavə, bir də ona görə əlamətdar oldu ki, bu nadir °əxsiyyətin ömrünün qayıdış parçasını, qayıdışdan sonrakı fəaliyyətlərini görməsəydik, onun istedadının əsl parlaqlığını, onun şəxsiyyətinin əsil nəhəngliyini də tamlığı ilə bilə bilməzdik. Heydər Əliyev vaxta qalib gələrək qayıtdı və onun bacarıqlarının, qüdrətinin arxada qalan ömür parçasının imkan vermədiyi bir çox incəlikləri də bütün aydınlığı və möhtəşəmliyi ilə hər kəsə əyan oldu"[770].

Rafael Hüseynov fikir mövqeyində müqayisə, paralellər aparmağı, fikri əsaslandırmağı da xoşlayır. Obrazın müasirliyi ilə gələcəkliyini vəhdətdə verib mənalandırmağa çalışır. Professor İsmayıl Hikmətdən misal çəkib: M.Ə.Sabir bizə nə qədər yaxındır, adidir, zaman keçdikcə dəyər, qiyməti də artacaq. "Mənim cavan dostlarım, biz bu gözəl binanın içərisindəyik və onun füsunkarlığı haqqında, sadəcə, təsəvvürümüz var. Amma bu binadan çıxıb xeyli aralansaq, onu uzaqdan bütövlüyü ilə seyr etsək, gözəlliyinə da-

[766] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.244
[767] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.244
[768] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.245
[769] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.245
[770] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.245

ha artıq valeh olacaq, əzəmətinə daha artıq heyrətlənəcəyik"[771]. Alim müncər edib: "Heydər Əliyev bizimlə eyni günlərin içərisində yaşayırdı, bəxtimizə dahi ilə müasir olmaq səadəti düşmüşdü və əl çatacaq qədər yaxında olsa da, onun əlçatmaz qədər uca şəxsiyyətinə heyran idik"[772].

Müəllif Heydər Əliyevin *şəxsiyyət, siyasətçi, insan* obrazını hissə-hissə, ardıcıl, pilləli açmağa meyil edib. Məs.: Əməkdar mədəniyyət işçisi Qulam Məmmədli dünyasını dəyişəndə Heydər Əliyevin böyük qayğısı olub. R.Hüseynovun isə müdaxiləsi ilə onun cənazəsi Filarmoniyadan götürülüb, Ulu Öndər dəfndə nitq söyləyib və II fəxri xiyabanda torpağa tapşırılıb.

Akademik Heydər Əliyev xarakterinin səciyyəvi xüsusiyyətini açıqlayıb: "Heydər Əliyev ən əvvəl bir dövlət başçısı üçün çox mühüm olan qüvvətli *zabitə sahibi* idi."[773]

Heydər Əliyev *sözə münasibətdə çox həssas* olub. Yazı müəllifi obrazlı ifadə edib: "Lap cavanlığından Heydər Əliyev zabit paqonları daşımışdı, generallığacan yüksəlmişdi, üstündə silah gəzdirmək hüququ olmuşdu.

Ancaq silahı olanda da, olmayanda da o, silahlı idi.

Heydər Əliyevin ən misilsiz, daim tən hədəfə vuran silahı *Söz* idi."[774]

Rafael Hüseynov hər faktı mənalandırmaq, dəyərləndirmək, müqayisəyə gətirmək mövqeyinə üstünlük verib, obrazlı fikir və düşüncə onun mətn təhkiyəsinə təravət verib: "XX yüzilliyin 30-cu illərində əyalət şəhərinin – Naxçıvanın məktəb səhnəsində rollar oynayan balaca Heydər Əliyev aktyor olmağı arzulayırmış.

Aktyor olmadı, amma aktyorluq hər halda ömründə, taleyində qaldı və teatr səhnəsində deyil, Tarix səhnəsində ona millətinin taleyindəki ən baş rollardan birini oynamaq qismət oldu.

Bakıya gəldi, 1930-1940-cı illərdə yetərincə məşhur Sənaye İnstitutuna, memarlıq ixtisasına yiyələnmək arzusuyla daxil oldu.

Dava başladı, təhsili yarımçıq qaldı, amma hər halda, o, memar oldu.

Memar düşüncə tərzi onun təfəkkür tərzinə çevrildi"[775]. "O, Millətinin və məmləkətinin yeni tarixinin memarı oldu, Güclü Azərbaycanın, Müstəqil Azərbaycanın, dünyanın sayğı göstərdiyi, istiqlalı dönməz, iqtisadiyyatı gün-gündən qüvvətlənən çağdaş Azərbaycanın memarı oldu"[776].

---

[771] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.246
[772] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.245
[773] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.249
[774] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.250
[775] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.251
[776] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.252

Müəllif dahi rəhbəri *tarix ixtisasçısı* kimi Millətin müəllimi, təkcə nadir keyfiyyətlərin onda toplum halında cəmlənməsi kimi dəyərləndirir, "belə şəxsiyyətlərsə, həm ayrı-ayrı xalqların, həm də bütövlükdə insanlığın tarixində həmişə tək-tək olub".

Bu da Heydər Əliyevin xarakterinə dəyər verən maraqlı *bir fərdilikdir*: "Heydər Əliyev hərbçi olub, birinci dərəcəli kommunistlərdən olub. Amma qeyd-şərtsiz tabeçiliyi tələb edən bu amillər də onun içərisini, mənini dəyişdirə bilməyib"[777].

*Daha bir fərdilik*: "Heydər Əliyev inanmadığına heç zaman tabe olmayıb. Bu, onun ən seçilən cəhətlərindən idi."[778]

Rafael Hüseynov Heydər Əliyevi – *"Tək adam" – Mustafa Kamal Atatürkə* şamil olan bir dəyərlə xarakterizə edib.

Alim Ulu öndərin yüksək peşəkarlığını da onun xarakterik keyfiyyəti hesab eləyib. Heydər Əliyev 8 milyonluq xalqa rəhbərlik edib, dünyanın ən böyük siyasi xadimləri ilə danışıqlar aparıb, Azərbaycanı qat-qat böyük göstərib.

Akademik R. Hüseynov Heydər Əliyevin *müstəsna xilqət olduğunun obrazlı təsvirini* də verib. "Heydər Əliyev qayıtdı, istiqlal yükünün bütün ağırlığını dözümlü çiyinlərinə götürdü, il-il irəlilətdi və müstəqilliyin yaşına əlavə olunan hər illə bu əzizdən-əziz, üstündən-üstün nemətimizi, ən ali sərvətimizi sarsılmaz etdi"[779]. Heydər Əliyev 2 əsrdə 10 il prezident oldu, "iki əsrin, iki minilliyin prezidenti". Müstəsnalıq deyilmi?!

Müəllif məqaləsinin sonluğunu da obrazlı ifadə edib, bir dağ obrazını iki panoramda mənalandırıb: "Bitmiş XX yüzildə, başlanmış XXI əsrdə Arazın o tayında və bu sahilində, orada – Güney Azərbaycanda, burada – Azərbaycan Respublikasında soydaşlarımız iki dağa ən böyük dayaq, nicat rəmzi, milli səadət nişanəsi kimi baxdılar.

Bu dağlara arxalandılar, bu dağlara and içdilər.

Adaş dağlara!

Cənubi Azərbaycandakı Heydərbaba dağına, Azərbaycan Respublikasında uşağın da, cavanın da, ahılın da, qocanın da sevə-sevə "Heydər baba" dediyi Ulu öndər Heydər Əliyev Dağına!

Millətimizin Böyük Dayaqlarının, xalqın ümid və inam yeri olan Dağlarımızın vüqarı əskik olmasın!"

---

[777] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.253
[778] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.253
[779] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.257

Millət vəkili Ulu öndərin *əbədiyaşarlığının* obrazlı sonluğunu da verib: "Çox seçkinlərimiz, böyüklərimiz gəlib-gedəcəklər, söz yox ki, çoxlu parlaq izlər də qoyacaqlar. Lakin bütün millət üçün Böyük Yol yaratmaq qüdrəti yalnız Heydər Əliyev kimi müstəsnaların alın yazısıdır.

Bizə bağışladığın bu Yola görə ruhun şad olsun, böyük öndər!

Yolun yaşayırsa, onsuz da ruhun həmişə şad olacaq..."

Akademik Rafael Hüseynov iki tarixi şəxsiyyət Heydər Əliyev və İlham Əliyev haqqında "Böyük yolun həqiqəti" (2020) adlı kitabın da müəllifidir.

Professor *Teymur Əhmədov "Qanlı Yanvar gecəsi"* məqaləsində[780] "Ümummilli lider Heydər Əliyev azərbaycanlılara qarşı çevrilmiş etnik təmizləmə siyasətinin yolverilməz qanlı cinayət, dəhşətli soyqırım olduğunu qeyd edərək deyib ki: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamıdır və qanlı səhifəsidir"[781].

Ədəbiyyatşünas-alim *Ulu öndərin obrazını milli tarix və siyasi xidmətlər fonunda* təqdim edib. Heydər Əliyev şəxsi təşəbbüs göstərərək *Xocalı hadisəsinə siyasi qiymət* verib və erməni şovinist-millətçilərinin törətdiyi cinayətlərin dünya dövlətləri və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təcili tədbirlər görüb. Azərbaycan Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarı ilə fevralın 26-sı *Xocalı soyqırımı* və *milli matəm günü* elan olunub.

T.Əhmədov *"Müsibətli günlərin əks-sədası"* məqaləsində[782] isə Heydər Əliyevin mövqeyini – seperatçı hərəkətlərin beynəlxalq ictimaiyyətə, bütün dünyaya, Qafqaz bölgəsinə böyük təhlükə olduğunu, buna etiraz və inamını xatırladaraq çıxışından sitat verib: "...Biz sülhsevər dövlət kimi sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsipləri əsasında tezliklə torpaqlarımızın düşmən tapdağından tam azad edilməsinə nail olacağıq"[783]. O, *"Milli müstəqilliyin təntənəsi"* məqaləsində[784] dövlət müstəqilliyinin 20-ci ildönümünün keçirilməsi günlərində M.Ə.Rəsulzadə və H.Ə.Əliyevin bu sahədə xidmətlərinin şərhini verib. Müəllif yazıb ki, Heydər Əliyev 1990-cı ilin noyabrında *Naxçıvanda Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsini* təmin edib, redaktorluq etdiyi "Vətən səsi" qəzeti isə Bakının Azadlıq meydanında yüz minlərlə insanın dalğalandırıl-

[780] "Füyuzat", № 1, 2009, s.2-5

[781] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.274-275.

[782] "Füyuzat" № 1, 2010, s. 2-5

[783] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.305

[784] "Füyuzat" № 5, 2011, s.2-4

mış üçrəngli bayrağının fotoşəklini çəkib geniş planda dərc etdirmişdi. Professor bildirib ki, Ulu öndər 1993-cü ildə liderlik missiyasını öhdəsinə götürərək xalqı xaosdan qurtarıb, xalqın iradəsini əks etdirib. Siyasi xadim qaynar zəkasını, qazandığı zəngin biliyi, təcrübə-təşkilatçılıq səriştəsini və müdrikliyi öz xalqının gələcəyinə sərf edib. Dövlət qurucusu 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasını qurub, daimi sabitlik yaradıb, dövlətçiliyin əsaslarını, möhkəm təməlini yaradıb. T.Əhmədov göstərib ki, *"Əsrin müqaviləsi"* Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olub, ölkə iqtisadiyyatında ciddi dönüş başlanıb. "Heydər Əliyevin neft strategiyası nəticəsində böyük layihələrinin tikilməsi ölkəmizin nəhəng addımlarla inkişafının etibarlı təməlinə çevrilmişdir"[785].

Böyük dövlət rəhbəri 20 illik müstəqillik dövründə daxili və xarici siyasətdə sürətli yüksəlişə nail olub, *xarici ölkələrdə səfirliklərin açılmasını* təmin edib, *diaspor hərəkatını, beynəlxalq aləmdə iqtisadi* və *mədəni əlaqələri* gücləndirib. Professor Teymur Əhmədov bunu da unutmayıb ki, "Heydər Əliyevin siyasətinin bu gün Azərbaycanda uğurla davam etdirilməsi ölkə başçısı İlham Əliyevin istedadlı dövlət xadimi, yetkin siyasətçi olması ilə yanaşı, mövcud siyasətə sədaqəti ilə bağlıdır"[786].

*"Ədəbi dilə vətəndaşlıq borcu"* məqaləsində professor Teymur Əhmədov fikir və məfkurəni Heydər Əliyevin *dil siyasətinə* doğru yönəldib. Göstərib ki, Ulu öndər yüzlərlə şagirdi xarici ölkələrdə ali təhsil almağa göndərirdi. Əmin idi ki, onlar mükəmməl təhsilli mütəxəssislər kimi doğma ölkəsinin inkişafına namusla xidmət edəcəklər. 1997-ci il avqustun 29-da Prezident sarayında *daxildə və xaricdə ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş* keçirilib, Heydər Əliyev doğma ana dilimizi, dövlət dilimizi yaxşı bilməyi tövsiyə edib. Ulu öndər bildirib: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadiminin fəaliyyəti nəticəsində mümkün olur"[787]. T.Əhmədov xatırladıb ki, Heydər Əliyev 2001-2003-cü illərdə *"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi", "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası qanunun tətbiq edilməsi haqqında"* fərmanlar verib. Ulu öndər deyib: "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və

[785] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.353.
[786] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.354.
[787] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, "Nurlar", 2015, s.390

bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik”[788].

Ədəbiyyatşünas-alim *“Müqəddəs əmanət”* məqaləsində[789] də Heydər Əliyevin dil siyasətinin təbliğini davam etdirib və yazıb: “Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirirdi, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Müstəqillik dövründə isə dilin taleyini diqqət mərkəzində saxlamış, ardıcıl, məqsədyönlü siyasət aparmışdır. Ana dilimizin dövlət dili statusu hüquqi baxımdan tamamilə qanuniləşdirilmişdir”.

Akademiklər İsa Həbibbəyli, Nizami Cəfərov, Rafael Hüseynov və professor Nizaməddin Şəmsizadənin məqalələri daha çox *siyasi-ideolojidir.*

*Nizami Cəfərov* “Azərbaycanşünaslığa giriş” adlı qiymətli tədqiqatının *“Yeni dövrdən ən yeni dövrə... Etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə”* adlı IV bölümünün *“Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması”* adlı yarımbaşlığını *Heydər Əliyev dühasına* həsr edib: “Müstəqil Azərbaycan dövlətinin qurucusu, Prezident Heydər Əliyev Dünya azərbaycanlılarının şəksiz lideridir”[790].

Akademik Heydər Əliyevin obrazını oxucuya “*Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinin yüksəlişi sahəsində* görülmüş böyük işlər”in əhatəsində təqdim edib. Böyük öndərin respublika rəhbərliyinə gəlişi müstəqil düşüncə hadisəsidir. “70-80-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi”[791]. *Heydər Əliyev Azərbaycana Tarix kimi də lazım idi,* – deyə N.Cəfərov yazıb...

Akademik *Böyükkişi Ağayev “Müdrik və qayğıkeş insan”* məqaləsində[792] Heydər Əliyevlə olan şəxsi görüşlərinin əsaslarına varıb, qavrayış, təsəvvür, xatirə elementlərinə üstünlük verib, hissi idrak səviyyəsindən məntiqi idrakını: anlayış, mühakimə və əqli nəticlərini ümumiləşdirib.

Məqalənin fərdilikləri Heydər Əliyevin qəbul etdiyi gözlənilməz, ağlagəlməz əməli tədbirlərlə bağlıdır. Bunlar 1970-2000-ci illərin xatirələridir. Böyükkişi Ağayev bir neçə dəfə Heydər Əliyevlə görüşüb, suallarına cavab verib, gözlənilmədən Ulu öndər tərəfindən “Əməkdar elm xadimi” fəxri

---

[788] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, “Nurlar”, 2015, s.393
[789] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə. IV cild. Bakı, “Nurlar”,2015, s.393
[790] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, “AzAtam”, 2002, s.466
[791] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, “AzAtam”, 2002, s.467
[792] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4

adına, "Şöhrət" ordeninə layiq görülüb, bu xeyirxah insanın alicənablığından irəli gələn keyfiyyətləri səmimiyyətlə ifadə edib.

Akademik *Əhliman Əmiraslanov* "*Böyük azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır*" məqaləsində[793] Heydər Əliyevin dühasını obrazlaşdırıb. Onun dahi rəhbərə rəğbəti gənclik illərindən başlayıb, böyük öndərin hakimiyyətə gəldiyi dövrün tələbəsi kimi ona qayğı göstərilib...

*Yeri gəlmişkən:* Ümummilli lider 1998-ci il sentyabrın 28-də ATU-nun yeni tədris binasının açılışında iştirak edib, tibb işçiləri, tibb alimləri, Tibb Universiteti tələbələri, həmçinin rektor Ə. Əmiraslanovla görüşüb. Heydər Əliyev 2000-ci ildə də ATU-ya gəlib, unikal akt zalının açılışı və ATU-nun 70 illik yubileyində iştirak edib. Böyük rəhbər Universitet klinikası (2002), ATU nəzdində ilk Stomotoloji Klinikanın açılmasında da akademik Əhliman Əmiraslanova kömək göstərib. Prezident İlham Əliyevin sayəsində isə Onkoloji Klinika, Tədris-Cərrahiyyə Klinikası (2008) yaradılıb, 2006-2007-ci illərdə Tədris-Terapevtik Klinikanın açılış mərasimi (2010) keçirilib.

Akademik *Nailə Vəlixanlı* "*Heydər Əliyev və Azərbaycanda milli muzey işi*" məqaləsində[794] muzeyin inkişaf tarixini izləyib, "onun xalqın tarixini, mədəniyyətini, milli irsini yaşatmaq və gələcək nəsillərə çatdırmaq" missiyasını, cənab İlham Əliyevin milli muzey irsinin inkişaf etdirilməsi və dünya standartları səviyyəsində qurulmasını təmin etmək sahəsində tarixi rolunu obrazlaşdırıb.

Görkəmli alim *Tofiq Nağıyev* "*Heydər Əliyev və Milli Ensiklopediya*" məqaləsində[795] diqqəti əsasən bir məqama kökləyib: "Hər bir mədəni xalqın həyatında milli ensiklopediyanın nəşri böyük tarixi hadisə, onun milli-mənəvi yüksəlişinin zirvə təqdimatlarından biridir". O, müstəqillik dövründə mühüm ictimai-siyasi, tarixi, elmi-mədəni hadisələri obyektiv əks etdirən yeni ensiklopediyanın hazırlanması və latın qrafikası ilə nəşrini tarixi nailiyyət hesab edib.

Akademik *Tofiq Hacıyevin* "*Özü, varisi və ana dili*" məqaləsi[796] də səciyyəvidir. Müəllif Heydər Əliyevin obrazını *ana, körpə, əmək, mütaliə, kömək, qayğı* fonunda canlandırıb. Çünki ana surətinin özü də bütün bunlarda ehtiva olunub.

---

[793] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4
[794] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4
[795] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4
[796] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4

Görkəmli alim lider obrazında bunları görüb: *Dövlət başçısının filosofluğu, dövlət siyasətində elmə arxalanma – yüksək mədəni inkişafda elm, ədəbiyyat və sənətə, dövlət-idarəçilik mədəniyyətində möhkəm elmi təmələ dayanma.* Ümummilli lider bu zəngin elmi biliklərlə cəmiyyət qarşısına, auditoriyalara çıxıb. Müəllifdən tipik bir nümunə: Azərbaycan KP MK katibi kimi Azərbaycan yazıçılarının birinci qurultayı. Tarixi çıxış. *Dolğun məzmun və ifadə dili.* "Ömrü boyu çalışdığı yüksək zirvədə həmişə rus dilini işlətmiş dövlət başçısı ana dilində, Azərbaycan türkcəsində necə təmiz, rahat, intonasiyası, nəfəsi, vurğuları yerində olan bir nitq söylədi!"[797]
*Daha bir nümunə:* Elit şəxsiyyət Vətənimizi, ana dilimizi, Azərbaycan türkcəsini ürəkdən sevib. 30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu" haqqında fərman verib...

Akademik Tofiq Hacıyev Heydər Əliyevdən İlham Əliyevə vərəsəlikdə ortaq mənəvi sərvət olan *dil siyasətindən* danışıb, Heydər Əliyevin obrazını bu zəmində canlandırıb. Alim İlham Əliyevin Ağstafadakı ziyalılarla görüşünü, burada ana dilimizin saflığı və ədəbi dilin inkişafı ilə bağlı müzakirələri xatırladıb. Prezident həmin görüşdə şairlər, yazıçılar, müəllimlər və ziyalıların olduğunu nəzərə alıb şeirdən, söz sənətindən, ədəbiyyatdan, habelə, dildən, ədəbi dilin inkişafından və onun saflığının qorunmasından danışıb. Bu görüşün, müzakirənin çağdaşlığını İlham Əliyev qiymətli tutub, təbliğatında Əli bəy Hüseynzadənin qiymətli fikrini diqqətə çatdırıb. Dövlət başçısı deyib: "İslam dini ilə islamlaşan, ərəb elmi ilə elmlənən, ərəb mədəniyyəti ilə mədəniyyətlənən türklər ərəbləşməyib, yenə türk oğlu türk qalıblar". Ədib bildirib ki, kimlik hər bir fərd üçün əsas olmalıdır və bu, Azərbaycan dövləti və millətinə də aiddir. Cənab İlham Əliyev: "Avropanın mədəsində həzm olunmayaq, Avropanın və dünyanın intellektini mənimsəyək, düşüncəsini həzm edək"[798], – deyib. Dilimizin inkişafı, saflığı ilə bağlı: "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramı haqqında" – Sərəncam imzalayıb və dövlət dili ilə canlı xalq dilinin əlaqəsinin bariz tezislərini verib.

Dilşünas-alim Prezidentin dilə, nitqə münasibətinə əsaslanaraq ana dilimizin tarixi-mənəvi əhəmiyyətini, onun imkanlarının zənginliyini, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyini, milli şüur və milli-mənəvi dəyərlərin yaşamasını inkişafın mənbəyi kimi xatırladıb, hesab edib

---

[797] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4
[798] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4

ki, ana dilinin qorunması və qayğısı hər bir Azərbaycan vətəndaşının borcu olmalıdır.

Akademik *Siddiqə Məmmədova "Heydər Əliyev XX əsr türk dünyasının möcüzəsidir"* məqaləsində[799] dahi rəhbərin güvəndiyi böyük qüvvəni – xalqın zəkasını, müdrikliyini, qüdrətini obrazlaşdırmış və Ulu öndərin: *Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam* – müdrik kəlamını xatırladıb.

Akademik *Çingiz Qacarın "Böyük azərbaycanlı, vətənpərvər və ziyalı"* məqaləsində[800] obrazın təcəssümü məkan, ruh və idrak amili olubdur.

*Beləliklə,* ölkəmizin akademiya və universitetlərində çalışan *elm xadimləri* ixtisas özəllikləri üzrə deyil, ifadə etdikləri humanitariya, vətənpərvərlik, insanpərvərlik və vətəndaşlıq missiyası üzrə Heydər Əliyevin sivil şəxsiyyətinü xüsusi qiymətləndiriblər.

---

[799] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4

[800] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4

## MİLLİ İCTİMAİ SİVİLİZASİYAMIZ İDEOLOGİYADA

***"Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir".***

**Heydər Əliyev**

*Fəttah Heydərovun "Böyük insan, işıqlı şəxsiyyət və müdrik ağsaqqal"* məqaləsində[801] Heydər Əliyevin obrazı: onun şəxsiyyət kredosu, meyar və ölçüləri, xalqa, mənəvi dəyərlərə söykənmə, siyasi-sosial fəaliyyətdə elmi fikrin nailiyyətlərinə əsaslanma, xalqın və cəmiyyətin inkişafında elm və intellektdən faydalanma, milli genetik ruhun qorunması, yenilikçilik, təşəbbüskarlıq keyfiyyəti və maarifpərvər şəxsiyyətin təcəssümü, bir sözlə, *Ağsaqqal obrazı* canlandırılıb.

Müəllif yazıb: "Milli mənəvi dəyərlərimizə, soy-kökünə tarixi bağlarla bağlı olan müdrik dövlət başçısı kimi Heydər Əliyev həmişə ağsaqqal sözünə hörmətlə yanaşardı. Əslində o, xarakterindəki bütün cizgiləri ilə bu millətin ən böyük və müdrik ağsaqqalı idi".[802]

Heydər Əliyev xalqın ağsaqqalı kimi cəmi ağsaqqallara hörmət və qayğıyla yanaşıb, müdrikliyin simvoluna dönüb. Modern düşüncə, yüksək idarəetmə və təşkilatçılıq bacarığı novator ruhlu Liderin səviyyə göstəricilərindən olub.

Heydər Əliyev *Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin* 70 illik yubileyini keçirib. 13 oktyabr 1995-ci ildəki təntənəli gecədə, 19 yanvar 1997-ci ildəki görüşdə, Qədirli adına mərkəzi hövzə xəstəxanasında böyük insanla üz-üzə qalan Bəxtiyar Vahabzadə ona dərin minnətdarlığını bildirib, onun elit şəxsiyyət nümunəsini qiymətləndirib[803].

Bəxtiyar Vahabzadə ədəbi-tənqidi və ictimai-siyasi fəaliyyətində güclü azərbaycançı, türkçü və turançı kimi tanınıb. B.Vahabzadənin azərbaycançılığı elə *Heydər Əliyev və azərbaycançılıq* mövzusu deməkdir.

Xalq şairi Bəxtiyar Vahabzadənin Heydər Əliyev haqqında fikirlərinin

---

[801] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.113
[802] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.113
[803] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, "Elm və təhsil", 2018, 400 s.

müəyyən hissəsi şairin əsərlərinin XI cildində, publisistikasında[804] toplanıb. Bu yazıların çoxu *siyasət, türkçülük, azərbaycançılıq və mədəniyyət barəsindədir* ki, şair Heydər Əliyev obrazını oxucuya bu yöndə – məqalə və müsahibə janrlarında təqdim edib.

Aydındır ki, Bəxtiyar Vahabzadə 1950-ci illərdə şeir və poemalarının ideya istiqamətinə görə təqib olunub, tutulmaq təhlükəsi qarşısında qalıb, lakin onu həbs olunmaqdan Heydər Əliyev xilas edib. Bunu Ulu öndərin özü də, Bəxtiyar Vahabzadə və başqaları da xatırladıb. Heydər Əliyev MTN-in yubiley tədbirində rəsmi çıxışı zamanı deyib: "Mən hələ Dövlət Təhlükəsizlik Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı. "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o adamı həbs etmək məsələsini qoymuşdular... Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim. Neçə-neçə belələrini xilas etdim"[805].

Heydər Əliyev Bəxtiyar Vahabzadəni və Xəlil Rza Ulutürkü dövrünün ən böyük dissidentləri hesab edib. Bəxtiyar Vahabzadə Azərbaycan qayəsində, milli azadlıq hərəkatında ən fəal ziyalılardan, azadlıq mücahidlərindən biri olub.

"Haqqın, ədalətin səsiylə yazıram", "Axı, biz hüquqi dövlət yaratmaq iddiasındayıq", "Dünya beş günmü?", "Sular duruldu, gördük dibindəki daşları", "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi", "Yaradıbdır inam məni", "Azərbaycan Prezidenti Heydər Əliyev xəstəxanada Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşmüşdür" və başqa yazılarında sənətkar Heydər Əliyev obrazına diqqət yetirib.

Bəxtiyar Vahabzadə *"Haqqın, ədalətin səsiylə yazıram"* müsahibəsində jurnalistin verdiyi müstəqil dövlətin müstəqil siyasəti sahəsində işləriniz necədir, – sualı ətrafında Qarabağ hadisələrinə, Heydər Əliyevin bu sahədə mövqeyinə münasibət bildirib. Heydər Əliyev o zaman bildirib ki, *(hələ 1992-ci ildə – Ə.Ə.)* Qarabağ məsələsində bizim ayrıca konsepsiyamız olmalıdır.

Şair yazısında Heydər Əliyevin güclü iradəsini önə çəkib. O xatırladıb: "Yadınızdadırsa, Ali Sovetin ilk sessiyasının iclaslarının birində Heydər

---

[804] Bəxtiyar Vahabzadə. *Əsərləri.* XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005,

[805] H.Əliyevin MTN-in yubiley tarixində rəsmi çıxışından. "Xalq qəzeti", 6 iyun 1997

Əliyev dedi ki, mənim *Qarabağ üzrə konsepsiyam var* və bu *problemin həlli yollarını göstərmək* istəyirəm. Elə bu sözü demişdi ki, deputatların bəziləri düşdülər onun üstünə. Məsələnin müzakirəsi, millətin faciəsi, kədəri qaldı bir tərəfdə, başladılar öz şəxsi ədavətlərinə. Həmin sessiyadakı çıxışının elə ilk cümləsindəcə dedim ki, axı o nə deyir? Deyir ki, problemin həlli yollarını göstərən konsepsiyam var. Məgər bunun üstündə adamı tənqid edərlər?”[806]

Dövlət başçısı eyni zamanda söz sənətkarları, məxsusən Bəxtiyar Vahabzadə və Xəlil Rzanın ədəbi-tarixi xidmətlərini xatırladaraq deyib: “ Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır”[807].

Heydər Əliyev nitqi zamanı Azərbaycanda dissident məsələsinə də toxunub: “Mən bu gün deməliyəm ki, Azərbaycanda dissident olmayıbdır. Amma sizin çoxlarınız dissident olmusunuz. Sizin dissident olmağınızı müsbət mənada deyirəm. Yaxşı ki, dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. Əgər *Bəxtiyar Vahabzadə* dissident olmasaydı, Azərbaycan xalqının, gənclərin şüuruna təsir edə bilməzdi. Əgər *Xəlil Rza* dissident olmasaydı, onun əsərlərinin təsiri güclü olmazdı. Bu gün bunları müsbət qiymətləndiririk. Əgər o vaxtlar onlar təqib olunmayıbsa, başqa yerlərdə olduğu kimi, onları dissident adlandırmayıblarsa, onları nədənsə məhrum etməyiblərsə, demək, bu da bizim nailiyyətimizdir, bu da bizim o vaxtlar, çətin dövrdə apardığımız düzgün siyasətin nəticəsidir”[808]...

---

[806] Bəxtiyar Vahabzadə. *Əsərləri.* XI cild. Publisistika. Bakı, “Azərbaycan”, 2005, s.316

[807] Heydər Əliyev. Müdriklik mücəssəməsi. *(Məruzələr, şıxışlar, görüşlər, müsahibələr)./*Ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir (Azərbaycan Yazıçılarının X qurultayında nitq). Bakı, “Elm”, 2023, 512 s.; s.300

[808] Bəxtiyar Vahabzadə. *Əsərləri.* XI cild. Publisistika. Bakı, “Azərbaycan”, 2005, s. 302-303

Heydər Əliyev ilk təması – 1971-ci ili– Mərkəzi Komitənin Oktyabr Plenumundakı məruzəsində "Qobustan" toplusu haqqında tənqidi qeydlərini xatırladıb. O zaman Anar Heydər Əliyevi tanımayıb, o iclasda olmayıb, Moskvada rejissorluq emalatxanasında təhsil alıb. Ona xəbər çatdırılıb və o da Heydər Əliyevin "Pravda" qəzetində dərc olunmuş *"Həyatın əlifbası"* məqaləsini yüksək qiymətləndirib.

Dövlət rəhbəri "Qobustan" jurnalına olan münasibətini xatırladıb. Hesab edib ki, o vaxtlar Anarın və jurnalın əleyhinə nə qədər donoslar gəldiyinə baxmayaraq, jurnalda "lazım olan şeylərin çox olduğunu" görüb və qiymətləndirib. Ona görə də "Qobustan" jurnalı yaşamış və o vaxt böyük işlər görmüşdür"[809]. Bundan sonra jurnalın redaksiya heyəti genişlənib, ştatları artırılıb, iş şəraiti yaxşılaşdırılıb, Mədəniyyət Nazirliyinin nəşri statusunu qazanıb və milli maraqları gücləndirilib. Heydər Əliyev: "O vaxtlar "Qobustan" jurnalı həyatımızda çox böyük rol oynayırdı. Bizim bu milli dirçəliş, milli oyanış, milli özünütanıma prosesində "Qobustan"ın rolu çox böyük olubdur... Amma mən bunların hamısını daim izləyirdim və hər bir belə tədbirin həyata keçirilməsi üçün lazımi şərait yaradırdım"[810],– deyib.

Jurnal redaktoru Heydər Əliyevin dissidentliyə münasibətini də xarakterizə edib. Böyük öndər belə şeyin əleyinə olub, Azərbaycanda dissident axtarmayıb. Lakin hesab edib ki, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk o zamanın böyük dissidentləri olub, "Qobustan" jurnalı da dissident xarakterli hesab edilib. Jurnalda milli ruhlu yazılar çox çap edilib. Heydər Əliyev: "Bu yazılar "bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi... və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiram yaradırdı"[811], –deyə məmnun qaldığını bildirib.

*"Axı biz hüquqi dövlət yaratmaq iddiasındayıq"* müsahibəsində jurnalistin sualı birbaşa, açıq olub: " –Son vaxtlar Sizi Heydər Əliyevin adı ilə daha çox bağlayırlar". Bəxtiyar Vahabzadə deyib: " –Mən Heydər Əliyevi həmişə müdafiə etmişəm və edəcəyəm. Heydər Əliyevin biliyindən, bacarığından istifadə etmək lazımdır. Bir var, Yeltsinin qabağına uşaq göndərəsən, bir də var bu sahədə böyük səriştəsi olan Heydər Əliyevi". Xalq şairi B.Vahabzadə Heydər Əliyevin *bərabərtərəfli siyasət* konsepsiyasını dəstəkləyib.

Jurnalistin daha bir sualı: " –Azərbaycanın siyasət gəmisi Rusiyaya doğru yönəlmişdir, – deyən Heydər Əliyevi bu kontekstdə necə qiymətləndir-

[809] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.45
[810] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.48
[811] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.49

mək olar?”

Bəxtiyar Vahabzadə: “ –O sözlərin Heydər Əliyev tərəfindən deyildiyinə inanmıram. Rusiya onun hakimiyyətə gəlməsindən qorxur. Buna görə də onun adından belə uydurmalar yazırlar ki, biz onu iqtidara yaxın buraxmayaq”[812].

*“Sular duruldu, gördük dibindəki daşları...”* müsahibəsində şair Bəxtiyar Vahabzadə Heydər Əliyevin nəzəri və praktik siyasətçi olduğunu xatırladıb: “Fransaya səfər edirdik. Heydər Əliyev bizi təyyarədə qəbul etdi. Elə orada bu günkü durum, dünya siyasətindəki yerimiz, ermənilərin fitnəkarlığı, erməni lobbisinin xaricdə hansı gücə malik olması barədə ətraflı söhbət etdi. Onda o, dönə-dönə vurğuladı ki, vətən üçün qışqırmaq yox, vətən üçün iş görmək lazımdır”[813].

Bəxtiyar Vahabzadə *“Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi”* müsahibəsində 1990-cı ilin “Şənbə gecəsindən”, habelə, “Şənbə gecəsinə gedən yol” əsərindən, faciənin obyektiv və subyektiv səbəblərindən, sessiya çağırmaq zərurətindən, özünün və Xalq yazıçısı İsmayıl Şıxlının sessiyanı idarə etməsindən, ziyalı kimi xalqın içində və önündə olmasından, Heydər Əliyevin siyasi iradəsindən, onun əleyhdarlarının məkrli hiylələrindən və Heydər Əliyevlik fenomenindən söz açıb.

Xalq şairi Bəxtiyar Vahabzadə Heydər Əliyevlə bağlı ədəbi-ictimai olayları göstərib, mətbuat orqanlarında çıxışlar edib və Ulu öndərin mədəniyyət, ədəbiyyat və dil sahəsində siyasətinin faktlarını, onların doğurduğu mövzu və ideya-məzmunu poetikləşdirib.

Heydər Əliyevin Bəxtiyar Vahabzadə ilə görüşü zamanı siyasi diplomatiya, elm, səhiyyə, təhsil, tibb xidməti sahəsində yüksək kadr hazırlığı, habelə, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza, Səməd Vurğun, Süleyman Rüstəm, Anar, Elçin, Yusif Səmədoğlu, Səttar Bəhlulzadə, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev, Rəşid Behbudov, Azər Zeynalov və başqa istedadların sənət fitrətindən, bəstəkar, aktyor istedadının aliliyindən, teatr uğurlarından, eləcə də Türkiyənin Azərbaycana ən güclü dayaq olmasından, Heydər Əliyevin Fransada Beynəlxalq Əlaqələr İnstitutundakı çıxışı və onun müstəqil dövlətçilik siyasətindən söhbət gedib...

---

[812] Bəxtiyar Vahabzadə. *Əsərləri.* XI cild. Publisistika. Bakı, “Azərbaycan”, 2005, s.347-348

[813] Bəxtiyar Vahabzadə. *Əsərləri.* XI cild. Publisistika. Bakı, “Azərbaycan”, 2005, s.379-380

Bu baxımdan Bəxtiyar Vahabzadənin sessiyadakı, Heydər Əliyevin Moskvadakı çıxışı ətrafında fikirlər ibrətlidir. 1990-cı illərdə keçirilmiş sessiyanı qeyri-qanuni adlandıran hökumət dairələri, millət satqınları üzə çıxıb. Heydər Əliyev isə yanvarın 21-də Moskvadakı Azərbaycan Nümayəndəliyinə gələrək, orada Bakıdakı qırğına kəskin etiraz edib. Bəxtiyar Vahabzadə Heydər Əliyevin siyasi məfkurəsinin ideya məzmunu əsasında xeyli mövzu və motiv müəyyənləşdirib, böyük tarixi şəxsiyyətin nüfuzundan güc alıb, şeirlər yazıb.

Türk dünyası mövzusu *("Yunus karvanı", "Sultanlıq – başkanlıq", "Bayraq qalxdı" (1962), "Atatürk" (1999), "Ənvər Paşaya", "Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar" (1999), "Tanrı türkü qorusun" (2001), "Vətən marşı" (2002), "Bayraq" (2004, 2009), "Millət, Xalq, Milli şüur" (2005), "Tarix. Zaman. Siyasət" (2005), "Milli əxlaq" (2005), "Azərbaycan–Türkiyə" (2009), "M.Ə.Rəsulzadənin xatirəsinə (2009), "Mən türkəm" (2011) və başqa şeirləri, "Özümüzü kəsən qılınc" /"Göytürklər"/ pyesi və s.)* Bəxtiyar Vahabzadənin əsərlərində daha böyük yer tutub. Bu mənada haqlı deyildiyi kimi: "Bəxtiyar Vahabzadə təkcə Azərbaycan türklərinin deyil, bütün türk dünyasının bütövlüyü, tamlığı, ideya-mənəvi birliyi uğrunda mübarizə aparan qəhrəman şairdir. Bu bucaqdan yanaşdıqda aydın şəkildə görünür ki, geniş mənada türk dünyasına xidmət baxımından da Bəxtiyar Vahabzadənin böyük rolu və zəhməti vardır"[814].

Xalq şairi *Nəbi Xəzri* Heydər Əliyevin *şəxsiyyət dəyərlərini* həmişə yüksək qiymətləndirib, bu dəyər müstəqillik dövründə də müxtəlif münasibətlərdə ifadə olunub. Onun 3 aprel 1998-ci il tarixli müraciətində ulu rəhbərin xeyirxahlığını ifadə edərək yazıb:"Azərbaycan Respublikasının zati-aliləri Heydər Əlirza oğlu Əliyevə... Demək istəyirəm ki, 1970-1980-ci illərdə Siz böyük bir ənənə də yaratmışdınız: ziyalılarımızın yaşayış tərzini yaxşılaşdırmaq, onlara səliqə-sahmanlı mənzillər vermək ədəbiyyatın, elmin, sənətin inkişafına yeni bir təkan oldu, lakin sonralar uzun zaman bu ənənə unuduldu.

Bütün iqtisadi çətinliklərə baxmayaraq, tarixi ənənəni bu gün bərpa etmək sizə yaraşan, başucalığı gətirən ehtiram və etimaddır. Deməli, nəcib ənənələr yenə də yaşayır"[815].

Xalq şairi Nəbi Xəzri *"Burla Xatun" milli dramaturgiyanın səhnəsində"* adlı yazısında bildirib: " Cənab prezident, bu əsərə xeyir-dua verən Siz ol-

---

[814] İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Əsərləri. 10 cilddə, II cild. Bakı, "Elm və təhsil", 2017, s. 648

[815] "Azərbaycan" qəzeti, 3 aprel 1998-ci il

musunuz. Çünki əsər mürəkkəb olduğu üçün teatrın heç bir qüvvəsi yoxdur ki, bunların geyimini, paltarını, səhnənin dekorunu hazırlasın.

Mən "Dədə Qorqud" yubileyinin keçirilməsi üçün Sizin yaratdığınız yubiley komissiyasının iclasında xahiş etdim, Siz böyük xeyirxahlıqla onu plana saldınız və ondan sonra işlərimiz demək olar ki, canlı getdi. Bu əsərin yaranması üçün biz hamımız Sizə minnətdarıq. Bu gün gəlib məni iki qat sevindirdiyinizə görə təşəkkür edirəm...

Sizə təşəkkür və minnətdarlıq edir, can sağlığı arzulayıram. Sağ olun, var olun! Bu gün Sizi gördüm, çox sevindim. Allah Sizin canınızı həmişə var etsin, sağlam, gümrah etsin. Elə bilirəm ki, bizim torpağımız da, vətənimiz də, gələcəyimiz də nurlu, işıqlı olacaqdır və biz bunu belə görürük..."[816]

Nəbi Xəzri 18 oktyabr 1997-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası günündə Ümummilli liderə xitab edib, onu salamlayıb, təbrik edib və bunları deyib:

"Əziz möhtərəm prezidentim!

Zəmanəmizin görkəmli müğənnisi, bəstəkarı Müslüm Maqomayevin yubiley gecəsində bizim "Azərbaycan" mahnısına yüksək qiymət verdiyinizə görə Sizə dərin təşəkkürlərimi çatdırmaq istəyirəm. Həmin mahnını yeni Azərbaycan himni adlandırmağınız bizim üçün böyük şərəf və iftixardır.

Ömrümün mənasısan,
Qardaşlıq dünyasısan,
Anamın anasısan,
Azərbaycan!.." [817]

Akademik *Bəkir Nəbiyev* 2007-ci ildə "Heydər Əliyev haqqında etüdlər" monoqrafiyasını[818] çap etdirib. Həmin məqalə alimin 5 cilddə Seçilmiş əsərlərinin dördüncüsündə də özünə yer alıb[819]. "Xalqına sədaqəti, böyük dövlətçilik təcrübəsi", "idarəçilik istedadı, xarakter bütövlüyü, heyrətamiz enerjisi", "Azərbaycan xalqına, onun dilinə, dininə, ədəbiyyatına, digər mənəvi dəyərlərinə dərindən bələd" olan Heydər Əliyev bu monoqrafiyada zəngin milli ədəbiyyatımıza tarixi xidmət baxımından səciyyələndirilib. Heydər Əliyevə məhəbbətlə, aludəliklə bağlı olan akademik B.Nəbiyev Ulu öndərin *dünya sivilizasiyasında yerini, ədəbiyyat sahəsində* ideologiyasını

[816] "Azərbaycan" qəzeti, 12 dekabr 1999-cu il
[817] "Azərbaycan" qəzeti, 21 oktyabr 1997-ci il
[818] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı, 2007
[819] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009

peşəkarlıqla təbliğ edib və mühüm elmi-nəzəri müddəalar irəli sürüb. Belə qənaətlərdən biri Heydər Əliyevin ədəbiyyat sahəsindəki siyasəti, ideolgiyası ilə bağlı olub.

Heydər Əliyev siyasi-kulturoloji fəaliyyət zəminində mifologiya, folklor, klassik və müasir irs, habelə, dünya ədəbiyyatı haqqında qiymətli elmi fikirlər söyləyib. H.Əliyevin ədəbi-bədii zövqü N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ş.İ.Xətai, M.P.Vaqif, Q.Zakir, M.F.Axundzadə, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğun, M.Şəhriyar, S.Rüstəm, M.Dilbazi, B.Vahabzadə, N.Xəzri, M.Araz, X.R.Ulutürk, Anar, Elçin, F.Qoca və başqaları ilə bərabər, rus, Avropa klassiklərinin əsərləri əsasında formalaşıb. O, "Kitabi-Dədə Qorqud" dastanlarını "bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir əsər kimi" dəyərləndirib. Akademik B.Nəbiyev yazıb: "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi Ümummilli liderimizin şəxsi təşəbbüsü və böyük səyləri nəticəsində həyata keçirilmiş və Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyəti sahəsində çox əlamətdar hadisə kimi tarixə düşmüşdür". Akademik B.Nəbiyev professor Y.Qarayevlə birlikdə "Xalq mənəviyyatının güzgüsü" adlı bu elmi-kütləvi nəşri Azərbaycan, türk, rus, ingilis və fars dillərində yayımlatmışdır. Heydər Əliyev Sarayında beynəlxalq zirvə tədbiri ilə yaddaqalan dastanın mühüm elmi-siyasi əhəmiyyətini akademik belə ümumiləşdirib: "Kitabi-Dədə Qorqud" – siyasi-ideoloji və mənəvi olaraq "ölkəmizin beynəlxalq imicinin yüksəlişinə də qüvvətli bir təkan olmuşdur"[820].

Monoqrafiyada akademik B.Nəbiyev mühüm ədəbiyyat tədbirlərinin nəticələrini diqqətdə saxlamaqla bərabər, onların siyasi əhəmiyyətinə xüsusi nəzər yetirib. Görkəmli akademik *dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubiley tədbirindən* danışarkən bildirib ki, Heydər Əliyev Şərq bədii fikrinin tarixində yeni səhifə açmış böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini dünyaya böyük mənəvi sərvətlər vermiş Dante, Şekspir, Şiller, Puşkin, Balzak, Tolstoy və Qorki ilə yanaşı tutub, yubiley tədbirlərinə böyük məna verib. Bu cəhətdən onun aşağıdakı fikirləri də əhəmiyyətlidir. "Bu tədbirlərin... *(1970-ci illərdən üzü bəri görülən işlərin miqyası nəzərdə tutulurdu – Ə.Ə.)* siyasi əhəmiyyəti bu oldu ki, Azərbaycan rəhbərliyi və Azərbaycan elmi öz sənətkar övladına birmənalı şəkildə sahib çıxmaqla bərabər, o vaxtadək qonşu İranda və bəzi digər ölkələrdə Nizaminin guya fars ədəbiyyatının nümayəndəsi olması barəsində deyilənlərə son qoyuldu. Nizamişünasların Bakıda toplanan beynəlxalq konqresi artıq dünyanın bir

---

[820] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.52

sıra tanınmış şərqşünas və tarixçilərinin, nizamişünaslarının da bu məsələdə obyektiv mövqe tutduqlarını, Nizamini məhz Azərbaycan klassik ədəbiyyatının təmsilçisi, Azərbaycan xalqının dahi oğlu kimi qəbul etdiklərini göstərdi”[821] *(Yeri gəlmişkən, xatırlayağın ilk Avropa oyunlarının Bakı şəhərində keçirilmiş 12 iyun 2015-ci il tarixli təntənəli açılış mərasimini. Bu tədbirdə* Nizami Gəncəvi *nə qədər möhtəşəm idi! – Ə.Ə.).*

Akademik B.Nəbiyev xatırladıb ki, Heydər Əliyev *böyük renessans şairi İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsində* də çox böyük zəhmətlər çəkib. Böyük öndər hesab edirdi ki, İ.Nəsimi yaradıcılığında “ən mühüm cəhət onun insanpərvərlik ideyalarının qüvvəti, şairin bir fikir adamı, bir şəxsiyyət kimi əzəməti, ana dilində yazdığı əsərlərində özünü xüsusi təravətlə nümayiş etdirən poetik möcüzəsi idi”[822]. Heydər Əliyev bu yubileyin *(İ.Nəsimi yubileyi – Ə.Ə.)* SSRİ, YUNESKO xətti ilə dünya miqyasında qeyd olunması üçün layihələri “Sov.İKP MK siyasi bürosu kimi çox böyük bürokratiya maneəsindən keçirmişdi”, “zamanın çox nadir ədəbi-mədəni hadisəsi olan Nəsimi yubileyi YUNESKO-nun tədbirləri sırasına daxil edilmişdi”. “Beləliklə, İ.Nəsimi yubileyi dünya miqyasında qeyd edilən ilk Azərbaycan şairi olmuşdu”[823]. Alim, şair və incəsənət xadimlərinin iştirakı ilə Bakıda zirvə tədbirləri keçirilib, bir sıra uğurlarla yanaşı, akademik B.Nəbiyevin tərtib etdiyi rus dilində məqalələr toplusu (şairin dövrü, mühiti, şəxsiyyəti, hürufilik təlimi, əsərlərinin dil-üslub xüsusiyyətləri və s. ilə bağlı) nəşr edilib.

Akademik B.Nəbiyev dahi şəxsiyyət Heydər Əliyevin: “Alim, ədib və incəsənət xadimləri haqqında yubiley tədbirinin keçirilməsi onların özlərindən çox, xalqımıza, cəmiyyətimizə lazımdır” –kəlamını xüsusi xatırladıb. Müəllif yazıb: “Ulu öndər ağır müharibə şəraitində yaşayan, erməni işğalçılarına qarşı mübarizə aparan Azərbaycanın ən çətin məqamlarında da ölkəmizin xilas yollarına yalnız hərbi qüdrətimizin artırılmasında deyil, həm də xalqımızın mənəvi dəyərlər baxımından çox güclü olmaq potensialında, Azərbaycanın zəngin və orijinal mədəniyyət yurdu olmasında görür, klassiklərimizin bənzərsiz irsini ən müxtəlif vasitələrdən istifadə edərək dönə-dönə dünya miqyasına çıxarmaqla doğma yurdumuzu qabaqcıl bəşəriyyətə olduğu kimi tanıtmağa çalışırdı. Bu isə öz növbəsində gecə-gündüz Azər-

[821] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.55

[822] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.55

[823] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.56

baycana, onun tarixinə, mədəniyyətinə, ədəbiyyatına qarşı böhtanlar püskürən erməni təxribatını tərksilah etmək, ona böyük zərbə vurmaq demək idi”[824].

Böyük rəhbər *dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinin keçirilməsinə* də tarixi-siyasi və ədəbi hadisə kimi dəyər verib. Bu barədə akademik B.Nəbiyev yazıb: “Füzuli H.Əliyevin sənətinə pərəstiş etdiyi nadir Azərbaycan dahilərindən biri idi. Ulu Öndər Füzuli haqqında ən müxtəlif münasibətlərlə çox maraqlı fikirlər söyləmiş, şairin Azərbaycan ədəbiyyatında, Şərq poeziyası və dünya ədəbi-ictimai fikri tarixində mövqeyini dönə-dönə yüksək qiymətləndirmişdir”[825].

Heydər Əliyevin uzaqgörənliyi sayəsində M.Füzulinin 500 illik yubileyinin keçirilməsinin mənəvi coğrafiyası çox geniş olub. Bu tədbir Türkiyənin Ankara və İstanbul, Rusiyanın Moskva və Sankt-Peterburq, İranın Tehran və Təbriz, İraqın Bağdad, Kərbəla və Kərkük ərazilərini, habelə, Tiflis, Daşkənd, Dərbənd, Mahaçqala və başqa şəhərləri əhatə edib. Bu münasibətlə Parisdə YUNESKO-nun baş qərargahında bir sıra yığıncaq, beynəlxalq forum, Türk dünyası yazıçılarının üçüncü qurultayı, türksoy təşkilatının 8-ci toplantısı, Bakıda beynəlxalq simpozium keçirilib.

Heydər Əliyev 1996-cı il noyabrın 8-də Bakıda keçirilmiş zirvə toplantısında Füzuli sənətinin fəlsəfi mahiyyətini, onun özünəqədərki dövrün Şərq və Qərb fəlsəfəsini, zamanəsinin fəlsəfi fikrini dərindən öyrəndiyini, bir sıra əsərlərini fars, ərəb və türk dillərində yazmış şairin poetik irsinin əhəmiyyətini xüsusi qeyd etmişdir”[826].

Akademik B.Nəbiyev Füzuli yubileyindən danışanda onun tarixi-siyasi əhəmiyyəti haqqında bəlgələyib ki, “Füzuli–500” tədbiri xalqımızın mənəvi həyatını zənginləşdirmək, adamlarımızı ruhlandırmaq, Vətənə, torpağa sədaqət ruhunda tərbiyələndirməklə bərabər, “Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək üçün hamımızı səfərbər edir”[827]. Akademik qeyd edib ki, Heydər Əliyev müdrik siyasətçi və dövlət xadimi kimi qiymətləndirirdi ki, “yubileylərin keçirilməsi bir tərəfdən yubilyarların xalq, dünya qarşısında xidmətlərini bir daha

---

[824] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 clddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.57

[825] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.58

[826] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.60

[827] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.60

təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir"[828]. "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın" – belə öyüd-nəsihət edirdi Ulu öndər. "Beləliklə də, H.Əliyev dövlət yubiley komissiyasının üzvləri, elmi müəssisələr, yaradıcılıq təşkilatları, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, yerli icra orqanları qarşısında vəzifə kimi qoyur və tələb edirdi ki, bu tədbir vasitəsilə Azərbaycan xalqı dünyaya daha yaxından tanıdılsın". "Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin tarixi mədəniyyəti var"[829]. Akademik B.Nəbiyev fikirlərini dinamik inkişaf etdirərək ümumiləşdirib: "H.Əliyev iftixar duyğusu ilə deyirdi ki, bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə, Bağdadda, həm də Ankarada Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər türk cümhuriyyətləri də vüqarla dayanmışdır. Ay, ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin bayraqları dalğalanır. Bunlardan biri də Azərbaycanın bayrağıdır"[830].

Füzuli tədbirinin ədəbi-ictimai əhəmiyyəti bir sıra nailiyyətlərlə yanaşı, bundan ibarət olub ki, Bakı, Tehran, Təbriz, Ankara, İstanbul, Bağdad, Kərkük, Paris, Moskva və Pekində yığıncaqlar, elmi sessiyalar, beynəlxalq simpoziumlar keçirilib. "1996-cı ildəki beynəlxalq simpoziumda dünya füzulişünaslığının 32 ölkəsindən 70 nümayəndə məruzə etmişdir", "dahi sənətkarın parlaq irsinin XXI əsrdə tədqiqinə dair konkret istiqamətlər müəyyən edilmişdir"[831].

Akademik B.Nəbiyevin məlumatına görə *Molla Pənah Vaqifin Şuşadakı heykəlinin açılışında* vilayətin o zamankı bütün erməni rəhbərliyi, ziyalıları iştirak edib. H.Əliyev "Böyük Azərbaycan şairi Vaqifin timsalında Qarabağda XVIII əsrin ortalarında məskunlaşan ermənilərə başa salırdı ki, torpağın əsl sahibləri, onun təəssübünü çəkənlər, onun şöhərtini dünyaya yayanlar kimlərdir"[832]."H.Əliyevin iradəsilə Şuşada ucaldılan Vaqif məqbərə-

[828] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.61
[829] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.61
[830] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.62
[831] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.64
[832] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009,

si yalnız konkret bir şairin abidəsi deyildi, bu məqbərə daha çox, türk-azərbaycanlı ruhunun əsrlər boyu Qarabağda hakimiyyətinin simvolu idi, bu torpaqda yaranmış təkrarsız sənətin simvolu idi"[833].

*Cəlil Məmmədquluzadə* Heydər Əliyevin "ən çox sevdiyi, yaradıcılığına pərəstiş etdiyi icitmai fikir bahadırı idi." Ulu öndər 1998-ci il dekabrın 28-də Respublika Sarayında müdrik yazıçının 125 illik yubileyindəki nitqində "C.Məmmədquluzadənin öz yaradıcılığı ilə Azərbaycan xalqının milli oyanışında misilsiz rol oynadığını əsaslandırırdı." Əsaslandırırdı ki, yeni milli ideologiyanın yaradıcıları ilk növbədə bu dahi sənətkarın ədəbi-ictimai irsinə müraciət etməlidir: "C.Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır. Və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də C.Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın yaranmasına, formalaşmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir"[834].

Heydər Əliyev *Hüseyn Cavid irsinə* də yüksək qiymət verib. Akademik B.Nəbiyev yazıb ki, "H.Əliyevin nəzərində H.Cavid Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmiş dahi sima idi. Onun yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Ulu öndər əsaslandırırdı ki, bu hörmətli sənətkarın bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırır. Ədib həmişə öz iradəsiylə yaşamış, öz xalqına sadiq olmuşdur, xalqını həddən artıq sevmiş və ona yetərincə xidmət etmişdir." Buna görə də Heydər Əliyev onun qəbrini 1982-ci ildə Naxçıvanda ata-baba torpağına tapşırıb. 1997-ci ildə *böyük ədəbiyyat hamisi* Hüseyn Cavid məqbərəsinin açılışı zamanı deyib: "Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim..."[835]

s.64

[833] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.65

[834] Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 2000, s.265

[835] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009,

Milli mədəniyyətimizin təşkilatçısı və mübəlliği Heydər Əliyev "*Cəfər Cabbarlıya* zəmanəsinin fəlsəfəsini və psixologiyasını, dövlətlər arasında qırılmaz əlaqəni, xalqın tarixi müqəddəratının rəşadətli səhifələrini açıq göstərmək baxımından qiymət verirdi. Böyük rəhbər bildirirdi ki, onun gördüyü işlər – sözün əsl mənasında yorulmaz əmək fədaisinin hünəridir. "C.Cabbarlı müasir Azərbaycan dramaturgiyasının bünövrəsini qoymuşdur. Bu dramaturgiyanın inkişafının əsas istiqamətlərini müəyyən etmişdir, Azərbaycan xalqının və o zamankı sovet ölkəsindəki bir çox başqa xalqların teatr mədəniyyətini zənginləşdirən qiymətli töhfələr vermişdir. Bizim bütün müasir dram sənətimiz müəyyən mənada Cabbarlı teatrının bəhrəsidir. M.F.Axundzadə və C.Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirib zənginləşdirən Cabbarlı teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün də gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur"[836].

Heydər Əliyev milli ədəbiyyatımızın hamisi olub. 1979-cu ildə *Nizami Gəncəvi irsinin yenidən öyrənilməsi* sahəsində qərar verib, AMEA, AYB, Mədəniyyət Nazirliyi, respublika nəşriyyatları və kütləvi informasiya vasitələri qarşısında vəzifələr qoyub.

Akademik *Teymur Kərimli* və professor *Vilayət Quliyev* bu ədəbi-tarixi işin klassik və müasir fəlsəfəsinə işıq tutub, Ümummilli liderin tarixi obrazını bu fonda canlandırıb: "Nizami Gəncəvinin yaradıcılıq irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı irəli sürülən vəzifələr respublika elminin və mədəniyyətinin, mənəvi tərbiyə işinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar və perspektivlər açıb"[837].

1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi respublikamızda təntənəli surətdə qeyd olunanda Heydər Əliyevin işlətdiyi və geniş əks-səda doğurduğu *"Qoy ədalət zəfər çalsın"* nidasının məna və mahiyyəti böyük tarixi reallıq kəsb edib. "Heydər Əliyev Nizaminin səkkiz əsr əvvəl öz əsərlərində irəli sürüb əsaslandırdığı bir çox mənəvi-əxlaqi qənaətlərin, humanizm və ədalətlilik prinsiplərinin bu gün də yaşayan olduğunu, onun yalnız öz doğma xalqına deyil, bütün bəşəriyyətə, insanlığa xidmət etdiyini göstərmişdi"[838].

---

s.68

[836] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.68-69

[837] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:*Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.108

[838] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.113

Heydər Əliyev 1970-ci ildə Suriyada olub, İ.Nəsiminin məzarını ziyarət edib. İ.Nəsimi yubileyi YUNESKO-nun tədbirlər planına daxil edilib və keçirilib. Nəsiminin Bakının mərkəzi meydanlarından birində abidəsi qoyulub. Anadilli yaradıcılığını əhatə edən üçcildlik əsərlərinin elmi-tənqidi mətni hazırlanıb, əsərləri Azərbaycan və rus dillərində çapdan çıxıb, akademik Həmid Araslının "İmadəddin Nəsimi" əsəri dünya dillərinə tərcümə olunub. Qabil "Nəsimi" poemasını yazıb. Akademik B.Nəbiyevin rus dilində məqalələr toplusu çap edilib. Müəlliflər T.Kərimli və V.Quliyev İmadəddin Nəsiminin 600 illiyinin dünyada baş verən əks-sədasını, Azərbaycanı nə qədər tanıtdığını, hürufi şairin Hələb şəhərində məzarının tapıldığı və ziyarətgaha çevrildiyini xatırladıb. Xatırladıblar ki, 2008-ci ildə Azərbaycan Prezidenti, cənab İlham Əliyevin təşkilatçılığı ilə Hələb şəhərində beynəlxalq konfrans keçirilib, Nəsimini ərəb elmi dairələrində tanıdıb, onun yüksək humanist fikirləri ilə tanış olublar. 2004-cü ildə Nəsimi irsinin ikicildliyi latın qrafikası ilə 25 min tirajla çap edilib.1972-ci ildə S.Mümtazın "Divan"ı dil baxımından təkmilləşdirilərək yenidən çap edilib. İ.Nəsimi türkmən ədəbiyyatının klassiki kimi təqdim olunurdu. Müəlliflər yazıb ki: "Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi, eləcə də yaxından qayğısı ilə Azərbaycanda keçirilən Nəsimi təntənələri böyük humanist olan filosof-şairin həm soy-kök, həm də yaradıcılıq baxımından daha qədim ədəbi-mədəni ənənələri ilə seçilən Azərbaycan xalqının yetirməsi olduğunu, bununla yanaşı, türkcə danışan bütün xalqların da ədəbiyyatının inkişafında mühüm rol oynadığını bir səslə təsdiq etdi"[839].

Müəlliflər Ulu öndər Heydər Əliyevin *Məhəmməd Füzuliyə* münasibətində də ədəbi-tarixi missiya görüblər. Bildiriblər ki, böyük rəhbər Məhəmməd Füzuliyə dünya miqyaslı filosof, böyük alim kimi dəyər verib. Heydər Əliyev Məhəmməd Füzuli yubileyini çətin şəraitdə həyata keçirib. Bu, respublikada 1990-cı illərdə mövcud xaosla bağlı olub. 1994-cü ildən geniş hazırlıq işləri başlanıb, ədəbiyyatçılar, dilçilər, mətnşünaslar, tarixçilər və kulturoloqlardan ibarət yubiley komissiyası yaradılıb.

Böyük öndər Füzulinin timsalında Azərbaycan xalqının tarixi köklərə malik olduğunu, Füzulinin isə görkəmli şair və mütəfəkkir, dünya mədəniyyətinə töhfə vermiş ədəbi şəxsiyyət kimi dünyaya bəyan etmək, Yaxın və Orta Şərqdə, nadir bəşəri sənətkar səviyyəsində göstərmək məqsədi izləyib. Hətta, rəssamlığa böyük marağı olmuş Heydər Əliyev Məhəmməd Füzuli-

---

[839] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.117

nin portretini də çəkib. Şairin əsərlərinin nəşri və təbliği sosial-siyasi və mədəni missiyaya xidmət edib.

1-2 noyabr 1994-cü ildə Füzulinin Türkiyədə, Ankarada, 1996-cı ilin payızında isə Azərbaycanda, Bakıda 500 illik yubileyi keçirilib. Müəlliflər yazıb: "YUNESKO-nun qərarı ilə 1996-cı il dünya miqyasında Füzuli ili elan olunmuşdu. Bu qərarın qəbul edilməsinin nə kimi texniki və yaradıcılıq çətinlikləri ilə bağlı olduğu məlumdur. Azərbaycanda isə tam əminliklə demək olar ki, 1994-cü ildən 1996-cı ilə qədər, tam üç il ərzində Füzuli illəri yaşandı. Bu müddətdə şairin əsərlərinin yeni altıcildliyi və ikicildliyi çap olundu, altı dildə Füzuli irsindən seçmələr işıq üzü gördü, şair haqqında yeni tədqiqat əsərləri ədəbi ictimaiyyətə təqdim edildi"[840].

1967-ci ildə *Molla Pənah Vaqifin* 250 illiyi keçirilib, 1976-cı ildə Şuşada məqbərəsi ucaldılıb, məqalə müəlliflərinin qeyd etdiyi kimi "bu məqbərəsinin simvolunda klassik Azərbaycan poeziyasının daha bir təbliğ və tədqiq auditoriyası yaradılmışdı"[841]. Görkəmli şairin 300 illik yubileyi isə 2017-ci ildə YUNESKO səviyyəsində Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin böyük təşkilatçılığı ilə təntənəli surətdə qeyd edilib.

*"Vaqif İli"ndə (2017)* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamından irəli gələn xeyli kitab və məqalə nəşr olunub, şairin 300 illik yubileyi YUNESKO və TÜRKSOY beynəlxalq təşkilatları səviyyəsində keçirilib, TÜRKSOY beynəlxalq təşkilatı akademik İsa Həbibbəylinin ön sözü ilə Ankarada sənətkarın əsərlərini 12 dildə nəşr edib. Müəlliflər məqalədə Heydər Əliyevin M.Ş.Vazeh, M.F.Axundzadə, N.Nərimanov, H.Cavid, S.Vurğun, C.Məmmədquluzadə, C.Cabbarlı ilə bağlı qərarları üzərində də təfərrüatlı dayanıblar.

Nəriman Nərimanovun şəxsiyyəti üzərində geniş dayanan müəlliflər bildiriblər ki, "Heydər Əliyevin fikrincə, Nəriman Nərimanovun faciəsi bunda idi ki, o özü də istəmədən sistemin əsirinə çevrilmişdi, lakin namuslu bir şəxsiyyət və vətənpərvər kimi hər vasitə ilə bu sistemin doğma xalqına göstərəcəyi iztirabları yüngülləşdirməyə çalışırdı. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi Heydər Əliyev Nəriman Nərimanovun günahlarından

---

[840] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.142-143

[841] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.148

deyil, bir yaradıcı ziyalı və rəhbər xadim kimi faciəsindən danışmağı daha məqbul hesab edirdi"[842].

Heydər Əliyev millətin genefondunun qorunmasında Nəriman Nərimanovun roluna və xidmətlərinə dəyər verərək deyib ki, "amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məhəmməd Əmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarov və Şıxlinskini həbs etmək istəyirdilər..."[843] Heydər Əliyev N.Nərimanovun 125 illiyinin (1995-ci il) keçirilməsi haqqında sərəncam[844] verib və yüksək səviyyədə yubileyi keçirilib.

*Haşiyə:* XX əsrin böyük tarixi şəxsiyyəti *Nəriman Nərimanovu* doğma xalqına Ümummilli Lider Heydər Əliyev qaytarıb, onun Bakı şəhərində əzəmətli heykəlini ucaltdırıb. Böyük siyasi xadimin ölkəmizdə müxtəlif illərdə yubileyləri qeyd edilib, Cənab İlham Əliyevin 14 fevral 2020-ci il tarixli sərəncamı ilə tarixi şəxsiyyətin 150 illik yubileyi keçirilib, Sərəncam əsasında iki cilddə "Seçilmiş əsərləri"( tərtibçi, ön söz müəllifi, professor Teymur Əhmədov)[845] (2020), professor T. Əhmədovun "Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)" monoqrafiyası[846] nəşr edilib.

Müəlliflər Heydər Əliyevin *Cəlil Məmmədquluzadə irsinin* mahiyyəti üzərində geniş dayanıb, görkəmli yazıçını Azərbaycan xalqının azadlığı, müstəqilliyi, dövlət suverenliyi, milli şüur və müstəqillik ideyaları, azərbaycançılıq ideologiyası, "Molla Nəsrəddin" jurnalı baxımından şərh ediblər. C.Məmmədquluzadənin 125 illiyi ilə bağlı Heydər Əliyevin çıxışından sitatda deyilir: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər, Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər, Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə

---

[842] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.160

[843] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.161

[844] Yenə orada

[845] Yenə orada

[846] T. Əhmədov Nəriman Nərimanov *(həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı).* Bakı, "Nurlar", 2020, 338 s.

çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bu günkü vəziyyətdən çıxarmaqda bizə kömək edir”[847].

17 yanvar 2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam verib.

Azərbaycan Mədəniyyət Nazirliyi, TÜRKSOY, AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, M.F.Axundzadə adına Milli Kitabxana beynəlxalq elmi konfrans keçirib *(18 yanvar 2019).*

Şərhçilərin *Hüseyn Cavid* haqqında fikirləri də əhatəlidir. Müəlliflər Heydər Əliyevin obrazını Hüseyn Cavidə münasibətdə türkçü və ümmətçi kimi təqdim ediblər: “Heydər Əliyevin fikrincə, milli özünüdərkin yeni intibah dövrü yaşadığı 1990-cı illərdə Cavidin ideyaları, bütünlükdə Cavid yaradıcılığı daha böyük əhəmiyyət və aktuallıq kəsb edibdir”[848]. Müəlliflərin şərhindən aydın olur ki, Heydər Əliyev Hüseyn Cavidə əsərlərinin vüsətinə, fəlsəfi, elmi səviyyəsinə görə dəyər verib, onu Şekspir və Höte ilə, “İblis”i “Faust”la müqayisə edibdir.

23 oktyabr 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi təntənəli qeyd edilib, ev-muzeyi yenidən qurulub, məzarı üzərində məqbərəsi tikilib və 1996-cı ilin oktyabrında açılışı olubdur. Cənab İlham Əliyevin rəhbərliyi ilə dramaturqun “Külliyyatı”nın beş cildliyi Turan Cavid tərəfindən nəşr edilib, 2005-ci il sərəncamı ilə əsərləri latın qrafikasında buraxılıb.

*Haşiyə:* 24 sentyabr 2022-ci ildə Hüseyn Cavidin 140 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Azərbaycanın İstanbuldakı Konsulluğunun təşkilatçılığı ilə 25 noyabr 2022-ci ildə Hüseyn Cavidin 140 illiyi münasibətilə İstanbulda simpozium keçirilib.

24 oktyabr 2022-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu *“Hüseyn Cavid sənəti: ideallar və müasir dövr”* adlı beynəlxalq elmi konfrans keçirib *(24 oktyabr 2022).*

---

[847] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:*Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.165

[848] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.177

Məqalə müəllifləri dahi Azərbaycan bəstəkarı, Şərqdə opera sənətinin banisi, yazıçı, publisist və ictimai xadim *Üzeyir Hacıbəyliyə* də əhatəli yer veriblər. 1995-ci ildə Heydər Əliyev dahi bəstəkarın 110 illiyini təntənəli keçirib, onu həm də AXC məsələləri ilə bağlı səciyyələndirərək deyib: "1918-ci ildə Azərbaycanda ilk demokratik Respublika yaranan zaman və yaranandan sonra Üzeyir Hacıbəyli o vaxt gedən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmuşdur. O, görkəmli bir şəxsiyyət kimi həmin proseslərin düzgün istiqamətdə getməsinə təsir göstərmiş və o ağır dövrdə, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəldilməsi üçün çox işlər görmüşdür. Azərbaycanın ilk demokratik respublikasının yaranması, inkişaf etməsi üçün çalışmış, fəaliyyət göstərmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün cəhdlər göstərmişdir. Parisə – Versal sülh konfransına gedən Azərbaycan nümayəndə heyətinə onun verdiyi tövsiyələr, məsləhətlər və göstərişlər – Üzeyir Hacıbəylinin kiçik qardaşı Ceyhun Hacıbəyli də nümayəndə heyətinin tərkibində idi – bunlara canlı sübutdur. Üzeyir Hacıbəyli ilk müstəqil Azərbaycan dövlətinin "Azərbaycan" qəzetinin redaktoru olmuş və bu qəzetin fəaliyyətində həm öz məqalələri ilə, həm də rəhbərliyi ilə çox böyük xidmətlər göstərmişdir"[849].

1995-ci ildə Ü.Hacıbəylinin AXC dövründə "Azərbaycan" qəzetində dərc olunmuş məqalələri "Fitnələr qarşısında" adı ilə çap edilib. Müəlliflər Heydər Əliyevin tezisləri əsasında ümumiləşdiriblər ki, inqilabdan əvvəl, cümhuriyyət dövrü və ondan sonra – bütün mərhələlərdə Ü.Hacıbəyli və yaradıcılığı xalqı ilə birlikdə olub. O dövlət himnin də müəllifidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev *"Üzeyir Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında"* 23 fevral 2010-cu il tarixli Sərəncam verib. Sərəncama əsasən ölkəmizdə və xaricdə müxtəlif tədbirlər keçirilib.

Akademik Bəkir Nəbiyev "Heydər Əliyev haqqında etüdlər"[850] əsərində həyəcanlı, nikbin salnaməçi kimi görünür. O, bütün böyük sənətkarların yubileylərinin məna və mahiyyətindəki alt qatları: tarix və siyasəti də bəlgələmiş, onların sənət missiyasının cövhərini, fitrətini üzə çıxarıb oxucuya təqdim edib. Baxın, Xalq şairi *Səməd Vurğun* haqqında danışanda da Ulu öndərin siyasi xadim fitrətinin gizli mənalarını belə vurğulayıb: "Azərbaycan ədəbiyyatının keçən əsrdəki inkişafının mühüm mərhələsi onun *(S.Vurğunun – Ə.Ə.)* şərəfli adı, böyük istedadı və çoxcəhətli yaradıcılıq fəaliyyəti

---

[849] Yenə orada, s.188

[850] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009; Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı, "Elm", 2007

ilə üzvü surətdə bağlıdır". "Yüksək humanist dəyərləri, həyati və tarixi hadisələri fəlsəfi dərinliyi ilə qavrayıb mənalandırmaq, xəlqilik, bədii sözün çoxəsrlik ənənələri, qırılmaz varislik əlaqələri, romantik vüsət S.Vurğun poeziyasının əsas xüsusiyyətlərindəndir. O, milli şeirimizi novator keyfiyyətlərlə zənginləşdirmiş, yüksək sənət məktəbi yaratmışdır"[851]. Ədəbiyyat bilicisi Heydər Əliyev xüsusi vurğulayıb ki, "XX əsr, xüsusilə də, həmin yüzillikdə S.Vurğunun yazıb-yaratdığı 1920-50-ci illər bəşər tarixinin çox mürəkkəb, ziddiyyətli proseslərlə əlamətdar olan bir dövrüdür. Birinci Dünya müharibəsi, milyonlarla günahsız insanın qanı bahasına Rusiya imperiyasında sosializmin bərqərar olması, faşizmin Avropaya meydan oxuması, İkinci Dünya müharibəsi, "soyuq müharibə"nin təzadları, Böyük Vətən müharibəsi ərəfəsində və faşizm üzərində qələbədən sonra sovetlərin möhkəmlənməsi, ölkədə 1930-1950-ci illərdə şəxsiyyətə pərəstişin tüğyan etməsi... "belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi"[852].

Akademik Bəkir Nəbiyev qeyd edib ki, Heydər Əliyev Səməd Vurğunun poeziya dilini çox yüksək qiymətləndirib. O deyirdi: "M.P.Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırmışdır... Vaqif Azərbaycan şeirində yeni bir yol açmışdır. S.Vurğun isə Azərbaycan şeir dilini tarixin yeni mərhələsinin tələblərinə əsasən daha da zənginləşdirib, inkişaf etdirib, ana dilimizi hər bir azərbaycanlı üçün daha da doğma, "sevimli və şirin edibdir"[853].

Müdrik şəxsiyyət Heydər Əliyev 1930-1950-ci illərin mürəkkəb tarixi şəraitini, ədəbi prosesin çətinliklərini Xalq şairi *Süleyman Rüstəmə* münasibətində belə səciyyələndirib: "Deyirlər ki, niyə H.Cavid, S.Hüseyn, Ə.Cavad, M.Müşfiq və başqaları repressiyaya məruz qalıblar, amma məsələn, S.Rüstəm, S.Vurğun, R.Rza və qeyriləri yox? Biz unuda bilmərik ki, Stalin repressiyası qlobal miqyaslı bir zəlzələ, dəniz tufanı, qasırğa, nəhəng qar uçqunu kimi ölkəyə gəlmiş ictimai-siyasi fəlakət idi. Bu kataklizmdən bir təsadüf, yaxud möcüzə sayəsində qurtulmuş bir sıra Vətən oğullarını, onların o biri qardaşlarını xilas ola bilmədikləri üçün ittiham etməyə bizim haqqımız yoxdur"[854].Akademik B.Nəbiyev "alman faşizminə qarşı mübarizədə

---

[851] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.69

[852] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.69

[853] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.70

[854] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009,

şairin əsəri Azərbaycan xalqı, özəlliklə də, gənclərimiz arasında vətənpərvərlik hisslərinin inkişafında, qüvvətlənməsində çox böyük rol oynamışdır", – deyə Ulu Öndərin qiymətli fikirlərini xatırladanda onun fərdiləşdirmələrini xüsusi qabardırdı: "Yalnız Vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir insan S.Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir"[855].

11 aprel 1998-ci il tarixli təbrikində Heydər Əliyev *Məhəmmədhüseyn Şəhriyarı* böyük vətənpərvərlik duyğularının tərənnümçüsü olan filosof şair kimi təqdim edirdi. Bildirirdi ki, "Şəhriyarın irsi onun yaşayıb-yaratdığı zamanın, ictimai-siyasi, fəlsəfi və ədəbi görüşlərinin parlaq inikasıdır"[856]. Heydər Əliyev deyib: "Şair xalq həyatının dərinliklərinə enib, dövrün kəskin ictimai ziddiyyətlərini, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə bütün dünyaya car çəkmişdir"[857].

"Şəhriyar da Şərqin çox geniş bir regionunda insan mənəviyyatının zənginləşməsində böyük rol oynamışdır"[858].

Heydər Əliyev 1998-ci il aprelin 24-də Xalq şairi *Mirvarid Dilbazinin 85 illik yubileyində* iştirak edib və parlaq nitq söyləyib. O, M.Dilbazinin şəxsiyyətini və sənətini ədəbiyyatımızın nadir hadisəsi adlandırıb. M.Dilbazi "İstiqlal" ordeni ilə təltif edilib, "1930-cu ildən başlayaraq S.Vurğun, S.Rüstəm, M.Müşfiq, R.Rza, O.Sarıvəlli, M.Rahim, N.Rəfibəyli kimi sənətkarlarla bir sırada, yorulmaq bilmədən səmərəli fəaliyyət göstərib. "Böyük rəhbər S.Rüstəm, R.Rza, M.İbrahimov, S.Rəhimov, Q.Qarayev, F.Əmirov, Niyazi, R.Behbudova Sosialist Əməyi Qəhrəmanı adını verəndə də qiymətləndirirdi ki, "bu cür təltifləri əks etdirən hər bir fərman keçmiş Sovet İttifaqının Mərkəzi Televiziya Kanalı və əsas qəzetləri ilə bütün ölkəyə və xaricə çatdırılır, dünyada müəyyən əks-səda verir, hər dəfə bu münasibətlə Azərbaycanımızın mübarək adı dönə-dönə çəkilir, dostları sevindirdiyi kimi xəbis düşmənlərimizi pərt edirdi"[859].

---

s.72

[855] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 clddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.71

[856] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.73

[857] Yenə orada, s.73

[858] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.74

[859] Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.76

15 aprel 1995-ci ildə Heydər Əliyev daha üç böyük sənətkarı ilk dəfə "İstiqlal" ordeni ilə təltif edib. Bunlar Xalq şairləri *Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Araz* olub.

Xalq yazıçısı *Anarın* memuar janrında yazılmış *"Unudulmaz görüşlər"* kitabı 40 ildən artıq dövrü əks etdirən ədəbi-siyasi və ictimai əsərdir. Topluda Ulu öndərlə görüşlər, mükalimələr, yazıçıların qurultaylarındakı çıxışlar, ədəbi mübahisələr dolğun əksini tapıb, yaxın keçmişimizin mürəkkəb, ziddiyyətli dövrü, Ümummilli lider Heydər Əliyevin *müdrik və qalibiyyətli obrazı* göz önündə canlandırılıb.

Salnamə "Heydər Əliyevin müxtəlif illərdəki çıxışları", "Anarın müxtəlif illərdə çıxışları və Heydər Əliyevə məktubları" və "Unudulmaz görüşlər" başlıqlarından ibarətdir. Görkəmli yazıçı və ictimai xadim "*Heydər Əliyev.Müstəqilliyimiz əbədidir*" çoxcildliyinin birinci və ikinci cildləri, habelə, "*Qayıdış*" kitabının təqdimat mərasimlərində çıxış edib *("Azərbaycan" qəzeti, 6 iyun 1997)*, Ümummilli liderin səmimiyyət və xarakterinin səciyyəvi xüsusiyyətlərindən danışıb. Müəllif yazıb: "Heydər Əliyev deyəndə ki mən xalqımlayam, xalqla mən birəm, mənim arxamda xalq durur, – bu, tamamilə səmimi sözlərdir. Amma televiziya ilə çıxışında, müsahibəsində deyəndə ki mənim şəxsi dostum yoxdur, bu da səmimi sözlərdir. Bu da insan xarakterinin mürəkkəbliyini göstərir, çünki hakimiyyət həm də tənhalıq deməkdir"[860]. Yazıçı "Panorama dailu" qəzetindəki 8 avqust 1998-ci il tarixli çıxışında deyib: "Mən inanıram ki, Heydər Əliyev bu seçkilərdə mütləq qalib gələcək. Ölkəmizin bu günündə ikinci bir siyasi xadim tanımıram ki, o, Azərbaycana Heydər Əliyev qədər gərək olsun. Bu boykot söhbəti ilə Azərbaycanı dünya ictimaiyyətinin gözündən salmaq kimə lazımdır. Boykot demokratiyanın Azərbaycanda inkişafı üçün yol deyildir. Şəxsi fikrimdir: əhalinin əksəriyyəti Əliyevə səs verəcək"[861].

Ziyalılardan bir qrupunun müraciətində Anar Heydər Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə layiq yeganə siyasi xadim olduğunu ifadə edib və deyib ki, dünyanın siyasi xəritəsində Azərbaycan öz yerini yalnız möcüzə sayəsində saxlaya bilərdi ki, bu möcüzə Heydər Əliyevin simasında baş verib.

Anar *"Şəxsiyyətin miqyası" (4 may 1998)* məqaləsində Heydər Əliyevin *ədalət meyarı* barəsində yazıb: "Mərkəzi Komitənin katibi seçiləndən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev "Şah Abbassayağı tərki-libas" olaraq bazarları, dükanları gəzir, qanunsuzluqları, əli-əyrilikləri,

[860] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.21
[861] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.22

pozuntuları özü öz gözləriylə əyani müşahidə edir və yerindəcə müqəssirin cəzasını verirdi və belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında söz-söhbətlərin geniş yayılmasına səbəb olurdu"[862].

Yazıçı bildirib ki, Heydər Əliyev qətiyyəti ilə çox şeyi həll edibdir. "Mərkəzin ondan gözlədiyi mübarizəni – millətçilik təzahürlərinə qarşı mübarizəni tamamilə başqa və təhlükəsi daha real bir bərpaya qarşı – qanun pozuntularına, rüşvətxorluğa, əliəyriliyə, ədalətsizliyə qarşı mübarizəyə çevirirdi". "Və yalnız Azərbaycanı yox, SSRİ-nin gələcək taleyinin dəyişməsi üçün ilk addımlarını atırdı"[863].

Müəllif Heydər Əliyevin 75 illiyində "Oqonyok" jurnalına *"Şəxsiyyətin miqyası"* adlı məqaləsini yazıb, Ulu öndərin böyük şəxsiyyətindən danışıb. Anar bu böyük insanı gənclik illərindən tanıyıb, onunla Azərbaycanın rayonlarına səfərlərdə olub. Heydər Əliyevin Gəncə, Naxçıvan, Şuşa, İstanbul, Ankara, Moskva, Roma, Pekin, Şanxay, Almatı, Bişkek dövlət başçıları ilə danışıqları, sənətçilərlə ünsiyyəti, tarlalarda, ya küçələrdə adi adamlarla görüşləri Anara onu yaxından müşahidə etməyə şərait yaradıb, toplantılarda, yubileylərdə böyük rəhbəri dinləyib, yazıçılarla, sənət adamlarıyla görüşlərində iştirak edib, 2-3 dəfə məhrəm söhbətləri olub.

Anar *Heydər Əliyev taleyinin* bir neçə səciyyəvi məqamı üzərində dayanıb: birincisi, *"zənnimcə, Heydər Əliyev bu dünyaya həmişə qələbə çalmaq üçün gəlmişdi"*[864].

Heydər Əliyevin bütün mədəniyyət fəaliyyətinin milli dövlətçilik siyasəti var idi. Anarın şərhində: "İkincisi, *əgər rus ordusunun Azərbaycandan çıxarılmasını Xalq Cəbhəsi təşkil etmişdisə, milli zabitlər yetişdirən Naxçıvanski hərbi məktəbinin yaradılması Heydər Əliyevin adı ilə bağlı idi". "Şuşada əzəmətli Vaqif məqbərəsini, Natəvan heykəlini ucaltmaqla, Üzeyir Hacıbəylinin, Bülbülün muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi"*[865].

Yazıçı faktlar və nəticələr işığında təzahür və mahiyyəti vurğulayıb. O da hesab edib ki: "Heydər Əliyev SSRİ-nin siyasi Olimpindən uzaqlaşdırılan" kimi, düz bir il sonra akademik Aqambekyan Parisdə Qarabağ kompaniyasına start vermişdi"[866].

---

[862] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.33
[863] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.38
[864] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.39
[865] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.40
[866] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.37

Heydər Əliyev isə dünyaya qalib kimi gəlmişdi. Uzaqgörən siyasi rəhbər müstəqil Azərbaycanın qorunması, qurulması və yaşamasında müstəsna xidmətlər göstərib. *(dekabr 2003).* Sənətkar *"Qalib gəldi, qalib getdi"* məqaləsində (2003) Heydər Əliyev xasiyyətinin səciyyəvi bir xüsusiyyətini də elə bu fonda əyanilәşdirib: "O, yaddaşlarda həmişəki kimi şax yerişli, məğrur duruşlu, xoşsifətli, gülərüzlü, bəzən də sərt, iti baxışlı bir insan kimi qalmaq istəmişdi"[867].

Nüfuzlu şəxsiyyət olan Anar Heydər Əliyevin həyatının son çağlarını da izləyib. Dekabrın 12-dən 13-ünə keçən gecə ANS telekanalı qara xəbəri bütün dünyaya yayıb, Anar da əziz olan adamını itirdiyinə görə dərin təəssüf hissləri keçirib, ulu rəhbərin ruhuna Allahdan rəhmət diləyibdir.

Yazıçı Heydər Əiyevi gəncliyindən tanıyıb, onu Gəncə, Naxçıvan, Şuşa, İstanbul, Ankara, Moskva, Roma, Pekin, Şanxay, Almatı və Bişkekdə dövlət başçıları ilə söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda, küçələrdə adi adamlarla görüşlərində müşahidə edib, toplantılarda, görüşlərdə onu dinləyib, yazıçılarla, sənət adamları ilə görüşlərində iştirak edib, bir neçə dəfə isə təkbətək görüşləri olub. Belə görüşlərdən biri də 1997-ci ilin payızında İtaliyadan qayıdanda, təyyarədə 3 saatdan çox ikilikdəki danışıqları olub.

Anar Ümummilli liderin *müstəsna talant sahibi* olduğunu müxtəlif hallarda xatırladıb: "Azərbaycanın görkəmli sənətkarlarının yüksək ümumittifaq mükafatlarına, təltiflərinə nail olmaq yalnız o konkret şəxslərin deyil, ümumən ədəbiyyatımızın, sənətimizin və deməli, Azərbaycanımızın nüfuzunu ucaltmaqdı. Bütün bunlar – Heydər Əliyev zəkasının, iradəsinin, uzaqgörənliyinin qələbəsi idi"[868].

Sənətkar dahi rəhbərin siyasi nüfuzunu, onun mədəniyyət siyasətini, habelə, Naxçıvan və Qarabağı ermənilərdən təmizləmək siyasətini xüsusi qiymətləndirib. Şuşada əzəmətli Vaqif məqrəbəsini, Natəvan heykəlini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi"[869].

Kitab müəllifi reallığı qiymətli bir tezisi ilə obrazlaşdırıb: *Heydər Əliyev çağdaş Azərbaycanın qurucusu, çağdaş Azərbaycan onun şah əsəridir,* "bizim borcumuz isə bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir. Bütün siyasi çəkişmələr, dartışmalar, toqquşmalar – xal-

[867] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.37
[868] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009,s.40-41
[869] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.41

qın taleyi qarşısında çox cılız görünür, böyük Tarix önündə çox kiçik həvəslər, hərisliklər, hikkələrdir. Heydər Əliyev hər xalqa, bəlkə də, əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi"[870].

Yazıçı səmimiyyətlə rəhbər böyüklüyünü obrazlaşdırdığı kimi, onun kədərini də böyüklüyündə– ümumxalq kədəri və nikbinliyində təqdim edib. Müəllif vida məqaləsinin son sətirlərini böyük hüznlə, kədərlə, sarsıntıyla yazıb: "Həyata qalib kimi gəlmişdi. Xalqı vəfatıyla sarsıdan, sarsıdaraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir desin, nə yazır yazsın, qalib gəldi, qalib getdi"[871]

Anar, Yusif Səmədoğlu və Fikrət Qocanın birlikdə imzaladığı bir yazı *"Unudulmaz görüşlər" (2008)* adlanır. Məqalə dahi insanın vəfatının 5 illiyi münasibətilə yazılıb. Məqsədin izharı: "Bu günkü nəsillərin, onun çağdaşlarının, özəlliklə onunla bu və ya digər dərəcədə təmasda olanların borcu isə Heydər Əliyevlə bağlı anılarını, xatirələrini yubanmadan qələmə almaq, onun mürəkkəb və zəngin obrazının müxtəlif çalarlarını, ayrıntılarını sənəd kimi tarixin malı etməkdir"[872]. Bəli, Ümumilli iderin *tarixi obrazının* çağdaş təcəssümü!

Yazıçı Heydər Əliyevlə unudulmaz görüşlərini yada salıb, haqqında xoş sözlərini, ona Dövlət mükafatı və Xalq yazıçısı adlarını verdiyini, 60 yaşını "İstiqlal" ordeni ilə təbrik etdiyini xatırladıb, böyük şəxsiyyətin Azərbaycan Yazıçıları Birliyinə qayğısından danışıb, bədxahları, xəbisləri, nankorları, məddahları, nanəcibləri, paxılları, buqələmunları damğalayıb, özünün dahi rəhbərə olan sabit münasibətini ifadə edib. Vəzifəli və ya vəzifəsiz olanda! Anar: "Qürur duyuram ki, Heydər Əliyev hakimiyyətdə olanda da, bütün vəzifələrindən uzaqlaşdırılıb təklənəndə də bir çox yazıçılarımızın, o cümlədən də mənim ona münasibətim zərrə qədər dəyişmədi, əksinə bəziləri Heydər Əliyevdən üz döndərəndə ona əvvəlkindən də artıq diqqət və hörmət göstərdik"[873],– deyə mövqeyini xatırladıb.

Anar yazıçı-jurnalist Elmira Axundova ilə birlikdə Heydər Əliyevin yazıçıların IX qurultayına dəvətini, Bəxtiyar Vahabzadənin və yazıçıların ona dövlət məmurlarından daha artıq səmimiyyət göstərdiyini yada salıb, sağında Xəlil Rza Ulutürkün, solunda Rəfiq Zəkanın əyləşdiyini və X qurultayda ona olan sonsuz minnətdarlığını ifadə edib: "–Hörmətli prezident! Siz bizim bir qurultayı da yada saldınız, o vaxt siz iş başında deyildiniz və onu

---

[870] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.41
[871] Yenə orada
[872] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s. 42
[873] Anar.Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s. 44

belə minnətdarlıqla, nəcibliklə xatırladınız. Deməк istəyirəm ki, Sizi o qurultaya dəvət etməsəydik, gərək özümüzə hörmət etməyəydik və şəxsən mən gərək özümə hörmət etməyəydim. Hesab edirəm ki, Azərbaycan yazıçılarının 99 faizi, – mən də onlardan biri – yəni, böyük əksəriyyəti – Sizin gözünüzün içinə düz baxa bilər. Çünki heç bir vaxt Sizə etibarsız olmayıblar”[874].

Anar 1982-ci ildə Y.V.Andropovun hakimiyyəti dövründə Heydər Əliyevin Sov.İKP siyasi bürosuna üzv seçildiyini, SSRİ Nazirlər Soveti sədrinin I müavini təyin olunduğunu yada salıb və görüş zamanı böyük rəhbərin kövrəldiyi nüans üzərində dayanıb: “İlk öncə ağla gələn fikir budur ki, Heydər Əliyev Azərbaycana, doğma vətəninə, xalqına çox bağlı adamdır, bu torpaqdan uzaqlarda ömür sürmək onun üçün çətindir. İnkişafı üçün bu qədər iş gördüyü, əmək, enerji sərf etdiyi respublikanı tərk edib tamam başqa bir mühitə düşməsi, təbii ki, ciddi məsələ idi”.[875]

Heydər Əliyev Sovet hökumətinin ən yüksək vəzifələrində olanda belə nə özü, nə də ailəsi azərbaycanlı olduqlarını, dillərini unutmayıb, onlar doğma vətənlə əlaqəni kəsməyiblər. Konsertlərə, rəssamların sərgilərinə gəlib, Anarın “Sizi deyib gəlmişəm” tamaşasına baxıblar.

Nüfuzlu siyasi şəxsiyyət Heydər Əliyev vəzifə başında həmişə ermənilər üçün qorxu olub. Elə onlar da azərbaycanlı imzaları ilə onun əleyhinə Kremlə çox məktublar göndəriblər. Vaxtilə onların I katibi Dəmirçiyan: “Ermənilərin iki düşməni var, biri Mustafa Kamal Atatürk, o birisi isə Heydər Əliyev. Biri ölmüş, biri isə rəsmi vəzifədən getmişdir. Sonuncu sağ olduğu qədər, qorxuludur”,– deyib. Anar müəllim yazıb: “Yüz faiz əminəm ki, Heydər Əliyev Azərbaycan rəhbərliyini davam etdirsəydi, ermənilər heç vaxt Qarabağ məsələsini qaldırmağa cəhd və cəsarət etməzdi”[876].

Yazıçı ermənilərin Heydər Əliyev nüfuzunun qorxusundan, şəxsiyyətinin genişliyindən, Alixanyanın yalançı “ziyalılığından”, Zori Balayanın Qorbaçovla birlikdə Heydər Əliyevi yüksək vəzifəsindən uzaqlaşdırmağın yollarından bəhs edib. O, L.İ.Brejnevə Heydər Əliyevin yaxınlığından, milli ruhlu rəhbərin xidmətləri sayəsində Şuşanın milli simasından, Molla Pənah Vaqif, Xurşudbanu Natəvan, Üzeyir Hacıbəyov və Bülbülün büstlərini qoydurduğundan, Üzeyir bəy və Bülbülün ev muzeylərinin yaradıldığından, Gövhərağa məscidindən, Səməd bəy Mehmandarov və Hacıqululların memarlıq incisi olan evlərindən, Mir Möhsün Nəvvabın mənzilinin bərpasın-

[874] Anar.Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.44
[875] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.70
[876] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.73

dan, Vaqifin məqbərəsindən, Cıdır düzündə qəbrinin götürüldüyündən danışıb. Anar müəllim ilk dəfə Şuşa səfərində, Vaqifin məqbərəsinin açılışında və Üzeyir bəyin yubileyində Heydər Əliyevlə bir yerdə olduğunu yada salıb. O, "Qobustan" jurnalında Şuşanın əsasını qoyan Pənah xan Cavanşirə heykəl ucaldılmasını təklif edib, bu səbəbdən MK-ya çağırılıb, ona etirazlar olub, o da Peterburq və Moskvanın qurucuları kimi Pənah xana da haqq verib.

Yazıçı 20 yanvar faciəsi baş verəndə *"Şəhidlər dağı"* adlı yazı yazıb, prezident sarayı qarşısında, habelə, fövqəladə vəziyyət şəraitində Azərbaycan Ali Sovetində Bəxtiyar Vahabzadə ilə birlikdə çıxışlar edib, Elmlər Akademiyasında ziyalıların etiraz toplanışını keçirib, beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə müraciət olunub, "Müsibət" adlı yazısını sovet respublikalarının Yazıçılar təşkilatlarına, SSRİ deputatlarına göndərib. Sonralar həmin yazılar "Qara yanvar" kitabında, yazıçının Azərbaycan və rus dillərində çıxan kitablarında, habelə, Fransa və İranda çap edilmiş nəşrlərdə özünə yer alıb.

Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib, xarici müxbirlər, mətbuat nümayəndələri qarşısında bəyanat verib, xalqına baş sağlığı diləyib, M.S.Qorçabovu ittiham edib. Güclü siyasi xadimə qarşı böhtan kompaniyası güclənib, Mərkəzi rəhbərlik ona Bakıya qayıtmağa imkan verməyib, Respublika rəhbərliyi də bunu istəməyib.

Kitab müəllifi Ümumilli liderin Bakıya gəlib az sonra Naxçıvana getdiyini, orada çətin şəraitdə yaşadığını, Naxçıvanın, Azərbaycanın deputatı seçildiyini, Sədərək görüşlərini yada salıb. Yazıçı oraya Xəlil Rza Ulutürk və Fərhad Xəlilovla yola düşdüyünü, Heydər Əliyevin Naxçıvan dövrü fəallığını, Azərbaycana gəlmək inamını ifadə edib, o vaxtın siyasi şəraitini, işğalları, faciə və fəlakətləri, ölkənin parçalanması və vətəndaş qarşıdurmasını, bir sözlə, siyasi liderin xilaskarlıq missiyasını oxucu diqqətinə çatdırıb.

AYB-nin sədri Anar Rzayev Heydər Əliyevin Bakıya gəlişinə 1992-ci ildə təşəbbüs edib, qəzetə təklif verib, 5 nəfərdən ibarət Dövlət Şurası yaradılıb, təəssüf ki, əhəmiyyət verən olmayıb. Böyük rəhbər qalib iradəsi, geniş ictimaiyyətin və o zamanki rəhbərliyin təkidiylə Bakıya gəlib, müdrik siyasəti ilə Talış-Muğan qurumunu ləğv edib, Gəncəyə gedib, mövcud təhlükələri aradan qaldırıb. Yazıçı bütün bunları *"Gecə düşüncələri"*məqaləsində yazıb.

Anar müəllim İstanbulun Memar Sinan Universitetində 6 ay (1993) Azərbaycan ədəbiyyatından dərs deyib, lakin hadisələrin ağır vaxtında Vətənə qayıdıb, prezident Əbülfəz Elçibəyə, Ali Sovetin sədri Heydər Əliyevə və başqa məsul şəxslərə müraciət edib. Müraciətdə deyilir: "... Hörmətli

Heydər bəy! Tale Sizin çiyinlərinizə Azərbaycan xalqının həlledici məqamında çox ağır və məsuliyyət dolu bir yük qoyub. Zəngin siyasi təcrübənizi, dünya siyasətinə miqyaslı baxışınızı, əzminizi, iradənizi xalqımızı bu ağır vəziyyətdən çıxarmaq üçün əsirgəməyin"[877].

Humanist şəxsiyyətin xitabında faktlar yığcam, əlvan təsvir-təhkiyə mətnində, sadalama intonasiyasında ifadə olunub. Müəllif sentyabrın 20-də Heydər Əliyevin prezidentliyə qayıdışını, ziyalılarla görüşünü və öz (Anar – Ə.Ə.) məruzəsini də xatırladıb. Məruzəsindən: "Azərbaycan bu gün tarixinin, doğrudan da, ən ağır günlərini yaşayır və çoxları kimi mənim də bu ağır günlərdən qurtulmaq ümidlərimiz Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə bağlıdır. Tək kiçik qonşumuzun – ermənilərin yox, böyük qonşularımızın da siyasi oyunlarını yaxşı bilən, dünya siyasəti miqyasında düşünən, zəngin təcrübəyə malik olan, siyasi addımlarını yüz ölçüb bir biçməyi bacaran Heydər Əliyev bəlkə də bu ağır günlərdə Azərbaycanımızın son şansıdır. Tarixi şəxsiyyətləri müqayisə etmək düzgün deyil, amma ölkələrin düşdüyü tarixi situasiyaların müəyyən oxşarlığı olur. Türkiyənin ən ağır günlərində tarixin meydana çıxardığı böyük bir şəxsiyyət – Atatürk Türkiyəni həm xilas etdi, qurtardı, həm də qurdu, gələcəyini sağlam demokratik əsaslarla qurdu. Əlbəttə, tək əldən səs çıxmaz. Amma müxtəlif əqidələrə sahib olan siyasi xadimlərin birgə səyinə, ziyalıların real yardımına əsaslanan yeni rəhbərliyin Azərbaycanı həm qurtaracağına, həm də quracağına inanmaq istəyirəm, yəni bu gün biz XXI əsr Azərbaycanını xoşbəxt bir ölkə kimi görmək istəyiriksə, onun bu xoşbəxtliyi yalnız müstəqillik, demokratiya yolunda ola bilər, demokratik mexanizmlərin və institutların saat kimi dəqiq işlədiyi bir şəraitdə ola bilər"[878].

Yazıçının bir fikri də maraqlıdır. Yazır ki, Heydər Əliyev sovet dövründə ziyalıları özüylə rayonlara aparırdı, müstəqillik dövründə isə onlarla birlikdə xarici səfərlərə yollanırdı. Faydasını da belə ifadə edib: "Bunun böyük əhəmiyyəti vardı. Heydər Əliyevi müşayiət edən jurnalistlər hadisələrin faktoloji tərəflərini işıqlandırır, informasiya xarakterli məlumat verirdilərsə, bu səfərlərin əhəmiyyətini, prezidentin xaricdəki davranışını, başqa ölkələrin liderlərilə danışıqlarını yazıçılar daha dərindən müşahidə və dəyərləndirə bilərdilər"[879].

Anar müəllim zəngin xatirələr içərisindən böyük rəhbərin Çin səfərini, onun ziyalılarla görüşünü xüsusi ayırıb (Qabil, Yusif Səmədoğlu, Eldar

[877] "Azərbaycan" qəzeti, 24 iyun 1993-cü il
[878] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.89-90
[879] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.90

Quliyev, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Elmira Axundova, Anar). Yazıçı siyasi şəxsiyyətin Pekində, Şanxayda Çin hökumətinin rəsmilərilə, iş adamları, jurnalist və ictimaiyyət nümayəndələri ilə görüşünü müşahidə edib, avqust 1998-ci ildəki Almatı görüşlərini, prezidentimizin 1995-ci ilin avqustunda "Manas"ın 1000 illik yubileyi ilə bağlı Bişkek, habelə, Abay Kunanbayevin 150 illik yubileyindəki çıxışlarını, Moskvanın sütunlu salonunda *(1995, 14 noyabr)* Füzuli yubileyindəki geniş nitqini, "Manas"ın ədəbi-tarixi əhəmiyyəti və türk xalqlarının ortaq bədii dəyərlərini xatırladıb[880].

Anar və Yusif Səmədoğlu Çingiz Aytmatovun yurdu Talas vadisində də olub, Heydər Əliyevə milli qırğız xələti və papağı hədiyyə edilib, qarşımızda qədim türk xaqanlarından biri "canlanmışdır", – deyə Anar müəllim qürurlanıb. O, görüş zamanı Heydər Əliyevə Dədə Qorqudun 1300 illiyini qeyd etməyi xatırladıb. Dədə Qorqud Ensiklopediyası işıq üzü görüb. Müəllifin ssenarisi əsasında M.Fərzəlibəyovun "Dədə Qorqud" filmi çəkilib, Heydər Əliyev, Əsgər Akayev və Süleyman Dəmirəl birgə filmə baxıblar.

1995-ci ilin oktyabrında Konstitusiya Komissiyasının iclası olub, Anar Azərbaycan dili sözünə etirazını bildirib, o, Bəxtiyar Vahabzadə və Elçinin "Azərbaycan türkcəsi", "Azəri türkcəsi" birləşməsini təklif edib, Heydər Əliyev bunu ictimaiyyətin açıq müzakirəsinə çıxarıb, AMEA RH-nin binasında Konstitusiya layihəsinin geniş müzakirəsi keçirilib və Anar müəllim: "–Siz Azərbaycan xalqı qarşısında o qədər misilsiz xidmətləri olan adamsınız ki, dilimizin halal adının qaytarılması da qoy Sizin adınızla bağlı olsun"[881],–deyə inamını səsləndirib, səsçoxluğuyla dilimizin "Azərbaycan dili" adlandırılmasına qərar verib.

Ümummilli lider Heydər Əliyev hörmətli Anar Rzayevə müstəqil Azərbaycanın ilk Parlamentini açmaq şərəfini tapşırıb.

Yazıçı Bakı, Moskva və Ankarada keçirilmiş Dədə Qorqud, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Rəşid Behbudov və Tofiq Quliyev yubileylərini xatırladıb. O, 1997-ci ildə mayın 5-dən 8-dək Heydər Əliyevin Türkiyə səfərində iştirak edib. Sentyabrın 25-28-də isə İtaliya, Roma və Neapol şəhərlərində olub. Heydər Əliyev Anarı Vatikanda Roma papası və İtaliya prezidenti ilə görüşə də aparıb. O, İtaliyadan qayıdanda Heydər Əliyevlə təyyarədə 3 saat söhbət edib.

[880] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.97
[881] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.97

1997-ci ilin oktyabrında Azərbaycan Yazıçılar Birliyinin X qurultayı ərəfəsində Heydər Əliyev yaşlı nəsillə, bir gün sonra isə gənclərlə görüş keçirib, Bəxtiyar Vahabzadə və Məmməd Araza, bir gün sonrakı görüşdə isə Anarın xahişi ilə Ramiz Rövşənə ev verib. Akademik Rafael Hüseynov isə *"Rəfibəylilər"* kitabını Heydər Əliyevə təqdim edib. 1994-cü ilin oktyabrında ölkə təhlükədə olanda Heydər Əliyevin televiziya ilə çağırışına Anar da səs verib, izdiham Prezident Aparatının önünə toplaşıb, qiyam baş tutmayıb. Səhəri gün Azadlıq meydanında mitinq keçirilib, Anar müəllim çıxış edib.

AYB-nin sədri, Xalq yazıçısı Anar Rzayevin dövlət xadimi Heydər Əliyevlə görüşlərinin bir ideya-məzmunu da *Qarabağ məsələsi* ilə bağlı olub, Ulu öndərlə danışıqlar aparılıb, Yazıçılar adından müraciətlər edilib, bəyanatlar verilib.

Anar Rzayev *"Heydər Əliyev fondu"nun yaradılması haqqında* Heydər Əliyevə təklif verib və qəbul olunub. Yazıçı: "Fond Heydər Əliyevin vəfatından sonra yarandı. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondu özəlliklə humanitar və xeyriyyəçilik sahəsində, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafı yolunda, Muğamımızın, xalçamızın dünyada geniş tanınması üçün çox böyük işlər görür"[882], –deyə məmnun olduğunu bildirib.

Görkəmli yazıçı Ümummilli lider Heydər Əliyev dünyasını dəyişəndə ANS-ə gəlib, studiyada "Azərbaycan xalqı böyük oğlunu, Sevil xanım və İlham Əliyev atalarını, mən isə çox yaxın, çox əziz adamımı itirdim, – deyə böyük kədərini ifadə edib: " –O, mənim həyanım idi. Atamı və anamı itirdikdən sonra mən bunu daha çox hiss edirdim. Hər zaman ona arxayın ola bilərdim"[883], –deyə minnətdarlığını ifadə edib.

Anar Rzayev 1975-ci ildə (may, iyun) SSRİ Yazıçılar Birliyinin xətti ilə Konstantin Simonovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Heydər Əliyevin göstərişi ilə ilk dəfə Türkiyəyə 10 günlük səfərə gedib. 1992-1994-cü illərdə Türkiyədə Türk dünyası yazıçılarının Birinci və İkinci qurultaylarında iştirak edib. III qurultay isə Heydər Əliyevin maddi qayğısı və köməyi ilə Azərbaycanda keçirilib, Anar müəllim çıxış edib. 70 illik yubileyində görkəmli yazıçını cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva təbrik eləyiblər[884].

[882] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.129
[883] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.140
[884] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.142

Kitab müəllifi, görkəmli yazıçı və ictimai xadim Anar Rzayev böyük rəhbərlə unudulmaz görüşlərini bu sözlərlə tamamlayıb: "1970-ci illərdən üzü bəri qeydlərimin, müşahidələrimin, xatirələrimin, düşüncələrimin bənzəri olan bu yazını 2008-ci ilin dekabr günlərində qələmə aldım və 2009-cu ilin martında tamamladım..."[885]

Xatirələr toplusu Ümummilli lider Heydər Əliyevin *xeyirxah, işıqlı obrazının* canlandırılması və dahi rəhbərə yazıçı sədaqətinin bariz nümunəsi kimi əhəmiyyətlidir. 2018-ci ildə hörmətli Anar Rzayev haqqı olduğu qiymətli ada –"Heydər Əliyevə olan böyük ehtiramı və ədəbi-tarixi xidmətlərinə görə "Heydər Əliyev" medalına layiq görülüb.

AMEA-nın prezidenti, akademik *İsa Həbibbəyli* görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin sosial-siyasi və iqtisqdi-mədəni sahədə tarixi xidmətlərini analitik-informativ təhlil edib. Bu baxımdan alimin "Nuhçıxandan Naxçıvana: tarix və müasirlik", "Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası", "Heydər Əliyev yolu: Naxçıvan reallıqları", "Böyük qayıdışın bəhrələri", "Böyük inkişafın möhtəşəm hesabatı", "Yeniləşmədən intibaha", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti", "Ümummilli liderlik missiyasının miqyası", "Böyük qayıdış epopeyası" və s. məqalələri, habelə, "Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr" (2013), "Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala" *(2 cilddə, 2018, 2019)* və "Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə" adlı kitabları əhəmiyyətlidir. Məqalə və kitablar sanki tribuna şəraitində, ruh yüksəkliyi, güclü enerji və intonasiya ilə yazılıb, faktların zənginliyi, analitik təhlil və fərdi yazı üslubu ilə diqqəti cəlb edib.

Heydər Əliyevin həm tarixi olum, həm də xatirə günü münasibətilə hər il mətbuatda qiymətli yazıları ilə çıxış edən akademik İsa Həbibbəyli Heydər Əliyev məktəbinin yetirməsi, onun şərəfli varisidir. Alim hazırda prezident İlham Əliyevin siyasi-ideoloji kursuna uğurla xidmət etməkdə, elm və təhsil sahəsində müstəqil dövlətçiliyimizə qüvvə və bacarığını sərf etməkdədir. Akademikin "Azərbaycan və azərbaycanlılar" adlı məqalələr toplusunda "*Azərbaycanın quruluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası*" məqaləsi çap olunub. Yazı boyunca Ulu öndər Heydər Əliyev *vətənpərvər, fədakar, müdrik, vətən ideallarına sadiq, sülhsevər dövlət xadimi* kimi obrazlaşdırılıb. Biz məqalə boyu Azərbaycan Elmlər Akademiyasının yaradılması fonunda Heydər Əliyev fəaliyyətinin siyasət, iqtisadiyyat,

---

[885] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.144

elm, təhsil və mədəniyyət sahələrində böyük xidmətləri, elmlə istehsalatın üzvi əlaqəsinin təcəssümünü görürük.

Akademik İsa Həbibbəyli *Heydər Əliyev və ziyalılıq*, *Heydər Əliyev və insan amili, Heydər Əliyev və mənəvi-intellektuallıq, Heydər Əliyev və siyasət, Heydər Əliyev və iqtisadiyyat, Heydər Əliyev və mədəniyyət, Heydər Əliyev və elm* kimi paralel fəaliyyət sferalarının üstünlüklərini ifadə edib. Alim yazıb: "*Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir*". Bu, o deməkdir ki, böyük rəhbər mənalı ömrünü Azərbaycan naminə bütün sahələr üzrə şam kimi əridib. *Heydər Əliyev Azərbaycan Dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olub, Azərbaycan xalqı və dövlətinin qüdrətli xilaskarı* kimi tarixi status qazanıb.

İsa Həbibbəylinin sosial-siyasi məqalələri ideoloji olaraq bir-birini tamamlayıb. Bu baxımdan *"Böyük qayıdışın bəhrələri"* məqaləsi də siyasi-ideoloji xətti ilə seçilib. Məqalədə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı və böyük Qurtuluş sahəsində tarixi xidmətlərinə analitik baxış ifadə olunub.

Professor *Teymur Əhmədov* Heydər Əliyevin siyasi xadim obrazını faktlar, sənədlər əsasında maarifçi təbliğat yönündən təqdim edib, Heydər Əliyev fenomenini həmişə diqqətdə saxlayıb. Alimin *"Azərbaycan: imkanlı güclü ölkə"* məqaləsi[886] *"Bakı–2015" I Avropa oyunlarına* həsr edilib, siyasi varis olaraq İlham Əliyevin dövlət qüdrəti ifadə olunub. 2015-ci ilin yanvarında Heydər Əliyev Fondu İsveçrənin Davos şəhərində "Bakı–2015" ilk Avropa oyunlarının təqdimatını keçirib.

Teymur Əhmədov "Füyuzat" jurnalı, "Respublika" qəzeti və başqa mətbuat orqanlarında *Heydər Əliyev siyasəti və İlham Əliyev varisliyinin parlaq təcəssümü* olan publisistik məqalələrini dərc etdirib.

Azərbaycanşünas-alim *Nizami Cəfərov* Heydər Əliyevi həm də Türk məcrasında təqdim edib. Bu tarixi obrazda *Azərbaycançılıqla* bərabər, *Türkçülük* məfkurəsi də birləşib: "Türk dünyasının fəxri olan H.Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir..."[887]

Türkoloq-alim Heydər Əliyev fenomeninə 1920-1930-cu illərin öz reallıqlarından gələrək vəziyyəti ifadə edib, "türk" sözünün işləkliyindən və qadağalarından, Heydər Əliyev yeniyetməliyinin 1930-cu illərlə bağlı gələnəklərindən danışıb. "...30-cu illərdə (xüsusilə həmin onilliyin birinci yarısında) Azərbaycanın orta məktəblərində ana dili, ədəbiyyat, tarix fənləri

---

[886] Ə. Əsgərli.Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi. Bakı, "Nurlar", 2020, 272 s.; s.261

[887] N. Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.471

türkçülükdən heç də tamamilə "xilas olmamışdı". Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 20-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər hələ bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı... Və 30-cu illərin inqilabi coşğunluğu, siyasi-ideoloji təlatümləri məktəblərdə istər-istəməz milli hisslərlə kompromisə girməli olurdu. H.Əliyev təhsilini belə bir məktəbdə alıb, 30-cu illərin təbəddülatlı ideyalar mühitində böyümüşdü... H.Əliyevdə türkçülük duyğuları gənc yaşlarında orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü, əsasən, Türkiyəyə – yeganə müstəqil türk dövlətinə maraq müəyyən edirdi"[888].

N.Cəfərov *Heydər Əliyev və türkçülük məfkurəsinin* tarixi zəmini və əsaslarına varıb. Yenə bir sitat: "Böyük türkçü sonralar xatırlayırdı ki, "cocuq ikən gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim..." Heydər Əliyev Türkiyənin ədəbiyyat xadimlərini də xatırladıb... "Biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Ədülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Yəni mənim gənc yaşlarımda bu təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatdır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım"[889].

Akademik bunu da xüsusi xatırladıb: "Biz Türkiyə ilə Azərbaycan arasında həyat körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyyatları yaşadım... O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq..."[890]

[888] N. Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.472
[889] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.472
[890] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.472

1950-1960-cı illər Heydər Əliyevin "sovet dövlətçiliyinin həm məzmununu, həm də praktikasına dərindən bələd olduğu" illər olub. Bu illər Heydər Əliyevə "kifayət qədər mürəkkəb sosial-siyasi mühitdə fəaliyyətinin strategiyası ilə taktikasını düzgün əlaqələndirmək məharəti qazandırdı..."[891]

1980-ci illərdə Heydər Əliyev sovet dövləti rəhbərliyində işləməyə aparılan yeganə türk olub. Azərbaycan rəhbərliyində də belə idi... Fəqət..."Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov, Əsgər Akayev ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini məharətlə yerinə yetirirdi"[892].

Akademik Nizami Cəfərov Heydər Əliyev və İlham Əliyev haqqında *"Ümummilli lider: Azərbaycandan Türk dünyasina"* (2023) adlı qiymətli kitabın da müəllifidir.

Əməkdar elm xadimi, professor *Nizaməddin Şəmsizadə "Heydər Əliyev və azərbaycançılıq"* məqaləsində[893] Ümummilli liderin müasir mərhələdə azərbaycançılıq ideologiyası təliminin əsaslarına münasibət bildirib. Müəllif *Ulu öndərin tarixi obrazını həm ideoloji-siyasi, həm də mədəniyyət planında* canlandırıb. Ədəbiyyatşünas-alim Heydər Əliyevin sonsuz mənəvi keyfiyyətlərini: onun boy-buxunu, siması, natiqlik məharəti, siyasi iradə, dövlətçilik təfəkkürü, idarəetmə bacarığı və xalq qüdrətinə inamını xatırladıb, böyük rəhbərin azərbaycançılığını türkçülük zəminində təqdim edib, milli birlik təliminin dünya azərbaycanlılarının da ideologiyası olduğunun şərhini verib. N.Şəmsizadə milli ideologiyamızın əsasında AXC-nin tarixi dövlətçilik ənənələrinin dayandığını, ana dili uğrunda fikir mücadiləsinin çağdaş davamını ifadə edib.

Alim göstərib ki, Heydər Əliyev azərbaycançılıq nəzəriyyəsini dövlətçiliyə tətbiq edib, dövlət yaradıb və xalqın dövlətçilik hissini formalaşdırıb. Heydər Əliyev azərbaycançılıq təliminin əsasında dayanan "Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni – azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırıb"[894].

Professor N.Şəmsizadə Heydər Əliyevin təlimi əsasında *"Azərbaycançılıq ideologiyası" və "Azərbaycançılıq"* monoqrafiyalarını çap etdirib[895].

---

[891] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.473

[892] N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.482

[893] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.227-244

[894] Yenə orada, s.231

[895] N.Şəmsizadə. Azərbaycançılıq ideologiyası. Bakı, "Nurlar", 2006

Əməkdar elm xadimi, professor *Qəzənfər Paşayevin "Xilaskarlar"* kitabı[896] həm Heydər Əliyevə, həm də İlham Əliyevə müncər edilib. Bu əzəmətli insanların hər biri xilaskar olub, Heydər Əliyev sovet Azərbaycanına, İlham Əliyev isə Ulu öndərlə yanaşı, müstəqillik dövrünün Azərbaycanına memarlıq edib. Tarixi şəxsiyyətlərin fenomenliyi kitab-mətn təhkiyəsində əsas fon– ideya-intonasiya kimi götürülüb, belə nadir nümunə təbii ki, müəllif arzusunun da ülviyyətini doğurub. Müəllifin: "Mən bir ziyalı kimi arzu edərdim ki, Dağüstü parkın ən yüksək yerində onun əzəmətli heykəli ucaldılsın"– istəyindəki könül riqqəti ümumxalq arzusunun ifadəsini təcəssüm etdirib.

"Heydər Əliyev və Azərbaycan folkloru" məqaləsində[897] Əməkdar elm xadimi, professor *Məhərrəm Qasımlı* Heydər Əliyevin *folklorda olan obrazını* canlandırıb. Müəllif Ulu öndərin müstəqillikdən əvvəl və sonra olan folklor sahəsində tarixi xidmətlərini ümumiləşdirib.

M.Qasımlının faktlar əsasında qurulmuş fikirləri təsvir təhkiyəsində olub mahiyyəti – Heydər Əliyev fədakarlığını və onun xalqçılıq, dövlətçilik ruhunu, yüksək və sabit mənəvi-əxlaqi göstəricilərini ifadə edib. Bu baxımdan Ulu öndərin folklor və folklorşünaslıq sahəsində tarixi xidmətlərini fakt bolluğu, xronoloji ardıcıllıq izləyib.

***Heydər Əliyev xalqın adamı*** olub, sadəliyi, səmimiyyəti ilə seçilib, xalqın xeyir-şərində iştirak edib, xüsusilə, tez-tez qaçqın-köçkün ərazilərinə baş çəkib, onların ailələrində olub, xeyir işlərində iştirak edib, yeri olanda qol götürüb oynayıb. Heydər Əliyev qaçqın-köçkün ailələrinə daha çox diqqət yetirib, onların sosial şəraitlərinin qismən də olsa, yaxşılaşdırılmasına çalışıb, onlara hər cür səy, hər cür qayğı göstərib.

*Heydər Əliyevin komandası* ona daim etibarlı olub, dürüst və sədaqətli olub, onu göz bəbəyi kimi qoruyublar, vəzifə tapşırıqlarını məsuliyyətlə yerinə yetiriblər. Bütün bunlar həm də dahi rəhbərin onlara olan lazımi diqqət və qayğısından irəli gəlib.

[896] Qəzənfər Paşayev. Xilaskarlar. Bakı, "Təhsil", 2021, 136 s.

[897] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009-cu il

## MİLLİ SİVİLİZASİYAMIZ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏTDƏ

***"Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir". "Azərbaycan ədəbiyyatı milli kökləri ilə yaşayan, özünü yaşadan, milli varlığını sübut edən ədəbiyyatdır".***

**Heydər Əliyev**

***Ədəbiyyatda:*** Elm Heydər Əliyevi nə qədər sübutlu, dəlilli təqdim edibsə, ədəbiyyat da bu ali şəxsiyyəti o qədər bədii, obrazlı təcəssüm etdirib. *Azərbaycanın ədəbiyyat adamları: şair, yazıçı və dramaturqları, habelə, tənqidçi, ədəbiyyatşünas və publisistləri* Ulu öndər Heydər Əliyev haqqında xüsusi məqalələr yazıb, mətləbdən-mətləbə söz deyib, ona dərin minnətdarlıq ifadə ediblər. Bu baxımdan Mirzə İbrahimov, İsmayıl Şıxlı, İsa Hüseynov, Mirvarid Dilbazi, İlyas Əfəndiyev, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə,Yaşar Qarayev, Xəlil Rza Ulutürk, Məmməd Araz, İmran Qasımov, Həsən Seyidbəyli, Anar, Elçin, Yusif və Vaqif Səmədoğlular, Fikrət Qoca, Qabil, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Rüstəm Behrudi və başqaları qeyd oluna bilər. Heydər Əliyev demişkən, ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açıblar, yeni formalar meydana gətiriblər[898].

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı *"Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"* monoqrafiyasının ilk nəşri 1998[899], ikinci nəşri isə 2009-cu ildə olub[900]. Hər iki nəşrin ön söz müəllifi akademik Bəkir Nəbiyevdir. Birinci nəşrdə AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev, professor Vilayət Quliyev və professor Məhərrəm Qasımlının araşdırmaları özünə yer alıb. İkinci nəşrin birinci fəslini akademik

[898] Heydər Əliyev.Müdrik fikirlər.İyun 1993–1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu2008, 399 s.; s.128-140

[899] AMEA Nizami adına Ədəbiyyat İnstitutu. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı, 1998

[900] Yenə orada, 2009

B.Nəbiyevin *"Heydər Əliyev haqqında etüdlər",* ikinci fəslini professor Məhərrəm Qasımlının *"Heydər Əliyev və Azərbaycan folkloru",* üçüncü fəslini akademik Teymur Kərimli və professor Vilayət Quliyevin *"Heydər Əliyev və klassik ədəbiyyat",* dördüncü fəslini filologiya elmləri doktoru, dosent Nikpur Cabbarlının *"Heydər Əliyev və ədəbi proses",* beşinci fəslini isə professor Nizaməddin Şəmsizadənin *"Heydər Əliyev və azərbaycançılıq"* məqalələri təşkil edir.Yeri gəlmişkən, Heydər Əliyev haqqında filoloji fikrimizin nüfuzlu nümayəndələri dəyərli məqalə və monoqrafiyalar yazıb, yaxud onun qiymətli irsinin tərtibi ilə məşğul olub, toplular hazırlayıb, izahlar və şərhlər veriblər[901].

Kitabda klassik Azərbaycan ədəbiyyatı ilə bağlı akademiklər Bəkir Nəbiyev və Teymur Kərimli, habelə, professor Vilayət Quliyevin ədəbi-metodoloji dəyərləndirmələri fakt zənginliyi, elmi-analitik araşdırma və aydınlaşdırma üsulu ilə fərdilik kəsb edir.

Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyətini üç baxımdan qiymətləndirib: 1. Mövcud ədəbiyyat və mədəniyyətimizin təşkilati və təbliği cəhətdən gücləndirilməsi; 2. Ədəbiyyat və mədəniyyətimizin kənar dünyaya tanıdılması, milli kimlik, müəyyənlik məqsədi; 3. Milli ədəbiyyat və mədəniyyətin dövlət siyasətinin tərkib hissəsini təşkil etməsi.

Bu baxımdan akademik *Bəkir Nəbiyevin "Heydər Əliyev haqqında etüdlər",* akademik *Teymur Kərimli* və professor *Vilayət Quliyevin "Heydər Əliyev və klassik ədəbiyyat"*[902] adlı məqalələri də əhəmiyyətlidir. Məqalə-

---

[901] [1]Afad Qurbanov. *Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı.* Bakı: "Gənclik",1997; [2]Əbədiyaşar insan. Bakı: "Təhsil", 2004; [3]Heydər Əliyev. *Ədəbiyyatın yüksək borcu və amalı* (Nitqlər, məruzələr,çıxışlar, tərtibçi prof. Vilayət Quliyev). Bakı: "Ozan",1999; [4]Heydər Əliyev və ədəbiyyatımız (30 aprel 2003-cü il tarixdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Heydər Əliyevin 80 illik yubileyinə həsr ediliş elmi sessiyanın materialları). "Ədəbiyyat qəzeti", 9 may 2003; [5]Ədəbiyyatımız xalqımızın milli sərvətidir. Bakı:"Nurlan", 2003; [6]Heydər Əliyev və mənəvi dəyərlər. Bakı: "Səda", 2003; [7]Ürəklərdə yaşayan insan. Bakı:"Nurlan", 2004; [8]Ürəklərdə yaşayan abidə. Bakı: "Nurlan", 2004; [9]Seyfulla Əsədullayev. *Heydər Əliyev və ədəbi proses* (Rus dilində). Bakı: "Nurlan", 2005; [10]İsa Həbibbəyli. *Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr,* Naxçıvan, 2013; [11]İsa Həbibbəyli. *Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti,* Naxçıvan, 2002; [12]Nizami Cəfərov. *Heydər Əliyev və Atatürk.* Bakı: " AzAtaM ", 2003; [13]Timurçin Əfəndiyev. *Heydər Əliyev və milli mənəvi dəyərlərimiz.* Bakı, 2011; [14]Abbas Hacıyev. *Böyük siyasətin uğurlu davamı.* Bakı: "Nərgiz", 2006; [15]Tərlan Novruzov. *Heydər Əliyev və ədəbiyyat məsələləri.* Bakı: "ADPU-nun nəşri", 2007; [16]Tərlan Novruzov. *Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı.* Bakı: "Elm və təhsil", 2015; [17]Almaz Binnətova. *Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı.* Bakı, 2004. *Və s.*

[902] *Bax:* Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009,

lərdəki ortaq mətləblər, analitik təhlil yaxınlığı, məna və mahiyyət müəyyənliyi, qiymətləndirmə və dəyərləndirmə kimi tətbiq üsulu səciyyəvi görünür.

Məqalələr *Heydər Əliyev kimliyini, Əliyevliyi* yüksək səviyyədə nişan verib, bu fonda dövlət və xalqın milli kimliyi, müəyyənliyi əhatəli təqdim olunub.

Azərbaycan ədəbiyyatı və mədəniyyəti dövlətlə xalqın keçib gəldiyi yoldur. Biz bu irsdə mənəvi-əxlaqi güvənclərimizi bütün potensialı ilə duyur və dərk edirik. Zəngin islam təfəkkürü və islam dəyərləri Şərq intibahının bütün vüsətini, vətənpərvərlik və humanizmini bədii fikir və düşüncənin poetik qaynaqlarında tədqim etməyi bacarmış və mən Şərqəm özümlülüyü aşılayıb.

Bu mənada Heydər Əliyevin tarixi obrazına işıq tutan müəlliflər hesab ediblər ki, Ulu öndər *mütəfəkkir insanları, şəxsiyyətləri, böyük alimləri, yazıçıları onların yaratdığı ədəbiyyat və mədəniyyətilə* müəyyən edib və qiymətləndirib.

*"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"* kitabı akademik *İsa Həbibbəylinin "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı"*[903] adlı baş məqaləsi ilə açılıb. Müəllif dövlət müstəqilliyi bərpasının 25 illik tarixinə, onun elm, ədəbiyyat və incəsənətinin inkişaf yoluna nəzər yetirib, zəngin tarixi-mədəni keçmişi, milli-mənəvi, multikultural dəyərləri yada salıb.

Məqalədə İsa Həbibbəyli Heydər Əliyevdən əvvəlki və sonrakı varislərin sosial-siyasi və tarixi-mədəni fəaliyyəti işığında müstəqillik dövrü Azərbaycan ədəbiyyatını formalaşdıran amillər üzərində dayanıb. Ədəbiyyatşünas-alim bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi dəyərləri ilə yanaşı, türkçülük və azərbaycançılığı əsas bilib, ədəbi-ideoloji zəmin olaraq M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, M.Hadi, N.Nərimanov, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, Ə.Cavad, C.Cabbarlı, S.Vurğun, M.Müşfiq, M.İbrahimov, Mir Cəlal, B.Vahabzadə, X.R.Ulutürk, M.Araz və başqalarına istinad edib. İsa Həbibbəyli Heydər Əliyevin Azərbaycan Yazıçılarının V qurultayındakı nitqini xatırladıb: "Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışdır. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə

248 s.

[903] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı, "Elm və təhsil", 2016, 800 s.

ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıblar: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıblar"[904].

Ulu öndər həmişə *Azərbaycan dilinə, onun siyasi-hüquqi təminatlarına* geniş yer verib, fərman, qərar və sərəncamlar imzalayıb, praktik həlli istiqamətində ciddi fəaliyyət göstərib. O, bəyan edib: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünki səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var"[905].

Böyük rəhbər ilk "İstiqlal" ordenini B.Vahabzadə, X.Rza və M.Araza bəxş edib və bu barədə 16 aprel 1995-ci il tarixli çıxışında[906] məlumat verib.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra da ədəbiyyata dövlət himayəsi göstərib, ilk görüşü 21 sentyabr 1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında ölkə ziyalıları ilə olub. Azərbaycan Yazıçılar Birliyində də belə bir görüş keçirib (oktyabr 1997), ədəbiyyat və mədəniyyətimizə böyük qiymət verib.

İsa Həbibbəyli məqaləsində 1980-ci illərin axırlarında Heydər Əliyevə, Naxçıvanın adlı-sanlı adamlarına, habelə, C.Məmmədquluzadəyə qarşı kompaniyaların genişləndiyini, o zamankı mitinqlərdə, izdiham içərisində Heydər Əliyevin portretinin əllərdə tutulması və hakimiyyətə gətirilməsi tələblərini, buna isə Ə.Vəzirov və A.Mütəllibovun etiraz etməsini xatırladıb.

1990-1993-cü illər alim yaddaşından xüsusi keçib. O, ziyaliların həmrəyliyini yada salıb: "Qısa müddətdən sonra ağsaqqallar və ziyalılar, düşünən gənclik Heydər Əliyevin ətrafında mətin sıralarda birləşərək ictimai mühiti, siyasi prosesləri idarə etmək şansını öz əlinə ala bildi. Bu, regionun xilası

---

[904] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı, "Elm və təhsil", 2016, s.6. *Bax:* Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında nitqi. Azərbaycan Yazıçılar Birliyi – 75. Bakı, 2009, s.107

[905] Yenə orada, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı, "Elm və təhsil", 2016, s.6. Bax: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında nitqi. Azərbaycan Yazıçılar Birliyi – 75. Bakı, 2009, s.108

[906] *Bax:* Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997, s.363

baxımından çöx əhəmiyyətli bir dönüşə nail olmaq demək idi”[907].

1991-ci il... Yazıçı-jurnalist, xalq deputatı, Dövlət Mükafati laureatı Elmira Axundova İsa Həbibbəyliyə zəng vurub ki, Heydər Əliyev onu qəbul etsin. İ.Həbibbəyli yazıb: “O vaxt Moskvada “Literaturnaya qazeta”ya yenicə Azərbaycan üzrə xüsusi müxbir təyin olunmuş filologiya elmləri namizədi Elmira Axundova mənə zəng çalaraq redaksiyadan aldığı Heydər Əliyev haqqında müsahibə hazırlamaq tapşırığı ilə əlaqədar Naxçıvana gəlmək istədiyini bildirdi. Mən o zaman böyük siyasi xadim Heydər Əliyevin görüşünə gedib Elmira Axundovanın arzusunu ona çatdırdım”[908]...

İsa Həbibbəyli Heydər Əliyevin *siyasi baxışları və iradi keyfiyyətləri* üzərində də həssas dayanıb: “Yaxşı xatırlayıram ki, Heydər Əliyev Kreml rəhbərliyi, şəxsən SSRİ adlanan böyük dövlətin başçısı Mixail Qorbaçov haqqında “Literaturnaya qazeta”nın azərbaycanlı xüsusi müxbirinə sərt, lakin çox arqumentli, əsaslandırılmış fikirlər söyləyir, bəyanatlar verir, irəli sürdüyü mülahizələrin dəyişdirilmədən, olduğu kimi müsahibədə öz əksini tapmasını tələb edirdi”[909].

Elmira Axundovanın “bu cür qəti mövqedən çıxış edərkən əlində böyük qüvvə olan, nəhəng bir dövlətin başçısından ehtiyat edib-etməməsi barədəki sualına Heydər Əliyev cavabında: “Bildirdi ki, Qorbaçovun hakimiyyəti yalan və boş illuziyalar üzərində qurulduğu üçün tezliklə məhvə məhkum olacaqdır, zaman bunun əsl gerçəklik olduğunu ən qısa vaxtda meydana qoyacaqdır”[910].

Müəllifin bu müsahibəsini “Literaturnaya qazeta” çap etmədiyindən, yazı 1 mart 1991-ci ildə respublika mətbuatında çap olunub.

Xalq deputatı 1994-cü ilin aprel ayında “Azərbaycan” qəzetində *“Mən xalqım qarşısında alnı açığam”* adlı geniş məqalə-qeydlərini dərc etdirib, “Heydər Əliyev: şəxsiyyət və zaman” adlı publisist romanını ictimaiyyətə çatdırıb[911].

---

907 İsa Həbibbəyli. Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.169

908 İsa Həbibbəyli. Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.172

909 İsa Həbibbəyli. Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.172

910 İsa Həbibbəyli. Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.172

911 Elmira Axundova. Şəxsiyyət və zaman, I hissə (1923-1969). Bakı, “Ozan”, 2007; II hissə (1969-1982). Bakı, “Ozan”, 2007, 784 s.; III hissə (1982-1990). Bakı, “Ozan”, 2009, 804 s.; IV hissə (1969-1989). Bakı, “Ozan”, 2008, 328 s., V hissə (1990-1993). Bakı, “CBSPolygraphicproduction”, 2013, 736 s.; VI hissə, I kitab (1993-2003), Bakı, “CBSPolygraphicproduction”, 2013, 480 s.; II kitab (1993-2003), Bakı, “CBSPolygraphicproduction”, 2013, 496 s.

*"Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala"* kitabında akademik İsa Həbibbəylinin giriş məqalələri[912] verilib. Alim hər iki yazıda göstərib ki, Ümummilli lider Heydər Əliyev ədəbiyyatı, Azərbaycan ədəbi-ictimai fikrini xalqın böyük ideallarına doğru məharətlə istiqamətləndirib, ədəbiyyat 1970-1980-ci illərdə milli-mənəvi dəyərləri təbliğ edib, Heydər Əliyevin böyük şəxsiyyətinə, tarixi xidmətlərinə həssas olub, dahi rəhbər haqqında yüksək ideyalı bədii əsərlər meydana çıxıb.

İsa Həbibbəyli *"Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz"* məqaləsində bildirib ki, Heydər Əliyevin dövlətçilik təfəkkürünün formalaşdırılması, zəngin mənəviyyata və geniş dünyagörüşə yiyələnməsində ədəbiyyat və incəsənətin də xüsusi rolu olub. Dahi rəhbər ədəbiyyata xalqın milli-tarixi varlığı və mənəviyyatının üzvi hissəsi kimi baxıb, bədii düşüncədəki tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər verib, bu ali keyfiyyətlər isə onun dövlətçilik təlimində ədəbiyyat siyasətini təmin edib.

Müəllif Heydər Əliyevin milliliyi, tarixiliyi və müasirliyinin mahiyyəti ətrafında fikirlər söyləyib, göstərib ki, *Ümummilli liderin ədəbiyyatdakı millilik siyasəti* xəlqilik, vətənpərvərlik, adət-ənənələrə güclü ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi kimi məsələləri əhatə edib. Alim Heydər Əliyevin tarixilik missiyasının mahiyyətini ədəbiyyatda tarixi dərk prinsipi kimi qiymətləndirib və deyib: "Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə idi ki, "Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də... respublikamıza maraq göstərən adamlara tanıtmaq lazımdır"[913]. "Heydər Əliyev Azərbaycan xalqına özünün soy-kökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır"[914].

---

[912] Ədəbiyyatın yüksək amalı və böyük borcu" və "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz. Bax. *Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala.* 2 cilddə. Bakı, 2018, 2019. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Kitab akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırlanıb. Məqalə müəllifləri İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli, Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova, rəyçilər Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, professor Məmməd Əliyevdir.

[913] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. 2 cilddə. I cild. Bakı, 2018, s.24

[914] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. 2 cilddə. I cild. Bakı, 2018, s.24

İ.Həbibbəyli *tarixilik prinsipində* Heydər Əliyevin klassik ədəbi irs sahəsində ənənələrinə böyük önəm verib, ondan yaradıcı şəkildə istifadə etməyi zəruri sayıb, tarixi mövzuda əsərlərin əhəmiyyətini xüsusi bildirib.

Dahi rəhbərin ədəbiyyat, ideologiya siyasətində *müasirlik prinsipinin* meyarlarını çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsində görüb, "deməli, Heydər Əliyevin ədəbiyyatda müasirlik məsələsinə baxışı cəmiyyətdə gedən ictimai-siyasi və mənəvi proseslərlə bağlı olub, xalqı və ölkəni daim irəliyə aparmağa, yeniləşdirməyə xidmət etmişdir".[915] Heydər Əliyev ədəbiyyat haqqında elmdə də professionallıq göstərib, bədii ədəbiyyatla yanaşı, ədəbiyyatşünaslıq, sənətşünaslıq, teatrşünaslıq və dilşünaslıq kimi elm sahələri də Heydər Əliyevin ədəbiyyat siyasətinin işığında yeni inkişaf səviyyəsi qazanıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Heydər Əliyevin *məruzələr, çıxışlar, görüşlər və müsahibələrdən* ibarət *"Müdriklik mücəssəməsi"* adlı toplusunu çap etdirib. Nəşrin elmi məsləhətçisi və ön söz müəllifi akademik İsa Həbibbəyli, ilk nəşrin tərtibçisi professor Vilayət Quliyev, təkmilləşdirilmiş ikinci nəşrinin tərtibçisi professor Asif Rüstəmlidir. Professor Vilayət Quliyev Heydər Əliyevin 1969-1999-cu illəri əhatə edən çıxış və nitqlərini ilk dəfə toplayıb *"Ədəbiyyatın yüksək borcu və amalı"* adı ilə çap etdirib.

Ölkəmizdə 2023-cü ilin Heydər Əliyev İli elan edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən *"Ədəbiyyatın yüksək borcu və amalı" (2000)* kitabı təkmilləşdirilərək yenidən nəşrə hazırlanıb. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Asif Rüstəmli Heydər Əliyev irsindən əlavə materialları bir yerə toplayıb Ədəbiyyat İnstitutunun dəstəyi ilə çap etdirib. Hesab edirik ki, bu, tarixi bir iş, tarixi xidmətdir, HeydərƏliyevşünaslığa böyük töhfədir. Akademik İ.Həbibbəylinin qeyd etdiyi kimi, *"Müdriklik mücəssəməsi"* adlı kitab geniş oxucu və tədqiqtçı auditoriyası olan ədəbi-tarixi irsdir. "Uzaqgörən dahi şəxsiyyətin dövlət siyasətinin üzvi tərkib hissəsi olan ədəbiyyat təlimi yaşayır, dövlət müstəqilliyimizin, milli mədəniyyətimizin, elmimizin və ədəbiyyatımızın inkişafına işıq salır"[916].

Ulu Öndər 1969-2003-cü illərdə humanitar sahədə qurultaylar, konfranslar keçirib, mötəbər məclislərdə, görüşlərdə parlaq nitqlər söyləyib, məruzə-

[915] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. 2 cilddə. I cild. Bakı, 2018, s.28

[916] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s.6

lər, çıxışlar edib, müsahibələr verib, söhbətlər edib. Kitabda bunları əks etdirən 4 bölmə verilib.

Akademik İsa Həbibbəyli *"Heydər Əliyevin dövlətçilik təliminin ədəbiyyat dərsləri"* adlı əhatəli məqaləsində Heydər Əliyevin timsalında ədəbiyyat və sənətin tarixi roluna önəm verib.

Müəllif bu baxımdan Heydər Əliyevin yaradıcı, qurucu missiyasında ədəbiyyat amilinin mənəvi-estetik rolunu önə çəkib. İ.Həbibbəyli yazıb: "Görkəmli dövlət xadimi Heydər Əliyev üçün ədəbiyyat həm xalqın ideya mənəvi təkamülü, həm də milli oyanış və həmrəyliyinin əsas hərəkətverici qüvvəsi kimi mühüm əhəmiyyət kəsb etmişdir. O, ədəbiyyatın təsir gücünə dərin inam bəsləmiş, cəmiyyət həyatının ən müxtəlif məqamlarında ədəbiyyata müraciət etməyin əvəzedilməz imkanlarını bacarıqla sınaqdan çıxarıb"[917].

H.Əliyev ədəbiyyatın, incəsənətin həyata və insana münasibətinin ideya-məfkurəvi roluna böyük əhəmiyyət verib. O deyib: "Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşam, onları bu gün də unutmamışam... Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam"[918].

Görkəmli dövlət xadimi xalqımızın milli-mənəvi özünüdərkində ədəbiyyatdan faydalanıb, Azərbaycan dilinin dövlət səviyyəsinə qaldırılması, milli dövlət müstəqilliyinin təminatında ədəbiyyatın tükənməz potensiyasına istinad edib.

H.Əliyev bədii sözün insan ağlına, insan zəkasına göstərdiyi təsir gücünə böyük inam bəsləyib. Bu ruhla, amalla ədəbiyyatımızın qəhrəmanlıq tarixini mənimsəyib, onu xalqın ədəbi-ictimai varlığının diqqət mərkəzinə çəkib, yazıçı və şairlərimizi milli ideallar cəbhəsində səfərbər edib, onların mənəvi qüdrətinin üzə çıxarılmasına səy göstərib, xalqın tükənməz qüdrətini özünə inandırıb, ona böyük sevgi qazandırıb. İ. Həbibbəyli: "Ölkə rəhbəri kimi Heydər Əliyevin Azərbaycan yazıçılarının qurultaylarında, görkəmli yazıçı və şairlərin yubileylərində, ədəbiyyat və incəsənət günlərindəki çıxışları ədəbiyyatın böyük amalları və təsiredici imkanları vasitəsilə xalqımızı inkişaf etdirmək, daha işıqlı sabahlara dorğu səfərbər etmək dərsləridir.

[917] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s.3
[918] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s.3

Ədəbiyyat siyasəti Heydər Əliyevin apardığı dövlət siyasətinin sadəcə tərkib hissəsi olmayıb, həmin uzaqgörən müdrik siyasətin aparıcı xəttini təşkil edib",– deyə vurğulayıb.

H.Əliyev müstəqillik illərində də ədəbiyyatımızı ictimai mühitin ön cəbhəsinə çıxarmaq üçün inamla çalışıb, milli azadlıq və mədəniyyətin inkişaf dinamikasına dövlət əhəmiyyətli vəzifə kimi baxıb.

Ədəbiyyat amili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dövlətçilik siyasətində mühüm yer tutub. Ön söz müəllifi xatırladıb ki, İlham Əliyevin Sərəncamları əsasında Azərbaycanda ilk dəfə "Nizami Gəncəvi İli", "İmadəddin Nəsimi İli", "Molla Pənah Vaqif İli" keçirilib, ədəbiyyat işinin üfiqləri daha da genişləndirilib.

Tərtibçi A.Rüstəmli kitabda dörd bölmə verib: Məruzələr və çıxışlar, Görüşlər və xatirələr, Təbrik məktubları, Müsahibələr.

*Məruzələr, çıxışlar* bölməsində 52 məruzə və çıxışın mətni verilib. Mətnlər xronolji ardıcıllıqla düzülüb. Vaxtilə müxtəlif mətbuat orqanlarında çap olunmuş mətnlərin surətidir. *"Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər"(1972)–* Heydər Əliyevin Azərbaycan yazıçılarının V, *"Xalq işinə xidmət etməli"*(1976)– VI, *"Ədəbiyyatın yüksək borcu və amalı"* (1981)– VII, *"Ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir"* (1997) – Azərbaycan Yazıçılarının X, *"Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir"* (1996) – Türk dünyası Yazıçılarının III qurultayı haqqındadır. Heydər Əliyev deyib: "Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkəmiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha da geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar"[919].

*"Kitabi-Dədə Qorduq" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclası"* (giriş, yekun sözü, 2000)*, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə"* (2000)– "Gülüstan" sarayında keçirilmiş rəsmi qəbul və *"Milli-mənəvi dəyərlərimizə hörmət, ehtiram bayramı"* (2000) –"Kitabi-Dədə Qorqud" abidənin 1300 illiyi barəsindədir. Heydər Əliyev: "Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi- Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənə, milli mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çox

---

[919] Yenə orada

əsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır"– deyə bildirib.

*"Qardaş mədəniyyətlərin bayramı"* (1979)– Azərbaycanda Özbəkistan ədəbiyyatı və incəsənəti günləri, *"Abay yaradıcılığı bütün xalqlara məxsusdur"* (1995) – Almatıda Abay Kunanbayevin 15 illik yubileyi,*"Manas" bütün dünya sivilizasiyasının sərvətidir"* (1995) – Bişkekdə "Manas" dastanının 1000 illiyi, *"Manasın doğulduğu yerə gəlmişik"* (1995) – "Manas" muzey kompleksinin açılışı barəsində məruzə və çıxışlar türk ölkələrinin təşviqi və təbliği işinə həsr edilib.

Heydər Əliyev *"Novruz bayramı münasibətilə Azərbaycan xalqına"* (2000)– müraciətində deyib: "Bu ilki Novruz bayramı xalqımızın qədim mənəvi sərvəti, ölməz "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi təntənələrinin geniş keçirildiyi bir dövrə təsadüf edir. Hər iki hadisə Azərbaycan xalqının öz tarixi keçmişinə, milli köklərinə və ulu əcdadlarımızın qoyub getdiyi zəngin irsə, adət-ənənələrə bağlılığını və sədaqətini nümayiş etdirir".*"Xoş gəlmisən, xalqımızın ən sevimli bayramı –Novruz bayramı"* (2000) –Bakıda Novruz bayramı şənlikləri haqqındadır.

*"Füzulinin yubileyini keçirməklə Azərbaycan xalqını dünyaya bir daha tanıtmalıyıq"*(mətn giriş sözü və yekun sözündən ibarətdir,1994), *"Füzuli dünyası, Füzuli nəsli davam edir"* (1994, Türkiyənin Bilkənd Universitetində), *"Məhəmməd Füzuli türkləri birləşdirən şəxsiyyətdir"* (1994, Türkiyə Böyük Millət Məclisində), *"Müdriklik mücəssəməsi, bəşəri ideyalar carçısı, dahi söz ustadı"* (1996) –habelə,*"Dahi Füzulinin yubileyi ədəbiyyatımızın və mədəniyyətimizin bayramıdır"* (giriş və yekun sözü, 1996, M.Füzuli yubileyi üzrə Dövlət Komissiyasında)– qəlb şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə Ulu öndərin çıxışlarının mətnidir.

*"Hüseyn Cavidin adı və irsi yaşayacaqdır "*(1995) – H.Cavidin məqbərəsi və ev muzeyinin yaradılması, *"Hüseyn Cavidin məqbərəsi Naxçıvanın memarlıq tarixinə yeni bir səhifədir"* (1996) – böyük sənətkarın məqbərəsinin Naxçıvanda açılışı, *"Xalqlar dostluğu və qardaşlığının carçısı"* (1982)– C.Cabbarlı abidəsinin açılışı,*"Xalq sənətkarlarının xatirəsi əbədidir"* (1982, 12 yanvar, Şuşa) – Şuşada Vaqif məqbərəsi və Poeziya evinin açılışına həsr olunub.

*"N.Nərimanovun abidəsinin açılışı"*(1972)– görkəmli yazıçı və dövlət xadiminin 100, *"Cəlil Məmmədquluzadə Azərbaycan xalqının milli dirçəlişində əvəzsiz rol oynamışdır"* (1994) – Mirzə Cəlilin 125, *"Dünya korifeylərinin öncülü"* (1995) – Üzeyir Hacıbəyovun 110, *"Xalqın qəlbində yaşayan sənətkar xoşbəxtdir"* /1997/– Səməd Vurğunun 90, *"Fitri istedadı fədakarlıqla, xalqına, millətinə sədaqətlə birləşdirən sənətkar"* (1998) – Sü-

leyman Rüstəmin 90, *"Vətənimizə, xalqımıza sədaqətlə"* (1998) – Mirvarid Dilbazinin 85, *"Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi"* (2000)– mətbuat tarixinin 125 illik yubileyləri, *"İncəsənət bayramı"*(1974)– Azərbaycan Dövlət Milli Dram Teatrının 100 illiyi,*"Müasir poeziyamızın görkəmli nümayəndəsi"* (1997)– Xalq şairi Qabil, *"İstiqlal şairi"* (1995) – Məmməd Arazın yaradıcılıq gecələri, *habelə,"Azərbaycanda mətbuat, söz azadlığı"* (2001) – KİV rəhbərliyi ilə görüş barəsində ulu öndərin məruzə və çıxışlarının mətnidir.

Heydər Əliyev 1998-ci il mayın 26-da Prezident iqamətgahında təltif olunmuş ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinin bir qrupuna ilk "İstiqlal" ordenlərini təqdim edib (*"Müstəqil Azərbaycanın ilk "İstiqlal" ordenləri" /1998/)*. Azərbaycan Respublikasının prezidenti təqdimat zamanı deyib: "Azərbaycan müstəqil dövlət kimi öz atributlarını yaradıbdır...Onlardan ən yüksəyi Azərbaycanın "İstiqlal" ordenidir. "İstiqlal" ordeni ilə təltif olunanlar yalnız Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət xadimləridir. Azərbaycanın milli azadlığı, istiqlaliyyəti yolunda ən çox bizim ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz xidmətlər göstəribdir…Əsrimizin bütün illərindəki milli ənənələrimiz, ana dilimiz, milliliyimiz, adət-ənənələrimiz məhz onların əsərlərində yaşayıbdır. Bunlar böyük nailiyyətlərdir. Bununla yanaşı, bizim yazıçılarımız, şairlərimiz, rəssamlarımız, incəsənət xadimlərimiz öz əsərləri ilə insanları daim milli ruhda tərbiyə etməyə çalışıblar və buna nail olublar... Milli oyanış, dirçəliş prosesində də bizim yazıçılarımızın, şairlərimizin, incəsənət xadimlərimizin, musiqiçilərimizin, mahnılarımızın böyük xidmətləri olubdur..."[920]

Kitabın ikinci bölməsi *"Görüşlər, xatirələr"* adlandırılıb. Bu bölmədə 17 görüş-xatirənin mətni verilib.*"Ziyalılarla görüşlər həmişə böyük bir bayram təsəvvürü yaradır"* (21 sentyabr 1993) yazısında – görkəmli dövlət başçısının Azərbaycan MEA-da ziyalılarla görüşünün məzmunu əks etdirilib. Görüş zamanı ziyalıları narahat edən məsələ Azərbaycan Respublikasının müdafiə vəziyyəti, xalqın ağır tarixi şəraitdə ərazi bütövlyünü bərpa etmək məramı ilə bağlı olub.

*"Görkəmli şairin xatirəsinə ehtiram"* (1996)– Heydər Əliyevin Əliağa Vahidin 100 illik yubileyində mədəniyyət və incəsənət xadimləri ilə görüşü,*"Yaradıcı heyətin uğuruna yüksək qiymət"*(1997) –Xalq şairi Səməd Vurğunun 90 illiyi münasibətilə Akademik Milli Dram Teatrında "Fərhad və Şirin",*"Çox dəyərli, xalqımız üçün lazımlı əsər"* (1997)– isə İlyas

[920] Yenə orada.s. 321

Əfəndiyevin "Hökmdar və qızı" tamaşalarına baxışdan sonra söylədiklərinin mətnidir.

Heydər Əliyev 1973-cü ildə Türkiyənin görkəmli həkimi və ictimai xadimi İhsan Doğramacı ilə birlikdə Azərbaycan Dövlət Dram Teatrının 125-ci mövsümünün açılışında iştirak edib və teatrın 100 illiyi münasibətilə nitq söyləyib. Belə bir nitqi (*"Böyük yaradıcılıq nailiyyəti"* /1997/)– İhsan Doğramacı ilə birlikdə Üzeyir Hacıbəyovun yeni quruluşda "Arşın mal alan" musiqili komediyasına tamaşası ilə bağlı olub.

*"Mədəniyyətə, ədəbiyyata qayğı həmişə lazımdır"* (1997)– Heydər Əliyevin Ədəbiyyatımızın yaşlı, *"Ədəbiyyatımızın nəsilləri arasında layiqli varislik olmalıdır"*(1997)– yazısı isə ədəbiyyatımızın gənc nəslinin nümayəndələri ilə Prezident sarayında görüşünün mətnidir.

*"Mənəvi – psixoloji mövzuda dəyərli tamaşa"* (1997) –Ulu öndərin B.Vahabzadənin "Hara gedir bu dünya" pyesinin tamaşasına baxdıqdan sonra təəssüratlarının geniş ifadəsidir. Əsər 1991-ci ildə yazılıb. B.Vahabzadə deyib: "Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, bəstəkarı Adil Bədirovdur. Pyes 1991-ci ildə bir neçə dəfə tamaşaya qoyulub. Sonra Türkiyədə onun beş tamaşası olub. Daha sonra teatrın kollektivini Kiprə dəvət ediblər. Orada da 2 tamaşa göstərilib. Pyesin tamaşaları həm Türkiyədə, həm də Kiprdə böyük rəğbətlə qarşılanıb"[921].

Heydər Əliyev bildirib: "Bu mövzu bu gün də öz aktuallığını itirməyibdir. İnsan nə qədər yaşayacaqsa, bu mövzu bir o qədər də aktual olacaqdır. Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirib. B.Vahabzadə adətən şeirlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. O, 1970-ci illərdə də çox uğurlu əsərlər yazıbdır. 1991-ci ildə belə bir əsər yaradıbdır"[922]..."Bu fəlsəfi, psixoloji bir əsərdir, eyni zamanda elmi əsərdir"[923].

*"Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər"* (1998)– Ümummilli liderin B.Vahabzadənin "Özümüzü kəsən qılınc" *("Göytürklər")* pyesinin tamaşasına baxdıqdan sonra çıxışının mətnidir. Heydər Əliyev deyib: "Müasir həyatdan, yaxud mücərrəd mövzuda əsər yazmaq, şübhəsiz ki, heç də asan deyildir. Amma başqa mövzulara nisbətən asandır. Ancaq tarixi mövzuda əsər yazmaq çox zəhmət tələb edir. Xüsusən də, bizim ən qədim tarixə dair əsər yazmaq...Bunun özü böyük bir işdir və hesab

[921] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s. 433
[922] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s. 434
[923] Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı, "Elm", 2023, 512 s.; s. 433

edirəm ki, böyük yaradıcılıq qələbəsidir. Bunu Bəxtiyar Vahabzadə çox böyük məharətlə edibdir..."[924]

Heydər Əliyev əsərin əhəmiyyətindən də danışıb: "Bu mövzunun indiki dövr üçün əhəmiyyətli cəhəti bir də ondan ibarətdir ki, biz köklərimizin türk millətinə, qədim türk tarixinə bağlı olduğunu da XX əsrdə ya deməmişik, ya da bunu deməyə cəsarət tapmamışıq... Sadəcə olaraq tarixi təhrif edənlər insanları bu tarixi kökdən məhrum ediblər. İkinci tərəfdən də uzun illər, hətta on illərlə xalqımızı pantürkist ideologiyası ilə qorxudanlar bizi türk kökündən, türk mövzusundan həmişə uzaqlaşdırıblar...

Sadəcə olaqraq, bir müddət qorxuya görə, sonra da biz bunu unutmuşduq. Ona görə də türk millətinin, böyük türk xaqanlığının köklərini, tarixini araşdırmaq və onu nəinki ölkəmizin ictimaiyyətinə, hətta bütün dünyaya doğru-düzgün çatdırmaq çox böyük işdir... Bəxtiyar Vahabzadə öz üzərinə düşən vəzifəni yerinə yetiribdir, öz töhfəsini veribdir…"[925]

*"Görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüş"* (1998) –yazısı Azərbaycan Prezidentinin Səhiyyə Nazirliyinin mərkəzi klinik xəstəxanasında müalicə olunan görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşünü əks etdirib. Ulu rəhbər görkəmli bəstəkar, xalq artisti Tofiq Quliyevə "İstiqlal" ordeni, Yusif Səmədoğluya Xalq yazıçısı, Hökümə Billuriyə Xalq şairi adı verib.

*"Sevil" operası yaşayır və yaşayacaqdır"* (1998)– əsərin yeni quruluşda ilk tamaşası, *"Yeni binada ilk tamaşa"* – "O olmasın, bu olsun" (1998)– "Məşədi İbad" musiqili komediya–operettasına baxışının təəssüratı,*"Şair Zəlimxan Yaqubun yaradıcılığına həsr edilmiş poeziya məclisi"* (1998)– isə Respublika Prezidentinin incəsənət ustası ilə səmimi söhbətinin ifadəsidir.

*"Nəbi Xərinin "Burla xatun" pyesi milli dram teatrının səhnəsində"* (1999)– yazısı tamaşadan sonra,*"Azərbaycan akademik Milli Dram Teatrında "Aydın" pyesinin yeni quruluşda tamaşası"* (2000) – C.Cabbarlının 100 illiyi münasibətilə, *"Novator sənətkar"* (2001) – isə Xalq şairi Rəsul Rzanın 90 illik yubiley gecəsində şairin ailə üzvləri və Azərbaycanın ədəbiyyat, mədəniyyət xadimləri, o cümlədən, Tehrandan Cavad Heyətlə, Xalq şairi Məmməd Arazla səhnəarxası səmimi görüşünün tarixçəsidir.

Kitabın*"Təbrik məktubları"*adlı üçüncü bölməsində Məmməd Arazın (1993)– 60, İlyas Əfəndiyevin (1994) –80, Hüseyn İbrahimovun (1994) – 75, İ.Şıxlının (1994) –75, Nəbi Xəzrinin (1995) –70, Yusif Səmədoğlunun (1995) –60, Mirvarid Dilbazinin (1997) –85, Hüseyn Abbaszadənin (1997)

---

[924] Heydər Əliyev. Müdriklik mücəssəməsi.Bakı, "Elm", 2023, 512 s.; s.436

[925] Heydər Əliyev. Müdriklik mücəssəməsi.Bakı, "Elm", 2023, 512 s.; s.436

–75, Anarın (1998) –60, Məhəmmədhüseyn Şəhriyarın 90 illiyi (1998), habelə, 22 iyul Milli mətbuat günü (1994), Novruz bayramı (2003), Azərbaycan Jurnalistlərinin I qurultayı (2003), II Avrasiya Mediya Formunun keçirilməsi (2003) münasibətilə təbrik məktublarının mətni verilib.

*"Müsahibələr"* adlı dördüncü bölməsindəki "Bərabərlər İttifaqında" (1972) və "Qoy ədalət zəfər çalsın" (1981)– müsahibələri "Literaturnaya qazeta" müxbirinin suallarına cavabların mətnindən ibarətdir.

Ümummilli lider *Heydər Əliyevin "Müdriklik mücəssəməsi"* adlı qiymətli kitabı humanitar-ictimai elmlərin oxucu və mütəxəssisləri üçün zəngin müntəxabat, tarixi-ideoloji sənəd, HeydərƏliyevşünaslıq üçün qiymətli mənbə, elm, ədəbiyyat, təhsil və mədəniyyət işçiləri, habelə, mətbuat nümayəndələri üçün dəyərli töhfədir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu *"Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə"* adlı kitabı nəşr edib. Monoqrafiyanın müəllifləri akademik İ. Həbibbəyli, AMEA-nın müxbir üzvü T. Əlişanoğlu, f.e.d.E.Akimova, f.e.d.Ə.Əsgərli, f.ü.f.d. A.Bağırlı və f.ü.f.d.L.Həsənovadır. Kitab Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət və siyasət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə ithaf olunub.

Layihə rəhbəri akademik İsa Həbibbəyli monoqrafiyanın*"Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz"* adlı ön sözündə Heydər Əliyev dərkinin *milliliyi, tarixiliyi* və *müasirliyinin* mahiyyəti üzərində geniş dayanıb. Bildirib ki, Heydər Əliyevin dövlətçilik təfəkkürünün formalaşması, zəngin milli və bəşəri dünyagörüşə yiyələnməsində ədəbiyyat və incəsənətin xüsusi rolu olub. Böyük rəhbər ədəbiyyata xalqımızın milli-tarixi varlığı və mənəvi səviyyəsinin təzahürü kimi baxıb. O, milli-bədii təfəkkürümüzün tarixilik və müasirlik təcrübəsinə, onun mövcud ideoloji prinsipləri və əxlaqi-mənəvi dəyərinə xüsusi diqqət yetirib, bu ali keyfiyyətləri milli dövlətçilik təlimində ədəbiyyat siyasətinin tərkib hissəsi kimi qiymətləndirib. Göstərib ki, Ümummilli liderin ədəbiyyatımızdakı *millilik* siyasəti xəlqilik, vətənpərvərlik, adət-ənənə və əxlaqi dəyərlərimizə, onlara olan ehtiram hisslərinə əsaslanıb. Ulu öndər ana dilimizin qorunması, saflığı və işlək dairəsinin genişlənməsi məramına xüsusi diqqət yetirib, bununla bağlı əməli tədbirlər görüb, milli dil siyasətinə dair fərman və sərəncamlar imzalayıb, qanun layihəsinin həyata keçirilməsinə nail olub.

Alim Heydər Əliyevin *tarixilik* missiyasının mahiyyətini qiymətləndirərkən deyib: "Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə olub ki, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də respublikamıza maraq göstərən adamlara tanıtmaq lazım-

dır... Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri sayıb”[926].

Tarixilik prinsipində Heydər Əliyev klassik ədəbi irs sahəsində ənənələrə böyük önəm verib, ondan yaradıcı istifadə etməyi zəruri sayıb, tarixi mövzuda əsərlərin əhəmiyyətini xüsusi bildirib.

Ulu öndər ədəbiyyat siyasətində müasirlik prinsipinin meyarlarını çağdaş həyatın ədəbiyyata gətirilməsi, müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyatda ifadəsində görüb, “Heydər Əliyevin ədəbiyyatda müasirlik məsələsinə baxışı cəmiyyətdə gedən ictimai-siyasi və mənəvi proseslərlə bağlı olub, xalqı və ölkəni daim irəliyə aparmağa, yeniləşdirməyə xidmət edib. Heydər Əliyev ədəbiyyat haqqında elmdə də professionallıq göstərib, bədii ədəbiyyatla yanaşı, ədəbiyyatşünaslıq, sənətşünaslıq, teatrşünaslıq və dilşünaslıq kimi elm sahələri də Heydər Əliyevin ədəbiyyat siyasətinin işığında yeni inkişaf səviyyəsi qazanıb...”[927]

Müəllif ən yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətinin əhəmiyyətini qeyd edib. Görkəmli dövlət xadimini milli dövlətçilikdə ədəbiyyat siyasətinin banisi, yaradıcısı kimi səciyyələndirib. Hesab edib ki, Azərbaycan xalqının son əlli ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Ulu öndərin yeni tarixi şəraitdə ədəbiyyat təlimini çağdaş müddəalarla zənginləşdirir, onu yaradıcı şəkildə inkişaf etdirir. Hazırda yeni tarixi epoxa fonunda məsul vəzifə ədəbiyyatımızda Ümummilli liderin ümumiləşmiş mükəmməl bədii obrazını yaratmaqdır.

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu *“Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat”* məqaləsində Heydər Əliyevi müasirlik və tarixilik baxımından səciyyələndirib, Heydər Əliyevin ədəbi mühitdəki obrazını faktlar əsasında canlandırıb.

*“Beynəlmiləl məfkurədən milli ideyaya doğru: müasir nəsrdə Heydər Əliyev obrazı (bədii-sənədli nəsr və publisistika”)* məqaləsinin müəllifi f.ü.f.d.Lalə Həsənova Xalq yazıçı, publisist və ictimai xadim, Dövlət müka-

---

[926] Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə./*Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz/.*Bakı, “Elm”, 2023, 460 s. s.23

[927] Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə./*Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz/.*Bakı, “Elm”, 2023, 460 s. s.25

fatı laureatı Elmira Axundovanın 6 cildlik "Heydər Əliyev. Şəxsiyyət və Zaman", Hüseyn Adıgözəlin "Zirvə. Heydər Əliyevin həyatı", Nikolay Zenkoviçin "Heydər Əliyev. Taleyin döngələri" və V.Andriyanovla H.Mirələmovun "Heydər Əliyev. Görkəmli adamların həyatı" adlı bədii-sənədli əsərlərinin milli və bəşəri dəyərlərini şərh edib.

F.ü.f.d. Aygün Bağırlı *"Uşaq ədəbiyyatında və dramaturgiyada Heydər Əliyevin bədii obrazı"* adlı məqaləsində Heydər Əliyevin obrazını uşaqlar üçün yazılmış bədii nümunələr əsasında canlandırıb.

*"Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə"* adlı məqalənin müəllifi f. e. d. Elnarə Akimova Heydər Əliyevin obrazını milli məfkurənin mahiyyəti (milli klassik irs, Cavid intibahı, Heydər Əliyev məktəbi–YAP, Heydər Əliyev və İlham Əliyevin ədəbiyyatlaşan obrazı, Şuşa ilinin estetikası) fonunda səciyyələndirib.

Heydər Əliyevin *elit şəxsiyyətini dünya sivilizasiyasının qovuşağında* izləmiş f.e.d. Əlizadə Əsgərli hesab edib ki, bu filoloji kitab elmi-tədqiqat müəssisələri, orta və ali məktəblər, siyasi-ideoloji dərslər və tarixi lektoriyalar üçün əhəmiyyətli vəsaitdir, Azərbaycan insanının dövlətçilik təfəkkürünün formalaşdırılması və zənginləşdirilməsində, gənc nəsillərin Heydər Əliyev nümunəsində təlim-tərbiyəsində yönləndirici məfkurə sənədidir.

Fəlsəfə elmləri doktoru, professor Rahid Ulusel *"Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək"* adlı iri həcmli kitabının[928] (elmi redaktoru akademik Nizami Cəfərov, redaktoru Savalan Süleymanlı) annotasiyasında deyib: "Kitab dünyanın siyasi inkişaf məntiqində Heydər Əliyev fenomeninin necə dərk olunması, bu kontekstdə Azərbaycan –dünya münasibətlərinin necə qurulması, ölkələrin siyasət və mədəniyyət sahəsində qlobal əməkdaşlıq sferalarına daxil olması, Ümumilli liderin böyük irsinin Azərbaycan humanitariyasına necə təməl təşkil etməsi məsələsinə həsr olunub". Monoqrafiya ön söz və 4 hissədən ibarətdir.

I hissədə *"Heydər Əliyev və dünyanın siyasi inkişafı"* ("Böyük missiya", "Azərbaycan dövlətinin mənəvi-siyasi kapitalı", "Heydər Əliyevin dəyər kateqoriyasında Tarix və Şəxsiyyət, Birlik və Müstəqillik", "Əliyevçilik və Atatürkçülük – Azərbaycan -Türkiyə münasibətlərinin siyasi-ideoloji əsası kimi"), II hissədə *"Heydər Əliyevin harmoniya idealları və müasir dünyanın qlobal problemləri"* ("Heydər Əliyev və Azərbaycan humanitariyasının prioritetləri: keçid dövrü başa çatdıqdan sonra", "Harmonik dünya-

[928] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan –dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-print", 2010, 610 s.

görüşü: elmdə və siyasətdə", "Harmoniya yaradıcılığındakı qlobal konsensus", "Sülh və harmoniya", "Ümumi məqsədlərin konvergensiyası", "Heydər Əliyev: *"Tarixi olduğu kimi dərk etməli"*, "İnterhumanitoriya", "Qlobal inteqrasiyaya doğru tarixi inkişaf", "Pramidal imperiyalaşmadan inteqral qloballaşmaya", "Heydər Əliyev siyasəti və qloballaşma", "Müasir dünya inkişafının aktuallaşan qlobal problemləri: ziddiyyətlər dünyasının mahiyyəti", "Qlobal siyasətdə Heydər Əliyevin mövqeyi", "Azərbaycan beynəlxalq münasibətlər sistemində: dövlət nüfuzunun artan dinamikası", "Qlobal əməkdaşlığın Azərbaycandan görünən üfiqləri", "Dünyanın qlobal vəhdəti: İdeyalardan gerçəkliyə", "Revolyusiya balansında planetləşən şüur", "Homouniversalizm", "Svilizasiyalar orqanikası", "Dialoq mədəniyyətinin Azərbaycan siyasəti: Şərqlə Qərbi danışdıran dil", "Yeni dünya nizamında milli dövlət subyektləri", "Heydər Əliyevin *"mənəvi əsaslar"* paradiqması", "Dünya birliyi bəşəriyyətin tarixi inkişafında qlobal özünütəşkilin labüd nəticəsidir"), III hissədə *"H.Əliyevin dəyərləndirməsində Azərbaycan və dünya mədəniyyəti"* ("Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və dünya mədəniyyəti", "Mədəniyyətlərarası ideya dialoqunun klassik təcrübəsi", "Heydər Əliyev və intibah yaradıcıları", "Klassik romantizmi dəyərləndirən siyasi realizm", "H.Əliyev və C.Məmmədquluzadə irsi", "Humanizm – sivilizasiyanın ən başlıca ideyası", "Ümumilli vəhdətin poetik dünyası", "Milli mənəviyyatın dərinliklərində: tarixi-genetik bütövlük necə dərk olunur", "Elm və incəsənət mədəniyyət fenomenində"), IV hissədə *"Heydər Əliyev və mədəniyyətdə tənqidi-estetik düşüncənin aktuallaşması"*:Tənqid–mədəniyyətin hərəkətverici amili kimi", "Hümanitariyanın seçkin kulturoloji hadisəsi", "Tənqid estetik meyarları cilalayır", "Heydər Əliyev və mədəniyyət düşüncəsinin təkamülü, "Poetik mən" dünyasında qloballaşma", Tənqid spektrində dünya ədəbiyyatı", Heydər Əliyev və müasir əbədi-mədəni həyat", "Heydər Əliyev və mədəniyyət münasibətlərinin dinamikası", "Ədəbi-bədii prosesin mədəniyyət orqanizminə çevrilməsi qanunauyğunluğu", "Ədəbiyyat–fəlsəfə–siyasət triadası", "Tənqidsizlik kompleksi və ondan qurtuluş zərurəti", "Heydər Əliyev və mədəniyyət arxitektonikası" kimi məsələlər aydınlaşdırılıb, son söz verilib, qaynaqlar göstərilib.

*Rahid Uluselin "Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi"*[929] adlı monoqrafiyası *"Qalib Azərbaycanın qalib ədəbiyyatı"* paradiqmasının konseptual əsaslarından ibarətdir.

[929] Rahid Ulusel.Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi. Bakı, "Elm və təhsil", 2021, 120 s.

Müəllif xatırladıb ki, savaşlardan sıyrılan tarixi Vətən –Cənubi Qafqazda təşəkkül tapan müasir Azərbaycan ulu türk gələnəyi– Avrasiyada Göy türklərdən Səlcuqlara qədərki dövlətçilik tarixinin varisidir, Ötükən kitabələrin (Orxon-Yenisey), Oğuznamələrin varisi, AXC də bu böyük tarixin varisidir.

Alim müqayisələrə varıb, tarixlə müasirliyin oxşarlarını və fərqlərini qarşılaşdırıb. Oğuz türkləri tarixən Qafqazda və Anadoluda iki müasir dövlət qurub və çağımızda onlar yenidən tarixin fövqünə çıxıbdır. Alim milli paradları xatırladıb: *Bakının azadlığının 100 illiyi şərəfinə* (15 sentyabr 2018), *Qarabağın azadlığı şərəfinə* (10 dekabr 2020). Şuşa Bəyənnaməsini əlavə edib (15 iyun 2021). Türkiyə Respublikasının Prezidenti, cənab R.T.Ərdoğanın *B.Vahabzadənin "Torpaqdan pay olmaz"* şeirini və bir *bayatını* söyləməklə siyasətin ədəbi dilini çağımızın yaddaşına gətirib: *Arazı ayırdılar, lil ilə doyurdular, mən səndən ayrılmazdım, zülm ilə ayırdılar.* Qayəsi də budur ki, Rusiya– İran arasındakı tarixi ədalətsiz bölgü– Siyasətin ədəbiyyat dilində danışması çağımıza mesaj–humanitar mədəniyyət cinahımızın gücləndirilməsinə çagırışdır,– müəllif bu məfkurədədir. Alimin ünlü tezisi belədir: *"Heydər Əliyev Azərbaycanı Qlobal siyasət meydanına çıxarmışdır"*[930].

Professor Almaz Ülvi *"Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı"* adlı monoqrafiyasında[931] (redaktor Nazim Süleymanov) ulu rəhbərin Azərbaycan ədəbiyyatı siyasəti və ideologiyasından əhatəli bəhs edib.

*"Heydər Əliyev və milli mətbuat"* kitabı[932] kollektiv nəşrdir.*"Heydər Əliyevin dövlətçilik siyasətində mətbuat"* adlı ön söz akademik İsa Həbibbəylinin, *"Heydər Əliyev və mətbuat"* məqaləsi professor Vüqar Əhmədin, *"Heydər Əliyev mətbuat və dövlətçilik əlaqələrinin qurulub-tənzimlənməsi haqqında"* məqaləsi professor Elçin Mehrəliyevin, *"Heydər Əliyev və "Molla Nəsrəddin" ədəbi məktəbi"* məqaləsi f.ü.f. d. Gülbəniz Babayevanın, *"Heydər Əliyev irsində Qarabağ zəfərinə gedən yol"* məqaləsi isə f.ü.f d.Gülnar Səma– Qasımlınındır.

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun *"Mənin Prezidentim. Ulu öndər Heydər Əliyevin 100 yaşına"*adlı kitabında[933] müəllifin Ulu ön-

---

[930] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. 11-ci kitab. Bakı, Azərnəşr, 2003, s.116-131

[931] Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı. Bakı, "Nurlan", 2004, 107 s.

[932] Heydər Əliyev və milli mətbuat. Bakı,"Elm və təhsil", 2023, 320 s.

[933] Tehran Əlişanoğlu. Mənin Prezidentim. Ulu öndər Heydər Əliyevin 100 yaşına. Bakı, "Elm və təhsil", 2023, 370 s.

dər haqqında məqalələri toplanıb. Topluya "Heydər Əliyev müasirimizdir", "Heydər Əliyev şanlı tariximizdir", *"Azərbaycan, Azərbaycan"* kitabından "İradə", "Dəyərlər", "Tarix", "İdeal", "Mənim Prezidentim", "Milli diaspor hərəkatından qurultaya gələn yol", "Əbədiyyət ünvanı önündə", *"Heydər Əliyevin Ədəbiyyat sevgisi"* bölməsində "Heydər Əliyevin Ədəbiyyat sevgisi: təşəkkül və özünüifadə", "Heydər Əliyev və ədəbi mühit– Ümummilli lider", " "Heydər Əliyev və ədəbi mühit– Ulu öndər", *"Ədəbiyyatda Heydər Əliyev obrazı"* bölməsində "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerşəklikdən ideala", "Folklorda və bədii nəsrdə Heydər Əliyev obrazı*", "Müstəqillik ədəbiyyatı və Heydər Əliyev"* bölməsində "Sirli-sehirli üç gün", "Unudulmaz görüşlərin izi ilə", "Qurtuluş günümüz ədəbiyyatda necə varsa", "Ulu öndər Heydər Əliyev müstəqillik dövrü ədəbiyyatının memarı kimi" məqalələri daxil edilib. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev" adlı kitabda[934] müəllifin Heydər Əliyev mövzusunda məqalələri toplanıb, siyasi şəxsiyyətin həyat və fəaliyyətinin bütün mərhələləri əks olunubdur.

***

Ümummilli liderin sərəncamlar verdiyi böyük qələm adamlarının hər biri onun haqqında qiymətli fikirlər söyləyib, onların həyatında oynadığı rolu dəyərləndiriblər: B.Vahabzadə, X.Rza, N.Həsənzadə, M.Araz, M.Dilbazi, Anar, Elçin, Y.Səmədoğlu və başqaları kimi.

Heydər Əliyev 6 oktyabr 1993-cü ildə *Məmməd Arazın* 60 illik yubileyinə təbrik məktubu göndərib.16 aprel 1995-ci ildə Məmməd Arazın Dövlət Flarmoniyasında *"Azərbaycan –dünyam mənim"* adlı yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşü zamanı deyib: "Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Araz yaradıcılığının nə qədər böyük əhəmiyyəti var...

Məmməd Araz poeziyasının bu günkü məclisi mənə elə gəlir ki, Azərbaycan mədəniyyəti tarixində, mədəni həyatında, ictimai həyatında, böyük, görkəmli bir hadisədir. Təbrik edirəm səni, Məmməd Araz! Bu gün sənin yaradıcılığının hamısını yox, bir qismini nəzərdən keçirdik, gördük.

Sizə səmimi deyirəm. Mən həyəcansız otura bilmirdim. Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilməzdim, xüsusən də, "Dünya mənim..." mahnısının

---

[934] T. Əlişanoğlu (Mustafayev). Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev. Bakı, "Elm və təhsil", 2023, 280 s.

sözlərini də, musiqisini də... Məmməd Arazın şeirləri şübhəsiz ki, çoxdur. Amma "Dünya sənin, dünya mənim..." kimisi yoxdur"[935].

Heydər Əliyev Xalq şairi *Məmməd Arazla* görüşərkən *(6 aprel 1995),* şairin yaradıcılıq gecəsində iştirak edərkən *(16 aprel 1995)* parlaq nitq söyləyib, görkəmli şair cavabında Ulu öndərin qiymətli sözlərini minnətdarlıqla qəbul eləyib və təşəkkürünü bildirib. Əməkdar jurnalist Flora Xəlilzadənin "Azərbaycan" qəzetində verilmiş "Vətən sevgisi" adlı müsahibəsində Məmməd Araz xatırladıb: "Mən həmişə H.Əliyevin qayğısını, diqqətini hiss etmişəm. Bir mən yox, bütün yazıçılar, şairlər, ziyalılar hamısı ondan razılıq edirdi. Bizim heç birimiz onun diqqətindən yayınmırdıq. Deyim ki, Heydər Əliyev ən gözəl və həssas oxucu idi. Heç unutmaram, "Dünya sənin, dünya mənim..." adlı şeirimi o, necə ustalıqla təhlil edərək qiymətləndirirdi. Əgər bir ölkənin başçısı sözü uca tutarsa, yaradıcı insanların əməyini dəyərləndirərsə, onda həyatın, yaşamağın mənası daha da artar. Mən həmişə Heydər Əliyevin xeyirxah əlini üstümdə görürdüm"[936].

Xalq şairi Məmməd Araz 1995-ci ildə "İstiqlal" ordeni alıb, Almaniyaya müalicəyə göndərilib, ona yeni mənzil, prezident təqaüdü verilib, "Azərbaycan təbiəti" jurnalının yenidən nəşri üçün maliyyə məsələləri həll edilib. Şair etiraf edib: "Qollarımdan əlli min dost əli yapışıb. Onlardan ən güclüsü, xeyirxahı məhz Heydər Əliyevin əli idi"[937].

Məmməd Araz *"Onun keçdiyi böyük yol"* adlı məqaləsini Ulu öndərin 75 illiyi münasibətilə yazıb. Ona heyranlığını ifadə edib: "Heydər Əliyevin şəxsiyyəti elə ucalıqdır ki, dünyanın çox yerindən, dünyanın hər yerindən aydın görünür. O, bu yolda addımlarının gücünü bu torpaqdan, bu xalqdan alır. Ona görə də mətindir, yorulmazdır, dayanmazdır. Ona görə də onun kəlamı belə deyir: "Torpağa münasibətdə meyar nədir? Meyar –ədalətdir".

...Ona görə də ədalətə söykənən şəxs dönməzdir, əyilməzdir. Ona görə də əyilməzlər, dönməzlər məğlubedilməzdir"[938].

...Heydər Əliyev hakimiyyətə qayıtdı...Heydər Əliyev yenə öz böyük yoluna çıxdı. M. Araz yazıb: "Xalqda bu inam var ki, Heydər Əliyevin ayağında bərəkət var, hara dəyirsə, abadlıq göyərir, yaşıllıq göyərir: "Heydər

---

[935] H. Əliyevin Məmməd Arazın *"Azərbaycan –dünyam mənim"* adlı yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşü zamanı söylədiyi nitqindən. "Azərbaycan" qəzeti, 17 aprel 1995-ci il

[936] Heydər Əliyev mənim həyatımda. B., 2005, s.242

[937] Heydər Əliyev mənim həyatımda. B., 2005, s.243

[938] s. 87

parkı", "Heydər bulağı", "Heydər Əliyev yaşıllıq zolağı"... Bunların hamısında onun əli iştirak etməsə də, nəfəsi, zəhmi mütləq iştirak edib."[939]

...Xalq yazıçısı Süleyman Rəhimov deyib: "Heydər Əliyev öz dünyəvi fəaliyyəti ilə sübut elədi ki, siyasət sahəsində istedad olmaq mümkündür. O özü belə istedaddır, çox böyük istedad"[940]. Məmməd Araz da belə deyib: "Bəli, uzaqgörənlik elə uzağı görənlikdir, dağlar arxasında elə sabahı görənlikdir ki, bu dünya da böyük istedadlara məxsusdur"[941]. M. Araz rəhbər əməyini fərdiləşdirib: "Təkcə bir ömürdə Bakı şəhərində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaranması Heydər Əliyevi əsrinin ən böyük adamı zirvəsinə qaldırmaq üçün bəs edərdi. Halbuki belə hünər işləri yüzlərlədir, minlərlədir"[942]."Belə hünər işləri təbiətimizdən keçən yollardır, qəhrəmanlıq yollarıdır. Belə yollara bələdçi olmaq xoşbəxtlikdir.

Əziz və hörmətli Heydər Əlirzaoğlu! Azərbaycan dövlətinin möhkəm, onun müstəqilliyinin əbədi olması yolunda addımlarınız var olsun!

Hörmətli Heydər Əlirzaoğlu!

Siz bu ilin mart ayında azərbaycanlıların dəhşətli soyqırımı haqqında fərman imzalamısınız, açıq şəkildə bəzi yaddan çıxmış varaqları çevirdiniz, qaranlıq məqamlara işıq saldınız, bütün dünyanın eşidə biləcəyi bir səslə xalqımız, xüsusi gələcəyimiz olan gənclərə dediniz: Heç vaxt, heç yerdə qorxmayın, sarsılmayın, sınmayın. Həqiqət üçün, bu mənalı fərman üçün də sağ olun deyirəm. Xalqımızın gələcək rifahı naminə hələ çox, çox yaşayın.

Sizi çoxminli təbiətsevərlər adından alqışlayır, 75 yaşınız mübarəkdir deyirik!

Sizin böyük tale yolunuz həmişə geniş, həmişə aydın və işıqlı olsun. O cəsarət, hünər yoluna, qayıdış yoluna eşq olsun"[943]...

Ulu öndər 25 may 1994-cü ildə Xalq yazıçısı *İlyas Əfəndiyevə* 80 yaşına görə təbrik məktubu göndərib. 24 iyun 1994-cü ildə Xalq şairi *Xəlil Rza Ulutürklə* vidalaşma mərasimində çıxış edib[944].

Xalq yazıçısı *İsmayıl Şıxlıya* 75 illiyi münasibətilə 4 iyul 1994-cü il tarixli təbrik məktubu göndərib. Heydər Əliyev 28 iyun 1995-ci ildə M.Şəhriyar adına mədəniyyət sarayında İsmayıl Şıxlı ilə vida mərasimində çıxış

---

[939] s. 88

[940] s. 88

[941] s. 89

[942] s. 89

[943] M. Araz. Onun keçdiyi böyük yol. 25 mart 1998 /Qarabağ simfoniyası.Bakı, "Elm və təhsil",2016, 512 s.;

[944] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, "Nurlar", 2008, 504 s.; s.215

edib. O, Xalq yazıçısı İsmayıl Şıxlını ictimai xadim kimi uca tutub, yazıçı və insan kimi ona böyük hörmət göstərib, onu Yazıçılar İttifaqına rəhbərliyə gətirib. İsmayıl Şıxlı da görkəmli dövlət xadiminə yüksək dəyər verib. Azərbaycan xalqı 1990-cı il hadisələrində ağır sınaqlardan çıxanda o, özünü yazıçı, müəllim, alim, ictimai xadim və vətəndaş kimi aparıb, müdriklik və cəsarət nümayiş etdirib, xalqına bələdçi olub, Heydər Əliyevin ona olan etimadını qoruyub saxlayıb. Ulu öndər görkəmli yazıçının vida mərasimində (1995) iştirak edib, haqqında qiymətli nitq söyləyib.

Heydər Əliyev yazıçı-dramaturq *Şıxəli Qurbanovun* 70 illik yubileyində onun ailə üzvləri ilə görüşüb, yazıçı və ictimai xadimin mədəniyyətimiz və milli adət-ənənələrimiz qarşısında böyük xidmətlərini, onunla görüşlərini yada salıb. Yazıçı-dramaturqun həyat yoldaşı Xavər Qurbanova görüş zamanı bildirib ki, Heydər Əliyev onların ailəsinə, uşaqlarına qayğı göstərib, onlara dayaq olub.

Heydər Əliyev 19 dekabr 1995-ci ildə Xalq şairi *Nəbi Xəzrini* 70 illiyi, 19 dekabr 1995-ci ildə Xalq yazıçısı *Yusif Səmədoğlunu* 60 illiyi, 22 may 1996-cı ildə Xalq şairi *Sabir Rüstəmxanlını* 50 illiyi, 15 avqust 1996-cı ildə Xalq şairi *Qabili* 70 illiyi münasibətilə təbrik edib.

30 avqust 1996-cı ildə Respublika sarayında görkəmli Azərbaycan şairi *Əliağa Vahidin* 100 illik yubiley gecəsindən sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxış edib... Ulu öndər Vahidin *ecazkar sənəti* haqqında deyib: "Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim həddindən çox canlandı, həyəcanlandım. Xalqımızın, millətimizin, ədəbiyyatımızın, şeirimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə böyük iftixar hissi keçirdim... *Vahidin yaradıcılığı* indiyədək həm ədəbi, həm də musiqili şəkildə bu qədər nümayiş etdirilməmişdi. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdır"[945].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xalq şairi *Bəxtiyar Vahabzadəyənin* 12 oktyabr 1995-ci ildə 70 illik yubileyi münasibətilə təbrik məktubunda yazıb: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əy-

[945] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.213

məmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız”[946].

Gəncədə Xalq şairi *Nigar Rəfibəylinin* abidəsinin açılışında (7 fevral 1998) Xalq yazıçısı Anar Heydər Əliyevi ədəbiyyat və mədəniyyətimizə, anasının xatirəsinə göstərdiyi diqqət və qayğıya görə yüksək qiymətləndirib, ona minnətdarlığını bildirib.

Xalq şairi *Osman Sarıvəllinin* 90 illik yubileyinə həsr edilmiş gecədə (27 dekabr 1995) şairin oğlu, professor Rafiq Qurbanov Osman Sarıvəlliyə Xalq şairi adının verilməsində Heydər Əliyevin xidmətlərini xatırladıb, ona atasına göstərdiyi hörmətə görə dərin minnətdarlığını ifadə edib.

Ulu öndər Xalq yazıçı *Anarı* 60 illiyi (13 mart 1998) münasibətilə təbrik edib.

Heydər Əliyev Xalq yazıçısı *İsa Hüseynova* 70 illiyi münasibəti ilə 11 iyun 1998-ci il tarixli təbrik məktubunda deyib: “Ədəbiyyatımızda insana, onun zəngin, mürəkkəb mənəvi dünyasına marağı gücləndirən roman və povestləriniz bütöv bir nəslin formalaşmasında böyük rol oynamışdır. İdeoloji buxovlardan uzaqlaşaraq həyata obyektiv baxış yaradan, insan şəxsiyyətinə, ləyaqətinə ehtiram hissləri təbliğ edən əsərləriniz sonrakı yazıçılar nəslinin təşəkkül tapmasına öz müsbət təsirini göstərmişdir.

Müasirlərimizin əxlaqi saflığı, psixoloji ovqatları, milli dəyərlərlə yaşamaq səyləri sizin nəsrinizdə yüksək sənətkarlıqla təsvirini tapmışdır. Siz öz bədii yaradıcılığınızla Azərbaycanımızın tarixi keçmişinə, dilinə və mədəniyyətinə böyük maraq doğurmaqla xalqımızın milli şüurunun inkişafına əhəmiyyətli xidmət göstərmisiniz”[947].

Heydər Əliyev 12 dekabr 1999-cu ildə *Nəbi Xəzrinin* “Burla xatun” pyesinin tamaşasına baxıb.

23 oktyabr 1981-ci ildə *Mirzə İbrahimova* mükafat təqdimetmə mərasimində Heydər Əliyev çıxışı zamanı bildirib ki, “Ədəbiyyatın inkişafında böyük xidmətinə, səmərəli ictimai fəaliyyətinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Mirzə İbrahimov Lenin ordeni və “Oraq və Çəkic” qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülüb”[948].

---

[946] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.; s.359

[947] Yenə orada. s.370

[948] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild (1969 – 1982, 1993-1996). Bakı, “Nurlar”, 2008, 504 s.

27 oktyabr 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ictimai xadim, Azərbaycan ədəbiyyatı və elminin görkəmli nümayəndəsi, Xalq yazıçısı, akademik Mirzə İbrahimovun 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb[949].

Heydər Əliyev 28 dekabr 2001-ci ildə *Əzizə Cəfərzadəyə* "Xalq yazıçısı" fəxri adı verib.

25 dekabr 2001-ci ildə Xalq şairi *Rəsul Rzanın* 90 illiyinə həsr edilmiş yubiley keçirilib. AYB-nin sədri, Xalq yazıçısı Anar, Xalq yazıçısı Elçin, professor Gülrux Əlibəyli, AYB-nin katibi, Xalq şairi Fikrət Qoca çıxış edib[950].

23 may 2003-də *Elmira Axundova* "Şöhrət" ordeni ilə təltif edilib. O, 26 may 2003-cü il tarixli məktubunda yazıb: "Əziz Cənab prezident,

Şübhə etməyə bilərsiniz ki, bütün gələcək fəaliyyətimi yeganə bir məqsədə – respublikamızın bugünü haqqında, Azərbaycan xalqının Sizin rəhbərliyiniz altında baş verən dövlət, siyasi-iqtisadi və mədəni dirçəlişi prosesləri haqqında doğru-düzgün, obyektiv söhbət açmağa həsr edəcəyəm.

Təkrar etməkdən usanmıram – özümü xoşbəxt sayır və fəxr edirəm ki, son illər ərzində az adamlar sırasında mənə sizin yanınızda olmaq və tarixin yeni dönəmində, yeni siyasi və sosial-iqtisadi şəraitdə fitri lider kimi özünün nəhəng potensialını reallaşdıra bilmiş dahi siyasətçinin işini bilavasitə yaxından müşahidə etmək kimi nadir fürsət düşmüşdür. Bu işləri XX əsrdə heç kim görə bilməmişdir və bu heyran olmağa layiq nümunədir. Sizin bir dəfə şəxsi söhbətimiz zamanı mənə peyğəmbərcəsinə dediyiniz bu sözləri tez-tez xatırlayıram: *"Məndən nigaran olma, mənə heç nə olmaz. Çünki mən öz xalqıma hələ çox gərəyəm!"*

Allah eləsin ki, Siz ona çox-çox illər gərək olasınız və öz xalqınıza yenə də əvvəlkitək tükənməz enerji ilə və böyük həvəslə xidmət edəsiniz.

Əziz Heydər Əlirza oğlu,

Sizə bahadır sağlamlığı, ailənizə, bütün dogma və yaxın adamlarınıza xoşbəxtlik, əmin-amanlıq və firavanlıq arzulayıram". *Elmira Axundova. 26 may 2003-cü il*[951].

Dövlət rəhbəri 29 may 2003-cü ildə *Elçin Əfəndiyevə* "İstiqlal" ordeni təqdim edib. 5 iyul 2003-cü ildə *Aşıq Şəmşirin* 110 illiyinin keçirilməsi haqqında sərəncam verib.

Sənətkarlarla görüşlər, keçirilən yubiley tədbirləri, onlara verilən qədir-

---

[949] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.

[950] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.

[951] H.Əliyev mədəni irsimizin keşiyində. III kitab. Bakı, 2011, 351 s.; s.305

qiymət Heydər Əliyev üçün həmişə zövq mənbəyi olub. Belə dəyərləndirmə və qiymətləndirmədə hər iki tərəfin çıxış, ithaf və etiraflarında, təşəkkür və minnətdarlığında Heydər Əliyevin lider missiyası canlanıb, digər tərəfdən böyük öndərin nitqi vasitəsilə ədəbi şəxsiyyətlərin nüfuz və mövqeyi ifadə olunub. Bu baxımdan yazıçı və ictimai xadim *Yusif Səmədoğlunun* respublika səviyyəsində keçirilmiş 60 illiyinə və aldığı "Şöhrət" ordeninə *(19 dekabr 1995, "Gülüstan" sarayı)* görə anası Xavər Vəkilovanın, şair *Tofiq Bayramın* büstü və istirahət parkının açılışı münasibətilə *(24 sentyabr 1998)* anası Zivər Bayramovanın, Xalq şairi *Xəlil Rza Ulutürkün (23 iyun 1994, M.Maqomayev adına Azərbaycan Dövlət Flarmoniyası)* Fəxri Xiyabanda dəfni və 5 iyun 1995-ci il Respublika sarayında keçirilmiş xatirə gecəsinə görə Firəngiz Xəlilovanın dahi rəhbərə təşəkkür və minnətdarlığı səciyyəvidir.

Xalq şairi *Mirvarid Dilbazinin* 85 illik yubiley gecəsi *(23 aprel 1998)* də əhəmiyyətlidir. Heydər Əliyev həmin görüşdə qiymətləndirib ki, Mirvarid xanım Dilbazinin əsərləri "Azərbaycan xalqına – insanlara, gənclərə yüksək mənəviyyat hissləri aşılayır, insanları paklığa, mənəviyyata, ülvi duyğulara çağırır". Böyük şəxsiyyət deyib: "Siz bütün əsərlərinizlə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək xalqımızın milli azadlıq yolunda öz payınızı vermisiniz. Sizin əsərləriniz insanlarımızda, xalqımızda, gənclərdə milli hisslər, duyğular, vətənpərvərlik, azadlıq hissləri, duyğuları oyadıb, dirçəldib, gücləndirib, inkişaf etdiribdir və bu günki səviyyəyə gətirib çıxarıbdır"[952].

16 noyabr 2000-ci ildə Heydər Əliyev Xalq şairi Mirvarid Dilbazini qəbul edib, görüş zamanı şairə Ümumilli lideri iradəli, hafizəli, dərin siyasi bilikli şəxsiyyət kimi qiymətləndirib, onun təkrarsız şəxsiyyət olduğunu söyləyib və "şəxsiyyəti olmayan adamlar millətini sevə bilməzlər"– deyib. O, dahi rəhbərə Allah-Təaladan uzun ömür arzulayıb.

Prezident sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr edilmiş toplantısında Xalq şairi Mirvarid Dilbazi çıxışı zamanı Heydər Əliyevə olan hörmətini bir daha izhar etmiş və onun bədii obrazına şəxsiyyət dəyərləri səviyyəsindən qiymət verib. Xalq şairi deyib: "İftixarımız, canımız-ciyərimiz, əziz, hörmətli, dünya şöhrətli prezidentimiz!

Vəzifədə oturub dünya şöhrəti adı almaq görün nə qədər çətindir! Onu bizim oğlumuz alıbdır. Niyə mən fəxr edirəm? Çünki bunu adi, bir Azər-

[952] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.234

baycan anasının südü ilə bəslənən oğul alıbdır. Ona görə mən indi iftixar hissi ilə yaşayıram.

...Siz bizə milli qalibiyyət sevinci bağışladınız. Ona görə mən çıxış etmək üçün buraya qalxdım... Yalnız ürəyimdəki məhəbbəti özümlə aparmaq istəmirəm.

...Niyə mən Sizi çox istəyirəm? Ağlınızı? Niyə mən Sizi çox istəyirəm? İradənizi? Niyə mən Sizi çox istəyirəm? Şəxsiyyətinizi! Əgər kimin şəxsiyyəti yoxdursa, o kişi deyil!

...Azərbaycanın böyük xoşbəxtliyi ondadır ki, onun sizin kimi ağıllı övladı var. Bizim xoşbəxtliyimiz ondadır ki, millətimizin başında Siz durursunuz. Əgər bir ailənin başında ağıllı ata, ismətli ana durmursa, o ailənin övladları heç olacaqdır. Əgər xalqın başında tədbirli, ağıllı, şəxsiyyətli, öz işində dönməz iradəli və hafizəli adam durmursa, o millət yazıqdır. Quranda "Ayətəl-kursi" var. Heydər Əliyev danışanda mən "onu oxuyuram ki, Allah, onun hafizəsinə göz dəyməsin. Kim ki onun hafizəsindən danışır, deyir bu adamın nə gözəl yaddaşı var..."[953]

Xalq şairi Mirvarid Dilbazi dövlət başçılarına şeir yazmayıb, ithaflar etməyib. Lakin... M.Dilbazi: "...Mən Heydər Əliyevə ilk şeirimi o, katib olanda yazdım. O vaxt rüşxətxorlarla – onları gözəlcə tanıyırdım – mübarizə aparanda o şeiri yazdım. Ancaq çap etdirmədim. Niyə? Çünki o zaman işləməyə canımda su var idi, camaat elə başa düşəcəkdi ki, o, böyük vəzifə sahibidir, mən nə isə umuram. O şeiri indi çap etdirdim. Mən yalnız və yalnız Heydər Əliyevə şeir ithaf etmişəm. Niyə? Çünki mən şairəm, inamla yaşayıram, məhəbbətlə yaşayıram. Təsəvvürünüzə gətirin, şair olasan, özü də ana olasan, nənə olasan, nəsillər böyütmüş olasan, ona görə də özümdən asılı olmayaraq, Heydər Əliyevə xeyli şeir ithaf eləmişəm..."[954]

Xalq şairi Mirvarid Dilbazi çıxışlarında çox ciddi mətləblərə toxunub, Heydər Əliyevin hər zaman yeri göründüyünü yada salıb. Şairə mürəkkəb ictimai-siyasi şəraitdə Heydər Əliyevin hakimiyyətini arzuladığını bildirib və deyib: "Yadımdadır, mən Pirşağıda idim. Səhər tezdən dəniz qırağında dəhşətli bir patlayış oldu. Maşını yandırdılar, içindəki adamların hamısını öldürdülər. Sonra gedib həmin adamın evini partlatdılar. Onda xalqın səsi mənim yadımdadır. Onlar əllərini göyə tutub dedilər, ya Rəbbim, bizə sözü kəsərli, sözü ötən bir başçı göndər. Heydər Əliyevi bizə başçı göndər. Sizi o vaxt respublikaya göndərsəydilər, Azərbaycanın başına heç bir fəlakət gəlməzdi. Çox pis oldu ki, o zaman Sizi işdən çıxardılar. Sizi işdən çıxardan

---

[953] "Azərbaycan" qəzeti, 28 noyabr 1999-cu il

[954] "Azərbaycan" qəzeti, 28 noyabr 1999-cu il

adamlar xalqın övladları deyildilər. Onlar bizim xalqımızı duya bilməzdilər. Sizi o vaxt işdən çıxartmasaydılar, heç Qarabağ faciəsi də olmayacaqdı”[955].

Mirvarid xanım bunu da xatırladıb: “Camaat sizin mənə orden verdiyinizi eşidəndən, göndərdiyiniz təbrik məktubunu oxuyandan bəri tez-tez mənə müraciət edir ki, bizim bu dərdimizi Heydər Əliyevə de. Cavab verirəm ki, ay balam, Heydər Əliyev bütün ömrünü Sizin dərdinizin həll olunmasına həsr edib. Bizim dərdimiz nədir? Millətimiz azad olsun, torpaqlarımız erməni əsarətindən xilas edilsin, əsirlərimiz qurtarsın, Vətənə qayıtsın. Heydər Əliyev bütün həyatını, ömrünü bunların uğrunda, dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edibdir. Xırda-xırda məsələlərdən ötrü gedib onun vaxtını almağa dəyməz”[956].

Görkəmli şairə Ümumilli liderin qətiyyətli rəhbər mövqeyini, ona şeirlər həsr etdiyini, təşəkkür məktubu yazdığını, Vaqifin qəbri üstündə gözəl məqbərə tikdirdiyini xatırladıb, yeganə arzusu bu olub ki, ulu millətini bu fəlakətdən xilas etsin. Mirvarid xanım Natəvanın qəbri üstündə gözəl bir abidə ucaltdığını, Səməd Vurğuna Qazaxda muzey açdığını, şeirlərini dərsliklərə saldırdığını, Süleyman Rüstəmə yeni həyat verdiyini Ulu öndərin diqqətinə çatdırıb, ona təşəkkürlər edib.

Xalq şairi *Qabilin* 70 illik yubileyi keçiriləndə *(7yanvar 1997-ci il, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı)* Anar və Sabir Rüstəmxanlı çıxış edib, Heydər Əliyevə bildiriblər ki, Azərbaycanda milli azadlıq hərəkatı başlayanda, 1989-90-cı il hadisələrində meydanlara gələnlərdən biri də Qabil olub. Heydər Əliyev deyib: “Qabil gəlib orada xalqın dərdini deyən adamlardan biridir. Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır”[957].

Heydər Əliyev Qabilin Nəsimi haqqında mənzum romanını yüksək qiymətləndirib və deyib: “Bu, həqiqətən Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi”[958].

Qabil göstərilən etimada görə Heydər Əliyevə dərin minnətdarlığını bildirib və “Ömür hədləri” kitabındakı avtoqrafı xatırladıb:

---

[955] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.304
[956] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.305
[957] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.259-260
[958] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.260

Məsləhətdir, aç oxu sən bu kitabı, Heydər,
Çox suala tapacaqsan da cavabı, Heydər.
Görəcəksən quruluş zay quruluşdur, a kişi,
Yandırır həm şişi o, həm də kababı, Heydər.

Üstünə kim bu saat qalxdı, xoruzlandısa da,
Xoruzun uçmağa hardaydı ki tabı, Heydər.
Hansı namərdin olub vicdanı, abrı, həyası,
Mərdə, mərdanəyə xas vicdan əzabı, Heydər!

Heydər Əliyev həmin şeir barəsində deyib: " Bu şeirin qiyməti ondan ibarətdir ki, onu sən o vaxt yazdın, mənə göndərdin. Yadımdadır, o vaxt – 1991-ci ilin fevral ayında mən buraya gəlmişdim. Ali Sovetin sessiyasında iştirak edirdim. Həmin o namərdlər mənə hücum etdilər. Sən şair baba idin, vəzifən yox idi və məndən vəzifə almamışdın. Amma sən həmin şeiri yazıb mənə göndərdin. Bu sənin vətəndaşlıq mövqeyini bildirirdi"[959]...

Xalq şairi Qabil dahi rəhbərin Azərbaycan sənətkarlarını qəbul etməsi fonunda deyib ki, Siz həmişə yazıçıları qaldırmısınız. Sizə təşəkkür edir, "Sizin qayğınızı, xidmətlərinizi Bəxtiyar müəllimə, Nəbi müəllimə, bəndeyi-həqirə, Balaş müəllimə, Məmməd Araza göstərdiyiniz qayğıları sadalamıram, – bunlar hamısı öz yerində. Sizə dönə-dönə təşəkkür edirik"[960].

Yazıçılar Birliyinin nəşriyyat açması, maddi bazasının möhkəmləndirilməsi, onun poliklinikası və Yaradıcılıq evinin müasir vəziyyətindən danışan Qabil bunları deyib: "71 yaşım var. Üzr istəyirəm, təvazökarlıqdan uzaq olmasın, mənim "Nəsimi" kitabımı Dövlət mükafatına təqdim etmiş, gətirib Sizin qarşınıza qoymuşdular. Demişdiniz ki, "bu, bütöv bir kitabxanadır, bunu yazmağın özü böyük bir şeydir." Mənim kitabımı və "Nəsimi" filmini, – çox gözəl filmdir, – deyə müzakirəyə qoymuşdular... Ona görə yenə demək istəyirəm ki, yazıçıya qiymət Sizin başınızın ucalığıdır, savab işdir. Yazıçı xalqın danışan dilidir. Biz həmişə Sizə, Sizin fəaliyyətinizə xeyirduaçıyıq. Hamımız televizora baxırıq. Görürük ki, bir dəqiqə vaxtınız yoxdur, – o, gedir, bu, gəlir, onu qarşıla, bunu yola sal. Təyyarədən düş, təyyarəyə min. Siz iki daşın arasında bu gün bizi qəbul etdiniz və açıq söhbətə cəlb edirsiniz. Ona görə də Sizə dərin təşəkkürümü bildirirəm. Sağ olun"[961].

B.Vahabzadə, X.Rza, N.Həsənzadə, Elçin, Zəlimxan Yaqub və Vahid Əziz məqalələrində sənətkar kimi danışıblar, aydın, konkret, səmimi! Onlar

[959] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.260
[960] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.288
[961] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.301

Heydər Əliyevi oxucuya *talelərindən gəlib-keçmiş şəxsiyyət* kimi təqdim ediblər.

Filologiya elmləri doktoru, İstiqlal şairi *Xəlil Rza Ulutürk* Heydər Əliyevin obrazını *mədəniyyət hamisi* olaraq yaradıb, bu fonda onun şəxsiyyət və təşkilatçılıq bacarığını ifadə edib, sonra onun siyasi hakimiyyətinin əsaslarına diqqət yetirib.

Xəlil Rza Heydər Əliyevə 1960-cı illərdən böyük rəğbət bəsləyib. Bu rəğbət həm də ana dili məsələsinə görə olub. O, 9 oktyabr 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi olan Heydər Əliyevə məktubla müraciət edib. Həmin müraciətdə deyilirdi: "Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək... Sizinlə birlikdə mənim də məramımdır"[962].

Xəlil Rza Ulutürk elmi-tarixi memuarlarında Heydər Əliyev haqqında müxtəlif vaxtlarda fikir deyib, qeydlər aparıb. Onun 2 iyun 1980-ci il tarixli gündəliyində Heydər Əliyevin bir sıra Azərbaycan sənətkarının Özbəkistana səfərindən söz açıb. Bu yazıda Mərkəzi Komitənin geniş salonu təsvir olunub, Özbəkistan səfərinin məqsəd və vəzifələri göstərilib.

Heydər Əliyev: "Görüşümüzün səbəbi aydındır, – deyir. – Sabah yola düşürsünüz. 1250 nəfər Azərbaycan elçisi orada bizim mədəniyyəti təmsil edəcək. İki anlayış, yəqin ki, heç kəsin diqqətindən yayınmayacaq: *Ləyaqət və məsuliyyət.* Ongünlüyün keçirilməsi həm Özbəkistan KP MK-nın, həm də Azərbaycan KP MK-nın təşəbbüsü ilə başlanıb. Mədəni əməkdaşlıq zəminində millətlərin bir-birinə yaxınlaşması qanunauyğunluğu hamımıza bəllidir. Biz bu qanunauyğunluğu şüurlu fəaliyyətimizlə gücləndirə bilərik, gücləndirməliyik. Azərbaycanda özbək ongünlüyünün necə yüksək səviyyədə keçməsi hamımızın yadındadır. Onlar özlərinin gözəl cəhətlərini nümayiş etdirə bildilər. Özbək mədəniyyətinin böyüklüyünü Azərbaycan ilk dəfə geniş nəzərlə gördü. Əlbəttə, elmin, mədəniyyətin, iqtisadiyyatın bütün sahələrində özbəklərin yetənəkləri böyükdür. Ancaq unutmayaq ki, inqilabın ilk illərində biz bütün Türküstan üçün örnək olmuşuq, onlara yardım etmişik"[963].

Xəlil Rza Ulutürk göstərib ki, əslində Heydər Əliyev mədəniyyət iştirakçılarına tarixi əməkdaşlığın bərpa olunmasını tövsiyə edirdi.[964]

Xəlil Rza Nəriman Həsənzadə kimi Heydər Əliyevi geyiminə, görkəminə, ona olan səmimi münasibətə qədər müşahidə edib və qələmə alıb: "Natiqə göz

[962] Arxivindən, 9 oktyabr 1969

[963] 2 iyun 1980-ci il tarixli gündəliyindən

[964] Arxivindən, 2 iyun 1980

qoyuram. Yaraşıqlıdır. Ağ manjetləri qolunun ağzından, yenlərindən azca çıxmış, yaxası Qızıl Ulduzlu, ağ köynəkli, boz kostyumlu, mixəyi qalstuklu, uca boylu Heydər Əlirza oğlu işıq saçır."[965]

Şair 17 iyun 1980-ci il tarixli gündəliyində də Heydər Əliyevin zahiri görkəmini təsvir edib: "Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yerləşən binadayıq. Beşinci girişdən girib yeddinci qata qalxmış, böyük salonda yer tutmuşuq. Büro üzvləri ilə birlikdə Heydər Əlirza oğlu Əliyev gələndə hamı ayağa qalxır. Əyninə abı rəngli kostyum geymiş, mixəyi qalstuk bağlamış ağ köynəkli, ucaboylu Heydər kişi ləyaqət nuru saçır"[966].

Xəlil Rza Ulutürk 22 noyabr 1993-cü ildə Heydər Əliyevə *"İnsanı qorumalı"* adlı açıq məktubla da müraciət edib. Məktubda deyilir: "Hörmətli prezidentimiz Heydər Əlirza oğlu! Sizin xeyirxahlığınız, insana diqqətiniz və həssaslığınız xalqımıza yaxşı bəllidir. Buna görə ümidvarıq ki, respublikada hər bir kadrın özünəlayiq və xalq üçün gərəkli yeri tutmaq uğrunda apardığınız ardıcıl mübarizə bundan sonra da öz bəhrəsini verəcək..."

*Xəlil Rza Ulutürk, Xalq şairi*
*Mikayıl Mirzə, Xalq artisti*
*Etibar Məmmədli,Millət vəkili*
*Məmməd Araz, Xalq şairi.* ***22.11.1993***

*"Heydər Əliyev mənim həyatımda"* adlı qiymətli kitabda (Bakı, 2005) *"Kim ona inanarsa, onunla yüksələcək* ("Xəlil Rza Ulutürkün gündəliyindən yarpaqlar")" adlı məqalə verilib. Yeri gəlmişkən, Xəlil Rza Heydər Əliyevə həm də şeirlər həsr edib: "Ucal, yüksəl, respublikam", "Gəlir böyük Azərbaycan", "Heydər Dədə – Atatürk". "Qanım bayrağımdadır" poemasında isə Ulu Öndər haqqında qiymətli poetik parçalar (hipostasalar) verib. Bu məqalə isə 20 ocaq 1992-ci il tarixli *Naxçıvan səfərinin* təəssüratıdır. Xəlil Rza yazıb: "20 ocaq 1992-ci il. Naxçıvana gəlmişəm ki, *əziz bir insanı* yaxından görüm. *Millətinə məhəbbətində günəş kimi qızğın və bərəkətverici, düşmənə nifrətində aslan təki cəsur, qurub yaratmaq elmində memar məharətli, diplomatiya fənnində bütün dövlət xadimlərindən uzaqgörən və müdrik, dostluqda, ülfətdə hədsiz həssas, diqqətli, ülvi Heydər Əlirza oğlu Atatürkümüzü yaxından müşahidə edim, konuşum, nəfəsi ilə isinim. Keçən il qışla yaz ayrıcında onu filarmoniyada, yazıçıların qurultayında görənəm"*[967].

---

[965] 2 iyun 1980-ci il tarixli gündəliyindən
[966] 17 iyun 1980-ci il tarixli gündəliyindən
[967] 20 ocaq 1992-ci il tarixli gündəliyindən

Xəlil Rza Heydər Əliyevlə görüşüb, Naxçıvana dəvət edilib. Ulu öndər Naxçıvan, Ordubad küçəsi 4-də, Teymur Qaraş oğlu Paşasoylunun evində yaşayıb.

Şair Heydər Əliyevi *"Heydər Əlirza oğlu Atatürk"* kimi obrazlı təqdim edib. Belə qiymətləndirmədə isə çox mətləblər vardır. Sənətkar Heydər Əliyevlə "Volqa"ya əyləşib Əliabad kəndinə gəlib, sonra rəhbərin kabinetinə qayıdıb, 26 ocaq 1990-cı il tarixli xatirələrini Heydər Əliyevə söyləyib və *"Qanlı cəllada" (Qırmızı imperiya başçısı Mixail Qarbaçova)* adlı şeirini ona oxuyub. Heydər Əliyev şeiri tarixi sənəd adlandırıb: "Gözəl şeirdir. Tarixi sənəddir. Bu şeirdən sonra əlbəttə, həbs olunmalı idin. Həbs olunmağın sənin poeziyana ikinci ləyaqət gətirdi. Sözünün ardında özü dayanan sənətkarı tanıtdı hamıya".

Xəlil Rza dahi rəhbərlə birlikdə şəhid ailələrini ziyarət edib, Ulu öndərə isə bu şeiri yazıbdır:

*Əyləşib öz təxtində*
*millətinin şahı tək.*
*Kim ona inanmasa,*
*gəbərəcək, öləcək.*
*Kim ona inanarsa,*
*onunla yüksələcək.*
*Şəhidlərin al qanı*
*torpağa hopmayıb, yox,*
*Onun damarlarını dolaşır*
*ildırım tək.*
*Apar Azərbaycanı*
*qürubdan sübhə doğru,*
*Ey Atatürk nəfəsli*
*Heydər Əlirza oğlu!*

Xəlil Rzanın gündəliklərindən biri 17 ocaq 1990-cı il, biri 27 təmmuz 1993-cü il, biri də 30 təmmuz 1993-cü il tarixlidir. Bu gündəliklərdə 1990-cı illərin mürəkkəb ictimai-siyasi hadisələri, bu hadisələrin analitikləri, siyasətçiləri, ziyalıları, dövlət adamları, təşkilat rəhbərləri, deputatları, onların mövqeyi və çıxışlarının mətni ifadəsini tapıb.

27 təmmuz 1993-cü il tarixli gündəliyin 66-67-ci səhifələrində belə bir yer vardır: "...Əbülfəz Elçibəy Heydər Əlirza oğlunu hakimiyyətə gətirmədi, gətirməyə məcbur oldu. Lakin Heydər Əlirza oğlu...Azərbaycanın bəxtinə doğmuş dan ulduzudur. Mən əminəm ki, onun rəhbərliyi Azərbaycanı xilas

edəcək. Dağlıq Qarabağımız da, Kəlbəcər də, Ağdam mahalı da düşmən tapdağından qurtulacaqdır"[968].

Xalq şairi 1962-ci ildən 1975-ci ilə qədər demək olar ki, təzyiq altında olub. Heydər Əliyev MTN-nin 90 illik yubileyi zamanı Bəxtiyar Vahabzadə və Xəlil Rza haqqında öz mövqeyini açıq ifadə edib. Ulu öndər deyib: "60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta, mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtki kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq"[969].

X.Rzanın mətbuatda çapı məsələsi çətin olub, ədəbi mühitdən mümkün qədər uzaqlaşdırılıb. Buna baxmayaraq o, ruhdan düşməyib, haqq-ədalətə inanıbdır. Şair Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ona məktubla müraciət edib, artıq 1970-ci illərdə üç kitabını: "Yeni zirvələrə" (1971), "Ucalıq" (1973), "Doğmalıq" (1977), 1980-ci illərdə isə daha artıq sürətlə xeyli kitab: "Taparam səni" (1980), "Marallar da duz yeyərmiş" (1981), "Ömürdən uzun gecələr" (1982), "Hara gedir bu dünya" (1983), "Daşdan çıxan bulaq" (1986), "Məndən başlanır vətən" (1988) və başqalarını çap etdirib. Göründüyü kimi, Heydər Əliyevin hakimiyyət illəri şair üçün ruh və qürur mənbəyi olubdur.

Ədəbiyyatşünas-alim Heydər Əliyevin şəxsi müdaxiləsi sayəsində 1985-ci ildə "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, Heydər Əliyevin tapşırığı ilə 1986-cı ildə ona Əməkdar incəsənət xadimi adı verilib. 1995-ci ildə Heydər Əliyev Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif edibdir.

Heydər Əliyev 1995-ci ildə Xəlil Rza Ulutürkün xatirə gecəsini keçirib, 14 noyabr 2002-ci ildə xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam verib, 2004-cü ildə isə cənab İlham Əliyev 70 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb, iki cilddə seçilmiş əsərlərini çap etdirib, 2013-cü ildə şairin 80 illiyi dövlət səviyyəsində qeyd olunub. Şairin *"Heydər dədə, Atatürk"* adlı məşhur şeiri Sədərək–Ümid körpüsünün açılışı münasibətilə yazılmış qiymətli sənət incisidir.

---

[968] 27 təmmuz 1993-cü il tarixli gündəliyindən

[969] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2011, s.48-49

Azadlıq Allahı tək əyləşib öz yerində,
Yerin, göyün nuru var peyğəmbər gözlərində,
Sadəliyi nur saçır, əzəməti dərində,
Gedir, polad çiynində Kəpəz, Qoşqar boyda yük,
Heydər dədə, Atatürk!

Dərin, mavi gözləri sakit yanan od-ocaq,
Alovunda satqınlar yanacaq, kül olacaq,
Qaranlıqda işıqdır, o işığa yol açaq,
Məsləki varlığından böyükdür, min qat böyük,
Böyüklük heykəlidir Heydər dədə, Atatürk!

Dörd tərəf qar, qiyamət, sərt qış, o, güllü yazdır,
Dinc, mülayim səsi də qaynar bir ehtirasdır,
Ərzurumdan Xəzərə şığıyan xan Arazdır,
Dalğasında dönüklər ağ köpükdür, boz köpük,
Dalğalanır nəhr tək Heydər dədə, Atatürk!

Sədərək körpüsünə qanadlandı bir səhər,
Üç addımda Türkiyə, hər çınqılı bir gövhər,
Azərbaycan – Türkiyə daş qala, qoşa səngər,
Bütün qasırğalara birləşməklə sinə gər,
Bu birlik qarşısında düşmən tük salacaq, tük,
Qucur iki sahili Heydər dədə, Atatürk!
Ümid körpüsü üstə dayanıbdır inamla
Dədə Heydər, Ata türk!

Xalq şairi *Nəriman Həsənzadə* 7 cildliyinin 6-cısını Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr edib. “Mənim əbədi taleyim” adlanan *publisistik xatirələr şairin Heydər Əliyev obrazında Zamanla, Tarixlə* görüşüdür. Silsilə yazılar Heydər Əliyevə həsr edilən epiqrafla başlayıb: “Heydər Əliyev şairi şairdən, yazıçını yazıçıdan qoruyurdu. “Bir-birinizə xeyirxah olun”, – deyirdi.

Şair etiraf edirdi: ağlına gəlməzdi ki, bu böyük tarixi şəxsiyyət onun tərcümeyi-halının ən parlaq səhifələrini təşkil edəcək. Şair onunla olan görüşünü *ədəbi taleyi* hesab edib.

Nəriman Həsənzadə xatırladıb: 1958-ci il idi. Yazıçılar İttifaqı yazıçını Moskvaya, Ali Ədəbiyyat kurslarında oxumağa göndərirdi. O isə Nəriman Nərimanov haqqında iri həcmli əsər yazmaq istəyir, bu məqsədlə KQB ar-

xivində işləyə bilmək üçün sədr Semiçastnı Semyon Kuzmiç adlı rus generalına icazə məktubunu çatdırmaq istəyirdi. Onu qarşılayan Heydər Əliyev olub və məktubu qəbul eləyib. Şair onun portretini belə təqdim edib: "Ucaboylu, şax yerişli, möhkəm bədənli, təbəssümlü, eyni zamanda çox ciddi bir insanla görüşdüm. Qara kostyum geyinmişdi. Ona çox yaraşırdı. Azərbaycan dilində danışdı. O vaxt belə idarələrdə hamını rusca qarşılayır, rusca da yola salırdılar"[970].

İkinci görüşündə N.Həsənzadə *Heydər Əliyevə* N.Nərimanovdan əsər yazdığını bildirib və ondan dəyərli tövsiyələr alıb. Sənətkar poemanı yazdığı müddətdə hələ Mikoyan Moskvada, Kremldə, o biri mikoyanlar isə Bakıda sağ olub, vəzifə tutublar. "Azərbaycanın Mərkəzi Komitəsində, nazirliklərdə, komitələrdə, bizim Yazıçılar İttifaqında, jurnal və qəzet redaksiyalarında sözün hər iki mənasında "işləyirdilər"[971].

Xalq şairinin Nəriman Nərimanova həsr edilən *"Bütün Şərq bilsin"* pyesi Akademik Milli Dram Teatrında tamaşaya qoyulub və tamaşada Heydər Əliyevlə birlikdə Azərbaycan KP MK-nin Büro üzvləri iştirak ediblər.

Pyes müəllifi qadağan olunmuş materialları– Lenin adına Mərkəzi kitabxananın "xüsusi fond"undan Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və Almas İldırımın məhkəməsi aparılmış iclasların materiallarını, Yazıçılar İttifaqından M.C.Bağırovun Bakı Partiya konfransındakı çıxışının mətnini əldə edib və onlardan faydalanıb. Bu mənada N.Həsənzadə dərk edib ki, Heydər Əliyev təkcə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gəlməyib, "həm də mənim və başqa sənət adamlarının əbədi taleyini şər qüvvələrdən qorumağa sanki Haqdan göndərilmişdi"[972]. "Heydər Əliyevin şəxsində mən Nəriman Nərimanovun portretini görürdüm. "Nəriman" poeması mənim əbədi taleyim idi"[973].

Əsər 1968-ci ildə kitab şəklində "Azərnəşr"də çap olunub, lakin qlavlit 1400 misrasını ixtisar edib, "əsərin içindən əsər götürüb". Heydər Əliyev Azərbaycan KP MK-nın Büro iclaslarının birində çıxışı zamanı göstəriş verib ki, "poema necə yazılıbsa, eləcə də çap edilsin"[974]. Fəqət ixtisarlar qlavlitdə itmişdi.

Şair yazıb: "Qədim Romada Horatsi kimi böyük şair həmişə deyirdi ki, kaş mənim şeirlərimi oxuyan dörd-beş nəfərin içində biri də Avqust olaydı. Təbii ki, o, qədim Romada "Ata yurdun atası" sayılan imperator Oktavian

---

[970] Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.12
[971] Yenə orada, s.15
[972] Yenə orada, s.18
[973] Yenə orada, s.18
[974] Yenə orada, s.19

Avqustu nəzərdə tuturdu. nəinki şeirimizi oxuyur, həm də şairi şairdən, yazıçını yazıçıdan, alimi alimdən qoruyurdu"[975]. Müəllif davam etmişdir: "Azərbaycanda sənətin bütün növləri onun vaxtında çiçəkləndi. Onun dövründə yaşayan hər bir sənətkarın yaradıcılıq taleyində Heydər Əliyevin pak ruhu yaşayır"[976].

*"Nəriman"* poeması rus şairi Natan Zlotnikov tərəfindən rus dilinə tərcümə olunub və 1973-cü ildə SSRİ yazıçılarının "Sovetskiy pisatel" nəşriyyatında çapdan çıxıb.

"Bütün Şərq bilsin" əsəri SSRİ üzrə keçirilən pyes müsabiqəsinə təqdim edilib, 600 pyesdən Moskvada tamaşa üçün 11-i seçilib, "Bütün Şərq bilsin" on bir pyesdən biri olub. Əsər V.Mayakovski adına Akademik Dövlət Dram Teatrında (1983) göstərilib, haqqında rus mətbuatı müsbət fikirlər yazıb.

N.Həsənzadənin *"Bütün Şərq bilsin" və "Atabəylər"* pyesləri Dövlət mükafatına təqdim edilib, fəqət reallaşması üçün bir səs "çatmamışdır". Pyesin musiqi bəstəkarı isə Dövlət mükafatı alıb... Heydər Əliyev Akademik teatrda "Hamlet" tamaşasının fasiləsi zamanı çay süfrəsi arxasında səmimi söhbət zamanı deyib ki, "Atabəylər" əsəri hər gün göstərilməyə layiqdir. Bu işi Naxçıvan Teatrı yerinə yetirib, "Atabəylər" "Teatrın pasportu" fəxri adını qazanıb, Heydər Əliyev isə şair taleyinin arxası, dayağı olub.

Xalq şairi Nəriman Həsənzadəni *"Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru* vəzifəsinə Heydər Əliyev təyin edib. "Ədəbiyyat və incəsənət"də baş redaktor işlədiyim müddətdə biz Heydər Əliyevin çıxışlarını qəzet səhifələrində verirdik. Onun elə çıxışı, söhbəti, müsahibəsi olmazdı ki, orada millətin tarixinə, taleyinə toxunmasın, Respublikanın mövcud həyatının canlı mənzərəsi olmasın, ədəbiyyat, mədəniyyət və incəsənət məsələlərindən danışmasın".Heydər Əliyev İ.Nəsimi, M.Füzuli, H.Cavid, C.Məmmədquluzadə, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun, M.Hüseynzadənin heykəllərini qoydurub, Nəriman Nərimanovun heykəlini isə Bakının ən görkəmli yerində, hətta, Rusiyanın Ulyansk şəhərində də ucaltdırıb.

İctimai xadim *respublika Dövlət Mətbuat Komitəsinin sədr müavini* olarkən Azərbaycanda ilk dəfə Tehran mətbəəsilə birlikdə Heydər Əliyevin *"Səsli kitab"ını* nəşr etdirib, bir neçə nüsxəsini isə böyük insanın özünə göndərib.

Şair 1985-ci ilin avqust ayında Heydər Əliyevlə Moskvada, "Novo-deviçye" qəbiristanlığında Zərifə xanımın məzarı üstündə görüşüb və Zərifə

---

[975] Yenə orada, s.27
[976] Yenə orada, s.27

xanıma həsr etdiyi şeirini oxuyub və əlyazmasını ona çatdırıb. Görüş təsadüfən baş veribdir. N.Həsənzadə bir dəstə qızılgüllə məzarı ziyarətə gedib, bir saat sonra Ulu Öndər də təsadüfən ora gəlib, gözlənilmədən görüşüblər.

Sənətkar 1 avqust 1991-ci ildə Bəxtiyar Vahabzadə, Rüstəm Əliyev və Qasım Qasımzadə ilə birlikdə Naxçıvanda Heydər Əliyevin görüşündə olub, millət, vətən yolunda sarsıntılar keçirən bu tarixi şəxsiyyətin necə möhkəm iradəyə və ruh yüksəkliyinə sahib olduğunu görüb milli qürur hissi keçiriblər.

N.Həsənzadə Heydər Əliyevlə İstanbulda da təsadüfən görüşüb. O zaman o, Respublika Ali Sovetinə deputat seçilib. Heydər Əliyev isə Naxçıvan-İqdır Dostluq körpüsünü çəkdirib.

Ulu öndər xatırladıb ki, XIX əsr xalqımızın həyatında maraqlı və zəngin dövr olmuş, lakin M.F.Axundzadənin “Puşkinin ölümünə Şərq poeması”ndan başqa heç bir əsər yazılmayıb. Şair bu fikri əsas tutaraq uzun müddət *“Zümrüd quşu”* adlı epik-dramatik poema üzərində işləyib. Mövzu böyük rəhbərdən gəlibdir. Həmin əsərə görə Heydər Əliyev Nəriman Həsənzadəyə “Əməkdar incəsənət xadimi” fəxri adını verib.

Xalq şairi *“Kimin sualı var?”* poemasını *“Qoy ədalət zəfər çalsın”* – Heydər Əliyevin iş prinsipindən, yaradıcılıq üslubundan ilham alaraq yazıb.

N.Həsənzadə bu əsəri Heydər Əliyevin yubileyinə həsr edib. Lakin əsər kimlərəsə xoş gəlməyib, şairi “yoldaşlıq məhkəməsinə” veriblər, hətta həbsini lazım biliblər. İttiham çox ağır olub. Guya əsər Birincinin əleyhinə yazılıb... Lakin şairin “başına açılan bu oyunların qarşısını alan yeganə dayaq Heydər Əliyev olmuşdu”[977].Əlbəttə, Nəriman Həsənzadənin qələm dostları da var idi. Lakin onu xilas edən respublikada böyük nüfuz və söz sahibi mərhum akademik Həsən Əliyev olub. 2 il sonra poema kitab halında nəşr edilib. X.R.Ulutürk mətbuatda geniş məqalə ilə çıxış edib və yazıbdır: “Kimin sualı var?” poemasını yalnız Nəriman yaradıclığının deyil, Azərbaycanın çağdaş poeziya mədəniyyətinin ən parlaq incilərindən biri adlandırmaq olar”[978].

Heydər Əliyev ilk dəfə Naxçıvandan Bakıya gəlirdi. O, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə və daha üç nəfərə xəbər çatdırıb, lakin bu iki şair aeroporta yola düşüb, Heydər Əliyevlə orada görüşüb, dahi şəxsiyyət Bəxtiyar Vahabzadənin maşınına minib, Nəriman Həsənzadə isə akademik Cəlal Əliyevin maşınında onun evinə gəlibdir.

Moskva Şəhər Sovetinin Sütunlu salonunda xalq şairi Səməd Vurğunun

[977] Yenə orada, s.81
[978] Yenə orada, s.88

təntənəli yubiley gecəsi keçiriləndə N.Həsənzadə Heydər Əliyevdən dəvət alıb, Rəyasət Heyətində əyləşdirilib...

C.Cabbarlının abidəsi yeganə heykəl olub ki, bütöv qranitdən yoğrulubdur. H.Əliyev onu vaxtilə Kiyev şəhərindən bütöv gətirtdirib.

Dövlət başçısı Hüseyn Cavidin sümüklərini Sibirdən Azərbaycana gətirtdikdən sonra, Füzulinin də sümüklərini Kərbəladan Azərbaycana gətirtdirmək istəyibdi. "O, böyük ideallarla yaşayan, xalqının sabahını düşünən və onunla fəxr edən şəxsiyyət idi"[979].

Nəriman Həsənzadə *"Xarı bülbül"* poemasını M.P.Vaqifin 200 illiyi münasibətilə yazıb. Görkəmli şairin abidəsinin açılışına, Şuşa şəhərinə dəvət alıb, abidə önündə çıxış edib. Lənkərana ilk məhsul bayramına gedəndə də Heydər Əliyevdən böyük diqqət görüb. Məclisə daxil olanda "Heydər Əliyev öz qarşısında boş olan yeri ona göstərib və: "– Otur çörəyini ye", – deyib. "Heydər Əliyev özüylə şəhərdən gətirdiyi adamların yerbəyer olunduğunu biləndən sonra süfrəyə əl uzatdı"[980].

Xalq şairi *"Ulu öndər Heydər Əliyev xalqımızın mütəfəkkir və ziyalılarının xatirəsini həmişə uca tuturdu"* məqaləsini 12 dekabr 2008-ci ildə "Azərbaycan" qəzetində dərc etdirib. Məqalədə göstərilirdi ki, Heydər Əliyev "Uzaq sahillərdə", "Yanar ürək", "Ulduzlar sönmür", "Nəsimi", "İstintaq" kimi filmlərin və bədii əsərlərin yaranmasının təşəbbüskarı olub. Böyük rəhbərin təklifi ilə "Doktor Nərimanov", "Nəsimi", "İstintaq" filmləri Dövlət Mükafatı alıb. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə və onların əsərlərinin "azadlığında" Ulu öndərin əvəzsiz rolu olub.

Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra tarixi yerlərə, abidələrə, qədim tikililərə diqqət yetirib. Böyük öndər deyib: "Mən Azərbaycan Prezidenti kimi Sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanı, onun tarixini, mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kəsə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaq. Bununla bildirmək istəyirəm ki, indi müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var"[981].

Heydər Əliyev yarım milyondan artıq soydaşımız yaşayan qonşu Gürcüstanla əlaqələri yaxşılaşdırmağa çalışıb, azərbaycanlılara məxsus tarixi abidələri, Nəriman Nərimanov və Cəlil Məmmədquluzadənin Tiflisdəki ev-muzeylərini himayəyə götürməyə tapşırıq verib. Nəticədə həmin muzeylər

---

[979] Yenə orada, s.91
[980] Yenə orada, s.103
[981] Yenə orada, s.270-271

respublika Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə verilib.

1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə böyük mütəfəkkir M.F.Axundzadənin büstü bərpa edilib, M.Ş.Vazehin məzarı sahmana salınıb, qəbirüstü abidəsi düzəldilib. AXC qurucularından olan Fətəli xan Xoyskinin itib-batmaqda olan məzarı tapılıb, qəbrinin üstü götürülüb, büstü ucaldılıb. Eləcə də Həsən bəy Ağayevin heç kimə məlum olmayan məzarı tapılıb, büstü ucaldılıb və axirət evinin ətrafında abadlıq işləri aparılıb. Bu barədə Heydər Əliyevi məlumatlandıranda tapşırıb ki, elə indidən geri qayıdıb, orada keşik çəkilsin. "Səhər isə Tbilisi cümə məscidinin axundunu da götürüb müsəlman adət-ənənəsi ilə deputatlarımızın və digər ziyalılarımızın iştirakı ilə Fətəli xan Xoyskinin də qəbrinin M.F.Axundzadənin büstünün yanına köçürülməsini təmin edib. Fətəli xan Xoyskiyə xüsusi məhəbbəti olan Ulu öndər 1996-cı il mart ayının 9-da Gürcüstanda olarkən dövlət xadiminin büstünün açılışında iştirak etmişdir"[982].

Heydər Əliyev M.F.Axundzadənin ikimərtəbəli möhtəşəm mülkünü erməni, erməniqarışıq gürcü ailələrindən geri aldırıb, onu bərpa etdirib, mənzilləri məişət əşyaları və eksponatlarla zənginləşdirmiş, adına layiq ev-muzeyi yaradılmışdır. "Sonralar bu ünvan gürcüstanlı azərbaycanlıların Mədəniyyət Mərkəzinə çevrilmişdir"[983].

Böyük rəhbərin təşəbbüsü ilə Tbilisidə teatr truppası yaradılıb. "Gürcüstan" qəzeti yenidən fəaliyyətə başlayıb. "Heydər Əliyevin uzaqgörənliyi nəticəsində bərpa olunmuş tarixi abidələrimizin, yaradılmış muzeylərimizin xalqımızın mülkiyyətinə çevrilməsi hamımızı sevindirir. Bu baxımdan Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev irsinə sadiq olaraq Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və orada xiyabanın yaradılması barədə irəli sürdüyü təşəbbüs təqdirəlayiqdir"[984].

Xalq şairi Nəriman Həsənzadənin yazısı xatirədir, sadə və səmimidir. Bu yazılarda Heydər Əliyevin *şəxsi obrazı real, təbii, həyati olanlardan* yaradılıb.

Xalq şairi *Fikrət Qoca* 60 illik yubiley gecəsində *(26 iyun 1995)* Ulu öndərə təşəkkürünü, müalicə üçün Moskvaya gedərkən yaratdığı şəraitə görə dərin minnətdarlığını bildirib: "Bu gün yaşadığıma görə Heydər Əliyevə minnətdaram",– deyən şair "Azərbaycan" qəzetinə müsahibəsində Heydər

---

[982] Yenə orada, s.274
[983] Yenə orada, s.274
[984] Yenə orada, s.278-279

Əliyevin 150 nəfər ədəbiyyat və incəsənət xadiminə 1 milyon 500 min manat ömürlük təqaüd ayırmasını xatırladıb, bunu böyük ürəyin böyük səxavəti kimi qiymətləndirib. Şair Heydər Əliyevin respublikaya birinci katib gələndən sonra sənətkarlara göstərdiyi xeyirxahlığı, etdiyi tövsiyələri xüsusilə dəyərləndirib.

F.Qoca yazıb: "Mən daim dövlət başçımızın qayğısını öz üzərimdə görmüşəm. O, SSRİ-nin rəhbərlərindən biri olarkən ağır xəstəlik keçirirdim... Müdrik siyasətçi mənim müalicəmlə xüsusi maraqlanırdı. Hətta, Moskvada cərrahiyyə əməliyyatından qabaq şəxsən zəng vurub mənə ürək-dirək verib, "Qorxma, dünyanın ən yaxşı həkimini gətirtmişəm," – deyib. Bu onun borcu deyildi: sadəcə, ürəyi xalqına məhəbbətlə dolu idi"[985]– deyə şair könül riqqətini ifadə edib. Fikrət Qoca Heydər Əliyevə 2 şeir həsr eləyib, Heydər Əliyev ona Əməkdar incəsənət xadimi, Xalq şairi fəxri adları, "Şöhrət" ordeni, fərdi təqaüd verib.

Xalq şairi *Sabir Rüstəmxanlının* 50 illik yubileyi keçiriləndə *(23 may 1996, Azərbaycan Dövlət Opera və Balet Teatrı)* Heydər Əliyev onu "Şöhrət" ordeni ilə təltif edib... Böyük rəhbərin təbrik məktubu oxunub, Sabir Rüstəmxanlı ədəbiyyatımıza göstərdiyi qayğıya görə ona təşəkkürünü bildirib.

Xalq şairi, Milli Məclisin üzvü Sabir Rüstəmxanlı görüşə görə Ümummilli liderə minnətdarlığını ifadə edib, söhbətini müstəqil dövlətin müstəqil mənəviyyatı məcrasında qurub və deyib: "Yalnız mənəviyyat sahəsində söhbət qurulanda onda bu görüşün mənası daha aydın görünür. Çünki müstəqil dövlətimiz var, müstəqil dövlətimizin müstəqil ideologiyası var. Amma təəssüf ki, mənəviyyat məsələlərinin tam formalaşması, köhnə totalitar rejimdən, imperiyadan qopub yeni müstəqil dövlətə keçiddə bu sərbəstliyə, müstəqilliyə, bu müstəqilliyin gətirdiyi əziyyətlərə dözmək və bunların bədii ifadəsini ədəbiyyata gətirmək çox çətin məsələdir. Halbuki bu, çox zəruridir. Burada Azərbaycan mənəviyyatı, ədəbiyyatı ətrafında açıq söhbət gedir"[986].

Sabir Rüstəmxanlı Heydər Əliyevin ədəbiyyat və mədəniyyət siyasətinə münasibətini ifadə edərək deyib: "Mən 1969-cu ildən bəri Azərbaycanda keçirilən bütün yubileyləri – yazıçıların, böyük mədəniyyət xadimlərinin yubileylərini yadıma salıram. Mən repressiya qurbanlarına Sizin verdiyiniz bəraətləri və bu işlərin son nəticəsi, zirvəsi, nida işarəsi kimi Naxçıvanda ucaldılan Hüseyn Cavid məqbərəsini, sülh şəraitində yaşayan heç bir dövlə-

[985] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.238

[986] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.307

tin edə bilməyəcəyi bir səviyyədə Füzulinin müharibə şəraitində keçirilən 500 illik yubileyini, Səməd Vurğunun yubileyini və son vaxtlar keçirilən digər yubileyləri yadıma salıram. Eyni zamanda bizim mənəvi irsimizə münasibəti, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması haqqında Sizin fərmanınızı, mədəniyyətimizlə bağlı başqa tədbirləri yadıma salıram və fikirləşirəm ki, kaş Siz Azərbaycana müharibə dövründə rəhbərlik etməyəydiniz. Kaş dinc vaxt olaydı və mən təsəvvür edirəm ki, onda mədəniyyətə, ədəbiyyata Sizin nə qədər böyük vaxtınız qalardı və Azərbaycan mənəviyyatı Sizin rəhbərliyinizlə nə qədər böyük uğurlar qazanardı. Çünki doğrudan da, Siz fikrinizin bütün siyasi yönləri ilə yanaşı, əslində həm də böyük mədəniyyət adamısınız"[987].

Sənətkar Heydər Əliyev iradəsinə, əmin-amanlığın bərpa ediləcəyinə ümidini ifadə edərək deyib ki: "Azərbaycanın siyasi həyatında, belə deyək, Sizin siyasi mübarizənizlə son illər gözümüzün qabağında baş verən irəliləyişlər xalqımızın hazırki münaqişədən çıxmasına real mühit yaradır. Ona görə də hesab edir ki, indi mədəniyyət və mənəviyyat haqqında düşünməyə bir az daha çox vaxtımız qalacaqdır"[988].

Şair Sabir Rüstəmxanlı Heydər Əliyevin xatirinə Moskvaya yolu düşdüyü zaman şahidi olduğu bir faktı xatırladıb: Sosialist Əməyi Qəhrəmanları Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza və Süleyman Rüstəmin Yazıçılar İttifaqında, ədəbiyyatçılar evində şəkillərinin divarda qalmasını. Hesab edir ki, bütün bunlar Heydər Əliyevin xidmətidir, onun vaxtında olan bir işdir. o zamanın xalq hərəkatına münasibətini bildirib, onu dəyərləndirərək deyib: "Xalq hərəkatı Azərbaycanın milli yaddaşını oyatdı, xalqın fikrini milli ideallarımıza yönəltdi. Azərbaycanın müstəqilliyinin təməlini qoydu, üçrəngli bayrağımızı qaytardı. Təbii ki, onun içində qüsurlu, başa düşməyən, təcrübəsiz adamlar da var idi. Amma bu, milli yaddaşı qaytaran bir hərəkat idi. O hərəkatda iştirak edənlər arasında Sizi sevməyənlər də, bəyənməyənlər də var idi. Amma işin o gərgin vaxtında Sizi sevən adamlar da var idi".[989]

Sənətkarın Heydər Əliyevə xitabı siyasi xarakterli, psixoloji-mənəvi zəminlidir. Onun Heydər Əliyevin siyasi obrazına verdiyi rənglər özünəməxsusdur, – klassik irsə, keçmişə nihilist münasibətə etirazın ifadəsidir. Şair xatırladıb ki, 1969-cu ildən üzü bəri Heydər Əliyev haqqında soyuq bir cümlə də yazmayıb.

---

[987] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.307
[988] Yenə orada, s.307
[989] Yenə orada, s.308

Natiq Ulu öndərin hakimiyyətdə olmadığı illərin faktlarına diqqət çəkib, bildirib ki, Heydər Əliyev Moskvada, Naxçıvanda olanda da ona mənəvi cəhətdən dəstək olub, o səbəbdən ki, həm də Azərbaycan yazıçısı mənəvi rahatlıq, öz torpağında əmin-amanlıq istəyib. Sabir Rüstəmxanlı: "Azərbaycan yazıçılarının böyük əksəriyyəti görür ki, bu siyasət meydanında Sizi əvəz edən adam yoxdur. Onlar bunu görüblər və haqqı müdafiə ediblər. Əslində burada Sizin müdafiənizdən söhbət getmir. Onlar rifahlığı, Azərbaycanın gələcəyini müdafiə ediblər"[990], – deyə bildirib.

19 dekabr 1998-ci ildə Respublika sarayında Xalq şairi *Zəlimxan Yaqubun* poeziya gecəsi keçirilib. Şair Heydər Əliyevə müraciətində deyib: "Möhtərəm prezident! İnandığımız uca Allah, güvəndiyimiz qadir Allah Sizi ömrünüzün zirvəsinə çox böyük uğur və ləyaqətlə qovuşdurdu. Böyük Yaradanın Sizə bəxş elədiyi bu ömür bir evə, bir ocağa, bir nəslə qapanıb qalmadı. Damladan dəryaya, zərrədən küllə, qığılcımdan alova çevrildi – Azərbaycana, Türk dünyasına, qoca Şərqə, müsəlman dünyasına, insan aləminə şərəf və baş ucalığı gətirdi. Bütün dünyanın dövlətləri və millətləri, xalqları və dövlət başçıları, adı öz sağlığında tarixə çevrilmiş görkəmli elm və sənət adamları Sizi öz yanında görməkdən qürur duydu, şərəf hissi keçirdi"[991].

Sənətkar Heydər Əliyevin elit şəxsiyyət keyfiyyətlərinin əsasında *titanik zəhmətin* dayandığını xüsusi vurğulayıb: "Qazandığınız bu əfsanəvi şöhrət pillələri Sizə hazır şəkildə göydən hədiyyə kimi gəlmədi, yuxusuz gecələrin, sonsuz arzuların, böyük ideallarin, qeyri-adi dərəcədə rəngarəng və çoxçalarlı qabiliyyətin, yaddaş tariximizdə möcüzə səviyyəsinə yüksələn yaddaşın, siyasi təfəkkür zənginliyinin bəhrəsi oldu"[992].

Zəlimxan Yaqub Ulu öndərin hakimiyyətini *Sözün hakimiyyəti* kimi qəbul edib. Hesab edib ki: "Dədə Qorqudun və Nəsiminin, Füzulinin və Aşıq Ələsgərin, Səməd Vurğunun və Osman Sarıvəllinin, Rəsul Rzanın və Şəhriyarın, dünya azərbaycanlılarının milli bayramı səviyyəsində qeyd olunan yubileyləri ictimai fikir tariximizdə əbədi qalacaq, tarixin yaddaşından heç vaxt silinməyəcək"[993].

Şair dövlət və xalqını özünün qürur mənbəyi bildiyi Heydər Əliyevi "möcüzə, tarixi hadisə, qətiyyətin təntənəsi, Allahın vergisi, xalqın xoşbəxtliyi, tarixin şöhrəti, zamanın əfsanəsi" kimi qiymətləndirib:

---

[990] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.308
[991] Zəlimxan Yaqub. Əsərləri.13 cilddə.XII cild,Bakı,"Şərq-Qərb", 2013, s.5
[992] Yenə orada, s.5
[993] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə.XII cild, Bakı,"Şərq-Qərb", 2013, s.6

Səsini dinlədi bu yurd, bu ölkə,
Addımın şax oldu, yerişin aydın.
Məmləkət özünə gəlməzdi bəlkə,
Yenidən kürsüyə qayıtmasaydın.

Zəlimxan Yaqub dahi rəhbərin siyasi səbatını müqayisə əsasında daha yüksək dəyərləndirib: "XX əsrin ikinci yarısında gürcü xalqı beynəlxalq miqyaslı siyasətçi, gürcü xalqını bəlalardan qurtaran, yanğınlardan, dağıntılardan xilas edən Şevardnadzeni millətə bəxş elədisə, Azərbaycan xalqı dünyanın hər yerindən görünən, özü də çox aydın görünən, səsi çox gur eşidilən, ölüm-qalım məsələsi ilə həll olunan Azərbaycan dövlətinin və xalqının xilaskarı Heydər Əlirza oğlunu millətə bəxş elədi"[994].

Şair *"Respublikanın təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda çıxış"ında* Səməd Vurğun, Bəxtiyar Bahabzadə, Hüseyn Arif, Xəlil Rza, Məmməd Araz kimi sənətkarlardan, dini kitablardan, tarixi şəxsiyyətlərdən qiymətli nümunələr gətirib, Azərbaycan dövlətinin keçdiyi çətin yolları xatırladıb, Ulu öndərin bu sahədəki xidmətlərinə işıq tutub, onun Cahanşümul əməllərini diqqətə çəkərək dahi Azərbaycan oğlunun ölməzliyini ürək dolu sözlərlə ifadə edib. Sənətkar birlik və həmrəyliyi dərdlərimizin əlacı bilib və deyib: "...Həyat amansızdır, cəmiyyət qəddardır, getdikcə dünya pisləşir, elmi-texniki tərəqqi cəmiyyətin faciələrini hər gün çoxaldır. Belə bir vaxtda ayıq olmaq, sərrast fikirləşmək, dürüst addımlamaq, şax yerimək, təmiz yaşamaq, ürəyi vətən məhəbbəti ilə doldurmaq lazımdır ki, bu çətinliklərə qalib gələk. Zarafat olmaz dövlətlə, zarafat olmaz dövlətçiliklə, zarafat olmaz müstəqilliklə. Çünki düşmənlərimiz, bizi istəməyənlər çoxdur. Onların qarşısına ən güclü şəxsiyyətlə, ən güclü ordu ilə, ən yüksək səviyyədə birləşmiş millətlə çıxmaq olar"[995].

Ulu öndər Heydər Əliyevin başçılığı ilə Qırğızıstana – "Manas" dastanının minilliyinə və türkdilli dövlətlərin zirvə toplantısına gedən nümayəndə heyərinin tərkibində olmuş Zəlimxan Yaqub yazıb: "Türkdilli dövlətlərin başçıları Süleyman Dəmirəli, Heydər Əliyevi, Nursultan Nazarbayevi, Səfərmurat Niyazovu, İslam Kərimovu, Əskər Akayevi öz işığında birləşdirən xalq qəhrəmanı Manas elə bil ki, min ildən sonra yenidən dirilib öz nəvə-

[994] Yenə orada, s.16
[995] Zəlimxan Yaqub. Qırğızıstanda yaşadığım duyğular. Əsərləri. 13 cilddə. XII cild, Bakı, "Şərq-Qərb", 2013, s.24

nəticələrinin görüşünə gəlmişdi. Bu görüş hər bir türkü, hər bir qırğızı o günü Manasa döndərmişdi”[996].

Zəlimxan Yaqub “*Yeni Azərbaycan naminə*” *ictimai hərəkatın təsis konfransındakı çıxış”*ında Heydər Əliyev şəxsiyyətinin əzəmətini və tarixi əhəmiyyətini bir daha ifadə edib: “Heydər Əlirza oğlu Azərbaycan xalqının əvəzolunmaz bir şəxsiyyətidir. Təkcə bu gün yox, dünən yox, sabah yox, bütün əsrlərə, XX əsrə boylananda Heydər Əliyev şəxsiyyətinə baxıb Azərbaycan tarixini yazacaq, yaradacaqlar”[997].

Müəllif “*Ürək nəğmələri, könül sözləri*” məqaləsində Heydər Əliyevə məhəbbətindən, ona həsr etdiyi əsərlərindən söz açıb: “Allahın mənə verdiyi ömür davam elədikcə bu əsər də davam edəcək. Çünki Heydər Əliyevin ömründə həmişə davam edən bir tükənməzlik var. Ona görə də düşündükcə düşündüm, yazdıqca yazdım. Axı mən vicdanım, Allahım və Heydər Əliyevin ruhu qarşısında söz vermişdim:

Nə qədər ki, canda ruh var,
Ruhda can var, yazacağam!
Nə qədər ki, səni sevən,
Səni duyan Zəlimxan var,
Yazacağam!”

Sənətkar böyük rəhbərin usanmaz fəaliyyətindən, əzəmətli şəxsiyyətindən, “onun torpaq kimi əkilən, toxum kimi səpilən, çiçək kimi öpülən mübarək ömründən”[998] yazıb.

Zəlimxan Yaqub Heydər Əliyevin ədəbiyyat və mədəniyyətimizə sərf etdiyi ömür anlarını dilə, sözə gətirib, Dədə Qorquda olan sevgisindən, Füzuliyə olan heyrətindən, Ələsgərə olan məhəbbətindən, Şəhriyara olan həsrət və rəğbətindən, Mirzə Cəlilə olan sədaqətindən, Vurğuna olan hörmətindən yazıb. Qarabağda Vaqifin məqbərəsinə, Naxçıvanda Cavidin türbəsinə dönən, Bakıda Nəsiminin, Nərimanın, Cabbarlının heykəllərinə çevrilən, heykəlləşən ömründən-günündən yazıb:

Göylər üçün yaranıb üfüqlərin şahini,
Analardı yetirən yenilməzi, dahini.
Özünə dost elədi Tanrını, İlahini.
Tanrılara qovuşan, fələklərə yetəndi.
Nə qədər zirvələr var, hamısını ötəndi
Ömrün Heydər zirvəsi!

[996] Yenə orada, s.34
[997] Yenə orada, s.76
[998] Zəlimxan Yaqub. Əsərləri.13 cilddə.XII cild, Bakı,“Şərq-Qərb”,2013, s.80

Zəlimxan Yaqub Ulu öndərin torpaq, bayraq, ocaq, Atabəy Məhəmməd, Əcəmi Naxçıvani, Şah İsmayıl Xətai, Üzeyir bəy sevgisindən, "Mən Azərbaycanam" deyən millət və dövlət sevgisindən yazıb.

Şair Heydər Əliyevi addım-addım izləyib, sözünə söz, nəfəsinə-nəfəs verib gördüyü bütün işləri sözə çevirib: "Sevdiyim, seçdiyim, əzizlədiyim, yüksək qiymət və dəyər verdiyim Xəlil Rza şeirinin vulkanından, Məmməd Araz şeirinin tufanından, Zəlimxan şeirinin meydanından, Onu yaradan Allahın qüdrətindən, Onu yetirən Tanrının səxavətindən, onu yaşadan torpağın bərəkətindən, Onu ucaldan xalqın ucalığından, Allahın ona verdiyi ömrün əbədiyyətindən"[999] yazıb.

Zəlimxan Yaqub zəmanəsi, vicdanı, gələcəyi qarşısında hesabat vermək istəyib: "Sabah zaman məndən soruşanda ki dövründə, zamanında yaşadığın, tükənməz qayğılarını gördüyün, dəfələrlə əllərini sıxan, dönə-dönə əllərini sıxdığın, səni Vətənin uca mükafatlarıyla şərəfləndirən, tarixi səfərlərdə səni yoluna yoldaş eləyən, məclislər başında şairə yol göstərən Ulu Öndər, böyük insan Heydər Əliyevlə bağlı nə yazmısan, nə yaratmısan? – onda mənim zamana cavabım bundan ibarət olacaq: *"Böyük ömrün dastanı"* və *"Böyük ömrün davamı"* adlı iki əsəri birləşdirən *"Əbədiyyət dastanı"nı,* əbədiyyətə doğru yol gedən könül nəğmələrini yaratmışam!"[1000]

Doğum günü var olsa da,
Ölüm günü yoxdu, yox.
Ölümlərə qılınc çəkən
Bir insanı yazmışam.
Dastan mənə dayaq olub,
Mən dastanı yazmışam.
Onu görüb, onu duyub,
Onu sevib həyatda
Zəlimxanın içindəki
Zəlimxanı yazmışam.

Sənətkar Heydər Əliyevə həsr etdiyi dastanın yazılma səbəblərini nağıllarda olduğu kimi buta almaqla, yuxu görməklə, öyüd-nəsihət, tapşırıq almaqla nurani-pirani, aqil bir qocadan almaqla və bu vəsiyyətə əməl etməklə göstərib:

---

[999] Yenə orada, s.81

[1000] Zəlimxan Yaqub. Əsərləri.13 cilddə.XII cild, Bakı,"Şərq-Qərb",2013, s.82

Gör sənə nə qədər güc verib Allah,
Sən də öz gücünü bu əsərə ver.
Onun havasına, onun eşqinə,
Səsini ən odlu nağmələrə ver.
Sənə bu kitabı bir göndərən var,
Dincəlmə, yuxulama, uyuma oğul,
Qələmdən od yağsın, varaqdan atəş,
Soyuma, soyuma, soyuma, oğul, – *deyib.*

Zəlimxan Yaqub dövlət, millət və lider birliyini əsas götürərək Heydər Əliyev və İlham Əliyevlərin ucalara qaldırdıqları bayrağı həm real, həm də rəmzi mənalarda təcəssüm etdirib: "O bayraq müstəqil Azərbaycanın, bu müstəqilliyi qorumaq üçün bütün varlığını dövlətə, dövlətçiliyə, xalqa, millətə həsr edən, xalqın azadlığını böyük çaxnaşmalardan sağ-salamat çıxaran, özündən sonra gələn nəsillərə müqəddəs əmanət kimi təqdim edən Ulu Öndərin, Ümumilli Liderin, böyük xilaskarın, ilhamlı qurucunun və onun ləyaqətli varisi möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyev cənablarının göylərin yeddinci qatına qaldırdığı Azərbaycan bayrağıdır!"[1001]

Zəlimxan Yaqub "*Xalq şairi Bəxtiyar Vahabzadənin dəfn mərasimindəki vida sözü*"ndə deyib: "Bütün şüurlu həyatını, varlığını, poeziyasını, yaradıcılığını Dövlətə, Millətə, xalqa, milli şüura, milli təfəkkürə, türk ruhunun dünyada bərqərar olmasına, dilimizin saflığına həsr edən, qırmızı bir imperiya ilə döyüşmək cəsarətinə sahib olan Bəxtiyar Vahabzadə bütün ömrü boyu Azərbaycanın istiqlalı və müstəqilliyi uğrunda mübarizə apardı. Ulu Öndərimiz, Ümumilli Liderimiz Heydər Əliyevin: "Mən bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidməti böyükdür"– fikri bu dünya durduqca öz qüvvəsində "qalacaq, tarixi əhəmiyyətini itirməyəcək"[1002].

"*Türk düşməninə türk qapısı açmaq olmaz*" məqaləsində Zəlimxan Yaqub diqqəti Heydər Əliyevin Azərbaycan və Türkiyə birliyinə doğru yönəltmiş və vacib bir siyasi faktoru vurğulayıb: "Ulu Öndər Heydər Əliyev Azərbaycanla Türkiyəni "bir millətin iki dövləti" adlandırmaqla böyük Atatürkün "Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri isə kədərimizdir" çağırışını XXI əsrin məzmunu və siyasəti ilə tamamladı. Ümumilli Lider Heydər Əliyev az qala dünyanın yarısı ilə mücadiləyə girib yeni Şərq-Qərb neft kəmərinin Türkiyədən keçməsini təmin etdi. Bu günlərdə Türkiyə və

---

[1001] Zəlimxan Yaqub. Əsərləri.13 cilddə. XII cild, Bakı,"Şərq-Qərb", 2013, s.84
[1002] Yenə orada, s.85

Azərbaycan prezidentləri Abdullah Güllə İlham Əliyevin görüşündə ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyəyə qalxması bəyan edildi. Belə olan halda düşmən təxribatına uyub quldur erməni dövlətinə qapı açmaq olarmı”[1003].

Zəlimxan Yaqubun əhəmiyyətli bir məqaləsi də var: “*Dərbənddə deyirlər, qardaş, Sizdən çörək istəmirik, pul istəmirik*”. Bu məqalədə şairin bütün türk məmləkətlərinə səfərləri ifadəsini tapıb. Xalq şairinin türk-turan dünyasını gəzməyinin səbəbi Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında “Salnamə” kinostudiyasının sənədli film çəkməsidir. Çəkiliş Zəlimxan Yaqubun 60 illik yubileyi münasibətilə hazırlanmışdır. Filmin ssenari müəllifləri Xalq yazıçısı Mövlud Süleymanlı və professor Aydın Dadaşov, rejissoru isə Tofiq Məmmədovdur. Veriliş Zəlimxan Yaqub yaradıcılığının qaynağını, fitrətini təşkil edən türk-turan dünyasının Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Gürcüstan, Türkiyə, Rusiya, İran, Təbriz, Bakı – bütün türk dünyasını əhatə etmiş, şair Dərbənddə dağın döşündəki Dərbənd qalasını, Divan ədəbiyyatının görkəmli nümayəndəsi Qumri Dərbəndinin türbəsini, Türküstanda Turan dünyasının böyük övliyası, 99 minə mürşidlik etmiş Əhməd Yəsərinin məzarını, Səmərqənddə Əmir Teymurun məqbərəsini, Qırğızıstanda Çu vilayətinə sürgün olunanların nəslini (F.Xoyski, Ə.Rəfibəyli, Ə.Şıxlınski və başqalarının), Çingiz Aytmatovun məzarını ziyarət edib. Şair yazıb: “Təsəvvür edin ki, mən Zəlimxan Yaqub boranlı Yedigey – Çingiz Aytmatovun – Qazanqapın məzarı başında həmin duaları oxudum. Böyük ustad bizi kökümüzə, türk dünyasına, türk mifologiyasına bağlayan dünyanın böyük yazıçısı, sənin qarşında bir türk oğlu türk baş əyir”[1004].

Zəlimxan Yaqub Türkiyədə, Bayburdda “Dədə Qorqud” tədbirində çıxış edib, Dədə Qorqudun 1300 illiyi münasibətilə Ulu öndərin Sərəncamını xatırladıb, şair “Azərbaycanın yaddaşını, tarixini, sazını, sözünü, oğuzunu, qopuzunu, toppuzunu özündə birləşdirib hara gedirdi aparırdı və səpələyirdi toxum kimi”[1005].

Sənətkar Borçalıda *“Kəpənəkçi günləri”* keçirib, Şəkidə Molla Cumanın məzarını, Bəxtiyar Vahabzadənin xatirə gününü yad edib: “Bu gün Azərbaycan ziyalıları Türkiyəyə, Mosula, Kərkükə, Borçalıya, Dərbəndə, Təbrizə çox getməlidir. Və Türküstana daha çox getməlidirlər. Adını çəkdiyim ərazilərin hamısı Azərbaycana birbaşa aiddir... Kərkük də, Mosul da,

[1003] Zəlimxan Yaqub.Əsərləri.13 clddə. XII cild, Bakı, “Şərq-Qərb”, 2013, s.102
[1004] Yenə orada, s.199
[1005] Yenə orada, s.200

Borçalı da, Dərbənd də, Qazax da, Şəki də, Şirvan da – hamısı eyni nəfəs, eyni ruhdu... Azərbaycan ziyalısının vəzifəsi ayrı düşmüş bədənlə ruhu birləşdirmək uğrunda mübarizə aparmaqdır”[1006].

Ulu öndərin ədəbiyyatımızın yaşlı nəslinin nümayəndələri ilə görüşündən maraqlı detalları da xatırlatmaq yetərlidir. 28 oktyabr 1997-ci ildə Heydər Əliyev respublika yazıçılarının X qurultayı ərəfəsində Prezident sarayında bir qrup yaşlı yazıçı və şairi qəbul edib, həmin görüş zamanı Mirvarid Dilbazi, Elçin, Qabil, Sirus Təbrizli, Sabir Rüstəmxanlı və başqaları çıxış edib, Heydər Əliyevə məhəbbətini ifadə eləyiblər.

Xalq şairi, yazıçı və dramaturq *Vaqif Səmədoğlu “Allaha şükürlər edək ki, bizim Heydər Əliyevimiz olub”* məqaləsində böyük öndərin kimliyini, şəxsiyyət ucalığını obrazlaşdırıb.

Vaqif Səmədoğlu Heydər Əliyevin 1993-cü ildəki lider varlığının zərurətindən danışıb, onu ilk əvvəl *general kimi* təqdim edib: “General kimdir? Qətiyyətli, əmr vermək və adamları arxasınca aparmaq bacarığına malik şəxs...”[1007]

Müəllif məqalədə Heydər Əliyevin 1969-cu ildən 1987-ci ilədək olan dövründən geniş bəhs edib, bu güclü şəxsiyyət Moskvaya çağrılanda (1982) Elçibəylə Vaqif Səmədoğlu şərəfinə badə qaldırıb, Əbülfəz Elçibəy deyib: “Hamımız bu kişinin şəklini kabinetimizdə divara vurmalıyıq. O, bizi ermənilərin, gürcülərin, rusların və başqalarının kölgəsindən çıxarıb”. Vaqif Səmədoğlu yazıb: “Heydər Əliyev rəhbərliyə gəldikdən sonra respublikanı kölgədən çıxartdı. İlk növbədə qonşularımızın – Ermənistan və Gürcüstanın kölgəsindən. Əliyev hətta Şevarnadzedən də əvvəl Siyasi Büroya namizəd və üzv seçildi. Amma ermənilərdən bir nəfər də olsun, bu şərəfə layiq görülmədi”[1008].

Böyük rəhbər *Azərbaycanda dissident hərəkatının yaranmasına* imkan verməyib. Vaqif Səmədoğlu: “Heydər Əliyev Azərbaycan KP MK-ya rəhbərlik edəndə bizim ədəbi jurnallarda elə əsərlər dərc edilirdi, nəşriyyatlarda elə ədəbi kitablar buraxılırdı ki, hətta avropalılığı ilə lovğalanıb sinəsinə döyən Baltikyanı respublikalar da həmin şeir və povestləri oxuyanda əsərlərin Sovet Bakısında hazırlandığına inanmırdılar...”[1009]– deyə bildirib.

Vaqif Səmədoğlu Emin Sabitoğlu ilə birgə yazdığı “Uzaq yaşıl ada” mahnı-şeirini xatırladıb, buradakı “yaşıl” sözünə münasibət ifadə edib: “Bi-

---

[1006] Zəlimxan Yaqub. Əsərləri. 13 clddə. XII cild, Bakı, “Şərq-Qərb”, 2013, s.205
[1007] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.215
[1008] Yenə orada, s.216
[1009] Yenə orada, s.217

ri bunu islam həsrəti ilə bağlayır, o biri Məhəmməd Əmin Rəsulzadə hökumətinin bayrağının rəmzi hesab edirdi. Digəri isə Müsavat və Demokratik Respublika həsrətində olduğunu deyirdi". Şair davam edib: "Mahnı yarananadək ensiklopediyada işləyirdim. Livan və Böyük Britaniya ensiklopediyalarında Azərbaycan dövlətinin indiki üçrəngli bayrağını dəfələrlə görmüşdüm. Bilirdim ki, bayraqda yaşıl rəng var, amma şeir yazanda qətiyyən bu haqda düşünməmişdim"[1010]. Mahnı 2 il efir üzü görməyibdir. Heydər Əliyev mahnıya qulaq asıb və deyibdir: "Lirik şeirdir, məhəbbət mahnısıdır. Mən mahnının sözlərinə və musiqisinə qulaq asmışam. Nə yapışmısınız bu cavan uşaqların yaxasından? Mahnını efirə buraxın"[1011].

Vaqif Səmədoğlu yaıb ki, Ulu öndər 1993-cü ildə mürəkkəb zamanda, separatçı hərəkatlar, daxili intriqalar şəraitində ziyalı ailələrinə üz tutub, insanların qayğısına qalıb. Şair xatırladıb: "Yadımdadır, avqust ayı idi, hələ prezident seçilməmişdi, anama zəng edib dedi: –Xavər xanım, dolanışığınız necədir, başım qarışıqdır, başım açılan kimi hökmən sizinlə görüşəcəyəm"… "Sonra məlum oldu. Bu, H.Əliyevin insana rəhbər – şəxsiyyət qayğısı idi ki, təkcə bizə yox, bütün tanınmışların ailələrinə zəng edib onların güzəranı ilə maraqlanıb"[1012].

Sənətkar Heydər Əliyev yaddaşının xeyirxahlıqla bağlı olan özəlliklərini də yada salıb: "Həqiqətən prezident seçildikdən sonra bir parça çörəyə möhtac qalan ziyalılarımıza – mədəniyyət və incəsənət xadimlərinin ailələrinə kömək etdi. Həmçinin kənd təsərrüfatı, ağır sənaye və iqtisadiyyat sahəsində gecə-gündüz əlləşib əlləri qabar olmuş, Sosialist Əməyi Qəhrəmanı adını almış, ancaq acından ölən insanları da yaddan çıxarmırdı. Heydər Əliyev hər kəsi bir-bir yadında saxlamışdı. Çox güclü və iti hafizə sahibiydi. Onu qəbul etməyən adamlar belə etiraf edirdilər ki, Heydər Əliyev bizə lazımdır"[1013].

Yazı müəllifi Heydər Əliyevin *"avtoritar"* adlandırılmasına etiraz edib, guya o, heç kimi dinləməyib. İfadə edib ki, "şəxsən mənə imkan verirdi ki, 10-15 dəqiqə danışım, adi suallar belə vermirdi. Necə diqqətlə qulaq asırdı! İndi avtoritar deyənə sual vermək lazımdır: bunu özün yoxlamısan?"[1014] "İnsan haqları, ədalətsiz hökmlərlə bağlı birbaşa Heydər Əliyevə müraciət etmişəm. Çox diqqətlə qulaq asır, suallar verir, özünü və məni əmin edəndən sonra deyirdi: – Hə, burada əyintilər olub, məhkəmənin qərarı ədalət-

[1010] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.217
[1011] Yenə orada, s.217
[1012] Yenə orada, s.218
[1013] Yenə orada, s.218
[1014] Yenə orada, s.217-218

sizlikdir... Az keçməmiş, həmin adamları əfv edib həbsxanadan buraxdırırdı. Xəbərim olmadan məni əfv komissiyasına üzv etdi. Qısası Azərbaycana çox lazımlı adam idi..."[1015]

Məqalə müəllifi faktlarla, inandırıcı, səbatlı danışıb, Heydər Əliyevin Avropa Şurasındakı çıxışını xatırladıb. Sirayətedicidir: "Avropa Şurasında bayraq qaldırılan gün çıxışı oldu, sonra Robet Köçaryanla birlikdə mətbuat konfransı keçirdi. Həm onun üçün, həm də bizim üçün çox ağır gün idi. Mətbuat konfransından çıxanda məni çağırdı, son dərəcə də yorğun, bədbin vəziyyətdə əlini çiynimə qoyub dedi: – İndi gördün nələr çəkirəm?.."[1016]

Vaqif Səmədoğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə olan böyük inamının ifadəsi ilə məqaləsini tamamlayıb.

Heydər Əliyev dəyər verdiyi hər bir *ədəbi şəxsiyyətə mənsub olduqları sahənin tarixi kimi* baxıb. Hər birinə! Böyük qiymətdir!

Azərbaycan Respublikasının Ukrayna Respublikasındakı sabiq səfiri, Dövlət mükafatı laureatı, jurnalist-yazıçı *Elmira Axundova* Heydər Əliyevin ilk bioqraflarındandır. O, müxtəlif vaxtlarda dahi şəxsiyyətin siyasi tərcümeyi-halının müəyyən dövrlərini *"Naşirin qətli" (2001), "Həqiqət anları" (2003) və "Şüşə saray"* kitablarında əks etdirib. Müəllif beş il gərgin zəhmət çəkməklə *"Heydər Əliyev. Şəxsiyyət və zaman"* adlı çoxcildlik roman-əsərini qələmə alıb[1017], lentə yazılan yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələrlə, DTK arxivləri və Prezidentin şəxsi arxivi ilə tanış olub, Ulu öndərin dolğun və obyektiv bioqrafiyasını yazıb, bütün bunlar sənədli romanın əsasını təşkil edib.

Kitab 3 cilddən, 4 hissədən ibarətdir. I hissə 1923-1969-cu illəri əhatə edir. I hissə qazax yazıçısı və ictimai-siyasi xadim Oljas Süleymenovun "İki əsrin qəhrəmanı" adlı ön sözü ilə açılıb.

Heydər Əliyev Türkiyənin hərbi hospitalında müalicə olunanda *(2003, 10 may)* böyük insana şəfa diləmiş Elmira Axundova orada Ulu öndərə sənədli roman yazmaq niyyətini bildirib.

---

[1015] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.217

[1016] Yenə orada, s.217

[1017] Elmira Axundova. Şəxsiyyət və zaman, I hissə (1923-1969). Bakı, "Ozan", 2007; II hissə (1969-1982). Bakı, "Ozan", 2007, 784 s.; III hissə (1982-1990). Bakı, "Ozan", 2009, 804 s.; IV hissə (1969-1989). Bakı, "Ozan", 2008, 328 s., V hissə (1990-1993). Bakı, "CBSPolygraphicproduction", 2013, 736 s.; VI hissə, I kitab (1993-2003), Bakı, "CBSPolygraphicproduction", 2013, 480 s.; II kitab (1993-2003), Bakı, "CBSPolygraphicproduction", 2013, 496 s.

Birinci hissə Heydər Əliyevin *"Ömür yolunun başlanğıcı", "Müharibə. Seçim qarşısında", "Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi"* fəsillərini əhatə edib.

1969-1982-ci illəri əhatə edən ikinci hissə[1018] *"Sərt dönüş" (I fəsil), "Başlanğıc" (II fəsil), "Əliyev və onun komandası" (III fəsil), "Birinci katib: gürzlə zindan arasında" (IV fəsil), "Qoy ədalət zəfər çalsın" (V fəsil), "Heydər Əliyev və Leonid Brejnev" (VI fəsil), "Heydər Əliyev və 70-ci illərin xalq təsərrüfatı" (VII fəsil), "Heydər Əliyev və erməni seperatizmi" (VIII fəsil), "Heydər Əliyev və Sovet ordusu" (IX fəsil), "Heydər Əliyev və gənclər siyasəti" (X fəsil), "Əks əlaqə" (XI fəsil), "İran inqilabı və Kreml siyasəti" (XII fəsil), "Qlobal dəyişikliklər" (XIII fəsil), "Qalstuksuz Əliyev" (XIV fəsil), "Lider" (XV fəsil) başlıqları və söz ardından* ibarətdir.

Kitabın III hissəsi 1982-1990-cı illərə aid olub Elmira Axundovanın *ön sözü, "Yeni ümidlər" (I hissə), "Durğunluq" (II hissə), "İki il yarım Qorbaçovun komandasında" (III hissə), "Süqut" (IV hissə) başlıqları və "Bir neçə kəlmə"ni* əhatə edib.

1969-1989-cu illərdən ibarət olan IV hissədə*"Həyat və fəaliyyətinin xronikası"*[1019]*, "Böyük ömrün xronikası" (1969-1982) və "Moskva, Kreml dövrü" (1982-87)* başlıqları verilib.Elmira Axundovanın bu dəyərli kitabı nadir sənədli salnamədir.

Xalq yazıçısı *Elçin Əfəndiyev "Tarixlə üz-üzə dayanmış insan"* məqaləsində[1020] *Heydər Əliyevə qayıdışı xatirələr fonundan* təqdim edib. O, Heydər Əliyevi I katib (1969), özünü isə onun sayəsində qələm sahibi kimi tapdığını (1970-ci illər) rəhbərlə ədəbiyyat arasında vəhdət, mənəvi körpü sayıb. Məqalə müəllifi bildirib ki, *Heydər Əliyev və elmi-tədqiqat, Heydər Əliyev və tarixi məsuliyyət, Heydər Əliyev və şəxsiyyət* problemi həmişə aktual olacaqdır. Elçin *Heydər Əliyev obrazının intensiv iş rejimini* bir nümunə hesab edib, *Heydər Əliyevin fenomen şəxsiyyət olduğunun* fərqinə varıb.

Elçin *Heydər Əliyev nümunəsinin*– Bakıdan (1982) Moskvaya köçünün hisslər aləmini də cizgiləyib: "O, sidq-ürəkdən kövrəlmişdi və bunu heç cür gizlədə bilmirdi və yadıma gəlir, onda mən bir heyrət içində fikirləşirdim ki, insan xisləti, doğrudan da, bir sirri-xudadır: bir tərəfdən o cür Əliyev zəhmi və sərtliyi, hətta, bəzən amansızlığı, bir tərəfdən də belə bir Əliyev kövrəkliyi, belə bir hisslər aləmi, belə bir açıqlıq"[1021].

---

[1018] II hissə. Bakı, 2007, Ozan, 2007, 784 s.
[1019] Bakı: "Ozan", 2008, 328 s.
[1020] Elçin. *Tarixlə üz-üzə dayanmış insan.* Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.207
[1021] Elçin. *Tarixlə üz-üzə dayanmış insan.* Heydər Əliyev mənim həyatımda.

Elçinin yazısı xatirədir, Heydər Əliyevə və onun əhatəsinə münasibətin, daha çox psixoloji kolliziyaların ifadəsidir.

Xalq şairi Vahid Əzizin də yazısı xatirədir. O, 1982-ci ildə Azərbaycan KP MK-nın "Təbliğat və təşviqat" şöbəsində "Milli mətbuat" bölməsinin müdiri olub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında çalışıb. O, Heydər Əliyevi nəinki görmək, onunla ünsiyyətdə olmaq, onun rəhbərliyi altında işləmək, hətta onunla eyni dövrdə, eyni Vətəndə yaşamağın özünü xoşbəxtlik hesab edib. Heç unutmaram,– deyə bildirib: –1982-ci ilin may ayında Sovet İttifaqı Kommunist Partiyasının birinci katibi Leonid İliç Brejnevin Bakıya səfəri gözlənilirdi. Mən o zaman Bakı şəhər Partiya Komitəsində işləyirdim. Elə oldu ki, şəhərin tərtibati məsələləri mənə tapşırıldı. Həmin ərəfədə bir neçə dəfə Heydər Əliyevlə şəxsən görüşdüm, ünsiyyətdə oldum. Şəhərin tərtibat işlərinin necə getməsi ilə bağlı suallar verir, diqqətlə dinləyir və lazımi göstərişlərini verirdi...

Qiymətli kadrları irəli çəkmək, onlara qayğı və etimad göstərmək Heydər Əliyev xarakterinin səciyyəvi xüsusiyyəti olub. Şəhərin tərtibatı məsələləri ilə bağlı gördüyüm işlər Heydər Əliyevin diqqətindən yayınmamışdı. Məhz Heydər Əliyevin şəxsi göstərişi sayəsində mən Mərkəzi Komitəyə işə dəvət olundum. Burada Heydər Əliyevin rəhbərliyi altında işə başladım[1022]...

"Kitabi-Dədə Qorqud"un 1300 illiyinin keçirilməsi, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Rəsul Rza yubileylərinin keçirilməsinin təşkilatçı rəhbəri Heydər Əliyev idi... Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytimatov, böyük qazax şairi Oljas Süleymenov onun heyranları idi... Heydər Əliyev Azərbaycan mədəniyyətinin təşviqatçısı və təbliğatçısı olub[1023]...

*Vahid Əziz* Ə.Vəzirov hakimiyyətə gələndə Heydər Əliyevin qohumu bəhanəsilə o, Mərkəzi Komitədən, işdən uzaqlaşdırılıb. Şair Yazıçılar İttifaqına gəlib. O zaman Birliyin katibi olub. Məmməd Arazın yubiley tədbirini təşkil edib. Sonra Heydər Əliyev Anarı, onu və Yazıçılar Birliyinin rəhbərliyini qəbul edib. Xoş görüş, xoş söhbətlər olub...

---

Bakı, 2005, s.208

[1022] Vahid Əziz. Heydərdən öyrəndim bu ləyaqəti./ "Tariximiz, taleyimiz". Heydər Əliyev –100. İdeya müəllifi və tərtibçi Nəriman Həsənzadə. Bakı, "Yazıçı", 2023, 198 s.; s.177-190

[1023] Vahid Əziz. Heydərdən öyrəndim bu ləyaqəti./ "Tariximiz, taleyimiz". Heydər Əliyev –100. İdeya müəllifi və tərtibçi Nəriman Həsənzadə. Bakı, "Yazıçı", 2023, 198 s.; s.177-190

Görkəmli sənətkar Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı zamanı qardaşı ilə bərabər, onun təbliğatını aparıb. Allahına şükürlər edir ki, o zaman da, indi də Heydər Əliyev şəxsiyyətinin, mövqeyinin ucalığına inanıb[1024]...

Vahid Əziz "Vətənə qayıdanlar" poemasının bir hissəsini, habelə, "Heydərdən öyrəndim bu ləyaqəti" adlı şeirini Ulu öndərə həsr edib.

***İncəsənətdə:*** *Azərbaycanın incəsənət adamları–* bəstəkarlar, müğənnilər, rəssamlar, heykəltaraşlar, kino və teatr xadimləri Heydər Əliyev haqqında xüsusi əsərlər yaradıb, ona sonsuz minnətdarlıq ifadə ediblər. Heydər Əliyev isə ilk növbədə onların mənəvi sərvətlərinə yüksək dəyər verib, ad günlərini, yubileylərini qeyd edib, ünvanlarına təbrik məktubları göndərib, böyüklü-kiçikli istedadların üzə çıxarılması və yetişməsinə kömək eləyib, qayğı göstərib.

Görkəmli bəstəkar, AMEA-nın həqiqi üzvü *Arif Məlikovun* Heydər Əliyev haqqında qiymətli əsəri *"Tarixin əbədi simfoniyası"dır*. Bu da xatirə səpkilidir. Məqalə elit şəxsiyyətin elitar görüşləri haqqındadır. Təəssüratlar, xatirələr isti, səmimi və ibrətlidir. 1960-cı illərdən 2003-cü iləcən olan xatirələrin təfsilatıdır. Məhz xatirə təhkiyəsi Ümumilli liderin obrazının canlandırılmasına xidmət edib.

Görkəmli bəstəkar obrazın cizgilərini Zuğulbadakı pansionatdakı ailəvi istirahət evindən başlayıb: "Heydər Əliyevin bağı da pansionatın yaxınlığında idi. Heydər Əliyev həyat yoldaşı Zərifə xanımla tez-tez pansionata gələrdi. Burada o, istirahət edənlərlə görüşər, maraqlı söhbətlər aparar, açıq kinoteatrda filmlərə baxardı. Həmin illərdə biz tez-tez söhbətləşərdik. O, yaradıcılığımla, "Məhəbbət əfsanəsi"nin çoxsaylı premyeralarından axırıncıları ilə maraqlanardı. Bu görüş və söhbətlər yaddaşıma həkk olunub".[1025]

Arif Məlikov Heydər Əliyev tərəfindən dəfələrlə rəsmi səfərlərə dəvət olunub: Türkiyə, Özbəkistan, Səudiyyə Ərəbistanı, Tailand və başqalarına. Müəllif xatırladıb: Heydər Əliyev respublikanın aparıcı bəstəkarları ilə görüşmək istəyirdi. Bəstəkar bunu niyə xatırladır. Böyük rəhbərin təşkilatçılıq məharətini, sənətə və sənətkara yüksək qiymətini, kübarlığını, milli mədəniyyətin ucalığını, dünyada tanıdılmasını ifadə etmək üçün! Mədəniyyətdə siyasət izlədiyi üçün!

Heydər Əliyev obrazının səciyyəvi xüsusiyyətlərinin bir nişanəsi də: Görüş Zuğulbadakı hökumət bağında keçmişdir. Bütün bəstəkarlar xanımları ilə dəvət olunmuş, hər bir bəstəkarın ardınca minik maşını göndərilmiş, qo-

[1024] Yenə orada

[1025] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.232

naqları Ulu Öndərin özü qarşılamışdır. Görüş məzmunlu alınmış, bol süfrə açılmış, ziyafət axşama qədər davam etmişdir. Masa arxasında Qara Qarayev, Niyazi, Soltan Hacıbəyov, Fikrət Əmirov, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, Tofiq Quliyev, Cahangir Cahangirov, Ramiz Mustafayev və Arif Məlikov... Heydər Əliyev hər bir bəstəkar və onların yaradıcılığı haqqında dəqiq ürək sözü deyirdi... Onları yola salanda: "Qara Qarayevin maşınını verin", "Niyazinin maşınını verin", "S.Hacıbəyovun maşınını verin" və s. Və qonaqların hər biri Heydər Əliyevlə xudahafizləşərək onun üçün ayrılmış maşına minirdi"...[1026]

Arif Məlikov bunu da xatırladıb: "Heydər Əliyev Bolşoy Teatrda "Məhəbbət əfsanəsi"nə baxanda qürur duymağından, bu zaman onunla yanaşı oturan siyasi büro üzvlərinin həmyerlisinin uğuru münasibətilə Əliyevi təbrik etmələrindən danışırdı..."

"*Məhəbbət əfsanəsi*"nin 30 illik yubileyinə hazırlıq imiş. Heydər Əliyev yubiley tamaşası üçün sanballı bir nümayəndə heyəti göndərməyi təklif etmiş, Arif Məlikov onun məhdudlaşdırılmasını xahiş etmiş, amma böyük rəhbər tərkibi olduğu kimi saxlatmışdır. Yubiley tamaşası olmuş, Bolşoy Teatrın direktoru V.Vasilyev və T.Quliyev çıxış etmiş, sonra A.Məlikov hökumət adından Bolşoy Teatra banketə dəvət almış, yüksək razılıq eləmişdir.

Görkəmli bəstəkar Üçüncü Simfoniyasının hikmətindən də danışıb. Bu, Tailand kralının yubileyi şərəfinə ifa edilməli idi. Nümayəndə heyətinə Mənsum İbrahimov, Mövlud Müslümov, Fəxrəddin Dadaşov və Cahangir Səlimxanov daxil edilib. Tailandda görüş başlanıb, əsəri Vyetnam orkestri ifa eləyib, xalq musiqimiz böyük təəssürat doğurub.

Arif Məlikov "*İki qəlbin poeması*" baletindən danışanda Heydər Əliyevin həm marağını, sevincini, həm də onun sənətimizə verdiyi böyük qiyməti, perspektiv imkanları, gələcək arzuları ifadə edib. Heydər Əliyev Özbəkistanda və Rusiyada səhnəyə qoyulan əsərin hazırlanmasını izləyib, "H.Əliyev və Ş.Rəşidov Nəvai adına Daşkənd Opera və Balet Teatrında "İki qəlbin poeması" baletinə baxmışlar".[1027] Bu zaman Arif Məlikov Heydər Əliyevə: – "Əfsanə"yə Siz Moskvada, Leninqradda, "İki qəlbin poeması"na Daşkənddə baxırsınız. Bəs Bakıda bu, nə vaxt olacaq?" "–Bu da olacaq, – deyə Heydər Əliyev bildirmişdir".

Arif Məlikovun bir xatirəsi də güclü maraq doğurur. 1995-ci ildə Ankarada maarifpərvər alim və messenat İhsan Doğramacının şərəfinə Yeddinci

---

[1026] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.234

[1027] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.235

Simfoniya səsləndirilib. Simfoniyanı Bilkənd simfonik orkestri ifa edib. O, premyeradan gətirdiyi qızıl dəfnə budağını Yeddinci simfoniyanın faksimile nəşri ilə birlikdə Ümumilli liderə bağışlayıb. İhsan Doğramacı partituranın birinci səhifəsində yazıb: "Dostum A.Məlikov üçün tikdirdiyim konsert zalı 6,5 milyon dollara başa gəlmişdir"[1028].

1994-cü ildə Heydər Əliyev Arif Məlikovu Səudiyyə Ərəbistanına dəvət edib. Bu dəvətlərdə bir səbəb olub. Bu dəfəki səbəb isə... Arif Məlikov:

"Təbii ki, müqəddəs yerlərdə, Məkkədə, Mədinədə olmaq hər bir müsəlmanın arzusudur. Kəbəni görmək, onun içində olmaq, Hz.Məhəmmədin (s.a.s.) qəbrini ziyarət etmək, müqəddəs qara daşı öpmək, bütün Həcc ayinini icra etmək, Məkkənin əzəmətindən heyranlıq duymaq – bütün bunlar insan şüurunda əbədi iz buraxır"[1029],–demişdir.

Mədinədə Hz.Məhəmmədin (s.a.s.) qəbrini ziyarət etdikdən sonra, 1 milyon zəvvarın eyni vaxtda namazından sonra, yeni tikilmiş məsciddə diz üstə etdikləri dualardan sonra Heydər Əliyevlə Arif Məlikovun bir söhbəti olub. *Söhbətə səbəb nə?* Arif Məlikov deyib: "–Mədinədəki məsciddə biz axşamtərəfi olduq. Birdən nə isə bir xışıltı eşidildi, məscidin çoxtonlu tavanı aralandı və biz sonsuz ulduzlu səmanı seyr edə bildik. Məscidin başqa bir tərəfində sanki yerin tənindən nəhəng bir çiçək bitdi. Birdən bu nəhəng çiçəyin ləçəkləri sallanmağa başladı və gözlərimiz qarşısında qalaktika, milyonlarla sayrışan ulduz peyda oldu. Bu, heyrətamiz bir mənzərə idi və həmin mənzərəni görəndən sonra insan özünün bu əbədiyyətin nə qədər kiçik bir hissəsi olduğunu başa düşür"[1030].

*Söhbətə nəticə nə?* Heydər Əliyev deyib:

"–Bilirsən, səni bu səfərə niyə dəvət etdim? İstədim ki, sən bunları görəsən və böyük bir simfonik əsər yazmaq üçün ilhamlanasan".

*Söhbətdən mühüm, vacib qənaət.* Arif Məlikov düşünüb:

"–Və bu *an* "Əbədiyyət" adlı Səkkizinci Simfoniyanın yazılması üçün başlanğıc nöqtəsi oldu. Heydər Əliyev istəyinin Səudiyyə Ərəbistanında, dünya islamının mərkəzində səsləndirilməsi məni heyrətləndirdi".[1031]

İki böyük şəxsiyyət: Heydər Əliyev də, Arif Məlikov da bir müsəlman olaraq dinimizə etiqadlı, Qurani-Kərimə şəfqətli, müqəddəs məkana səcdəli olaraq özlərinin adiliklərinin dərkində və fərqində olub, düşünüblər: "Bütün dünyada namaz qılan insanlar üzlərini müqəddəs Kəbəyə tuturlar, Kəbənin

---

[1028] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.236
[1029] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.236
[1030] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.236
[1031] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.236

özündə isə üzünü istənilən tərəfə çevirib namaz qıla bilərsən. Bura bütün müsəlmanların nəzərlərinin yönəldiyi əzəl nöqtədir”[1032].

Arif Məlikov təsvir, tərənnüm, təcəssüm planında fakt və mahiyyəti sadaladıqdan sonra mühakimə və məntiqə varıb: *Niyə Heydər Əliyev belə bir əsər – “Əbədiyyət” istəmişdir?* Arif Məlikov düşünüb: “Axı təəccüblüdür ki, İslam dini, Məkkə, Mədinə, Kəbə, Hz.Məhəmmədin (s.a.s.) məzarı, müqəddəs yerlər, Quran – ilk baxışdan bunlar müasir simfonik musiqinin yazılması fikrinin özünə zidd kimi görünür”[1033].

*Fəqət nə etməli?* İnsan insandır, fitrəti və nəfsi ilə hüdudsuzdur, doyumsuzdur. Ömür kəsilən, arzu-istək əbədi... “Heydər Əliyev də qlobal kateqoriyalarla düşünürdü və onun bu simfoniyanı yazmağımı istəməsi də mənə aydındır – o, təklifini kimə ünvanlamalı olduğunu yaxşı bilirdi”,– deyə Arif Məlikov düşünüb.

Məşhur bəstəkar Səudiyyə Ərəbistanından qayıdandan sonra “Əbədiyyət” konsepsiyası üzərində düşünüb, material toplamağa başlayıb, iş çətin və uzunmüddətli olub. Bir neçə il keçib. Əsərin ideyası, təcəssümü gerçəkləşib. Bəstəkar ilk dəfə 1997-ci ildə M.Rastropoviçin şərəfinə keçirilmiş gecədə bəyan edib ki, “Əbədiyyət” simfoniyası Respublika sarayında Heydər Əliyevə ithaf olunacaqdır. Bəstəkarın ali fikri isə əsəri Ulu öndərin 80 illiyinə Flarmoniyada səsləndirmək olub.

Və Heydər Əliyev simfoniyanın taleyi ilə tez-tez maraqlanıb. Fəqət...

Tale başqa cür qərar verib. Həmin vaxt Heydər Əliyev xəstələnib, ABŞ-da müalicədə olub. Əbədiyyətə qovuşması ilə simfoniyanın səsləndirilməsi bir il gecikib. Cənab İlham Əliyevin istəyi ilə simfoniya 2004-cü il mayın 10-da səsləndirilib.

Səkkizinci Simfoniyanın qeyri-adi forması: üç bölmədən ibarətdir. Birinci bölmədə Nazim Hikmətin altı fəlsəfi şeiri musiqiyə alınır. İkinci bölmə bir növ başlanğıcdan zirvəyə doğru yüksəliş olur. Lakin bir orkestr bəs etmədiyindən ikincisi səs yazısı vasitəsilə səsləndirilir, iki orkestr də əlavə olunur... Musiqi zirvə nöqtəsinə çatdırılır və kəskin şəkildə kəsilir. Sükut içindən Almaz İldırımın “Azərbaycan” şeirinə yazılmış musiqi səslənir. “Sonda, simli orkestrin akkordları fonunda royal mövzusu səslənir. Bu bölmə – sakitlikdir, qayığısızlıqdır, əbədiyyətə qovuşmaqdır. Mən istəyirdim ki, simfoniya başa çatandan sonra sükut eşidilsin və dinləyicilər əbədiyyət haqqında düşünsünlər. Konsertdə sükut 27 saniyə davam etdi. Bu sükut

[1032] Azərbaycan və azərbaycanlılar, Bakı, 2013, 274 s., №1-4, s.236
[1033] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.237

gözlədiyimdən iki dəfə çox idi və mən onu da öz musiqim sayıram"[1034],– deyə Arif Məlikov bildirib.

Arif Məlikov yazıb ki, "Səkkizinci Simfoniyanın bu premyerasında Heydər Əliyev iştirak etmirdi, lakin onun ruhu musiqinin özünə də hopmuşdu. Heydər Əliyevin portreti orkestrin başı üzərində yüksəlirdi, oğlu İlham Əliyev isə premyerada iştirak edirdi".[1035]

Nə vaxtsa Heydər Əliyev Arif Məlikova rəssam olduğunu xatırladıb və onlar şəhərdəki hökumət iqamətgahında görüşüb və üç rəmzi olan – nəhəng günəş, üç Kalla (Ağqanad) gülü və burulmuş dəniz balıqqulağı təsvir edilmiş yetərincə böyük əsəri dahi rəhbərə bağışlayıb. Müəllif rəsmin arxa tərəfində yazıb: "Bütün güllər nə vaxtsa solur, mən isə Sizə əbədi güllər bağışlayıram"[1036].

Heydər Əliyev Xalq artisti *Tofiq Quliyevin* 80 illiyi münasibətilə göndərdiyi təbrik məktubunda (7 noyabr 1997) onun estrada sənətinə, yeni musiqi janrlarına, geniş musiqi diapozonuna malik olduğunu nəzərə alaraq bildirib: "Siz musiqi tarixinə Azərbaycan estradasının banisi kimi daxil olmusunuz. X əsrdə yaranmış musiqi formalarından məharətlə istifadə etməklə siz Azərbaycan musiqisinə tamamilə yeni janrlar gətirmisiniz. Geniş diapazona malik yaradıcılığınız sizə minlərlə dinləyicinin tükənməz məhəbbətini qazandırmışdır. Yüksək sənətkarlıqla yaratdığınız mahnılar, operettalar, estrada və kino musiqisi Azərbaycanın musiqi xəzinəsinin qızıl fonduna əbədi daxil olmuş və mədəniyyətimizə geniş şöhrət gətirmişdir"[1037].

Görkəmli musiqiçinin yubiley gecəsindəki çıxışında (19 noyabr 1997) isə bildirib: "Əziz Tofiq!

Mən sənin 80 illik yubileyin münasibətilə sənə təbrik məktubu göndərmişəm, onu da bil ki, mən göndərdiyim və ümumiyyətlə, yazdığım məktubların hamısını əvvəldən axıradək özüm yazıram. Siz də, hamınız da bilirsiniz ki, mənim dediyim sözlərin də hamısı öz beynimdən gələn sözlərdir, heç vaxt əlimdə qələm olmayıbdır. Sənin bu yubileyini belə təntənəli şəkildə keçirməklə biz hamımız borcumuzu yerinə yetirmişik. Bəlkə də, mən buraya qalxmazdım. Ancaq hesab edirəm, sən bu yubileydə mənim haqqımda o qədər sözlər dedin ki, mən buraya gəldim sənə deyəm ki, bu sənin yubileyindir, bu gün sənin günündür.

---

[1034] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.238

[1035] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.238

[1036] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.194

[1037] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar.* 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.234

Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar, şairlər, yazıçılar, alimlər, sərkərdələr, siyasətçilər bəxş etmişdir. Əziz Tofiq, onların sırasında sənin xususi layqli yerin var".

26 dekabr 1997-ci ildə Xalq artisti *Fərhad Bədəlbəylinin* 50 illiyini təbrik edib.

Heydər Əliyev 31 dekabr 1999-cu ildə gənc müğənni *Surxay Əsgərovu* və onun atasını qəbul edib. S.Əsgərov M.Maqomayevin nəzarəti altında Bakı Musiqi Akademiyasında təhsil alıb. Fortepiano ilə solfecio-qarmoniya ilə məşğul olub.

Böyük rəhbər məşhur xanəndə *Xan Şuşinskinin 100 illik yubileyinin* keçirilməsi haqqında 20 iyul 2001-ci il tarixli sərəncam imzalayıb. Sərəncamda deyilirdi: "2001-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, məşhur xanəndə, Xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirovun *(Xan Şuşinskinin)* anadan olmasının 100 ili tamam olur.

Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davaçılarından biri olan Xan Şuşunski müstəsna fitri istedad, geniş diapozonlu, gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətlərini zənginləşdirmiş, bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasında səslənmiş muğam və xalq mahnıları əsil sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir[1038].

Dövlət başçısı 4 fevral 2000-ci ildə Xalq artisti *Polad Bülbüloğluna*, Xalq artisti *Əlibaba Məmmədova* 70 illiyi münasibətilə təbrik məktubu göndərib. 18 oktyabr 2002-ci ildə Xalq artisti *Şövkət Ələkbərovanın 80 illik yubileyi* münasibətilə sərəncam imzalayıb. Heydər Əliyev *Xalq artisti Qədir Rüstəmovu* 60 illiyi münasibətilə 14 fevral 1997-ci il tarixli məktubu ilə təbrik edib.

11 iyun 2003-cü il tarixli Fərmanına əsasən *Oqtay Mirqasımova* "Şöhrət" ordeni verib. Heykəltaraş *Ömər Eldarovun 70 illiyini* (20 dekabr 1997) təbrik edib. Heydər Əliyev 22 iyul 1996-cı ildə Xalq rəssamı *Maral Rəhmanzadəyə* 80 illiyi münasibətilə təbrik məktubu göndərib. 3 avqust 1996-cı ildə yubiley sərgisinin açılışında çıxış edib.

*Rəngkarlıq və qrafikada* Heydər Əliyevin *fərdi obrazını* T. Salahov, H. Əliyev, O.Sadıqzadə, O.İbrahimov, A.Hüseynov, T.Əhmədov, M.İ.Cəfərov,

[1038] Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 1999 –2003. Bakı, "Nurlar", 2008, 536 s.; s.407

İ. Mirzəyev, E.Mikayılzadə, R.Abasov, C.İsmayılov, F.Quliyeva, S. Məmmədov, H. Allahverdiyeva, R. Əliyev, S. Bayramov, H. Nəsiroğlu, H. Sadıqov, Ü.Həmzəyeva, T. Abdinov, G. Mehdizadə, rus rəssami Nikas Safronov, türk rəssamı Tamer Tuğrul və başqaları canlandırıb.

*Yeri gəlmişkən:* Heydər Əliyev Xalq rəssamı *Tahir Salahovun* sənətinə yüksək qiymət verib, onun *dünya sivilizasiyasına, dünya təsviri sənətinin inkişafına* verdiyi töhfələri nəzərdə tutaraq 28 noyabr 1998-ci ildə 70 illiyi münasibətilə ünvanladığı məktubunda bildirib: "Yaradıcılığınızda *insan kainatın ən başlıca, ən böyük dəyəri* kimi həm də ön plandadır. Portretlərinizdə qəhrəmanlarınızın mürəkkəb daxili aləmi ilə yanaşı, müasiri olduqları əsrin cizgiləri mütəfəkkir sənət salnaməçisinin fırçası ilə öz əksini tapmışdır *(M.Ə.Sabir, Dostoyevski, Q.Qarayev, F.Əmirov, R.Rza və s.-red.).*
...Yaratdığınız mənzərə və natürmortlar ətraf mühitlə, təbiətlə təmasdan doğan hədsiz sevinc və nikbinlik duyğularını ifadə edir"[1039]...

"Dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş fərdi sərgiləriniz, məşhur muzeylərdə qorunub saxlanılan əsərləriniz dünya təsviri sənətinin inkişafına xidmət etməklə sizə, eləcə də Azərbaycan rəssamlıq məktəbinə böyük şöhrət gətirmişdir"[1040].

*Dekorativ-tətbiqi sənətdə* K.Əliyev, E. Mikayılzadə, T.Məcidov, M. İbrahimov, S.Məmmədvəliyev, Ə.Elman və başqaları Ulu öndərin canlı obrazını yaradıb[1041]...

*Heykəltaraşlıqda* Ö.Eldarov, A. Rüstəmov, F.Salayev, S.Məmmədov, N.Əliyev, A. Əsgərov, Ş. Şərifov, R. Hüseynov, S. Şerbakov, M. Nogin, Y. Neyman, S. Eylanbekov, C.Dadaşov, N.Məmmədov və başqaları Heydər Əliyevin möhtəşəm obrazını yaradıblar.

Akademik *Ömər Eldarov* "*Sənətin və sənətkarın hamisi*" məqaləsi ilə Ulu öndərə böyük ehtiramını ifadə edib, bildirib ki, Heydər Əliyevin özü gəncliyində rəssam, memar olmaq istəyib, onunla tez-tez cərgi salonlarında rastlaşıb. Ömər Eldarov böyük insanı rəssamların qurultayındakı çıxışında, aldığı "Əməkdar İncəsənət xadimi" (1965) fəxri adında və fərdi sərgilərində xatırlayıb, onun dahi obrazına xatirələr fonunda yanaşıb. Memar 1983-cü ili xüsusi vurğulayıb: "Moskvada görüşdük. Həmin il Azərbaycan Respublikası MK-nin I katibi vəzifəsində çalışan Heydər Əliyev görkəmli dövlət başçısı kimi xidmətlərinə görə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına la-

[1039] s.465
[1040] s.466
[1041] Ərtəgin Salamzadə, X.Zeynalov. Təsviri sənətdə Heydər Əliyev obrazı. Bakı, 2019, 296 s.

yiq görülmüşdü. Bu fəxri adın əsasnaməsinə görə iki dəfə “Sosialist Əməyi Qəhrəmanı” adı alana vətənində xüsusi qaydalara uyğun standart formada büst qoyulmalı idi. Rusiyada Heydər Əliyevin yaxından tanıdığı bir çox görkəmli heykəltaraşın olmasına baxmayaraq, Moskvadakı görüşümüz zamanı o, bu işin yerinə yetirilməsini mənə həvalə etdi”[1042]. Ulu öndər dəfələrlə Ömər Eldarovun Moskvadakı emalatxanasına gəlib onun naturadan işləməsinə imkan yaradıb, variantlar hazırlanıb, nəhayət, Naxçıvanda son variant nəzərə alınıb, memar Rasim Əliyevlə birlikdə Heydər Əliyevin abidəsi ucaldılıb, onun ilk heykəl-portreti yaradılıb.

1985-ci ildə Ömər Eldarov Ümumilli liderin həyat yoldaşı Zərifə xanım Əliyevanın məzarüstü abidəsini də hazırlayıb. O, yüzlərlə şəklin içərisindən biri üzərində xüsusi dayanıb, onun əsasında mərmərdən yox, uzunömürlü olsun deyə tuncdan Zərifə xanımın abidəsini yaradıb. Heydər Əliyev hər gün gəlib işlə maraqlanıb, ömür yoldaşının daxili aləmi, onun zahiri siması dolğun əks etdirilsin deyə memarla saatlarla söhbət aparıb, həyat yoldaşını hörmət və məhəbbətlə xatırlayıb, nəhayət, eskiz əsasında işə başlanılıb. Abidə 8 il emalatxanada qorunub, nəhayət, Heydər Əliyev Bakıya qayıtdıqdan sonra emalatxanaya gəlib, heykəlin qarşısında xəyallara dalıb... 1994-cü ildə Zərifə xanımın Moskvadan gətirilən cənazəsi vətəndə son mənzilə tapşırılıb, 1997-ci ildə Bakıda Fəxri Xiyabanda qəbirüstü abidəsi ucaldılıb.

H.Əliyev nitqlərinin birində deyib: “Azərbaycan ***teatr xadimləri*** bütün mütərəqqi fikirli ziyalılarla birlikdə həmişə milli azadlıq hərəkatımızın ön cərgəsində getmiş, xalqın ağır günlərində ona mənəvi dayaq olmuşdur”[1043]. ”İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır”[1044]. Bu mənada ayrı-ayrı ədəbiyyat və incəsənət xadimləri haqqında Ulu öndərin məktub və sərəncamları, habelə, tədbir və yığıncaqları önəmli mənəvi dəyərlərdən olub. O, 20 aprel 1997-ci ildə *Xalq artisti Nəsibə Zeynalovanı* – 80 illiyi münasibətilə təbrik edib. Xalq artisti haqqında deyib: “Siz milli teatrımızın inkişafında böyük xidmətləri ilə seçilən nadir sənətkarlardansınız. Azərbaycanda aktyorluq sənətinin zəngin ənənələrini ləyaqətlə davam etdirən, teatr mədəniyyətimizdə yeni bir mərhələ olan yaradıcılığınız, səhnədə və kinoda bizə bəxş etdiyiniz rəngarəng, parlaq obrazlar Azərbaycanın komediya, teatr tarixinə əbədi daxil olmuşdur”[1045].

---

[1042] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, 274 s., №1-4, s.195

[1043] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993–1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.;128-140

[1044] Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993–1998 oktyabr. I kitab. Bakı, Heydər Əliyev Fondu, 2008, 399 s.;128-140

[1045] Heydər Əliyev və mədəniyyət. *Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər,*

Ölkə rəhbəri 19 aprel 2001-ci ildə Xalq artisti *Nəsibə Zeynalovanı* 85 illiyi münasibətilə təbrik edib.

H. Əliyev 7 avqust 1998-ci il tarixdə 50 illiyi münasibətilə Xalq artisti *Rasim Balayevə,* 7 yanvar 1999-cu il tarixdə Xalq artisti *Leyla Bədirbəyliyə* təbrik məktubu göndərib...

*Beləliklə,* Ulu öndərin yekun qənaəti belədir ki, insanlara ədəbiyyat və mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni onların mənəviyyat, əxlaq, tərbiyə və fikrinin formalaşmasına güclü təsir göstərən başqa vasitə yoxdur.

Ümummilli lider Heydər Əliyev millətimiz və bəşəriyyət üçün həmişə bu gün və gələcək zaman deməkdir. Onun *siyasi məktəbi və mədəniyyət siyasəti* daim öyrənmək və öyrətmək mənbəyi olaraq qalacaqdır.

---

*məlumatlar*. 3 cilddə, II cild, "Nurlar", Bakı, 2008, 520 s., s.69

## Son söz

Ümummilli lider Heydər Əliyev haqqında dünyanın siyasət, diplomatiya, elm və mədəniyyət xadimləri, habelə, türk-müsəlman aləminin görkəmli nümayəndələri tarixi fikirlər söyləyib, qiymətli məqalələr, kitablar yazıb, Ulu öndərə hörmət və ehtiramını ifadə ediblər.

Nə qədər ki, cahanşümul şəxsiyyət Heydər Əliyevin siyasi-mədəni irsi yaşayır, o qədər Ümumilli liderin nadir mənəvi irsinə müraciət olunacaq, haqqında cild-cild kitablar yazılacaq və onun əziz ruhu minnətdarlıqla yad ediləcəkdir.

Tarixi şəxsiyyətlər və dühalar dünyadan getmirlər, onların böyük əməlləri tarix və millətlər qarşısında nümunə məktəbi olaraq qalır və qalib gəlir. Dünya sivilizasiyasında elit şəxsiyyət olan Heydər Əlirza oğlu Əliyev məhz belə olmuş, həmişə də belə olacaqdır. Heydər Əliyev irsinin varisləri onun parlaq zəkasına, böyük tarixi sözünə daim ehtiyaclı olmuş, ehtiyaclı da qalacaqdır. Ruhu şad olsun Ulu öndərin, siyasi mütəfəkkirin, sivilizasiyalı şəxsiyyətin!

Heydər Əliyev varisliyinin mötəbər siyasi qarantı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev hazırda Azərbaycan dövlətini dünyanın sivil ölkələri sırasına çıxarmaqda, tarixi uğurlar qazanmaqda və ölkəmizi qalibiyyətlə gələcəyə aparmaq əzmində və əzəmətində olan dünyəvi dövlət xadimi, siyasi qurucu lider və siyasi milli şəxsiyyətdir.

Bu kitab Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi şərəfinə yazılmış milli və bəşəri olan elmi-publisistik şərh-informasiya, təsvir və təqdimatdır. Bu kitab hissi və məntiqi idrakın – duyğu, qavrayış, təsəvvür və anlayış, mühakimə, əqli nəticənin birliyi olan elmi-ədəbi mətndir. Bu kitab ahəng və intonasiyasına görə simmetrik, fikir və düşüncə harmoniyasına görə sinkretik, cümlə-sintaqm sırası, dil və üslub xüsusiyyətlərinə görə aydın və konkret, informasiya sıxlığı və səmimiyyətinə görə universallıq və kütləvilik ifadə edir.

Kitaba qədər müəllif "XX əsr ədəbi-nəzəri fikrində milli ideal və xalq taleyi" problemi üzrə elmlər doktorluğu dissertasiyası müdafiə edib (2011), "Xəlil Rza Ulutürk (həyatı, fəaliyyəti, sənəti, /2015/)", "Bəxtiyar Vahabzadə (həyatı, mühiti, yaradıcılığı) monoqrafiyalarını nəşr etdirib. "Məmməd Araz /həyatı, mühiti, yaradıcılığı/" monoqrafiyası üzərində işini davam etdirir.

Ə.Əsgərli iki cildlik "Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala" (2018, 2019), "Azərbaycan ədəbiyyatında vətənçilik və

dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə" (2023) monoqrqafiyalarının müəlliflərindən biridir.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 22 iyun 2023-cü il tarixli 4 saylı iclasının qərarı ilə "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" adlı monoqrafiyanın çapı tövsiyə edilib.

Kitabın hazırlanması zamanı AMEA-nın Milli Kitabxanası, onun "Heydər Əliyev və dövlət quruculuğu" şöbəsi, habelə, Heydər Əliyev Fondu, Milli Dövlət Kitabxanası və Prezident Kitabxanasının imkanlarından geniş istifadə olunubdur. Göstərilən bütün diqqət və qayğıya görə müəssisə rəhbərlərinə, şöbə müdirləri və əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.

*Ümumən,* hesab edirik ki, bu elmi-informativ kitab tədqiqat müəssisələri, orta və ali məktəblər, siyasi dərslər və lektoriyalar üçün əhəmiyyətli vəsait, dəyərli salnamədir. Heydər Əliyev dərsləri üçün fənn-tədris proqramıdır.

## Xülasə

"HEYDƏR ƏLİYEV: dünya sivilizasiyasında elit şəxsiyyət" adlı kitab Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib.

Dünyanın dövlət və siyasi-ictimai xadimləri onun haqqında qiymətli fikirlər söyləyib. Heydər Əliyev dünya sivilizasiyasında elit şəxsiyyət kimi tarixi ad qazanıb.

Monoqrafiyanın *birinci fəslində* dünyanın tarixi şəxsiyyətlərinin siyasət və diplomatiya, iqtisadiyyat və ideologiya sahəsində Ulu öndərin Liderlik missiyasına verdikləri bəşəri qiymət səciyyələndirilib.

Kitabın *ikinci fəslində* siyasət, diplomatiya, iqtisadiyyat, ideologiya və mədəniyyət sahəsində Ümummilli liderin Azərbaycanda qovuşan Şərq və Qərb sivilizasiyalarına verdiyi töhfələr qiymətləndirilib.

Tədqiqatın *üçüncü fəsli* Türk dünyana: sivilizasiyaların siyasət və diplomatiya, iqtisadiyyat, ideologiya və mədəniyyət sahəsində dialoquna həsr edilib. Bu fəsildə Heydər Əliyev və türkçülük, Heydər Əliyev və Türkiyə bölmələrinə də xüsusi yer ayrılıb.

*Dördüncü fəsildə* mədəniyyət siyasətinin milli və bəşəri məzmunu ideologiya və mədəniyyət məcralarında öyrənilib.

Kitabın *beşinci fəslində* Heydər Əliyevin fenomen şəxsiyyəti Azərbaycanın elmi-filoloji və bədii-ictimai fikri səviyyəsindən dəyərləndirilib. Milli sivilizasiyamız siyasət, diplomatiya, ideologiya, ədəbiyyat və incəsənət sahəsində izlənilib.

## Summary

The book "HEYDAR ALIYEV: an elite personality in the world civilization" is dedicated to the 100th anniversary of the birth of Heydar Aliyev Alirza oghlu, the National Leader of the Azerbaijani nation, an outstanding statesman.

State and political-social figures of the world have expressed valuable opinions about him. Heydar Aliyev has gained a historical name as an elite personality in world civilization.

In the first chapter of the monograph, the human assessment of the Leadership mission of the Great Leader in the field of politics and diplomacy, economy, ideology was characterized.

In the second chapter of the book, the contributions of the National Leader to the Eastern and Western civilizations interflowing in Azerbaijan in the field of politics, diplomacy, economy, ideology and culture were evaluated.

The third chapter of the study is dedicated to the Turkic world: the dialogue of civilizations in the field of politics and diplomacy, economy, ideology, and culture. A special place is also given to the sections “Heydar Aliyev and Turkism”, “Heydar Aliyev and Turkey” in this chapter.

In the fourth chapter, the national and human content of the cultural policy was studied in terms of ideology and culture.

In the fifth chapter of the book, the phenomenal personality of Heydar Aliyev is evaluated from the scientific-philological and artistic-social view level of Azerbaijan. Our national civilization has been studied in the field of politics, diplomacy, ideology, literature and art.

## Резюме

Книга «ГЕЙДАР АЛИЕВ: элитная личность мировой цивилизации» посвящена 100-летию со дня рождения Гейдара Алиева Алирза оглу, Общенационального Лидера Азербайджанского народа, выдающегося государственного деятеля.

О нем высказали ценные мнения государственные и политико-общественные деятели мира. Гейдар Алиев заслужил историческое имя элитной личности мировой цивилизации.

В первой главе монографии охарактеризована человеческая оценка Лидерской миссии Великого Вождя в области политики и дипломатии, экономики, идеологии.

Во второй главе книги оценен вклад Национального лидера в восточные и западные цивилизации сходящиеся в Азербайджане в области политики, дипломатии, экономики, идеологии и культуры.

Третья глава исследования посвящена тюркскому миру: диалогу цивилизаций в сфере политики и дипломатии, экономики, идеологии и культуры. Особое место в этой главе отведено также разделам «Гейдар Алиев и тюркизм», «Гейдар Алиев и Турция».

В четвертой главе исследовано национально-человеческое содержание культурной политики с точки зрения идеологии и культуры.

В пятой главе книги феноменальная личность Гейдара Алиева оценивается с научно-филологического и художественно-общественного уровня Азербайджана. Наша национальная цивилизация изучена в области политики, дипломатии, идеологии, литературы и искусства.

# BƏLƏDÇİ

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**..............................7

***Ön söz.*** İ. Həbibbəyli. *Heydər Əliyevin dövlətçilik təlimi və müasir dünya*..........................................................................10
***Giriş***..........................................................................................20

***Birinci fəsil***

**Liderlik missiyası: şəxsiyyət, dövlət və cəmiyyət**

*Liderlik missiyası: siyasət və diplomatiyada*.............................................23
*iqtisadiyyatda*.............................................71
*ideologiyada*...............................................78

***İkinci fəsil***

**Azərbaycanda qovuşan Şərq və Qərb sivilizasiyaları**

*Şərq və Qərb sivilizasiyaları: siyasət və diplomatiyada*..........................132
*iqtisadiyyatda*...........................................165
*ideologiyada*.............................................196
*mədəniyyətdə*...........................................206

***Üçüncü fəsil***

**Türk dünyası: sivilizasiyaların dialoqu**

*Sivilizasiyaların dialoqu: siyasət və diplomatiyada*................................217
*Heydər Əliyev və Türkçülük*....................217
*Heydər Əliyev və Türkiyə*........................244
*ideologiyada*...........................................260

***Dördüncü fəsil***

**Mədəniyyət siyasəti: sivilizasiyaların milliliyi və bəşəriliyi**

*Mədəniyyət siyasətinin milli və bəşəri məzmunu:*
*ideologiyada*..........................................268
*mədəniyyətdə*........................................310

***Beşinci fəsil***

**Heydər Əliyevin fenomen şəxsiyyəti**
**Azərbaycanın elmi-filoloji, bədii-ictimai fikrində**

*Milli elmi sivilizasiyamız: siyasət və diplomatiyada*.................................319
*Milli ictimai sivilizasiyamız: ideologiyada*..............................................351
*ədəbiyyat və incəsənətdə*.............................385
**Son söz** ..........................................................................................445

***Xülasə***..................................................................................................447
***Summary***..............................................................................................448
***Резюме***.................................................................................................449

**Özkeçmişim**..........................................................................................452



# ÖZKEÇMİŞİM

## Əlizadə Bayram oğlu Əsgərli

*Əlizadə Bayram oğlu Əsgərli* – 8 may 1958-ci ildə Azərbaycan Respublikası Sabirabad bölgəsinin Cavad kəndində dünyaya gəlib. 1976-1980-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində, 1983-1986-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aspiranturasında təhsil alıb.

1980-1997-ci illərdə Sabirabad bölgəsinin Yolçubəyli, Cavad, Suqovuşan və Nizami Gəncəvi adına şəhər orta məktəblərində ixtisası üzrə müəllim və direktor müavini işləyib.

1998-2000-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Milli Münasibətlər İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb.

2000-2002-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Milli Münasibətlər İnstitutunun elmi katibi olub.

2002-ci ildə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda aparıcı elmi işçi vəzifəsində işləyib.

2002-2012-ci illərdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışıb.

2012-2017-ci illərdə həmin İnstitutda baş elmi işçi vəzifəsini tutub.

2017-2021-ci illərdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini olub.

2021-ci ildən baş direktorun müşaviri vəzifəsində çalışır.

Əlizadə Əsgərli on cilddə Azərbaycan ədəbiyyatı tarixinin birinci, beşinci, altıncı və yeddinci cildlərinin redaksiya heyəti, doqquzuncu cildin redaksiya şurasının üzvü olub.

Filologiya elmləri üzrə Müdafiə Şurası nəzdində Elmi Seminarın sədri olub. Müdafiə Şurasının üzvüdür.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının sədr müavini olub.

Kadrların hazırlanması sahəsində xidməti vardır. Hazırda beş doktorantın dissertasiya işinə rəhbərlik edir.

Ə.Əsgərlinin 1987-ci ildə "Xəlqilik meyarı ilə" adlı ilk elmi məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilib.

Ədəbiyyatşünas-alim 1987-ci ildə "Osman Sarıvəllinin poetikası" mövzusunda namizədlik (fəlsəfə doktorluğu), 2011-cu ildə "XX əsr Azərbaycan ədəbi-nəzəri fikrində milli ideal və xalq taleyi problemi (Xəlil Rza Ulutürkün yaradıcılığı əsasında)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Filologiya elmləri doktorudur.

Əlizadə Əsgərli XX əsr Azərbaycan ədəbiyyatının aktual problemləri: tarixi və poetikası ilə ardıcıl məşğul olur. O, 1995-ci ildən Azərbaycan ədəbiyyatının milli-ideoloji məsələləri, türkçülük, azərbaycançılıq və istiqlalçılıq məfkurəsinin elmi-nəzəri əsaslarına dair araşdırmalar aparır. İki cilddən ibarət "Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala" (Bakı, "Elm və təhsil", 2018; 2019) və bir cildlik "Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə" (Bakı, "Elm və təhsil", 2023) adlı kitabların müəlliflərindən biri, habelə, "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" monoqrafiyasının müəllifidir.

Ə.Əsgərli Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Araz ədəbi irsinin tədqiqatçısıdır. Eyni zamanda, Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad, Cəfər Cabbarlı, Səməd Vurğun, Osman Sarıvəlli, Mikayıl Müşfiq, Əkrəm Cəfər, İlyas Əfəndiyev, Bəkir Nəbiyev, Mir Cəlal Paşayev,Yaşar Qarayev, Söhrab Tahir, Nəbi Xəzri, Nəriman Həsənzadə, Cabir Novruz və başqaları haqqında elmi məqalələr yazıb.

Alim ədəbiyyat nəzəriyyəsi və poetika sahəsində ədəbi metod, ədəbi məktəb, cərəyanlar və üslublar, heca vəzni, əruz vəzni, sərbəst şeir və ədəbi janrlar, bədii təsvir və ifadə vasitələri, habelə, ahəng və intonasiyaya aid araşdırmalar aparıb.

Ə.Əsgərli 200-ə yaxın elmi-nəzəri məqalənin müəllifidir. Əsərləri Türkiyə, Rusiya, Gürcüstan, Özbəkistan və digər xarici ölkələrdə nəşr olunub. O, 2015-ci ildə AMEA-nın Humanitar elmlər bölməsinin Fəxri Fərmanına, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının qərarı ilə "İlin alimi", habelə, AYB-nin "Rəsul Rza" mükafatlarına layiq görülüb.

Əlizadə müəllim 1980-ci ildən pedaqoji fəaliyyətlə məşğul olur. 1998-ci ildən ali məktəb sistemində çalışır. Bakı Qızlar Universitetində müəllim, 1999-2007-ci illərdə Azərbaycan ədəbiyyatı və jurnalistika kafedrasının müdiri vəzifəsində çalışıb. 2007-2013-cü illərdə Bakı Qızlar Universitetinin elmi işlər üzrə prorektoru olub.

2014-2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutu və Azərbaycan Dövlət Pedaqoji Universitetində işləyib.

2016-ci ildən Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında çalışır. Elmi Şuranın qərarı ilə "Əkrəm Cəfər" kitabını, "Fərdi üslubun poeziyası" monoqrafiyasını, "Ədəbiyyatşünaslığa giriş", "Ədəbiyyatşünaslığın tarixi və metodologiyası" adlı proqramlarını çap etdirib.

1998-ci ildən respublikanın ali məktəblərində bakalavr və magistrlərə Azərbaycan ədəbiyyatı tarixi, tənqid və nəzəriyyəsinə dair mühazirələr oxuyur. 16 fənn proqramı və 2 dərs vəsaitinin müəllifidir. O, elmi-pedaqoji fəaliyyətinə görə 2002-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanına layiq görülüb.

Ə.Əsgərli 1980-ci illərdən publisistika ilə məşğuldur. Respublikanın dövri mətbuatında ictimai-siyasi və ədəbi məqalələri ilə çıxış edir. O, 1991-1995-ci illərdə "Demokrat" və "Yurd" qəzetlərinin təsisçisi və baş redaktoru olub. 2008-2014-cü illərdə Bakı Qızlar Universitetinin "Elmi əsərlər" jurnalının baş redaktor müavini kimi fəaliyyət göstərib. 2019-cu ildən AMEA Rəyasət Heyətinin orqanı "Filologiya və sənətşünaslıq" jurnalı baş redaktorunun müavini, "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalı redaksiya heyətinin üzvüdür. "Molla Nəsrəddin", "Mirzə Fətəli Axundzadə" ensiklopediyaları redaksiya heyətinin üzvüdür. "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyası, "Ədəbiyyatşünaslıq ensiklopediyası"nın məsul redaktorudur. Azərbaycan Milli Ensiklopediyasında bioqrafiyası verilib.

Əlizadə Əsgərli tərtibçi və redaktor kimi də fəaliyyət göstərir. O, akademik İsa Həbibbəylinin 10 cilddə "Əsərləri"nin (2019-cu ildən) tərtibçilərindəndir. Həmçinin Xəlil Rza Ulutürkün "Mənə bənzə" (2000), "Seçilmiş əsərlər" (2001), "İsgəndərnamə" /N.Gəncəvidən tərcümə/ (2003), "Mən onsuz da əbədiyəm" (2003), "Ədəbi tənqid" (2003), "Müasirləri Xəlil Rza Ulutürk haqqında" (2004), "Gəl, ey səhər" (2004), "Ustadım Əkrəm Cəfər" (2005, 2018), X.R.Ulutürkün "Seçilmiş əsərləri": 2 cilddə, I və II cildlər (2005), "Turan çələngi" (2005), "Lefertovo zindanında" (2006), X.R.Ulutürkün "Seçilmiş əsərləri": 5 cilddə, I cild (2007), II cild (2009), III cild (2014), "Bir odlu gözləri, bir də xoş səsi"/S. Vurğun haqqında/ (2007), "Eşqim, vəfadarım mənim" (2007, 2013), "Həyat, həyat deyə çırpınan könül"/M. Müşfiq haqqında/ (2009), "Mənim Tanrım gözəllikdir" /H.Cavid haqqında/ (2009), "Söhrab Tahir Azər-Azər haqqında" (2009), "Dünyaya pəncərə" (2010), Nizami Gəncəvinin "Lirika, "Sirlər xəzinəsi", "Yeddi gözəl" (2011), "Şeir və poemalar" (2012), "Yaşasın od yurdu, qardaş Türkiyə" (2013), "Hara gedir bu dünya..." (2013), "Məndən başlanır Vətən" (2014), "Məqsud Şeyxzadə və "Azərbaycan dəftəri" (2014), "Ayla günəş arasında" /şeirlər və poemalar/ (2014), "Doğmalıq və ucalıq" (2015), "Yeni

zirvələrə" (2015) adlı kitablarına ön söz və şərhlər yazıb, elmi redaktorluq edib. Dövlət Sərəncamları ilə Xəlil Rza Ulutürkün 2 və 5 cildlik seçilmiş əsərlərini nəşrə hazırlayıb.

Ə.Əsgərli "Azərbaycan" qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1945–1946-cı illər, Təbriz)" nəşrlərinin (2022, 2024) redaktorudur.

Ə.Əsgərli "Kökün və sözün yaddaşı" (2002), "Osman Sarıvəllinin poetikası" (2005), "Milli ideal mücahidi" (2005), "Xəlil Rza Ulutürkün poetikası" (2009; 2012), "Bir nəsrin poetikası" (2013), "XX əsr Azərbaycan şeirinin poetikası" (2014), "Xəlil Rza Ulutürk /həyatı, fəaliyyəti, sənəti/" (2015), "Fərdi üslubun poeziyası" (2017), "Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi" (2020), "Bəxtiyar Vahabzadə /həyatı, mühiti, yaradıcılığı/" (2022), "Fərdi üslubun poetikası" (2023) və "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" (2023) adlı kitabların müəllifidir.

Əlizadə Əsgərli 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Ailəlidir. Üç övladı var.

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 12.02.2024
Şərti çap vərəqi 28,5. Sifariş № 25
Kağız formatı 70x100 1/16. Tiraj 500

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4